MƏCİD ƏFƏNDİYEV
SƏADƏT MƏCİD qızı

4507

# ŞƏXSİYYƏT – MƏDƏNİYYƏT SİSTEMİ. SOSİAL FƏLSƏFİ TƏHLİL

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI-ELM-2008

**Elmi redaktoru:** **fəlsəfə elmləri doktoru, professor Həmid İmanov**

**Rəyçilər:** **fəlsəfə elmləri doktoru, professor Nurqələm Mikayılov**
**fəlsəfə elmləri doktoru, professor Zeynəddin Hacıyev**

Məcid Əfəndiyev, Səadət Məcid qızı. ŞƏXSİYYƏT-MƏDƏNİYYƏT SİSTEMİ. SOSİAL FƏLSƏFİ TƏHLİL.
BAKI – ELM - 2008. 384s.

*İSBN 5 - 8066 - 1773- 4*

Oxuculara təqdim etdiyimiz «Şəxsiyyət-mədəniyyət sistemi» adlanan monoqrafiyada şəxsiyyət və mədəniyyət anlayışlarının mahiyyəti, məzmunu, strukturu və bir-birini şərtləndirməsi qanunauyğunluğu təhlil olunur, eləcə də sivilizasiya anlayışının açıqlanmasına cəhd edilir. Cəmiyyətin həyat fəaliyyəti sferalarında şəxsiyyətin roluna və funksiyalarına xüsusi diqqət yetirilir.

Monoqrafiyada həmçinin şəxsiyyət və mədəniyyət fenomenlərinin məzmununa aid müasir fəlsəfi fikirdə əhəmiyyətli yer tutan konsepsiyaların müqayisəli təhlilinə səy göstərilir.

Monoqrafiya filosoflar, sosioloqlar, politoqlar, psixoloqlar və ümumiyyətlə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Monoqrafiyanın I, II fəsillərini Səadət Məcid qızı, III, IV, V fəsillərini isə Məcid Əfəndiyev yazmışdır.

$\frac{0301000000}{655(07)-2008}$

© *Elm, 2008.*

# MÜNDƏRİCAT

Ön söz ........ 3

**I FƏSİL. Şəxsiyyət mədəniyyət sisteminin universal komponentidir.** ........ 16
1.1. Mədəniyyət anlayışı: mahiyyəti, məzmunu, strukturu ........ 16
1.2. Mədəniyyətlə sivilizasiyanın nisbəti ........ 37
1.3. Şəxsiyyət bütövlük kəsb edən sosial fenomendir ........ 52
1.4. Şəxsiyyət mədəniyyət sisteminin mənəvi ölçüsüdür ........ 86

**II FƏSİL. Mədəniyyət şəxsiyyətin mövcudluğunun meyarıdır** ........ 119
2.1. Mədəniyyət şəxsiyyətin fəaliyyətinin üsulu və nəticəsidir. ........ 119
2.2. Mədəniyyət şəxsiyyətin özünü reallaşdırması sferasıdır ........ 151
2.3. Şəxsiyyət mənəvi-sivil fəaliyyət prosesinin subyektidir ........ 179

**III FƏSİL. Mənəvi sima şəxsiyyətin fundamental xarakteristikasıdır** ........ 212
3.1. Şəxsiyyətin mənəvi simasının ümumi səciyyəsi ........ 212
3.2. Ünsiyyət mədəniyyəti mənəvi simanın spesifik təzahürüdür ........ 230
3.3. Estetik aləm şəxsiyyətin mənəvi simasının cövhəridir ........ 237

3.4. Təfəkkür mədəniyyəti və mənəvi sima ............ 246

**IV FƏSİL. Şəxsiyyət siyasi mədəniyyət sferasında** ...... 255
4.1. Siyasi mədəniyyətin məzmunu və funksiyaları ............ 255
4.2. Şəxsiyyətin siyasi fəaliyyəti siyasi mədəniyyətin sərvət yönümüdür ............ 278
4.3. Şəxsiyyətin siyasi sosiallaşması ............ 294

**V FƏSİL. Şəxsiyyət siyasət aləmində** ............ 310
5.1. Siyasət cəmiyyətin spesifik yarımsistemidir ..... 310
5.2. Şəxsiyyətin hüquqi-siyasi statusu ............ 329
5.3. Şəxsiyyət siyasətin başlıca subyektidir ............ 339
5.4. Şəxsiyyətin əxlaqi mədəniyyətinin siyasətdə təzahürü ............ 352

**ƏDƏBİYYAT SİYAHISI** ............ 373



## ÖN SÖZ

***Əsl şəxsiyyət o insandır ki, öz yaradıcı fəaliyyəti ilə bütün həyatını xalqının maariflənməsinə həsr edir. Belə şəxsiyyətlər xalqın sərvətidir, milli mənəviyyatın cövhəridir.***
**Məcid Əfəndiyev**

Antik dövrün müdriklərindən biri demişdir ki, insan üçün insanın özündən maraqlı obyekt yoxdur. Protaqor insanı mövcud olan bütün şeylərin ölçüsü adlandırırdı. Təsadüfü deyil ki, qədim dövrdən bu günə qədər insan-şəxsiyyət problemi dünya fəlsəfi fikrində ən başlıca problemlərdən biridir.

İnsan nəinki cəmiyyətdə, eləcə də mədəniyyətdə mövcuddur. Varlığın spesifik forması olmaq etibarilə mədəniyyətin təşəkkülü, mövcudluğu və dəyişikliyə məruz qalması insanla bağlıdır, onun fəaliyyəti ilə şərtlənir. Mədəniyyətin fəaliyyətini müəyyənləşdirən mühüm amil və onun daşıyıcısı məhz şəxsiyyətdir.

Şəxsiyyətin davranışında və daxili aləmində təzahür edən adətlər, normalar, dəyərlər mədəniyyətin tərkibini təşkil edir. Fərdiyyələşmə bu və ya digər dərəcədə hər bir mədəniyyətdə mövcuddur. Buna görə şəxsiyyətin tarixi tipləri mədəniyyət sferasında mövcud cəmiyyətə aid başlıca normaların və dəyərlərin daşıyıcısı kimi nəzərdən keçirilir.

Hər bir mədəniyyət bu və ya digər ictimai quruluş şəxsiyyəti özünəməxsus şəkildə formalaşdırır əlbəttə, ona

normativ xarakterli müxtəlif mədəniyyət və mədəniyyətlər qrupları çərçivəsində yol verilə bilən cəhətlər təlqin etməklə. Ayrı-ayrı mədəniyyət mühitlərində fərdiyyələşmə dərəcəsi xeyli fərqlənir. Heç də bütün cəmiyyətlərdə inkişaf etmiş şəxsiyyət ideyası irəli sürülmür. Lakin bu və ya digər dərəcədə öz daxili qüvvəsinə əsaslanan, ictimai münasibətlərin müstəqil subyekti kimi səciyyələnən şəxsiyyət ideyası hər bir inkişaf etmiş mədəniyyətdə mövcuddur.

Şəxsiyyət mədəniyyət sisteminin mahiyyətini və əhəmiyyətini düzgün başa düşmək, onun tədqiqinin aktuallığını dərindən dərk etmək üçün yadda saxlamaq lazımdır ki, bütövlükdə mədəniyyət elmi-fəlsəfi nöqteyi-nəzərdən dəyişdirici fəaliyyətin bütün növlərinin məcmuu aspektində təhlil olunmalıdır. Çünki insan məhz, həmin fəaliyyət sayəsində mənəvi sərvətləri (eləcə də maddi nemətləri) yaradır, qoruyub saxlayır və sonrakı nəsillərə bəxş edir. Şəxsiyyət və mədəniyyət tamamilə özünəməxsus, xüsusi hadisələrdir. Onlar son dərəcə mürəkkəb, çoxməntiqli olmaq etibarilə ictimai həyatın bütün sferalarına nüfuz edir. Həmin sosial sistemlər sanki ictimai orqanizmin bütün hissələrinə sızır. Bu mənada mədəniyyət sistemində şəxsiyyətin durumu, mədəniyyətin, sivilizasiyanın inkişaf yolları, mədəni-tarixi prosesin istiqaməti fəlsəfənin köklü problemlərindəndir. Mövcud problemin aktuallığı hazırda qlobal ekoloji böhran təhlükəsi, yer üzündə silahlı münaqişələrin mövcudluğu, totalitar ideologiyanın iflası, eləcə də mədəniyyətin müasir inteqrasiyası prosesi ilə bağlıdır. Heç də təsadüfi deyil ki, alimləri, xüsusilə filosofları daha çox düşündürən belə bir sualı cavablandırmaqdır: dövrümüzün mədəniyyət sferasına və mənəvi mühitinə qloballaşma prosesi necə təsir göstərir? Bu proseslə yanaşı



hansı yeni təhlükələr üzə çıxır? Müasir planetar şüur nə ilə səciyyələnir: kütləvi informasiya vasitələrinin formalaşdırdığı uydurma ilə, yoxsa yeni mədəniyyət fenomeninin – bəşəriyyətin planetar subyekti kimi cücərməsi ilə və s. və i. a. Bir sözlə, qloballaşma prosesinin özü tədqiqatçılar tərəfindən dünya sivilizasiyasının yaradıcı dialoqonun nəticəsi kimi araşdırılır. Bu araşdırmalar sistemində şəxsiyyət və mədəniyyət problemləri spesifik tərzdə mənalandırılır.

Haqqında danışdığımız məsələ cəmiyyət quruculuğu baxımından da özünəməxsus əhəmiyyətə malikdir. "Respublikamızda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının təmin olunması... bizim əvvəlcədən qəbul etdiyimiz prinsiplərdir" (9, 8).

İctimai inkişafın alternativ yollarının axtarışı müasir fəlsəfənin ən əhəmiyyətli vəzifələrindən biridir. Buna görə hazırda yalnız və sadəcə olaraq şəxsiyyət və mədəniyyət problemlərinə aid konkret hadisələri öyrənməklə kifayətlənmək məqsədəuyğun deyil. Çünki bu məsələ mövcud fəlsəfi ədəbiyyatda geniş açıqlanmışdır. Fəlsəfi problemlər ailəsində tədqiqi xüsusi zərurət kəsb edən məsələlərdən biri məhz, mədəniyyət sistemininde şəxsiyyətin durumunun – vəziyyətinin, yeri və rolunun öyrənilməsidir, şəxsiyyəti-mədəniyyət sistemini universal xarakteristikasını açıqlamaqdır, eləcə də mədəniyyət-sivilizasiya sistemini şəxsiyyətin mövcudluğunun meyarı kimi araşdırmaqdır.

Şəxsiyyət-mədəniyyət sistemi fəlsəfəsinə dair bütün təsəvvürlərin inkişafı prosesi nəticə etibarilə onların qarşılıqlı əlaqəsinin ümumi təbiətini yeni mövqedən təhlil etməyi şərtləndirir. Çoxistiqamətli məna daşıyan həmin mövqe ilk öncə iki cəhətlə səciyyələnir. Bunlardan biri mə-

dəniyyəti şəxsiyyətin yaradıcı fəaliyyəti prosesi, digəri isə onu insanların fəaliyyətinin üsulu və nəticəsi kimi başa düşməyi ifadə edir. Mədəniyyətin şəxsiyyət planında araşdırılması qanunauyğun surətdə aksioloji təhlilə meyl etməyi, bilavasitə onun ideologiya sferası ilə və tərbiyəvi fəaliyyətlə əlaqəsini, humanizmə yaxınlığı şərtləndirir. Bu cür yanaşma üçün mədəniyyətin yaradıcı və şəxsiyyət xarakterli tərəflərinin fərqləndirilməsi səciyyəvidir. Belə səciyyələnmə isə mədəniyyəti ictimai həyatın bütün kompleksindən ayrılıqda öyrənməyin meyarı kimi çıxış edir. Eləcə də şəxsiyyəti mədəniyyət sistemində tədqiq etmək məsələsi bütövlükdə həll olunur. Deməli, mədəniyyət nəinki cəmiyyətin və eləcə də insanın humanistləşdirilməsi ölçüsü kimi səciyyələnir.

Hər bir şəxsiyyət cəmiyyətin ünsürü olmaq etibarilə insan fəaliyyətinin subyekti kimi həyat prosesində təkrarolunmaz xüsusiyyətlərə yiyələnir. Bu xüsusiyyətlər fərdi stereotiplər formasını alır. Lakin həmin stereotiplər sosiallaşma prosesində əldə olunduğuna görə həm də mədəniyyət hadisəsindən başqa heç nə deyildir. Mədəniyyəti şəxsiyyətin fəaliyyətinin spesifik üsulu kimi başa düşmək heç də axırıncının ictimai həyatın inkişafının subyekti kimi çıxış etməsinin təhrif olunması deyildir.

Sosial fəlsəfə şəxsiyyətin və mədəniyyətin inkişafı problemini onların qarşılıqlı dialektik əlaqəsi və bir-birini şərtləndirməsi aspektində nəzərdən keçirir.

Şəxsiyyətin fəlsəfi problemi özündə şəxsi və sosial özünütəyinetmə formalarının qarşılıqlı asılılığını, şəxsiyyət, mədəniyyət və cəmiyyətin dəyişilməsi meylini və perspektivini, onların sistemli öyrənilməsinə başlıca yanaşma mövqelərinin təhlilini birləşdirir. Tədqiq etdiyimiz problemin xüsusi aktuallığı ilə bağlı elmin inkişaf tarixindən bəlli olan belə bir cəhəti qeyd etmək vacibdir ki, hər hansı obyektin öyrənilməsi adətən üç mərhələdən keçir. Birinci mərhələ onunla əlaqədardır ki, obyekt tərkib hissələrə ayrılmadan dərk olunur. Belə halda məqsəd onun bütövlükdə dərk edilməsinə yönəlir. Çünki həmin obyektin tərkib hissələri, bunların qarşılıqlı əlaqələri və struktur-funksional xüsusiyyətləri barədə lazımi biliklər nəzərdə tutulmur. İkinci mərhələ obyektin differensial və ixtisaslaşdırılmış səviyyədə öyrənilməsi və təhlili ilə səciyyələnir. Birinci mərhələdən fərqli olaraq bu mərhələdə məqsəd sanki tədqiq olunan obyektin müxtəlif tərəflərinin və təzahürlərinin haçalanmasına istiqamətlənir. Nəhayət, üçüncü mərhələdə məqsəd yenidən, lakin keyfiyyətcə digər səviyyədə hardasa obyektin ümumi xüsusiyyətlərini dərk etməyə yönəlir, özü də onun haqqında bütöv təsəvvür əldə etməyə səy göstərməklə. Bununla da tədqiq olunan hadisənin ümumiləşdirilmiş xarakteristikası onun tərkib hissələrinin və bunların struktur-funksional xüsusiyyətlərinin ümumiləşmiş xarakteristikası ilə üzvi surətdə əlaqələndirilir. Zənnimizcə, əsaslandırmaq olar ki, şəxsiyyət-mədəniyyət sistemi problemi elmi tədqiqat obyekti olmaq etibarilə üçüncü mərhələni əks etdirir. Belə səciyyəli tədqiqatçılıq istiqaməti şəxsiyyət-mədəniyyət sisteminin nəinki məhdud ixtisaslaşmış səviyyədə öyrənilməsini aradan qaldırır, eləcə də həmin problemin sistemli şəkildə işlənməsi naminə kifayət qədər ümumi təsəvvürün əldə olunmasına xidmət edir. Belə tədqiqatçılıq mövqeyi zənnimizcə, xeyli perspektivlidir. Bu, praktiki cəhətdən müasir fəlsəfə elminin tələblərinə uyğun olan ciddi araşdırmalar üçün səmərəli zəmindir.

Fəlsəfi tədqiqat obyekti kimi şəxsiyyət və mədəniyyət məsələləri ayrılıqda, o cümlədən sosioloji planda kifayət qədər tədqiq edilmişdir.

Bu baxımdan insan, sivilizasiya, mədəniyyət və cəmiyyət məsələlərinin tədqiqində görkəmli Amerika alimi P.Sorokinin xidməti xüsusi maraq doğurur. Onun "İnsan, sivilizasiya, cəmiyyət" əsəri (113) dərin elmi mülahizə və mühakimələri ilə seçilir. Müəllif insan, sivilizasiya və cəmiyyət anlayışlarının nisbətini əhatəli tədqiq edir, həmin sosial fenomenləri tarixi-məntiqi planda araşdırır, sivilizsiyanı maddi və mənəvi dəyərləri özündə birləşdirən hadisə kimi açıqlayır və mədəniyyəti insanların tarixi-sosial fəaliyyətinin məhsulu kimi əsaslandırmağa cəhd edir. Lakin bu sanballı tədqiqat işində sivilizasiya-mədəniyyət məsələsi şəxsiyyət kontekstində deyil, ümumi planda, həmin anlayışlara münasibət aspektində nəzərə çatdırılır. Məşhur alman alimi O.Şpenqler "Avropanın süqutu" (151) adlı kitabında mədəniyyət və sivilizasiya məsələlərinə əhatəli münasibət bildirir, bu məsələlərə dair dəyərli fikirlər irəli sürür, ictimai inkişaf tarixində təzahür edən mədəniyyət vahidlərini və sivilizasiyaları müəyyənləşdirməyə səy göstərir. İrəli sürdüyü tarixin morfologiyası nəzəriyyəsi ilə tarixin dövrləşdirilməsi ideyasına qarşı çıxış edən alim sivilizasiyanı son dərəcə xarici və son dərəcə süni vəziyyətlərin məcmuu hesab etməklə yalnız onun maddi, texniki tərəfinə üstünlük verir, sivilizasiyaya daxilən xas olan mənəvi dəyərlərə və ölçülərə laqeyd yanaşır. Eləcə də şəxsiyyətlə mədəniyyət-sivilizasiya sisteminin qarşılıqlı fəaliyyəti əhatəli araşdırılmır. Sivilizasiya və mədəniyyət probleminin digər görkəmli tədqiqatçısı L.Toynbi "Tarixin başa düşülməsi" (125) kitabında sivilizasiya məsələsini geniş açıqlasa da onun bu fenomenə aid fikirləri bir növ tamamlanmamış və ya diffuziyalı hesab oluna bilər. Bu alimin nəzəriyyəsinə görə bir sivilizasiyanı digərindən ayırmaq çətinliklə mümkündür. A.Toynbi ümumi sivilizasiya anlayışına xeyli sivilizasiyanı, eləcə də çoxlu millətləri, dövlətləri və ictimai iqtisadi formasiyanı əhatə edən bir sivilizasiyanı daxil edir. Həmçinin, sivilizasiya mədəniyyətdən qismən təcrid olunmuş halda, şəxsiyyətdən kənar aspektdə təhlil olunur. Funksionalizm nəzəriyyəsinin görkəmli nümayəndəsi T.Parsons isə cəmiyyətlə mədəniyyətin həddini müəyyənləşdirməyə cəhd edir. Onun fikrincə, xüsusi "mədəniyyət sistemləri" və xüsusi "ictimai sistemlər" mövcuddur. Bu alim belə hesab edir ki, cəmiyyət və mədəniyyət eyni mənalı olmasalar da onları empirik yolla fərqləndirmək mümkün deyildir. T.Parsons şəxsiyyət məsələsinə də öz xüsusi münasibətini bildirir. Şəxsiyyətin sosial rolunun sistemləşdirilməsinə ilk cəhd edənlərdən biri məhz, Parsons olmuşdur. O, şəxsiyyəti bu və ya digər cəmiyyətdə hər hansı fərdə xas olan çoxsaylı sosial rolları həyata keçirən varlıq kimi nəzərdən keçirir. Əvvəla, bu tədqiqatçı sosial rolların bir qismini məkan və zaman asılılığı ilə məhdudlaşdırır, digər tərəfdən və təəssüf ki, mədəniyyət sisteminin universal komponenti olan şəxsiyyətin yalnız sosial rollarını sistemləşdirməklə kifayətlənir, onun mədəniyyət sferası ilə bağlı olan sosial rolunu əhatəli tədqiq etmir. Z.Freyd "Bir illuziyanın gələcəyi" adlı əsərində (142) şəxsiyyətin mahiyyətinə dair yürütdüyü mülahizələrdə onu ehtiyaclar sistemi kimi əsaslandırmağa, şəxsiyyətin məzmununda psixi cəhətləri şişirtməyə çalışır. Şəxsiyyətin sosiallaşmasında mədəniyyətin roluna ciddi əhəmiyyət vermir. Şəxsiyyət və

mədəniyyət məsələləri keçmiş sovet məkanında da fəlsəfi ədəbiyyatda geniş və əhatəli şəkildə öz əksini tapmışdır. Q.L.Smirnov "Sovet adamı" adlı geniş həcmli monoqrafiyasında (114) sosialist tipli şəxsiyyətin formalaşması qanunauyğunluğunu və xüsusiyyətlərini, sosializm cəmiyyəti quruculuğunda rolunu əhatəli tədqiq edir. Lakin mövcud məsələnin başlıca cəhətlərinin və xarakterinin araşdırılmasına ideoloji çərçivədə, totalitar sovet rejiminin ideoloji əsasları aspektində diqqət yetirilir, sovet adamının mahiyyəti kommunist idelları nöqteyi-nəzərdən təhlil olunur. Mədəniyyət probleminin görkəmli tədqiqatçılarından biri olan M.C.Kaqan "İnsan fəaliyyəti" adlı kitabında (76) mədəniyyəti insanların fəaliyyəti nəticəsində təzahür edən hadisə, sosialist mənəvi mədəniyyətini isə onun tərkib hissəsi kimi açıqlayır, özü də xüsusi, özünəməxsus cəhətləri ilə fərqlənən mədəniyyət nöqteyi-nəzərdən E.A.Baller isə "Kommunizm. Mədəniyyət. İnsan" adlı monoqrafiyasında (44) sosializm (kommunizm) cəmiyyətinin təşəkkülü və inkişafı prosesində yaranan yeni mədəniyyətin məzmununu, funksiyalarını və inkişaf perspektivini, kommunist tipli şəxsiyyətin sosial mahiyyətini və sosial rolunu araşdırır. Görkəmli kulturoloq A.İ.Arnoldovun tədqiqat işlərində, xüsusilə "Sosialist mədəniyyəti: nəzəriyyə və həyat" kitabında sosializm cəmiyyətində formalaşan mədəniyyətin nəzəri və həyati məsələlərini araşdırır, sosializm cəmiyyətinin uğurlu inkişafında bu cəmiyyətə xas olan mənəvi mədəniyyətin dəyərlərini və ictimai əhəmiyyət kəsb edən xarakterini geniş mənalandırır.

Yaradıcılığı sovet məkanı ilə əlaqəli olan tanınmış serb alimi Danilo J.Markoviç mədəniyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsi mexanizminin spesifik, fərqli cəhətlərinin



üzə çıxarılmasına əhatəli diqqət yetirir. Belə səciyyəli təhlil onun 1998-ci ildə çap olunmuş "Ümumi sosiologiya" kitabında (66) öz əksini tapmışdır. Bir sözlə, yuxarıda adlarını qeyd etdiyimiz tədqiqat işlərində şəxsiyyət və mədəniyyət fenomenlərinin sistemli təhlili diqqətdən yayınır.

Şəxsiyyət və mədəniyyət məsələlərinin tədqiqi istiqamətində post sovet məkanında da maraq doğuran elmi işlər nəşr olunmuşdur. Bu baxımdan görkəmli rus filosofu L.N.Koqanın "Mədəniyyətin sosiologiyası" monoqrafiyası (82) diqqəti cəlb edir. Müəllif sosioloji aspektdə mədəniyyətin məzmununu, sosial funksiyalarını mənalandırmağa cəhd edir. Eləcə də M.S.Kaqan "Mədəniyyətin fəlsəfəsi" kitabında (21) mədəniyyət fenomeninin fəlsəfi çalarlarını dəyərləndirir, son zamanlarda mədəniyyətə dair Rusiyada çap olunmuş tədqiqat işlərinə məqsədyönlü tənqidi münasibətini bildirir. Bununla belə cəmiyyətin yarımsistemi olmaq etibarilə mədəniyyətdə şəxsiyyətin durumu müəyyən dərəcədə müəllifin diqqətindən yayınır.

Fəlsəfi problemlərin tanınmış görkəmli tədqiqatçısı A.Q.Spirkin geniş həcmli, 2001-ci ildə nəşr olunan "Fəlsəfə" kitabında (121) şəxsiyyət məsələsinə üç istiqamətdən – bioloji, sosial və psixi istiqamətlərdən diqqət yetirməklə onu biososiopsixi varlıq kimi təhlil edir, eləcə də mədəniyyətin fəlsəfəsinə konkret səviyyədə münasibətini bildirir. O, şəxsiyyəti mədəniyyət fenomeninin komponenti kimi araşdırmağı qarşısına məqsəd qoymadığı üçün həmin anlayışların yalnız məzmununu açıqlamaqla kifayətlənir. N.F.Buçilo və A.N.Çumakov isə "Fəlsəfə" adlı birgə yazdıqları tədqiqat işində (52) mədəniyyətin strukturunu, daxili quruluşunu, mədəniyyət sferasındakı fəaliyyəti və mədəniyyətin funksiyalarını əhatəli aydınlaşdırırlar. Bu

müəlliflər də mədəniyyət anlayışını şəxsiyyət fenomeni ilə əlaqələndirməyə səy göstərmirlər. Kulturologiya sahəsində məşhur və məhsuldar tədqiqatçı sayılan B.S.Erasov isə sosial tənzimləmənin mühüm komponenti olan mənəvi fəaliyyətin məzmunu və prinsiplərini əhatəli, geniş həcmli "Sosial kulturalogiya" əsərində (74) təhlil edir. Müəllif həmin tədqiqat işində mədəniyyətin çoxcəhətli məsələlərinə dair dəyərli mülahizə və mühakimələr yürüdür, sivilizasiyaya dair konkret fikirlər irəli sürür. Lakin bu alim də mədəniyyət problemini bütövlükdə şəxsiyyətdən təcrid olunmuş aspektdə araşdırır. Şəxsiyyət və mədəniyyət problemi respublikamızın filosoflarının da diqqətindən yayınmayıb. Görkəmli alim H.R.İmanov şəxsiyyət və mədəniyyət məsələlərini 2005-ci ildə nəşr edilən geniş həcmli "Fəlsəfə" kitabında (19) araşdırır. Mənəvi mədəniyyətin spesifik komponenti olan dinin fəlsəfəsinə həsr edilən "Etnik dinlər və dünya dinləri" adlı monoqrafiyasında isə dini mədəniyyətin məzmununu, dəyərlərini mənalandırır. Ağayar Şükürov və Zeynəddin Hacıyev tədqiqat işlərində (25, 16), Qızılgül Abbasova «Sosial fəlsəfə» kitabında (1) mədəniyyət və sivilizasiya anlayışlarının aydınlaşdırılmasına cəhd edirlər. Ümumilikdə respublikamızda mövcud problemlə əlaqədar Cəmil Əhmədlinin (8), Yusif Rüstəmovun (24) və başqalarının tədqiqat işlərinin və məqalələrinin əhəmiyyətini də qeyd etmək vacibdir. Həmin müəlliflər tədqiq etdiyimiz problemlə bağlı mülahizələrini bu və ya digər dərəcədə nəzərə çatdırırlar. Əlikram Tağıyev "İnsan və siyasət" kitabında (26) müasir insan, onun siyasətdə yeri məsələsinə diqqət yetirir. Məcid Əfəndiyev və Azər Şirinov "Sosiologiyanın nəzəri problemləri" adlı birgə yazdıqları tədqiqat işində (12) şəxsiyyətin və mədəniyyətin



sosiologiyasını əhatəli araşdırırlar. Məcid Əfəndiyevin "Siyasi elmin əsasları" kitabında (14) politoloji səpkidə şəxsiyyət siyasətin subyekti kimi təhlil olunur, bu tədqiqat işində həmçinin siyasi mədəniyyət məsələsinə xüsusi diqqət yetirilir.

Ümumiyyətlə, respublikamızda və xaricdə çap olunan fəlsəfi-sosioloji mahiyyətli tədqiqat işlərində mövcud problemin çoxcəhətli tərəfləri öyrənilsə də şəxsiyyət və mədəniyyət anlayışlarının qarşılıqlı əlaqəsi, bir-birini şərtləndirməsi məsələsinə, onların müqayisəli təhlilinə və sistemli tədqiqinə kifayət qədər cəhd edilməmişdir. Tədqiq etdiyimiz problem şəxsiyyət-mədəniyyət sisteminin sosial fəlsəfə aspektində əhatəli universal açıqlanmasına cəhddir.

Monoqrafiya 5 fəsil, on səkkiz paraqrafdan ibarətdir. I və II fəsillər fəlsəfə elmləri namizədi Səadət Məcid qızı, III, IV və V fəsillər isə dos. Məcid Əfəndiyev tərəfindən yazılmışdır.

# I FƏSİL

# ŞƏXSİYYƏT MƏDƏNİYYƏT SİSTEMİNİN UNİVERSAL KOMPONENTİDİR

## 1.1. Mədəniyyət anlayışı: mahiyyəti, məzmunu, strukturu

Mədəniyyət və sivilizasiya anlayışları haqqında geniş və əhatəli təsəvvürə malik olmaq baxımdan ilk öncə həmin anlayışların müqayisəli təhlili və nisbətinin müəyyənləşdirilməsi vacibdir. Belə müqayisəli təhlil əvvəlcə "mədəniyyət" anlayışının açıqlanmasına əsaslanmalıdır. Çünki "sivilizasiya" anlayışı ilə müqayisədə mədəniyyət daha geniş anlayışdır. Digər tərəfdən isə o, universal şəxsiyyətin-hərtərəfli təhsilə, yüksək intellektual səviyyəyə malik, tərbiyəli, elmin, incəsənətin inkişafına, cəmiyyətin tərəqqisinə təsir göstərməyə qadir olan insanın formalaşmasının qüdrətli vasitəsidir. Mədəniyyət cəmiyyətlə sıx bağlıdır. Əgər cəmiyyət qarşılıqlı fəaliyyətdə və münasibətdə olan insanların məcmuudursa, mədəniyyət insanların fəaliyyəti nəticəsində yaradılanların toplusudur. Mədəniyyət anlayışının təşəkkülü mənşə etibarilə Qədim Roma dövrünə təsadüf edir. Həmin anlayışı ilk dəfə Siseron işlətmişdir. Mədəniyyət məvhumu latın dilində cultura sözündən əmələ gəlib becərmə, hazır şəklə salma, tərbiyə, inkişaf mənasında səciyyələnir. İlk başlanğıcda o, torpağın becərilməsi, başqa sözlə yaxşı məhsul almaq məqsədilə onun insan tərəfindən dəyişdirilməsi kimi səciy-



yələnmişdir. Xeyli sonralar mədəniyyət xalqların həyatının və yaradıcılığının təzahürünün məcmuu kimi mənalanmışdır. Mədəniyyət termini müstəqil əhəmiyyət kəsb etmək etibarilə daha tam şəkildə XVII əsrdə istifadə olunmuşdur. Alman tarixçisi S.Pyfendorfun formalaşdırdığı mədəniyyət anlayışı özündə ümumiyyətlə insani, xüsusilə ictimai təsisatları, paltarı, dili, elmi, əxlaqı ehtiva edir.

Elmi ədəbiyyatda belə bir mülahizə mövcuddur ki, yalnız məşhur ingilis antropoloqu E.B.Taylorun "Bəşəriyyətin qədim tarixinin kəşfi" adlı əsərinin meydana çıxması ilə (1866-cı il) mədəniyyət termini elmi cəhətdən əsaslandırıldı. Mədəniyyətə dair müasir təsəvvürlərin formalaşmasına F.Bousa, Rut Benedikt, A.L.Kreber və V.Malinovski mühüm təsir göstərmişlər.

4507

Hazırda mədəniyyətin alimlər tərəfindən verilən 500-dən artıq tərifi mövcuddur. Təkcə sosiologiyaya dair Amerika məlumat kitabçasında "mədəniyyət" anlıyışının 400-dən çox tərifi verilmişdir. Amerika kulturoloqları A.L.Kreber və K.Klakxonun tədqiqatlarında bu anlayışın 160-dan artıq tərifinin müqayisəli təhlili öz əksini tapmış və 257 spesifik cəhəti nəzərə çatdırılmışdır. Onlar mədəniyyətə dair öz ümumnəzəri mülahizələrini əhatəli şəkildə 1952-ci ildə yazdıqları "Mədəniyyət. Konsepsiyaların və təriflərin tənqidi xülasəsi" adlı kitabda irəli sürmüşlər. Hazırda alimlər mədəniyyət anlayışını bir neçə qrupa ayırırlar. Birinci qrupa həmin anlayışın təsviri aspektdə müəyyənləşdirilməsi Aid edilir. Məsələn, belə halda mədəniyyət fəaliyyətin bütün növlərinin, adətlərin, inamların məcmuu kimi səciyyələndirilir. İkinci qrupa aid baxışlarda mədəniyyət cəmiyyətin ənənəvi və sosial irsi ilə

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

əlaqələndirilir. Belə ki, mədəniyyət "həyatımızın əsasını müəyyənləşdirən praktikanın və inamların irsən əldə edilən sosial kompleksi baxımdan mənalandırılır". Üçüncü qrupa dair nöqteyi-nəzər mədəniyyəti insanların davranışını təşkil edən qaydalar kimi təsəvvür edir. Dördüncü qrupu əks etdirən mövqe mədəniyyəti cəmiyyətin təbii mühitə uyğunlaşması vasitəsi baxımdan başa düşür. Çünki bu mövqe mədəniyyəti insanların fəaliyyətinin məhsulu nöqteyi-nəzərdən dəyərləndirir. Beşincisi, o əldə olunmuş davranış formalarının məcmuu kimi əsaslandırılır, özü də bu cəhət bir neçə sosial qrup və ya cəmiyyət üçün səciyyəli olan və nəsildən nəslə verilən hadisə kimi qiymətləndirilir və həm də qeyd olunur ki, mədəniyyətin əsasını bu və ya digər ölkədə yaşayan insanların böyük əksəriyyətinə xas olan sərvətlər sistemi təşkil edir. Altıncısı, mədəniyyətə aksioloji yanaşma ilə səciyyələnir. Belə yanaşma çərçivəsində mədəniyyət maddi və mənəvi sərvətlərin məcmuu kimi müəyyənləşdirilir. Yeddincisi, mədəniyyətin izahında antropoloji mövqe diqqəti cəlb edir. Bu nöqteyi-nəzər mədəniyyəti insanın mahiyyətinin ifadəsi, onun inkişafının ölçüsü və özünü reallaşdırması üsulu kimi müəyyənləşdirir. Səkkizincisi, Semiotik yanaşma mənasında səciyyələndirilir. Bu cür yanaşmada mədəniyyət insanların davranışının idarə olunması və həyatının qaydaya salınması üçün qəbul edilən işarələr sistemi kimi başa düşülür. Nəhayət, struktur-funksional mövqe mədəniyyəti insanların həyat fəaliyyəti tərzinin saxlanmasına istiqamətlənən struktur və funksiyalar sistemi baxımdan nəzərdən keçirir. Ümumiyyətlə, xarici ədəbiyyatda mədəniyyət anlayışı bir tərəfdən maddi artefaktların (insan tərəfindən yaradılan fiziki obyektlərin) məcmuu, digər halda isə ideal təsəvvürlərin (ideyaların, simvolların, sərvətlərin və s.) sistemi kimi müəyyənləşdirilir. Hər şeydən əvvəl isə mədəniyyəti maddi və mənəvi abidələrin, simvolların, adətlərin toplusu mənasında açıqlayırlar, çünki onu insanların həyat tərzinin obrazı baxımdan mənalandırırlar. Bir sözlə, "mədəniyyət" anlayışı elmi ədəbiyyatda inkişafın səviyyəsi, yaradıcılıq və fəaliyyətin xüsusi sferası, bəşəriyyətin əldə etdiyi nailiyyətlərin məcmuu və s. aspektdə təhlil olunur.



Sosial fenomen olmaq etibarilə mədəniyyətin tədqiqində zəmanəmizin çox görkəmli alimləri A.R.Redklif-Braun, A.Kazo, A.Krayt, R.Firt və M.Fortesin xidmətləri xüsusilə diqqəti cəlb edir.

Mədəniyyət probleminin nüfuzlu tədqiqatçısı A.İ.Arnoldov bu fenomeni konkret tarixi inkişaf kəsb edən mənəfi sərvətlər sistemi, cəmiyyətin mənəvi potensialı, insanların yaradıcılıq prosesi və adamlar arasında müəyyən münasibətlərin ifadəsi kimi əsaslandırır. M.S.Koqan mədəniyyəti insanların fəaliyyəti nəticəsində təzahür edən hadisə, mənəvi mədəniyyəti isə onun komponenti nöqteyi-nəzərdən təhlil edir (82, 185) A.A.Baller bildirir ki, mədəniyyət ancaq maddi və mənəvi sərvətləri təcəssüm etdirmir, eləcə də bəşər tarixinin hər bir mərhələsi üçün səciyyəli olan mədəniyyətin yaradılması və istifadə olunması metodunu, müəyyən əmək vərdişlərini, təhsil ənənələrini, həmçinin yaradılan sərvətlərin yayılması və mübadiləsinin təşkili formalarını, onların saxlanılmasını əhatə edir. Danilo Markoviç mədəniyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsi mexanizminin açılmasına, əmək və mədəniyyətin bir-birini qarşılıqlı şərtləndirməsinə, mədəniyyətlə sivilizasiyanın spesifik, fərqli cəhətlərinin üzə çıxarılmasına əhatəli diqqət yetirir (66, 324-330). L.N.Koqan mədəniyyəti sosi-

al sistemin fəaliyyəti üçün əhəmiyyət kəsb edən ünsürlərin toplusu adlandırır (81, 76-80). Son illər mədəniyyət anlayışının müəyyənləşdirilməsinə spesifik, yeni yanaşma meyli diqqəti cəlb edir. Dünya mədəniyyəti sahəsində görkəmli mütəxəssis hesab olunan İ.Q.Yakovenko mədəniyyəti sinergetik mahiyyət daşıyan anlayış kimi dəyərləndirir. O, yazır: "Mədəniyyət fenomenini geniş mənada – ümumbioloji problemin Homo Sariens növünün qeyri bioloji həlli üsulu kimi başa düşmək lazımdır. Bu nöqteyi-nəzərdən mədəniyyət konkret məkan şəraitində – onun mövcud olduğu zamanda bəşəriyyətin yaşaması üsuludur" (92, 35-36). Mədəniyyət insanların qarşılıqlı fəaliyyətinin mühüm mexanizmi kimi formalaşır, qrupların, birliklərin qarşılıqlı fəaliyyəti prosesində onların birliyinin və bütövlüyünün saxlanmasına kömək edir. A.A.Raduqinin və K.A.Raduqinin qeyd etdikləri kimi sözün məhdud mənasında mədəniyyət dedikdə insan qruplarına aid olan sərvətlər, inamlar, nümunələr, davranış normaları sistemi başa düşülür.

M.S.Kaqanın mədəniyyətə verdiyi çoxcəhətli dəqiq və konkret tərif də dəyərli məna kəsb edir. Həmin alimin fikrincə, mədəniyyət insanla təbiət, insan və cəmiyyət, insanla-insan arasında münasibətlər sistemidir (77, 48).

Bu müəllif mədəniyyəti bütövlükdə insanların fəaliyyəti nəticəsində təzahür edən hadisə, mənəvi mədəniyyəti isə onun tərkib hissəsi kimi təhlil edir (76, s. 185). Respublikamızın görkəmli alimi prof. H.İmanov mədəniyyət dəyərləri kompleksini belə qiymətləndirir: "Mədəniyyət maddi və mənəvi dəyərlərin cəmidir, onların yaradılma üsulları və onlardan bəşəriyyətin gələcək tərəqqisi üçün istifadə etmək bacarığıdır və bu üsulların, bacarıqların keçmiş nəsillərdən gələcək nəsillərə ötürülməsidir" (19, 397).



Müasir fəlsəfi və sosioloji ədəbiyyatda, eləcə də kulturologiyada "mədəniyyət" və "cəmiyyət" anlayışlarının qarşılıqlı münasibəti məsələsinə də diqqət yetirilir. Alimlər belə bir mövqedən çıxış edirlər ki, mədəniyyətin spesifik sosial sistem kimi öyrənilməsi ilk öncə mədəniyyət və cəmiyyətin nisbəti məsələsinin aydınlaşdırılmasını tələb edir.

Mədəniyyətlə cəmiyyətin nisbəti məsələsinə münasibətdə iki başlıca fikir istiqaməti nəzərə çarpır. Birinci istiqamətə görə mədəniyyət özünəməxsus müstəqil bütövlük kəsb etdiyi üçün onu cəmiyyətdən asılı olmayan sistem kimi tədqiq etmək lazımdır. Belə nöqteyi-nəzər xüsusilə müasir kulturologiya nəzəriyyəsində öz əksini tapır. İkinci istiqamətin tərəfdarları isə cəmiyyəti sosial fenomen olmaq etibarilə mədəniyyətin məhz, hər şeyi əhatə edən konteksti kimi əsaslandırmağa cəhd edirlər. Qəribədir ki, belə nöqteyi-nəzərin özündə də cəmiyyət və mədəniyyət anlayışları eyniləşdirilir. Bu cür eyniləşdirmə təsadüfi deyil. Sonuncu fikir istiqamətini təmsil edən tədqiqatçılar iddia edirlər ki, müəyyən mədəniyyət hətta hər hansı dərəcədə konkret cəmiyyətin məhsulu olmasa da o, özündə universal dəyərləri təcəssüm etdirir, özü də elə dəyərləri ki, məhz mədəniyyətin öz çərçivəsindən uzaqlaşmağa qabildir. Müasir elmi fikirdə "cəmiyyət" və "mədəniyyət" kateqoriyalarının işlədilməsi axırıncının bütövlük kəsb edən fenomen kimi başa düşülməsi zərurəti ilə şərtlənir. Tanınmış Polşa alimi Z.Bauman "Mədəniyyət və cəmiyyət" adlı tədqiqat işində mədəniyyətlə cəmiyyətin semantik və genetik əlaqələrini açıqlayaraq bildirir ki, həmin anlayışların nisbəti "xüsusinin ümumi kompleksinin hər bir sə-

viyyəsində tədqiqi" kimi nəzərdən keçirilməlidir. Bu məqsədlə o, "sistem" anlayışından istifadə etməyi zəruri sayır. Mövcud məsələnin həllinə belə yanaşma həmin alimə imkan verir ki, mədəniyyət anlayışını həm sistem və eləcə də məcmu (müəyyən ünsürlərin toplusu mənada) kimi araşdırsın. Z.Bauman mədəniyyəti və cəmiyyəti bütövlük kəsb edən ayrı-ayrı anlayışlar baxımdan əsaslandırmağa səy göstərir və belə qənaətə gəlir ki, "simvolların" təzahürü və onların "nitq" şəklində təsisatlaşması mədəniyyət və cəmiyyət sferasını praktiki və nəzəri nöqteyi-nəzərdən fərqləndirməyə zəruri sosial şərait yaradır.

Funksionalizm konsepsiyasının görkəmli nümayəndəsi, müasir sosiologiyanın partiarxı hesab olunan Amerika alimi Tolkott Parsons da "cəmiyyət" və "mədəniyyət" kateqoriyalarının nisbətini müəyyənləşdirməyi vacib sayır. Parsonsun gəldiyi qənaətə görə xüsusi "mədəniyyət sistemləri" və eləcə də xüsusi "ictimai sistemlər" mövcuddur. Bu hər iki "sistem" yarımsistemlər kimi səciyyələnir və cəmiyyəti müəyyənləşdirirlər. Həmin sosioloq hesab edir ki, cəmiyyət və mədəniyyət eyni mənalı olmasalar da bunları empirik yolla fərqləndirmək mümkün deyildir.

Ümumiyyətlə, yuxarıdakı təsəvvür və mühakimələrdən çıxış edərək belə bir mülahizə yürütmək olar ki, mədəniyyətin inkişafında və ictimai inkişafda təzahür edən fərqlər mədəniyyətin teleologiyasının öz antropoloji, sosioloji və ontoloji kompleksi ilə şərtlənir. Mədəniyyətin varlığının məkanı məhz, cəmiyyətdir. Əvvəl cəmiyyət, sonra isə mədəniyyət və sivilizasiya təşəkkül tapmışdır. Mədəniyyət cəmiyyət üzvü olmaq etibarilə insanın mənimsədiyi biliklər, inamlar, incəsənət, əxlaq, qanunlar, adətlər,



eləcə də digər qabiliyyət, bacarıq və vərdişlər kompleksidir. Mədəniyyət mənəvi istehsal prosesidir və eləcə də onun nəticəsidir. Bu fenomen öz məzmununu əxlaq və hüquq, din, bədii sfera və elm sistemində ifadə olunan normalar, dəyərlər, sərvətlər, ideya və biliklər sistemi vasitəsilə təzahür etdirir. Mədəniyyətə elə xüsusi daxili dinamika, hərəkətverici qüvvə xasdır ki, bu maddi istehsalla və hətta formasiya amilləri ilə bağlı deyildir. Əlbəttə o, hər bir cəmiyyətin mövcudluğunun zəruri şərtidir. B.S.Yeraşovun qeyd etdiyi kimi "mədəniyyət öz məzmununa və öz strukturuna malik olan, bununla yanaşı varlığın digər sferalarına o cümlədən sosial münasibətlərə və siyasətə təsir göstərən xüsusi fəaliyyət sferarası və formasıdır" (74, 17)

Gündəlik həyatda mədəniyyət ən azı üç mənada işlədilir.

Birincisi, ictimai həyatın mükəmməl səviyyədə təsisatlaşmış müəyyən sferası mənasında. Bütün ölkələrdə mədəniyyət sahəsində çalışan çoxsaylı mütəxəssislər hazırlanır və fəaliyyət göstərir, ali və orta ixtisas müəssisələri, klublar, muzeylər, teatrlar, cəmiyyətlər mövcuddur. Həmin mədəniyyət təsisatları mənəvi sərvətlərin istehsalı və yayılması ilə məşğuldur.

İkincisi, mədəniyyət dedikdə böyük sosial qruplara, birliklərə, xalqlara və ya millətlərə xas olan mənəvi sərvətlərin və normaların məcmuu başa düşülür. Biz elitar mədəniyyət, bu və ya digər xalqın mədəniyyəti məsələn, azərbaycan mədəniyyəti, gənclər mədəniyyəti, müəyyən sosial qrupun və ya təbəqənin mədəniyyəti haqqında danışırıq, mülahizələr yürüdürük.

Üçüncüsü, mədəniyyət mənəvi nailiyyətlərin keyfiyyətcə yüksək inkişaf səviyyəsini ifadə edir. Biz tərbiyəli

mənada "mədəni insan" anlayışını, eləcə də ümumi qabiliyyəti, bacarığı, işgüzarlığı ilə fərqlənən "müəyyən kollektivin mədəniyyəti" anlayışını işlədirik. Mədəniyyətin "səviyyə" baxımdan mənalandırılması onunla bağlı ciddi məqamların səciyyələndirilməsi zərurətindən doğur. Hər cür mədəniyyətin mühüm ölçüsü zamandır. Mədəniyyət yalnız zaman etibarilə strukturlaşmağa məruz qalır, zənginləşir və ya diqqətdən kənar qalır. O, hadisələrin axarını zaman daxilində təşkil etməklə, cəmiyyətin yaddaşına qovuşdurmaqla onun yaşaması üçün zəruri olan informasiyanın qorunub saxlanmasını təmin edir. Bu mənada mədəniyyətin təsnifatı yenidən və bir daha nəinki hər hansı cəmiyyətin səviyyəsinə və tipinə görə eləcə də dövrlər üzrə verilir. Düzdür, bu dövrlər çox zaman müxtəlif cəmiyyətlərdə üst-üstə düşmür.

Hər bir cəmiyyətdə zaman təsisatlı və sosial strukturlaşmaya məruz qalır. Orta əsrlərdə zamanı kilsə və ya dövlət öz nəzarətində saxlayırdı. Müxtəlif sivilizasiyalar özünün müvəqqəti dövrlərini yaşamışlar. İndustrial cəmiyyətdə zaman səmərəli istehsalın şərtinə çevrilir və iri istehsalın prinsipinə uyğunlaşır. O, yalnız postindustrial cəmiyyətdə sosial həyat fəaliyyətinin sabit pluralizminə və mədəniyyət sferasının müxtəlifliyinə uyğun olaraq rəngarəng ahənglərə ayrılır. "Mədəni inkişafın sosial amillərlə şərtlənməsi düzxətli əlaqə olmayıb, mürəkkəb və çoxtərəfli xarakter daşıyır" (16, 580).

Mədəniyyət sözün geniş mənasında insanların həyat fəaliyyətinin və şəxsiyyətin inkişafının spesifik təşkili üsuludur. Bu, maddi və mənəvi istehsalın məhsullarında, sosial normalar sistemində və təsisatlarda, mənəvi sərvətlərdə, insanların təbiətə, öz aralarında və özünə münasibətin məcmuunda ifadə olunur. Deməli, mədəniyyətin təzahürünün üç sferası mövcuddur: 1) insanın ətraf mühitə münasibəti (əmək); 2) insanın digər adamlara münasibəti (əxlaq, hüquq, siyasət və s.); 3) insanın özünün özünə münasibəti (özünü dərk etmə forması)



Mədəniyyət anlayışında insanın həyatfəaliyyətinin həyatın bioloji formasından ümumi fərqi müəyyənləşir, "insanın həyatını özünün bioloji şəraitindən ucaldan nədirsə, onu heyvanların həyatından fərqləndirən də həmin cəhətdir". Mədəniyyətin bioloji həyatdan yüksəkdə durması heç də insanın təbiət aləmindən kənarlaşması deyildir. Təbiət insanın ondan istifadə etməsi üçün mənəvi-praktiki obyekt kimi çıxış edir, bilik və bacarıq insanın öz tələbatını ödəmək naminə təbiət qüvvələrini mənimsəməyə imkan yaradır. Əmək və onun təşkili mədəniyyətin ən əhəmiyyətli əsasıdır. Bu sosial fenomenin digər əsası mənəviyyatdır.

Mədəniyyətin antropoloji zəmini də mövcuddur. Buraya insanın düşüncəli olması (şüur), dil və nitq, qidalanma (yemək hazırlamaq), "uşaqlıq dövrünün uzanması" (uşaqların valideynlərlə uzun müddət bir yerdə olması), cinslər arasında özünəməxsus münasibət (o, mövsümi xarakter daşımır), oddan istifadə etmək və s. xüsusiyyətlər aiddir.

Mədəniyyətdə işlənib hazırlanan insanların qarşılıqlı fəaliyyət formaları, nümunələri, üsulları, vasitələri genetik (bioloji) yolla irsən, kortəbii verilmir. Buna görə fəaliyyətin və ünsiyyətin müəyyən strukturunu saxlamaq məqsədilə həm cəmiyyət, qruplar və eləcə də ayrıca şəxsiyyət səviyyəsində sosial mexanizmlər zəruridir.

Mədəniyyət dünyagörüşün maddi və mənəvi əsası

kimi çıxış edir. Mənəvi ölçüdən məhrum olunan mədəniyyət əsl mədəniyyət ola bilməz. Belə hesab olunur ki, insan "anim kulturanı" ("ruh mədəniyyətini") özündə tərbiyə etməklə mənəviliyin zirvəsinə ucalır. Bu mənada mədəniyyəti cəmiyyətin mənəvi sferasının ən mühüm sistemli keyfiyyəti kimi əsaslandıran tədqiqatçıların mövqeyi xüsusi maraq doğurur (128, 165-183). Mədəniyyətin keyfiyyətli inteqrativ hadisə kimi müəyyənləşdirilməsi böyük məna kəsb edir. Bu cəhət onunla şərtlənir ki, mədəniyyətin təsir gücünü, ictimai həyatın bütün sferalarında "iştirakını" səciyyələndirir.

İkincisi, mədəniyyət həmişə yaradıcı fəaliyyətlə bağlı olmaqla onun maddi və mənəvi tərəfləri insan zəkasının səciyyələndirilməsinin komponenti kimi mövcuddur, eləcə də ən əhəmiyyətli sosial problemlərin həllində əməli-dəyişdirici qüvvə kimi çıxış edir. Görkəmli rus alimi Berdyayev qeyd edirdi ki, "yaradıcılıq mənim üçün mənəvi gigiyenadır, ruhumun gigiyenasıdır, yaşamaq üsuludur...".

Üçüncüsü, mədəniyyətə nəinki maddi və o cümlədən mənəvi sərvətlərin məcmuu kimi diqqət yetirmək zəruridir. Çünki həmin fenomenə belə nöqteyi-nəzərdən yanaşmada sərvətlər və ya tələbatlar bir-birinin əvəz olunması mənada başa düşülmür, digər tərəfdən sərvətlərə adi səviyyədə yox, sistemli səpgidə münasibət bildirilir. Lakin buradan belə bir fikir hasil olunmamalıdır ki, mədəniyyət ancaq müsbət hadisələrə aid edilməlidir. Elə isə bəs mənfi sərvətlər hara şamil olunmalıdır?

Nəhayət, mədəniyyət mədəni-tarixi prosesin subyekti olmaq etibarilə ictimai fərdlərin özünü reallaşdırması sferası kimi səciyyələnir. Cəmiyyətin mənəvi mədəniyyəti onun mənəvi həyatı ilə sıx əlaqə kəsb edir və bunlar



bir-birini qarşılıqlı surətdə şərtləndirir.

Mədəniyyəti təşkil edən bütün fenomenlərdən yalnız elm, incəsənət, fəlsəfə və s. özündə onun bütün dəyərlərini təcəssüm etdirməyə səy göstərir. Mədəniyyətin bütün bu və ya digər dəyərləri onun bütövlüyündə və birliyində ifadə olunmaqla bir-birindən təcrid edilməsi ilə deyil, əksinə qarşılıqlı surətdə nüfuz etməsilə səciyyələnir. Bütövlük kəsb edən mədəniyyət sistemini dörd yarımsistemə ayırmaq məqsədəuyğundur:

- texniki vasitələrdən və əmək alətlərindən istifadə olunması ilə səciyyələnən texniki yarımsistem;
- davranışın çoxcəhətli tiplərini, "həyatın mədəniyyət standartını", qohumluq sistemini, etiketi (mərasimləri), peşə xüsusiyyətlərini, eləcə də estetik, iqtisadi, siyasi və digər münasibətləri özündə təcəssüm etdirən yarımsistem;
- cəmiyyətdə hakim rəsmi doktrinaya xidmət edən, tərbiyə və təhsil sistemi ilə sıx birləşən, özündə prinsiplər, məqsədlər, müxtəlif bilik növləri sistemini əks etdirən və sosial nəzarət üsulu kimi çıxış edən ideoloji mədəniyyət yarımsistemi;
- müxtəlif etnosların həyatfəaliyyətinin çoxcəhətli və bənzərsiz norma və dəyərlərini ifadə edən ideoloji mədəniyyət yarımsistemi.

Mütəxəssislərin hesablamalarına görə hazırda üç minə yaxın müxtəlif etnik birliklər mövcuddur.

E.Taylor "İbtidai mədəniyyət" adlı kitabında mədəniyyət anlayışını daha geniş və əhatəli elmi məzmunla zənginləşdirərək göstərir ki, insanın təbiəti psixologiyası və təfəkkürü etibarilə eynidir. Elə buna görə də müxtəlif

xalqların mədəniyyəti vahid və eyni yollarla inkişaf edir. Taylor sivilizasiya ilə mədəniyyəti eyniləşdirərək hesab edir ki, mədəniyyət daha geniş mənada cəmiyyət üzvü kimi insanın mənimsədiyi biliklərdən, inamlardan, incəsənətdən, mənəviyyatdan, qanunlardan, adətlərdən və bəzi digər xüsusiyyətlərdən ibarətdir (93, 158). Rus filosofu N.Danilevski elan edir ki, etnik birliklərin varlığına xas olan mədəniyyətin tarixi çoxcəhətliliyini nəzərə almaq lazımdır, çünki bunlar bir-birindən fərqlənir və rəqabətli qarşılıqlı fəaliyyətdədir.

Mədəniyyət müəyyən struktura malikdir, başqa sözlə mədəniyyət sisteminin elementləri (normalar, nümunələr, statuslar, təsisatlar, təşkilatlar, qruplar) bir-birilə qarşılıqlı fəaliyyətdədir, sabit əlaqələr yaratmağa qadirdir. Bunların sayəsində mədəniyyətin və cəmiyyətin sabitliyi, onların təkrar istehsalı, mədəni təcrübənin sonrakı nəsillərə verilməsi təmin olunur. Mədəniyyətin elementlərinin müəyyənləşdirilməsi müxtəlif əsaslarla şərtlənir. Lakin bu əsasların müəyyənləşdirilməsində daha geniş yayılan üç başlıca nöqteyi-nəzər diqqəti cəlb edir.

1. Universal və spesifik xüsusiyyətlərin nisbətinə dair iki sfera müəyyənləşdirilir: adi və ixtisaslaşdırılmış mədəniyyət.

İxtisaslaşdırılmış mədəniyyətdə üç funksional bloku fərqləndirmək olar:

- sosial tərkibin (təsərrüfat, siyasi, hüquqi mədəniyyət) mədəniyyət aspekti;
- sosial əhəmiyyətli bilik (dini, bədii, fəlsəfi, elmi mədəniyyət);
- sosial əhəmiyyətli təcrübənin verilməsi kanalları (təhsil, maarif, kütləvi mədəniyyət).



Adi mədəniyyətdə ixtisaslaşdırılmış fəaliyyətə bənzərlik mövcuddur: təşkilati bloka ev təsərrüfatı, şəxsiyyətlərarası münasibətlər, əxlaq və mənəviyyat; idraki bloka mövhumat, adi estetika, "Xalq hikməti", praktiki biliklər; ötürücü bloka oyunlar, səs, söhbət, məsləhətlər və s. vasitəsilə mədəniyyət sferasına aid olan təcrübənin verilməsi uyğun gəlir.

2. Mədəniyyətin inkişaf səviyyəsinin və xüsusiyyətlərinin səciyyələndirilməsi nöqteyi-nəzərdən onun aşağıdakı struktur elementlərini müəyyənləşdirmək mümkündür:

1) İnsanların maddi və mənəvi fəaliyyətinin hazır məhsulları (əmək aləti, məişət əşyaları, təsviri incəsənət əsərləri, musiqi və s.).
2) Maddi və mənəvi fəaliyyətin məhsullarına yiyələnmək bacarığı, onlardan istifadə və lazım olunan səviyyədə istehlak qabiliyyəti, eləcə də praktiki baxımdan istifadə etmək.
3) Yeni maddi və mənəvi sərvətlər yaradılması vərdişləri, üsulları, vasitələri, mədəniyyət sahəsində nailiyyətlərin artmasına istiqamətlənən yaradıcı fəaliyyət. Müvafiq vərdişlərin olmaması cəmiyyəti istehlakçı vəziyyətə düçar edir, başqa sözlə o, mədəniyyət nailiyyətlərindən istifadə edir, lakin yenisini yaratmadan digər mədəniyyət nailiyyətlərindən istifadə etməyə məcbur olur.
4) Cəmiyyətin mədəni inkişafının mövcud səviyyəsini əks etdirən şəxsiyyət tipi. Məsələn, intibah dövrünün adamı, müasir insan haqqında mülahizə yürüdərkən, biz məhz, müvafiq dövrün mədəniyyəti

üçün tipik olan insanı nəzərdə tuturuq.

5) Dil-mədəniyyətin ən mühüm elementlərindən biridir, onun "ruhudur", dildə istər-istəməz bu və ya digər xalqın mədəniyyətinin başlıca cəhətləri ifadə olunur. Dil sayəsində mədəniyyət qorunub saxlanılır, digər nəsillərə verilir və öz mənasını ifadə edir. Dil insanın təfəkkürünə, davranışına, fəaliyyətinə təsir göstərir.

Mədəniyyətin fəlsəfi-sosioloji tədqiqində aşağıdakı məsələlərin həlli məqsədəuyğundur:

- nümayiş etdirilən ideyaların müəyyənləşdirilməsi;
- onların istehsalçılarını üzə çıxarmaq;
- nümayiş etdirilən ideyaların yayılması kanallarını və vasitələrini aydınlaşdırmıq;
- ideyaların sosial qrupların, təsisatların və hərəkatların formalaşmasına və tənəzzülünə təsirini qiymətləndirmək.

Subyektinə görə mədəniyyətin daşıyıcısı büövlükdə cəmiyyət, millətlər, siniflər və digər sosial qruplardır. Ayrıca şəxsiyyətlər də mədəniyyətin subyekti kimi çıxış edir.

Funksional növünə görə mədəniyyəti bu və ya digər cəmiyyət üçün zəruri olan ümumi (aktual) və xüsusi, müxtəlif peşələr üçün zəruri hesab edilən mədəniyyətə ayırmaq olar.

Mənşəyinə görə müəyyən dərəcədə kortəbii surətdə yaranan xalq mədəniyyəti və ziyalılar, peşəkarlar tərəfindən yaradılan "alim" mədəniyyəti mövcuddur.

Növünə görə mədəniyyət maddi və mənəvi komponentlərə malik olması ilə səciyyələnir.

Xarakterinə və "məqsədli əhəmiyyətinə" görə dini və



dünyəvi mədəniyyətlər mövcuddur (12, 96-97).

Mədəniyyət cəmiyyətin bütün mənəvi həyatının vahid-bütöv sistemidir. İnsanın fəaliyyətinin bütün növləri nəticə etibarilə maddi və mənəvi sərvətlərin yaradılmasına istiqamətlənir. İnsanların maddi (istehsal) və mənəvi fəaliyyəti bu fəaliyyət sferasının həm həyata keçirilməsi üsuluna, həm nəticələrinə və eləcə də ictimai əhəmiyyətinə görə bir-birindən fərqlənir. Maddi və mənəvi sərvətlərin məcmuu, onların yaradılması üsulu, bəşəriyyətin daha da tərəqqisi üçün bunlardan bacarıqla istifadə olunması və nəsildən nəslə verilməsi mədəniyyətin məzmununu təşkil edir. Təbiətə mənsub olmayan nə varsa hamısı mədəniyyətə aiddir. Fəlsəfəyə dair ədəbiyyatda elm və onun nailiyyətlərinin istehsala və məişətə tətbiqi dərəcəsi, əhalinin təhsil səviyyəsi, maarifin vəziyyəti, tibbi xidmət, incəsənət, insanların cəmiyyətdəki davranış normaları, məntiqi təfəkkürə malik olmaq, maddi və mənəvi tələbatın inkişaf səviyyəsi və insanların mənafeyi mənəvi mədəniyyət anlayışına aid edilir (121, 762). Mənəvi mədəniyyətin digər mühüm tərkib hissəsi dindir. Mənəvi mədəniyyət eləcə də "əşya" formasında məsələn, kitab, rəsm, kino, memarlıq tikililəri (qurğuları), heykəltaraşlıq və digər formalarda mövcuddur. Müasir nəslin istifadə etdiyi bütün bunlar yalnız o zaman mədəniyyət və insan ruhunun tam zənginliklərinin xəzinəsi kimi çıxış edir ki, məhz insan zəkası ilə əlaqəyə malikdir. Beləliklə, mədəniyyət bəşəriyyətin həm maddi sahədə və həmçinin mənəvi istehsal sferasında əldə etdiyi nailiyyətləri əhatə edir. O, nəinki bilikləri və eləcə də insanın praktiki və nəzəri vəzifələri həll etməsinə imkan verən vərdişləri özündə təcəssüm etdirir. Mədəniyyətin inkişafının çıxış formasını və ilk mənbəyini insan əmə-

yi, onun həyata keçirilməsi üsulları və nəticələri təşkil edir.

İnsanın həyatı və cəmiyyət mədəniyyətdən kənarda mövcud ola bilməz. Hər bir yeni nəsil öz həyatını yalnız təbiətin əhatəsində deyil, həmçinin özündən əvvəlki nəsillərin yaratdığı maddi və mənəvi sərvətlər aləmində başlayır. Qabiliyyət, bilik, insani hisslər, bacarıq yeni nəslə irsən verilmir, məhz yaradılan mədəniyyəti mənimsəmək gedişində yornalaşır. İnsan mədəniyyəti yaratdığı kimi mədəniyyət də insanı yaradır.

Mədəniyyət əvvəlki nəsillər tərəfindən yaradılan maddi və mənəvi sərvətlərin passiv şəkildə saxlanması kimi təsəvvür olunmamalıdır, yalnız sosial tərəqqi naminə bəşəriyyətin ondan fəal yaradıcı istifadə etməsi mənasında başa düşülməməlidir. Cəmiyyət təkraristehsalı və özünütəkmilləşdirməsini məhz, əldə olunmuş mədəniyyət sərvətlərini yaradıcı surətdə yenidən işləyib hazırlamaq sayəsində həyata keçirir. Mədəniyyət yalnız insanların fəaliyyətinin nəticəsi kimi səciyyələnmir. O, həm də insanın hisslərinin təzahür üsulu və təfəkkür səviyyəsi kimi çıxış edir. Şüur və mədəniyyət vahid reallıqdır, bir aləmdir, bir sistemdir. Mədəniyyət üçün insanın təsəvvürü böyük əhəmiyyətə malikdir.

Mədəniyyət bu və ya digər ictimai fəaliyyətin tərəflərindən biri kimi səciyyələnir. Bununla bağlı olaraq onun müxtəlif xüsusi üsulları təzahır edir. Başqa sözlə, mədəniyyət ictimai tərəqqinin, sosial inkişafın ölçüsüdür, humanist məqsədlərin təcəssüm dərəcəsidir və mənəvi sərvətlərin birləşməsinin xüsusi formasıdır. Hər bir konkret birlik, eləcə də sivilizasiya həmişə özünün mükəmməl supermədəniyyətini yaradır. Fərdlərin həyatı boyu onlara təsir göstərən həmin mədəniyyət daim nəsildən-nəslə verilir. Nəticədə tarixi prosesdə çoxlu mədəniyyət yaranır. Bu elmi dildə mədəniyyət universallığı adlandırılır. Məşhur amerika sosioloqu və etnoqrafı Corc Merdok bütün cəmiyyətlərə xas olan 60 mədəniyyət nümunəsi müəyyənləşdirmişdir. Din, simvollar, əmək alətinin hazırlanması, cinsi məhdudluq, adət, hədiyyə vermək, idman və sairə bu qəbildəndir. Həmin mədəniyyət nümunələrinin mövcudluğu bununla şərtlənir ki, onlar mühüm bioloji, psixoloji və sosial tələbatı daha çox təmin edirlər. "Ruhun səltənəti" kimi səciyyələndirilən mənəvi mədəniyyət bu və ya digər dərəcədə ictimai həyatın bütün sferalarında nəzərə çarpır. Lakin o, daha əhatəli, geniş və çoxcəhətli şəkildə mənəvi həyat sferasında öz əksini tapır. Hər bir cəmiyyətin mənəvi həyatı həmin cəmiyyətdə mənəvi mədəniyyətin inkişaf dərəcəsi və nailiyyətləri ilə səciyyələnir. Mənəvi mədəniyyət nəinki yaradılan və yaradılmaqda olan (və gələcəkdə də yaradılacaq) mənəvi sərvətlərin məcmuunu və istehlakını, nəinki mövcud cəmiyyətin əvvəlki inkişaf mərhələsindən mədəni irs kimi saxladığı sərvətləri, eləcə də mənəvi sərvətlərin yayılmasını və istehlakını ehtiva edir, mədəniyyət müəssisələrini, təhsil sistemini və kütləvi informasiya vasitələrini özündə birləşdirir (11, 403).

Mədəniyyət müxtəlif cür maddi və mənəvi sərvətlərin məcmuu kimi səciyyələndiyi üçün "sərvət" anlayışının özünü qısaca da olsa aydınlaşdırmaq məqsədəuyğundur. "Sərvət" terminini elmə ilk dəfə böyük alman filosofu İ.Kant gətirmişdir. Sərvət dedikdə maddi və ya mənəvi həyatın bu və ya digər obyektinin müəyyənləşdirilməsi başa düşülür. Başqa sözlə, real faktlar, hadisələr, xüsusiyyətlər nəinki dərk edilir, qavranılır, eləcə də qiymətləndiri-

lir, insanda məhəbbət və ya nifrət hissi oyadır. Deməli, belə qənaətə gəlmək olar ki, sərvət subyektiv – obyektiv reallıqdır. Bir sözlə, sərvət maddi və mənəvi varlığın ictimai mahiyyətini ifadə edir.

Mədəniyyətin müasir vəziyyəti cəmiyyət üzvlərinin öz gündəlik həyat şəraitini dəyişməsi prosesinə fəal təsirinin nəticəsi olmaqla sosial praktikanın mühüm tərəfi kimi çıxış edir.

Fəlsəfi ədəbiyyatda spesifik sosial fenomen olmaq etibarilə mədəniyyətin inkişafında bir neçə başlıca qanunauyğunluq müəyyənləşdirilir:

- Mədəniyyət tipinin təbiət və cəmiyyət həyatının süni şəraitindən asılılığı və onun özünün bu şəraitə əks təsiri;
- Mədəniyyətin inkişafında varislik. Bu, müvəqqəti (vertikal) və məkan daxilində (horizontal), pozitiv (bu və ya digər mədəniyyət ənənələrinin davamı) və neqativ (əvvəlki mədəniyyət sferasına aid təcrübəni inkar etmək) şəkildə olur;
- Mədəniyyətin inkişafında qeyri bərabərlik. Bu iki aspektdə ifadə olunur. a) mədəniyyətin çiçəklənməsi və tənəzzülü ictimai həyatın digər sferasında çiçəklənmə və tənəzzül dövrü ilə üst-üstə düşmür (məsələn, iqtisadiyyatda). b) mədəniyyətin öz növləri qeyri bərabər inkişaf edir. Məsələn, bu gün bədii, siyasi mədəniyyətin lazımi səviyyədə inkişafını etiraf ediriksə, bunu əxlaqi mədəniyyətə aid edə bilmərik və ya indiki ekoloji partlayış vəziyyətini inkar etmək mümkün deyil;
- Mədəniyyət sferası ilə bağlı olan prosesdə şəxsiyyətin rolu;
- Mədəniyyətin inkişafında və fəaliyyətində elmin və texnikanın yeri (4, 83).



Mədəniyyət anlayışında insan yaradılan yox, yaradan, xarici şəraitə, əhatə olunduğu aləmə passiv şəkildə deyil, məhz dəyişdirici təsir göstərən tarixi subyekt kimi təcəssüm olunur. Ümumiyyətlə, mədəniyyət bəşər təcrübəsinin qorunub saxlanmasında və nəsildən nəslə verilməsində əhəmiyyətli rol oynayır. Bu, onun funksiyaları vasitəsilə reallaşır. Adətən mədəniyyətin yaradıcı və humanist funksiyasına daha çox üstünlük verilir. Belə mövqe kifayət edirmi? Həmin sualı cavablandırmaq üçün mədəniyyətin funksiyalarının təsnifatı mənəvi istehsalın strukturuna müvafiq olaraq verilməlidir. Bu mənada onun başlıca funksiyaları aşağıdakılardır:

- Yeni normaların, sərvətlərin, biliklərin istehsalı və yeni mənəvi istehsal funksiyası. Biliklərin, sərvətlərin istehsalının tarixi təkamülü ehtimaldan elmi sistemə istiqamətlənir;
- Mədəniyyətin toplanması, saxlanması və verilməsi funksiyası. Mədəniyyət həm keçmiş haqqında yaddaşdır, həm də zamanı qoruyan;
- Müəyyən məqsədə yönəlmə funksiyası. Bu funksiyada insan fəaliyyətinin məqsədlərini, perspektivini və planlarını ifadə edir;
- Kommunikativ funksiya və fərdlər arasında və ya birliklər arasında qarşılıqlı fəaliyyət. O, sosial ünsiyyəti, qarşılıqlı anlaşmanı təmin edir;
- Sosiallaşdırıcı funksiya. Normalar, biliklər, tərbiyə, ünsiyyət fərdlərin sosiallaşması vasitəsi kimi

çıxış edir;

- İnteqrativ fnuksiya. Mədəniyyət insanları birləşdirir, bir-birinə qovuşdurur, birliklərin, qrupların bütövlüyünü təmin edir;
- Qeyri-inteqrativ funksiya. Adamların bu və ya digər subkultura əsasında birləşməsini təmin edən mədəniyyət həm də subkulturaları bir-birinə qarşı qoymaq, bir-birindən ayırmaq qabiliyyətinə malikdir;
- İnformasiya funksiyası. Bu funksiya sosial təcrübənin mənimsənilməsi kimi səciyyələnir, keçmiş, indi və gələcək arasındakı əlaqəni həyata keçirir;
- Normativ tənzimləyici funksiya – o halda təzahür edir ki, mədəniyyət insanın davranışına sosial nəzarət vasitəsi kimi çıxış edir;
- Disfunksiya – latent (gizli) funksiyası. Funksional plyuralizm bu və ya digər mədəniyyət hadisəsinin xarakteristikası kimi mənalana bilər. Mövcud funksiya subyektiv motivləşmə ilə fəaliyyətin real funksiyası arasında ziddiyyət şəklində nəzərə çarpır;
- İdrakı (qnoseoloji) funksiya – dünya və insan haqqında biliklərin müxtəlif formalarda – elmi, texniki, incəsənət, əxlaq, din, fəlsəfə formasında toplanmasını ehtiva edir;
- Sərvət – yönümü funksiyası. Həmin funksiya belə bir cəhəti əks etdirir ki, mədəniyyət müəyyən əlaqələndirmə sistemini, "həyati sərvətlər xəritəsini" yaradır və insan bunlara oriyentasiya (istiqamət) götürür.



### 1.2. Mədəniyyətlə sivilizasiyanın nisbəti

Mədəniyyətin xüsusi sferası kimi onun ən böyük kompleksi sivilizasiyadır. Düzdür, sivilizasiyanı tez-tez mədəniyyətlə eyniləşdirmək cəhdlərinə təsadüf olunur. Bununla müəyyən mənada razılaşmaq olsa da həmin iki məvhum həmişə bir-birinin sinonimi kimi işlədilmir.

Sivilizasiya problemi bugün ön plana keçmişdir. Bu problemə maraq bir neçə səbəblə şərtlənir. Əvvəla, müasir dünyada elmi-texniki inqilabın inkişafı Qərbin və Şərqin bütün ölkələrində istehsalın avtomatlaşdırılmış, informasiyalı və texnoloji üsulunun sürətlə formalaşmasına imkan yaradır. İkincisi, Qərb və Şərq sivilizasiyası ilə əlaqədar mübahisələr bugün həmişəkindən daha artıq dərəcədə nəzərə çarpır.

Sivilizasiya alimlər tərəfindən iki mənada başa düşülür. Birinci halda "sivilizasiya" sözü "barbarlığı" əvəz edən tarixi dövr kimi qeyd edilir, başqa sözlə, o bəşəriyyətin inkişafının yüksək mərhələsini ifadə edir. İkinci halda sivilizasiya coğrafi məkanla əlaqələndirilir, yəni lokal (yerli), regional və qlobal sivilizasiya mənasında səciyyələndirilir, məsələn, şərq və qərb sivilizasiyası. Belə sivilizasiyalar iqtisadi quruluşla və mədəniyyətlə (normalar, adətlər, ənənələr, simvollar) fərqləndirilir. Şərq və qərb sivilizasiyaları spesifik dəyərlərə, fəlsəfəyə, həyat prinsiplərinə əsaslanmaqla məhz iqtisadi sistemləri və mədəniyyətləri ilə fərqlənirlər. Latın dilində "sivilis" sözündən götürülən "sivilizasiya" məvhumu vətəndaş, dövlət kimi mənalanır.

Sivilizasiya termini elmi ədəbiyyatda XVIII əsrdə təzahür etmişdir (Türqo, Mirabo, Ferqyuson tərəfindən işlədilmişdir). Fransız tarixçisi L.Favr iddia edir ki, "sivili-

zasiya" sözü ilk dəfə 1766-cı ildə fransız mətnində (Holbax tərəfindən), 1773-cü ildə isə ingilis mətnində işlədilmişdir. Almaniya "mədəniyyət" termininin mənəvi vətəni hesab olunursa, müəyyən mənada Fransanı da "sivilizasiya" termininin vətəni saymaq olar.

XIX əsrin başlanğıcında meydana çıxan "sivilizasiyanın etnoqrafik konsepsiyasının" əsasını belə bir təsəvvür təşkil edir ki, hər bir xalqın öz sivilizasiyası vardır (T.İuffrua). XVIII əsrin ikinci yarısında – XIX əsrin başlanğıcında "sivilizasiyanın" başa düşülməsində bütövlükdə üç nöqteyi nəzər mövcud idi:

1. unitar (sivilizasiya vahid bütövlük kəsb etməklə bəşəriyyətin mütərəqqi inkişaf idealı kimi);
2. mərhələli (sivilizasiya bütövlüyə malik olmaqla bəşəriyyətin inkişaf mərhələsi kimi);
3. lokal-tarixi (sivilizasiya keyfiyyətcə müxtəlif unikal etnik və ya tarixi-ictimai-birlik kimi). Həmin dövrdə F.Gizo özünün "Sivilizasiyanın etnotarixi konsepsiyasında" bildirdi ki, bir tərəfdən lokal (yerli) sivilizasiyalar, digr tərəfdən isə onların üzərində yüksələn insan cəmiyyətinin tərəqqisi sivilizasiyası təşəkkül tapır və inkişaf edir.

Hazırda elmi ədəbiyyatda sivilizasiya çoxmənalı məzmun kəsb edən termin kimi başa düşülür:

1. Sivilizasiya mədəniyyətin sinonimii kimi mənalandırılır.
2. Sivilizasiya vəhşilik və barbarlıq dövründən sonra cəmiyyətin ən yüksək inkişaf mərhələsi baxımdan qiymətləndirilir (L.Morqan, F.Enqels).
3. Sivilizasiya sosiumda sosial inteqrativ münasibətlərdə maddiləşdirilən, əmək bölgüsünü ifadə edən cəmiyyətin strukturu kimi müəyyənləşdirilir. Sivilizasiyanın təkamülü ilk öncə elmin və texnikanın inkişafı ilə şərtlənir.



Sivilizasiyaya aid yuxarıdakı mülahizələrdən aydın olur ki, mədəniyyət bəşəriyyətin sosial tarixinin universal və qədim kateqoriyasıdır. Sivilizasiyanın fəallıq sferası isə maddi mədəniyyətlə məhdudlaşır və yalnız cəmiyyətin təkamülünün müəyyən mərhələlərində təzahür edir. Sivilizasiyanın təsnifatı elmdə mürəkkəb problem kimi səciyyələnir və böyük fikir ayrılığı ilə diqqəti cəlb edir. İstər-istəməz ayrı-ayrı müəlliflər sivilizasiyaların əsasının müxtəlif prinsiplərlə müəyyənləşdiyini bildirirlər. Sivilizasiyanın ətraflı təsnifatını A.Toynbi özünün "Tarixin başa düşülməsi" əsərində işləyib hazırlamışdır. O, həmin əsərində 21 canlı və məhv olmuş sivilizasiyanın mövcudluğunu göstərir. Toynbinin nöqteyi-nəzəri və sivilizasiyanı müəyyənləşdirməsi prinsipləri ciddi tənqidə məruz qalsa da onun sistemləşdirməsindən tez-tez istifadə olunur. O.Şpenqerə görə sivilizasiya son dərəcə texnologiyaya aid olduğundan mədəniyyətin antitezası (ona qarşı duran) kimi səciyyələnir. Şpenqlerə qədər belə konsepsiyanı K.L.Leontev inkişaf etdirmişdir. N.Y.Danilovski və A.Toynbi iddia edirlər ki, dünya sivilizasiyası xəyaldır, real tarixə məhz lokal sivilizasiya yiyələnir. Həmin fikirlə razılaşan P.Sorokinə görə lokal sivilizasiya xüsusi ideoloji prinsiplər və mədəniyyət sərvətləri əsasında qurulan bənzərsiz sistemdir (116, 175). Sivilizasiya probleminin görkəmli təlqiqatçısı sayılan fransız alimi F.Brodel belə qənaətə gəlir ki, sivilizasiya qarşılıqlı fəaliyyətdə olan sosial, iqtisadi, siyasi və mədəni-psixoloji yarımsistemlərin məcmuundan əmələ gələn bütöv tarixi sistemdir.

Sosial (və ya biososial) yarımsistem insanın mövcudluğuna aid olan nə varsa hamısını, həyat tərzini, əhali-

nin təkraristehsalını (mənzil, qidalanma, sağlamlıq, gigiyena, əmək, istirahət, təhlükədən qorunmaq, ailə, qohumluq) birləşdirir. İqtisadi yarımsistem özündə istehsalı, istehlakı, mübadiləni, iqtisadiyyatın tənzimlənməsini, texnikanı, kommunikasiya sistemini əks etdirir. Siyasi yarımsistem insanlar arasında təsisatlı münasibətləri: normaları, adətləri, hüququ, partiyaları, ictimai hərəkatları, digər siyasi təşkilatları əhatə edir. Nəhayət, mədəni-psixoloji yarımsistem mənəvi həyatın bütün təzahürlərini – sərvətləri, normaları, işarə-kommunikasiya sistemini özündə birləşdirir. Brodelə görə sivilizasiya hər şeydən əvvəl, coğrafi vəziyyətlə əlaqədar olan "mədəni-tarixi zonadır". O, başlıca diqqəti insanların maddi fəaliyyətinə yönəldir, bunun texnoloji və əşya tərəfini təhlil edir. Cəmiyyətin mədəni sosial differensasiyası, onun tənzimlənməsinin başlıca prinsipləri, mahiyyətli əlaqələri və iyerarxiyası Brodelin diqqətindən kənarda qalır. Amerika alimi Xantinqton da belə mövqedən çıxış edərək sivilizasiyanı "insanların mədəni eyniyyətinin ən geniş səviyyəsi" kimi mənalandırır. Kantın fikrincə, "sivilizasiya insanın insani həyat qaydalarını və insanı davranışı müəyyən etməsi ilə başlanır, sivilizasiyalı insan başqalarına pislik etməməlidir, o, bunu hökmən nəzərə almalıdır. Sivilizasiyalı insan nəzakətlidir, ədəblidir, mehribandır, diqqətlidir, başqa adamlara hörmət edir". Kant mədəniyyəti isə qəti əxlaqi imperativlərlə əlaqələndirir və qeyd edir ki, bu fenomen praktiki gücə malik olmaqla insanın hərəkətlərini ümumi qəbul olunmuş normalarla müəyyən etmir, insanın özünün əsaslandığı əxlaqla, onun vicdanı ilə şərtləndirir.

Kantın mədəniyyət və sivilizasiya probleminə belə yanaşması maraqlı və aktualdır. Təəssüf ki, bugün cəmiyyətimizdə insanların davranışında, ünsiyyətində sivilizasiyalılıqdan uzaqlaşma müşahidə olunur, insanın və cəmiyyətin mədəniyyəti problemi kəskinliyi ilə üzə çıxır. "Sivilizasiya insan cəmiyyətinin inkişafının elə səviyyəsidir ki, sosial sistemlər inteqrasiyaya məruz qalır". Zənnimizcə, sivilizasiya dedikdə bir tərəfdən bütövlükdə mədəniyyətin və cəmiyyətin inkişaf səviyyəsi, digər tərəfdən bütün ictimai həyatı, onun spesifikliyini müəyyən edən mədəni sərvətlərin (maddi və mənəvi) mənimsənilməsi üsulu başa düşülür. Sivilizasiyanın – mədəniyyətin və cəmiyyətin inkişaf səviyyəsi etnoqrafik, tarixi, sosioloji və fəlsəfi ədəbiyyatda daha çox öz əksini tapmışdır. Məhz, sivilizasiyanın bu əlamətinin tədqiqində hər şeydən əvvəl mədəniyyətin sivilizasiya ilə eyniləşdirilməsinə cəhd edilmişdir. Sivilizasiyanın digər əlaməti – mədəniyyətin mənimsənilməsi üsulu isə nəinki sovet fəlsəfi ədəbiyyatında, eləcə də possovet məkanında və həm də öz cəmiyyətimizdə kifayət qədər tədqiq olunmamışdır. Həmin əlamətə dair biliklərə yiyələnmək olduqca vacibdir, bəşəriyyətin inkişafının ictimai-tarixi praktikası istər-istəməz göstərir ki, mədəniyyətin mənimsənilməsi üsulu necədirsə, sivilizasiyaya yiyələnmək üsulu da elədir. Heç də təsadüfü deyil ki, biz Şərq və Qərb sivilizasiyalarını fərqləndiririk. Qərbdə sərvətlərə rasionalist mövqedən yanaşma, onların fəaliyyətini hər şeydən əvvəl, elm vasitəsilə başa düşmək üstünlük təşkil edir. Şərqdə isə sərvətlərin mənimsənilməsi dini-fəlsəfi ənənələr əsasında həyata keçirilir. Bununla yanaşı həmin sərvətlərin fəaliyyətinə elmi yanaşma bu gün Şərqdə də getdikcə əhatəli xarakter kəsb edir.

Sivilizasiyaya yiyələnmək problemi Qərb və Şərq, Şimal və Cənub, Asiya, Afrika, Avropa, latın Amerikası

mədəniyyətlərinin yaxınlaşmasını başa düşməyə kömək edir. Axı, bu yaxınlaşma real proses olmaqla bütün dünya və hər bir insan üçün böyük praktiki əhəmiyyətə malikdir. Mədəniyyəti mənimsəmə üsulu olmaqla sivilizasiya haqqında danışarkən, biz insanların elə həyatfəaliyyəti vasitələrini və metodlarını nəzərdə tuturuq ki, o mədəniyyətin özünün inkişafına müəyyənedici təsir göstərir (əmək fəaliyyəti və s.). Hazırda fəlsəfi ədəbiyyatda insan cəmiyyətinin yeni, bütün xalqlar üçün ümumi olan vahid postindustrial (informasiyalı, texnotron) sivilizasiyaya daxil olması haqqında fikirlərə tez-tez təsadüf olunur. Bəşəriyyət texniki və texnoloji inkişaf nöqteyi-nəzərdən vahid istiqamətdə – "industrial sivilizasiya" vasitəsilə "industriala qədər sivilizasiyadan" "postindustrial sivilizasiyaya" irəliləyir. Postindustrial sivilizasiya üçün mexaniki maşın sistemi deyil, məhz, mikroelektronikaya və istehsalın avtomatikaya əsaslanan avtomatlaşdırılması səciyyəvidir.

Elə sivilizasiyalar mövcuddur ki, ilk öncə texnikanın inkişaf səviyyəsi ilə seçilir. Qərb tədqiqatçıları D.Bell, Q.Kan, Z.Bjezinski, R.Aron və başqaları onları "industriala qədər", "industrial" və "postindustrial" sivilizasiyalar adlandırırlar. Postindustrial sivilizasiya hazırda "informasiyalı", "texnotron" və s. sivilizasiya kimi mənalandırılır. Əslində həmin texniki sivilizasiyalar özünün texniki inkişaf səviyyəsinə və onu mənimsəməyin öz spesifik üsuluna malikdirlər, başqa sözlə, insanı istehsal fəaliyyəti, əmək vərdişləri, istehsal təcrübəsi, istehsalın idarə olunması formaları və s. ilə qovuşdurur. Adlarını qeyd etdiyimiz texniki sivilizasiyaların hər biri üçün öz texniki inkişaf səviyyəsi və texnoloji subyekt olmaq etibarilə özünə məxsus insanı səciyyəvidir. Texniki sivilizasiyanın problemi həm də mənəvi sivilizasiyanın inkişaf problemidir. Məhz, mənəvi sivilizasiya milli mədəniyyətlərin münasibətlərini, onun mənəvi dəyərlərini ifadə etməklə texniki sivilizasiyanın əsl simasını müəyyən edir. Beləliklə, sivilizasiya qlobal anlayış olmaqla cəmiyyətin mədəni inkişafının dərəcəsini və xüsusiyyətlərini əks etdirir.

Lakin bu məhz sivilizasiya kimi mürəkkəb hadisəni başa düşməyin aspektlərindən biridir. Alimlər sivilizasiya nədir sualını birmənalı cavablandırmaqdan, ona münasibətdə vahid rəyə gəlməkdən uzaqdırlar. Bəzi tədqiqatçılar həmin anlayışı tarixi dövrlərə aid edərək antik, orta əsrlər və müasir sivilizasiyalar haqqında mülahizələr yürüdürlər, digərləri onu coğrafi yerlə əlaqələndirərək lokal, regional və qlobal sivilizasiyaların mövcudluğundan söhbət açırlar. Üçüncü qrupa aid müəlliflər dini və sosialmədəni meyarları əsas götürərək Avroaziya, müsəlman, xristian və digər sivilizasiyaların müqayisəli təhlilinə cəhd edirlər. R.Uilyams qeyd edir ki, mədəniyyət nə isə sivilizasiyaya alternativ kimi meydana gəlmişdir. Sivilizasiya dedikdə, bir tərəfdən cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, digər tərəfdən isə mədəni dəyərlərin (maddi və mənəvi) mənimsənilməsi səviyyəsi nəzərdə tutulur ki, bu da bütün ictimai həyatı və onun spesifikliyini göstərir".

Bir sözlə, sivilizasiya mədəniyyətin inkişafının müəyyən hissəsi və ya dərəcəsidir. Tədqiqatçıların əksəriyyəti belə bir fikirlə razılaşır ki, sivilizasiya dedikdə intellektin və mənəviyyatın inkişafı, xalqların insanîləşməsinin dərəcəsi və səviyyəsi nəzərdə tutulur.

Dolğun-metodoloji planda "sivilizasiya" anlayışının şərhinə bir neçə yanaşmanı qeyd etmək olar: kulturoloji, sosioloji, etnopsixoloji, coğrafi.

Kulturoloji yanaşma çərçivəsində M.Veber və sonra A.Toynbi sivilizasiyanı müəyyən məkan-zaman çərçivəsi ilə məhdudlaşan və dinə əsaslanan xüsusi sosial-mədəni fenomen kimi araşdırmışlar. Toynbi hətta texnoloji inkişafın dəqiq ifadə olunmuş parametrlərini də göstərmişdir. Bəzi tədqiqatçılar sivilizasiyanı yalnız eyni dinə mənsub olan insanlar arasındakı münasibətlərin cəmi kimi deyil, eləcə də fərdlə dövlət arasındakı münasibətin məcmuu baxımdan açıqlayırlar.

L.Qumilyov etnopsixoloji mövqedən çıxış edərək sivilizasiya anlayışını etnik tarixin xüsusiyyətləri ilə əlaqələndirmişdir. Bəzi hallarda sivilizasiyanın meyarını bu və ya digər xalqın mədəniyyətinin spesifikliyində və psixologiyasında nəzərdən keçirirlər.

K.Yaspers qeyd etmişdir ki, xalqlar arasındakı əsl əlaqə nəsildən, təbiətdən gəlmir, yalnız mənəvi mahiyyət daşıyır. Onun fikrincə, buna görə dünya tarixinin reallığı hər şeydən əvvəl, bəşəriyyətin mənəvi vəhdəti ilə şərtlənir.

Sivilizasiya mədəniyyət tipi olmaq etibarilə fərdlərin və qrupların ümumilik kəsb edən əlaqələrinə əsaslanır. Bu ümumilik yalnız əmtəə-pul istehsal əlaqələrindən irəli gəlmir. Ümumilik forması ictimai istehsalın mənəvi amilləri vasitəsilə şərtlənən (əlbəttə, hər şeydən əvvəl dünya dinlərində) şəxsiyyətlərarası əlaqələr də kəsb edə bilər.

Ümumilik, universallıq sivilizasiyanın ələ ən mühüm əsaslarındandır ki, cəmiyyət yalnız onun çərçəvəsində müxtəlif cür partikulyarlığı (xüsusiyyətləri) mükəmməl səviyyədə aradan qaldırmaq imkanı əldə edir. Ümumilik aşağıdakılarda ifadə olunur: a) mənəvilik formalarında, ideyalarda və təlimlərdə, simvollarda və mərasimlərdə. Bunun əhəmiyyəti hər cür etnik, sosial-sinfi, siyasi və təsərrüfat dəyişiklikləri çərçivəsindən kənara çıxır; b) cəmiyyətin təşkilinin struktur prinsiplərində. Əlbəttə, bu prinsiplər müxtəlif şəraitdə sivilizasiyanın strukturunda ayrı-ayrı yer tuturlar. c) universallıq prinsiplərinin saxlanmasına və reallaşmasına imkan yaradan təsisatların və elitanın fəaliyyətində. Belə fəaliyyətdə xüsusi status və mənəvi imtiyazların təmin olunmaası da istisna deyil.

Ümumiliyin təşəkkülü uzun və mürəkkəb proses olmaqla xeyli nəsillərin gərgin və böyük iş aparmasını tələb edir. O, ictimai şüurun yüksək səviyyəsində elə prinsiplərin, ideyaların və simvolların formalaşmasına imkan yaradır ki, bunlar hər cür lokal səviyyədə adi məqsədlərdən, təsəvvürlərdən və prinsiplərdən yüksəkdə durur.

Qeyd edək ki, dövlətin cəmiyyət üzərində üstünlüyünün təmin olunmasının özü ümumilik sferasının formalaşması meyli kimi səciyyələnir. Bu o deməkdir ki, idarə edən şəxsin xüsusi statusu dövlətin təcəssümü kimi çıxış edir. Rəhbərə, İmperatora, Prezidentə sitayiş ayrı-ayrı dövrlərdə və müxtəlif cəmiyyətlərdə cəmiyyətin bu və ya digər təbəqələrinin qarşı durması səviyyəsini zəiflətməyə xidmət vasitəsi olmuşdur, hərçənd ki, pərəstişin intensivlik səviyyəsi mədəniyyətdən və cəmiyyətdə qərarlaşan şəraitdən asılı olaraq dəyişmişdir.

Sivilizasiya ictimai varlığın və fəaliyyətin differensasiyasının daha yüksək dərəcəsini təmin edir. O, xalqların mütərəqqi inkişafına imkan yaradır. Sivilizasiya əmək bölgüsünün dərinləşməsi ilə müşahidə olunur (fiziki və zehni, sadə və mürəkkəb). Maddi və mənəvi istehsal arasında səmərəli qarşılıqlı fəaliyyət mürəkkəbləşir və eyni zamanda təşəkkül tapır. Bu hər şeydən əvvəl, obyektiv sosial-iqtisadi mexanizmlər əsasında baş verir. Həyat fəaliyyətinin

müxtəlif növlərinin spesifik vəzifələri eləcə də subyektiv amilin – ünsiyyətin mənəvi mexanizmi və fəaliyyətin stimullaşdırılması vasitəsilə həyata keçirilir.

Sivilizasiya müxtəlif etnik qruplar və əhalinin mədəni qrupları arasındakı, inkişaf etmiş və inkişafdan qalan xalqlar arasında mövcud olan fərqlərin silinməsinə istiqamətlənir. Sivilizasiya özündə gerçəkliyin tarixi ölçüsünü təcəssüm etdirir. O, keçmiş, indii və gələcək arasındakı əlaqə problemini, başqa sözlə varislik problemini həll edir.

İndinin mənalandırılması və gələcəyin proqnozlaşdırılması tarixə müraciət etmədən mümkün deyildir. Cəmiyyət tarixdə özünün elə mühüm ölçüsünü tapır ki, bunsuz o, mövcud ola bilməz və özünü hər zaman sıfırdan başlamaq təhlükəsi ilə üzləşdirər.

Tarix hər şeydən əvvəl, özünün mövcudluq sferasına malik olan tarixi biliklərdə təcəssüm olunur. Bununla yanaşı tarix mədəniyyət dəyərlərində – normalarda, biliklərdə, oriyentasiyalarda, inamlarda, düşüncələrdə, adətlərdə müəyyənləşir. Klassik sivilizasiyanın təşəkkülü ilə cəmiyyətin mənəvi həyatında baş verən mühüm irəliləmə şəxsiyyətin mənəvi potensialının formalaşmasında öz ifadəsini tapmışdır. İnkişaf etmiş mədəniyyətlərdə sərvətlər və şüur formaları şəxsiyyətin daxili qabiliyyətinin cilalanmasına yönəlməklə onun intellektual və əxlaqi seçimini bərqərar edir. Təsadüfi deyil ki, fəlsəfi-dini təlimlərin qnoseoloji, ontoloji və etnik komponentləri şəxsiyyətin aləminə istiqamətlənir. Həmin istiqamətlər öz qanunauyğunluğuna malikdir, bir-birilə ziddiyyətli qarşılıqlı fəaliyyətdədir. Onlar hər bir konkret sivilizasiyada müxtəlif cür təzahür etmişlər və böyük elmi müqayisələrin predmetinə



xidmət etməyə yönəlmişdir. Əlbəttə, sivilizasiya özündə həmçinin maddi komponentləri (şəhər, peşə və s.) və siyasi strukturu (dövləti), birləşdirir, lakin sivilizasiyalı strukturun müəyyənlik xaraktkrini məhz mənəvi istehsal şərtləndirir, sivilizasiya mədəni-tarixi birliyin müxtəlif tiplərini və dinamikliyini əks etdirir. Mövcud sivilizasiyanın başlıca cəhətləri və strukturu sonrakı inkişaf mərhələsinə keçildikdə yox olmur. Bundan əlavə sivilizasiyanın xarakteristikası və ahəngi indiki ictimai inkişafa, cəmiyyətin sosial-mədəni həyatına əhəmiyyətli dərəcədə təsir göstərir.

Tarixin dərinliyinə nüfuz etsək özünün həyat yolunu başa çatdırmış sivilizasiyaları nəzərdən keçirmək zərurəti yaranır: qədim misir, şumer, babilistan, ellin, bizans və digərləri bu qəbildəndir. Lakin onlar da hansı plandasa bəşəriyyətin mənəvi yaddaşında və həmin sivilizasiyaların varisi olan regionların mədəniyyətində saxlanılır. Yeri gəlmişkən qeyd edək ki, Toynbiyə görə hazırda yaşamaqda davam edən beş sivilizasiya mövcuddur. O "Tarixin başa düşülməsi" adlı əsərində bu sivilizasiyaların adlarını qeyd edir:

- Qərb xristianlığının birləşdirdiyi qərb cəmiyyəti;
- Cənub-Şərqi Avropada və Rusiyadakı pravoslav-xristianlıq və ya bizans cəmiyyəti;
- İslam cəmiyyəti – Şimali Afrikadan və Orta Şərqdən Böyük Çin düzünə qədər;
- Tropik subkontinental Hindistandakı induizm cəmiyyəti;
- Cənub-Şərqi Asiyanın subtropik və mülayim rayonlarındakı uzaqşərq cəmiyyəti.

Hazırda qərb politoloqları dünyanın vahid iqtisadi və

siyasi unifikasiyası (vahid şəklə salınması) ideyasına üstünlük verərək "vahid sivilizasiya" və "tarixin sonu" haqqında tezisi müdafiə edirlər. Onlar qərb cəmiyyətini birlik və bütövlük kəsb edən unikal sivilizasiya kimi əsaslandırmağa çalışırlar. Beləliklə, mədəniyyət-sivilizasiya sferasına xas olan plüralizmi təhrif edirlər. "Vahid sivilizasiya konsepsiyası" çərçivəsində ictimai tərəqqi barədə saxta təsəvvürlər meydana çıxır.

V.S.Neypol iddia edir ki, qərb sivilizasiyası universaldır və bütün xalqlar üçün yarayır. Müasir elmdə sivilizasiya probleminə aid bir-birinə zidd olan nöqteyi-nəzərlər diqqəti cəlb edir. Məsələn, M.Moss güman edir ki, sivilizasiya fenomeni əslində "millətlərarası və millətlərdən kənar mövcuddur. Onlar bir-birinə çox və ya az bənzəyən cəmiyyətlərin xeyli hissəsi üçün ümumi ola bilər" (117, 10).

Bebsterin tərtib etdiyi məşhur lüğətdə sivilizasiya belə səciyyələndirilir: "İctimai proses sivilləşir, ictimai təşkil yüksək qaydada olması ilə diqqəti cəlb edir, incəsənətin, elmin, insanların, xalqların, ölkələrin total mədəniyyəti tərəqqi etməsilə fərqlənir, belə güman olunur ki, bunlar ictimai və mədəni inkişafın yüksək zirvəsinə çatmışlar". Belə bir cəhəti qeyd edək ki, bəzi müasir mədəniyyətşünaslığa dair (kulturoloji) konsepsiyalarda mədəniyyətin maddi və mənəvi sferalarını nəinki bir-birindən ayırmaq, hətta onları bir-birinə qarşı qoymaq halları da nəzərə çarpır. Bu cür təsəvvürün özü də müəyyən nəzəri məna kəsb edir. Belə mənalandırma insanın vahid nəzəri-tarixi varlığının iki tərkib hissəsi olan mədəniyyət və sivilizasiya ilə əlaqədardır. Düzdür, adi praktikada həmin anlayışlardan tez-tez bir-birini əvəz edən ifadə kimi istifadə edirik,



başqa sözlə onları bir-birinin sinonimi hesab edərək deyirlər: qədim sivilizasiya və ya qədim mədəniyyət, sivil insan və ya mədəni insan, lakin sivilizasiya və mədəniyyət anlayışlarına bu cür münasibət ümumi qəbul edilən hal deyildir, xüsusilə nəzəri səviyyədə. Elmi planda mədəniyyət və sivilizasiya nəinki bir-birinə qarşı qoyulmamalıdır, əksinə, onlar ayrılmaz vəhdətdə və qarşılıqlı təsir baxımdan nəzərdən keçirilməli və başa düşülməlidir.

Sosiomədəni birlik olan sivilizasiya insanların maddi və mədəni fəaliyyətinin cəmi kimi çıxış etməklə öz məcmuu etibarilə cəmiyyətin xarakteristikasının mədəni-sərvətli aspektidir. Sivilizasiyanın inkişaf səviyyəsinin başlıca göstəricisi mənəvi mədəniyyətdir. Bu onunla bağlıdır ki, mənəvi mədəniyyət məhz, cəmiyyətin sosial iqtisadi uğurlarına əsaslanmaqla həyat fəaliyyətinin formalarını, ictimai təkraristehsalın üsulunu, ictimai inkişaf qanunlarının reallaşması xarakterini müəyyənləşdirir. Cəmiyyətin yeni texnologiyaya qabiliyyətli münasibəti, ictimai əlaqələrin bütün sisteminin məzmunu mənəvi mədəniyyətin məzmunundan asılıdır.

Sivilizasiya bəşər cəmiyyətinin inkişafının qlobal səviyyəsini əks etdirir və bu prosesdə sosial sistemlərin inteqrasiyası baş verir. Sivilizasiya "barbarlığı" əvəz edən tarixi mərhələni, başqa sözlə, bəşəriyyətin yüksək inkişaə mərhələsini təcəssüm etdirir. Osvald Şpenqlerin fikrincə, sivilizasiya mədəniyyətin inkişafının yüksək mərhələsidir, onun tənəzzülünün sonudur. Bəşəriyyət mövcudluğunun bütün tarixi ərzində sivilizasiya şəraitində zaman etibarilə iki faizdən artıq yaşamamışdır.

Şpenqler 1918-ci ildə yazdığı "Avropanın süqutu" əsərində tarixin morfologiyası nəzəriyyəsini işləyib hazır-

layır. Bu nəzəriyyə mahiyyət etibarilə tarixin dövrlərə ayrılması (qədim, orta, yeni əsrlərə) ideyasını qəbul etmir. Həmin nəzəriyyəni irəli sürməklə Şpenqler sivilizasiyaya belə bir tərif verir: "Sivilizasiya son dərəcə xarici və son dərəcə süni vəziyyətlərin elə məcmuudur ki, adamlar inkişafın axırıncı mərhələsinə çatmağa qadirdirlər" (151, 41).

Bir sözlə, sivilizasiya ilk növbədə maddi və texnoloji proseslə bağlı olmuşsa, mədəniyyət məhz ideal, mənəvi proseslə əlaqədar təzahür etmişdir və öz əsasında yüksək bəşəri dəyərləri təcəssüm etdirmişdir.

Sivilizasiya şəxsiyyətin, sosial qrupların və cəmiyyətin mədəniyyəti inkişaf etdirmək naminə fəaliyyət prosesi olmaqla müxtəlif formalarda (siyasi, dini, etik, etnomilli və s.) həyata keçirilir. Sivilizasiyaların bir-birini əvəz etməsi prosesində mənəvi mədəniyyət sivilizasiya prosesinin mahiyyətli-aparıcı tərəfi kimi çıxış edir. Mədəniyyətin hər bir yeni səviyyəsi sivilizasiyanın daha da inkişafını səciyyələndirir, sivilizasiya isə mədəni-mənəvi fəaliyyət forması kimi çıxış etməklə cəmiyyətin mənəvi tərəqqisi üçün zəruri şərait yaradır. İctimai təkraristehsalın üsulu kimi səciyyələnən sivilizasiya ilə mədəniyyət qarşılıqlı fəaliyyətdə olmaqla qırılmaz əlaqəyə malikdir. Bunların qarşılıqlı fəaliyyəti isə cəmiyyətin inkişafının istiqamətini (tərəqqini, irticanı, böhranı, tənəzzülü, və s.) müəyyənləşdirir. Əgər subyektiv amilin böhranlı vəziyyəti nəticəsində cəmiyyət tarixin səsinə cavab vermirsə, belə sivilizasiya nəinki tənəzzülə uğrayır və hətta ölümə məhkumdur. Asteklərin və inklərin sivilizasiya tarixi buna aydın sübutdur (asteklər Meksikada yaşayan hindu qəbilələrindən biridir, inklər isə Peru ərazisində yaşamış yüksək mədəniyyətli qədim xalqdır).



Mədəniyyəti özünəməxsus şəkildə dərk etməsindən çıxış edərək Kant "qabiliyyət mədəniyyətini" "tərbiyə mədəniyyətinə" qarşı qoymuş, mədəniyyətin sırf xarici, "texniki" tipini isə sivilizasiya adlandırmışdır. O sivilizasiyanın coşqun inkişafını qabaqcadan görmüş və bunu həyəcanla başa düşərək sivilizasiyanın mədəniyyətdən ayrılmasını bildirmişdir: mədəniyyət sivilizasiyaya nisbətən irəliyə doğru çox ləng gedir. Bu zərərli uğursuzluq dünya xalqları üçün xeyli fəlakət doğurur. Mənəvi ölçüyə əsaslanmayan sivilizasiya bəşəriyyətin texniki cəhətdən özünüməhvinə gətirib çıxarar. Heç də təsadüfi deyildir ki, "mədəniyyət" və "sivilizasiya" məvhumları ilə bağlı mübahisələr daim nəzərə çarpır, bəzən bu mübahisələr kəskin xarakter daşıyır, müəyyən hallarda həmin məvhumlar yalnız başa düşülür, təbii olaraq eləcə də sinonimli anlayışlar kimi işlədilir. Bir sözlə, mədəniyyət də, sivilizasiya da bəşəriyyətin zəkasına və əlinə aid olan işdir.

Mədəniyyət insanın fəaliyyətindən ayrılmazdır, onun tərəqqisi fərdlərin və sosial qrupların mədəni-tarixi yaradıcılıqda iştirakı ilə səciyyələnir. A.Toynbi qeyd edir ki, "mədəniyyət elementi sivilizasiyanın ruhu, qanı, limfası, mahiyyətidir..., sivilizasiyanın hərəkətverici qüvvəsidir" (125, 355-356).

Sivilizasiya cəmiyyətin özünü müdafiəsinin dəyişməzliyidir, sosial statikanın daşıyıcısıdır. O, bir qisim yaradıcı şəxsiyyətlər tərəfindən formalaşır və eyni zamanda bu qismin özünü formalaşdırır, tarixin "çağırışına" cavab vermək qabiliyyətinə malikdir, sosial dəyişikliklərə təkan verir.

## 1.3. Şəxsiyyət bütövlük kəsb edən sosial fenomendir

Fəlsəfədə şəxsiyyət problemi o mənada səciyyələnir ki, şəxsiyyət olmaq etibarilə insanın mahiyyəti nədə ifadə olunur, dünyada və tarixdə onun yeri necə müəyyənləşdirilir. Fəlsəfi fikirdə şəxsiyyət ictimai ideallarin, sərvətlərin, ictimai münasibətlərin, insanların fəaliyyətinin və ünsiyyətinin ifadəsi və subyekti kimi araşdırılır. Şəxsiyyətin keyfiyyətləri həm tarixi planda və eləcə də "şəxsi məişət" aspektində onun tarixi tipinin, konkret vəziyyətinin və xüsusiyyətlərinin formalaşmasına böyük təsir göstərir.

İnsan problemi bütün fəlsəfə üçün ən əhəmiyyətli məsələdir, tarixin inkişafının dönüş mərhələsində xüsusi aktuallıq kəsb edir. Bu problem nəinki ayrıca fərdin, həm də bütün cəmiyyətin mövcudluğunun mənası və məqsədləri baxımdan həmişə daha kəskin məsələ kimi səciyyələnir. Antik dövrün müdriklərindən biri çox dəqiq və obrazlı şəkildə demişdir: insan üçün insanın özündən maraqlı obyekt yoxdur. Təsadüfi deyil ki, Protaqor insanı bütün şeylərin ölçüsü adlandırırdı. Elə buna görə də qədim dövrdən indiyə qədər bu ideya fəlsəfənin başlıca dünyagörüşü və metodoloji prinsipi kimi çıxış edir.

İnsan haqqında fəlsəfi biliklərin müxtəlifliyinə baxmayaraq ona fəlsəfi mövqedən yanaşma hər şeydən əvvəl, insanın mahiyyətinin, fəallığı formalarının konkret-tarixi şərtlənməsinin üzə çıxarılmasını, varlığının çoxcəhətli tarixi mövcudluq formalarının açıqlanmasını nəzərdə tutur. Əməyin, sosial münasibətlərin subyekti kimi çıxış edən insan mənəvi-maddi varlıqdır.

"Şəxsiyyət" anlayışının sosial fəlsəfi təhlili baxımdan



ilk öncə "insan", "fərd" və "şəxsiyyət" anlayışlarının konkret müqayisəli izahı metodoloji zərurətdir.

İnsan haqqında ilk təsəvvür fəlsəfənin təşəkkülündən əvvəl yaranır. Tarixin başlanğıc mərhələlərində insanlar şüurun mifoloji və dini formalarına malik idilər. İnsanın fəlsəfi mənada başa düşülməsinin büllurlaşması formalaşmaqda olan fəlsəfə ilə mifologiya arasındakı dialoq bazasında baş verir. Beləliklə, insan haqqında ilk təlimlər Qədim Şərq dövlətlərində yaranır. Antik yunan fəlsəfəsində insan mütləq qaydaları və səmanı dərk edən müəyyən münasibətlər sistemində başa düşülür. Orta əsrlərdə insan hər şeydən əvvəl, Allah tərəfindən yaradılan dünya qaydalarının bir hissəsi kimi nəzərdən keçirilir. Yeni dövrün fəlsəfəsi insana humanizm prinsipi, insanın muxtarlığı, onun sonsuz imkanlarına inam nöqteyi-nəzərdən diqqət yetirir. Klassik alman fəlsəfəsində fəlsəfi tədqiqatların mərkəzində məhz, insan dayanır. Müasir fəlsəfi antropologiya insan problemi ilə bağlı müxtəlif və ziddiyyətli məktəb və istiqamətləri özündə əks etdirir. Hələ vaxtilə İ.Kant belə bir qənaətə gəlmişdi ki, fəlsəfədə cəmi üç sual mövcuddur, fəlsəfə də məhz bu sualları cavablandırmalıdır: Mən nəyi bilməliyəm? Mən nəyə ümid etməliyəm? Mən nə etməliyəm? Həmin suallara cavabı üstüörtülü saxlayan bu böyük filosof ölümündən bir qədər əvvəl yazdığı "Məntiq" əsərində isə belə bir suala cavab verməyə çalışır: İnsan nədir? Müasir fəlsəfi antropologiya insan problemi ilə bağlı müxtəlif və ziddiyyətli məktəb və istiqamətləri özündə əks etdirir.

İnsan həqiqətən sirli varlıqdır. Bu varlıq öz mahiyyətində bioloji, sosial, mənəvi-psixoloji komponentləri ehtiva edir.

"İnsan", "fərd" və "şəxsiyyət" anlayışları adi və elmi dildə tez-tez bir-birinin sinonimii kimi işlədilsə də fərqli məna çalarlarına malikdirlər. İnsan ən ümumi anlayışdır və insanlara xas olan bütün ümumi keyfiyyət və xüsusiyyətləri səciyyələndirmək baxımdan işlədilir. Həmin anlayış mənşə etibarilə insan nəslinin (homo sapiensin) digər canlılar aləminindən ayrıldığı vaxtdan etibarən meydana çıxır və həyat fəaliyyətinin qabiliyyətinə görə başqa maddi sistemlərdən fərqlənir. Bu həyat fəaliyyəti sayəsində insan tarixi inkişafın bütün mərhələlərində, yer kürəsinin bütün nöqtələrində öz-özünə oxşarlıq nümayiş etdirir və müəyyən antoloji statusunu saxlayır.

İnsan mürəkkəb bütöv sistemdir, lakin öz növbəsində daha mürəkkəb sistemin-bioloji və sosial sistemlərin komponentidir. Bu onunla şərtlənir ki, insan həm bioloji və eləcə də sosial varlıqdır. İnsan biososial varlıq kimi necə formalaşmışdır? Antropogenez* problemin mahiyyəti məhz bundan ibarətdir. "İnsan fenomeninin" gözəl tədqiqatçısı fransız filosofu, bioloqu və antropoloqu Pyer Teyyar de Şardenin sözləri ilə desək, insan "təkamülün mehvəri və zirvəsidir" və insanı şərh etmək mahiyyət etibarilə dünyanın necə yaranmasını və bu yaranışın nə cür davam edəcəyini öyrənməyə cəhd etmək deməkdir. İnsanın mahiyyəti mücərrəd deyil, konkret-tarixi xarakter daşıyır, başqa sözlə, o, prinsipcə sosial məzmun kəsb etməklə dövrün konkret məzmunundan, sosial-mədəni və mədəni-məişət kontekstindən asılı olaraq dəyişir.

İnsan hadisə olmaq etibarilə zamanla daha sərt şəkildə bağlıdır, zamanın dəyişməsi və inkişafı ilə əlaqədar

* Antropogenez – yunan dilində anthropos - insan, genesis isə - mənşə kimi mənalanmaqla insanın mənşəyi haqqında təlim deməkdir.



ciddi çətinliklərə məruz qalır. Belə bir fəlsəfi kəlamı nəzərə çatdırmaq yerinə düşər: "əgər sən nəyisə dərk etmək istəyirsənsə onun necə yarandığını öyrən". Bu mənada insan məhz biososial varlıq kimi yaranır və təşəkkül tapır. O törəmə, zəkalı, mədəni, əxlaqi, siyasi, dini və s. varlıqlır. İnsanın mahiyyətində bioloji ilə sosialın nisbəti məsələsinə dair müxtəlif fikirlər mövcud olsa da müasir fəlsəfi ədəbiyyatda bu məsələ ilə bağlı iki mövqe diqqəti cəlb edir. Həmin mövqelərdən birinə görə insanın təbiəti bütövlükdə sosial məna daşıyır. Digər nöqteyi-nəzər insanın təbiətinin nəinki bioloji, eləcə də sosial mahiyyətə malik olduğunu iddia edir. Başqa sözlə, söhbət onlan gedir ki, insanın həyat fəaliyyəti həm də bioloji cəhətdən şərtlənir və bioloji şərtləndirmə insanın genlərin toplusundan asılılığını müəyyənləşdirir.

Həmin amillərin mövcudluğunu hamı etiraf etsə də insanın inkişafında sosial və bioloji amillərin nisbəti məsələsi bu günə qədər elmi mübahisələr obyektidir. Dünya alimlərinin çoxu insanın mahiyyətində bioloji və sosial ünsürləri bir-birinə qarşı qoyur, onlardan birini digərindən ayırır, bioloji amili heyvani və ya insanda qeyri-insani xüsusiyyət kimi əsaslandırmaqla səy göstərir. "Naturalizm" cərəyanının nümayəndələri insanın mahiyyətində və inkişayında bioloji ünsürləri mütləqləşdirirlər. Bu məqsədlə dövrümüzün məşhur etoloqu K.Lorensin belə bir fierinə haqq qazandırırlar ki, "insanın varlığının müxtəlif ziddiyyətlərini aydınlaşdırmaq üçün etiraf etmək lazımdır ki, insanın sosial davranışı... özündə elə qanunauyğunluqları əks etdirir ki, biz bunları heyvanların davranışını öyrənən zaman daha yaxşı bilirik". Əlbəttə, insan sosial varlıq olmaqla yanaşı həm də təbiətin yetirməsidir, o öz bioloji tə-

biətindən təcrid olunmaqla fəaliyyət göstərə bilməz. İnsanın bioloji mahiyyəti onun mənşəyində ifadə olunur. İnsanda sosial və bioloji ayrılmaz vəhdətdədir, bunlar "sosial keyfiyyət" kimi səciyyələnən şəxsiyyətin təbii əsasını təşkil edirlər.

Qeyd etmək vacibdir ki, insanın mahiyyətində sosial və biolojinin nisbətini araşdıran bəzi konsepsiyalarda iki nöqteyi-nəzər diqqəti cəlb edir. Həmin nöqteyi-nəzərlərdən biri sosial amillərin rolunu mütləqləşdirir – pansosiologizm mövqeyindən çıxış edir, digəri bioloji amili həddən artıq qiymətləndirərək panbiologizm aspektinə üstünlük verir. Birinci halda insan sosial mühitin mütləq məhsulu kimi (təmiz lövhə mənasında) səciyyələndirilir. Bu konsepsiyanın tərəfdarları nəinki insanın mahiyyətini, eləcə də onun mövcudluğunu sosial mühitin təsiri ilə əlaqələndirirlər. İkinci konsepsiyaya bioloji mahiyyət daşıyan müxtəlif təlimlər aiddir. Buna xüsusilə, bir irqin digərindən üstünlüyünü iddia edən irqçi nəzəriyyə misal ola bilər. İrqçiliyin əsassızlığı onda ifadə olunur ki, insanın genotipinin xüsusi halı irqi səviyyədə deyil, məhz fərdi səviyyədə qiymətləndirilir və qiymətləndirilməlidir də. Təbiətdə heç bir irqi, milli və ya sosial genotip mövcud deyildir.

Müasir sosiobioloqların fikrincə, insanın təbiəti barədə təsəvvürlərdə prinsipial dəyişikliklər "mənşə-mədəni təkamül nəzəriyyəsinə" aid edilməlidir. Həmin nəzəriyyənin mahiyyəti bundan ibarətdir ki, üzvi (mənşə etibarilə) və mədəni təkamül prosesləri birlikdə baş verir. Lakin bu prosesdə üstünlük mənşəyə aid edilir, o xeyli insani hərəkətlərin son səbəbi kimi nəzərə çatdırılır. Buna görə insan özlüyündə bioloji birliklərin obyekti kimi çıxış edir. Məsələn, E.O.Vilson "insan da daxil olmaqla canlıların hamısının bütün sosial davranış formalarının bioloji əsaslarının öyrənilməsini" sosiobioloqların vəzifəsi kimi müəyyənləşdirilir. Onun nəzəriyyəsinin başlıca müddəası bundan ibarətdir ki, insanın bioloji təbiətindən kənarda yaranan "transendental" məqsədlər ola bilməz. Unutmaq olmaz ki, insanda sosialın biolojiyə təsiri bununla səciyyələnir ki, insanda bioloji sosial formada həyata keçirilir və təmin olunur.

Şəxsiyyət probleminin öyrənilməsi baxımdan "fərd" anlayışının açıqlanması daha vacibdir. O, hər hansı bütövün bölünməz hissəsi kimi səciyyələnir. Həmin özünəməxsus "sosail atom", ayrıca insan yalnız insan nəslinin tək nümayəndəsi kimi deyil, eləcə də bu və ya digər sosial qrupun üzvü kimi nəzərdən keçirilməlidir. Bu ən sadə və mücərrəd insan xarakteristikası məhz, digər fərdlərdən ayrılmağı ifadə edir (ilk növbədə cismani). Lakin ayrılmaq (təcrid olunmaq) onun mühüm xarakteristikası deyildir, çünki fəlsəfə tarixində və sosial-tarixi fikirdə fərdiyyətçiliyi əks etdirən fəlsəfi-etik konsepsiyalar təşəkkül tapmışdır. Həmin konsepsiyalar fərdin bütövlüyü haqqında təsəvvürlərdən çıxış edərək şəxsiyyətin hər hansı sosial birlikdən üstünlüyünü əsaslandırmağa cəhd etmişlər. İnsan fərd kimi insan nəslinin tək (ayrıca) nümayəndəsi baxımdan nəzərdən keçirilir. Bu anlayışın müəyyənləşdirilməsi üçün spesifik xarakteristikaya ehtiyac duyulmur. Fərd çoxsaylı insan varlıqlarından biridir və həmişə qeyri-şəxsiyyət kimi səciyyələnir. Bu mənada "fərd" və "şəxsiyyət" həm həcminə və eləcə də məzmununa görə bir-birinə əks anlayışlardır. "Fərd" anlayışı özündə insana xas olan hər hansı fövqəladə və şəxsi xüsusiyyətləri əks etdirmir, buna görə də o, məzmunca sadədir, lakin həcminə görə

daha zəngindir, çünki hər bir insan fərddir. "Fərd" anlayışında nə bioloji, nə də sosial keyfiyyətlər təzahür etmir, bununla belə həmin keyfiyyətlər nəzərdə tutulur .

Cəmiyyətdə konkret insanlar yaşayır və fəaliyyət göstərir. Bəşəriyyətin ayrı-ayrı nümayəndələrinin mövcudluğu məhz, "fərd" anlayışında ifadə olunur. Fərd insan nəslinin tək nümayəndəsi, bəşəriyyətin bütün sosial və psixoloji cəhətlərinin konkret daşıyıcısı kimi səciyyələnir, başqa sözlə, insan zəkasının, iradəsinin, tələbatının, mənafeyinin və s. ifadəçisi kimi çıxış edir. "Fərd" anlayışı belə halda "konkret insan" mənasında işlədilir. Məsələnin bu cür qoyuluşunda müxtəlif bioloji amillərin (yaş xüsusiyyətləri, cins, temperament) fəaliyyət xüsusiyyətləri, eləcə də adamların həyat fəaliyyətinin müxtəlif sosial şəraiti qeyd olunur.

Əgər biz "insan fərdi" (və ya insani fərd) deyiriksə bütün insanların nəsli birliyini və insan nəslinin ayrıca nümayəndəsini nəzərdə tuturuq. Lakin biz hər hansı digər keyfiyyətləri göstərməyə cəhd ediriksə, ən xüsusi sosial qrupları ayırmaqla hökmən anlayışın həcmini məhdudlaşdırırıq. Məsələn, "yoxsul adamlar" və ya "dövlətli (zəngin) adamlar" deyərkən biz artıq insanları müəyyən qruplara ayırmaqla onları digər qruplardan təcrid edirik. Anlayışı nə qədər çox konkretləşdirsək onun həcmi bir o qədər məhdudlaşacaq, məzmunu isə zənginləşəcək. Son nəticədə fərdi, ayrıca insanı şəxsləndirmə yolu ilə biz insan nəslinin tək, fərdi təsəvvürünə gəlib çıxacağıq. Bu planda son dərəcə şəxsləşdirilmiş fərd məhz, şəxsiyyətdir. Şəxsiyyət məzmunca xeyli zəngin anlayış olmaqla insana xas olan ümumi və xüsusi əlamətləri eləcə də ayrıca, nadir xüsusiyyətləri özündə ehtiva edir. "Fərd" anlayışı ilə bağlı yürütdüyümüz mülahizələr məntiq nöqteyi-nəzərindən



məhz belədir. Fərdiyyətçiliyin müxtəlif variantlarında insan bütövlükdə dünyaya əks olan varlıq kimi başa düşülür, onun şüuru isə məntiqi olaraq subyektivizmə və solipsizmə* gətirib çıxaran yeganə reallıq səviyyəsində təsəvvür olunur.

Fərdiyyətçilik insanın sadəcə olaraq "atomarlığı" (bölünməzliyi) deyil, hər şeydən əvvəl, onun təkliyinin və özünəməxsusluğunun xarakteristikasıdır. Q.İ.Qurdciyev ədalətli olaraq iddia edir ki, insan çoxluqdur və onda "fərdiyyət yoxdur, ... ayrıca böyük Mən yoxdur".

İnsanın sosial – fəaliyyətli mahiyyəti hər şeydən əvvəl, şəxsiyyətin formalaşmasının baş verdiyi prosesdə, başqa sözlə fərdin sosiallaşması əsasında reallaşır, A.N.Leontevin dəqiq ifadə etdiyi kimi, "şəxsiyyət doğulmur, şəxsiyyət təşəkkül tapır". Sosiallaşma nə qədər ki, dinamik xarakter daşıyır, şəxsiyyətin təşəkkülü bir o qədər daimilik kəsb edir. Hər bir fərd özünəməxsus xüsusiyyətlərə malik olmaq hüququna malikdir. Bu, onun sosiallaşma ilə genişlənən təbii göstəricisidir.

A.Q.Spirkinin qeyd etdiyi kimi, fərd xüsusi ayrıca bütövlük olmaq etibarilə bir sıra xüsusiyyətlərlə səciyyələnir: morfoloji və psixofizioloji mütəşəkkilliyi, mühitlə qarşılıqlı fəaliyyətdə sabitliyi, fəallığı ilə (122, 357). Fərd anlayışı məhz, insanın tədqiqinin predmetli sahəsini qeyd etmək üçün ilkin şərtdir.

"İnsan" və "fərd" anlayışlarının konkret açıqlanması "şəxsiyyət" anlayışının təhlilinə xidmət edir. Ümumiyyətlə, şəxsiyyət fərdin inkişafının nəticəsidir, bütün insani keyfiyyətlərin daha tam şəkildə təcəssümüdür. Şəxsiyyət

* Solipsizm - yalnız şəxsi şüuru yeganə gerçəklik hesab edən və obyektiv varlığı danan ifrat subyektiv idealizmdir.

anlayışı insanşünaslığın çox mürəkkəb məsələlərindəndir. Qədim yunan dilində "liçina" sözündən götürülən şəxsiyyət məvhumu maska kimi mənalanır. Avropa dillərində "şəxsiyyət" sözü latın termini olan "person" məvhumuna aid edilir ki, bu da aktyorun teatrdakı maskalarını ifadə edir. Təsadüfi deyil ki, qədim yunan teatrlarında şəxsiyyət maska mənasını daşıyırdı. Başqa sözlə, aktyorların istifadə etdiyi maska real həyatdakı bu və ya digər insan tipini mənalandırırdı. Buradan belə qənaətə gəlmək olar ki, şəxsiyyət anlayışı adamların simasında və davranışında sosial əhəmiyyətli xüsusi cəhətlərin səciyyələndirilməsi tələbi kimi meydana gəlmişdir (14, 146).

Qeyd etmək lazımdır ki, şərq dillərində (çin, yapon) şəxsiyyət anlayışı insan şəxsiyyətindən çox onun cismi ilə əlaqələndirilir. Avropa ənənəsində şəxs cisimlə müxalifətdə nəzərdən keçirilir, belə halda istər-istəməz şəxs insanın ruhunu simvollaşdırır, lakin çin təfəkkürü üçün "həyatilik" anlayışı səciyyəvidir ki, bu da özündə fərdin cismani və mənəvi keyfiyyətlərini təcəssüm etdirir. Həm Şərq və eləcə də Qərb təfəkküründə öz "simasını" başqa sözlə, şəxsiyyətini qoruyub saxlamaq insan ləyaqətinin qəti imperativi hesab olunur, bunsuz isə bizim sivilizasiyamız insani adlanmaq hüququnu itirmiş olardı.

İnsanın sosial mahiyyətini səciyyələndirərək V.Solovyev qeyd edir ki, cəmiyyət təkmilləşmiş, genişlənmiş şəxsiyyətdir, şəxsiyyət isə sıxılmış və ya bir yerə yığılmış cəmiyyətdir. Bu görkəmli alim buradan belə bir nəticə çıxarır ki, insan əzəldən şəxsi-ictimai varlıqdır və bütün tarix tədricən ikitərəfli, şəxsi-ictimai həyatın dərinləşməsi, yüksəlişi və genişlənməsidir. Əlbəttə, insanın məqsədləri prinsipindən çıxış edərək unutmaq olmaz ki, ayrıca şəxsiyyət həyati varlığı tamamilə reallaşdırmaq vəziyyətində deyildir. Mövcud cəmiyyətin sosial əhəmiyyətli cəhətlərinin fərdi daşıyıcısı kimi çıxış edən hər bir insan şəxsiyyət anlayışına daxildir. Şəxsiyyət sosial mahiyyət kəsb edən bioloji-sosial varlıqdır. İnsanların sosial inkişafının ümumi səviyyəsi isə onların mənəvi aləmindən kənarda təsəvvür oluna bilməz. Şəxsiyyət fərdin xarakterində konkret ifadə olunan sima kimi çıxış edir.

Şəxsiyyətin xüsusiyyətlərinin təşəkkülü və inkişafının təhlili baxımdan onun formalaşmasına təsir göstərən amillərin nəzərə çatdırılması vacibdir. Həmin başlıca amillər bunlardır: 1) bioloji irsiyyət; 2) fiziki əhatə; 3) mədəniyyət; 4) qrup halında təcrübə; 5) subyektiv, unikal fərdi təcrübə. Əlbəttə, şəxsiyyətin formalaşmasına xüsusi təsir göstərən bu amillərin təhlilini qarşımıza məqsəd qoymamışıq. Lakin dissertasiya işinin məqsədi və vəzifələri baxımdan şəxsiyyətin təşəkkülündə mədəniyyətin əhəmiyyətinə diqqət yetirməyi vacib sayırıq. İlk öncə qeyd etmək lazımdır ki, hər hansı cəmiyyətin müxtəlif inkişaf mərhələsində olmasından asılı olmyaraq müəyyən mədəni təcrübə ənənələri bütün bəşəriyyət üçün ümumilik kəsb edir. Belə ki, insanların hamısı dil vasitəsilə ünsiyyətdə olur, cəzalandırma və ya mükafatlandırma təcrübəsinin tətbiqi ümumi xarakter daşıyır. Bu cür daha ümumi mədəni təcrübə nümunələri çoxdur. Eləcə də bu və ya digər cəmiyyət praktiki olaraq özünün bütün üzvlərinə elə spesifik mədəniyyət nümunələri bəxş edir ki, bunlar digər cəmiyyətdə mövcud deyil. Məsələn, müsəlman mədəniyyəti şəraitində formalaşan şəxsiyyət xristian dünyasında tərbiyə olunmuş şəxsiyyətlə müqayisədə başqa xüsusiyyətlərə malik olur. Bununla bağlı məşhur Amerika tədqiqatçısı

G.Dyuboysun gəldiyi qənaətə diqqət yetirmək yerinə düşər. Bu alim qeyd edir ki, şəxsiyyət mövcud cəmiyyət üçün ümumi olan cəhətlərə yiyələnən modal varlıqdır. Dyuboys modal şəxsiyyət dedikdə bütövlükdə cəmiyyətə xas olan mədəniyyət xüsusiyyətlərini mənimsəyən və tez-tez təsadüf edilən şəxsiyyət tipini nəzərdə tutur. Modal şəxsiyyət özündə elə ümummədəni dəyərləri ifadə edir ki, bunlar cəmiyyət tərəfindən mədəni təcrübə prosesində öz üzvlərinə bəxş edilir. Başqa sözlə, bu və ya digər cəmiyyət öz mədəniyyətinə uyğun gələn bir və ya bir neçə əsaslı şəxsiyyət tipini inkişaf etdirir.

Elmi ədəbiyyatda şəxsiyyətin bir neçə böyük sosial tipləri nəzərə çatdırılır ki, bunlar da bəşəriyyətin inkişafının bütün tarixi gedişində diqqəti cəlb edir.

Şəxsiyyətin ilk tipi "xadimlər" - ovçular və balıqçılar, hərbiçilər və sənətkarlar, əkinçilər və fəhlələr, mühəndislər və geoloqlar, tibb işçiləri və müəllimlər, menecerlər və sairədir. Belə şəxsiyyət üçün başlıca cəhət fəal fəaliyyət, dünyanı və özü də daxil olmaqla digər insanları dəyişdirmək hesab olunur.

İkinci tip mütəfəkkirlərdir. Bu insanlar Pifaqorun dediyi kimi, dünyaya yarışmaqçın və alver etmək üçün yox, məhz ona baxmaq və düşünmək üçün gəlirlər. Özündə nəslin ənənələrini və onun tarixi yaddaşını təcəssüm etdirən müdriklərin, mütəfəkkirlərin obrazı həmişə böyük nüfuz sahibləri tərəfindən istifadə olunmuşdur.

Üçüncü tip hissi və emosional insanlardır. Belə şəxsiyyət tipi kəskin hissiyyata malikdir, H.Heynenin təbirincə "dünyanın çatı" onların qəldindən keçir. Belə insanlar hər şeydən əvvəl, ədəbiyyat və incəsənət xadimləridir.

Dördüncü tip humanistlər və mücahidlərdir. Bunlar



başqalarının qəlbini kəskin hissiyyatla duymağa səy göstərmələri ilə fərqlənirlər. Şəxsiyyətin müxtəlif mədəniyyətlərdə dərk olunması həm də onun fərdi cəhətlərini ifadə edən sözlərin sayı ilə müəyyən olunur. Belə bir cəhəti qeyd etmək lazımdır ki, mədəniyyət insanın həyatında çox ziddiyyətli rol oynayır. O, dəyərli davranış nümunələrinin möhkəmlənməsinə və digər nəsillərə verilməsinə imkan yaradır. Mədəniyyət mənəvi aləm yaratmaqla insanı canlılar aləmindən fərqləndirir və onların fövqündə qərarlaşmasını təmin edərək, insanların ünsiyyətini şərtləndirir. Digər tərəfdən mədəniyyət əxlaqi normaların köməyilə ədalətsizlik, xürafat, qeyri insani davranış və sairəni möhkəmləndirməyə qadirdir. Əsl ədalət yüksək inkişaf etmiş, harmoniyalı kommunikasiyanın kamilləşən məhsuludur. Məhz bununla əlaqədar olaraq sosial ədaləti mədəniyyətin nəticəsi, mədəniyyətin inkişaf səviyyəsindən birbaşa asılı olan hadisə kimi müəyyənləşdirmək olar (121, 36).

Şəxsiyyətin inkişafı və cəmiyyətdə müxtəlif sosial rolları yerinə yetirməsi yalnız insanın fəaliyyəti sayəsində baş verir. Fərd ancaq fəaliyyət prosesində şəxsiyyət kimi çıxış edir və özünü təsdiqləyir.

Müasir fəlsəfi fikirdə şəxsiyyət haqqında iki başlıca konsepsiya mövcuddur. Birinci konsepsiya şəxsiyyəti insanın funksional xarakteristikası və ya rolu baxımdan qiymətləndirir. Digər konsepsiyaya görə şəxsiyyət mahiyyəti ilə səciyyələnir və fərqlənir.

Birinci konsepsiya insanın sosial funksiyası anlayışına, daha doğrusu sosial rol anlayışına əsaslanır. Funksional aspekt şəxsiyyətin fəaliyyətinin necə həyata keçirilməsi ilə şərtlənir. Bu konsepsiya XX əsrin 30-cu illərində Amerika sosial psixologiyasına S.Mid tərəfindən gətiril-

miş, müxtəlif sosioloji cərəyanlarda geniş yayılmışdır və müasir tətbiqi sosiologiyada böyük əhəmiyyət kəsb edir. Lakin bütün əhəmiyyətinə baxmayaraq həmin konsepsiya insanın daxili aləmini dərindən açıqlamağa imkan yaratmır, eləcə də onun həqiqi mahiyyətini həmişə ifadə etməyə istiqamətlənmir. Struktur – funksional təhlil nəzəriyyəsinin nümayəndələri, ilk növbədə isə Amerika alimi Tolkot Parsons belə hesab edir ki, şəxsiyyət hər hansı cəmiyyətdə müxtəlif fərdlərə xas olan çoxsaylı sosial rolları həyata keçirən varlıqdır. Sosial rolun sistemləşdirilməsinə ilk səy göstərənlərdən biri məhz M. Parsons olmuşdur.

Şəxsiyyət anlayışını daha dərindən açıqlamağa ikinci konsepsiya xidmət edir, o şəxsiyyətin mahiyyətli xarakteristikasını üzə çıxarır, onun tənzimləyici – mənəvi imkanlarını, iradə mənbəyini və xarakterinin mahiyyətini, azad hərəkətlərinin subyektini, insanın daxili həyatının ali cəhətlərini ifadə edir.

Şəxsiyyətə dair daha məqsədyönlü sayılan axırıncı konsepsiyanın tərəfdarlarından biri, A.Q.Spirkin yazır: "Şəxsiyyət ictimai münasibətlərin və insanların funksiyalarının fərdi əsasıdır, dünyanın dərk olunmasının və dəyişdirilməsinin, hüquq və fəlsəfənin, etik, estetik və bütün digər sosial normaların subyektidir". Məhz, bu mənada şəxsiyyət həmişə mənəvi cəhətdən inkişaf etmiş insandır. Şəxsiyyətin mahiyyətinin səciyyələndirilməsi həmçinin normativ konsepsiyada öz əksini tapır. Funksional və ya sosial rol konsepsiyasından fərqli olaraq bu konsepsiya məcburi və oriyentasiya xarakteri daşıyır, şəxsiyyəti onun əhatəsində olan aləmi müəyyən dərəcədə dərk etmək, qiymətləndirmək və davranmaq formasında araşdırır.

Qeyd etmək lazımdır ki, normativ konsepsiya çərçivəsində şəxsiyyət haqqında sərvət yönümü konsepsiyası təşəkkül tapdı, inkişaf etdi və möhkəmləndi. Sərvət anlayışı üç mühüm cəhəti – şüuru, davranışı və sosial fəaliyyəti səciyyələndirir. B.Frankl qeyd edirdi ki, sərvətlər nəinki fəaliyyəti tənzimləyir, eləcə də insan həyatının mənasını reallaşdırır.

Fəlsəfi ədəbiyyatda şəxsiyyətin mahiyyətinin müəyyənləşdirilməsi digər mövqelərdən də təhlil olunur. Bu baxımdan fəaliyyət konsepsiyası maraq doğurur. Həmin konsepsiyanın tərəfdarlarından olan L.S.Vıqotski şəxsiyyəti hər şeydən əvvəl, fəaliyyətdə olan varlıq kimi araşdırır və belə bir mühakimə yürüdür ki, şəxsiyyətin dərk olunmasına imkan yaradan müəyyənedici amil məhz, "fəaliyyət" kateqoriyasının təhlilidir. Çünki şəxsiyyətin məqsədi, vəzifələri, davranışı və hərəkətləri yalnız onun fəaliyyətində üzə çıxır. Beləliklə, şəxsiyyət insanın sosial və bioloji başlanğıcının yekunlaşdırıcı (son) funksiyası kimi çıxış edir. Şəxsiyyət inteqrativ başlanğıca malik fenomen olmaq etibarilə insanda üç əlamətin – bioloji, sosial və psixoloji komponentlərin məcmuu kimi səciyyələnir. "Şəxsiyyət" onu təşkil edən üç başlıca cəhətin: biogenetik qabiliyyətin, sosial amillərin (mühit, şərait, normalar, tənzimləyicilər) və onun psixososial əsasının məcmuudur (122, 360-364). Müasir fəlsəfi ədəbiyyatda şəxsiyyət anlayışının müəyyənləşdirilməsinə münasibət çoxcəhətlidir.

Görkəmli Amerika psixoloqu və sosioloqu Ç.Kuli uzunmüddətli tədqiqatlar sayəsində şəxsi mənlik konsepsiyasını işləyib hazırlamışdır. Ç.Kuli iddia edir ki, hər bir şəxs əlaqədə olduğu digər adamların reaksiyalarını dərk etməyə əsaslanaraq öz mənliyini yaradır. O belə qənaətə gəlir ki, şəxsiyyətin mənliyi yalnız obyektiv amillərlə şərt-

lənir. Məhz, başqaları ilə münasibətdə, digər adamların verdiyi qiymət əsasında insan özünün ağıllı və ya ağılsız, cəzbedici və ya çirkin, qabiliyyətli və ya səviyyəsiz olduğunu təsdiqləyir. Başqalarının reaksiyası vasitəsilə üzə çıxan insan mənliyi Çarlz Kuli tərəfindən güzgülü mənlik kimi əsaslandırıldı və sosial güzgü konsepsiyası kimi məşhurlaşdı. Corc Midin fərdlərin digər şəxsiyyətləri dərk etməsi prosesinin mahiyyətini açıqlaması nəzəriyyəsi və "başqalarının ümumiləşdirilməsi" barədə görüşlər sistemini inkişaf etdirməsi isə güzgülü mənlik konsepsiyasının müəyyən dərəcədə tamamlanmasıdır.

Amerika alimi A.Xaller C.Midin nəzəriyyəsini tamamlayan "başqalarının əhəmiyyəti" konsepsiyasını işləyib hazırlamışdır. "Digər əhəmiyyətli şəxsiyyət" o fərd hesab olunur ki, göstərişini qəbul edən insan tərəfindən bəyənilir. Şəxsiyyətə aid digər psixoloji konsepsiya Z.Freydin ideyalarının təsiri altında təşəkkül tapmışdır. Z.Freyd insanı ehtiyaclar sistemi, cəmiyyəti isə qadağanlar, haram şeylər sistemi kimi səciyyələndirir. Şəxsiyyətin şüurlu olmayan (düşünülməmiş) cəhdi, səyi onun potensialını və fəallığının mənbəyini yaradır, fəaliyyətini motivləşdirir. Freyd qeyri-şüurlu cəhdlərə ilk növbədə cinsi səyləri aid edir. Bu görkəmli alim şəxsiyyətin üç səviyyəli modelini (tipini) müəyyənləşdirir: qeyri-şüurlu impulslarla səciyyələnən aşağı təbəqə (o), orta təbəqə (mən) və insan tərəfindən dərk olunan ictimai normaları qəbul edən yuxarı təbəqə (mənin fövqündə duran və ya supermən). Ən sərt, təcavüzkar və mübariz təbəqə aşağı fə yuxarı təbəqələrdir. Bunlar hər iki tərəfdən insanın psixikasına "hücum" edərək əsəbi davranış tipini doğururlar. Cəmiyyət nə qədər inkişaf etmiş olarsa yuxarı təbəqə (supermən) durmadan çoxalır, kütləvi və ən sərt xarakter alır. Ümumiyyətlə, Freyd bəşəriyyətin tarixini psixologiyanın inkişaf tarixi kimi araşdırır.

Şəxsiyyətin daha bir obrazını yaratmağa cəhd edən müəlliflərə də təsadüf olunur. B.Skinner, C.Xomans və başqaları şəxsiyyəti müxtəlif stimullara reaksiya verən sistem kimi əsaslandırmağa səy göstərirlər. Bu konsepsiyaya görə hər bir insanın davranışı sosial mühit tərəfindən dil, adətlər, sosial təsisatlar, kütləfi informasiya vasitələri və s. vasitəsilə şərtlənir və nəzarət edilir.

Şəxsiyyətin sosial mahiyyətinə əhəmiyyət verməyən konsepsiyalar da mövcuddur. Bu baxımdan antropoloji dualizm səciyyəvidir. Antropoloji dualizm konsepsiyasının tərəfdarları şəxsiyyətin sosial xarakterini və sosial şərtlənməsini inkar etməyə səy göstərirlər. Bununla bağlı qeyd edək ki, şəxsiyyətin iradə gücü və mənəvi ruhunun qüdrəti, onun əxlaqi mərhəməti və saflığı real praktiki fəaliyyətdən və müəyyən sosial şəraitdən başqa heç bir digər üsulla təsdiqlənə və reallaşa bilməz. Əgər fərd özünü həqiqətən şəxsiyyət hesab edirsə və belə olmağa səy göstərirsə, o yalnız düşüncəsində deyil, hər şeydən əvvəl hərəkətlərində, davranışında məsuliyyətli olmalıdır.

Şəxsiyyətin xarakteristikasını onun azadlığı ilə əlaqələndirməyə cəhd edənlərə də təsadüf olunur. Əlbəttə, buna haqq qazandırmaq olar, çünki azadlıq şəxsiyyətin əsl atributudur. Lakin azadlığı məsuliyyətdən kənarda təsəvvür etmək ağlasığan deyildir. Şəxsiyyət olmaq nə qədər ucalıqdırsa və əhəmiyyətlidirsə özünün və başqalarının qarşısında məsuliyyət daşımaq hissi bir o qədər şərəflidir.

Şübhəsiz, fəlsəfi fikirdə şəxsiyyət anlayışının açıqlanmasına münasibət çoxsaylıdır. Qeyd edək ki, insan haq-

qında söhbət gedəndə ictimai görüş dairəsi məhdud olanlar iddia edirlər ki, insanın mahiyyəti anadangəlmə keyfiyyətdir, şəxsiyyət sonradan yaranmadır, qeyri-irsidir və s. Şəxsiyyət olmaq etibarilə insanın mahiyyətini asanlıqla heçə endirmək, dəyişdirmək və ya ona zərər yetirmək olmaz. Şəraiti dəyişdirməklə şəxsiyyət demək olar ki, tamamilə dəyişilə bilər, eləcə də bu prosesdə onun itirilməsi mümkündür. Öz növbəsində insanın mahiyyəti onun fiziki və zehni vəziyyətinin bazasıdır. "Şəxsiyyət" anlayışının məzmununu təşkil edən cəhətlərin məcmuunun müəyyənləşdirilməsi iki başlıca əhəmiyyətə malikdir:

- Birinci əhəmiyyət şəxsiyyətin sosial dəyərini səciyyələndirir. Şəxsiyyət insani fərddir. Münasibətlərin və şüurlu fəaliyyətin fəal, məqsədyönlü subyektidir. Latın mənşəli percon termini də buna uyğun səslənir*.
- İkinci əhəmiyyət insanın sosial-psixoloji simasının kifayət qədər sabit təzahürünü əks etdirir. Burada şəxsiyyət fərdləri səciyyələndirən daimi və müəyyən sosial dəyərli cəhətlərin məcmuu kimi çıxış edir. Şəxsiyyət empirik fərddən həmişə fərqlənir, çünki o, öz hərəkətlərində və qərarlarında müəyyən dəyərlər sisteminə cəlb olunur. Şəxsiyyət dəyərlər sisteminin özünəməxsus daşıyıcısı olmaqla varlığın şifahi və əşya forması kimi maddiləşir. Buna görə insan öz həyatını düşündüyü ideal plana uyğun təşkil edə bilər və müəyyən dərəcədə onun şəraiti özünə tabe etmək iqtidarında olması mümkündür.

* Latın dilində percon şəxs, zat, insan mənasında səciyyələnir.



Sosial şəxsiyyət insanlarla ünsiyyətdə təşəkkül tapır. Mahiyyət etibarilə o, insanın müxtəlif qruplarda sosial rolları sistemi kimi təsəvvür olunur. Heç də təsadüfi deyil ki, şəxsiyyət barədə mövcud olan konsepsiyaların əksəriyyətində fərdin təbii – fərdi xarakteristikasını adətən "şəxsiyyət" anlayışına aid etmirlər. Bunu düzgün hesab etmək olar, ona görə ki, şəxsiyyət fərdin xarakterində konkret sosial simadır. Lakin qeyd etmək lazımdır ki, təbii fərdiyyət şəxsiyyətin inkişafına öz təsirini göstərir.

İnsanın inkişafının konkret-tarixi xüsusiyyətlərini onun fərdi və tarixi inkişafının müxtəlif səviyyələrində əks etdirmək məqsədilə "fərd" anlayışı ilə yanaşı "şəxsiyyət" anlayışından da istifadə olunur. Belə halda fərd şəxsiyyətin formalaşmasının əsası kimi nəzərdən keçirilir. Şəxsiyyət bütün insani keyfiyyətlərin daha tam şəkildə təcəssümüdür.

Əlbəttə, insanın sosial fərdiyyəti boş yerdə və ya yalnız bioloji zəmində təşəkkül tapmır. İnsan konkret tarixi zamanda və sosial məkanda, praktiki fəaliyyət və tərbiyə prosesində formalaşır. Buna görə şəxsiyyət sosial fərdiyyət olmaq etibarilə həmişə konkret nəticə, sintez və xeyli müxtəlif amillərin qarşılıqlı fəaliyyəti kimi səciyyələnir. Şəxsiyyət nə qədər əhəmiyyətlidirsə bir o qədər insanın sosial-mədəni təcrübəsini mənimsəyir və öz növbəsində onun inkişafına fərdi töhvə bəxş edir. İnsan şəxsiyyət kimi əməli fəaliyyətində təsdiqlənir. Təsadüfi deyil ki, antik çin filosofu Konfutsi yalnız "adamların sözünü eşitməklə" kifayətlənmirdi, eləcə də "onların fəaliyyətinə diqqət yetirirdi". Aristotel isə qeyd edirdi ki, qələbə çələnginə məhz, o şəxslər layiq görülür ki, "yarışda iştirak edirlər". Başqa sözlə, insanın sosial-fəaliyyətinin mahiyyətinin əsasını so-

sial fərd təşkil edir və şəxsiyyətin formalaşması da bu zəmində baş verir. Sosiallaşma fərdin müəyyən biliklər, normalar və dəyərlər sistemini mənimsəməsi prosesidir (133, 485). Məşhur rus filosofu Berdyayev şəxsiyyəti fərddən mənəvi mahiyyətinə və insana xas olan spesifik keyfiyyətlərə görə fərqləndirirdi. O, yazırdı: "Şəxsiyyət mənəvi-dini kateqoriyadır, fərd isə təbii-bioloji kateqoriyadır. Fərd təbiətin və cəmiyyətin bir hissəsidir. Şəxsiyyət nəyinsə bir hissəsi ola bilməz".

Hər bir cəmiyyətdə şəxsiyyətin sosiallaşması prosesi, başqa sözlə insanın fəal, dəyərli varlıq kimi inkişafı məsələsi işlənib hazırlanır. Həmin prosesdə fərdin mövcud cəmiyyətin yaddaşına qovuşması, onun toplanmış ənənələrə yiyələnməsi həyata keçirilir. Şəxsiyyətin sosiallaşması konkret tarixi sosial-iqtisadi strukturdan və mədəniyyət tipinin dəyişməsindən asılıdır.

İnsan fəlsəfəsi məsələsi müasir fəlsəfi antropologiyada da (insanın mənşəyi haqqındakı təlimdə) mühüm yer tutur. Bu fəlsəfi təlim özündə müxtəlif və ziddiyyətli məktəb və istiqamətləri birləşdirir. Fəlsəfi antropologiyaya görə insan mürəkkəb sosial sistem olmaqla yanaşı, daha mürəkkəb-bioloji və sosial sistemin komponentidir. Bu onunla şərtlənir ki, insan həm bioloji və eləcə də sosial varlıqdır. Antropologiya insanın tarixən biososial varlıq kimi necə formalaşması sualına cavab verməyə səy göstərir.

İnsanın mövcudluğu fərdin varlığının bütün çoxcəhətli formada bütöv mahiyyətidir. Bu bütövlük ilk növbədə onda ifadə olunur ki, insan üç başlıca mənbəyin – bioloji, sosial və psixoloji başlantıcın birliyidir, deməli, insan biopsixisosial fenomendir. "Şəxsiyyət" anlayışının dərindən və geniş təhlili onun xüsusi əhəmiyyət daşıyan sosial göstəricilərlə əlaqəsinin açıqlanmasını fəlsəfi nöqteyi-nəzərdən zərurətə çevirir. Bu mənada ilk öncə şəxsiyyət və sosial sərvətlər anlayışlarının nisbətini mənalandırmaq məqsədəuyğundur. Hər bir insan müəyyən sərvətlər sistemində yaşayır və fəaliyyət göstərir. Mövcud sərvətlər sistemi onun tələbatını ödəməyə istiqamətləndirilməlidir. Sözün müəyyən mənasında sərvət şəxsiyyətin mövcudluq üsuludur. Lakin belə müxtəlif sərvətlər onun üçün rəngarəng əhəmiyyət daşıyır. Sərvətlərin iyerarxiyalılığı məhz, bununla bağlıdır. Sərvətlərin özü kimi onların iyerarxiyalı strukturu da konkret-tarixi və şəxsiyyətli xarakter kəsb edir. Bu və ya eyni əşyalar və hadisələr ayrı-ayrı insanlar tərəfindən müxtəlif cür təsəvvür oluna bilər, eləcə də bu və ya digər insanda belə təsəvvür müxtəlif zamanda təzahürlənər. Tox və ya ac adam bir tikə çörəyə eyni münasibət bildirməyəcək, lakin simfonik musiqi insanlarda nəinki zövq mənbəyi kimi səciyyələnir və eləgə də onlarda əsəbilik halını şərtləndirir. Başqa sözlə, sərvətlər və onların iyerarxiyalılığı nəinki tarixi, həmçinin fərdi dinamikaya malikdir.

Şəxsiyyətin mənimsədiyi sərvətlər onun sərvət yönümü sistemini yaradır. Sərvət yönümü sistemi isə şəxsiyyət üçün xüsusi əhəmiyyətə malik olanı onun daxili strukturunun ən mühüm keyfiyyətlərinin məcmuudur. Bu sərvət yönümü həm də şüurun müəyyən əsasını və şəxsiyyətin davranışını yaradır və onun inkişafına bilavasitə təsir göstərir. Şəxsiyyətin sosiallaşması onun sosial təcrübəni mənimsəməsini və sosial fəallığını özündə təcəssüm etdirir. Bu mənada sosiallaşma şəxsiyyətin inkişafı ilə üst-üstə düşür. İdeallar, normalar, vasitə və məqsədlər şəxsiyyətin sərvətləri kimi çıxış etməklə onun sərvət yönümü sistemi-

nin, şüurunun əsasının təşəkkülünü təmin edir və şəxsiyyətin fəaliyyətinin və hərəkətlərinin səbəbi kimi səciyyələnir. Şəxsiyyətin sosiallaşmasının ən mühüm məqamı onun özünü aktuallaşdırmasıdır.

Fəlsəfi ədəbiyyatda sərvətlərin təsnivatı və iyerarxiyasının müxtəlif üsulları və prinsipləri mövcuddur. Məsələn, məqsəd sərvətləri və ya yüksək (mütləq) sərvətlər və vasitə sərvətləri (instrumental sərvətlər) nəzərə çatdırılır. Müxtəlif tədqiqat işlərində sosial əhəmiyyəti və onların reallaşdırılmasının nəticələri baxımdan müsbət və mənfi sərvətlər mənalandırılır. Eləcə də maddi və mənəvi sərvətlər mövcuddur. İnsanların həyat fəaliyyətinin iki başlıca sahəsinə aid olan bu sərvətlər isə şəxsiyyətin fəaliyyətinin spesifik üsulu sayılan mədəniyyət anlayışının məcmuunu təşkil edir. Belə bir vacib cəhəti qeyd edək ki, bütün bu sərvətlər sıx qarşılıqlı əlaqə kəsb etməklə hər bir insanın bütöv aləmini yaradır.

Lakin sərvətlərin differensasiyasının müxtəlif formalarına və relyativ (nisbi) xarakterinə baxmayaraq ən yüksək və mütləq sərvət insanın özüdür, onun həyatıdır. Bu sərvət yalnız sərvət-məqsəd kimi nəzərdən keçirilməlidir, Kant inamla deyirdi ki, insan-sərvətə heç bir halda sərvət-vasitə kimi münasibət bildirmək olmaz. Yeri gəlmişkən qeyd edək ki, "sərvət" termininin özünü fəlsəfəyə ilk dəfə məhz bu böyük alman filosofu gətirmişdir. İnsan sərvətlərin və sərvət münasibətlərinin subyektidir və sərvət məsələsinin özünü insandan kənarda axtarmaq onu öz mənasından məhrum etmək kimi təsəvvür olunmalıdır. Ətbəttə, sərvət eləcə də sosial birliklərə və cəmiyyətə aiddir, bunlar da sərvətin subyektləri kimi çıxış edirlər. Onun əsası insanın sosial mahiyyətində ifadə olunur, cəmiyyətlə şəxsiyyətin dialektik vəhdəti də buradan hasil olur. Şəxsiyyət və cəmiyyət bir-birindən təcrid edilmiş əlahiddə fenomenlər deyildir, onlar bir-birini qarşılıqlı surətdə şərtləndirir və tamamlayır. Bununla bağlı rus filosofu P.İ.Novqorodtsev yazır: "şəxsiyyət şübhəsiz, başlanğıcdır, lakin müstəqil deyildir: onunla müqayisədə cəmiyyət başqa şəxsdir və mövcud şəxsiyyət üçün vasitələrə görə deyil, məhz məqsədlər baxımdan lazımdır. Şəxsiyyət olmaq etibarilə və şərtsiz əxlaqi əhəmiyyəti iddia etməklə mən digər şəxslərdə də belə şərtsiz sərvəti etiraf etməliyəm. Mən cəmiyyətdə, başqa sözlə digər şəxslərdə yalnız mənim məqsədlərim üçün vasitələri görməməliyəm, mən onlarda elə əxlaqi məqsədlərin əhəmiyyətini etiraf etməliyəm ki, bunlar hansılardır və ya bütün cəmiyyət məni təsdiqləməlidir. Burda məqsədlərə vasitə münasibəti deyil, məhz məqsədlərin qarşılıqlı fəaliyyəti üçün daha mürəkkəb münasibət yaradılır".

Eyni zamanda yüksək sərvətlərə insanlar üçün daha ümumi olan sərvətlər – həyatın mənası, mərhəmət, ədalət, gözəllik, həqiqət, azadlıq və s. aiddir. XX əsrin ən böyük filosoflarından biri sayılan A.Uaytxedin aşağıdakı sözləri məhz bu sərvətlərə aid edilə bilər: sərvətlər aləmi o aləm sayılır ki, mövcudluğun müddətini artırır. Sərvət öz-özlüyündə zaman xaricindədir və əbədidir. Onun mahiyyəti heç bir keçici (müvəqqəti) şəraitlərə əsaslanmır. Sərvətlərin bu tipi şəxsiyyətin sosiallaşmasına həlledici təsir göstərir. Onun reallaşması əslində şəxsiyyətin öz strukturunun içəri qatının, onun özünüaktuallaşdırmasının reallaşmasına bənzəyir. Bunsuz nəinki şəxsiyyətin durumu mümkün deyil, eləcə də həyatın özü əksəriyyət üçün dözülməz olardı.

Şəxsiyyətin sosiallaşması və özünüaktuallaşdırmasında

yüksək sərvətlərin rolundan danışarkən görkəmli Amerika alimi A.Maslou qeyd edirdi ki, özünüaktuallaşdıran bütün insanlar bir neçə işə cəlb olunurlar, onlar həmin işə sadiqdirlər, çünki bu belə insanlar üçün çox qiymətlidir. A.Maslou yazırdı: "biri öz həyatını qanuna, digəri ədalətə, bir başqası gözəlliyə və ya həqiqətə həsr edir. Onların hamısı bu və ya digər şəkildə öz həyatını elə şeyə həsr edirlər ki, mən bunu "varlığın" (ixtisarla "B") sərvətləri adlandırardım, bunlar əsl sərvətlərdir və onlardan yüksək heç nə ola bilməz". On dörd belə B – sərvətləri vardır: həqiqət, gözəllik, sadəlik, hərtərəflilik, kamillik və digərləri. Maslounun fikrincə, varlığın sərvətləri adamların əksəriyyəti üçün həyatın mənası sayılır. Elə buna görə də "hər bir kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır" (2, 29).

Şəxsiyyət və sərvətlər probleminin digər aspekti bundan ibarətdir ki, cəmiyyətin müxtəlif sosial mədəni tipləri spesifik sərvətlərə malikdirlər. Bu sərvətlər sərvət yönümünün və şəxsiyyətin davranışının mühüm determinatıdır. Şəxsiyyətlə bağlı bugün müəyyən aktual və ən mühüm problemlər meydana çıxır. Məsələn, şəxsiyyətin sərvət yönümünə və sosiallaşmasına bazar sərvətləri əhəmiyyətli təsir göstərir. Bununla bağlı qeyd edək ki, cəmiyyətimiz (ölkəmiz) məsuliyyətli tarixi mərhələsini – keçid dövrünü daşıyır. O, yalnız iqtisadi münasibətlərin deyil, eləcə də sosial münasibətlərin bütün sisteminin dəyişməsi ilə bağlıdır. Adamların bütün həyat tərzi dəyişikliyə məruz qalır, bu isə sərvət yönümünün dəyişilməsinə, şəxsiyyətin davranışının motivləşməsinə və onun hərtərəfli inkişafı prosesinə istiqamətlənməyə bilməz. Şəxsiyyət özünümüəyyənləşdirmə, özünütənzimetmə və özünütəkmilləşdirmə kimi yüksək keyfiyyətlərə malikdir.



Bazar münasibətlərinin mahiyyəti iqtisadi liberalizmlə, rəqabətlə, gəlir əldə etməyə səy göstərməklə səciyyələnir. Onlar şəxsiyyətin sərvət yönümünə birmənalı təsiri ilə təzahür etmir. Bazar iqtisadiyyatının bu göstəriciləri bir tərəfdən adamlarda təşəbbüskarlıq, fəallıq, qətiyyət doğurur, şəxsiyyətin qabiliyyətinin və yaradıcılığının inkişafı üçün imkanları genişləndirir.bununla yanaşı bazar sərvətlərinin şəxsiyyətin formalaşmasına təsirinin ikinci tərəfini də unutmaq olmaz. Bu ondan ibarətdir ki, məşhur qərb alimləri K.Xorni, E.Fromm, C.Xomans və digərlərinin göstərdiyi kimi iqtisadi liberalizmin inkişafı və rəqabət ikili əxlaq, ümumi özgələşmə, psixi gərginlik, əsəb sisteminin xəstəliyi və sair kimi nəticələrə gətirib çıxarır. Şəxsiyyətin sərvətləri bazar sərvətləri xarakteri kəsb edir. Beləliklə, nəinki maddi həyat, eləcə də mənəvi sfera və şəxsiyyətin özü bazar münasibətləri və iqtisadi mübadilə qanunları əsasında təşəkkül tapır.

Bazar münasibətlərinin hökmranlığı şəraitində şəxsiyyət öz yüksək sərvətlərini itirir. Bu isə ekzisentensional vakuumun (həyatın mənasızlığının) təşəkkülünə gətirib çıxarır.

Bazar münasibətləri və onunla bağlı olan məqsədlər və sərvətlər öz-özlüyündə müstəqil əhəmiyyət kəsb edə bilməz, başqa sözlə yüksək sərvət kimi çıxış etmək imkanından kənardadır. O, həmişə insanın həqiqi inkişafı üçün sərvət-vasitə kimi səciyyələnir. Bazar sərvətlərinin maddi zənginləşdirmə məqamı əlbəttə zəruridir. Lakin unutmaq olmaz ki onun arxasında şəxsiyyətin mənəvi inkişafının daha başlıca sərvəti dayanır. Həyatda bunların qərarlaş-

ması üçün fəlsəfə az rol oynamır. Hazırda bizim cəmiyyətimiz və fəlsəfəmiz üçün Uaytxedin belə bir fikri xüsusi aktuallıq kəsb edir ki, indi fəlsəfə özünün başlıca funksiyasını yerinə yetirməlidir. O, dünyagörüşünü axtarmağa borcludur. Heyvanların tələbatı fövqündə duran sərvətləri özü üçün qiymətli sayan adamları ölümdən xilas etməlidir. Bu fikirlə bağlı qeyd edək ki, bazar öz inkişafında daxili məntiqinə malik olsa da dövlət strukturları bazar münasibətlərini tənzimləməkdən kənarda qalmamalıdır. İqtisadiyyat məhz, sosial baxımdan istiqamətlənməlidir. İqtisadi liberalizmin sərvətləri və sosial ədalət vahid sintezdə inteqrallaşmalıdır: yalnız bu şərtlə əhalinin yoxsul və aztəminatlı təbəqələrinin sosial müdafiəsini təmin etmək olar və bu əsasda əhalinin sosial cəhətdən fəal və qabiliyyətli hissəsinin fəaliyyət azadlığına yol açmaq mümkündür. Müasir fəlsəfənin inkişafının ən mühüm meyllərindən biri məhz insana, dünyada onun varlığı probleminə və daxili aləminə böyük diqqət yetirməkdən ibarətdir. Bu isə təsadüfi deyil, ona görə ki, bütün hallarda fəlsəfənin ümumi vəzifəsi rasional praktiki üsulla insanı dünya ilə birləşdirməkdən, insanı dünyanın real nümayəndəsinə və subyektinə çevirməkdən, dünyanı isə həqiqi insanilə şdirməkdən ibarət olmalıdır. Əlbəttə, hətta mürəkkəb şəraitdə insan öz əqidəsinə sadiq qalırsa onu qiymətləndirməmək olmaz.

Şəxsiyyətin sosial fəlsəfi təhlili nöqteyi-nəzərdən onu yalnız "sərvət" anlayışı ilə qarşılıqlı əlaqədə deyil, eləcə də həyatın mənası və məqsədi kontekstində açıqlamaq vacibdir.

Həyatın mənası və məqsədi problemi gec-tez insanı düşündürür və onu belə bir sual qarşısında qoyur: "Mən nəyin xatirinə və nə üçün yaşayıram?" Əgər insan özü bu suala cavab vermirsə o həqiqi həyatına müəyyən məna bəxş etmir. Elə buna görə də fəlsəfi antropologiya həyatın mənası və məqsədi məsələsindən yan keçə bilməz. Həyatın mənası və ölüm problemləri insan üçün ən başlıca və ən mürəkkəb məsələdir. Bunun məqbul həlli mümkün olmadıqca heç kim özünü azad və həmin problemlərdən asılı olmayan hesab edə bilməz. Həyatın mənası, məqsədi və ölüm problemi bütün zamanlar insanı düşündürsə də məhz, XX əsrdə xüsusi dramatik məna və aktuallıq kəsb etdi, qlobal problemlərin təzahürü istər-istəməz yalnız ayrıca bir insanı deyil, eləcə də bəşəriyyəti qəti bir sualla üzüzə qoydu: "Yaşamaq və ya yaşamamaq". Bununla bağlı bioloji və sosialın, kollektivin və fərdinin nisbətinə dair çoxdankı mübahisə başqa cür səsləndi.

Haqqında danışdığımız məsələni fəlsəfi təlimlər müxtəlif cür cavablandırır. Materialist filosoflar obyektiv gerçəkliyin və insanların real həyat fəaliyyətinin araşdırılmasına üstünlük verirlər. İdealist istiqamətin nümayəndələri isə öz baxışlarında Allaha, zəkaya, ruha, ideyalara və s. müraciət edirlər. Mövcud məsələyə daim diqqət yetirilməsinə, onunla bağlı çoxsaylı nöqteyi-nəzərlərin mövcudluğuna baxmayaraq həmin məsələnin qəti həlli nəzərə çarpınır. İnsan həyatının mənasını çoxcəhətli mövqedən, xüsusilə maarifçilik baxımdan qiymətləndirən ideyalar, konsepsiyalar az deyildir. Bəzi mütəfəkkirlər, alimlər həyatın mənasını və məqsədini şəxsiyyətin özünü təkmilləşdirməsində görürlərsə, digərləri ayrıca şəxsiyyətin həyatının mənasını digər adamların həyatının mənasından təcrid olunmuş halda təsəvvür etmirlər. Lakin bunun özü də mövcud məsələnin həlli demək deyildir. Dərin mülahi-

zələrilə məşhur olan Tolstoy yazırdı: "İnsan üçün həmişə bir sirr mövcuddur, yalnız bir: mən nə üçün yaşayıram? Bunun ağıllı yeganə cavabı vardır: ona görə ki, Allah bu cür istəyir. O, niyə bunu belə istyir. Bu sirrdir".

Həyatın mənası məsələsinə ekzistensional fəlsəfədə xüsusi diqqət yetirilir. Dini ekzistensionalizmdə* bu məsələ esxatoloji** səpgidə həll olunur. Başqa sözlə, həyat ruhun azad yaradıcılığının baş verdiyi axirət dünyasında davam edir. Ekzistensional fəlsəfənin ən böyük nümayəndəsi J.P.Sartr belə bir sual verir: "Məgər biz kiminsə öldüyünü tez-tez xatırlayırıq?" Həmin sualı bu cür cavablandırır: "Mən həyatdan sürüşüb gedirəm, o isə dəyişməz, yumurta kimi bütöv qalır. Mən xatırlatmaq istəyirəm ki, mən əvəz edilə bilənəm. Lakin mən istərdim ki, əvəzedilməz olum. Nə üçünsə və kimin üçünsə". Ateist ekzistensionalizmdə isə Allah yoxdur, buna görə həyat cəfəngiyyata çevrilir. Çünki insan yalnız ölüm astanasında varlığın mənası haqqında nə isə deyə bilər. Bunu Sartrın tezislərindən biri də təsdiqləyir: "İnsan heçnədir". Professor Həmid İmanov insanın təbiətinə aid olan elmi mövqeləri araşdıraraq bildirir ki, "XIX əsrin 70-ci illərində mifoloji cərəyanı əvəz edən antropoloji məktəb isə insan həyatının mənasını onun təbiəti ilə əlaqələndirir. Antropoloji məktəb insanın təbiətini dinin əsasının müqəddəm şərti hesab edən mövqedən çıxış etmişdir" (20, 24).

Əlbəttə, şəxsiyyətin həyatının mənası və məqsədi haqqında sualı irrasional, mistik konsepsiyadan uzaqlaşaraq

* Ekzistensionalizm – həyatın mənasızlığını, ictimai fəaliyyətin faydasızlığını, əxlaqın əsassızlığını sübut etməyə çalışan fəlsəfi cərəyan

** Esxatologiya – dünyanın, bəşəriyyətin sonu haqqında dini təsəvvürlərin məcmuu



cavablandırmaq məqsədəuyğundur. Düzdür, həyatın mütləq və yüksək mənası barədə suala məntiqi əsaslandırılmış cavab vermək mümkün deyildir. Başqa sözlə, həyatın mənasını nəzəri cəhətdən əsaslandırmaq ehtimal ki, çətindir. Bununla yanaşı həyatın mənası haqqında məsələnin həlli "öz-özünü dərk et" barədə sokratsayağı imperativin həyata keçirilməsini nəzərdə tutur, lakin bu fikrin özü də açıq qalan məsələdir. Buna mütləq cavab vermək öz varlığı etibarilə sonsuz olan həyatın tükəndiyini iddia etmək olardı. Həyat isə rasional izahla tükənmir. Burada ekzistensionalizmin digər görkəmli nümayəndəsi Nitsşenin sözlərini xatırlatmaq yerinə düşər: "öz-özünü dərk edən özünün cəlladıdır". Nəhayət, həyatın mənasını dərk etmək üçün belə bir suala cavab verməliyik ki, "biz nə üçün yaşayırıq", çox ehtimal ki, hökmən ölümün mənasını da dərk etməliyik və bu sualı cavablandırmalıyıq ki, "biz nə üçün ölürük?" bu sual isə zənnimcə mənasızdır.

İnsan bioloji cəhətdən ölümə məhkum olduğu kimi, o həm də sosial varlıq olmaq etibarilə ölümə məhkumdur. Müasir elmdə ölümün dörd mərhələdən keçməsi bildirilir:

İnsanın həyatdan real gedişi onun sosial ölümünün yaxınlaşması ilə bahlaınr. Sosial ölüm insanın öz aləminə qapılması, adamlardan uzaqlaşması və cəmiyyətdən təcrid olunması ilə səciyyələnir. Sonra psixi (ruhi) ölüm başlayır. Bu zaman insan üçün həyatın sonu aydın və qaçılmaz olur. Beyin ölümünün qədəm qoyması ilə baş beyinin fəaliyyəti tamamilə dayanır, orqanizmin müxtəlif funksiyaları üzərində nəzarət başa çatır. Həmin proses fizioloji ölümlə tamamlanır. Bu ölümlə insanın canlı orqanizmini səciyyələndirən bütün funksiyaları yox çıxır.

Konkret insan ola bilər ki, özünün yoxa çıxmasının yuxarıda sadaladığımız yüksək mərhələlrini dərk edə bilməsin (bəli, adamların əksəriyyəti belədir), lakin şüurlu və ya qeyri şüurlu günü-gündən özünün həyat xəttini qaydaya salaraq artıq belə sualı cavablandırır ki, o, nəyin xatirinə yaşayır? Buna öz hərəkətləri, fəaliyyəti ilə cavab verir. İnsanın varlığının sirri yalnız yaşamaqda deyil, nə üçün yaşamaqdadır. Hamıya məlum olan – "yemək üçün yaşayıram yoxsa yaşamaq üçün" - sadə bir fikri düzgün anlamamağın özü də həyatın əsl mənası üzərindən xətt çəkmək deməkdir.

Həyatın mənası və məqsədi haqqında məsələyə qəti şəkildə mənfi münasibət bəsləməklə onun cəfəngiyyat olduğunu iddia etmək düzgün deyildir. Bu məsələ ayrıca şəxsiyyətin həyatı ilə bağlı real məna və əhəmiyyət kəsb edir. Bundan əlavə hər kəs özü üçün həmin məsələnin nə olduğunu cavablandırmırsa belə halda insanın özünün həyatı həqiqətən mənasız olardı və bu mənfi nəticələr doğurardı.

Bu məqsədlə V.Frankl tərəfindən işlənib hazırlanan loqoterapiya nəzəriyyəsi və praktikası böyük əhəmiyyət daşıyır. Həmin nəzəriyyənin məqsədi ehtiyacı olan insanlara həyatın mənasını başa düşməkdə yardım göstərməkdən, onların ruhunu müalicə etməkdən ibarətdir.

Ümumi planda belə bir mülahizə məqsədyönlüdü ki, həyatın mənası məqsəd olmaq etibarilə insanın inkişafı, onun hərtərəfli təkmilləşməsi ilə səciyyələnir. İnsanın həyatı Kantın yazdığı kimi, "özündə ən böyük məqsədi ifadə edir, nə qədər bu gücə malikdirsə bütün təbiəti özünə tabe etməyə qadirdir" (78, 469). İnsan mahiyyəti etibarilə ictimai varlıq olduğu üçün onun həyatının mənası yalnız cəmiyyətin və şəxsiyyətin mənafeyinin və məqsədlərinin əlaqələndirilməsi yolu ilə təzahür edə bilər. Fərdin və nəslin, şəxsiyyətin və sosiumun ümumiliyi insanın dünyada varlığına və onun həyatının mənasına nikbin baxmağa əsas verir. Fərdi ölümün faciəsi bununla aradan qalxır ki, insan həm də öləndən sonra sağlığındakı fəaliyyətinin, yaradıcılığının nəticələrində, gələcək nəslin nəcib yaddaşında yaşayır. Şəxsiyyətin həyatının mənasını müəyyənləşdirmək onun həyatının bütün mahiyyətini mənalandırmaq deməkdir, geniş planda isə nəinki onun həyatının başlıca vəzifələrini və məqsədlərini eləcə də bunların həyata keçirilməsinin real vasitələrini aydınlaşdırmaqdır.

"Şəxsiyyət" anlayışının sosial fəlsəfi təhlilinin digər aspekti bununla bağlıdır ki, cəmiyyətin müxtəlif sosial mədəni tipləri spesifik sərvətlərə malikdir. Həmin sərvətlər şəxsiyyətin sərvət yönümünün və davranışının eləcə də onun sosiallaşması üsulunun müəyyənləşdirilməsinin mühüm amilidir. Bu baxımdan bəşəriyyət tarixində mövcud olan daha əhəmiyyətli iki sərvət paradiqması: şərq və qərb sərvət göstəriciləri səciyyəvidir. Bunlardan hər biri müvafiq cəmiyyətin həyat tərzi ilə bağlı olan sərvətləri əks etdirir. Belə ki, şərq ənənəsi üçün cəmiyyətin və insanın birliyi, ədalət, humanizm, səmimilik, mərhəmət, valideynlərə və yaşlılara hörmət kimi şəxsiyyətin davranışının norma və qaydaları səciyyəvidir.

Qərb ənənəsi isə şəxsiyyəti cəmiyyətə qarşı qoymaqla, fərdi sərvətlərin ictimai sərvətlərdən üstünlüyünü təmin etməklə fərqlənir. Buna uyğun olaraq şəxsiyyətin sosiallaşmasını qərbdə hər şeydən əvvəl, sosial mühitin və dünyanın dəyişilməsi ilə əlaqələndirirlər.

Cəmiyyətin sosial strukturunun təkmilləşməsi qanu-

nauyğun, daimi və mürəkkəb prosesdir. Həmin proses müxtəlif istiqamətdə və müəyyən sosial amillərin təsiri ilə inkişaf edir.

Sosiallaşma geniş anlayış olmaqla şəxsiyyətin həyat fəaliyyətinin bütün sferalarını əhatə edir. "Sosiallaşma" termininin təşəkkül mənbəyi birmənalı qiymətləndirilmir, onun yaranma tarixi bu terminin alman dilindən ingiliscəyə çevrilməsi ilə əlaqələndirilir. "Şəxsiyyətin sosiallaşması" anlayışı şəxsiyyətin təhsili və tərbiyəsi anlayışlarından genişdir. Sosiallaşma mövcud cəmiyyətin strukturunun təkrar istehsalını, onun üçün xarakterik olan ictimai-siyasi münasibətləri, bu münasibətlərin inkişaf istiqamətini, eləcə də cəmiyyətin siyasi münasibətlərinin subyektinin-şəxsiyyətin spesifik keyfiyyətlərinin təkrar istehsalını səciyyələndirir (140, 67).

"Şəxsiyyətin inkişafı" anlayışı onun şüurunda, fəaliyyətində və davranışında təzahür edən real dəyişikliklərin ardıcıllığını, mükəmməlliyini və güclənməsini səciyyələndirir. Sosiallaşma isə şəxsiyyətin təşəkkül prosesi, onun cəmiyyətin tələblərini daim mənimsəməsi, şüur və davranışda şəxsiyyətlə cəmiyyətin qarşılıqlı fəaliyyətini tənzimləyən sosial əhəmiyyətli cəhətlərin qərarlaşması kimi nəzərə çarpır. Şəxsiyyətin sosiallaşması zaman etibarilə bu və ya digər dərəcədə onun bütün həyatı boyu müşahidə olunur.

Sosiallaşma fərdin davranış nümunələrini, norma və dəyərləri, mövcud cəmiyyətdə onun uğurlu fəaliyyəti üçün zəruri olanları mənimsəməsi prosesidir. Fransız psixoloqu J.Piaje şəxsiyyətin inkişafında müxtəlif mərhələlərin mövcudluğu ideyasına sadiq qalaraq fərdin idrakı strukturunun inkişafına və sosial təcrübədən, qarşılıqlı fəaliyyətdən



asılı olaraq onun yenidən təşəkkülünə xüsusi diqqət yetirmişdir. Şəxsiyyətin sosiallaşması bəşəriyyətin sosial təcrübəsinin nəsildən-nəslə verilməsini üzvi surətdə özündə birləşdirir. Buna görə varislik, ənənələrin saxlanması və mənimsənilməsi adamların gündəlik həyatından ayrılmazdır. Onların vasitəsilə yeni nəsillər cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi problemlərinin həllinə cəlb olunurlar.

Şəxsiyyətin sosiallaşmasının çox əhəmiyyətli komponentlərindən biri siyasi sosiallaşmadır. Cəmiyyətin siyasi strukturunun təkmilləşməsinə təsir göstərən amillər sistemində siyasi sosiallaşma özünəməxsus yer tutur. Müasir sivil dövlətlərdə insana sosial və siyasi bir varlıq kimi baxılması təbii şəkil almışdır.

Şəxsiyyətlə siyasət arasında normal münasibətlərin təşəkkülü şəxsiyyətin siyasi sosiallaşmasına imkan yaradır. Siyasi sosiallaşma fərdin siyasi cəhətdən təkmilləşməsi prosesini, onun siyasi "məninin" formalaşmasını, siyasi aləmə münasibətdə şəxsi görüşlərinin inkişafını, xüsusi siyasi yönümünü ifadə edir.

Siyasi sosiallaşmanın mexanizmi insanın və siyasi sistemin qarşılıqlı fəaliyyətinin bir neçə səviyyəsində fəaliyyət göstərir: 1. Sosial səviyyədə, yəni bütövlükdə cəmiyyət və böyük qruplar səviyyəsində. 2. Sosial-psixoloji səviyyədə. 3. Şəxsiyyətdaxili səviyyədə. Şəxsiyyətdaxili səviyyədə siyasi sosiallaşmanın mexanizmi kimi siyasətdə şəxsiyyətin davranışını və şüurunu idarə edən tələbat, motiv, faydalı fəaliyyət yönümü, norma və s. çıxış edir.

Qeyd edək ki, şəxsiyyətin siyasi sosiallaşması məsələsinə amillərin münasibəti birmənalı olmasa da tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, siyasi sosiallaşmanın

başlıca funksiyası şəxsiyyətin siyasətə marağıdır və siyasi sferada müəyyən hakimiyyət vəzifələrini yerinə yetirmək bacarığıdır (14, 523).

Müasir dövrdə şəxsiyyətin siyasi sosiallaşması prosesində iki meyl təzahür edir. Həmin meyllərdən birincisi şəxsiyyətin fəallığının artmasını, siyasət haqqında informasiyaya malik olduğunu, kütləvi siyasi davranışın və şüurun dəyişilməsini, əvvəllər siyasətdən uzaqlaşan insanların artıq siyasətə cəlb edildiyini sübut edir. İkinci meyl isə öz ifadəsini vətəndaşların siyasi özgələşməsində, onların fəaliyyətsizliyində, rəsmi siyasətə inanmamasında eləcə də siyasi təsisatları (partiyaları və dövləti) zəif müdafiə etməsində tapır. Müasir siyasətə inamın azalmasına aşağıdakı amillər imkan yaradır: 1) Rəsmi hakimiyyətin nümayəndələri tərəfindən ictimai rəyə dair yalan məlumatın verilməsi; 2) Siyasi hakimiyyətin müxtəlif strukturlarında korrupsiyanın geniş yayılması, dövlət məmurlarının "rüşvətxorluq imicinin" formalaşması; 3) Seçkilər ərəfəsində siyasi və dövlət hakimiyyətinə yiyələnmək iddiasında olanların verdikləri sözdən və elan etdikləri proqramdan uzaqlaşması; 4) başlıca siyasi sərvətlərin və ideallarının dəyərinin aşağı düşməsi. Bu, xüsusilə siyasi liderlərin həmin sərvətləri və idealları təhrif etdikləri zaman aydın təzahür edir, həm də bunlar müvafiq iqtisadi və sosial-siyasi dəyişikliklərlə möhkəmləndirilmir. Cəmiyyətin siyasi mədəniyyəti, idarəçilik ləyaqəti nə qədər yüksək olarsa onun siyasi münasibətləri, şəxsiyyətin sosiallaşması bir o qədər sivilizasiyalı mahiyyət kəsb edər. "Mədəniyyət siyasi sistemin öyrənilməsinin açarıdır".

Yürütdüyümüz mülahizələrə müvafiq olaraq belə bir məsələni düzgün mənalandırmaq vacibdir ki, şəxsiyyətin



sosiallaşmasının hansı üsuluna üstünlük verilməlidir – ilk növbədə şəxsiyyəti yoxsa sosial mühiti dəyişdirmək lazımdır. Şəxsiyyətin normal inkişafı naminə həm özünü, həm də sosial mühiti dəyişdirmək məqsədəuyğundur. Şəxsiyyətin sərvət yönümü yalnız özünü dəyişdirməklə, sosial mühitə uyğunlaşmaqla bağlıdır. Fərdiyyətçilik sərvətini mütləqləşdirmək şəxsiyyətin cəmiyyətdən uzaqlaşmasına gətirib çıxarır. Humanist boyalarla cilalaqmış bütün fəlsəfi konsepsiyalar şəxsiyyətin mahiyyətində bəşər sivilizasiyasının başlıca nailiyyətlərinin və mənasının təcəssümünü təsdiqləyirlər. Şəxsiyyət dünyanı öyrənən və onu dərin məna çalarları ilə bəzəyən təkrarolunmaz nadir subyektivlikdir. O, özünü və cəmiyyəti təkmilləşdirməyə istiqamətlənən varlıqdır, cəmiyyətdə ləyaqətli mövcud olmağa cəhd edir. Şəxsiyyət anlayışının çoxcəhətli müəyyənləşdirilməsi belə bir ümumi əsasa malikdir ki, insan öz fəaliyyətinin məsuliyyətli subyekti kimi çıxış edə bilər, o, mənimsədiyini dərk edir və öz təşəbbüsünün dəyərini başa düşür. Şüurluluq isə şəxsiyətin həyat fəaliyyətinin mühüm elementi kimi səciyyələnir. Şüur azad seçimə, öz müqəddəratını təyin etməyə imkan yaradır.

İnsan şəxsiyyətinin təkamülü onun qabiliyyətinin genişlənməsi prizması və əxlaqi tənzimləmələrin təkmilləşdirilməsi vasitəsilə həll olunur. Təkamül imkanı ilk öncə özözünü öyrənməyi ehtiva edir. İnsan daxili birlik, daimi Eqo şüuruna yiyələnməlidir. İnsanın əxlaqi mövqeyinin mükəmməlliyi xeyli dərəcədə zəkanın fəallığı, şüurun bir ünsürünün digərinə ciddi, səmərəli təsiri ilə bağlıdır. Zəka-ı insanın əxlaqi yetkinliyi eləcə də onun idrakı ilə psixolo-ı və siyasi aləminin üzvi vəhdətində aydın təzahür edir. Zəka həm də bilavasitə mədəniyyətin mənimsənilməsi va-

sitəsilə mənəvi-əxlaqi və estetik tələbatın təşəkkülünə ciddi təsir göstərir. Elə buna görə də şəxsiyyət bütövlük kəsb edən varlıqdır, cəmiyyətlə qarşılıqlı əlaqədə olan fenomendir.

## 1.4. Şəxsiyyət mədəniyyət sisteminin mənəvi ölçüsüdür

İnsanı bu və ya digər sosail hadisənin, eləcə də mədəniyyətin meyarı kimi əsaslandırmaq cəhdi hələ antik dövrdən məlumdur. Fəlsəfə tarixində sosial hadisələrin şəxsiyyət, insan ölçüsü vasitəsilə araşdırılmasının zəruriliyi və əhəmiyyəti müxtəlif aspektlərdə nəzərə çarpır. Bu cəhət xüsusilə aşağıdakı məsələlərin tədqiqində təzahür edir: şəxsiyyətin dövlətə və dövlətin şəxsiyyətə; şəxsiyyətin cəmiyyətə və cəmiyyətin şəxsiyyətə; şəxsiyyətin şəxsiyyətə; şəxsiyyətin təbiətə; şəxsiyyətin öz-özünə münasibətində.

Şəxsiyyət mədəniyyət sferasının mənəvi meyarı kimi və eləcə də mədəniyyətin insan ölçüsünün konkret formaları çoxcəhətli təzahür edir: cəmiyyətdəki mövqeyini özünüqiymətləndirmə kimi dərk etməkdə; insan ləyaqətinin inkişafından onun həyat fəaliyyəti üsuluna qədər olan səviyyədə; insanın yaradıcı qüvvəsinin və qabiliyyətinin reallaşması üçün şəraitin yaradılmasında və ya yaradılmamasında. İnsan mədəniyyətin yaradıcısıdır, mədəniyyət isə insanı formalaşdırır. Məhz, mədəniyyətin insan meyarı təsdiqləyir ki, mədəniyyətdə insan nəslinin özünü inkişaf etdirməsi qabiliyyəti əyani şəkildə ifadə olunur. Bu cəhətin özü bəşər tarixinin mümkünlüyünü şərtləndirir.

Amerika sosioloqu A.Smoll hesab edirdi ki, cəmiyyət insanın sağlamlığının qorunması, təhsil alması,



ləyaqətli ünsiyyətinin təmin olunması, gözəlliyə cəlb edilməsi naminə şərait yaradılması və sosial ədalətin reallaşdırılması kimi maraqlarını təmin etməlidir.

Şəxsiyyət mədəniyyət – sivilizasiya sferasının mənəvi meyarıdır məsələsini konkret şəkildə başa düşmək üçün bir tərəfdən mədəniyyti insanların sosial fəaliyyətinin üsulu kimi nəzərdən keçirmək lazımdır, digər tərəfdən şəxsiyyətin mədəniyyət sferasında fəaliyyətinin məqsədlərini və bunlara nail olmağın vasitələrini təhlil etmək vacibdir. İnsan şəxsiyyətinin ümumi planda məqsədləri dedikdə hər şeydən əvvəl, onun öz qabiliyyətinin və mənafeyinin reallaşmasına imkan yaradan əmək şəraitinin məzmunu, sosial-məişət şəraiti, istehsalın, cəmiyyətin idarə olunmasında şəxsiyyətin iştirakı, insanın rifahına təsir göstərən maddi və mənəvi sərvətlərin tələb olunan inkişaf səviyyəsinə nail olmaq nəzərdə tutulur. "Şəxsiyyət mədəniyyət-sivilizasiya sferasının mənəvi meyarıdır" anlayışı eləcə də insanın təbiətə münasibəti baxımdan başa düşülməlidir. Hazırda spesifik aktuallıq kəsb edən ekoloji mədəniyyət insanın təbiətə münasibətini, onun mənəviyyatını əks etdirir. Ekoloji mənəviyyat-əxlaqilik indi şəxsiyyətin, dövlətin, cəmiyyətin qəti imperativi kimi çıxış etməlidir. İnsan dünyaya istehsalçı və şəxsiyyət kimi deyil, məhz insan kimi gəlir. O, öz varlığının həm təbii və eləcə də sosial keyfiyyətlərini elə planda mənimsəyir ki, onları yalnız öz aləmində əhatə edir, çünki cəmiyyətin bu və ya digər tipini və ya mədəniyyət sərvətlərinin inkişaf səviyyəsini seçməyə qadir olmur. İnsan "təbiət-insan-cəmiyyət" sisteminin elə elementidir ki, həmin sistem vasitəsilə nəinki təbiəti və cəmiyyəti və həmçinin özünü dəyişdirir. İnsanın şəxsiyyət ölçüsünün, sərvət yönümünün onun fəaliyyətinin nəticələ-

rindən asılılığı da məhz, buradan irəli gəlir, əlbəttə, müəyyən obyektiv şəraitin mövcudluğu şərtilə. Şəxsiyyətin mədəniyyət sferasının meyarı kimi səciyyələnməsi hər şeydən əvvəl, onun bu sferadakı fəaliyyəti və fəaliyyətinin mənəvi inkişaf prosesi ilə inteqrasiyası nöqteyi-nəzərdən mənalandırılmalıdır.

Hər bir mədəniyyət, bu və ya digər cəmiyyət özünəməxsus insan formalaşdırır. Fərdiləşmə səviyyəsi müxtəlif mədəniyyət mühitlərində fərqli xarakter daşıyır və şəxsiyyətin inkişafı, mədəniyyət sferasının təkmilləşməsinə onun təsiri heç də eyni səviyyədə nəzərə çarpmır. Şəxsiyyətin davranışının sosial mədəni amilləri mövcud cəmiyyətin hər bir subkulturası üçün qəbul olunan rolların açıqlanmasında daha çox təhlil edilə bilər. Mədəniyyət aspektində rolların mənimsənilməsi və əlaqələndirilməsi problemi sosial həyata aid olanların çoxunu açıqlayır, sosial qrupların və fərdlərin xarakterini formalaşdırır. Mədəniyyətin fəlsəfi mənzərəsi olduqca çoxcəhətlidir, lakin bu rəngarənglik şəxsiyyət-mədəniyyət münasibətləri fonunda təşəkkül tapır. Mədəniyyət və xüsusilə onun komponenti sayılan incəsənət insanın daxili aləminə nüfuz etməklə zamanın hüdudlarını ayırmağa qadir olsa da insanın mahiyyəti indii də onun üçün ən qəribə məqam olaraq qalır. Buna görə insanın bütün sosial hadisələrin ölçüsü kimi çıxış etməsi tamamilə təbii və qanunauyğun haldır. Şəxsiyyətin mədəniyyətin mənəvi meyarı aspektində səciyyələnməsi mədəniyyət tarixində iki əsasla şərtlənir.

Birincisi, bəzi daxili sərvət yönümü, "Mənin" özünü dəyərləndirməsinin məqsədi, onun daxili aləmi həyati zərurətdir. Bunlar xarici aləmin tələblərinə uyğun gəlməməsi, bəzi hallarda isə hətta ona zidd olması ilə səciyyələnməlidir. Belə ayrılma mədəniyyətdə müxtəlif üsullarla təsbit olunmuşdur. Hər bir insanın zəruri sərvəti sayılan tale anlayışının hələ antik mədəniyyətdən Avropa mədəniyyətinə keçməsi bu baxımdan səciyyəvidir. İslamda xüsusi əhəmiyyət daşıyan, insanın mahiyyəti və fərdi dəyəri sayılan ruh anlayışı özündə ilahi başlanğıcla şəxsi seçimi birləşdirir, fərdi həyatın vəziyyətini və son perspektivini müəyyənləşdirir. Lakin taleyə və ruha aid olan bu və ya digər oxşarlığa hər bir inkişaf etmiş mədəniyyətdə təsadüf etmək mümkündür və yalnız mədəniyyətləri təfərrüatına qədər müqayisə etdikdə bunların arasındakı oxşarlığın və fərqin dərəcəsini müəyyənləşdirmək olar.

İkincisi, hamı tərəfindən qəbul edilənə zidd olan daxili təcrid olunmanın, müstəqilliyin, qabiliyyətin qarşısı davranış qaydaları ilə alınmalıdır ki, qəbul edilmiş normalar pozulmasın, təşəkkül tapan və daha zəruri tənzimləmə sistemi zəifləməsin. Buna görə belə daxili müstəqillik şəxsiyyətin qapalılığında, ikiüzlülüyündə və riyakarlığında ifadə olunur.

Ləyaqətli sosial davranış dərin düşüncə tərzinə malik olmaq, şəxsiyyətin mənəvi-əxlaqi qabiliyyətinin çoxcəhətliliyi, hərtərəfli inkişafı və xüsusilə mədəniyyət sferasında fəal, faydalı və yaradıcı fəaliyyətini nümayiş etdirməsi deməkdir. Sosial hadisələrin və proseslərin mənəvi axarına düşünülmüş, teleloji (məqsədyönlü) istiqamət vermək fərdin şəxsiyyət-mədəniyyət sisteminin daxili mexanizminin tənzimlənməsinə spesifik təkanı kimi səciyyələnir.

Şəxsiyyətin mədəniyyət sferasına mənəvi təsiri onun həyatfəaliyyətinin çox mühüm təzahür xüsusiyyətlərindəndir. Lakin sosial-mədəni həyat fəaliyyətinin, xüsusilə sosial davranışın başlıca məzmunu sadəcə fəaliyyətlə

deyil, fəaliyyətin istiqaməti və ilk növbədə mədəniyyətin inkişafına xidmət edən sərvət yönümü ilə müəyyən olunur.

İnsanların həyat fəaliyyətində ifadə olunan mədəniyyətli sosial davranış iki mühüm cəhətlə səciyyələnir: birincisi, mədəniyyət sferasında şəxsiyyətin sosial davranışı onun fəallığının dərəcəsini əks etdirir. Çünki şəxsiyyətin inkişafı mahiyyət etibarilə məhz, onun sərvət yönümlü sosial fəallığında ifadə olunur. Başqa sözlə, hər bir fərd mənsub olduğu sosial mühitin və onu əhatə edən mədəniyyət sferasının yaradıcısı, əsl mənəvi meyarı kimi çıxış edir. İkincisi, sosial mühitdə və mədəniyyət sferasında şəxsiyyətin həyat fəaliyyətinə onun həyat tərzinin sinonimii kimi baxılmalıdır. Sadə əxlaq normalarından insan zəkasının qüdrətinə qədər, sağlam ünsiyyət mədəniyyətindən yaradacı işgüzarlığa, ideallı fəaliyyətə qədər, səmimilikdən obyektiv və vicdanlı düşüncə tərzinədək, bir sözlə ali hisslər şəxsiyyətin kamilliyinin təcəssümüdür (26, 58).

Mədəniyyətin ünsürləri-normalar, sərvətlər, biliklər, orientasiya müəyyən sistemi təşkil edir və bu sistem ictimai tənzimləmənin digər komponentləri (iqtisadi, sosial struktur, siyasət) ilə qarşılıqlı fəaliyyətə məruz qalır. Lakin mədəniyyətin daşıyıcıları yalnız həmin sosial təsisatlarla məhdudlaşmır. Onun fəaliyyətini müəyyən edən mühüm amil və eləcə lə "daşıyıcısı" şəxsiyyətdir. Şəxsiyyətin davranışında və daxili aləmində təcəssüm olunan adətlər, normalar və dəyərlər, həm də mədəniyyətin tərkibinə daxildir və bəzi hallarda müxtəlif cür transformasiyaya (dəyişməyə) məruz qalır. Əlbəttə, fərdiləşmənin bu və ya digər dərəcəsi hər bir mədəniyyətdə təzahür edir. Buna görə çox vaxt mədəniyyətdə tipik və baza şəxsiyyəti nəzərdən keçirilir ki, bu da qəbul olunan norma və sərvətlərin mövcud cəmiyyətdə müəyyənedici olduğunu ifadə edir. Lakin belə halda söhbət daha çox tənzimləmənin ümumi sisteminə daxil olan fərddən gedir. Şəxsiyyətin özünün formalaşmasının başlanğıcı bu və ya digər davranış tipinin, sərvətlərin seçilməsi mexanizmi və hamı tərəfindən qəbul olunan həmin sistemin mənalandırılması vasitəsilə reallaşır. Belə seçmə üçün şəxsiyyət özünəməxsus məsuliyyət daşıyır. Fəlsəfə mədəniyyətin yalnız elementlərinin və strukturunun mövcudlutunun obyektiv, qeyri şəxsi aspektini nəzərdən keçirmir, eləcə də insanın daxili aləmində təcəssüm olunan subyektiv mənzərəni araşdırır. Fərdin xarakteri onun sosial və ya mədəniyyət sferasına mənsubiyyəti ilə tükənmir. Axı şəxsiyyətin daxili aləmi də mövcuddur. Mədəniyyət bir tərəfdən şəxsiyyətin bu və ya başqa tipini formalaşdırır, digər tərəfdən isə şəxsiyyət öz tələbatına və maraqlarına normalar, tələblər və davranış nümunələri bəxş edir. Şəxsiyyət amilinə müraciət etmədən mədəniyyətə xas olan norma və sərvətlərin real fəaliyyətini aydınlaşdırmaq mümkün deyildir (onların real mövcudluğundan fərqli olaraq). Şəxsiyyət probleminə müraciət edərkən elə ziddiyyətləri və münaqişələri üzə çıxarmaq mümkündür ki, onlar qərarlaşan normalarla situasiya arasında uyğunsuzluğa səbəb olur. Bu uyğunsuzluq isə çox vaxt psixoloji əzablara və sosial sarsıntılara gətirib çıxarır. Şəxsiyyətin real taleyinə sosial şəraitlə, subyektiv cəhdlərlə şəxsiyyətin imkanları (onun daxili mədəniyyəti ilə bağlı olan) arasındakı nisbət təsir göstərir. Bütün bu komponentlər mütəhərrik və dəyişkəndir. Şəxsiyyətin zənginliyi onun real fəaliyyətinin zənginliyində və cəmiyyətlə ünsiyyətinin məzmununda ifadə olunur (74, 250).

Şəxsiyyətin mədəniyyət-sivilizasiya sferasının mə-

nəvi meyarı kimi təhlili həmçinin, mənəvi mədəniyyətin ünsürlərinin səciyyələndirilməsini tələb edir.

Həmin ünsürlər bunlardır:

– İlk və xüsusi əhəmiyyət daşıyan ünsür müəyyən anlayışlarda və təsəvvürlərdə formaya salınmış və dildə öz əksini tapan idraki, işarə–simvolik ünsürlərdir. Mədəniyyət hadisəsi olmaq etibarilə dil əldə olunmuş insan təcrübəsinin toplanması, saxlanması və verilməsinin obyektiv formasıdır. O, mədəniyyətin ən mühüm ünsürü olmaq etibarilə müəyyən əhəmiyyət kəsb edən işarələr və simvollar sistemidir. İşarə və simvollar ünsiyyət prosesində keyfiyyətcə digər predmetin təmsilçisi kimi çıxış edir və onların barəsində informasiyanın əldə olunması, saxlanması və dəyişdirilməsi üçün istifadə olunur. İşarə və simvollar həmişə müəyyən əhəmiyyət daşıyır. Adamlar işarə və simvolları mədəniyyətə aid olan tərbiyə və təhsil prosesində mənimsəyirlər. Mənəvi istehsal yalnız mənəvi sərvətlərin istehsalı prosesidirsə, mənəvi mədəniyyət həm bu sərvətlərin istehsalı, eləcə də istehlakı prosesidir.

– Mədəniyyətin ikinci çox mühüm komponenti idraki dəyərlər sistemidir. Dəyər tələbatın, arzunun, mənafeyin təmin olunmasına istiqamətlənən bu və ya digər ictimai predmetin, hadisənin xüsusiyyəti və əlamətidir. Mənəvi dəyərlər sistemi sosial subyektlərin, eləcə də şəxsiyyətin öz tələbatını ətraf aləmin predmetinə uyğun şəkildə dərk etməsi sayəsində formalaşır, dəyər münasibətlərinin təsiri ilə təşəkkül tapır. Şəxsiyyətin dəyərlər sistemi-



nə müxtəlif sərvətlər aid ola bilər. Dəyərli (sərvətli) münasibətlər pozitiv sosial, mənəvi-əxlaqi fəaliyyət yönümünün təşəkkülünün zəruri komponentidir və mənalı, məzmunlu fəaliyyətin məqsədlərində ifadə olunur. Dəyərli fəaliyyət məqsədləri cəmiyyət tərəfindən ictimai-tarixi fəaliyyət prosesində işlənib hazırlanır və fərdlər tərəfindən sosiallaşma prosesində sonrakı nəsillərə verilir. Dəyərli fəaliyyətin məqsədi şəxsiyyəti sosial gerçəkliyə istiqamətləndirir, onun fəaliyyətini stimullaşdırır. Fərdlərin dəyərli, sərvət yönümünə malik fəaliyyətin məzmununu dərk etməsi fəaliyyətin motivini yaradır. Motiv fəaliyyətin məqsədini fəal dəyişdirici davranışa yönəldən və onu dəyişdirən amildir. Motiv şəxsiyyəti fəaliyyət göstərdiyi konkret şəraitlə əlaqələndirməsinə imkan yaradır.

– Mədəniyyətin sintetik formasının davranış nümunələrini mərasimlər, ənənələr və adətlər təşkil edir. Mərasim özündə bu və ya digər sosial ideyaları, təsəvvürləri, norma və sərvətləri təcəssüm etdirən, müəyyən kollektiv hisslər doğuran simvolik stereotip kollektiv fəaliyyətin məcmüüdür. Mərasimin gücü və mükəmməlliyi insanların emosional-psixoloji təsiri ilə müəyyən olunur. Mərasimdə yalnız bu və ya digər norma, sərvətlər və ideyaların səmərəli mənimsənilməsi baş vermir, eləcə də onun iştirakçıları başqalarının mərasimdəki fəaliyyətinə şərik olur. Şəxsiyyətin mədəniyyət sferasının mənəvi meyarı kimi səciyyələnməsi adətlərdə də öz əksini tapır. Mədəniyyətin sintetik formasının spesifik nümunəsi kimi çıxış edən

adətlər fərdlərin fəaliyyətinin və münasibətlərinin keçmişdə əldə edilən sosial tənzimləmə forması olub bu və ya digər cəmiyyətdə təkrar istehsala məruz qalır. Ənənə isə sosial və mədəni irsin nəsildən nəslə verilən və müəyyən cəmiyyətlərdə uzun müddət saxlanılan ünsürüdür. Ənənələr bütün sosial sistemlərdə fəaliyyət göstərir və onların həyat fəaliyyəti üçün zəruri şərtidir.

Əlbəttə, mədəniyyəti yalnız ənənələrin, adətlərin, mərasimlərin və digər bu kimi davranış nümunələrinin məcmuu kimi təsəvvür etmək düzgün olmazdı. O, həmçinin, davranışın təşkili sisteminin növü kimi səciyyələnir. Bu sistemi isə mədəniyyətin ünsürləri və kompleksləri təşkil edir. Eləcə də görkəmli Amerika alimi Entoni Qiddensin qeyd etdiyi kimi, "mədəniyyət elə sərvətləri özündə birləşdirir ki, bunların daşıyıcıları qrupların üzvləridir. Mədəniyyət cəmiyyət üzvlərinin bütün həyat tərzinə xasdır" (59, 43-44). Bu fikirdə məntiqi olaraq bütövlükdə insanın mədəniyyətin meyarı kimi çıxış etməsi reallığı öz ifadəsini tapır.

"Mədəniyyət" və "mədəniyyət sferasında şəxsiyyətin fəaliyyəti" anlayışlarının nisbətinin təhlili də metodoloji baxımdan şəxsiyyəti mədəniyyətin mənəvi meyarı kimi anlamağa xidmət edir.

Bu anlayışları düzgün dərk etmək üçün ilk növbədə mühüm bir cəhəti nəzərə almaq vacibdir. Həmin cəhət bundan ibarətdir ki, mədəniyyət aləmi xüsusi maddiliklərlə (obyektlərlə) səciyyələnir, mədəniyyət-sivilizasiya sferasında şəxsiyyətin fəaliyyəti isə mahiyyət etibarilə maddilik kəsb edir, başqa sözlə, maddiliyə malik olan əşyaların yaradılmasına istiqamətlənir. Əks halda mədəniyyət sferasında fəaliyyət müvəqqəti, keçici xarakter daşıyardı və ya sadəcə olaraq mümkün olmazdı.



Mədəniyyət əşyalarının xüsusi xarakteri bundan ibarətdir ki, onlar da təbiətlə şərtlənən əsaslardan məhrumdur, başqa sözlə, mənəvi mahiyyətə malikdirlər və ya maddilik kəsb edən növ kimi səciyyələnirlər. Lakin bu, həmin əşyalarda müəyyənedici deyildir. Mədəniyyət əşyalarında başlıca ideya, məna, dəyər və mənəvi məzmun bunda ifadə olunur ki, axırıncılar məhz birincilərdə öz təcəssümünü tapır və əşyalaşmağa xidmət edir. Əlbəttə, belə səciyyəli əşyalaşma prosesi üçün maddi əsas təsadüfi deyildir. Maddi əsas ideal mahiyyət ifadə edərək onunla üzvi əlaqə daşıyır.

Bununla əlaqədar olaraq mədəniyyət aləmi iki komponentə: maddi və mənəvi komponentlərə ayrılır, şəxsiyyətin fəaliyyətinin nəticəsi sayılan maddi və mənəvi sərvətlərin məzmunu kimi müəyyənləşir. Həmin bölgü çox hallarda belə bir təsəvvürə əsaslanır ki, mədəniyyət sferasındakı yaradıcılıqda bir-birindən asılı olmayan (müstəqil) iki əsas – mənəvi və maddi-praktiki əsaslar fəaliyyət göstərir. Bir qayda olaraq dini və idealist təlimlərdə birinci başlanğıc (mənəvi əsas) yüksək səviyyəli yaradıcılığın təcəssümü, ikinci başlangıc (maddi əsas) isə aşağı səviyyəli, məhdud yaradıcılıq baxımdan mənalandırılır. Ruh və ya mənəvi başlanğıc belə halda yaradıcılığı və azadlığı özündə təcəssüm etdirən xüsusi müstəqil fəaliyyət kimi təzahür edir. Həmin fəaliyyətin nəticəsində yüksək sərvətlər yaradılır. Bu sərvətlərə yiyələnmək insanın mövcudluğunun mənasını təşkil edir. Maddi əsas isə mənəvi başlanğıca tabe edilir. Çünki o, az fəaldır və ya fəallıqdan tamamilə məhrumdur, ruhun fəaliyyətinə tabedir. Əgər

maddi əsas müstəqil təzahür etməyə qadirdirsə, o, mənəviliyi dağıdan az əhəmiyyətli sərvətlərin yaranmasına gətirib çıxarır və istər-istəməz insanın yalnız fiziki və hissi təbiətini təmin edir, onun yüksək fəallıqdan azad olmasına mane olur. Mədəniyyətin belə dini-idealist bölgüsü insanın inkişafının tarixi zəmininin və varlığın mənəvi aspektinin fetişləşdirilməsinə əsaslanır. İnsan bütövlük kəsb edən sistem olduğuna görə mənəvi həyat insanın varlığının məhz bir tərəfini təşkil etdiyi kimi, mədəniyyət də vəhdəti pozulmayan mənəvi və maddi tərəflər kimi səciyyələnir. Mədəniyyətin bu bütövlüyündə şəxsiyyətin onun mənəvi meyarı baxımdan çıxış etməsi tamamilə təbii və qanunauyğun haldır. Mədəniyyətin strukturunda materiyanın və ruhun əksliyi (bir-birənə zidd olması) məhz, nisbi əhəmiyyətə malikdir, həmçinin maddi və mənəvi mədəniyyət haqqında ayrıca danışmağa imkan yaradır. Xalis mənəvi başlanğıc (əsas) özündə maddi pərdəni təcəssüm etdirmədən mədəniyyət sferasına aid istehlakın sərvəti ola bilməz. Ruhun maddiləşməsinin müxtəlif üsulları: fiziki-cismani, maddi-texniki, sosial-təşkilati və digərləri onu doğuran insanın mənəvi həyatının qorunması və saxlanması üçün zəruridir. Yalnız bu yolla ayrıca insanın, hər hansı cəmiyyətin mənəvi yaradıcılığı və ya mədəniyyət digər insanların sərvətinə çevrilə bilər. Belə halda nəinki şəxsiyyət mədəniyyətin mənəvi meyarı, eləcə də mədəniyyətin özü insanın meyarı kimi səciyyələnir.

Mənəvi məzmunu əhatə edən maddi örtük əlamət və ya işarə kimi çıxış edir. Mədəniyyət sferasının hər bir əşyası işarə funksiyasına malikdir. Nəticə etibarilə maddilik burada özünün müstəqil əhəmiyyət daşıyan statusunu itirir. Mənəvi mədəniyyət müəyyən mənada işarə sistemi kimi səciyyələnir. Şəxsiyyət mənəvi mədəniyyətin məzmunlu tərəfini üzə çıxarır və ona öz münasibətini formalaşdırır. İşarə sistemində mənəvi məzmun kimi, maddi isə forma şəklində çıxış edir. Mənəvi fəaliyyəti və mənəvi mədəniyyəti yalnız semiotik (əlamət-işarələr) prosesə və işarələr sisteminə aid etmək onun sferasını əhəmiyyətli dərəcədə məhdudlaşdırmaq deməkdir. Ümumiyyətlə, mədəniyyətin spesifikliyi bundan ibarətdir ki, o, yalnız insanın mövcudluğunu səciyyələndirir.

Şəxsiyyət öz tələbatını realaşdırmaqla təbiət aləminə dərindən nüfuz edir, mürəkkəb, çoxcəhətli və təkmilləşmiş varlığa çevrilir, mədəniyyətə şüurlu, məqsədyönlü yiyələnərək öz fəaliyyətində dəyərli milli və bəşəri idealları təcəssüm etdirir və beləliklə cəmiyyətin mütərəqqi inkişafınv səy göstərir. Təbiətin müxtəlif və daha yeni sahələrinə yiyələnmək nəticəsində şəxsiyyətin mənəvi-mədəniyyət aləmi zənginləşir. Əlbəttə bu, şəxsiyyətin, qlobal mənada isə bəşəriyyətin mədəniyyət aləminin genişlənməsi üçün yeganə yol deyildir.

İlk başlanğıcda insan mədəniyyətə dair mənimsədiyi informasiyanı, hər şeydən öncə isə mədəniyyətlə bağlı işləyib hazırladığı proqramı nəsildən nəslə ötürmək məqsədilə yalnız xarici aləmin əşyalarından istifadə etmişdir. Deməli, insanın yaradıcı sosial fəaliyyətinin məhsulu olan mədəniyyət təbiət üzərində yüksələn "ikinci təbiət" kimi təşəkkül tapır. Təbii dillə – ünsiyyətin başlıca vasitəsilə və mədəniyyətə aid fikirlərin ötürülməsi nəticəsində necə dəyərlər ikinci dil və ya işarələr sistemi yaranır. Bu prosesdə mədəniyyətin bütün yarımsistemləri: incəsənətin, məişətin obyektləri, etiket normaları, texniki sfera və s. əhəmiyyətli rol oynayır. Belə yarımsistemlərin genişlən-

məsi mədəniyyət aləminin zənginləşməsi üçün başlıca istiqamətə çevrilir. Lakin bütün hallarda mədəniyyət sferasına dair status və mədəniyyətə aid fikirlər məhz, insanının fəaliyyəti sayəsində verilir. Elə, şəxsiyyətin mədəniyyət sferasının mənəvi meyarı kimi çıxış etməsi də başlıca olaraq bununla şərtlənir.

Deməli, mədəniyyətin fərqləndirici cəhəti bundan ibarətdir ki, o, insanın fəaliyyətilə yaradılmışdır, yaranır və yaradılacaq. Şəxsiyyətin, fərdlərin fəaliyyətindən kənarda mədəniyyət, ümumiyyətlə isə mənəvi həyat ağlasığmazdır. Mənəvi fəaliyyətsiz cəmiyyətin özü mövcud ola bilməz. Hətta ibtidai insanın primitiv mədəniyyəti ölçüyəsığmaz dərəcədə mürəkkəb olmaqla heyvanların ən mürəkkəb davranışı ilə müqayisədə keyfiyyətcə tamamilə başqa hadisə kimi səciyyələnir. Mədəniyyətlə insanın əlaqəsində məhz, axırıncının fəaliyyəti mədəniyyəti doğurur. Rus filosofu M.S.Kaqanın dəqiq ifadə etdiyi kimi, mədəniyyət insanla təbiət, insan və cəmiyyət, insanla insan arasındakı münasibətlər sistemidir (76, 48).

İnsanın fəaliyyəti bioloji mexanizmlə deyil, "insanın mahiyyətli qüvvələri" ilə (K.Marks) şərtləndiyi üçün onun təmin olunması da təbiət əşyaları ilə yox, həmin fəaliyyətin gedişində və nəticəsində reallaşır (əgər onun əsasını təbii başlanğıc təşkil edirsə də). Beləliklə, şəxsiyyətin mədəniyyət sferasında fəaliyyəti yeninin yaradılmasına istiqamətlənən fəaliyyətdir, təbiətin xüsusi qanunlarına əsaslanan yox.

Mədəniyyət-sivilizasiya sferasında fəaliyyət subyektin fəallığının reallaşması üsulu olmaqla daha bir mühüm xüsusiyyətlə – onun azadlığı ilə səciyyələnir. Azadlıq, sərt proqramlaşdırılan, bioloji mexanizmin köməyi ilə irsən keçən hadisə deyildir. Əks halda biz mədəniyyət sferasında fəaliyyətin subyekti və həmin sferanın mənəvi meyarı kimi şəxsiyyət haqqında mülahizə yürütmək hüququna malik olmazdıq. Mədəniyyət sferasında şəxsiyyətin fəaliyyəti kortəbii, sərt zərurətə tabe olan yox, məhz şüurlu, məqsədyönlü, azad fəaliyyət istiqamətli və həyata keçirilməsi vasitəsi azad seçilən prosesdir. Mədəniyyət sferasında azadlıqdan kənarda yaradıcılıq yoxdur, bu mənada azadlıq mədəniyyətin mahiyyətli xarakteristikasıdır. Beləliklə, söhbət azadlığı mücərrəd şəkildə başa düşməkdən deyil, onun mütləq təcəssümündən gedir. Azadlıq bütün hallarda özünün mədəniyyət sferasında reallaşmasının konkret formasına malikdir. Şəxsiyyətin mədəniyyət sferasında fəaliyyəti yaradıcı, azad başlanğıcı ilə səciyyələnir. Mədəniyyət müxtəlif sosial sistemlərə və eləcə də şəxsiyyətə münasibətdə obyektiv amil kimi çıxış edir, eyni zamanda insanlar öz sosial və mədəni əhatəsinin bu və ya digər cəhətlərini yaradır, müdafiə edir və dəyişdirirlər.

Şəxsiyyətin mədəniyyət sferasının mənəvi meyarı kimi çıxış etməsini məhdud, birtərəfli təsəvvür etmək düzgün olmazdı. Başqa sözlə, mədəniyyətin özü də şəxsiyyətin meyarı kimi səciyyələnir. Bu iki tərəfli proses şəxsiyyətmədəniyyət sisteminin sosial mövcudluğunun və təkmilləşməsinin zəruri amilidir. Unutmaq olmaz ki, mədəniyyət insanın davranışına sosail nəzarət kimi çıxış edir. Sərvətlər, ideallar, normalar və davranış nümunələri sosiallaşma prosesində şəxsiyyətin mənlik şüurunun tərkib hissəsinə çevrilir. Bunlar şəxsiyyətin davranışını formalaşdırır və tənzimləyir. Bu mənada mədəniyyət bütövlükdə şəxsiyyətin fəaliyyət göstərdiyi çərçivəni müəyyənləşdirir. Mədəniyyətin müxtəlif sferalarda şəxsiyyətin fəaliyyətini

tənzimləməsi bununla bağlıdır ki, o, göstərişlər (əmr, sərəncam və s.) və qadağanlar sistemini özündə ehtiva edir.

Lakin mədəniyyət fərdlərin həyatında birmənalı deyil, eləcə də ziddiyyətli rol oynayır. İnsanların fəaliyyətinin üsulu və nəticəsi kimi çıxış edən mədəniyyət nəinki dəyərli davranış nümunələrini formalaşdırır və bunların digər nəsillərə verilməsinə xidmət edir, həmçinin o, əxlaqi normalar vasitəsilə ədalətsizliyi, xürafatı, insana yad olan davranışa və təmiz mənəviyyata zidd halları təzahür etdirməyə qadir sosial fenomendir.

Spesifik ictimai hadisə olmaq etibarilə mədəniyyətin ziddiyyətli mahiyyətini düzgün dərk etmək baxımdan onunla şüurun nisbətini dürüst başa düşmək məqsədəuyğundur. Bu mənada mədəniyyətə aid olanların hamısını şəxsiyyətin şüurunun rasional vəziyyətinə, səviyyəsinə aid etmək olmaz, mədəniyyət insanın nəinki pozitiv, eləcə də neqativ qabliyyətinin təzahürüdür. Mədəniyyət hissi və duyğusu xalis zəkanın tələbləri ilə müəyyənləşə bilməz. O obrazlı desək, yalnız "zəka əsəri", zəkanın fövqəladə şüurlu fəaliyyəti kimi səciyyələnmir. İnsan mədəniyyətin gizli mexanizminə nüfuz etmək qabiliyyəti ilə bu fenomenin obyektiv gücündən az da olsa asılılığını dərk edə bilər. Lakin belə bir cəhəti də qeyd edək ki, tədqiqatçıların əksəriyyətinin fikrincə, mədəniyyətin və mənəviyyatın strukturları prinsip etibarilə bir-birinə uyğun gəlir. Şübhəsiz, bu uyğunluq qanunauyğunluq kəsb edir. A.Q.Spirkinin çox düzgün iddia etdiyi kimi, mədəniyyətin strukturu onu doğuran maddi varlığın strukturunun təkrar olunmasıdır (121, 563). Mədəniyyət humanizilə, başqalarına ləyaqətli münasibətlə sıx bağlıdır. Humanizmdən və mənəvilikdən kənarda mədəniyyət mövcud ola bilməz. Mədəniyyətdə



mənəvilik də məhz, şəxsiyyətin rasional fəaliyyətinin səviyyəsi və vəziyyəti ilə şərtlənir.

Şəxsiyyətin sosiallaşması prosesi sırf milli mədəniyyət çərçivəsi ilə məhdudlaşmır. Həmin proses dünya mədəniyyəti ilə milli mədəniyyətin qarşılıqlı fəaliyyəti şəraitində baş verir. Ümumi bəşəri motivlər ictimai strukturda və davranışda aparıcı cəhət kimi təsdiqlənmişdir.

Ümumiyyətlə, insanın öz mahiyyətindən irəli gələn və ictimai inkişafın obyektiv tələbatı kimi çıxış edən sosiallaşma, eləcə də mədəni-mənəvi sferada təzahür edən sosiallaşma şəxsiyyətin bütöv sosial varlıq kimi formalaşmasının rəhnidir.

Şəxsiyyət həmişə ictimai cəhətdən inaişaf etmiş insan kimi səciyyələnir. O, fəaliyyət, ünsiyyət prosesində formalaşır. Başqa sözlə, şəxsiyyətin formalaşması mahiyyət etibarilə sosiallaşma prosesidir. Bu proses onun təkrarolunmaz nadir simasının daxili formalaşması yolu ilə baş verir. Şəxsiyyətin daxili aləmi isə mənəvi mədəniyyət sərvətləri hesabına təkmilləşir, zənginləşir və yeniləşir. Hegelin sərrast ifadə etbiyi kimi, "Fərd yalnız xarakterində özünün daimi müəyyənliyini əldə edir" (58, 76). "Şəxsiyyət" məvhumunun sinonimii kimi işlədilən "xarakter" sözü şəxsiyyətin qüdrətinin ölçüsü baxımdan səciyyələnir, başqa sözlə, onun iradə gücünü əks etdirir. Şəxsiyyətin başlıca komponenti olan mənəviyyat rnun mədəniyyət sferasındakı mənəvi ölçüsünü əhəmiyyətli dərəcədə şərtləndirir. Deməli, şəxsiyyət nəinki insanın yaratdıtı mədəniyyətin mənəvi ölçüsüdür, eləcə də insanın özünün bütövlüyünün meyarıdır, daxili bütövlükdən kənarda şəxsiyyət yoxdur.

Şəxsiyyətin ilk başlanğıcı, şəxsiyyət ideyası ictimai münasibətlərin müstəqil subyekti olmaq etibarilə bu və ya

digər ölçüdə özünün xüsusi daxili gücünə əsaslanaraq hər bir inkişaf etmiş mədəniyyətdə təzahür edir. Lakin bu cəhət hiss olunacaq dərəcədə diqqəti cəlb edir, eləcə də şəxsiyyətin ilk başlanğıc statusuna və onun məzmununa aid prinsipial fərqlər tez-tez nəzərə çarpır ki, bu da əhəmiyyətli dərəcədə mövcud mədəniyyətin dini komponentlərinin xarakterindən asılıdır.

Avropa mədəniyyət ənənələri insanı fəaliyyətin muxtar subyekti kimi təsdiqləyir, hər şeydən əvvəl onun bütövlüyünü, "Mənin" bütün təzahürlərində eyniliyini qeyd edir. Bir neçə rol funksiyalarının müəyyənləşdirilməsi ümumilikdə həmin prinsipin aradan götürülməsi demək deyildir, "Mən" obrazının dağınıqlığı nəsə qeyri-normal hal kimi başa düşülür. Əksinə, Şərq mədəniyyətində rol funksiyaları xeyli dərəcədə şəxsiyyətin özünü düşünməsi ilə ört-basdır edilir. İnsan özünü əsasən fəaliyyət göstərdiyi mövcud zaman kəsirinin bu və ya digər sferasından asılı olaraq dərk edir. Şərq mədəniyyətində insan hər şeydən əvvəl, onun ailə, icma, tayfa, dini birlik və dövlətə mənsubiyyəti ilə şərtlənən partikulyar (xüsusi) borcunun və məsuliyyətinin birliyi baxımdan araşdırılır. Yalnız Avropa-Amerika mədəniyyətində şəxsiyyət qeyri-şərtilik, digər tənzimləyici prinsiplərə (dini mahiyyətli prinsiplər, keçici olmayan sərvətlərin müqəddəsliyi, müqəddəs yazılar, ümumi ideologiya) tabe olmamaq statusu əldə edir. Şəxsiyyətin daxili aləminin sabitliyi hər hansı xarici nüfuzlu təsirdən asılı deyildir, istər-istəməz fərd özündə elə qəti prinsipləri əks etdirir ki, bunların köməyi ilə hər cür şəraitə tab gətirir və özünün mülahizələrinə əsaslanmaqla onu mənalandırır, əlbəttə öz fəaliyyətini canlandırmaq naminə məsuliyyət hissini rəhbər tutmaqla. Şəxsiyyətin belə düşüncəsinin sinonimli atributunu fərdiyyətçilik təşkil edir. Fərdiyyətçilik insan həyatının fərdi mənasını və ayrıca insanın marağının yüksək dəyərini səciyyələndirir. Belə halda həmçinin, "fərdiyyətçilik – kollektivçilik" qarşıdurması yaranır və üstünlük birinciyə verilir, özü də məhdudlaşdırılmış daxili əxlaqi prinsiplər və hüquqi normalar vasitəsilə.



Görkəmli fransız sosioloqu A.Turen şəxsiyyətin və fərdiyyətçiliyin ikitərəfliliyini sosial mədəni xarakteristika kimi qiymətləndirir. Çox vaxt fərdiyyətçilik səmərəli fəaliyyət yolu ilə az xərclə daha çox mənfəət əldə etmək oriyentasiyası, başqa sözlə, "iqtisadi insan" (homo economicus) kimi müəyyənləşdirilir (80, 112-113). Kim öz dini, siyasi, peşə və ya ailə sədaqətini maddi orientasiyadan yüksək tutursa kollektivçi kimi dəyərlənir. Müvafiq olaraq azad bazar məntiqinə görə şəxsiyyət məhz, xüsusi mülkiyyətçi kimi çıxış edə bilər.

Əlbəttə, şəxsiyyətin fəaliyyətini təmin edən sabit sosialmədəni strukturunu formalaşdırmaq üçün mürəkkəb və geniş differensiyalı oriyentasiya sistemi zəruridir (Qərb sivilizasiyası fonunda işlənib hazırlanan).

İnsan aləmi böyük və rəngarəngdir. Bu aləmdə siyasət, iqtisadiyyat, din, elm, incəsənət və s. özünəməxsus yer tutur. İnsan fəaliyyətinin bütün bu sferaları bir-birinə qovuşur və təsir göstərir. Hər bir sfera digərlərini əks etdirir. Əlbəttə, insanı siyasi və ya digər sferaların çərçivəsində "hissələrlə" nəzərdən keçirmək olar. Məsələn, siyasi mədəniyyət özündə siyasi seçimin və fəaliyyətin daha yaxşı üsullarını, cəmiyyətin siyasi cəhətdən yenidən təşkilinin dəyərlərini və ideallarını, insanların razılaşdırılmış qarşılıqlı mənafelərinin gedişində onların qarşılıqlı sosial mü-

nasibətlərinin optimal formalarını özündə birləşdirə bilər. Siyasi fəaliyyət insanın siyasi reallığa fəal təsirində təzahür edir ki, bu da siyasi münasibətlərin dəyişməsinə istiqamətlənir.

Əxlaqi mədəniyyətdə xeyir, şər, şərəf, ədalət, borc və s. haqqında cəmiyyət tərəfindən əldə olunmuş təsəvvürlərin səviyyəsi müəyyən olunur. Bu təsəvvürlər, normalar insanların davranışını tənzimləyir, sosial hadisələri səciyyələndirir.

Cəmiyyətin estetik mədəniyyəti özündə estetik sərvətləri (gözəlliyi, ucalığı, faciəli olanı və s.), onların yaradılması və istehlakı üsullarını birləşdirir. Estetik qavrayışın spesifikliyi bundan ibarətdir ki, insanlar, onların hərəkətləri, fəaliyyət məhsulları hər şeydən əvvəl isə hissləri bu sadaladıqlarımızın xarici ifadəsində dərk olunur.

Hazırda ekoloji mədəniyyət daha çox əhəmiyyət daşıyır. Müasir cəmiyyətin məruz qaldığı gərgin şərait xeyli dərəcədə insanların fəaliyyəti ilə bağlı təbiət aləmində baş verən fəlakətli dəyişikliklərlə şərtlənir. İnsanın ictimai fəaliyyətinin çoxcəhətli formalarını əks etdirən xeyli müxtəlif mədəniyyət növü (iqtisadi, siyasi, elmi, dini, estetik, əxlaqi və s.) mövcuddur. Mədəniyyət aləminin birliyi bütöv orqanizm kimi fəaliyyət göstərən mədəniyyətin özünün bütövlüyü ilə müəyyən olunur. Mədəniyyət özünün canlı daşıyıcısından – insandan kənarda mövcud deyildir. Mədəniyyət ictimai orqanizmin özünəməxsus "genotipi" olmaq etibarilə onun mükəmməlliyini və inkişafını müəyyən edir. O, maddi və mənəvi əməyin məhsullarında, insanın təbiətə münasibətində və adamlar arasındakı münasibətlərdə ifadə olunur.

Fərd mədəniyyəti dil, tərbiyə, canlı ünsiyyət vasitəsilə mənimsəyir. Dünyanın mənzərəsi, qiymətləndirmə (rəy), dəyərlər, təbiəti, zamanı dərk etmək üsulları, ideallar şəxsiyyətin şüurunda ənənələrlə möhkəmlənir və ictimai praktika prosesində fərd üçün hiss olunmayan dərəcədə dəyişikliyə məruz qalır. Bioloji cəhətdən insana yalnız müəyyən istedada, potensial imkanlara malik olan orqanizm bəxş olunur. Cəmiyyətdə mövcud olan normaları, adətləri, fəaliyyət üsulları və vasitələrini mənimsəməklə fərd nəinki mədəniyyətə yiyələnir, eləcə də onu dəyişdirir. Fərdin mədəniyyətə cəlb olunması dərəcəsi onun ictimai inkişafının ölçüsünü, insanda insanilik meyarını müəyyənləşdirir. Mədəniyyət aləmində onun əxlaqi-etik və estetik aspektləri xüsusi yer tutur. Əxlaq ən müxtəlif sferalarda – məişətdə, ailədə, işdə, elmdə, siyasətdə və sairədə insanların həyatını tənzimləyir. Ümumi əhəmiyyət kəsb edənlərin hamısı, insanlar arası münasibətlər mədəniyyətini təşkil edən nə varsa əxlaqi prinsiplərdə və normalarda cəmləşir. İnsanlararası əlaqələr praktikası bütün hallarda xeyirxahlıq, nəciblik, ədalətli olmaq baxımdan mənalandırılır. Unutmaq olmaz ki, xeyir və şər haqqında universal, ümumbəşəri təsəvvürlər mövcuddur. Əxlaqi davranışın subüektiv mənbəyi məhz, əxlaqi tələbat və inamdır. Əxlaqi tələbat və inam şəxsiyyətin mənəvi ləyaqətinin meyarı kimi çıxış edir. İnsanın şəxsi ləyaqət hissinin inkişaf dərəcəsini qiymətləndirmək üçün başlıca meyar onun mütərəqqi ictimai ideallar, sosial ədalət və həqiqət uğrunda mübarizə aparmasıdır. Hər bir fərdin ləyaqəti onun özünə inamı, zehni və əxlaqi qabiliyyəti, yaradıcılıq əzmi və imkanları, davranışının yönümü ilə sıx vəhdət təşkil edir. Deməli, şəxsiyyətin mədəniyyət sferasının meyarı kimi çıxış etməsinə əxlaqi mədəniyyət spesifik və

əhəmiyyətli təsir göstərir.

Gerçəkliyə estetik münasibət sferası hər şeyi əhatə edən xarakter daşıyır. Gözəllik, harmoniya, incəlik kimi sərvətlərin hamısını insan məhz təbiətdə və cəmiyyətdə hiss edir. Estetik hiss, estetik dərketmə, estetik zövq hər bir insana xasdır. Əlbəttə, estetik mədəniyyətin inkişaf dərəcəsi, mükəmməlliyi ayrı-ayrı insanlarda müxtəlifdir. Eləcə də gözəllik idealları tarixən dəyişkəndir. Bununla belə cəmiyyətdə estetik, əxlaqi, siyasi, dini, idraki, mənəvi mədəniyyətin normaları mövcuddur. Bu normalar ictimai orqanizmi vahid bütövlükdə möhkəmlədən və nəzərə çarpmayan əsasdır, skeletdir.

Estetik mədəniyyətə malik şəxsiyyətin mahiyyəti gözəllik uğrunda mübarizədə, gözəlliyi əməli fəaliyyətdə duymaq qabiliyyətində, şərə qarşı barışmazlıqda, həyata fəal, yaradıcı nüfuz və müdaxilə etmək bacarığını əsl gözəllik kimi başa düşməkdə ifadə olunur.

Estetik mədəniyyətin formalaşmasının çıxış nöqtəsi estetik şüurdur. Estetik şüurun ən adi forması isə estetik hissdir. Şəxsiyyətin estetik hisslərində onu əhatə edən aləmə, başqa adamlara, eləcə də özünə münasibəti ifadə olunur. Bu, estetik şüuru və tələbatı, təbii ki, bütövlükdə şəxsiyyətin estetik mədəniyyətini səciyyələndirən mühüm cəhətdir. Həmin hissdə predmet və hadisələrin keyfiyyəti, əlaqələri açılır və beləliklə, insan və cəmiyyət üçün əhəmiyyəti üzə çıxır (10, 152). Estetik şüuru səciyyələndirən çox əhəmiyyətli ünsürlərdən digəri estetik zövqdür. Estetik hissin inkişafı prosesində təşəkkül tapan estetik zövq estetik sərvətləri, gözəlliyi, mənəvi ucalığı və eləcə də eybəcərliyi, riyakarlığı, rəzilliyi qiymətləndirmək bacarığıdır. Estetik zövq mahiyyətinə görə insanın yaradıcı, təşəbbüskar qabiliyyətinin emosional-bədii ifadəsidir. O hər bir fərdin ümumi mədəniyyəti, onun şüur və hissinin inkişaf səviyyəsi ilə şərtlənir. Əsl əxlaqi və estetik mədəniyyətə malik olmayan şəxsiyyət mədəniyyət sferasının meyarı kimi çıxış edə bilməz.

Mədəniyyət sferasına aid normalar davranışın və ya fəaliyyətin müəyyən nümunələridir, qaydalarıdır. Həmin normalar cəmiyyətin adi şüurunda təşəkkül tapır və qərarlaşır. Şüurun bu səviyyəsində mədəniyyət sferası normalarının təşəkkülü ənənəvi və instinktiv (təhtəlşüur) məqamlarda böyük rol oynayır. Adətlər və mənimsəmə üsulları minillər ərzində yaranmış və nəsildən nəslə verilmişdir. Mədəniyyət normaları işlənib hazırlanmış şəkildə ideologiyada, etik təlimlərdə, dini konsepsiyalarda təcəssüm olunmuşdur.

Mənəviyyat normaları insanların kütləvi qarşılıqlı ünsiyyəti praktikasında təşəkkül tapır. Əxlaq normaları hər gün vərdişin, ictimai rəyin, yaxın adamların qiymətləndirməsinin hesabına tərbiyə olunur. Mövcud cəmiyyət üçün səciyyəvi olan mədəniyyət normalarının formalaşmasında ətrafındakı adamların münasibətində ifadə olunan tərifləmək və məzəmmət, şəxsi və kollektiv nümunənin gücü, davranışın əyani nümunələri böyük rol oynayır. Mədəniyyətin normativliyi şəxsiyyətlərarası, adamların kütləvi qarşılıqlı münasibətləri gedişində və müxtəlif sosial təsisatların fəaliyyəti nəticəsində müdafiə olunur (bəyənilir). Mənəvi təcrübənin nəsildən nəslə verilməsində təhsil sistemi xüsusi əhəmiyyətə malikdir. Həyata qədəm qoyan fərd yalnız biliklərlə deyil, eləcə də davranış və mənimsəmə prinsiplərinə, normalarına yiyələnir, əlbəttə, onu əhatə edən gerçəkliyi başa düşməklə və bu gerçəkliyə münasibətilə.

Mədəniyyət elə dəyişikliyi əks etdirir ki, məhz cəmiyyətin özü buna məruz qalır. Məsələn, XX əsrdə insanın ailəyə münasibətində köklü irəliləmələr baş verdi. Bu cəhət böyük əhəmiyyətə malikdir, çünki şəxsiyyətin təşəkkülü, mədəniyyət normalarının mənimsənilməsi ilk növbədə ailədə baş verir. Ailə ən böyük tərbiyə məktəbidir, şəxsiyyətin sosiallaşmasının ilk mənbəyidir.

Beləliklə, mədəniyyət özündə həm sabitliyi və eləcə də dəyişkən məqamları təcəssüm etdirir. Mədəniyyətdə sabitlik, "ətalətlilik" ənənə hesab olunur. Ənənə isə mədəni irsin ünsürlərini: ideyaları, sərvətləri, adətləri, mərasimləri, dünyanı dərketmə üsullarını özündə ehtiva edir, bu ünsürlər qorunub saxlanılır və nəsildən nəslə verilir. Ənənələr mənəvi mədəniyyətin bütün formalarında mövcuddur. Elmi, dini, əxlaqi, milli, əmək ənənələri və digərləri məhz, bu qəbildəndir. Bunların sayəsində cəmiyyət təkmilləşir və inkişaf edir. Obrazlı desək, gənc nəsil velosipedin ixtirası ilə məşğul olmur, lakin əldə olunmuş insan təcrübəsini mənimsəyir, mədəniyyət normalarını zamanın süzgəcindən keçirərək ona diqqətli, düşünülmüş münasibətini bildirir.

Ənənələr sistemi ictimai orqanizmin bütövlüyünü, sabitliyni əks etdirir. Ona kobud şəkildə müdaxilə etmək olmaz, belə halda istər-istəməz mədəniyyətin incə və mürəkkəb mezanizmi pozula bilər. Mədəniyyət yeniləşmədən mövcud ola bilməz. Yaradıcılıq, dəyişiklik cəmiyyətin inkişafının digər tərəfidir. Ənənə ilə yeniləşmənin vəhdəti hər bir mədəniyyətin universal xarakteristikasıdır.

Keçmiş mənəvi sərvətləri, tarixi yaddaşı total surətdə dağıtmaqla cəmiyyətin mənəvi həyatını "yaxşılaşdırmağa" ehtiyac duyulmur. Belə şəraitdə "yenilikçi" Kan



Su əkinçilik vilayətini zəbt edən Çingiz Xan rolunda nəzərə çarpır. Bu hökmdarın sərkərdələri ələ keçirdikləri becərilmiş torpaq sahəsində nə edəcəklərini bilmirlər. Nəhayət, belə qənaətə gəlirlər ki, "qələbənin məhsulu kimi" kənd əhalisini məhv etmək lazımdır, yalnız belə halda torpaq sahəsi yenidən əvvəlki çöl vəziyyətinə düşər, "əlverişli oylaq vəziyyətinə" qayıdar. Əlbəttə, bu tarixi misal insanın əsl, bəşəri mənada mədəniyyət sferasının ölçüsü kimi çıxış etməsi zərurətinin fəlsəfi məntiqidir. Mədəniyyəti yaradan insan tarixi inkişafın hər bir mərhələsində, bütün hallarda, ən gərgin məqamlarda belə öz mənəvi yaradıcılığının məhsullarına laqeyd, qeyri-insani münasibət bəsləməməlidir. "Yeni" ad altında keçmiş mütərəqqi milli dəyərləri aradan qaldırmaq cəhdləri hər şeydən əvvəl insanın özünə, onun yaşayıb-fəaliyyət göstərdiyi cəmiyyətə və mədəniyyətin ilkin şərti olan təbiətə qarşı amansız münasibətdən başqa bir şey deyildir. Bu mülahizələrimiz baxımdan belə qənaətə gəlmək olar ki, şəxsiyyətin mədəniyyət sferasının mənəvi meyarı kimi çıxış etməsi hamar, ziddiyyətsiz proses deyil, məhz incə, mürəkkəb mexanizmə malik fəaliyyət yönümüdür, cəmiyyətin humanistləşməsinə istiqamətlənən mənəvi cəhddir. Yadda saxlamaq lazımdır ki, şəxsiyyətin inkişafı, dəyərli fəaliyyət yönümü nəinki cəmiyyətlə bağlıdır, eləcə də cəmiyyətin özü üçün lazımdır. İnsan mədəniyyətdə yaradıcı fəaliyyətinin subyekti kimi çıxış edir. Lakin heç də bütün yenilikçilik mədəniyyət faktına çevrilmir. Yenilik naminə yenilik özündə yaradıcı məzmun əks etdirmir, mənasız, hoqqabaz işbazlıq kimi təzahür edir.

Mədəniyyət sferasındakı yaradıcılıqda ənənəviliklə yeniləşmənin müxtəlif nisbəti cəmiyyətin ənənəviliyə və

müasirliyə ayrılmasına əsas verir. Birincidə ənənə yaradıcılıq üzərində hakim qüvvə kimi çıxış edir, mədəniyyət nümunələri "ilkin-qədim" formada təkrar istehsal olunur. Dəyişiklik isə ənənə çərçivəsində sistemsiz və təsadüfi hal kimi qəbul edilir. Normalardan uzaqlaşmaq bir qayda olaraq bəyənilmir və inkar olunur.

Mədəniyyətin inkişafı ziddiyyətli prosesdir. Burada bir medalın iki tərəfi – mütərəqqi və mürtəce tərəfləri mövcuddur. Belə ki, ilk əvvəl Avropada təşəkkül tapan, sonralar isə bütün dünyada yayılan elmi-texniki mədəniyyətin tipi insanın azad inkişafına son dərəcə imkan yaratdı. Lakin o, həm də nöqsanlıdır. Texnoloji sivilizasiya insanla təbiət arasında elə qarşılıqlı münasibətlərə əsaslanır ki, belə halda təbiət insanın fəaliyyətinin obyekti, həmçinin qeyri-məhdud istismara məruz qalan reallıq kimi səciyyələnir. Ona elə inkişaf tipi xasdır ki, bunu bir sözlə ifadə etmək olar – "daha çox".

Məqsəd ondan ibarətdir ki, daha çox maddi nemətlər, sərvət toplanması təmin olunsun və bu əsasda insanın bütün problemlərin, eləcə də sosial, mədəni və digər problemlərini həll etmək reallaşsın. Texnoloji sivilizasiya belə bir təsəvvürü əks etdirir ki, təbiət məhz, insanın tükənməz istismar obyektidir. Lakin iqtisadi böhranı dərindən başa düşmək həmin təsəvvürə son qoydu. Son onilliklərdə Roma klubu tərəfindən irəli sürülən ideya və elmi-texniki hərəkət yeni ekoloji mədəniyyət problemini meydana çıxardı. Söhbət insanlarla təbiət arasında yeni münasibətlərin zəruriliyindən gedir.

Cəmiyyətin və mədəniyyətin tarixi inkişaf təcrübəsindən məlumdur ki, bəşəriyyət həmişə öz qarşısına elə vəzifələr qoymuşdur ki, bunları həll edə bilsin. Bu mənada tarixi inkişafın indiki mərhələsində qlobal problemlərin, eləcə də ekoloji problemin səmərəli və məqsədyönlü həlli mədəniyyətin bütün məzmununun, xüsusilə ekoloji mədəniyyətin təkmilləşməsinə imkan yaradacaq və təbii ki, mədəniyyət sferasında insan amilinin daha da fəallaşmasına spesifik təsir göstərəcək.

Mənəvi ölçüdən məhrum olan mədəniyyət əsl mədəniyyət deyildir. Mənəviliyin yüksək ləyaqətinə yiyələnmək məhz, "ruhun mədəniyyətinin" tərbiyə olunması sayəsində mümkündür. Şəxsiyyətin mədəniyyət-sivilizasiya sferasının mənəvi meyarı kimi çıxış etməsi müxtəlif aspektlərdə təzahür edir. Həmin aspektlərdən ən başlıcası aşağıdakılardır:

1. Mənəvi mədəniyyət sərvətlərinin istehsalında şəxsiyyətin bilavasitə iştirakı. İnsanın məqsədyönlü, yaradıcı və fəal fəaliyyətindən kənarda mədəniyyət nümunələrinin, mənəvi dəyərlərin yaradılması ağlasığmazdır. Bu fəaliyyət məhz, şəxsiyyətin özünün, sosial qrupların və bütövlükdə cəmiyyətin mənəvi tələbatının formalaşmasına və ödənilməsinə xidmət edir, onların qabiliyyətinin inkişafına istiqamətlənir. Mədəniyyət sferasında şəxsiyyətin fəaliyyəti hər şeydən əvvəl, mənəvi istehsalla bağlıdır. Lakin bu cəhət heç də bəzi müəlliflərin iddia etdiyi kimi mənəvi fəaliyyətlə mənəvi istehsalı eyniləşdirməyə əsas vermir. Mənəvi fəaliyyətin sferası olmaq etibarilə mədəniyyət sferasında fəaliyyət mənəvi istehsaldan əlavə mənəvi mədəniyyətin yayılması və mənimsənilməsi sahəsindəki fəaliyyəti də özündə ehtiva edir. Şəxsiyyətin mədəniyyət sferasında mənəvi ölçü kimi səciyyələnməsi mənəvi istehsalla

əhəmiyyətli dərəcədə bağlıdır. Buna görə hər bir fərdin mənəvi mədəniyyətinin özü xeyli dərəcədə onun mədəniyyətin müxtəlif sferalarında iştirakından, mənəvi sərvətlərin istehsalından və mənəvi mədəniyyətin başlıca ünsürlərini fərdin mənimsəmə dərəcəsindən asılıdır.

2. Mənəvi sərvətlərin şəxsiyyət tərəfindən istehlakı. Mədəniyyət sferasında mənəvi ölçünün şərtlənənməsi yalnız mədəniyyət sərvətlərinin yaradılmasında iştirakla tamamlanmır. Bu məqsədlə mədəniyyətin başlıca ünsürlərinin dərindən və şüurlu mənimsənilməsi səviyyəsinə yüksəlmək lazımdır. İstehsal olunan mənəvi sərvətlər insanlar tərəfindən istehlak olunduqdan sonra maddi qüvvəyə çevrilir. Əlbəttə, mədəniyyət dəyərləri, mənəvi sərvətlər hamı tərəfindən eyni səviyyədə və dərəcədə mənimsənilmir. Bu prosesdə hər bir fərdin özünəməxsus xüsusiyyətləri və keyfiyyətləri, sosial təcrübəsi, mənəvi zənginliyə daxili tələbatı, ona yiyələnmək əzmi, fəallığı, təhsil səviyyəsi əhəmiyyətli rol oynayır. İnsanların mənəvi sərvətləri mənimsəmə dərəcəsi eyni olmadığı kimi, onların mənəvi inkişafı da və təbii olaraq mədəniyyət sferasının mənəvi meyarı kimi çıxış etməsi də eyni səviyyədə ola bilməz.

3. Mədəniyyət sərvətlərinin yayılması və mübadiləsi. Mənəvi mədəniyyət və bütövlükdə mənəvi həyat yalnız mənəvi sərvətlərin istehsalı və istehlakı ilə məhdudlaşmır, eləcə də mədəniyyət dəyərlərinin yayılmasını və mübadiləsini təcəssüm etdirir. Mədəniyyət sərvətlərinin yayılmasında və mübadiləsində mədəniyyət müəssisələri, kütləfi informasiya vasitələri əhəmiyyətli rol oynayırlar. Unutmaq olmaz ki, bunlar yaradılan sərvətlərin yayılması və mübadiləsinin təşkili formalarını ehtiva edir. Mənəvi mədəniyyət cəmiyyətin mənəvi həyatının inkişaf etməkdə olan keyfiyyətcə müəyyən tipi kimi səciyyələnir. Mənəvi mədəniyyət eləcə də bu və ya digər sosial sistemdə formalaşan şəxsiyyətin mənəvi aləmini ifadə edir. Mədəniyyət dəyərlərinin cəmiyyətdə rasional, sistemli və məqsədyönlü yayılması və mübadiləsi mənəvi istehsal sferasında çalışan fərdlərin fəaliyyəti ilə bilavasitə bağlıdır. Mədəniyyət sferasında yaradılan mənəvi dəyərlər – sərvətlər sisteminin özü insanın mənəvi mövcudluğu üçün zəruri şərtdir. İnsan mənəvi fəaliyyətsiz nəinki mədəniyyət sferasının mənəvi meyarı kimi çıxış edə bilməz, hər şeydən əvvəl isə ictimai varlıq kimi də mövcudluğu qeyri-mümkündür. Mənəvi həyat həm ictimai şüuru və eləcə də mənəvi istehsalı özündə birləşdirir. V.Kelle və M.Kovalzonun belə bir fikri ilə razılaşmaq olar ki, "cəmiyyətin mənəvi həyatı kateqoriyası" ictimai şüur anlayışına zidd olmayıb, ictimai şüuru məhz, fəaliyyətdə olan sistem kimi səciyyələndirir (80, 238-242).

İnsanların sosial təfəkkürünün, mənəvi fəaliyyətinin nəticələri kimi təzahür edən mənəvi mədəniyyət sərvətlərinin düşüncəli surətdə, şüurlu yayılması və mübadiləsi mədəni tərəqqinin obyektiv qanunauyğunluğudur, cəmiyyətin dinamik inkişafının zəruri tələbidir. Əks halda şəxsiyyətin və mədəniyyətin qarşılıqlı şəkildə bir-birinin meyarı kimi çıxış etməsi imkan xaricində olardı.

Hər bir ayrıca şəxsiyyətin mənəviliyinin dərəcəsi, öl-

çüsü eyni cür mənalanmır. Bu göstəricilər yalnız şəxsiyyətin fəaliyyət göstərdiyi empirik şəraitdən, "mikro mühitdən" asılı deyildir, eləcə də akademik Afanasyevin qeyd etdiyi kimi, onun "anadangəlmə istedadı, anatomik-fizioloji və nəslindən irsən keçən psixi xüsusiyyətləri, mövcud şəxsiyyətin şəxsi təcrübəsi, onun mədəni-inkişaf səviyyəsi, intellektual və digər keyfiyyətləri ilə şərtlənir" (42, 311-312). hər bir şəxsiyyət o mənada bütövlük, eləcə də mənəvi bütövlük kəsb edən varlıqdır ki, ona xas olan həyati təzahürlər bir-birindən təcrid olunmuş halda deyil, məhz qarşılıqlı əlaqədədir və məcmu halında nə isə əlahiddə, nisbi müstəqillik kəsb edən insan şəxsiyyətini yaradır. Şəxsiyyət hərəkətdə olan, dinamik bütöv sosial sistemdir. O, cəmiyyətin, sosial mühitin dəyişməsindən, inkişafından asılı olaraq dəyişir, inkişaf edir. Şəxsiyyətin bəzi xüsusiyyətləri onun inkişafı prosesində aradan qalxır, digərləri inkişaf edir, təkmilləşir və daha da möhkəmlənir, üçüncüsü yenidən qazanılır.

Mənəvi fəaliyyət iqtisadi, siyasi və sosial münasibətlərlə yanaşı sosial tənzimləmənin mühüm komponentidir. Mədəniyyətin özü bütün fəaliyyət sisteminin tərkib hissəsi və şərti olmaq etibarilə şəxsiyyətin fəaliyyətinin və cəmiyyətin dinamik inkişafının mənəvi komponenti kimi səciyyələnir, insan həyatının müxtəlif tərəflərini təmin edir. Mədəniyyət sferasının məzmunu normalar, sərvətlər, sosial əhəmiyyətə malik olanlar, ideyalar və biliklər sistemi vasitəsilə açıqlanır, bunların özü isə əxlaq və hüquq, din sistemində, bədii sferada və elmdə ifadə olunur. Şəxsiyyətin fəaliyyətinin nəticəsi kimi səciyyələnən mədəniyyət eləcə də müxtəlif təbəqələrin, qrupların, fərdlərin məqsədlərinin və oriyentasiyalarının təzahür etdiyi praktiki-fəaliyyətli formada, hadisələr və proseslər formasında mövcuddur.

Mübaliğəsiz demək olar ki, insan bəşəriyyət tarixində indiki qədər özü üçün sirr olmayıb. Şəxsiyyət probleminin mədəniyyətlə bağlılığını öyrənməyə istiqamətlənən xüsusi elmlərin sayının artmasına baxmayaraq onlar nəinki insanla mədəniyyətin qarşılıqlı münasibətləri barədə təsəvvürlərimizə kifayət qədər aydınlıq gətirmir, eləcə də bu məsələ ilə bağlı ümumi mənzərəni sadəcə izah edirlər. Psixologiya, antropologiya, etnoqrafiya, biologiya, tibb elmi, teologiya, fəlsəfə, sosiologiya, politologiya və tarix elmi müntəzəm surətdə insan-şəxsiyyət probleminə dair faktları fövqəladə dərəcədə zənginləşdirirlər, lakin faktların bolluğu fikir və ideyalar, konsepsiyalar çoxluğu demək deyildir. Belə bir fikirlə razılaşmaq olar ki, bizim elmi, fəlsəfi və teoloji antropologiyamız olsa da onlar bir-birindən xəbərsizdir. Buna görə biz insan haqqında aydın və sabit ideyaya lazımi dərəcədə yiyələnməmişik (95, 430). Bu mənada şəxsiyyəti mədəniyyəitin mənəvi meyarı kimi təhlil edərkən hökmən insanın, mənəvi həyatın spesifik sferası olan siyasi mədəniyyətin müəyyən meyarı kimi çıxış etməsi məsələsinə də diqqət yetirilməlidir. Bununla bağlı belə bir sual meydana çıxır: elə bir müasir sintetik mövqe mövcuddurmu ki, siyasi insan haqqında hansısa vahid konseptual təsəvvür yaratmağa qabil olsun?

Əgər siyasi mədəniyyət simvolik aləmdir ehtimalından çıxış etsək, belə halda siyasi insanın mədəniyyət terminində müəyyənləşdirilməsi substansional (maddi) baxımdan deyil, məhz funksional mənada mümkündür. Hər bir sivilizasiyada insanın başlıca xarakteristikası kimi onun fiziki təbiəti, hansısa daxili prinsipi, anadangəlmə

qabiliyyəti və ya instinktləri yox, yalnız siyasi aləmi mənimsəməsi üsulu, xüsusi sosial mədəni xarakter daşıyan fəaliyyəti çıxış edir. Siyasi insanın nəzəriyyədə və praktikada nə etməyə qadir olması qabiliyyəti hər şeydən əvvəl, siyasi təsəvvürlərə və formalara dair xüsusi simvolik universum yaratmaqdan ibarətdir. Həmin universum isə siyasi insana öz siyasi təcrübəsini başa düşmək, şərh etmək, təşkil etmək, əlaqələndirmək və ümumiləşdirmə imkanı verir. Sivilizasiyanın siyasi mədəniyyətinin bütün simvolları insanla batlıdır. O, bütün sözləri və obrazları diqqətlə seçir və həm də siyasət sferasında mövcud olan nə varsa məhz, insanla münasibətdədir. Təbii olaraq biz insanı ilk növbədə parlaq sosial mədəni çalarlara malik olan bu simvolik aləm vasitəsilə öyrənə bilərik.

Bu mənada siyasi insan heç də həqiqət aləmində deyil, məhz öz qüvvəsi ilə yaratdığı və müdafiə etdiyi illüziya və simvol aləmində mövcuddur. Ciddi surətdə desək, ümumiyyətlə, siyasi prosesi obyektiv mənada görmək mümkün deyil: bütün baş verənlər hər bir sivilizasiyada insanın siyasi təbiətinə uyğun olaraq başa düşülür və şərh olunur. Siyasi simvollar – partiyalar, hərəkatlar, hətta dövlət real obyekti çox tez-tez nəinki izah edir, eləcə də buna mane olurlar.

Bu proses eyni zamanda dildə və siyasi elmdə də baş verir. Hər bir ayrıca siyasi termin öz mədəniyyətində xüsusi "əhəmiyyət sahəsinə" malikdir və onlar nəinki müxtəlif, həm də bir-birinə zidd ol bilərlər. Məsələn, müsəlmanlar və xristianlar üçün vicdan azadlığı və ya siyasi azadlıq həmin mənada təzahür edir. Buna görə E.Kassirer tamamilə belə bir haqlı mülahizə yürüdür ki, fəlsəfə insan haqqında qəbul oluna bilən nəzəriyyə verə bitmədikcə,



hələlik dövlət nəzəriyyəsi işlənib hazırlanmayacaq (79, 914). Hər bir sivilizasiyada siyasi insanın təbiəti dövlət nəzəriyyəsində böyük hərflərlə yazılır və parlaq sosial mədəni çalarlar kəsb edir. Bütün canlı güc oyunlarını və ehtiraslarını, gərginliklərin və münaqişələrin hamısını yalnız mədəniyyətin simvolik xətti prizmasından düzgün aydınlaşdırmaq mümkündür. Bünü ilk dəfə dərindən dərk edənlərdən biri Monteske olmuşdur. O, insanın siyasi qanun yaradıcılığını "qanunların ruhu" kimi təsəvvür etməyə səy göstərmişdir. Monteske qeyd edirdi ki, bu ruh hər bir mədəniyyətdə adətlərlə, ənənələrlə, tarixlə və hətta xaqların coğrafiyası ilə məhdudlaşır, başqa sözlə müasir dildə desək, qanunların ruhu sosial mədəni məna kəsb edir. Hər bir sivilizasiyada siyasi insan gündən-günə, əsrdən əsrə fasiləsiz olaraq siyasi həyatı genişləndirməklə və zənginləşdirməklə bütün yeni simvolik formaları yaradır, bu isə qəti yaradıcı prosesdir.

İnsanın digər siyasi mədəniyyəti başa düşməsi onun başqa siyasi yaradıcılıq tipini, qanunların digər ruhunu anlaması qabiliyyətidir.

Tədqiqatçının tələb etdiyi nə varsa, onu siyasi insan ruhunun maddiləşməsi adlandırmaq olar. Tədqiqatçı bunu çoxsaylı siyasi formalarda və proseslərdə, təsisatlarda və təşkilatlarda açıqlayır. O, sənədi ona görə öyrənir ki, insanı duya bilsin. Lakin biz siyasi təsisatların, partiyaların, konstitusiyaların və qanunların mürəkkəb əlaqələrini müəyyənləşdirməyə müvafiq oluruqsa, bununla da digər mədəniyyət adamının əsl tədqiqi üçün zəmin yaradırıq.

Belə düşünmək səhv olardı ki, həmin digər mədəniyyət adamı bizim nəzərimizdə onun siyasi dili, siyasi qanunvericiliyin ciddi konturu, mədəniyyətin əxlaqi norma-

ları vasitəsilə canlanır, son nəticədə bütün bunlar kifayət qədər mücərrəd səciyyələndirmədir. Acı xarakterli İppolit Ten qeyd edirdi ki, belə nöqteyi-nəzərdə dayanmaq şeylərə nadanın gözləri ilə baxmaqdır və kitabxanaçının xülyasının təsiri altına düşməkdir. Başqasının tam portreti o zaman yaranır ki, biz qarşımızda fəaliyyətdə olan, cismani, görünən, xüsusi ehtirasların, vərdişlərin əsiri olan insanı təsəvvür edirik, eləcə də sosial mədəni ənənələrə əsaslanaraq mübarizə aparanı, başqa sözlə, siyasətin canlı aləmində mövcud olanı görürük.

Siyasi sferada təzahür edən dəyişikliklər öz ifadəsini ümumi formada siyasi inkişafda tapır. Digər siyasi mədəniyyətin daşıyıcısı olan insanı başa düşmək başqa siyasi yaradıcılıq tipinə qadir olan insanı anlamaq deməkdir. Bununla bağlı tədqiqatçının əldə etdiyini siyasi insanın ruhunun maddiləşməsi adlandırmaq olar. Əsl tədqiqatçı üçün bu sadəcə olaraq sivilizasiyanın siyasi həyatının sənədləri deyil, məhz insan həyatının canlı formalarıdır. O, sənədləri bu məqsədlə öyrənir ki, onun vasitəsilə insanı tədqiq etsin. Görkəmli ispan tədqiqatçısı (filosof) Orteqa-i-Qasset qeyd etmişdir ki, mənəvi və maddi mədəniyyətin bütün möcüzəsi necə təsirli olmasına baxmayaraq prinsipcə, insan həyatının xüsusi şəxsi reallığı qarşısında silinib yox olmalıdır. Nə üçün? Ən başlıcası ona görə ki, insan əşya deyil ki, onun haqqında səhv mühakimə yürüdülə, təbiət də insanın deyil, insanın malik olduğu bir şey var, o da tarixdir.

Həqiqətən, sözün müəyyən mənasında hər bir sivilizasiyada siyasi insan özünü özü yaratmışdır, siyasi formaların və təsəvvürlərin simvolik aləmini yaradıcılıqla inkişaf etdirmişdir.



# II FƏSİL

# MƏDƏNİYYƏT ŞƏXSİYYƏTİN MÖVCUDLUĞUNUN MEYARIDIR

## 2.1. Mədəniyyət şəxsiyyətin fəaliyyətinin üsulu və nəticəsidir

Şəxsiyyət fərdin çətinlikləri aradan qaldırması və həyat təcrübəsi toplaması yolu ilə sosial təşəkkülünün nəticəsidir. Buna görə hər bir cəmiyyətdə şəxsiyyətin özünün sosiallaşması prosesi, başqa sözlə insanın cəmiyyətin fəal, dəyərli üzvü kimi inkişafı məsələsi nəzərdə tutulur. Həmin prosesdə fərdin cəmiyyətin yaddaşına qovuşması, əldə olunmuş ənənələri mənimsəməsi həyata keçirilir. Fərd müxtəlif sosail mexanizmlər və təsisatlar vasitəsilə zəruri istehsal vərdişlərini, təbii və sosial mühit barədə praktiki bilikləri, mədəni sərvətləri və normaları mənimsəyir. Sosiallaşdırma prosesinin müəyyənləşdirilməsinin müxtəlif tərzdə qiymətləndirilməsinə baxmayaraq, bu prosesin mahiyyəti fərdin mövcud cəmiyyətin həyatı üçün zəruri olan sosial-mədəni təcrübəyə yiyələnməsi kimi başa düşülür. Hər bir şəxsiyyət cəmiyyətin ünsürü olmaq etibarilə insanın fəaliyyətinin subyektləri sırasına aiddir, gündəlik həyatın xüsusiyyətləri prosesində əldə edilən təkrarolunmaz keyfiyyətlərə yiyələnir. Həmin xüsusiyyətlər fərdi stereotiplər forması kəsb edir. Lakin bu stereotiplər sosiallaşma prosesində əldə edildiyindən, mədəniyyət hadisəsindən başqa bir şey deyildir. Belə halda biz mədəniyyətin xüsusi və geniş sferası ilə rastlaşırıq.

Cəmiyyət və sosial mühit şəxsiyyətə iki istiqamətdə təsir etmək qabiliyyətinə malikdir – ona təzyiq göstərməklə və onu inkişaf etdirməklə. Cəmiyyətin mədəni inkişaf səviyyəsi nə qədər yüksəkdirsə insan bir o qədər şəxsiyyət kimi qiymətləndirilir. Müasir demokratik cəmiyyətlər, məsələn, ABŞ və İsveç şəxsiyyətin təbii vətəndaş hüquqlarını daha etibarlı təmin edir.

Fəaliyyət prinsipi təbiətə məxsus deyil, məhz insana xas olan xüsusiyyətdir. Hətta təfəkkürün özü, praktiki fəaliyyəti zehni yolla mənimsəməyin nəticəsidir. Bu kateqoriyanın ümumiliyi ətraf aləmin dəyişdirilməsinə istiqamətlənən hər cür məqsədyönlü istehsal fəaliyyətini ona aid etməyə imkan verir. İnsanların gerçəkliyi nəzəri mənimsəməsinin bütün nailiyyətlərini özündə təcəssüm etdirən bilik onların ictimai-tarixi fəaliyyətinin məhsulu olsa da, yalnız ictimai hadisə olaraq qalmır, hər bir konkret halda biliyin daşıyıcısı konkret fərd, tarixi şəxsiyyətdir (23, 25). Eləcə də şəxsiyyət nəinki mədəniyyətin daşıyıcısıdır, həmçinin yaradıcısıdır.

Mədəniyyət-sivilizasiya sistemini şəxsiyyətin fəaliyyətinin məhsulu kimi başa düşmək məqsədilə ən əvvəl "fəaliyyət" anlayışının məzmununu konkret açıqlamaq vacibdir.

Qeyd edək ki, fəaliyyət problemini fəlsəfənin bölmələrindən biri sayılan praksiologiya öyrənir. Praksiologiya məvhumu yunan dilində praktikos sözündən götürülüb – fəal, işgüzar, fəaliyyətli kimi mənalanır. Fəaliyyət anlayışı insanın varlığının təbiətini və mahiyyətini dərindən anlamağa imkan yaradır. Başqa sözlə, insanın özünün şəxsiyyət kimi reallaşdırılmasına, sosial əlaqə və münasibətlərinin, mənəvi aləminin və maddi praktikası sferasının



təkrar istehsalına kömək edir. İnsanın fəaliyyəti fərdin və bütövlükdə cəmiyyətin varlığının xüsusi üsulu kimi çıxış etməklə heyvanlar aləminin fəaliyyətindən köklü surətdə fərqlənir, spesifikliyi ilə səciyyələnir. Sosail fəlsəfə fəaliyyətin əhəmiyyətini şəxsiyyətin sosiallaşması üsulu kimi, başqa sözlə cəmiyyət tərəfindən əldə olunan təcrübəni, sərvətləri mənimsəməsi baxımdan açıqlayır. İdrak nəzəriyyəsində fəaliyyət hissi-predmetli fəaliyyət, yəni praktiki idrakın əsası və biliklərimizin həqiqiliyinin meyarı kimi müəyyənləşdirilir. Fəlsəfənin ən mürəkkəb problemlərindən biri insanın fəaliyyətinin spesifikliyini – mədəniyyətlə əlaqəsini açıqlamaqdır. Fəaliyyət anlayışına çoxcəhətli yanaşma təsadüfi olmayıb məhz, onun insan həyatını şərtləndirməsi, insanın təbiətə, cəmiyyətə və özünə bütün münasibət sferasını əhatə etməsi ilə bağlıdır.

Fəlsəfədə fəaliyyət insana xas olan fəallığın xüsusi forması və öz məzmunu etibarilə xarici aləmin məqsədyönlü dəyişdirilməsi kimi müəyyənləşdirilir (45, 252). Fəaliyyət qabiliyyətin konkret növünə nüfuz etməsini və özünün predmetli təcəssümünü ifadə edir. Bu o deməkdir ki, fəaliyyətdə olan insan xarici aləmi və özünü dəyişdirmək qabiliyyətinə malikdir. XX əsrin görkəmli mütəfəkkiri E.Kassirer qeyd edirdi ki, insanın ən başlıca səciyyəvi xüsusiyyəti, fərqləndirici əlaməti onun mücərrəd və ya fiziki təbiəti deyil, məhz fəaliyyətidir.

İnsanın fəaliyyəti müxtəlif sferalara malikdir. Kassirer insanın fəaliyyət sahələrinə hər şeydən əvvəl dili, mifi, dini, incəsənəti, elmi, tarixi aid edirdi. Deməli, insanın özünü və mədəniyyət-sivilizasiya sisteminin onun fəaliyyətinin məhsulu olduğunu əhatəli başa düşmək üçün həmin fəaliyyət növlərindən hər birinin fundamental strukturu-

nun aydınlaşdırılması olduqca vacibdir, eləcə də fəaliyyət üzvi bütövlük kəsb edən hadisə kimi dərk olunmalıdır.

Empirik tədqiqat üçün fəaliyyətin ən müxtəlif növlərinin (yüzdən artıq) araşdırılması mümkündür, bunlardan hər biri məqsəd, zaman büdcəsi, sosial istiqamətlənmə və s. vasitəsilə səciyyələndirilə bilər. Bizim məqsədimiz fəaliyyətin ümumi strukturunu və orada mədəniyyət amillərinin yerini üzə çıxarmaqdan ibarətdir. Bəzən mədəniyyət əsaslandırılmayan səviyyədə məhz qeyri-istehsal fəaliyyətinə aid edilir və bu belə mənalandırılır ki, adamlar işdən sonra və ya iş zamanı məşğul olurlar. Eləcə də mədəniyyəti fəaliyyətin bütün həcmində əritmək düzgün deyildir.

Belə halda mədəniyyətə dair üstqurum konsepsiyasından uzaqlaşmaq zərürəti yaranır. Həmin konsepsiyaya görə guya mənəvi amillər başlıca maddi həyati tələbatların ödənilməsindən sonra əhəmiyyət kəsb edir. Mədəniyyət sferası ümumiyyətlə, istehsalla birgə fəaliyyətin mühüm komponenti kimi səciyyələnir. Şübhəsiz, mədəniyyətin xeyli hissəsi bədii mədəniyyətlə əlaqədardır, buna görə onu məqsədyönlü istehsala aid etmək olmaz. Həm bədii söz ustasının yaradıcılığı və ya yaratdığı obraz, həmçinin ifaçı incəsənət, müxtəlif növ bayramlar, tamaşalar, vaxtın mədəni-əyləncəli keçirilməsi insanın varlığını tamamlayır və rəngarəng fəaliyyətin təzahür formasına çevrilir, bunların ictimai istehsalla birgə əlaqələnməsi heç də mütləq deyil.

Əslində maddi istehsal nöqteyi-nəzərdən mədəniyyət özünün bədii ölçülərində fəaliyyətin ən çox "xərclənən" tipi kimi səciyyələnir. Bununla belə elə bir cəmiyyət mövcud deyildir ki, fəaliyyətin bu tipini ləğv etsin və ya hətta bütövlükdə istehsalın mənafeyinə tabe etsin.



Maddi istehsal işlənib hazırlanmış normalar, sərvətlər, biliklər, əhəmiyyətli olanlar sistemi mövcud olmadan keçinə bilməz. Elmi-texniki inqilab maddi mədəniyyətin inkişafında təzahür etsə də, həmçinin humanitar mədəniyyətin zənginləşməsinə, insan şəxsiyyətinin mənəvi aləminin inkişafına, onun dünyagörüşünə fəal təsir göstərir.

Mədəniyyət-sivilizasiya sisitemi şəxsiyyətin fəaliyyətinin məhsulu kimi mənəvi istehsalda reallaşır. Çünki mədəniyyətin özü (əlbəttə, mənəvi mədəniyyət) mənəvi istehsal sferasıdır. Fəaliyyətdən fərqli olaraq ümumiyyətlə istehsal müəyyən məqsədyönlü xarakter daşıyır və müxtəlif həyati təminat sisteminin yaradılması ilə bağlı cəmiyyətin tələbatına cavab verir. Lakin istehsal heç də məhsulların buraxılışı və bunun üçün zəruri istehsal qüvvəsinin yaradılması üzrə son dərəcə utilitar iş sferası kimi təsəvvür olunmamalıdır. Maddi tərəfdən savayı, hər cür birgə istehsal mənəvi fəaliyyətin mahiyyətini təşkil edən mənəvi tərəfin də təmin olunmasını tələb edir.

Mədəniyyət məhz, mənəvi istehsal sferasında formalaşır. İnsanların fəaliyyətinin məhsulu olan mədəniyyətdən kənarda nə iqtisadiyyat, nə siyasət, nə sosial münasibətlər fəaliyyət göstərə bilməz. Beləliklə, mədəniyyət mənəvi istehsalın məzmununu təşkil edir və onun məhsuludur. İnsanların fəaliyyətindən kənarda isə mənəvi istehsal ağlasığmazdır. Maddi və mənəvi fəaliyyət arasındakı fərq nisbi olmaqla əməyin özünün təhlilindən irəli gəlir (69, 97).

Mənəvi istehsal həm ümumi istehsalın və eləcə də birgə ictimai münasibətlərin mühüm zəmini olmaqla mədəniyyətdə işlənib hazırlanan sərvətlərə, biliklərə və ori-

yentasiyalara təsir etməyə meyllidir. Determinasiyanın xüsusi sferası olmaq etibarilə mədəniyyətin müstəqilliyini ümumi tənzimləmə sistemində üstqurum və ya qalıq amillərinə müncər etmək olmaz, başqa sözlə elə amillərə ki, üstünlük və ya son söz maddi istehsal üsuluna məxsusdur.

İnsanların həyat fəaliyyətinin hər iki tərəfinin – maddi və mənəvi istehsalın müstəqilliyi və qarşılıqlı asılılığı cəmiyyətin, onun ayrı-ayrı hissələrinin və ya ayrıca şəxsiyyətin tənzimlənməsinin hər hansı səviyyəsində təzahür edə bilər.

Əmək bölgüsü prosesində ümumi ictimai istehsalı saxlamaq üçün zəruri olan ixtisaslaşmış mənəvi istehsal formaları formalaşır. İctimai faydalı fəaliyyətdə elə normalar və sərvətlər, biliklər və ideyalar yaradılır ki, bunlar da bütövlükdə cəmiyyətin fəaliyyəti prosesini reallaşdırır.

İnsanların mənəvi fəaliyyəti sosial tənzimləmənin elə xüsusi sferasını formalaşdırır ki, o, sosial bütövlüyün və onu sosial-mədəni cəhətdən şərtləndirən differensasiyanın saxlanmasını əhəmiyyətli dərəcədə təmin edir.

İnsan düşünülmüş, mənalı və bir qayda olaraq məqsədyönlü fəaliyyət göstərir. Düşüncəli hərəkət əslində daxilən insan fəaliyyətinin bütün növlərinə xasdır. Düşüncəli olmaq insanın öz fəaliyyətinin məqsədlərini ağıllı müəyyənləşdirmək, onu azad və şüurlu idarə etmək qabiliyyətini səciyyələndirir. İ.Fixte qeyd edirdi ki, insan təbiət kimi zərurətdən doğan deyil, dərk olunmuş məqsədli fəaliyyət göstərir.

Praksiologiya (fəaliyyət) elminin çox görkəmli nümayəndəsi E.Kassirerin dəqiq ifadə etdiyi kimi, "şübhəsiz, bəşəri mədəniyyəti müxtəlif məqsədlərlə, rəngarəng yollarla inkişaf edən ayrı-ayrı fəaliyyət növləri yaradır". Heç də təsadüfü deyil ki, insanın fəaliyyəti mədəniyyət mexanizmləri ilə proqnozlaşdırılan və reallaşan fəal sosial təbiətə malik hadisə kimi müəyyənləşdirilir. Özündə fəaliyyətin qeyri-bioloji baxımdan işlənib hazırlanmış çoxcəhətli və mürəkkəb sistemini əks etdirən mədəniyyət fəaliyyətə spesifik insani xarakter bəxş edir. İnsan məhz, fəaliyyətdə düşüncəli, zəkalı varlıq və şəxsiyyət mahiyyətli fərd kimi formalaşa bilər. İnsanın şəxsiyyət kimi formalaşması hər şeydən əvvəl, fərdin qarşıya qoyduğu məqsədi, hərəkət xəttini, cəmiyyətdə öz yerini, mövqeyini və rolunu anlaşmasıdır, sosial-siyasi davranışının mənasını və nəticələrini aydın başa düşməsidir, əxlaqi-mənəvi keyfiyyətlərə ciddi səy göstərməsidir. Bir sözlə, insanın qabiliyyətinin inkişafı prosesi onun özünün inkişafı prosesidir. Fəaliyyət qabiliyyəti, mədəniyyət yalnız insana xasdır, fəaliyyətli prosesdə o, özünün yaratdığı əşyaları cilalayır, təbiəti insani şəklə salır. Mədəniyyət sferası ilə bağlı fəaliyyət şüurlu və sərvəi yönümlü xarakter daşıyır. Həmin fəaliyyət insanın tələbatı ilə müəyyənləşir və burada məqsədə çatmaq üçün zəruri ünsürlər mövcuddur. Mədəniyyətdə maddi mülahizələrlə (mənfəətlə) müqayisə olunmayan sərvətlər yaradılır.

Şüurun fəaliyyətində reallaşan, təcəssüm olunan mədəniyyət özündə maddiliyi də əks etdirir. Mədəniyyətin maddiliyi sosial təcrübənin, fəaliyyət üsullarının və proqramının sonrakı nəsillərə keçməsinə imkan yaradır. Mədəniyyətin maddiliyi son dərəcə geniş anlayış olmaqla biliklərin, bacarığın, normaların, cəmiyyətin sərvəilərinin təcəssüm olunduğu nə varsa hamısını səciyyələndirir. O, eləcə də maddi mədəniyyəti (maddi istehsalın vasitələrini, məhsullarını və infrastrukturunu) özündə birləşdirir. Mə-

dəniyyətin maddiliyi həmçinin dildə və nitqdə, əxlaqi davranışda və *incəsənət əsərlərində*, hüquqi və siyasi davranışda, elmi əsərlərdə və dini mərasimlərdə və sairədə təcəssüm olunan mənəvi mədəniyyəti əhatə edir.

Mədəniyyət biliklərin, sərvətlərin, ideyaların daşıyıcı olan xüsusi dilə malikdir. Mədəniyyət ünsiyyəti vasitələri özündə yalnız şəxsiyyətlərarası ünsiyyəti deyil, eləcə də elmi, siyasi, təbliğatı, idarəedici, dini dili əks etdirir.

Mədəniyyəti şəxsiyyətin fəaliyyət üsulu nöqteyi-nəzərdən başa düşmək heç də axırıncının ictimai həyatın inkişafının subyekti kimi təhrif olunması deyildir. Çünki fəaliyyət üsulu yalnız sistemin fəaliyyət üsulu baxımdan mənalandırılmamalıdır və eyni dərəcədə onun inkişafı kimi başa düşülməlidir. Bu iki müxtəlif və əlaqə kəsb edən tərəflər tez-tez bir-birindən təcrid olunurlar və biri digərinə qarşı çıxış edir.

Mədəniyyət insanın fəaliyyətinin ən mühüm keyfiyyət xarakteristikasıdır, əlbəttə, məhz onun insani yaradıcı aspektində. Belə fəaliyyət mədəni sərvətlərdə əşyalaşır (maddiləşir), bəşəriyyətin "sosial irsiyyəti" kimi çıxış edir. insan şəxsiyyətinin müəyyən tipinin formalaşması baxımından mənalanır.

Mədəniyyətin şəxsiyyətin fəaliyyətinin üsulu və eləcə də nəticəsi kimi çıxış etməsi bir sıra amillərlə bağlıdır. Bu mənada fəaliyyətin xüsusiyyətləri tarixən konkret sosial iqtisadi strukturdan və mədəniyyətin üstünlük təşkil edən tipindən asılıdır. Təsadüfi deyil ki, ayrı-ayrı ictimai iqtisadi sistemlərə aid olan sosiallaşmanın xüsusiyyətlərinə, mühüm fərqlərinə dair müxtəlif elmi mülahizə və mühakimələrə rast gəlirik. Qeyd etmək yerinə düşər ki, bu və ya digər cəmiyyət çərçivəsində sosiallaşmanın xüsusiyyətləri baxımından fərdin sinfi mənsubiyyəti böyük əhəmiyyət kəsb edir.

Şəxsiyyətin real taleyinə sosial şəraitlə, subyektiv cəhdlərlə və onun daxili mədəniyyəti ilə bağlı olan imkanlarının nisbəti özünəməxsus təsir göstərir.

Şəxsiyyətin fəaliyyətində konkret surətdə fərdin sosial-qrup, mədəni-dini və etnik mənsubiyyəti, əmək fəaliyyətinin xarakteri, sosiallaşmanın ilk və başlıca mexanizmi sayılan ailə, validenlərin iqtisadi və sosial statusu və s. əhəmiyyətli rol oynayır.

Mədəniyyətin spesifikliyi bundan ibarətdir ki, yalnız insanın mövcudluğunu səciyyələndirir.

Cinsi və fərdi mənada bütün canlılardan ancaq insan mədəni-mənəvi mahiyyət daşıyır. Başqa sözlə, mədəniyyət məhz, insan nəslinə xasdır. Onu səciyyələndirən xüsusiyyətlər sferası insanın təsiri altında genişlənir. Bəşəriyyətin mədəni-tarixi tərəqqisinin təzahürlərindən biri məhz bu sferada ifadə olunur. İnsan təbiət aləminə nüfuz etməklə öz tələbatını reallaşdırır, daha mürəkkəb, çoxcəhətli və kamil varlığa çevrilir. Təbii olaraq, insanın mədəniyyət aləmi təbiətin yeni sahələrini mənimsəmək hesabına genişlənir. Əlbəttə bu, mədəniyyət aləmini genişləndirən və təkmilləşdirən yeganə yol deyildir.

Bütün hallarda insanın mədəniyyətlə bağlı statusu və mənası ona öz fəaliyyəti vasitəsilə verilir. Deməli, mədəniyyətin fərqləndirici xüsusiyyəti bundan ibarətdir ki, o, insanın fəaliyyəti sayəsində yaranmışdır və yaranır. İnsanın fəaliyyətindən kənarda mədəniyyət mövcud ola bilməz, eləcə də şəxsiyyətin sosiallaşması mədəniyyətdən təcrid olunmaq prosesində ağlasığan deyildir. Mədəniyyətin insanın fəaliyyəti ilə əlaqəsini müəyyənləşdirərkən nəzər-

dən qaçırmaq olmaz ki, birincisini məhz, ikinci doğurur.

Mədəniyyətlə insanın fəaliyyətinin əlaqəsi və ya onun şəxsiyyətin fəaliyyətinin üsulu kimi çıxış etməsi iki mövqedən: xüsusi-elmi və fəlsəfi mövqelərdən reallaşa bilər. Xüsusi-elmi belə bir sualı cavanlaşdırmağa istiqamətləndirir: tarixən ilk fəaliyyət növü nə olmuşdur və insana, eləcə də mədəniyyətə münasibətlə o, hansı nəticələri doğurmuşdur. Məlum olduğu kimi marksizmin əmək konsepsiyasına görə əmək, ilk növbədə isə əmək aləti insanın yaranmasının ilkin şərti hesab olunur və yalnız bundan sonra cəmiyyət və mədəniyyət yaranmışdır. Əmək, xüsusilə maddi istehsal sahəsindəki fəaliyyət indinin özündə də mədəniyyətin əsasını təşkil edir.

Fəlsəfi yanaşma isə mədəniyyətlə bağlı yaradıcı fəaliyyətin başlıca zəminini, şəraitini, strukturunu, formasını açıqlayaraq belə bir mövqedən çıxış edir ki, o, müstəsna təbii zərurətdən yaranmır və o zaman başa çatır ki, bu digər zərurət yox olur. Nəticə etibarilə mədəniyyət sferasında fəaliyyət hər hansı yeganə əlahiddə fəaliyyət deyildir, eləcə də çoxlu pərakəndə tək-tək (ayrıca) şeylər kimi də səciyyələnmir, məhz bir-birilə bağlı olan kollektiv fəaliyyətin xüsusi növüdür. Əgər təbii əsasa malik canlı varlıqlar öz xarakterinə görə genetik yolla əldə edilən və irsi mahiyyət daşıyan bioloji davranışı həyata keçirirsə, insan əksinə, mədəniyyətə aid həyat fəaliyyəti prosesində sosial birlik yaratmaqla kollektivə qoşulur (qovuşur).

Sosial sistemdə insanın fəaliyyəti bioloji zərurətlə deyil, məhz dəyişən şəraitə cavab verən daim dəyişilən proqramlarla və fəaliyyət imkanları ilə müəyyənləşir, bu proqramlar isə bioloji yolla deyil, yalnız mədəniyyət göstəricilərilə ifadə olunur.



Fəaliyyət prosesində insan özünü təsir etdiyi mühitdən ayıraraq onunla əvvəlki təbii əlaqəsini dəyişir və bu əlaqəni digər-sosial mədəni sferaya şəmil etməklə onu xüsusi təsir predmetinə çevirir. Fəlsəfi dildə bu, insanın fəaliyyət subyektinə çevrilməsini və onun istiqamətləndiyi obyektin təzahürünü ifadə edir. Aydındır ki, obyekt kimi yalnız təbiət deyil, məhz subyektin təsir etdiyi prosesə cəlb olunan nə varsa bunların hamısı çıxış edir.

Mədəniyyət sferasına aid fəaliyyətin xüsusi tərzdə səciyyələnən subyektiv-obyektiv münasibət kimi başa düşülməsi təbii olaraq onun sövqedici mexanizmləri (motivləri) və öz xarakteri barədə digər bir sual doğurur. Motiv (səbəb) kimi daha fərdə, nəsilə anadangəlmə xas olan bioloji tələbat deyil, ilk başlanğıcda sadə, lakin tədricən inkişaf edən və mürəkkəbləşən xüsusi, mədəniyyətli mahiyyət daşıyan çıxış edir. Subyektin motivli (səbəblə şərtlənən) xarakteristikasına qabiliyyət və bacarıq elementləri qovuşaraq məcmu halında tələbatla birlikdə fəaliyyətin təşəkkülü üçün zəruri və kifayət qədər mexanizm hazırlayır.

Mədəniyyət sferasındakı fəaliyyətdə şəxsiyyət daim qərar seçmək zərurətinə məruz qalır, bu qərarı öz məqsədlərinə, imkanlarına və ya arzularına uyğun istiqamətləndirir. Hər halda mədəni tərəqqinin ən mühüm göstəricilərindən biri insanın təbiətin asılılığından azad olması dərəcəsidir, onun sosial məcburetmə, məhdudiyyət və qadağalardan azad olmasıdır, fərdi seçim dərəcəsinin artması və şəxsi azadlıq hüdudlarının genişləndirilməsidir. Mədəniyyətin, xüsusilə maddi mədəniyyətin inkişafı ilə cəmiyyət bütövlükdə şəxsiyyətin azad inkişafı təminatının səviyyəsini yüksəldir, bununla yanaşı yüksək dəyərlərdən

biri kimi fərdi azadlığın əhəmiyyəti artır. Şəxsiyyətin mədəniyyətli fəaliyyətli azad və yaradıcı başlanğıcla səciyyələnir.

Elmi-fəlsəfi səpkidə mədəniyyət məhz, dəyişdirici fəaliyyətin bütün növlərinin məcmuu, mədəniyyət sərvətlərinin yaradılması, saxlanması və sonrakı nəsillərə verilməsi prosesi kimi səciyyələndirilir. Deməli, mədəniyyət şəxsiyyətin fəaliyyətinin nəinki üsuludur, eləcə də nəticəsidir.

Mədəniyyət insanın fəaliyyətindən ayrılmazdır, onun tələqqisi fərdlərin və sosial qrupların mədəni-tarixi yaradıcılıqda iştirakı ilə şərtlənir. A.Toynbi qeyd edir ki, "mədəniyyət elementi sivilizasiyanın ruhu, qanı, limfası, mahiyyətidir..., sivilizasiyanın hərəkətverici qüvvəsidir" (125, 355-356).

Sivilizasiya cəmiyyətin özünü müdafiəsinin dəyişməzliyidir, sosial statikanın daşıyıcısıdır. O, bir qisim yaradıcı şəxsiyyətlər tərəfindən formalaşır və eyni zamanda bu qismi formalaşdırır, tarixin "çağırışına" cavab vermək qabiliyyətinə malikdir, sosail dəyişikliklərə təkan verir.

İndustrial cəmiyyəti əvəz edən informasiya sivilizasiyası nəinki bütün ictimai münasibətlər sisteminin təkrar istehsalının prinsipcə yeni texnoloji üsulu, eləcə də insanın, texnikanın və mədəniyyətin qarşılıqlı fəaliyyətinin xarakteri ilə müəyyən olunur. İctimai istehsalın və əməyin humanistləşməsinin sosial cəhətdən yeni istiqamətinin ağırlıq mərkəzinin mənəvi istehsala keçməsi ictimai həyatda humanizmin rolunu və əhəmiyyətinin artmasını obyektiv surətdə şərtləndirir. İnformasiya sivilizasiyasının inkişafı insanın özünün, onun yaradıcı və əməli dəyişdiricisi qabiliyyətinin daim təkmilləşdirilməsini tələb edir. Belə halda şəxsiyyət nəinki cəmiyyətin əsas sosial ölçüsünə və başlıca sosial məzmununa çevrilir, həmçinin mədəniyyət-sivilizasiya sisteminin təkmilləşdirilməsinin və mahiyyətinin çox əhəmiyyətli universal komponenti kimi səciyyələnir. Mədəniyyət, mənəvi sərvətlər sistemi şəxsiyyətin yaradıcı fəaliyyəti prosesində təşəkkül tapır və inkişaf edir. Bu mənada yaradıcılıq prosesini öyrənərkən yalnız deduktiv və xüsusilə induktiv məntiqin vasitələrindən istifadə etməklə və bunu təkmilləşdirməklə kifayətlənməməliyik, eləcə də dialektika anlayışı ilə və ya dialektik məntiqlə əlaqədar olan məntiqi metodun işlənib hazırlanmasına diqqət ancaq mədəniyyətin və sivilizasiyanın xüsusi komponenti olan elmə şamil olunmamalıdır, həmçinin mədəniyyətin yaradıcı fəaliyyətlə şərtlənən digər komponentlərinə də tətbiq edilməlidir. Tanınmış rus alimi P.V. Kopninə görə yaradıcı prosesə bu cür yanaşma insan idrakını aşağıdakı kimi başa düşməklə bağlıdır: 1) idrak obyektiv reallıq fikrini dərk etmək prosesidir; 2) idrakın yeni nəticələrə doğru irəliləyişinin əsasını subyekt və obyektin praktiki qarşılıqlı fəaliyyəti təşkil edir; 3) idrak yeni nəticələrə insanın şüurunda əks olunan obyektiv reallığın özünün qanunları və formaları üzrə hərəkət edir (84, 157).

Şəxsiyyətin mədəniyyət-sivilizasiya sistemini təkmilləşdirməyə istiqamətlənən idraki fəaliyyəti mahiyyət etibarilə humanist məzmun daşıyır. Yaradıcılıq fəaliyyətinin məhsulu olan mədəniyyət və sivilizasiyanın mənəvi tərəfi məhz insanlara, müxtəlif sosial qruplara və bütövlükdə cəmiyyətə xidmət edir.

Bazar iqtisadiyyatı və demokratiya insanın humanist idellarının qərarlaşmasına istiqamətlənməlidir. Bazar iqtisadiyyatı yalnız ədalətli və humanist olduqda cəmiyyə-

tin inkişafına təsir göstərə bilər. əks təqdirdə ictimai həyat sosial tənəzzülə məruz qalar. Bununla bağlı bazar iqtisadiyyatı konsepsiyası informasiya cəmiyyətinin sosial-iqtisadi və mənəvi fəaliyyətinin mexanizmlərini müəyyənləşdirməlidir və bu məqsədlə belə bir nöqteyi-nəzərdən çıxış etməlidir ki, bazar məqsəd deyil, məhz insanların həyatı üçün normal şəraitin formalaşdırılması vasitəsidir, təbii ki. eləcə də şəxsiyyətin mənəvi sərvətlər sisteminin yeni çalarlarla zənginləşməsinə yönələn fəaliyyətinin əhəmiyyətli amillərindəndir.

Mövcud problemin təhlili belə qənaətə gəlməyə əsas verir ki, insanın humanist fəaliyyəti, məqsədləri və idealları sosial və mənəvi varlığın obyektiv qanunları ilə müəyyən olunur. Əsrlər boyu formalaşan humanizm öz inkişafında insan probleminə, onun mahiyyətinə və mənəvi-mədəni fəaliyyətinə müxtəlif yanaşmaları əks etdirmişdir. Müasir humanizmin mahiyyəti heç də insanın mücərrəd hüquqlarını elan etməkdən ibarət olmamalıdır (bəzi hüquq müdafiəçiləri buna müvəffəq olmuşlar), eləcə də onun özü hansısa əyar (etalon) kimi mənalandırılmamalıdır. Əgər humanizm real həyatı problemlərlə, insanların maddi istehsal və mənəvi fəaliyyətinin doğurduğu məsələlərlə bağlı deyilsə, belə halda o, zərərli və təhlükəlidir. Humanizm şəxsiyyətin mədh olunması deyil, məhz şəxsi və ictimai mənafeyin əlaqələndirilməsi əsasında ona tələbkar və məsuliyyətli münasibətdir. Humanizmin belə dərk olunması şəxsiyyətin mədəniyyət sferasında düşüncəli, məsuliyyətli, fəal, yaradıcı fəaliyyətinə real təminat vermiş olar. Axı, insanlara xidmət edən mədəniyyətin özü əsl humanist məqsədlərin və ideallarin təcəssümüdür. "Humanizm insanın başlıca hüquqlarının qəbul olunmasını nəzərdə tutur. Şəxsiyyətin rifahını hər cür ictimai fəaliyyətin qiymətləndirilməsinin yüksək meyarı kimi təsdiqləyir".

Müasir humanizmin məzmunu insanın başlıca problemlərinin həlli, onun fiziki və xüsusilə mənəvi imkanlarının reallaşması ilə əlaqədardır. Bu baxımdan mənəvi fəaliyyətin xüsusi komponenti olan elmi fəaliyyət böyük əhəmiyyətə malikdir. Elmi fikir və onun şəxsiyyətin dəyişdirici fəaliyyəti imkanlarına yol açması nəinki mədəniyyətin inkişafına, sosial tərəqqiyə təkan verir, həmçinin kainatın, yer üzünün simasını dəyişdirməyə qadirdir. V.İ.Vernadskiy hələ XX əsrin əvvəllərində elmin insanların həyatına kosmik, planet hadisəsi kimi əhatəli təsirini səciyyələndirərək qeyd edirdi ki, elmin təşəkkülü, ən başlıcası coşgun inkişaf ilə bağlı "insan ilk dəfə real surətdə başa düşdü ki, o, planetin sakinidir və yeni aspektdə düşünməli və fəaliyyət göstərməlidir – yalnız ayrıca şəxsiyyət, ailə və ya nəsil, dövlətlər və onların ittifaqı aspektində deyil, həm də planet aspektində düşünməli və fəaliyyət göstərməlidir" (131, 110). Bəşər mədəniyyətinin indiki inkişafında elmi idrak yeni, özünəməxsus funksiyalar yerinə yetirir. Elmin inkişaf prosesi həmişə "elmin özünü dərk etməsinin" özünəməxsusluğu ilə müşayiət olunur və müxtəlif formalarda həyata keçirilə bilər. Elmşünaslıq məhz, elmin özünü dərk etməsinin belə kompleks sferasına və vasitəsinə çevrilmişdir. Mədəniyyətin xüsusi komponenti olmaq etibarilə indi elmin kütləvi peşəyə çevrilməsi, bu sferada şəxsiyyətin yaradıcılıq fəaliyyətinin güclənməsi tələbatı artmışdır.

Cəmiyyətin mənəvi həyatının məzmunlu elementləri sistemində biliklər, adətlər, normalar, sərvətlər və dü-

şüncə xüsusi mənalanır.

Təşəkkül tapan bilik inkişaf edir. O, öz təkmilləşməsini bir sıra formalar: empirik, nəzəri və digər formalar vasitəsilə təmin edir.

Biliklərin inkişafında istiqamət prinsipi çox əhəmiyyətlidir. Yalnız bundan çıxış etməklə biliyin başlıca inkişaf formalarının spesifik xüsusiyyətləri problemini həll etmək mümkündür. Bütövlükdə mədəniyyətin, ayrılıqda isə biliyin inkişafında istiqamətlənmə məsələsi hələ antik dövrdə Aristotel tərəfindən araşdırılmışdır. O, yazmışdır: "Biz biləndə ki, nə isə mövcuddur, axtarmağa (səbəbini) başlayırıq ki, o niyə mövcuddur" (40, 149).

Mədəniyyət ünsürü olmaq etibarilə bilik varlıqdan, hadisədən (xarici baxımdan) daxili mahiyyətə doğru hərəkət edir. Daha sonra, mahiyyətdən hadisəyə tərəf irəliləyir. Empirik və nəzəri biliklərin hər biri öz spesifikliyinə və predmetinə malikdir. Empirik biliklər hissi göstəriciləri başa düşəndə təşəkkül tapır. Çünki hissi biliklər mövcud deyil, məhz hissi göstəricilər mövcuddur. Bilik, hissi göstəricilər başa düşüldükdə yaranır. Empirik və nəzəri bilikləri eyniləşdirmək düzgün olmadığı kimi, nəzəri biliyi də təfəkkürlə eyniləşdirməyə əsas yoxdur. Nəzəri biliklər məhz, təfəkkür vasitəsilə təşəkkül tapır. Hegelin dediyi kimi, təfəkkür insana o dərəcədə xasdır ki, insan hər zaman, hətta yuxuda da düşünür (17, 148). Biliyə sosioloji yanaşma genetik və fəlsəfi cəhətdən idrak nəzəriyyətinə qovuşur. Bu problem hələ fəlsəfi təfəkkürün formalaşmasının başlanğıcında təşəkkül tapır.

Praktiki biliklər insanın bilavasitə fəaliyyət prosesinə cəlb olunması gedişində formalaşır (onun vərdiş və bacarığı ilə qırılmaz vəhdətdə). O, praktikanın müəyyən



növünə xidmət edir.

Mənəvi bilik ünsiyyət və insan münasibətlərinin (ailə, etnik, milli, sinfi, dini, qrup halında münasibətlərin) tənzimlənməsi haqqında bilikləri ehtiva edir. O, özündə müxtəlif böyük vasitələri, o cümlədən mif və əfsanəni (uydurmanı), tarixi abidəni, bədii obrazı, müqəddəs mətnləri və mədəniyyətin digər komponentlərini özündə birləşdirir.

Nəzəri bilik təlimlərdə və nəzəriyyələrdə ifadə olunmaqla subyektin obyektdən təcrid olunması vasitəsilə, yalnız praktikanı deyil, həm də biliyin özünü mənalandırmaqla formalaşır. Cəmiyyətin bütün tarixi inkişaf dövründə insanın və bəşəriyyətin həyat tərzi, insanın və onun ətrafı haqqıda bilik və bacarıqların toplanması ilə daimi olaraq bağlı olub (5, 85).

Amerika alimi R.Merton hələ 1949-cu ildə ümumi şəkildə biliklərin sosiologiyasının sxemini, vəzifələrini və prinsiplərini müəyyənləşdirmişdir. Həmin sxemdə mədəniyyətin tipləri, sərvət tipləri, cəmiyyətin əhval-ruhiyyəsi, milli xarakter, mentalitet, dünyagörüşü, "zamanın ruhu", subkultura strukturaları və s. xüsusi qeyd olunmuşdur. Biliklərlə yanaşı, şəxsiyyətin fəaliyyətinin məhsulu olan digər mədəniyyət elementi adətlərdir. Davranışın ən sadə tipi hər şeydən əvvəl onun bütöv, adət halını almış nümunələri əsasında təşəkkül tapır. Bəzən "adət" termini "ənənə", "mərasim" və s. terminlərlə eyniləşdirilir. Lakin ənənə hadisələrin daha geniş dairəsinə aiddir və fəaliyyətin tənzimlənməsinin çox fərqləndirilən formalarına tətbiq olunur. Mərasim isə hər şeydən əvvəl, simvolik əhəmiyyət kəsb etməklə məqsədyönlülükdən məhrumdur, bununla belə qrupun daimi üzvləri arasında əlaqələrin və ya qruplar arasında qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə imkan

yaradır. Adət insanların fəaliyyətinin və münasibətlərinin keçmişdən əldə edilən tənzimləmə forması olub müəyyən cəmiyyətdə və ya sosial qrupda təkrar istehsal olunur.

Sosial cəhətdən qəbul olunmuş nümunələr adətdə təşəkkül tapır və toplanmış təcrübə nəsildən nəslə, fərddən fərdə verilir. Bu cür varislik məhz, mədəniyyətin inkişaf qanunauyğunluğudur. Adətlərə həmçinin, ənənəvi əmək üsullarını, davranış formalarını, həyat tərzini, tərbiyəni aid etmək olar. Adətlər tərbiyədə mühüm rol oynamaqla yeniyetmənin mədəniyyətə qovuşmasına və yaxud yaşlı insanın mədəniyyətdən kənar mühitə cəlb olunmasına imkan yaradır. Mədəniyyət sferası ilə bağlı fəaliyyətə cəlb edilən insan müəyyən nümunələrlə tanışlıq imkanı əldə edir.

İnsanın sosial həyatı daim problemlərlə doludur. Hər bir kəs həmin problemlərin həlli naminə bacardığını edir. Müxtəlif sosial qruplar və cəmiyyət uğurlu və uğursuz cəhdlər gedişində bütövlükdə tədricən davranışın iş qabiliyyəti nümunələrinin toplusunu formalaşdırır. Bu cəhət sosial qrupları təmsil edən adamların və cəmiyyət üzvlərinin ətraf mühitlə və bir-birilə daha münasib səviyyədə qarşılıqlı fəaliyyətinə imkan yaradır.

Bir qayda olaraq adətlər sadə vərdişlər, normal, daha münasib və kifayət qədər geniş yayılmış qrup halında fəaliyyət üsuludur. Davranışın müxtəlif nümunələri uğurlu təcrübə əsasında xalqın həyat üsuluna, adi mədəniyyətə və adətə çevrilir.

Salamlaşarkən sağ əllə görüşmək, çəngəl ilə yemək, yolun sağ kənarı ilə getmək, səhər yeməyində çay və ya kofedən istifadə etmək – bütün bunlar hamısı adətdir. İnsanların yeni nəsli adət halını alan həyatın ictimai üsullarını qismən qeyri-iradi yolla dərk edir, bəzən isə şüurlu surətdə öyrənir. Hər bir yeni nəsil həmin üsullardan ələsini seçir ki, onun həyatı üçün zəruridir. Mənəvi həyatın məzmunlu elementi olmaq etibarilə, insanların fəaliyyətinin məhsulu olan adətlər – adi mədəniyyət cəmiyyətdə tamamilə çoxsaylıdır. Hətta ən primitiv cəmiyyətlərdə bir neçə min adət mövcuddur, müasir industrial cəmiyyətdə isə onların sayı əhəmiyyətli dərəcədə artır. Adətlərin insanların adi-praktiki fəaliyyəti sayəsində daha da çoxalması ictimai həyatın inkişaf dialektikası ilə şərtlənir. Əlbəttə, mədəniyyəti yalnız adətlərin, ənənələrin, mərasimlərin və digər bu kimi davranış nümunələrinin məcmuu kimi təsəvvür etmək düzgün olmazdı. O, həm də davranışın təşkili sisteminin növü kimi səciyyələnir. Bu sistemi eləcə də mədəniyyətin digər elementləri və kompleksləri təşkil edir. Şəxsiyyətin fəaliyyətinin digər məhsulu normalardır (əxlaqi, siyasi, hüquqi, estetik, dini və s.). Adətdən fərqli olaraq norma fəaliyyətin bütün hissələrini deyil, onun məhz hansısa prinsipini, parametrini əhatə edir ki, bu da davranışın variativliyini (müxtəlif şəkildə dəyişilməsini) və mürəkkəbliliyini şərtləndirir. Hər bir cəmiyyət və ya ayrıca sosial birlik, qrup öz mühitində münasibətləri qaydaya salmalıdır, özbaşınalığa, nizamsızlığa aparan meylləri məhdudlaşdırmalıdır, kortəbii əhval-ruhiyyəni aradan qaldırmalıdır. O, həmçinin ayrıca şəxsiyyətlərin və qrupların fəaliyyətini uzlaşdırmalıdır, bunu mövcud birliyin və ya cəmiyyətin ümumi mənafeyinə istiqamətləndirməlidir. Respublikamızın görkəmli filosofu Cəmil Əhmədlinin qeyd etdiyi kimi, "sözün ciddi mənasında cəmiyyətdə yaşayan və fəaliyyət göstərən hər insan sosial dünyadır. Onun özünəməxsus sosial, əxlaqi, estetik, siyasi, intellek-

tual və s. keyfiyyətləri var ki, bunlar da həmin insanır məqsədinin, bu məqsədə çatmaq üçün seçilən vasitələrin, fəaliyyət növü və mexanizmlərin təyinedici amilləridir" (8, 31-32). Qayda yaratmaq zorakılıqla və məcburetməklə, cəmiyyətin siyasi, ideoloji və psixoloji manipulyasiyası vasitəsilə də əldə oluna bilər, lakin belə halda o, mədəniyyət çərçivəsindən çıxır və bu cür məcburetmənin zorakılıq mənbəyinə özünün psixoloji reaksiyası ilə cavab verir. Manipulyasiya etmə inamsızlığın artmasına, ikiüzlülüyə və mərifətsizliyə gətirib çıxarır ki, bunun özü də qarşılıqlı sosial fəaliyyətin pozulması ilə nəticələnir. Buna görə münasibətlərin təsirli, fəal tənzimlənməsi insanların sabit, könüllü və şüurlu əməkdaşlığını təmin edən normalar vasitəsilə əldə olunur.

Normaların funksiyası bundan ibarətdir ki, təsadüfi, sırf subyektiv motivlərin və şəraitin, psixoloji vəziyyətin təsirini aradan qaldırsın, etibarlı, qabaqcadan anlaşılan, birtipli və hamının başa düşdüyü davranışı təmin etsin. Bir sözlə, sosial normalar (əxlaqi, estetik, siyasi, hüquqi və s.) gözlənilən, ətrafdakıların başa düşəcəyi davranışı formalaşdırır. Sosial normalar cəmiyyətdə aşağıdakı çox mühüm funksiyaları yerinə yetirir:

- sosaillaqmanın ümumi gedişini tənzimləyir;
- fərdləri qruplarda, qrupları isə cəmiyyətdə birləşdirir;
- davranışdan yayınma meyllərinə nəzarət edir;
- davranışın nümunələrinə, əyarlarına xidmət edir.

Normaların köməyi ilə həmin funksiyalara iki istiqamətdə nail olmaq mümkündür. Birincisi, normalar da bir şəxsin digərinə və ya başqalarına münasibətdə vəzifədir. İkincisi, normalar həm də gözləniləndir: mövcud normaya riayət edən adamdan ətrafdakı tamamilə birmənalı davranış gözləyir.



Sosial normalar əslində qaydaların qoruyucusu və sərvətlərin saxlayıcısıdır. Normalarla sərvətlər arasındakı fərq bundan ibarətdir ki, birinci davranış qaydasıdır, sonuncu isə şər və xeyir, düzgün və düzgün olmayan, lazımlı və lazımsız nədir haqqında mücərrəd anlayışdır. Normalar sistemində mahiyyət etibarilə mədəniyyət hadisəsi sayılan əxlaqi normalar spetisifik əhəmiyyətə malikdir. Əxlaqi normalar dedikdə bir hərəkətin yerinə yetirilməsini və digərinin qadağan olunmasını tələb edən düzgün və qeyri-düzgün davranış haqqında ideyalar başa düşülür. Belə əxlaqi normaların fəaliyyət göstərdiyi sosial birliklərdə onların üzvləri inanırlar ki, normaların pozulması bütün cəmiyyətə fəlakət gətirə bilər. Digər sosial qrupun üzvləri əlbəttə belə hesab edə bilər ki, mövgud qrupun əxlaqi normalarından bəziləri xeyli dərəcədə qeyri-sağlamdır. Əgər cəmiyyət və ya qrup inanırsa ki, hər hansı hərəkət və ya fəaliyyət zərərlidir, bu öz əksini dərhal müvafiq əxlaqi normaların təzahüründə tapır. Əxlaqi normalar hərəkətin dügcün olub-olmamasına inamdır. Əxlaqi normaların özü bütövlükdə mədəniyyət normaları kompleksinin ayrılmaz ünsürüdür. Əxlaqi normalar mədəniyyət fenomeninin tərkib hissəsi olmaqla bütövlükdə sosial praktika gedişində müəyyən qruplar və ya cəmiyyət tərəfindən qəbul olunur, qrupların üzvlərinin qarşılıqlı fəaliyyətində onların həyati tələbatını ifadə edir və nəticədə təhlükəsizliyinə, sosial qaydalara riayət olunmasına imkan yaradır.

Bəşəriyyətin sosial təcrübəsi göstərir ki, əxlaqi normalar icad olunmur, məqsədlə yaradılmır, şüurlu seçimə,

zehni gərginliyə əsaslanmadan insanların gündəlik həyatından, qrup halında praktikasından tədricən təşəkkül tapır. Əxlaqi normalar sonrakı nəsillərə praktiki mənfəət kimi deyil, məhz "müqəddəs" mütləqin sarsılmaz sistemi kimi verilir. Nəticədə əxlaqi normalar qəti surətdə qərarlaşır və istər-istəməz yerinə yetirilir. Onlar fərd tərəfindən mənimsənildikdə davranışın əxlaqi nəzarəti kimi çıxış edir, belə halda isə fərdin qadağan olunanı icra etməsi psixoloji cəhətdən çətinliyə məruz qalır, başqa sözlə, əxlaqi normaya yiyələnməsi qarşısıalınmaz olur.

Ümumiyyətlə, normaların məzmunlu tərəfi onların aid olduğu fəaliyyətin konkret sferalarının məqsədləri ilə müəyyən olunur. Beləliklə, fəaliyyətin müxtəlif növləri eyni dərəcədə normaya salınmır, lakin normalaşdırmanın məzmunu və üsulları ayrı-ayrı mədəniyyətlərdə rəngarəngdir. İstehsal sferasında praktiki mənafelərlə şərtlənən texniki normalar fəaliyyət göstərir. Vətəndaşlarla sosial təsisatlar arasındakı qarşılıqlı münasibətlər sferası hüquqi normalarla tənzimlənir. Əksəriyyət mədəniyyətdə spirtli içkilərin qəbuluna və narkomaniyaya aid olan sərt normalar mövcuddur, düzdür bunlar kütləvi şəhər mədəniyyəti şəraitində pozulur. Elə bir cəmiyyət yoxdur ki, orada qeyri sağlam həyat tərzini tənzimləyən normalar mövcud olmasın.

Fəlsəfi-sosioloji, politoloji-hüquqi ədəbiyyatda normalara dair müxtəlif təsnifatlar mövcuddur. Q.Parsons tərəfindən təklif edilən normalara aid təsnifatı nəzərə çatdırmaq daha məqsədəuyğundur:

1. Bütövlükdə cəmiyyətdə və eləcə də onu təşkil edən qruplarda formalaşmış qaydaları müdafiə edən normalar. Hər bir cəmiyyətdə vəzifələrin müəyyən bölgüsü qəbul olunmuşdur, məsələn, kişilər mürəkkəb texniki işləri yerinə yetirməlidir, orduda qulluq etməlidir, qadınlar isə ev təsərrüfatı ilə məşğul olmalı və dünyaya uşaq bəxş etməlidirlər. Bəzi şərq cəmiyyətlərində belə hesab edirlər ki, "kişi işlə məşğul olmalıdır, qadın isə ev təsərrüfatına baxmalıdır".
2. Təsərrüfat fəaliyyətində tətbiq edilən meyarları verən iqtisadi normalar. Bu sferada norma, əlbəttə, hər şeydən əvvəl məhsuldar qüvvələrin vəziyyətindən, normaların yerinə yetirilməsi tələblərindən və s. asılıdır.
3. Öz ölkəsinin siyasi sisteminin ümumi prinsiplərini müdafiə etməyi, "qaydalar üzrə" mübarizə aparmağı, qanunları və konstitusiyanı gözləməyi nəzərdə tutan siyasi normalar.
4. Kommunikasiyanın sabit prinsiplərini, fərdlər və müxtəlif qruplar arasında qarşılıqlı fəaliyyəti müdafiə edən mədəniyyət normaları. Belə ki, "öz" dilində danışmaq, oxumaq və yazmaq, öz xalqının musiqisini sevmək, öz mədəniyyətinin qaydalarını və simvollarını müdafiə etmək qəbul olunmuşdur. Qəbul olunmuş normalardan kəskin şəkildə uzaqlaşma qeyri-normal davranış hesab olunur.
5. Mürəkkəb urbanizasiyaya məruz qalan cəmiyyətlərdə normalar tamamilə fərqləndirilmiş və iyerarxiyalaşdırılmış xarakter kəsb edir. Ümumbəşəri, milli, sinfi, qrup halında, fərdlərarası normaları fərqləndirmək qəbul olunmuşdur. Qrup öz üzvlərindən cəmiyyəti pisləyən hərəkət tələb edə bilər və s.

Normalar bir-birindən məcburiyyət dərəcəsinə görə fərqlənirlər. Bu mənada təhrik edilən normalar (özünütəkmil-

ləşdirən) və qadağan olunan normalar mövcuddur. Normaların müəyyənliyi normaya salınmış obyektin spesifikliyindən asılıdır.

Şəxsiyyətin fəaliyyətinin daha mükəmməl səviyyədə mədəniyyət sferası ilə tənzimlənməsi sərvətlər sistemi vasitəsilə həyata keçirilir. Normalardan fərqli olaraq sərvətlər bu və ya digər obyektin, vəziyyətin, tələbatın, məqsədin seçilməsini nəzərdə tutur. Sərvətlər cəmiyyətə və insana yaxşını və pisi, həqiqəti və səhvi, gözəlliyi və ya çirkinliyi, ədaləti və ədalətsizliyi, mühümü və əhəmiyyətli olmayanı bir-birindən ayırmağa kömək edir.

Sərvətlə davranış arasındakı uyğunsuzluğun silinməsinin mühüm vasitəsi iradədir. O, tərəddüdü və inamsızlığı aradan qaldırmaqla insanı fəaliyyətdə təsvir edir. İradə həm daxili təhrikedici qüvvə və eləcə də əmr formasında güclü xarici motivləşmə kimi təzahür edə bilər. Ümumiyyətlə, mədəniyyət nümunələri – mənəvi həyatın məzmunlu elementləri sosial fakt kimi səciyyələnir. Heç də təsadüfi deyil ki, böyük fransız sosioloqu E.Dyurkheym kollektiv vərdişləri, ənənələri, adətləri, davranış qaydalarını, mərasimləri sosial fakt kimi dəyərləndirirdi. Bütövlük kəsb edən sistem kimi mədəniyyət bütün dövrlərdə yaradıcı fəaliyyətlə şərtlənmişdir. Bu sosial fenomenin maddi və eləcə də mənəvi tərəfi insan zəkasının səciyyələndirilməsinin tərkib hissəsi kimi mövcuddur və o, ən əhəmiyyətli problemlərin həllində xüsusi dəyişdirici qüvvə kimi mənalanır. Bununla bağlı belə bir fəlsəfi müddəanı xatırlamaq zəruridir ki, ictimai şüurla ictimai varlığın əlaqəsi mənəvi istehsalda praktiki əlaqə şəklində, insanların şüuru ilə fəaliyyətinin daxili bağlığı kimi çıxış edir (18, 13).

Mədəniyyətin tarixi təşəkkül və inkişaf prosesinin müxtəlif mərhələləri (indiyə kimi) təsdiqləyir ki, insanın mədəniyyətə əsaslanan həyat tərzi ciddi və böyük dəyişikliklərə məruz qalmışdır. İnsan elə ictimai münasibətləri yaxşı hesab edir ki, onun üçün faydalıdır və əksinə, elə ictimai münasibətləri yaramaz sayır ki, onun üçün zərərlidir (97, 158) Bu mənada bəşəriyyət tarixinə səthi nəzər salsaq belə qənaətə gəlmək mümkündür ki, insan uzun müddət öz həyat tərzinə görə heyvanlar aləmindən praktiki olaraq fərqlənməmişdir. Ən qədim dövrün adamları, əcdadlarımız hər hansı babat quruculuq qabiliyyətinə yiyələnməmişlər, paltara malik olmamışlar, oddan istifadə etməmişlər, onların qidalanma mənbəyi bitkilərdən ibarət olmuşdur və s. və i.a.

Xeyli əsrlər ərzində insanlar tədricən gələcəkdə baş verən böyük və sürətli kəşflərin və ixtiraların mədəni əsasını təşkil edən tək-tək təsadüfi kəşvlər və ixtiralar etmişlər. Sosial dəyişikliklərı müəyyən edən amillər onların obyektiv əsasını təşkil edir. Belə ki, kəşvlər, ixtiralar nəticəsində adamların çoxu əvvəllər məlum olmayan reallığın mahiyyətini başa düşür. Kəşflər adamların bilik ehtiyatına yeni cəhətlər əlavə edir. Lakiq onlar insanların yaratdığı mədəniyyətə yeni heç nə bəxş etmir, çünki kəşv olunan həmişə mövcud olmuşdur. O, yalnız kəşf edildikdən, üzə çıxdıqdan sonra mədəniyyətin tərkib hissəsinə çevrilir.

İnsan zəkasının qüdrəti sayəsində üzə çıxarılanlar yalnız istifadə olunduqda, cəmiyyətin və ya insanlar arasında münasibətlərin bir hissəsinə çevrildikdən sonra sosial dəyişiklərin amili kimi səciyyələnir. Qədim yunanlar hələ eramıza qədərki 100 il ərzində buxar enerjisi haqqında təsəvvürə malik idilər. Hətta İsgəndəriyyə şəhərində əyləncə naminə kiçik buxar maşını quraşdırılmışdı. Lakin bu bu-

xarın gücü onun kəşfindən iki min il sonra belə, sosial dəyişikliklərə səbəb olmadı, adamlar tərəfindən ciddi istifadə olunmadı, lakin bu sahədə ilk böyük kəşvin mədəni əsasını təşkil etdi. Yeni biliklər texnologiyanın inkişafı üçün istifadə edildiyi zaman artıq praktiki olaraq bütövlükdə dəyişikliklər təzahür edir.

Mədəniyyətə əsaslanan sosial dəyişikliklərin baş verməsinə hər bir ayrıca fərdin şüur və iradəsinin formalaşmasında müəyyən rol oynayan xüsusi həyat şəraiti müəyyənedici təsir göstərir.

Yuxarıdakı mülahizələrimiz belə nəticəyə gəlməyə əsas verir ki, insan cəmiyyətində mədəniyyət tarixəqədərki zamanda çox ləng, orta əsrlərdə və tarixin yeni dövründə daha sürətlə, sonralar isə qeyri-adi dərəcədə inkişaf etmişdir və zəmanəmizdə qeyri-məhdud sahədə yayılmışdır. Müasir insanın probleminin əhəmiyyətli hissəsi bundan ibarətdir ki, o, özünə mənalı nüfuz etməklə cəmiyyətin sosial quruculuğunu sürətlə dəyişən mədəniyyətə uyğunlaşsın.

Hətta maddi mədəniyyətin əhəmiyyətli tərəqqisini və mədəniyyət nümunələrinin yayılması vasitələrinin çoxcəhətli inkişafını nəzərə almasaq belə, görürük ki, gündəlik həyat normalarında, siyasi normalarda, qanunlarda və dövlət quruculuğunda köklü dəyişikliklər baş verir. Nəticədə dövlət, dini, iqtisadi, təhsil və ailə təsisatları, eləcə də cəmiyyət üzvləri arasında qarşılıqlı münasibətlərin strukturu tamamilə dəyişilmişdir.

Mədəniyyət hər cür cəmiyyətin mövcudluğunun zəruri şərti olduğu üçün ümumi dəyər kimi mənalandırılmalıdır. Məhz, son dərəcə patalogiyaya uğrayan və ya tamamilə tənəzzülə məruz qalan fərd mədəni ünsiyyətdən kənarda



qalır. Əlbəttə, belə ünsiyyətin dərəcəsi, xarakteri və mədəniyyət sərvətlərini mənimsəmək tamamilə müxtəlif cür səciyyələnir.

Hələ bəşər tarixinin ilk mərhələlərində mədəniyyət normalarının, sərvətlərinin və məqsədlərinin təkrar istehsalı, qorunub saxlanması və yeniləşdirilməsi ilə peşəkar surətdə məşğul olan adamlar meydana çıxır. Eləcə də uzun müddət mənəvi həyatın diqqətlə və hərtərəfli tənzimlənməsi din vasitəsilə həyata keçirilir. Milli dövlətlərin formalaşması mədəni həyatın əsasən milli çərçivədə təşəkkülünə gətirib çıxardı ki, bu da milli ziyalıların xüsusi təbəqəsinin yaranması ilə nəticələndi. Bu o deməkdir ki, hər bir cəmiyyətdə mədəniyyətin qorunub saxlaması və inkişafı ilə məşğul olan təsisatlar və peşəkar kadrlar təşəkkül tapır.

Amerika sosioloqu N.Smelzer belə qənaətə gəlir ki, kənd təsərrüfatı və sənaye texnologiyasının təzahürü insanları millət halında birləşdirdi və aşağıdakı dərin dəyişikliklərə gətirib çıxardı:

1. Siyasi sferada – sadə tayfa və ya kənd hakimiyyət sistemindən mürəkkəb seçkili hüquqa, siyasi partiyalara, nümayəndəli və vətəndaş bürokratiyasına;
2. Təhsil sahəsində dəyişikliklər savadsızlığın azalmasına, məhsuldar iqtisadi vərdişlərin və bacarığın tərbiyəsinə gətirib çıxarır;
3. Dini sferada dəyişikliklər dinin təhsildən ayrılması, ənənəvi inamların dəyişdirilməsinin başlanması ilə nəticələnir;
4. Ailə sferasında qohumluq və tayfa birliklərinin yayılması dayandırılır.

Beləliklə, həm maddi və eləcə də mənəvi sferadakı mə-

dəni dəyişikliklər cəmiyyət həyatının bütün tərəflərində müəyyən istiqamətdə yenidənqurmaya gətirib çıxarır.

Şəxsiyyətin fəaliyyət prosesinin başlıca növü mənəvi-məhsuldar fəaliyyətdir, başqa sözlə fərdi və ictimai şüurun, ideyaların, biliklərin, nəzəriyyələrin, bədii obrazların və digər mənəvi sərvətlərin konkret-tarixi məzmunda və formalarda istehsalıdır. Mənəvi istehsalın məğzi utilitar (maddi) baxımdan mənalanmır, məhz insanların, cəmiyyətin mənəvi tələbatının ödənilməsinə istiqamətlənir. Mənəvi sərvətlərin (mənəvi mədəniyyətin) yaradılmasına yönələn fəaliyyətdə yalnız xarici tələbat və onun təmin olunması tələbatı deyil, həmçinin mənəvi sərvətlərin istehsalçılarının – mütəfəkkirin, alimin, sənətkarın və s. daxili tələbatı həyata keçirilir. Alim, sənətkar, musiqiçi, şair və yazıçı üçün onların əməyində başlıca sərvət bir o qədər predmetli nəticələr deyil (əlbəttə, bu motiv az əhəmiyyət kəsb etmir), məhz bu prosesin özündə yeninin, məlum olmayanın yaradılmasıdır, çünki belə halda alim, şair, mütəfəkkir və ya sənətkar öz varlığının bütövlüyünü hiss edir, özünün mahiyyətini həyata keçirir.

Mədəniyyət sərvətlərinin yaradılmasına istiqamətlənən fəaliyyət sosial fəaliyyətin bütün sferalarında rəngarəng və müxtəlif dərəcədə, lakin hökmən həyata keçirilir, başqa sözlə və ilk növbədə işdə, oyunda, təhsildə, ünsiyyətdə, insanların istehsal, elmi-nəzəri, bədii-estetik, dini-mədəni, əxlaqi-tərbiyəvi fəaliyyətində reallaşır.

Belə bir cəhəti qeyd etmək vacibdir ki, şəxsiyyətin fəaliyyətinin bütün növlərində mənəvi aspekt maddi amillə eyni dərəcədə şərtlənmir. Məsələn, iqtisadi nəzəriyyələrə, hüquqi, siyasi cəhətdən müəyyənləşməyə, texnoloji təlimatlara nisbətən əxlaqi təsəvvürlər, ideallar, bədii obrazlar və zövqlər, xüsusilə mücərrəd fəlsəfi ideyalar maddi, sosial-iqtisadi münasibətlərlə şərtlənməkdən xeyli dərəcədə uzaqdır.

Sosial fəaliyyətin sahələri spesifik tələbatlara, o cümlədən mənəvi tələbata istiqamətlənir və əksinə fəaliyyətin ayrı-ayrı növləri özlərinə xas olan müxtəlif tələbatlar doğurur, bu tələbatları təmin edən rəngarəng mənəvi sərvətlər qrupunun istehsalını stimullaşdırır. Belə ki, cəmiyyətin istehsal fəaliyyəti elmi-texniki biliklərin tərəqqisinə daim ehtiyac duyur, mənəvi sərvətlərin bu sferasının sürətli istehsalını daha çox tələb edir. Şəxsiyyətlərarası ünsiyyətin intensivləşməsi, adamların həyat tərzinin bu tərəfinin təkmilləşdirilməsi zərurəti əxlaqi normaların, davranışın etiket qaydalarının istehsalının daha da inkişaf etdirilməsinə sövq edir və eyni zamanda mənəvi fəaliyyəti mənəvi sərvətlərin həmin növünün yaradılmasına istiqamətləndirir. Mədəniyyət nümunələrinin istehsalına yönələn müxtəlif ictimai fəaliyyət sferaları həmçinin, onların istifadə etdiyi spesifik vasitələrlə fərqlənir. Məlum olduğu kimi, elmi idrakda belə vasitə mücərrəd təfəkkür və eksperimentdir, estetik fəaliyyətdə bədii təsəvvürdür; əxlaqda isə sosial hisslər böyük rol rynayır (38, 82).

Fəlsəfi ədəbiyyatda mədəniyyətin inkişafına dair iki başlıca nöqteyi-nəzər mövcuddur: mədəniyyətin təkamüllə inkişafı nəzəriyyəsi və mədəniyyətin inkişafına dialektik metodla yanaşma. Mədəniyyətin inkişafına aid təkamül nəzəriyyəsinin əsas prinsipi bundan ibarətdir ki, mədəniyyət elementləri və mədəniyyət kompleksləri tədricən dəyişilir və bu dəyişilmə gedişində onlar tamamilə yeni şəkil alır. Belə halda mədəniyyət nümunələrinin dəyişilməsi sadədən mürəkkəbə, oxşarlıqdan qeyri-oxşarlığa

doğru istiqamətdə baş verir. Mədəniyyət komplekslərinin sosial təsisatlarda dəyişikliyə məruz qalması vaxtı çatanda təsisatların mənəvi məzmununun, eləcə də təsisatlı əlamətlərin və funksiyaların dəyişilməsinə gətirib çıxarır ki, bu da cəmiyyətin sosial strukturunun dəyişilməsini şərtləndirir. Belə halda mədəniyyətin inkişafı yüksələn xətlə davam edir, başqa sözlə, mədəniyyət daha mürəkkəb, daha humanist və daha təkmilləşmiş mədəniyyət nümunələrinin məcmuu kimi səciyyələnir. Mədəniyyətin inkişaf problemlərinə dialektik yanaşma isə nisbətən mürəkkəb və işlənib hazırlanmış konsepsiyaya əsaslanır. Bu onunla izah olunur ki, dialektik metodun əsaslı fəlsəfi fundamenti görkəmli filosoflar Kant və Hegel tərəfindən qoyulmuşdur. Mədəniyyətin sosiologiyası sahəsində dialektik yanaşma metodunu daha mükəmməl səviyyədə işləyib hazırlayanlar isə Marks, Markuze və başqaları olmuşdur.

Dialektik yanaşma metodunun başlıca müddəası bundan ibarətdir ki, insanlar tərəfindən hazırlanan bütün mədəniyyət nümunələri az ömürlü hadisədir. Belə ki, mədəniyyət normalarından və sərvətlərindən hər biri yarandığı vaxtdan məzmununda öz toxumunu saxlayır. Lakin mədəniyyət normaları və sərvətləri öz mövcudluğunu dayandırdıqdan sonra onun inkişafı bir neçə mərhələ keçməlidir.

Ziddiyyət hər cür dəyişikliyin və inkişafın mənbəyi və hərəkətverici qüvvəsi olduğu kimi, mədəniyyətin inkişafının da mənbəyidir. Bunun üzə çıxarılması və öyrənilməsi mədəniyyətin tərəqqisinin qanunauyğunluğunu dərindən açıqlamağa imkan verir.

Mədəniyyətin inkişafında ən mühüm və əhəmiyyətli məqamlardan biri mədəniyyət nümunələrinin yayılması-



dır. Cəmiyyətin inkişaf tarixi təsdiqləyir ki, texniki tərəqqi, kütləvi informasiyanın yeni vasitələrinin kəşvi mədəniyyət nümunələrinin və sərvətlərinin yayılması işində başlıca rol oynamışdır. Dilin və yazının inkişafı mədəniyyətin geniş məsafədə yayılmasına imkan yaratdı və bu vaxtdan etibarən mədəniyyət cəmiyyətin, ölkənin, dövlətin hüdudlarından kənara çıxır. Mədəniyyətin belə yayılmasının ən parlaq nümunələrindən biri Quranın təzahürü ilə islam ideyasının müxtəlif cəmiyyətlərə və dövlətlərə əhatəli nüfuz etməsidir. Mənəvi mədəniyyətin spesifik komponenti kimi səciyyələnən dini dəyərlərin əsrlər boyu insanların şüurundan və mənəviyyatından silinməməsinə və gələcəkdə də heç zaman silinməyəcəyinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, mədəniyyətin azömürlü olması haqqında konsepsiya zənnimizcə birtərəfli mənalanır.

Mənəvi sərvətlərin saxlanması və yayılması heç də onun fiziki cəhətdən məhvinin dayandırılması deyildir. O həmçinin mənəvi mədəniyyətin inkişafında varisliyin təmin olunması üsuludur ki, bu da yeni dövrün mədəni mühitində mənəvi sərvətlərin seçilməsini, yayılmasını və onların fəaliyyətinin təmin olunmasını nəzərdə tutur. Mədəniyyət statik sistem deyildir, o, daim dəyişir, yeniləşir, müxtəlif hadisə və proseslərdə zənginləşir. Mədəniyyətin özünəməxsus dinamikası dedikdə elə dəyişikliklər başa düşülür ki, onlar nizamlı xarakter daşısın, məzmun baxımından müəyyənliyə malik olsun, əsas ictimai meyllərin istiqamətinə uyğun gəlsin.

Şəxsiyyətin fəaliyyətinin məhsulu olan mədəniyyət sərvətlərinin yayılması hər şeydən əvvəl, təhsilin ictimai sistemi (ümumi, ixtisas, siyasi, bədii və s.) vasitəsilə həyata keçirilir. Cəmiyyətin mənəvi həyatının səviyyəsi və kadr-

ların istehsalı vəziyyəti xeyli dərəcədə təhsil müəssisələrinin sayından, təhsilin keyfiyyətindən, müəllim heyətinin ixtisaslaşmasından, əhalinin geniş kütləsinin təhsilin bütün növlərinə cəlb olunması imkanlarından asılıdır. Həmin məsələdə eləcə də kütləvi informasiya vasitələri, hər şeydən əvvəl radio və televiziya, o cümlədən teatrlar, müzeylər, klublar, kitabxanalar, qiraətxanalar, sərgilər və s. əhəmiyyətli rol oynayır.

Şəxsiyyətin çoxcəhətli mənəvi fəaliyyətinin məhsullarının cəmiyyət üzvləri arasında bölüşdürülməsi mədəniyyət elementlərinə yiyələnməyi zərurətə çevirir ki, bunun da mahiyyəti adamların mənəvi ünsiyyətindən, istehsal təcrübəsinin mübadiləsindən, elmi nailiyyətlərdən, elmi axtarışların və bədii yaradıcılığın məhsullarından ibarətdir. Elmi fəaliyyətdə iştirak edən fərdlər humanitar prinsiplərdən yan keçə bilməz, alimlər tərəfindən əldə olunan biliklər isə istər-istəməz dövrün mənəvi mühitinə təsir göstərir. Belə qarşılıqlı mübadiləsiz cəmiyyətin fəaliyyəti və inkişafı mümkün deyildir.

Mənəvi tələbatlar bir sıra amillərdən asılı olaraq təşəkkül tapır. Həmin amillər içərisində hər şeydən əvvəl cəmiyyətin ümumi sivil inkişaf səviyyəsi, sivilizasiyanın tipi, millətin formalaşmasının dərəcəsi və xarakteri, sosial mənsubiyyətin spesifikliyi, iqtisadi və siyasi quruluşun xarakteri xüsusi mənalanır. Mədəniyyət subyektinin fərdi xarakteristikası isə xüsusi əhəmiyyətə malikdir, istər-istəməz bədii mədəniyyət yüksək səviyyədə fərdi tələbatın ödənilməsinə istiqamətlənir. Tələbat mənafe ilə – dərk olunmuş tələbatla sıx bağlıdır. Tələbat və ona uyğun olan mənafe adamların varlığının onların şüurunda bilavasitə dərk edilmiş və sərvətli əks olunmasıdır.



## 2.2 Mədəniyyət şəxsiyyətin özünü reallaşdırması sferasıdır

Şəxsiyyətin fəlsəfi problemləri özündə onun müəyyənləşdirilməsini – özünü realizəsini, şəxsi və sosial cəhətdən öz müqəddəratını təyin etməyin qarşılıqlı asılılığı formalarını, şəxsiyyətin və cəmiyyətin dəyişilməsi meylini və perspektivini, birincinin öyrənilməsinə başlıca yanaşmaların təhlilini birləşdirir.

"Şəxsiyyət" sözü yalnız insana münasibətdə işlədilir. Biz anadan yeni doğulana şəxsiyyət demirik. Hətta iki yaşlı uşağı da ciddi surətdə şəxsiyyət adlandırmırıq. Şəxsiyyət doğulmur, təşəkkül tapır. O, sosial inkişafın nisbətən sonrakı məhsuludur. Şəxsiyyət özünün təşəkkülü prosesində formalaşdığı kimi, formalaşdığı prosesdə də özünü reallaşdıraraq mədəniyyətin yaradılmasının başlıca amili kimi səciyyələnir.

Cəmiyyətin mədəni səviyyəsi nə qədər yüksək olarsa, insan bir o qədər şəxsiyyət kimi qiymətləndirilir və əksinə. Deməli, şəxsiyyətlə cəmiyyət arasında birbaşa asılılıq mövcuddur. Bu mənada müasir demokratik cəmiyyətlərin şəxsiyyətin təbii və vətəndaşlıq hüquqlarını qətiyyətlə müdafiə etməsi tamamilə qanunauyğundur.

Mədəniyyətin şəxsiyyətin özünü reallaşdırması nəticəsi kimi dəyərlənməsi axırıncının sosial yetkinliyi ilə bilavasitə bağlıdır. Şəxsiyyətə xas olan sosial xüsusiyyətlər sistemi bir tərəfdən onun yetkinliyini şərtləndirirsə, digər tərəfdən mədəniyyət sferasında fəal yaradıcılığa sövq edir. Amerika alimi Allportun belə bir mülahizəsinə haqq qazandırmaq olar ki, yetkin şəxsiyyət öz əhatəsinə fəal surətdə qoşulur, şəxsiyyətə xas olan cəhətlərin köməyilə sər-

vət yönümünün sabit birliyinə yiyələnir və dünyanı və özünü düzgün dərk etməyə qabil olur (120, 259).

Şəxsiyyətin sosial yetkinliyi ilə səciyyələnən özünü reallaşdırması bununla mənalanır ki, formalaşan sosial keyfiyyətlər, hər şeydən əvvəl isə bu və ya digər fəaliyyət növü ilə bağlı olan müstəqil düşüncə qabiliyyəti və müxtəlif insanlarla ünsiyyət həyatın sosial şəraitinə uyğunlaşmağa və onlardan insanın öz mənafeyi üçün istifadə etməsinə imkan yaradır, həmçinin başqalarının və bütövlükdə cəmiyyətin mənafeyini nəzərə almağa kömək edir və beləliklə, şəxsiyyətin mənəvi sərvətlərin yaradılmasında fəal iştirakı hissini və şüurunu reallaşdırır. E.R.Polikanova görə fəallıq daxili enerji ilə yaranan fəaliyyət və qarşılıqlı əlaqədir (103, 13). Sosail yetkinliklə şərtlənən şəxsiyyətin özünü reallaşdırılması hər şeydən əvvəl, onun müəyyən psixi vəziyyətidir, hissinin və təfəkkür mədəniyyətinin müvafiq inkişaf səviyyəsidir, eləcə də sosial cəhətdən faydalı fəaliyyət növlərinə qadir olması, özünün vətəndaşlıq hüquqlarından və azadlıqlarından istifadə bacarığı və öz mənafeyini başqalarının mənafeyi ilə əlaqələndirməsidir.

Bu və ya digər insanın şəxsiyyət kimi inkişafı sosiogenez olmaqla özündə onun təşəkkülünün və daha da inkişafının müəyyən sosial proqramını reallaşdırır. Bu reallaşdırma sosial gerçəkliyin özünə və hər şeydən əvvəl isə aşağıdakılara əsaslanır:

- maddi və mənəvi mədəniyyətin predmetli aləminə;
- bəşəriyyətin mənəvi təcrübəsini özündə təcəssüm etdirən dilə, müxtəlif işarə sisteminə;
- təhsilin və tərbiyənin mövcud sistemlərinə;
- ictimai həyatfəaliyyətinin maddi istehsal sahəsinə aid olan əməyə, siyasi, idraki və digər fəaliyyətə, öz növbəsində ailə münasibətləri və millətlərarası münasibətlər sistemində təzahür edən dini münasibətlərə, eləcə də müxtəlif nəsillərin nümayəndələrinin münasibətlərinə.



İnsan şəxsiyyətinin formalaşmasının başlıca üsulu bundan ibarətdir ki, o öz inkişafının müxtəlif mərhələlərində insanların istehsal və digər fəaliyyət predmetlərində təcəssüm olunan geniş mədəniyyət aləminə cəlb olunur və ona yiyələnir, eləcə də sosial ünsiyyətin müxtəlif formalarını mənimsəyir və azad fəaliyyət göstərir.

Antik Roma filosofu Epiktet yazmışdır: "Azad insan o şəxsdir ki, bütün baş verənlər onun istəyinə uyğundur" (100, 213). Şəxsiyyətin özünü reallaşdırması mədəniyyət və sivilizasiyanın müxtəlif təzahürlərində təcəssüm olunan bəşəriyyətin topladığı bütün sosial təcrübəni mənimsəməsi prosesində baş verir. Nəticədə şəxsiyyətdə elə müvafiq qabiliyyət və bacarıq inkişaf edir ki, bu nəinki onun həyatının xarici mühitinə uyğunlaşmasına imkan yaradır və eləcə də özünü həmin mühitdə fəal təsdiqləməyə, yaradıcılıq təzahür etdirməyə və mənafeyinə uyğun olaraq öz həyat şəraitini dəyişdirməyə istiqamətlənir. Bütün bunlar bu və ya digər şəxsiyyətin öz biliyini daim zənginləşdirməsi və müxtəlif fəaliyyət növləri ilə bağlı qabiliyyətini, vərdişlərini və bacarığını hərtərəfli inkişaf etdirməsi sayəsində mümkün olur.

Son nəticədə şəxsiyyətin təşəkkülü və inkişafı mənəvi sərvətlərin fəal, şüurlu istehsalına istiqamətlənən özünü reallaşdırma sisteminin formalaşması kimi çıxış edir və onun spesifik sosial xarakteristikası nöqteyi-nəzərdən mənalanır.

İnsanın sosial cəhətdən özünütəsdiqi onun özünüifadəsinə gətirib çıxarır. Belə özünüifadə hər bir fərdin sosial yetkinliyini, şəxsiyyət kimi formalaşmasını, eləcə də və başlıcası mənəvi-mədəni yaradıcılığa fəal və məqsədyönlü cəlb olunmasını təcəssüm etdirir. Özünü realizə ilə şərtlənən özünüifadə sözün əsl mənasında sosial fəallığın, mənəvi sərvətlər bolluğunun yaradılmasına daxili tələbat hissinin təzahürüdür. Heç də təsadüfü deyil ki, tədqiqatçılar şəxsiyyətin qiymətləndirilməsi üçün şüurlu, fəal yaradıcı fəaliyyəti başlıca meyar hesab edirlər.

Əgər insan öz fəaliyyətini başqalarının, cəmiyyətin mənafeyi ilə əlaqələndirmək qabiliyyətinə malikdirsə, bu onun əxlaqi məsuliyyətə əsaslanan şüurluluğunu, yetkin mənəviyyatını, daxili aləminin bütövlüyünü ifadə edir. Spirkinin dediyi kimi, mənlik şüuru özünü və həyatdakı öz yerini bitgin şəkildə qiymətləndirməkdən ibarətdir.

Mədəniyyət sferasının təşəkkülünə, inkişafına və zənginləşməsinə istiqamətlənən şəxsiyyətin özünü reallaşdırması onun bu istiqamətdə şüurlu səyi ilə sıx bağlıdır. Sosial-mənəvi praktika təsdiqləyir ki, hər bir fərdin özünü realizəsinin mahiyyəti ilk əvvəl onun şüur səviyyəsi və mənlik şüuru, həyatın mənası barədə inamı və düzgün təsəvvürü, ümumi mədəniyyəti, əxlaqi ləyaqəti, bir sözlə, şəxsiyyətin mənəvi dünyasını səciyyələndirən qiymətli keyfiyyətlərlə şərtlənir. Qeyd edək ki, nəinki bu və ya digər fərd, hətta hər bir siyasətçinin özü ilk növbədə əxlaqın subyektidir (106, 292). Hər bir şəxsiyyət özünün dinamik təzahür edən sosial xüsusiyyətlərinin mürəkkəb və açıq sistemi kimi çıxış edir. Həmin sosial xüsusiyyətlər bunlardır: istehsal-iqtisadi, siyasi, ailə-məişət, əxlaqi, estetik, dini və s. Şəxsiyyətin bu sosial xüsusiyyətlər sisteminin açıq xarakteri ilk öncə şəxsiyyətlərin özlərinin qarşılıqlı fəaliyyətində təzahür edir, şəxsiyyətlərin qarşılıqlı fəaliyyəti onların sosial həyat fəaliyyətinin xarici mühitilə, informasiya mübadiləsində, bilikləri ilə, təcrübəsilə, digər subyektlərlə fəaliyyətində nəzərə çarpır.



Qeyd etmək lazımdır ki, şəxsiyyətin sosial xüsusiyyətlər sistemi bilavasitə və bilvasitə ictimai həyatın bütün məzmununun təsiri altında fəaliyyət göstərir, təkmilləşir, həmişə konkret sosial-tarixi parametrlərdə təzahür edir. O özündə ictimai münasibətlər sistemini və şəxsiyyətlərarası ünsiyyəti, şəxsiyyətin mənəvi aləminin sistemini özündə birləşdirir. Şəxsiyyətin cəmiyyətlə qarşılıqlı münasibəti onun həyat fəaliyyətinin bütün tərəflərinin, eləcə də mədəniyyət sferasında yaradıcılığının əsasını təşkil edir. İnsan cəmiyyətdə doğulur, böyüyür, inkişaf edir, fəaliyyət göstərir, bu və digər şəxsiyyət kimi təşəkkül tapır. O, məhz hansı şəxsiyyətə çevrilir – bu hər halda onun mövcud cəmiyyətdəki həyat şəraitindən asılıdır, eləcə də insanın özünün sosial əhəmiyyətli qabiliyyətinin inkişafına və realizəsinə istiqamətlənən fəallığı ilə şərtlənir.

Şəxsiyyətin başlıca həyati problemi öz mövcudluğunun sosial şəraitinə uyğunlaşmaqdır, sosial fəaliyyətin müvafiq formaları vasitəsilə burada qərarlaşmaqdır və beləliklə, öz tələbatını ödəməkdən və mənafeyini realizə etməkdən ibarətdir.

Şəxsiyyətin cəmiyyətdə özünü reallaşdırmasının əsas üsulu əməkdir, onun sosial fəallığının digər təzahürləridir. Burada başlıca şərt ondan ibarətdir ki, öz mənafeyini realizə edərkən digər insanların və cəmiyyətin mənafeyi ilə də hesablaşmaq lazımdır. İnsanın cəmiyyətdəki həyatının bu fundamental qaydası onun fəaliyyətinin psixoloji və ideo-

loji məqsədlərində, sərvət yönümünün sistemində öz əksini tapmalıdır. Yalnız bu halda cəmiyyətin və onu təşkil edən şəxsiyyətlərin normal yaradıcı (dağıdıcı yox) həyatı mümkündür.

Belə yanaşma mahiyyət etibarilə ayrı-ayrı adamların həyatfəaliyyətində cəmiyyəti və onun mənafeyini təhrif edən sosioloqların metodoloji fərdiyyətçilik adlanan fərziyyələrini təkzib edir. Onlar şəxsiyyəti son dərəcə qüdrətli və özünü realizə edən subyekt kimi qiymətləndirmirlər. Qabiliyyətli və uğurlu şəxsiyyətlər haqqında mif uydurmaqla yerdə qalan kütləni qabiliyyətsiz və buna görə də uğursuz adamlar hesab edirlər və onların həyatının sosial şəraitini nəzərə almırlar. Cəmiyyətin tənəzzülə uğradığı şəraitdə ədəbli, xoşxasiyyətli insanlar çətinliklərə məruz qalırlar. Şəxsiyyətin uğurlu inkişafında, fəaliyyətində və cəmiyyətin yüksəlişində xalq, dövlət həlledici rol oynamalıdır. Millətin mənəvi, siyasi orijinallığını, müstəqilliyini və suverenliyini müdafiə etməkdə ən təsirli vasitə məhz mədəniyyətdir (112, 7).

Mədəniyyətin inkişafında başlıca rol yaradıcılığa, mədəni yaradıcılıq prosesində isə şəxsiyyətə məxsusdur. Bir qayda olaraq mədəniyyətin hər bir inkişaf mərhələsi görkəmli şəxsiyyətlərin fəaliyyəti ilə səciyyələnir. Mədəniyyətin inkişaf prosesində onun ümumbəşəri, milli və sosial məzmunu qarşılıqdı fəaliyyəti ilə mənalanır.

Orijinallıq mövcud cəmiyyətin mədəni dəyərinin elə komponentlərinin mühüm və daimi elementlərindəndir ki, funksional baxımdan onun mövcudluğunun bütün mərhələlərində zərurətə çevrilir. Mədəniyyətin, xüsusilə onun spesifik əhəmiyyət daşıyan komponentinin-incəsənətin bütün növləri gerçəkliyi əks etdirirsə, bədii yaradıcılığın



idraki imkanları bədii inkişafın müxtəlif mərhələlərində eyni cür təzahür etmir (113, 158, 159).

Mədəniyyətin idraki imkanlarının təşəkkülü daha çox şəxsiyyətin özünü realizəsinə zəkalı-yaradıcı mövqedən qətiyyətlə yanaşmasından asılıdır. Mədəniyyət prosesinin dialektikası bundan ibarətdir ki, şəxsiyyət özünü realizə gedişində keçmişə aid olan mənəvi sərvətləri daim indiyə və gələcəyə bəxş etməyə səy göstərir. Mədəni irs geniş anlayış olmaqla özündə saxladığı nə varsa bu və ya digər inkişaf mərhələsində cəmiyyətin mənəvi mədəniyyət sistemində təşəkkül tapır.

Şəxsiyyətin yaradıcılıq qabiliyyətinin xüsusi sferasıdəyəri kimi səciyyələnən mədəniyyətin mühüm funksiyalarından biri məhz ictimai tənzimləmənin sabitliyini və daimiliyini saxlamaqdan ibarətdir. Şəxsiyyətin mənəvi-mədəni sərvətlər sistemi yaradılmasına istiqamətlənən fəaliyyəti ətraf aləmdən təcrid olunmaqla, "vakuumda" baş vermir. Onun fəaliyyəti və özünü reallaşdırması təmsil olunduğu birlikdə, təşkilatda, qrupda, təsisatda təzahür edir. Sosial həyatfəaliyyətinin hər bir komponenti müvafiq təşkil formalarına, başqa sözlə, təsisatlara malikdir. Həmin təsisatlar, eləcə də mədəniyyət təsisatları sosial-mədəni həyatfəaliyyətinin maddi və mənəvi təsisatlarını qoruyub saxlamağı təmin etməklə bütövlükdə ictimai həyata təsir göstərir. Məsələn, iqtisadiyyat istehsal vasitələri üzərində müəyyən mülkiyyət formaları, istehsal kollektivləri, sahibkarların və zəhmətkeşlərin təşkilatları olmadan fəaliyyət göstərə bilməz. Eləcə də siyasət öz ifadəsini hər şeydən əvvəl, dövlətin və siyasi partiyaların fəaliyyətində tapır. Şəxsiyyətin özünü reallaşdırmasının əhəmiyyətli mənbəyi olan sosial təsisatlar isə hər bir sferada

adamların fəaliyyətini təşkil edir və əlaqələndirir, bunsuz həmin fəaliyyət dağınıq, qeyri ardıcıl və sabit olmayan xarakter kəsb etməklə mədəni yaradıcılıq prosesinə neqativ təsir göstərmiş olardı. Şəxsiyyətin özünü reallaşdırması nəticəsi olmaq etibarilə mədəniyyət həyatfəaliyyətinin bütün sferaları ilə qarşılıqlı əlaqə kəsb edir. Mədəniyyətin sosial-iqtisadi proseslərə təsirini xüsusi qeyd etmək lazımdır. Məsələ ondadır ki, cəmiyyətin inkişafında iqtisadi inkişaf şəraitindən kənarda olan amillərin rolu böyükdür. Adamların mənəvi potensialı çox əhəmiyyətlidir. Tədqiqatçıların gəldiyi qənaətə görə cəmiyyətin demoqrafik göstəriciləri 80% adamların mənəvi potensialından asılıdır. Cəmiyyətin sosial-iqtisadi vəziyyətinin özü xeyli dərəcədə mədəniyyətin tipi və xüsusiyyətləri ilə müəyyən olunur. Mədəniyyətlə iqtisadiyyatın münasibəti çox mürəkkəb və qarşılıqlı mənalanır. Yeri gəlmişkən belə bir cəhəti qeyd etmək məqsədəuyğundur ki, qərb kapitalizminin inkişafı mədəniyyətin elm forması ilə sıx bağlıdır. Qərbin mənimsədiyi fundamental elmlərin texnoloji tətbiqi bütün dünyada yayılmışdır. Postindustrial cəmiyyətə keçid prosesində təbii olaraq mədəniyyətin, fərdin mənəvi və intellektual təkamülünün rolu artacaq. Artıq inkişaf etmiş ölkələr ixtisaslı kadrları idxal edir. 2000-ci ildə belə idxal ABŞ-da 500 min nəfər, AFR-də 200 min nəfər, Böyük Britaniyada 50 min nəfər təşkil etmişdir. İnkişaf etmiş ölkələrdə 2000-ci ildə informasiya texnologiyası sferasında 850 min nəfər mütəxəssisə ehtiyac duyulmuşdur. Cəmiyyətin uğurlu inkişafına əhalinin funksional savadsızlığı əngəl törədir: məsələn, İsveçin vətəndaşlarının beş nəfərindən biri yazmaqda, mətnin mənalandırılmasında, sadə məsələlərin həllində çətinlik çəkir. Cənub-Şərqi Asiyanın yeni industrial ölkələrində iqtisadiyyatın modernləşməsi prosesinə ənənəvi mədəniyyətin cəmiyyətə xas olan kollektivçi xarakteri və əxlaqı, hakimiyyətin və sərvətlərin avtoritarlığı, sərt dünyagörüşü nəzarəti, dözümlülük, fatalizm və s. təsir göstərmişdir.

Məlum olduğu kimi, təhsil stratifikasiya proseslərinə, sosial differensasiyaya və qeyri bərabərliyin mövcudluğuna əhəmiyyətli təsir göstərir. Təhsilin və təbii ki, bütövlükdə mədəniyyətin səviyyəsi və keyfiyyəti fərdlərin və qrupların sosial mövqeyini müəyyən edir, sosial fərqləri möhkəmləndirir. Və əksinə, şəxsiyyətin özünü realizəsi də bütövlükdə mədəniyyətin bütün növlərinin zənginləşməsinə, funksiyalarının mükəmməlliyinə və məqsədyönlü reallaşmasına ciddi təsir göstərir. Bu qarşılıqlı təsir isə cəmiyyətin həyatfəaliyyətinin bütün tərəflərinin pozitiv inkişafına istiqamətlənir.

Mədəniyyəti şəxsiyyətin özünü reallaşdırmasının nəticəsi kimi anlamaq baxımdan insanların müxtəlif kateqoriyalarının fəaliyyətinin məhsulu olan mədəniyyət növlərinin mənalandırılması da vacibdir. Bu nöqteyi-nəzərdən xalq mədəniyyəti, kütləvi mədəniyyət və elitar mədəniyyətin səciyyələndirilməsi əhəmiyyətlidir.

Xalq mədəniyyəti xeyli dərəcədə kortəbii təşəkkül tapır, bilavasitə insanların həyat fəaliyyətinə nüfuz edir, ənənələrlə, adətlərlə, sosial vərdişlərlə bağlıdır.

Kütləvi mədəniyyət industrial sivilizasiyanın məhsuludur. Onun üçün urbanizasiya, ümumi təhsilin yayılması, kütləvi informasiya vasitələrinin və kommunikasiyanın rolunun artması səciyyəvidir.

Kütləvi kommunikasiya vasitələrinin inkişafı kütləvi mədəniyyətin bütöv industriyasını yaratmağa imkan ver-

di. Kütləvi mədəniyyətin təzahür sferaları uşaqlıqdan ailədə, məişətdə təşəkkül tapan və ya formalaşan şəxsiyyətə aid mədəniyyətin standartlaşdırılmış norma və obrazlarıdır. Bunlar sərvət məqsədlərinin baza əsaslarını möhkəmləndirir. Kütləvi mədəniyyət milli və ya dövlət ideologiyası sistemində təzahür etməklə hakim elitanın mənafeyini ifadə edir. Mədəniyyətin bu növünə industriya reklamları, modalar və s. aiddir ki, bunlar da nüfuzlu mənafe və tələbatların, həyat tərzinin və qaydalarının formalaşmasına yardım göstərir və istehlakçı psixologiyanın inkişafına gömək edir.

Elitar mədəniyyət isə ilk başlanğıcda xalq mədəniyyətinə qarşı çevrilmişdir və şəhərlərdə təhsilli şəxslər arasında yayılmışdır. XX əsrdən etibarən elitar mədəniyyət kütləvi mədəniyyətə qarşı çıxmaqla müəyyən dərəcədə onun kommersiyalılığına, utilitarlığına reaksiya kimi formalaşmışdır. Elitar mədəniyyətə "estetikləşdirici" həyat tərzinin formaları, ədəbiyyatda, incəsənətdə, musiqidə, fəlsəfədə, təhsildə modernist və postmodernist cərəyanlar daxildir. Şəxsiyyət başlanğıcını saxlayan elitar mədəniyyətin mövcudluğu müasir mədəniyyətin qütbləşməsini, özündə demokratik və aristokratik meyllərin toqquşmasını sübut edir, o adi, sadə insana yaddır.

İnsan nəinki öz tələbatının ödənilməsinə yönələn müəyyən sərvətlər, predmetlər və hadisələr sistemində yaşayır, eləcə də bu sistemdə özünü reallaşdırmaq imkanı qazanır. Sərvətlərin və onların iyerarxiyasının dinamikliyi yalnız tarixi baxımdan deyil, həm də fərdi nöqteyi-nəzərdən mövcüddür. Bu prinsip şəxsiyyətin özünü reallaşdırmasına da aid edilməlidir. Çünki şəxsiyyətə xas olan sərvətlər mahiyyəti və nəticə etibarilə sosial sərvətlərin, mədəniyyətin istehsalı və təkrar istehsalı prosesinə istiqamətlənir. Şəxsiyyətin sərvətlər yönümü sistemini yaradan şəxsiyyətə aid sərvətlər dedikdə onun daxili strukturunun ən əhəmiyyətli keyfiyyətlərinin məcmuu başa düşülür. Həmin sərvət yönümü şəxsiyyətin şüurunun və davranışının hansısa əsasının təşəkkülünə istiqamətlənir və onun inkişafına bilavasitə təsir göstərir. Şəxsiyyətin özünü reallaşdırması özündə sosial təcrübənin mənimsənilməsini və onun sosial fəallığını təcəssüm etdirir. İdeallar, normalar, vasitə və məqsədlər şəxsiyyətin sərvəti kimi çıxış etməklə onun sərvətlər yönümünü və şüurunun təməlini yaradır, fəaliyyətinə və hərəkətlərinə təkan verir. Şəxsiyyətin özünü reallaşdırmasının ən mühüm məqamı özünüaktuallaşdırmasıdır.

Fəlsəfi ədəbiyyatda sərvətlərin təsnifatının və iyerarxiyasının müxtəlif üsulları və prinsipləri mövcuddur. Lakin şəxsiyyətin özünü reallaşdırmasına təkan verən sərvətlərin differensasiyasının müxtəlif formalarına və onların relyativ xarakterinə baxmayaraq ən yüksək və mütləq sərvət insanın özüdür, elə insan ki, yalnız mədəniyyətin yaradılmasını və saxlanmasını deyil, bütövlükdə cəmiyyətin həyatfəaliyyətinin bütün tərəflərinin mövcudluğunu təmin edir. Cəmiyyət insanı yaratdığı kimi insan da cəmiyyəti yaradır. Bu mənada şəxsiyyət və cəmiyyət həm mənəvi sərvətlərin, mədəniyyət nümunələrinin üzə çıxarılmasını reallaşdıran və həmçinin bir-birini qarşılıqlı surətdə şərtləndirən, bir-birindən təcrid edilməsi mümkün olmayan fenomenlərdir. Şəxsiyyətin özünü realizəsindən və ifadəsindən kənarda mədəni-mənəvi fəaliyyət ağlasığmazdır. Ən yüksək və mütləq sərvət olan insan üçün "son dərəcə" və daha ümumi sərvətlər həyatın mənası, mərhəmət, əda-

lət, gözəllik, həqiqət, azadlıq, ümumi rifah və s. hesab olunur. XX əsrin ən böyük filosoflarından hesab olunan A.Uaytxedin belə bir fikri məhz həmin sərvətlərə aiddir: "Mövcudluğunun davam etməsini uzadan Dünya, Sərvətlər Dünyasıdır" (133, 498).

Özünü realizə edən və ya aktuallaşdıran insanlar həyatını şüurlu surətdə müəyyən işlərə həsr edir, buna sadiq qalır və onu qiymətləndirirlər. Görkəmli Amerika alimi A.Masloy yazmışdır: "Biri öz həyatını qanuna, digəri ədalətə, daha kimsə gözəlliyə və ya həqiqətə həsr edir. Onların hamısı öz həyatını bu və ya digər surətdə elə şeyin axtarışına həsr edir ki, mən bunu "varlığın" (ixtisarla "V") sərvəti adlandırardım" (96, 110).

Şəxsiyyətin özünü reallaşdırmasının mühüm mənbəyi onun sosiallaşmasıdır. Sosiallaşma prosesində şəxsiyyətin mədəniyyət sferasında yaradıcı fəaliyyətə meyli güclənir, o həyatfəaliyyətinin bütün tərəflərinin fəal subyekti kimi çıxış edir.

Mədəniyyət o deməkdir ki, sosiallaşma prosesində insan ona yiyələnir. Sosiallaşma isə bundan ibarətdir ki, mədəniyyət insan tərəfindən necə mənimsənilir. Sosiallaşma insan cəmiyyətinin spesifik cəhətidir. O, mədəniyyət normalarının və sosial rolların mənimsənilməsi prosesidir, eləcə də insanın fərdə və şəxsiyyətə çevrilməsini ifadə etməklə axırıncının özünü aktuallaşdırması və realizəsi vasitəsi kimi səciyyələnir. Sosiallaşmanın keçdiyi mərhələlər prosesi başlıca həyati silsilələr adlandırılır. Bu həyati silsilələr uşaqlıq, gənclik, yetkinlik və qocalıq dövrləridir. Əldə edilən nəticələrin müvəffəqiyyət dərəcəsi və ya sosiallaşma prosesinin başa çatması baxımdan sosiallaşmanı uşaqlıq və gənclik dövrünü əhatə edən başlanğıc və ya ilk sosiallaşmaya və digər iki dövrü əhatə etməklə davam etməkdə olan və ya yetkin sosiallaşmaya ayırmaq olar. Sosiallaşmanın ilk dövrü kimi səciyyələnən gənclik həyata hazırlığın son mərhələsidir və eyni zamanda müstəqil həyatın və şəxsiyyətin özünü reallaşdırmasının başlanğıcıdır. Gənclikdən yetkinlik dövrünə keçid tədricən və hiss edilmədən baş verir. Fəaliyyətin başlıca növü dəyişir və öyrənməyi özünə tabe edən əmək təşəkkül tapır. Toplanmış həyat təcrübəsi əsasında öz-özünü daha realistcəsinə qiymətləndirmə və bütövlükdə daha sabit və tutumlu özünü düşünmə şüuru formalaşır. Praktika fəlsəfi kateqoriya olmaqla hər şeydən əvvəl, insanların maddi və eləcə də mənəvi tələbatının ödənilməsinə istiqamətlənir.

Sosiallaşmanı yeni şəraitə alışmaq prosesindən, tərbiyədən (mənəvi sferada sosiallaşmanın agentlərinə, subyektlərinə və fərdin davranışına məqsədyönlü təsir edən) fərqləndirmək lazımdır.

Sosiallaşmanı nəinki tərbiyə eləcə də özünü tərbiyə ilə fərqləndirmək şəxsiyyətin özünü reallaşdırması baxımından çox vacibdir. Özünü realizə bir çox amillərlə şərtlənir. İnsanın mənəvi cəhətdən yeniləşmə səyləri, özünü inkişaf etdirməyə fəal, şüurlu münasibəti məhz belə amillərdənlir. Öz şəxsiyyətinin inkişafında insanın fəal rol oynaması tamamilə təbiidir. Sosial rolda hər bir şəxsiyyət müxtəlif sosial hüquqlarda öz mövqeyinə malik olur, etalon kimi qəbul edilmiş davranış normalarına müvafiq hərəkət edir.

Fərdlərin əxlaqi cəhətdən özünü reallaşdırması prosesi gələcəyə istiqamətlənməklə onların müsbət keyfiyyətlərini, özünü təkmilləşdirməyə fəal münasibətini, özünütərbiyə qabiliyyətini formalaşdırmağa kömək edir. Özünütəkmilləşdirmə səyləri tərbiyə vəzifələrinin əks istiqaməti-

nə yönəldikdə axırıncının təsirli olması məhdudlaşır və səmərəliliyi azalır. Tərbiyə prosesi düzgün istiqamətləndirildikdə özünütərbiyə nəinki sosiallaşma prosesinə eləcə də şəxsiyyətin özünü realizəsinə faydalı təsir göstərir. Məsələn, dərin ictimai şüura malik olan hər bir şəxs öz mənəvi nöqsanlarına, həyat fəaliyyətinin müxtəlif sahələrində özünün uğursuzluqlarına daha tənqidi və məsuliyyətli yanaşır və özünütərbiyə vasitəsilə özünü reallaşdırma səylərini tam anlayır. Özünütərbiyədə müvəffəqiyyət qazanmaq üçün həlledici şərt əvvəldən düzgün istiqamət götürülməsidir.

İnsanın sosial inkişafında özünütərbiyənin rolu bundan ibarətdir ki, hər bir fərd mədəni-mənəvi yaradıcılıq imkanlarını və qabiliyyətini üzə çıxara bilir. Belə bir qabiliyyətin formalaşması bu və ya digər şəxsdə özünü göstərən neqativ halların aradan qaldırılmasını tələb edir. Özünütərbiyə, əxlaqi tələbkarlıq insanın öz daxili aləminə qapılması deyil. O, insanda pozitiv keyfiyyətlərin cilalanmasına yönələn şüurlu fəaliyyətidir, əxlaqi təkmilləşmə prosesinin daxili, intim tərəfidir. Özünütərbiyədə şüurun fəallığı təzahür edir, onun bir ünsürü digərinə təsir göstərir. Zəkanın hisslərə təsiri buna misal ola bilər. Belə təsir prosesi şəxsiyyətin mənəvi simasının formalaşmasına və onun sosiallaşmasına fəal yardım göstərir. Deməli, özünütərbiyə özünü reallaşdırmanın mühüm tərəfi kimi çıxış edir. Özünütərbiyə özü-özünü məlum meyarla müqayisə etmək, qiymətləndirmək deməkdir. Çox vacibdir ki, burada ölçü vahidi mədəniyyət sferasında yaradıcılığa istiqamətlənən özünü reallaşdırma olsun.

Özünütərbiyə ilə şərtlənən özünü reallaşdırma insanın özünü dərindən, əhatəli dərk etməsinin, qüvvətli və zəif cəhətlərini ağıllı, sağlam düşüncə tərzi ilə qiymətləndirməsinin ifadəsidir. O, şəxsiyyətin zehni və əxlaqi qabiliyyətini, onun əldə etdiyi bilikləri, sosial zövqünü və xarakterini əhatə edir. İnsan şəxsiyyətinin özünü realizəsinin formalaşmasına əhəmiyyətli imkan yaradan özünütərbiyənin başlıca ünsürləri özünümüşahidə, özünütəhlil, özünüqiymətləndirmə, özünütənqid və sairədir.

Özünümüşahidə insanın öz mənəvi aləminə nəzarətidir və onu tənzimləmək ölçüsüdür. Bu mənada özünümüşahidəyə daxili tələbat insanın ən əhəmiyyətli keyfiyyətlərindəndir. Bütövlükdə özünütərbiyə kimi özünümüşahidə də şəxsiyyətin bütün ömrü boyu davam edən və uzun sürən dinamik prosesdir. O, müsbət mənəvi keyfiyyətlərdən uzaqlaşmağı məhdudlaşdırmaqla hər bir fərdin sosial əhəmiyyətli maraq və meylinin, şəxsiyyət dəyərlərinin təşəkkülünə stimul yaradır.

Özünütərbiyənin digər ünsürü olan özünütəhlil isə şüurun səciyyəvi xüsusiyyətlərindəndir. O, bir növ insanın tələbat və marağının, əxlaqi davranışının meyarıdır. Özünütəhlil insanın mənəvi dünyasını əks etdirən müsbət və mənfi keyfiyyətlərin, qüvvətli və zəif cəhətlərin nisbətini anlamağa və bundan əməli fəaliyyət üçün düzgün nəticə çıxarmağa, özünə və başqalarına məsuliyyətli münasibətə istiqamətləndirir. Şəxsi və sosial məsuliyyət hissindən məhrum olan hər hansı fərd intellektual səviyyəsindən, sosial statusundan, maddi imkanlarından, arxalandığı "ölçülərdən" asılı olmayaraq gec-tez nüfuzdan düşür və həyatın özü tərəfindən cəzalandırılır. İnsanın özünü və başqalarını qiymətləndirmə qabiliyyəti onun daxili mənəvi fəallığıdır. Çünki hər bir şəxsin özünə, ünsiyyətdə olduğu insanlara, eləcə də sosial məsələlərə, hadisə və proseslərə münasibəti əslində insanın nəinki bunlara qiymət

verməsi və müəyyən mövqeyidir, ən başlıcası isə cəmiyyətin mədəniyyət sferasının dolğun təşəkkülünə və inkişafına xidmət edir. Elə bunun özü məhz şəxsiyyətin özünü reallaşdırması kimi mənalanır.

Özünütərbiyənin əhəmiyyətli ünsürlərindən biri də özünüqiymətləndirmədir. Özünüqiymətləndirmə insanın sosial hadisə və proseslərə münasibəti olub onu əhatə edən konkret mühitdə öz yeri və rolunu, ictimai (iqtisadi, siyasi, hüquqi, əxlaqi və s.) borcunu, mənəvi-vətəndaşlıq ləyaqətini aydın dərk etməsidir. Şəxsiyyətin özünü qiymətləndirməsinin xarakteri onun ideyalarından, həyati prinsiplərindən çox asılıdır. İnsanın özünüqiymətləndirməsi də onun bütün ömrü boyu davam edən dialektik və uzun sürən prosesdir. Özünüqiymətləndirmə şəxsiyyətin mədəni-mənəvi fəaliyyəti və yaradıcılığını tənzimləyir. Bu xüsusiyyət isə özünə açıq gözlə baxmaq, davranış xəttini düzgün müəyyənləşdirmək, nöqsanları görmək kimi zəruri keyfiyyətlərin məzmunca daha da dolğunlaşmasına və möhkəmlənməsinə təkan verir. Nəticədə adamların əxlaqi aləmi, estetik siması, bir sözlə sosial dünyası şərə, eybəcərliyə və ictimai şərəfsizliyə qarşı barışmazlığın, mənəvi kamilliyin, nəcibliyin təcəssümünə çevrilir. Elə, mədəni sərvətlər zənginliyinin təmin edilməsinə gedən ləyaqəti sosial yol da məhz buradan köklənir.

Nəhayət, özünü realizəyə xidmət edən özünütərbiyənin mühüm və spesifik ünsürlərindən digəri özünə tənqidi yanaşmadır. Qeyd edək ki, özünüqiymətləndirmə özünə tənqidi münasibətlə sıx bağlıdır. Özünə tənqidi yanaşma özünütəhlil prosesində nöqsanları, səhvləri dərk etmək və bunları aradan qaldırmağa səy göstərməkdə öz ifadəsini tapır. Elə bir insan yoxdur ki, öz işində səhvlərdən və nöqsanlardan tamamilə azad olsun. Bu baxımdan hər bir şəxs özünə kənardan, başqalarının gözü ilə baxmağı, fəaliyyətini və davranışını əxlaqi cəhətdən təhlil edib qiymətləndirməyi bacarmalıdır. Özünə tənqidi yanaşma insanın mənəvi aləminin təkmilləşməsi və inkişafının hərəkətverici qüvvəsidir. Belə ləyaqətin subyekti kimi çıxış etmək şəxsiyyəti birmənalı surətdə mədəni-sosial yaradıcılıq prosesinə fəal cəlb edir. Şəxsi təhsil və sairə də özünü reallaşdırmağa xidmət edən mənəvi meyarlardandır.

Sosiallaşma prosesində sosial subyektlərin "həyat qaydalarını" öyrənməsi sosial "mənin" təşəkkülü adlanır. Lakin sosiallaşma yalnız sosial və iqtisadi müstəqilliyin əldə edilməsi deyil, həm də şəxsiyyətin formalaşmasıdır. Fərd bu prosesin başlanğıc, şəxsiyyət isə başa çatmış nöqtəsidir.

Sosial "mənin" təşəkkülü prosesinin məzmunu özünlə, qabaqcadan müəyyən etdiyin bu prosesin-öz sosial yerini axtarmağın qarşılıqlı fəaliyyətidir. Həmin prosesin nəticəsi özünü reallaşdırmaq səviyyəsinə yüksələn yetkin şəxsiyyətdir. Şəxsiyyətin formalaşmasının başlıca müvəqqəti nöqtəsi: a) öz "mənini" dərk etməkdir, b) öz "mənini" mənalandırmaqdır. Bununla da ilk sosiallaşma başa çatır və davamı başlanır. Onun çıxış məqamı müstəqillik əldə etməkdir (88, 169).

Uşaqlıq dövründən başlanan və ən yaşlı dövrdə tamamlanan sosiallaşma sosial rolların mənimsənilməsi və mədəniyyət normalarına yiyələnmə prosesidir. Hər bir sosial rol xeyli mədəniyyət normalarını, qaydalarını və davranış stereotiplərini özündə birləşdirir. Bunlar hiss olunmaz sosial tellərlə - hüquqla, öhdəliklə, münasibətlə digər rollarla əlaqəlidir. Onların hamısını mənimsəmək vacib-

dir. Məhz buna görə sosiallaşmaya daha çox "mənimsəmə" termini tətbiq oluna bilər, "öyrənmə" termini yox. Mənimsəmə məzmunca geniş olmaqla öyrənmə məvhumunu da özündə ehtiva edir.

İnsan həyatı boyu bir deyil, xeyli sosial rolları mənimsəyir, yaşa dolduqca və xidməti fəaliyyəti iyerarxiyalıq kəsb etdikcə onun sosiallaşması prosesi də daim davam edir. İnsanın yaşlanması dərinləşdikcə onun həyata baxışı, vərdişləri, zövqü, davranış qaydası, rolları və s. də dəyişir. Eləcə də sosiallaşma prosesi davam etdikcə bu və ya digər fərdin özünü realizə etməsi və mənalandırması məqamı da keyfiyyətcə yeniləşir, mükəmməlləşir və təbii olaraq şəxsiyyətin mədəniyyət sferasına yaradıcı töhvə bəxş etməsi prosesi də zənginləşir. Şəxsiyyətin mənəvi-əxlaqi baxımdan özünü təsdiqi və ifadəsinin qüdrətli mənbəyi məhz sosiallaşmadır, onun öz sosial "mənini" dərindən anlaması və qiymətləndirməsi qabiliyyətidir.

Sosiallaşma – özünü reallaşdırma insanın bioloji varlıqdan sosial varlığa necə çevrilməsini izah edir. O sanki fərdi səviyyədə cəmiyyətdə kollektiv halında nə baş verdiyini açıqlayır. Axı, insan yaşlandıqca keçmişə nəzər salaraq başa düşür ki, 40 min il ərzində cəmiyyətin keçdiyi mədəni təkamül mərhələsini o da keçmişdir. Həmçinin düşünür ki, 2 milyon il müddətində insan nəsli özünün hansı bioloji təkamülünə məruz qalmışdır. Heç bir bioloji növ "geriyə nəzər salmaqla" özünün inkişaf mərhələsini öyrənməmişdir. Sosiallaşma sayəsində hətta zəif uşağın da sonsuz inkişaf yolu keçməsi tələb olunmur. Sosiallaşma elə prosesdir ki, süni idarə olunmağa və ya manipulyasiyaya ehtiyac duymur.

Biz yuxarıda sosiallaşmanın və onunla şərtlənən şəxsiyyətin özünü reallaşdırmasına fərdi səpgidə diqqət yetirdik. İndi isə cəmiyyət nöqteyi-nəzərindən sosiallaşma nədir sualını qısaca cavablandıraq. Bu mənada sosiallaşma insan şəxsiyyətini formalaşdıran, istiqamətləndirən, stimullaşdıran və ya məhdudlaşdıran agentlərin və təsisatların məcmuu kimi səciyyələnir.

Sosiallaşmaya təsir göstərən insanlar və təsisatlardır. Bunlar sosiallaşmanın agenti adlandırılır. Sosiallaşmanın agenti olan konkret insanlar mədəniyyət normalarına yiyələnməyə və sosial rolları mənimsəməyə məsuldurlar. Sosiallaşma təsisatları olmaq etibarilə müəssisələr sosiallaşmağa təsir göstərir və onu istiqamətləndirirlər.

Sosiallaşma iki növə ayrılır: ilk sosiallaşma və ikinci (təkrar) sosiallaşma. İlk sosiallaşma insan həyatının birinci yarısında daha intensiv baş verir, ikinci sosiallaşma isə həyatın ikinci yarısını əhatə edir. Yetkin yaş dövründə o insana daha qüvvətli təsir göstərir. İlk sosiallaşma şəxsiyyətlərarası münasibətlər sferasıdır. Şəxsiyyətin rolu ilə nüfuzunun vəhdətini daha tam və əhatəli onun sosial statusu ifadə edir (103, 530).

Mədəniyyəti şəxsiyyətin özünü reallaşdırmasının nəticəsi kimi mənalandırmaq baxımdan sosiallaşma kimi mədəniyyətin də agentləri və təsisatları haqqında təsəvvürə malik olmaq zəruridir. Fəlsəfi terminalogiyadan istifadə edərək onları da mədəniyyətin subyektləri adlandırmaq olar.

Mədəniyyətin agentlərinə bunlar aiddir:

– böyük sosial qruplar, hər şeydən əvvəl etnoslar, milli azlıqlar, eləcə də subkulturanın daşıyıcısı kimi çıxış edən nəsil və peşə qrupları;
– kiçik sosial qruplar, xüsusilə elmi, texniki və hu-

manitar ziyalıların dairəsi, musiqi pərəstişkarları qrupları və digərləri;

- fərdlər – bədii əsərləri yaradan, yayan, ifa edən və ya onlara sponsorluq edən yazıçılar, musiqiçilər, artistlər, mesenatlar (elm və incəsənətə hamilik edən imkanlı şəxslər).

Mədəniyyət təsisallarına isə aşağıdakılar aiddir: bədii əsərləri yaradan, ifa edən, saxlayan, yayan müəssisə və təşkilatlar, həmçinin mədəni sərvətləri əhaliyə mənimsədənlər və bu sərvətlərə sponsorluq edənlər, xüsusilə elmlər akademiyası, məktəblər, ali təhsil ocaqları, mədəniyyət nazirliyi və təhsil, kitabxanalar, qalereyalar, stadionlar, təlim-tərbiyə kompleksləri, teatrlar və başqaları.

Kiçik sosial qruplar öz növbəsində bir neçə qrupa ayrılır.

- mədəniyyət saraylarını birləşdirən, onların peşəkarlığının inkişafına imkan yaradan, hüquqlarını müdafiə edən və mədəniyyət sərvətlərinin yayılmasına istiqamətlənən könüllü peşəkar assosiasiyalar;
- ixtisaslaşdırılmış birliklər və dərnəklər;
- incəsənətin ayrı-ayrı növlərinin pərəstişkarları, musiqi qrupları, incəsənətdə müəyyən cərəyanın tərəfdarları, dəbdə olanın konkret növünün pərəstişkarları, müəyyən dinin tərəfdarları (məsələn, islam didinə sitayiş edənlər), dini təriqətlər və s.
- ziyalılara məxsus olan və bütövlükdə ya mədəniyyətin və yaxud onun ayrıca növünün və istiqamətinin mənəvi müdafiəsini həyata keçirən insanların qeyri-müəyyən çoxluğunu özündə səciyyələndirən mədəni mühit;
- insanın ilk sosiallaşmasının və daxili mədəniyyətə yiyələnməsinin baş verdiyi ailə;



Böyük sosial qruplara daxildir:

- insanların sabit nəsillərarası birliyi kimi səciyyələnən, ümumi tarixi taleyə, ümumi ənənələrə və mədəniyyətə, məişət xüsusiyyətlərinə, ərazi birliyinə və dilə malik olan etnoslar (tayfa, xalq, millət);
- bədii əsərlərin yaradıcıları, tədqiqatçıları, qoruyub saxlayanları və ifaçıları, xüsusilə musiqişünaslar, ölkəşünaslar, sənətşünaslar, tarixçilər, etnoqraflar, filoloqlar, filosoflar, tənqidçilər, arxitektorlar və s., ibarət olan peşəkar qruplar;
- bu və ya digər formada mədəniyyətə cəlb olunan qeyri peşəkar qruplar (məsələn, tamaşaçılar, oxucular, pərəstişkarlar);
- oxucu, tamaşaçı auditoriyaları.

Mədəniyyət subyektlərinin xüsusi kateqoriyasını əmanətçilər təşkil edirlər. Onlar mədəniyyətdə pozitiv dəyişikliklərin təzahürünə imkan yaradanlardır. Bu kateqoriya özündə bir neçə qrupu birləşdirir:

- bədii əsərlərin yaradıcıları – şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar;
- mesenatlar, sponsorlar, başqa sözlə mədəniyyət investorları;
- mədəniyyət sərvətlərini yayanlar – naşirlər, konsert proqramının nömrələrini tamaşaçılara elan edənlər (konferansye), mühazirəçilər, diktorlar;
- mədəniyyət sərvətlərinin istehlakçıları – tamaşaçı, auditoriya;
- senzura – bədii redaktorlar, baş redaktorlar, ədəbi senzura (qaydaların gözlənilməsini izləyənlər);

- təşkilatçılar – mədəniyyət naziri, şəhər meri, təşkilat komitələri, xüsusi sponsorlar və s.

Qeyd etmək vacibdir ki, mənəvi fəaliyyət sferasının təsisatlaşması bütün mədəniyyətlərdə eyni səviyyə kəsb etmir. Təsisatlaşmanın zəif dərəcəsi bütün xalq mədəniyyətləri üçün səciyyəvidir, lakin bir qayda olaraq mövcud qrupun bütün üzvləri və ya cəmiyyət tərəfindən müdafiə olunur. Folklor incəsənətin elə formasıdır ki, ilk başlanğıcda asudə vaxtla bağlı olan ünsiyyət prosesində formalaşır. Belə bir cəhəti də qeyd etmək lazımdır ki, industrial cəmiyyətlərə qədərki dövrdə mənəvi fəaliyyətin başlıca müstəqil təsisatı din olmuşdur.

Müasir cəmiyyətdə mədəni-mənəvi fəaliyyəti tənzimləyən başlıca xarici vasitə dövlətdir. Bu fəaliyyətin daha mötədil və məhdud istiqamətini bir qayda olaraq aşağıdakılar (isveç nümunəsi) təşkil edir:

- yaradıcılığa yardım göstərmək və yaradıcı fəaliyyət üçün şərait yaratmaq;
- genişlənən beynəlxalq kommunikasiya və əlaqələr aləmində milli mədəniyyətin və dilin müdafiə olunması;
- əhalinin müxtəlif təbəqələrinin, xüsusilə uşaqların və gəncliyin qabiliyyətindən və meylindən asılı olaraq onların yaradıcı fəal həyata cəlb olunması üçün imkan yaratmaq;
- mədəniyyət sferasının kommersiyalaşmasında neqativ təsirlərə qarşı çıxmaq;
- mədəniyyət sferasında inzibati desentralizasiyaya (mərkəzi orqanların bəzi vəzifələrinin yerli orqanlara verilməsi) imkan yaratmaq;



- mədəni irsin saxlanmasını təmini etmək;
- mədəniyyətin təkmilləşdirilməsinə və yeniləşməsinə kömək etmək;
- ölkə daxilində müxtəlif mədəniyyət qrupları arasında qarşılıqlı fəaliyyəti və qarşılıqlı anlaşmanı, eləcə də dövlətlətlərarası qarşılıqlı fəaliyyəti təşkil etmək və qaydaya salmaq.

Dövlət tərəfindən belə siyasətin həyata keçirilməsinin təsiri bundan ibarətdir ki, hər bir ölkənin əməkdaşlığa cəlb olunması daha qlobal münasibətlərin baş verməsinə, yerli mədəni həyatın fəallaşmasına səbəb olur, mədəniyyət orijinallığı uğrunda mübarizəni və yerli özünəməxsusluğa cəhd etməyi gücləndirir.

Sosial həyatfəaliyyətinin digər komponentləri (təsərrüfat, siyasət, sosial münasibətlər) kimi mədəniyyət də bu və ya başqa cür bütün cəmiyyəti, bütün sosial qrupları və bütün fərdləri əhatə edir və ya onlara toxunur. Lakin mədəniyyət planında əhalinin fəaliyyətinin strukturu sosial və ya siyasi prinsiplərlə üst-üstə düşmür.

Mədəniyyət həmişə xeyli məsuliyyətli, mürəkkəb və hamı üçün əhəmiyyətli olduğuna görə spesifik fəaliyyət sferası ilə bağlı olan xüsusi sosial qrupların səylərinin güclənməsini tələb edir. Bu mənada ən mürəkkəb şəraitdə mədəniyyətin mövcudluğunu qoruyub saxlamaq üçün ziyalıların fəaliyyəti daha qabarıq şəkildə təzahür etmişdir. Uzun müddət ərzində bütün cəmiyyətlərdə mədəniyyətin qorunub saxlanması ruhanilərin həyata keçirdikləri dini funksiyalarla eynilik kəsb etmişdir. Mənəvi fəaliyyət mürəkkəbləşdikcə ziyalılar tərəfindən müdafiə olunan dünyəvi mədəniyyət də təzahür edir. Dünyəvi mədə-

niyyət məhz, şəxsiyyətlərdən ibarət xüsusi peşəkar - sosial qrupun (ziyalıların) yüksək səviyyədə özünürealizəsinin nəticəsidir.

Ziyalıların xarakteri xeyli dərəcədə mövcud cəmiyyətin sosial mədəni tipindən, dövlətin rolundan və dünyəvi mədəniyyətin müstəqillik dərəcəsindən asılı olaraq fərqlənir. Bununla yanaşı onların fəaliyyətində elə ümumilik mövcuddur ki, bu və ya digər dərəcədə inkişaf etmiş hər bir cəmiyyətdə nəzərə çarpır. Mənəvi istehsalın təmin olunması baxımdan başlıca funksiyalar eləcə də yeni ideyaların, obrazların, normaların, biliklərin yaradıcı surətdə təzahürü məhz ziyalılar tərəfindən həyata keçirilir. Belə "əmək bölgüsü" eyni zamanda "mülkiyyətin bölüşdürülməsini" ifadə edir. Ziyalıların peşəkarlığı yüksəldikcə onlar mənəvi həyatı təkmilləşdirməklə, zənginləşdirməklə mədəni sərvətləri özlərinə məxsus şəkildə inhisara alır, lakin bu sərvətin maddi təcəssümünün böyük hissəsi hakimiyyətdə olanların və varlıların əlinə keçir.

Ziyalıların bu rolu o dərəcədə böyükdür ki, ən avtoritar rejim belə, hiss edir ki, "öz ağlı" ilə keçinə bilməz və məcburdu ki, ziyalıları cəmiyyət həyatının müxtəlif sferaları üzrə mütəxəssis kimi öz tərkibinə daxil etsin. Bu mənada avtoritar rejimlərdə mədəniyyət-elm ziyalılarının müəyyən nüfuzlu, tanınmış hissəsini bəzi "həvəsləndirmə", "mükafatlandırma" üsulları ilə ələ alır. Təəssüf ki, müəyyən şöhrətpərəst ziyalılar hakimiyyətin "stimullaşdıran" mədhiyyəçisinə çevrilir və təbii ki, xalqın namuslu təbəqələrinin gözündən düşür.

Ziyalıların üç başlıca funksiyasına uyğun olaraq onları üç qrupa ayırmaq olar:

1. Mədəniyyət resurslarının saxlanması və translyasiyası (çatdırılması), qaydaya salınması və yayılması, normaların və sərvətlərin, tarixi yaddaşın saxlanması. Həmin funksiyanı təmin etmədən nə cəmiyyəti, nə də onun dəyişilən şəraitə uyğunlaşmasını qoruyub saxlamaq mümkün deyildir. Bu vəzifə ziyalıların özünün çoxsaylı qruplarının – müəllimlərin, kitabxana və muzey işçilərinin, redaktorların, bədii əsərləri, memarlıq abidələrini və digər incəsənət əsərlərini bərpa edən mütəxəssislərin, maarif sistemi işçilərinin, proqramlaşdırıcıların və s. üzərinə düşür. Mədəni həyatın ümumi prosesində onların rolu adi görünsə də məhz ziyalıların bu qrupunun daimi fəaliyyəti sayəsində cəmiyyət mədəniyyətlə təmin olunur.
2. İnnovasiya-yenilikçi mənəvi fəaliyyət. Belə fəaliyyət yeni ideyaların, obrazların, fəaliyyət modellərinin, siyasi və sosial proqramların yaradıcı surətdə işlənib hazırlanması prosesidir. Bu tipli funksiyanın daşıyıcılarının fərqləndirici xüsusiyyəti yüksək dərəcədə fərdiləşdirilməkdir. İstər-istəməz innovasiyanın – yenilikçi mənəvi fəaliyyətin böyük hissəsi ayrı-ayrı şəxsiyyətlərin və ya kollektivlərdəki kiçik qrupların yaradıcı səylərinin nəticəsidir. Heç də təsadüfi deyil ki, yenilikçi mənəvi fəaliyyət onun müəllifinin və ya qrupların adı ilə təsbit olunur. Yenilikçi mənəvi fəaliyyət az idarə olunan proses olmaqla xeyli dərəcədə subyektiv şəxsi amillərdən və cəmiyyətdəki mənəvi mühitdən asılıdır, həmçinin cəmiyyətin mədəniyyətinin dinamikliyi və onun innovasiyaya münasibət qabiliyyəti ilə şərtlənir. Buna görə hər bir inkişaf etmiş cəmiyyət

elə spesifik təsisatları (fondları, mərkəzləri, akademiyaları) müdafiə edir ki, burada yaradıcı kəşvlərin və ixtiraların təzahürü üçün əlverişli şərait yaradır.

3. Lakin yaradıcı elita və cəmiyyət arasında elə qaçılmaz uyğunsuzluq, məsafə mövcuddur ki, onun yox edilməsi yeni kəşvin, mənəvi yaradıcılıq aktının qəbul olunması üçün zəruridir. Yenilikçi mənəvi fəaliyyətin nəticələrindən hamının istifadəsi məqsədilə onlar yenilikçilik fəaliyyətinə tənqidi yanaşan, onu təhlil edən və ən əhəmiyyətli kəşvləri və ixtiraları həyata keçirən digər qruplar tərəfindən təsdiqlənməli və bəyənilməlidir. Tənqidi münasibət mənəvi varislik kəsb edən yeniyə şamil edilməlidir. Cəmiyyətin həyatının mütərəqqi məqamlarını əks etdirən hər hansı hadisənin məzmun və strukturunun əhatəli, düzgün dərk edilib qiymətləndirilməsi ictimai inkişafın obyektiv tələbidir.

İctimai təbəqə olmaq etibarilə ziyalıların mahiyyətini müəyyənləşdirən başlıca amil əməyin xarakteridir. Başqa sözlə, ziyalıların fəaliyyətinin başlıca sferası olan zehni əmək onların cəmiyyətdəki mövqeyi, funksiyası və rolunun başlıca meyarıdır.

Müasir cəmiyyətin sosial strukturunda ziyalılar, o cümlədən elmi-texniki, humanitar (müəllimlər, həkimlər, hüquqşünaslar), yaradıcı (yazıçılar, rəssamlar, bəstəkarlar, artistlər və mənəvi mədəniyyət sferasında çalışan ziyalıların digər nümayəndələri) və eləcə də dövlət strukturlarında xidmət edən şəxslər xüsusi yer tuturlar.

Elmi biliklərin, təhsilin, mədəniyyətin rolunun artması, həmçinin ictimai inkişafda subyektiv amilin əhəmiyyətinin güclənməsi ilə əlaqədar cəmiyyətin həyatında və sosial strukturunda ziyalıların yeri və rolu aydın nəzərə çarpır. Bilik, texnika və mədəniyyətin müxtəlif sahələrinə mənsub olan mütəxəssislərin fəaliyyətindən kənarda uğurlu perspektivli cəmiyyət quruculuğu mümkün deyildir. İctimai həyatın bütün tərəflərinin elmi təşkili, elm və texnikanın nailiyyətlərindən geniş istifadə olunması, idarəetmənin təkmilləşdirilməsi, xüsusilə mədəniyyət sisteminin keyfiyyətcə yeni məzmun kəsb etməsi zərurəti yaradıcı şəxsiyyətlər təbəqəsinə tələbatı daim artırır. Bu ictimai prosesdə bir tərəfdən cəmiyyətin sosial strukturunda ziyalı şəxsiyyətinin xüsusi çəkisi çoxalır, digər tərəfdən də mənəvi həyatın təkmilləşməsində və zənginləşməsində onun rolu güclənir. Belə mürəkkəb sosial prosesin mahiyyəti və inkişaf meylini əhatəli və dərindən dərk etmək baxımdan "ziyalı" anlayışının fəlsəfi-sosioloji şərhinə ehtiyac duyulur. Axı, ziyalı hər şeydən əvvəl fəlsəfi-sosioloji kateqoriyadır, eləcə də humanitar biliklərin, mənəvi sərvətlərin başlıca və spesifik istehsalçısıdır. Fəlsəfəyə və sosiologiyaya aid mövcud ədəbiyyatda ziyalılarla bağlı xeyli təriflərə rast gəlirik. Lakin bu məsələ ilə bağlı çoxsaylı mübahisələr davam etsə də ziyalı kateqoriyasına dair hamının qəbul etdiyi vahid tərifə təzahür olunmur. Bununla belə tədqiqatçıların əksəriyyətini, xüsusilə keçmiş sovet məkanını təmsil edən müəllifləri qane edən bəzi təriflər nəzərə çarpır. Bu mənada ziyalı probleminin tanınmış tədqiqatçısı M.N.Rutkeviçin ziyalılara verdiyi tərif daha çox diqqəti cəlb edir: "Ziyalılar insanların böyük sosial qrupu olub ali və ya orta ixtisas təhsilinə malik, peşəkar surətdə yüksək ixtisaslı zehni əməklə məşğul olan şəxslərdən ibarət ictimai təbəqədir".

Keçmiş sovet məkanında nisbətən çox yayılan və əsaslandırılan bu tərif zənnimizcə, ziyalıların sosial vəziyyətini və mədəniyyət sferasında əhəmiyyətli rolunu daha düzgün və daha dolğun əks etdirir. Birincisi, həmin tərifdə ziyalıların xüsusi ictimai təbəqə olması öz əksini tapır; ikincisi, ziyalı üçün ali və orta ixtisas təhsilinin zəruriliyi ifadə olunur; üçüncüsü ziyalıların fəaliyyət sferasının zəminini zehni əməyin təşkil etməsi bildirilir. Əlbəttə, ziyalıları xüsusi ictimai təbəqə kimi əsaslandırarkən əməyin xarakteri başlıca meyar götürülməlidir. Ziyalı əməyinin başlıca əlaməti isə məhz, zehni fəaliyyətdir.

Belə bir cəhəti qeyd edək ki, ziyalıları bəzi sosial qruplardan fərqləndirən yalnız yüksək ixtisaslı peşəkar zehni əmək deyildir. Ziyalılar həmçinin istehsalın təşkilində və təkmilləşdirilməsində, fərdlərin, sosial qrupların və etnik birliklərin şüurunun və mənlik şüurunun formalaşdırılmasında xüsusi rol oynayır, mənəvi istehsalda spesifik yer tutur, özlərinə məxsus mənəvi marağa malikdirlər. İctimai təbəqə olmaq etibarilə ziyalıların həyat tərzi spesifik formalar da kəsb edir.

Hər bir sosial fenomen kimi ziyalılar da mürəkkəb daxili struktura malikdirlər. Onların strukturu çox komponentli və müxtəlif tərəfli olması ilə səciyyələnir. Ziyalıların sosial strukturu mövcud ictimai gerçəkliyə xas olan iqtisadi, siyasi və mədəni-mənəvi mühitin təsiri altında dəyişib inkişaf edir. Yüksək ixtisaslı mütəxəssislərin sosial strukturunu təşkil edən başlıca komponentlərin müntəzəm surətdə təkmilləşməsi müasir elmi-texniki inqilab şəraitində xüsusilə nəzərə çarpır. Bir tərəfdən istehsalın müxtəlif sahələrinin yüksək səviyyədə təşkili zərurəti, digər tərəfdən isə cəmiyətin həyatında mənəvi amilin rolunun getdikcə artması zehni əməyin obyektiv surətdə şərtlənən differensasiyası və inteqrasiyası prosesini heç də məhdudlaşdırmır. Ziyalıların differensasiyası onların tərkibində yeni sosial-peşə qruplarının yaranmasına gətirib çıxarır. Zehni əməyin inteqrasiyası isə öz əksini onda tapır ki, ziyalıların strukturuna daxid olan müxtəlif qrupların bir-birindən qarşılıqlı asılılığı güclənir, aralarındakı fərqlərin tədricən silinməsi prosesində onlar daha da yaxınlaşır və biri digərinə keçir. Bu proses isə öz növbəsində mədəniyyətin humanist və inteqrativ funksiyalarının güclənməsinə təkan verir.



Şəxsiyyətin özünü reallaşdırmasının daha yüksək və dərin səviyyədə ziyalıların simasında təsdiqlənməsi bu və ya digər cəmiyyətin dəyərlərindən olmaqla ilk öncə onun mənəvi həyatının məzmun səviyyəsindən asılıdır.

## 2.3 Şəxsiyyət mənəvi-sivil fəaliyyət prosesinin subyektidir

Hər cür sistem bütövlük kəsb edən komponentlərinin, hissələrinin üzvi birliyi və qarşılıqlı fəaliyyətilə səciyyələnir. Sosial qaydalar sistemi, sosial gerçəkliyə hətta sistemli ölçüdən yanaşdıqda da müstəsna mürəkkəbliyi və çoxcəhətliliyi ilə mənalanır. Belə halda o, müxtəlif səviyyəli sistem iyerarxiyası kimi çıxış edir. Bu iyerarxiyada hər bir sistem həm daha yüksək səviyyəli sistemin komponentidir və eləcə də daha aşağı qaydada olan sistemdən yaranır. Siyasi, iqtisadi, dini və digər sferalar kimi mədəniyyət də bütöv sosial sistem olan cəmiyyətin komponentidir. Həmin komponentlər sistemində mədəniyyət özünəməxsusluğu ilə fərqlənir. Şəxsiyyətin fəaliyyəti mədəniyyə-

tin ən zəruri ünsürüdür, çünki bu fəaliyyət mədəniyyəti sərvətlərin istehsalı prosesi kimi mənalandırır. Mədəniyyət aləminin bütövlüyü sistem kimi səciyyələnən şəxsiyyətin bütövlüyü, universallığı ilə müəyyən olunur. Mədəniyyət özünün canlı universal subyekti olan insandan kənarda mövcud deyildir. "Adamların mədəni inkişaf meyarını mədəni həyatın subyekti olmaq etibarilə sosial subyektin inkişaf ölçüsü kimi müəyyənləşdirmək olar" (134, 69).

Mədəniyyət insanın şüurlu-yaradıcı fəaliyyətində reallaşmaqla, təcəssüm olunmaqla özündə mədəniyyət konkretliyini (maddiliyi) ehtiva edir. Bu isə sosial təcrübəni, üsulları və fəaliyyət proqramını sonrakı nəsillərə bəxş etmək imkanı yaradır. Mədəniyyətin maddiliyində (konkretliyində) bilik, bacarıq, cəmiyyətin normaları, sərvətləri öz təcəssümünü tapır.

Sosail qaydaların tiplərinin təhlili göstərir ki, insan bütün şeylərin, maddi və mənəvi xarakterli proseslərin ölçüsü kimi çıxış etməklə bütövlükdə mədəniyyətin universal komponenti səviyyəsinə yüksəlir. Mədəniyyətin bütün mənəvi sferalarının – siyasi, əxlaqi, estetik, elmi, dini və digər sahələrinin təşəkkülü, inkişafı, mövcudluğu şəxsiyyətin fəaliyyəti prosesindən kənarda təsəvvürə sığan deyil.

Şəxsiyyəti mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi başa düşmək üçün mədəniyyətin özünü insanların fəaliyyətinin təşkili və inkişafı üsulu kimi nəzərdən keçirmək zəruridir. Çünki o, maddi və mənəvi əməyin məhsullarında, sosial normalarda və mənəvi sərvətlərdə, insanın təbiətə münasibətində və adamlar arasındakı münasibətlərdə mənalanır.

Şəxsiyyəti mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi açıqlamaq məqsədilə ən əvvəl, "mənəvi fəaliyyət", "subyekt" və "obyekt" anlayışlarının qısa müqayisəli təhlili zəruridir. Fəaliyyət məqsəd, vasitə və nəticəni özündə təcəssüm edən prosesdir. Fəaliyyətin tipləri və formaları subyektinə, obyektinə, funksiyasına və məqsədinə görə fərqlənir (fərdi, ictimai, istehsal, siyasi, elmi, mədəni-tərbiyə, yaradıcı və s.) (118, 79).

"Fəaliyyət" anlayışından çıxış edərək "mənəvi fəaliyyət" anlayışının konkret təhlili nəinki elmi-nəzəri və eləcə də əməli əhəmiyyəti ilə səciyyələnir.

Mənəvi hadisələrin və proseslərin fəlsəfi tədqiqində qnoseoloji və aksioloji yanaşma vəhdətdə mənalandırılır (142, 163). İnsanların mənəvi fəaliyyətinin hadisələrini öyrənməyə yönələn qnoseoloji (nəzəri - idraki) yanaşma hər şeydən əvvəl, müəyyən idraki vasitə və mexanizmlərin köməyilə mənəvi sferada nəyin və necə əks olunduğunu izah etməyə imkan yaradır, əks olunan əks edilən obyektə nə dərəcədə uyğundur, bu uyğunluğun meyarı kimi çıxış edən nədir və digər sualları məhz elmi idrak nəzəriyyəsi cavablandırır. İctimai varlıqla ictimai şüurun qarşılıqlı münasibətlərini eləcə də mənəvi hadisə və proseslərlə şərtlənən səbəbiyyət əlaqələri baxımından nəzərdən keçirmək olar. Cəmiyyətin mənəvi üstqurumuna sosial-səbəbiyyət nöqteyi-nəzərdən yanaşma sadəcə olaraq müəyyən ideal hadisələrin (ideyaların, obrazların, görüşlərin, nəzəriyyələrin və s.) məcmuu kimi deyil, məhz onların daşıyıcıları, mənəvi fəaliyyətin subyektləri ilə birlikdə diqqət yetirilməlidir (128, 166).

Lakin fəlsəfə yalnız belə bir cəhətlə maraqlanmır ki, mövcud ideyalar, nəzəriyyələr və i. a., gerçəklikdə nəyi, sosial gerçəkliyin özünə xas olan hansı səbəbləri və qanunları əks etdirir və həm də bu mövqedən çıxış edir ki,

mənəvi həyatın bu və ya digər elementi obyektiv gerçəkliyə, iqtisadi bazisə, mənəvi üstqurumun digər elementlərinə, insanların bütün həyatfəaliyyətinə hansı əks təsiri göstərir. Mövcud mənəvi təşkilin cəmiyyətdə nə kimi sosial funksiyanı yerinə yetirdiyini, insanların həyatı üçün onun əhəmiyyətini, dəyərini bilmək də vacibdir. Mənəvi həyatın hadisə və proseslərinə belə mövqe aksioloji (sosial-dəyərli) yanaşma adlandırılır (143, 164).

Mənəvi fəaliyyətin hadisələrinə dəyər nöqteyi-nəzərdən yanaşmada sinfilik, partiyalılıq kimi metodoloji prinsiplər nisbətən dəqiq çıxış edir. Fəlsəfi təhlildə hadisələrin sosial-dəyərli müəyyənləşdirilməsinə xüsusi təriflərin ümumiləşdirilməsi kömək edirsə, siyasi nəzəriyyədə, hüquq nəzəriyyəsində, etikada, estetikada, din fəlsəfəsində, mədəniyyət nəzəriyyəsində və digər fəlsəfi və qeyri-fəlsəfi humanitar elmlərdə müxtəlif mənəvi hadisələrin qiymətləndiridməsi xidmət edir. Mənəvi fəaliyyətdə insanların fəaliyyətinin ən müxtəlif növləri əks olunur.

Mənəvi fəaliyyət mürəkkəb prosesdir. Onun mürəkkəbliyi elementlərinin çoxsaylı olması və bunların arasındakı rəngarəng əlaqələrlə bağlıdır. Bu mənada mənəvi fəaliyyətin mürəkkəbliyi Kainatın və ya insan beyninin mürəkkəbliyi ilə müqayisə oluna bilər. Hələ vaxtilə İ.Kant demişdir ki, bizim təsəvvürümüzü öz möhtəşəmliyilə heyrətə gətirən iki şey vardır, - bu bizdən yüksəkdə dayanan ulduzlu səma və bizim daxilimizdəki "əxlaqi qanundur", başqa sözlə, insanın daxili mənəvi aləmidir.

Mənəvi fəaliyyət "mənəvi həyat" anlayışının özünəməxsus sferasıdır. Lakin o yalnız mənəvi həyatı əhatə etməklə məhdudlaşmır, həmçinin cəmiyyətin digər sferalarında təzahür edir. Mənəvi həyatın özü kimi, mənəvi fəaliyyət də mürəkkəb-dinamik və ziddiyyətli fenomendir. Qeyd edək ki, mənəvi həyatın fəaliyyət sferası ictimai şüura nisbətən daha geniş və çoxcəhətlidir. "Cəmiyyətin mənəvi həyatı sosioloji kateqoriya olmaqla öz məzmununda cəmiyyətin mənəvi həyatının müxtəlif sferalarının bütün görüşlər məcmuunu, cəmiyyətin mənəvi inkişafının meyllərini və qanunauyğunluğunu birləşdirir" (134, 243). İctimai şüurdan fərqli olaraq mənəvi həyat fəaliyyətdir. Lakin hər cür fəaliyyət deyil, məhz şəxsiyyətin, sosial qrupların və bütövlükdə cəmiyyətin mənəvi tələbatının formalaşmasına və ödənilməsinə xidmət edən, onların qabiliyyətinin inkişafına istiqamətlənən fəaliyyətdir. Mənəvi həyat məhz insana və onun predmetli maddi-istehsal fəaliyyətinə təsir göstərir (135, 197).

Mənəvi fəaliyyət hər şeydən əvvəl, mənəvi istehsalla bağlıdır. Lakin bu cəhət heç də bəzi müəlliflərin düşündüyü kimi, mənəvi fəaliyyətlə mənəvi istehsalı eyniləşdirməyə əsas vermir. Mənəvi istehsala şüurun istehsalının yalnız müəyyən, bu və ya digər sferası deyil, onun bütün sferaları daxil edilməlidir. Mənəvi fəaliyyət mənəvi istehsaldan əlavə mənəvi sərvətlərin mübadiləsi, yayılması və mənimsənilməsi sahəsindəki fəaliyyət prosesini də özündə əks etdirir. Mənəvi istehsalın özü mənəvi tələbatın inkişafı ilə əlaqədar olaraq təkmilləşir və öz növbəsində onun formalaşmasına təsir göstərir. Mənəvi istehsal adamların elə mənəvi fəaliyyətini təcəssüm etdirir ki, bu elmi, əxlaqi, hüquqi, siyasi ideyaların və şüurun müxtəlif səviyyələrinin istehsalı ilə yanaşı sosial, siyasi proseslərin təkmilləşdirilməsi, tənzim olunması və yeniləşdirilməsini də şərtləndirir (13, 11-12). Mənəvi fəaliyyət mənəvi həyatın bütün sferalarını – siyasi, əxlaqi, hüquqi, estetik, elmi, mədəni-tərbi-

yə, ideoloji, dini və s. sferaları əhatə edir.

Subyekt məvhumu latın dilində "subyektus" sözündən götürülüb hərfi mənada aşağıda olan, əsasında duran baxımdan səciyyələnir. Subyekt predmet – praktiki fəaliyyətin və idrakın (fərdə, sosial qruplara aid olan) daşıyıcısıdır, obyektə istiqamətlənən fəallığın mənbəyidir. "Subyekt" anlayışı ilk əvvəllər (məsələn, Aristotel tərəfindən) xüsusiyyətlərin (xassənin), vəziyyətin və fəaliyyətin daşıyıcısı mənasında işlədilmişdir və belə münasibətlə o, substansiya anlayışı ilə eyniləşdirilirdi. XVII əsrdən başlayaraq "obyekt" və ona münasibətdə "subyekt" anlayışları hər şeydən əvvəl, qnoseoloji aspektdə işlədilir. Hazırda subyekt dedikdə fəal fəaliyyət göstərən, dərk edən şüurlu və iradəli fərd və ya sosial qrup başa düşülür (138, 465). Subyekt və obyektə münasibətdə praktikanın roluna dair dəyərli sezmələr obyektiv idealizmə, xüsusilə onun görkəmli nümayəndəsi Hegelə məxsusdur. O, subyekt-obyekt münasibətlərində praktikanın roluna, həmin münasibətlərin tarixdən, subyektin ictimai təbiətindən asılılığına dair qiymətli mülahizələr yürütmüşdür. Obyektiv qanunauyğunluğun dərk edilməsi səviyyəsindən asılı olaraq öz qarşısına qoyduğu məqsədlərin reallaşması gedişində həm obyekt və eləcə də subyektin özü dəyişir. Obyekt latın dilində "obyectum" sözündən götürülüb müqayisə etmə, qarşı durma, predmet mənasını ifadə edir. Bu baxımdan obyekt subyektin predmet praktiki və idraki fəaliyyətində ona qarşı durmaq, ona əks olmaq kimi səciyyələnir. Obyekt obyektiv reallıqla sadəcə olaraq eynilik təşkil etmir, onun tərkib hissəsi kimi mənalanır və subyektlə qarşılıqlı fəaliyyətdə çıxış edir. Obyektin dərk olunması cəmiyyət tərəfindən işlənib hazırlanan və obyektiv reallığın xüsusiyyətlərini əks etdirən praktiki və idraki fəaliyyətin formaları vasitəsilə həyata keçirilir (53, 453).

Praktiki-idraki fəaliyyət prosesində dəyişməyə məruz qalan insanın, şüurlu subyektin aləmi möhtəşəmlik, müxtəliflik kəsb edir – özündə siyasəti, iqtisadiyyatı, dini, elmi, əxlaqı, incəsənəti və s. əks etdirir. İnsanların fəaliyyətinin bütün bu sferaları bir-birinə qovuşur və qarşılıqlı təsir göstərir. Hər bir sfera özündə digərini əks etdirir. Əlbəttə, insana həmin sferalar çərçivəsində "müxtəlif hissələr" kimi diqqət yetirmək olar. Məsələn, belə halda siyasi mədəniyyət özündə cəmiyyətin siyasi cəhətdən təşkilinin ən yaxşı siyasi seçmə və fəaliyyət üsullarını, dəyərlərini və ideallarını, adamların qarşılıqlı sosial münasibətlərinin səmərəli formalarını birləşdirəcək. Əxlaqi mədəniyyətdə xeyir, şər, şərəf, ədalət, borc və s. haqqında cəmiyyətin əldə etmiş olduğu səviyyə ifadə edilir. Bu təsəvvürlər, normalar insanların davranışını tənzimləyir, sosial hadisələri səciyyələndirir. Əxlaqi görüşləri və prinsipləri mənimsəməklə, fərd onları əxlaqi keyfiyyətə və inama çevirir.

Şəxsiyyətin mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi səciyyələnməsi onun əxlaqi şüuru ilə sıx bağlıdır. Əxlaq sferası özündə nəinki adamlar arasında əxlaqi münasibətləri, onların davranışını, eləcə də insanın hərəkətlərinin motivlərini izah edən əxlaqi şüuru əks etdirir.

Əxlaqi ideal şəxsiyyətin həyati təsəvvürlərinin, görüşlərinin, həyatı qiymətləndirmə qabiliyyətinin birliyidir. İdeal həmişə insanın həyat planları və məqsədləri ilə daxili bağlılıq kəsb edir. İdealın ictimai əhəmiyyəti bundan ibarətdir ki, o, şəxsiyyətin mənəvi simasının, ümumi mədəniyyətinin formalaşmasında və əxlaqi yeniləşməsində fəal sövqedici rol oynayır.

Mədəniyyət aləmində əxlaqi-etik aspekt xüsusi yer tutur. Əxlaq ən müxtəlif sferalarda – məişətdə, ailədə, işdə, elmdə, siyasətdə və sairədə insanların həyatını tənzimləyir. İnsanlararası münasibətlər mədəniyyətini təşkil edən ümumi əhəmiyyətli nə varsa əxlaqi normalar və prinsiplər ona təsir göstərir. Bütün hallarda insanlararası əlaqələr praktikası xeyirxahlıq, nəciblik, ədalətli olmaq kimi mənalanır. Əxlaq insanlar arasında gündəlik fərdi münasibətlərlə səciyyələnir. Əxlaqın münaqişəli mahiyyət daşıması xüsusi hallarda nəzərə çarpır.

Şəxsiyyətin mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi mənalandırılması həmçinin onun estetik şüurunun inkişafı ilə sıx bağlıdır. Şəxsiyyətin sosial dəyəri və mənəvi-əxlaqi fəaliyyətinin məzmunu xeyli dərəcədə cəmiyyətin sərəncamında olan estetik sərvətləri onun necə mənimsəməsi və bundan məqsədyönlü istifadə etməsi bacarığı ilə müəyyən olunur. İnsanın estetik mədəniyyəti onun ümumi mənəvi-praktiki zənginliyinin bir hissəsidir.

İctimai hadisə olmaq etibarilə estetik zövq ilk növbədə sosial amillərlə şərtlənir. Fərdin estetik zənginliyi onun gerçəklik əlaqələrinin zənginliyindən asılıdır. Bu mənada dünyagörüşü, mədəniyyət, əmək, yaş, cins və sairə estetik zövqün təşəkkülünə təsir göstərən amillərdəndir.

Şəxsiyyətin estetik şüurunu səciyyələndirən estetik zövq və mühakimələr, eləcə də estetik fəaliyyət dialektik xarakter daşıyır, daim dəyişir, inkişaf edir və kamilləşir. Elə buna görədir ki, mədəniyyətin inkişafı ilə əlaqədar olaraq insanın idrak qabiliyyəti, biliyi inkişaf edərək mükəmməlləşir, onun varlığa estetik münasibəti də təkmilləşir və daha da yetkinləşir.

Mənəvi-sivil fəaliyyət prosesi daim yeniləşməsə, bütövlükdə mənəvi mədəniyyətin mövcudluğu imkan xaricində olardı. Bu mənada yaradıcılıq, keyfiyyətcə yeniləşmə cəmiyyətin inkişafının özünəməxsus digər tərəfidir. Mədəniyyət ənənələrinin və fasiləsiz yeniləşmənin vəhdəti hər bir mədəniyyətin universal xarakteristikasıdır.

İnsan mədəniyyət-sivilizasiya sferasında yaradıcı-yenilikçi mənəvi fəaliyyətin subyekti kimi çıxış edir. Lakin hər cür yenilikçilik mənəvi-sivil fəaliyyət prosesinin göstəricisi kimi səciyyələnmir. Yenilik naminə yenilik, yaradıcılıq xatirinə yaradıcılıq özündə heç də mütərəqqi məzmun təcəssüm etdirmir, mənasız hala çevrilir. Mədəniyyət sərvətlərinin yaradılması hamı üçün həmişə əhəmiyyət kəsb edir. Bu baxımdan elmi kəşvlər və bədii yaradıcılıq məhsulları cəmiyyətdə geniş yayılmalı, insanların zəkasında və qəlbində əks-səda doğurmalıdır.

Sosial dəyişiklikləri və eləcə də mənəvi yenilikləri müəyyən edən amillər onların obyektiv əsasını təşkil edirlər. Məsələn, kəşflər, ixtiralar nəticəsində adamların çoxu əvvəllər məlum olmayan reallığın mahiyyətini başa düşür. Kəşflər insanların bilik ehtiyatlarına yeni cəhətlər əlavə etsə də mədəniyyətə yeni heç nə bəxş etmir, çünki kəşf olunan aspekt həmişə mövcud olmuşdur. O, yalnız kəşf edildikdən, üzə çıxdıqdan sonra mədəniyyətin tərkib hissəsinə çevrilir. İnsan zəkasının qüdrəti sayəsində üzə çıxarılanlar yalnız istifadə olunduqda, cəmiyyətdə geniş yayıldıqda və ya insanlar arasında münasibətlərin bir hissəsinə çevrildikdən sonra sosial dəyişikliklərin amili kimi səciyyələnir. Mədəniyyətin inkişafı, mənəvi fəaliyyət prosesi hamar, ziddiyyətsiz deyildir. Bu prosesin bir-birinə zidd iki tərəfi-mütərəqqi və qeyri mütərəqqi tərəfləri vardır. Belə ki, ilk əvvəl Avropada təşəkkül tapan, sonra isə

bütün dünyada yayılan elmi-texniki mədəniyyət tipi insan azadlığının inkişafına tamamilə imkan yaratdı. Lakin bununla yanaşı o, nöqsanlara da malikdir. Texnoloji sivilizasiya insanla təbiət arasında elə qarşılıqlı münasibətə əsaslanır ki, bu zaman təbiət insan fəaliyyətinin yalnız sadəcə obyekti kimi deyil, təəssüf ki, həm də istismar obyekti kimi çıxış edir, özü də qeyri-məhdud səviyyədə. Şəxsiyyəti səciyyələndirən cəhətlərdən biri bundan ibarətdir ki, o, yalnız mənəvi-sivil fəaliyyət prosesinin deyil, eləcə də ictimai münasibətlərin subyekti kimi çıxış edir. Normal insan şəxsiyyəti həmişə bu və ya digər dərəcədə sosial fəallığı ilə nəzərə çarpır. Çünki onun inkişafı digər insanlarla canlı ünsiyyət prosesində baş verir. Bu prosesdə şəxsiyyət sosial ünsiyyətin subyekti kimi formalaşır. Həmin ünsiyyət çərçivəsində onun istehlak, təlim, əmək, əyləndirici və digər fəaliyyəti həyata keçirilir. Belə halda şəxsiyyət həyata keçirdiyi sosial fəaliyyətin subyekti kimi səciyyələnir. Şəxsiyyətin sosial fəaliyyəti və bu və ya digər məqsədlər güdən sosial ünsiyyəti onun sosial fəallığının başlıca formalarıdır. Şəxsiyyətin hər cür fəaliyyəti onun digər insanlarla birbaşa və ya dolayı ünsiyyəti şəraitində baş verir. Belə ünsiyyəti şəxsiyyətlərarası ünsiyyət kimi də səciyyələndirmək olar. Əgər insan başqa şəxsiyyətlərə münasibətdə bu və ya digər birliyin (kollektivin, sinfin, millətin) nümayəndəsi kimi çıxış edirsə, deməli həmin şəxsiyyətlərlə ictimai münasibətlərdə (sinfi, milli, və s.) səciyyələnir. Bu münasibətlər isə məzmununa görə iqtisadi, siyasi, hüquqi, əxlaqi, estetik və dini baxımdan mənalana bilər.

Hər bir insan şəxsiyyəti cəmiyyətdə qərarlaşması və ləyaqətli yaşaması üçün mənəvi-sivil fəaliyyətin, ictimai münasibətlərin subyekti kimi özündə müvafiq keyfiyyətləri inkişaf etdirməlidir. Bu məqsədlə o, hər şeydən əvvəl, mənəvi aləminin intellekt, müxtəlif insani hisslər, iradə, qarşıya qoyulan məqsədə çatmaq üçün qətiyyətli olmaq kimi təzahürlərini təkmilləşdirməlidir.



İnsan cəmiyyəti öz əməyi, siyasi fəallığı, iradəsi və zəkası ilə formalaşdırır. Onun formalaşdırıcı gücünün sosial mühitə, cəmiyyətə təsiri sosial tərəqqinin dərəcəsi ilə artır. Tarixin inkişafı, sosial-iqtisadi, siyasi və mənəvi-əxlaqi vəzifələrin dərinləşməsi və genişlənməsi, elmin, texnikanın və mədəniyyətin tərəqqisi ilə adamların görüş dairəsi zənginləşir, hər bir şəxsiyyətin ictimai tərəqqidə iştirakının çəkisi artır, onun mənəvi mədəniyyət xəzinəsinə töhvəsi çoxalır. Beləliklə, sivill, demokratik cəmiyyət quruculuğu prosesinə şəxsiyyətin fəal, yaradıcı təsiri güclənir. "Demokratiya o zaman mümkündür ki, fərdi olanın, ayrıcanın özünüifadəsini nəzərdə tutur və stimullaşdırır" (35, 38-39).

Hər bir ayrıca şəxsiyyətin fəallıq dərəcəsi, ölçüsu yalnız onun fəaliyyət göstərdiyi empirik şəraitdən, "mikromühitdən" asılı deyildir, eləcə də həmin şəxsiyyətin psixi xüsusiyyətləri, şəxsi təcrübəsi, mədəni inkişaf səviyyəsi, intellektual qabiliyyəti və digər keyfiyyətləri ilə şərtlənir. Unutmaq olmaz ki, "tarixin böyük siyasi dönəmlərində insanların cəmiyyətdəki mənəvi dəyərlərə münasibəti dəyişir. Mənəvi dəyərlərin dəyişdiyi, hadisə və proseslərə yeni baxışların formalaşdığı dolaşıq dövrlərdə elm və siyasi təfəkkür önə çıxmalı, insanların, millətlərin həyatında yarana biləcək səhvlərin azalmasına kömək etməlidir". Şəxsiyyət bütövlük kəsb edən sistem olmaq etibarilə fəaldır, dinamikdir. O, cəmiyyətin, sosial mühitin dəyişməsindən, inkişafından asılı olaraq dəyişikliyə məruz qalır və inkişaf edir.

Beləliklə, şəxsiyyəti əhatə edin mövcud konkret mühitin ("mikromühitin") spesifikliyi, mənəvi həyatın sferalarında əldə olunan təcrübənin özünəməxsusluğu mövcud şəxsiyyətin xüsusiyyətlərində də öz təcəssümünü tapır. Mənəvi-sivil fəaliyyət prosesinin subyekti olmaq etibarilə hər bir şəxsiyyət o halda bütövlüyü ilə mənalanır ki, ona xas olan həyati təzahürlər təcrid olunmuş halda deyil, məhz qarşılıqlı əlaqədədir. Şəxsiyyətin "bütövlüyü", "totallığı" onun həyat təzahürlərinin vəhdəti, bütövlüyü kimi çıxış edir.

Şəxsiyyətin yüksək mənəviliyi, yaradıcılıq səyləri, ictimai həyatın bütün sferalarında fəallığı nəinki cəmiyyətlə bağlıdır və eləcə də cəmiyyətin özü üçün lazımdır. Bu mənada sivil, demokratik cəmiyyətlərdə vətəndaşların yaradıcılıq azadlığı təmin olunur. Heç də təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında bu məsələ qanunvericiliklə təsbit olunmuşdur. Konstitusiyanın 51-ci maddəsində deyilir: "Dövlət ədəbi – bədii, elmi – texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir" (2).

İndiki "informasiya sənayesi" dövründə şəxsiyyətin mənəvi – sivill fəaliyyətində və bu istiqamətdə fəal yaradıcılığında yeni aspektlər təzahür edir. Həmin aspektlərdən biri şəxsiyyətin fəaliyyətinə elmi-texniki elitanın, cəmiyyətin zehni əmək adamları elitasının özünəməxsus təsiridir. Əlbəttə, bu təsir siyasi elitanın insanların fəaliyyətinə göstərdiyi təsir imkanları səviyyəsində nəzərə çarpmasa da özlüyündə müəyyən əhəmiyyətə malikdir. Müasir informasiya cəmiyyətində şəxsiyyətin məruz qaldığı təsir aspektlərindən digəri əxlaqi dəyərlər və normativlər aspektidir. Lakin belə səciyyəli təsir birmənalı, ziddiyyətsiz təzahür etmir. Belə ki, kommunikasiya informasiyasının geniş və açıq axını onun zəngin imkanlarından yaradıcı istifadə olunması üçün əlverişli şərait yaradır, digər tərəfdən isə adamların şüurunun manipulyasiyasına, eləcə də adət və ənənələrin səbatsızlığına, ənənəvi dini əxlaqin və digər mədəni – mənəvi dəyərlərin dağıdılmasına istiqamətlənir (7, 197).

İndiki şəraitdə hər bir insan şəxsiyyətinin daim öz bilik və təcrübəsini zənginləşdirməsi, cəmiyyət üçün vacib olan peşə və fəaliyyət növlərinə yiyələnməsi, yaradıcı sosial fəallığa istiqamətlənən qabiliyyətini inkişaf etdirməsi zəruridir. Son nəticədə cəmiyyətin tələb etdiyi, ona lazım olan şəxsiyyət səviyyəsinə yüksəlməyə cəhd edilməlidir. Çünki şəxsiyyətin sosial ləyaqətli varlıq kimi formalaşması yalnız və sadəcə olaraq onun özü üçün deyil, eləcə də cəmiyyətə lazımdır. Axı, şəxsiyyət və cəmiyyət bir-birindən təcrid olunmuş halda mövcud olan yox, bir-birini qarşılıqlı surətdə şərtləndirən fenomenlərdir. Hər bir ayrıca insan münasibətlərin və şüurlu fəaliyyətin subyekti olmaqla bu prosesdə sosial reallığı yaradır, təkrar istehsal edir və dəyişir (119, 161).

Şəxsiyyəti mənəvi-sivil fəaliyyətin subyekti kimi təhlil edərkən mühüm bir problemin diqqətdən yayınması tədqiqatçılıq fəaliyyəti baxımdan qəbahət olardı. Unutmaq olmaz ki, fəaliyyətin və ictimai münasibətlərin subyekti kimi səciyyələnməklə şəxsiyyət öz tələbatının təmin olunması və mənafeyinin reallaşması zərürətindən çıxış edir. Şəxsiyyətin tələbatının ödənilməsi və mənafeyinin reallaşması onun sosial fəallığının ən mühüm sövqedici qüvvəsidir. Beləliklə, şəxsiyyətin tələbatı onun bu və ya digər fəaliyyətinin zəruriliyini ifadə edir və həmin fəa-

liyyətə (istehlakçı, yaradıcı və s.) daxili təhrikedici hisslər oyadır. Eləcə də onun mənafeyi mövcud şəraitdə tələbatının ödənilməsinin optimal yollarını və üsullarını ifadə edir. Bu optimallıq əksini belə bir cəhətdə tapır ki, şəxsiyyət nəinki öz tələbatını təmin edir, eyni zamanda cəmiyyətdəki mövqeyini möhkəmləndirir. Müxtəlif şəraitdə fəaliyyət göstərməklə şəxsiyyət başa düşməlidir ki, onun mənafeyinə obyektiv olaraq nə uyğun gəlir və ya ona zidd olan nədir. Bunu dərk etmək həmişə asan olur və ya şəraitin özü həddən artıq mürəkkəb nəzərə çarpır. Bunlar isə mövcud ictimai münasibətlərdən təşəkkül tapır ki, o da mənaye kimi səciyyələnir. Belə ki, iqtisadiyyatın dövlət bölməsində təşəkkül tapan iqtisadi münasibətlər dövlətin və dövlət müəssisələri işçilərinin mənafelərinin qarşılıqlı təsiri baxımdan təzahür edir. Lakin iqtisadiyyatın xüsusi bölməsində yaranan iqtisadi münasibətlər isə müəssisə sahibinin və onun işçilərinin mənafelərinin qarşılıqlı təsiri nöqteyi-nəzərdən üzə çıxır. Öz mənafeyinin və digər subyektlərin mənafeyinin dərk olunması mövcud ictimai münasibətlərin (iqtisadi, siyasi, hüquqi və s.) obyektiv məzmununu dərindən dərindən başa düşmək yolu ilə mümkündür. Şəxsiyyət yalnız belə halda fəaliyyətinin yaxın və uzaq nəticələrini az-çox dəqiq təsəvvür edə bilər, eləcə də məhz bu zəmində onları özünün yaxın və gələcək mənafeyinə müvafiq olaraq dərk etməyə səy göstərər.

Şəxsiyyətin öz mövcud obyektiv mənafelərini dərk etməsi problemi, başqa sözlə özü üçün faydalı olanı dərindən anlaması bu və ya digər cəmiyyətdə onun həyatının ən əhəmiyyətli məqamlarındandır. Əgər o, bu məqamı düzgün dərk edirsə, belə halda şüurunda müvafiq subyektiv (forma etibarilə) maraq təzahür edir və bu subyektiv



marağın məzmunu isə şəxsiyyətin obyektiv mənafeyinin məzmununa uyğun gələcək. Əksinə, o, öz obyektiv mənafeyini dərk etmirsə və ya düzgün anlamırsa bu halda şəxsiyyətin şüurunda yalançı (illüziyalı) maraq təşəkkül tapır. Bu isə onun əsl mövcud obyektiv mənafeyinə, özünə ziyan verə bilər. Bəzən elə hallara təsadüf olunur ki, xeyli insan kütləsinin həqiqi mənafeyi barədə yalançı təsəvvürlər onlara təbliğat vasitəsilə, müxtəlif siyasətbazların aldadıcı bəyanatları ilə çatdırılır. Axırıncılar çox vaxt öz təmənnalı mənafeyini ümumi mənafeyə qarşı qoyurlar. Lakin son nəticədə şəxsiyyətin öz həqiqi mənafeyini və digər subyektlərin mənafelərini özünəuyğun başa düşməsi onun cəmiyyətdə baş verən prosesləri anlamasına və adamların mənafeyinə təmənnalı mövqedən yanaşılmasına dair təsəvvürlərin heçə enməsinə gətirib çıxarır.

Cəmiyyətin inkişafı eyni zamanda insan şəxsiyyətinin təşəkkülü və formalaşması prosesidir. İnsan universal əlaqələr və münasibətlər sisteminə cəlb olunmaqla bütöv fərd kimi formalaşmaq və inkişaf etmək imkanı əldə edir. Təbii ki, cəmiyyətin özü də şəxsiyyətin hərtərəfli inkişafına, qabiliyyətinin azad təzahürünə və məqsədüönlü, faydalı fəaliyyətinə maraqlıdır. Hər bir fərd mənəvi cəhətdən nə qədər zəngin, çoxcəhətlidirsə onun sosial-iqtisadi, siyasi-hüquqi və mənəvi-əxlaqi fəaliyyət prosesi də bir o qədər zəngin və rəngarəng təzahür edir. Şəxsiyyətin inkişafının və fəaliyyətinin bu qanunauyğunluğu sözün əsl mənasında onu, mənəvi-sivil fəaliyyət prosesinin fəal subyektinə çevirir. Şəxsiyyətin bu cür subyekt kimi çıxış etməsi bir çox amillərlə, indiki şəraitdə xüsusilə onun demokratik düşüncə tərzi ilə şərtlənir.

Təfəkkürün demokratikliyi azad fikirliliyi, insanın öz

qeyri standart ideyalarının vahiməsindən xilas olmasını, nüfuzlu adamlara kor-koranə sitayiş etməməyi ifadə edir. Bu, cəmiyyətdə özünə yer alan sosial məhdudiyyətdən uzaqlaşmaqla əsl azad idraki fəaliyyətdir. Sosial idrakın spesifik tərəfi olmaq etibarilə demokratik düşüncə tərzi azad, yaradıcı, fəal mənəvi-sivil fəaliyyət prosesinin qərarlaşmasına istiqamətlənir. Demokratik sosial təfəkkür üçün həqiqi, işgüzar qaydalar, ictimai-milli tələbat və mənafeyə istiqamətlənmək, bunları şəxsi və qrup mənafeyi ilə əlaqələndirmək, fəaliyyət prosesində bir-birinə məsuliyyətli, tənqidi münasibət, fəallıq və ya praktikada yeni ideyaların və görüşlərin həyata keçirilməsi səciyyəvidir. Əlbəttə, bunlar cəmiyyətdə əsl demokratiyanın qərarlaşdığı şəraitdə mümkündür. Bu mənada demokratiyanın mövcud olmasının ən mühüm şərtləri aşağıdakılardır: 1. güzəştə gedə bilmək (kompromis); 2. dözümlülük; 3. şəxsiyyətə hörmət; 4. münaqişələrin sülh yolu ilə həll olunması (6, 44).

Öz ictimai həyat fəaliyyətində şəxsiyyət ona xas olan keyfiyyətlərin daşıyıcısı kimi çıxış edir. Bu keyfiyyətlər onun müəyyən və ya kiçik sosial qruplarla "qohumluğunu" səciyyələndirir. Məsələn, hər bir sosial mahiyyətli fərd bu və ya digər sinfin (sahibkarların, fəhlələrin, kəndlilərin) yaxud ziyalıların müəyyən təbəqəsinin eləcə də gənclərin nümayəndəsidir, ailənin üzvü, bu və ya digər millətin təmsilçisi kimi çıxış edir. Bütün bu sosial keyfiyyətlər şəxsiyyətin cəmiyyətdəki mövqeyini, onun sosial statusunu səciyyələndirir. Eyni zamanda şəxsiyyətlərin ayrıca qrupları öz aralarında müxtəlif baxımdan – fəaliyyətin növünə (peşə etibarilə və ya ictimai adlanan fəaliyyətə görə); dünyagörüşü nöqteyi-nəzərdən (bəziləri elmi dünyagörüşü, digərləri dini dünyagörüşü ilə fərqlənir); sərvət yönümünə (fəaliyyət istiqamətinə) görə fərqlənirlər. Yuxarıda sadaladığımız və digər sosial keyfiyyətləri özündə birləşdirərək və onların daşıyıcısı kimi çıxış edərək bu və ya digər şəxsiyyət özünün digər sosial tiplərindən fərqlənən hansısa şəxsiyyət tipi kimi səciyyələnir. Şəxsiyyətin hər bir sosial tipi özündə spesifik sosial keyfiyyətlər toplusunu təcəssüm etdirir. Şəxsiyyətin müxtəlif sosial tiplərinin fəaliyyəti çox vaxt həm məzmununa görə və eləcə də digər insanlar və cəmiyyət üçün əhəmiyyəti baxımdan fərqlənir.

Şəxsiyyəti mənəvi fəaliyyətin subyekti kimi əhatəli və dərindən mənalandırmaq məqsədilə onun sosial tipləri probleminin təhlili də xüsusi əhəmiyyət daşıyır. Çünki həmin problemin düzgün və rasional həlli əvvələ, şəxsiyyətin davranışının və təbii ki, fəaliyyətinin elmi cəhətdən əsaslandırılmış sisteminin işlənib hazırlanmasına imkan yaradır. İkincisi, onun hərəkətlərinə düzgün reaksiya verməyi təmin edir. Üçüncüsü, cəmiyyət üçün faydalı olanın formalaşmasına və sosial cəhətdən zərərli şəxsiyyət tipinin təzahürünün məhdudlaşmasına məqsədyönlü təsir göstərməyə istiqamətlənir. Nəhayət, şəxsiyyətin öz şüurunda qabiliyyətini təkmilləşdirmək cəhdini formalaşdırmaqla onun özünütərbiyyəsi prosesinə təsir göstərməyə əlverişli şərait yaradır.

"Şəxsiyyətin mənəvi fəaliyyəti" geniş, çoxcəhətli anlayışdır. Həmin anlayışın mühüm tərəflərindən biri siyasi fəaliyyətdir. Şəxsiyyətin siyasi fəaliyyəti onun mənəvi fəaliyyətinin komponenti kimi çıxış edir. Bu baxımdan "şəxsiyyət siyasətin subyektidir" anlayışı "şəxsiyyət mənəvi fəaliyyət prosesinin subyektidir" anlayışının tərkib hissəsi

kimi mənalanır.

Şəxsiyyətin cəmiyyətin siyasi həyatında fəal iştirakı, başqa sözlə, mənəvi-siyasi fəaliyyətin yaradıcı subyekti səviyyəsində mənalanması çoxplanlı əhəmiyyət kəsb edir.

Birincisi, belə fəaliyyət insanın bütün potensial imkanlarının daha tam açılması və onun özünü yaradıcı ifadəsi üçün şərait yaradır. Bu isə öz növbəsində ictimai vəzifələrin daha təsirli həlli baxımdan zəruri əsas kimi dəyərlənir. Cəmiyyətin bütün sferalarının keyfiyyətcə yenidən təşkili insan amilinin hər vasitə ilə intensivləşdirilməsini, geniş xalq kütlələrinin bu prosesdə fəal və şüurlu iştirakını nəzərdə tutur.

İkincisi, insanın siyasətin subyekti kimi ümumi inkişafı siyasi təsisatlarla vətəndaş cəmiyyətinin sıx əlaqələndirilməsinin qəti şərtidir, xalqın siyasi-idarəetmə strukturlarının fəalliyətinə nəzarətinin vacib amillərindəndir. Şəxsiyyətin siyasi fəallıq dərəcəsinin yüksək ifadəsi onun siyasi praktikaya cəlb olunması vəziyyətinə xidmət edə bilər.

Üçüncüsü, cəmiyyət demokratiyanın inkişafı vasitəsilə öz üzvlərinin idarəetmə işlərində iştirakı tələbatını təmin edir. Geniş siyasi fəaliyyətin məqsədlərinin reallışması xeyli dərəcədə şəxsiyyətin öz fəaliyyətində rəhbər tutduğu motivlərdən asılıdır. Çünki motivləşmənin özü ictimai mənafe baxımından o dərəcədə neqativ ola bilər ki, cəmiyyətdə demokratiyanın möhkəmlənməsinə, şəxsiyyətin əxlaqi cəhətdən təkmilləşməsinə və hərtərəfli inkişafına imkan yaratmaya bilər. Bunlar isə bütövlükdə şəxsiyyətin mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi dəyərlənməsini məhdudlaşdırar. Unutmaq olmaz ki, şəxsiyyətin bütövlükdə mənəvi-sivil fəaliyyət prosesinin, ayrılıqda isə siyasi fəaliyyətin subyekti kimi mənalanmasına sosial



mühit və onun demokratik təbiəti, mədəniyyət əhəmiyyətli təsir göstərir. Şəxsiyyətin mənəvi-sivil fəaliyyət prosesinin subyekti kimi təşəkkülü və inkişafı insanın sosial cəhətdən tədricən təkmilləşməsi, onun siyasi sosiallaşma prosesində baş verir. Siyasi sosiallaşma hər şeydən əvvəl, şəxsiyyətin siyasət aləminə nüfuz etməsi, qovuşmasıdır, başqa sözlə, siyasi təsəvvürlərin oriyentasiyanın və məqsədlərin formalaşmasıdır, siyasi iştirakçılıq vərdişlərinə yiyələnməkdir.

Şəxsiyyətin sosiallaşmasına, o cümlədən siyasi sosiallaşmasına ictimai inkişafın dönüş dövrləri güclü təsir göstərir. Yeri gəlmişkən qeyd edək ki, ölkəmiz hazırda məhz həmin dövrü, başqa sözlə, keçid dövrünü yaşayır. Cəmiyyətimizin yaşadığı təlatümlü keçid dövründə siyasi sosiallaşma iki başlıca yolla həyata keçirilir. Birinci istiqamət onunla səciyyələnir ki, əvvəlki nəsillərin siyasi təcrübəsi, siyasi mədəniyyət normalarında təcəssüm olunan təcrübə gənc nəslə verilir. Bu ailə tərbiyəsi prosesində, məktəb təlimində, kütləvi informasiya vasitələrilə və digər kanallar vasitəsilə baş verir. Şəxsiyyətin siyasi sosiallaşmasının ikinci istiqaməti isə onun yeni, əvvəllər mövcud olmayan siyasi biliklərə yiyələnməsi, qabaqki zamanda məlum olmayan siyasi təcrübəni əldə etməsi yolu ilə həyata keçirilir.

Cəmiyyətimizin müasir inkişaf mərhələsində siyasi iştirakçılıq formalarının əhəmiyyətli dərəcədə genişlənməsi prosesi baş verir ki, bu da ictimai həyatın demokratikləşməsinin etibarlı əlamətidir. Mənəvi-sivil fəaliyyət prosesinin fəal, şüurlu subyekti kimi çıxış etmək məhz mənəvi inkişafın, əxlaqi təkmilləşmənin nəticəsidir. Şəxsiyyətin mənəvi zənginliyi dedikdə onun təhsil və şəxsi təhsil sis-

teminə cəlb olunması dərəcəsi, elmi informasiya mənbələri ilə bilavasitə və hərtərəfli təmasda olması və bunların sayəsində onun şüurunda, təhsil səviyyəsində, intellektual, əxlaqi, estetik simasında baş verən dərin keyfiyyət yenilikləri başa düşülür.

Mənəvi-mədəni fəaliyyət sferasının subyekti səviyyəsində səciyyələnən şəxsiyyətin kamilliyinin sosial-idraki mənası bundan ibarətdir ki, o, mükəmməl inkişaf etmiş, yetkin tələbata malik, zehni cəhətdən daim inkişaf etmək zərurətini aydın dərk edən cəmiyyət üzvü kimi formalaşsın və əldə etdiyi bilikləri, yaradıcılıq qabiliyyətini özünü və cəmiyyəti təkmilləşdirməyə doğru yönəltsin.

"Mənəvi fəaliyyət" anlayışının ən mühüm tərəflərindən biri idraki fəaliyyətdir. Məhz bu mənada şəxsiyyət həm də idraki fəaliyyət prosesinin fəal subyekti kimi çıxış edir. İdraki fəaliyyətin rasional, cəmiyyət üçün faydalı məzmunu ən əvvəl, elmi şüura dərindən və əhatəli yiyələnməklə şərtlənir. Bu baxımdan ictimai inkişaf prosesində hər bir insan şəxsiyyətinin elmi biliklərə tələbatının durmadan artması nəinki cəmiyyətin eləcə də şəxsiyyətin özünün inkişafının qanunauyğunluğudur. İndiki şəraitdə elmi biliklər sistemində humanitar biliklərin rolu və əhəmiyyəti həmişəkindən daha artıq dərəcədə yüksəlir. XXI əsrin humanitar biliklər əsrinə çevriləcəyi ictimai inkişafın məntiqi ilə səciyyələnir. Görkəmli fransız sosioloqu Klod – Levi Strosun obrazlı qeyd etdiyi kimi, "XXI əsr humanitar biliklər əsri olmasa, əsr kimi mövcud olmayacaq" (12, 3).

Mövcud ictimai reallığın dərin və çevik elmi təfəkkürlə dərk olunub qiymətləndirilməsi sosial həyatın fundamental əsasını təşkil edir. Biliklərdə, düşüncə tərzində təzahür edən kəskin çatışmazlıq Norman Kaplanın qeyd etdiyi kimi, praktikada xoşagəlməz, hətta yaramaz hallara, sosial inkişafa mane olan amillərin üzə çıxmasına gətirib çıxarır. Mənəvi həyatın yarımsistemi və xüsusi sosial təsisat olmaq etibarilə elm ictimai tərəqqini sürətləndirən və təmin edən qüdrətli amillərdəndir. Bu baxımdan elmi nəzəriyyə təfəkkür aləti olmaqla reallığın universal miqyasını öyrənmək üçün müəyyən məntiqi qaydaların təşkili məqsədilə istifadə olunur. Bilik insanın konkret fəaliyyətində təşəkkül tapır, subyekt və obyektin qarşılıqlı fəaliyyətinin nəticəsidir. Həmin qarşılıqlı fəaliyyətin başlıca prinsipi təfəkkürlə varlığın vəhdəti prinsipidir. Bu vəziyyət subyektin fəaliyyətinin obyektə uyğunluğunda ifadə olunmaqla biliyin predmeti (obyekti) əks etdirməsi sayəsində mümkündür.

Lakin biliyin təşəkkülünün vasitəsi hissiyatın formaları və təfəkkürdür. Təfəkkür predmetdən, mövcud olanın duyulmasından çıxış edərək kateqoriyalar vasitəsilə özünə uyğun gələn biliklər istehsal edir. N.K.Baxtominin qeyd etdiyi kimi, biliyin tarixi cəmiyyətin inkişafında dövr tarixidir.

Predmetli (konkret) fəaliyyətin biliklərin təşəkkülünün əsası kimi başa düşülməsi bu prosesin əsl xarakterinin açıqlanmasına imkan yaratmışdır. Konkret fəaliyyətin anlarından biri təcrübədir. Bilik təcrübədə yaranır, özü də hissiyyat formaları və təfəkkür sayəsində. Hegelin sərrast qeyd etdiyi kimi, "hər cür elm praktiki məntiqdir, praktiki məntiqdən kənarda elm yoxdur".

Gerçəkliyə idraki və sərvət yönümü baxımdan yanaşmaq obyektiv reallığın əks etdirilməsində dialektik vəhdət təşkil edir. Onlar subyekt və obyektin praktiki

qarşılıqlı fəaliyyətinin məqamı olmaq etibarilə bir-birilə qırılmaz surətdə bağlıdır və bir-birinə nüfuz edirlər. Belə ki, idrakın öz nəticələri nəinki sırf qnoseoloji xarakteristika (həqiqət, yalan, mühüm, qeyri-mühüm, ehtimal, dürüst və s.) nöqteyi-nəzərdən qiymətləndirilməlidir, eləcə də sözün həqiq mənasında sərvət yönümü baxımdan dəyərləndirilməlidir. Başqa sözlə, mövcud biliklər cəmiyyətdə nə kimi fayda və praktiki səmərə verə bilər, şəxsiyyətin hansı maddi və ya mənəvi tələbatını təmin edir.

Elmi idrak obyekti və onun gerçəklikdə mövcud olan xassəsini (xüsusiyyətlərini) aydınlaşdırmağa çalışır. P.V.Kopninin qeyd etdiyi kimi, elmi idrak predmetin obyektiv təbiətini, onun insandan və bəşəriyyətdən kənarda necə mövcudluğunu dərk etməyə səy göstərir. "Obyektin necə mövcudluğunu dərk etməklə biz heç də obyekti dərindən öyrənmirik, onu insanın məqsədlərinə xidmət etməyə məcbur etmirik" (85, 78). Lakin subyektin obyekti anlaması, məsələn, şəxsiyyətin mənəvi fəaliyyəti nəzərə cəhətdən dərk etməsi onun praktiki nailiyyətinin zəruri tərəfidir, məqamıdır. Buna görə praktika insan idrakına xidmət edir və onun əsasıdır.

Elmi idrakın mahiyyətini yalnız onun cəmiyyətdəki yerini və fəaliyyətini, insan təbiətinin dəyişdirilməsi - yeniləşdirilməsi prosesindəki rolunu müəyyənləşdirməklə başa düşmək olar. Obyekt olmaq etibarilə mənəvi həyatın hər hansı sferasını praktiki baxımdan dərindən öyrənmək məsələsi o halda aktuallıq kəsb edir ki, məhz insanın mənlik şüuru və sərvət yönümü fəaliyyəti ilə sıx əlaqələndirilsin. Burada söhbət hər şeydən əvvəl, ondan gedir ki. subyektin məqsədləri və sərvət yönümü onun mənafeyi və tələbatı ilə müəyyən olunur (118, 167). Beləliklə, mənəvi



həyata, şəxsiyyətin mədəni-mənəvi fəaliyyət prosesinə elmi idrak və sərvət yönümü aspektində yanaşmaq nəinki bir-birini inkar etmir, əksinə bunu üzvi surətdə şərtləndirir və tamamlayır. Obyektiv xarakteristika ilə subyektiv tələbatların bilavasitə əlaqələndirilməsi prosesində predmet sərvətləri müvafiq sərvət statusu əldə edirlər. Sərvət statusunun əldə olunması hər şeydən əvvəl, insanın tələbatının ödənilməsi imkanları və onun fəaliyyəti nöqteyinəzərdən reallaşır. Belə halda adamların sosial təcrübəsi bu məqamı yalnız imkan nöqteyi-nəzərindən deyil, məhz zərurət baxımdan əks etdirə bilər. Söhbət ondan gedir ki, adamların sosial fəaliyyətinə tənzimləyici təsir göstərən müxtəlif cür sabit, stereotipləşdirilmiş sərvətli qiymətləndirmə bu fəaliyyətin müxtəlif prinsiplərində, ideallarında və normalarında müəyyənləşdirilir. İctimai şüurun həmin hadisələri necə deyərlər subyektiv sərvətlərin xüsusi tipini təşkil edir. Subyektiv sərvətlər insanların həyatfəaliyyətində əhəmiyyətli rol oynayır, onların fəaliyyətini müəyyən məqsədlərin və ideallarm əldə olunmasına istiqamətləndirir.

Elmi idrakın inkişaf prosesi həmişə "elmin özünü dərk etməsinin" spesifikliyi ilə müşayiət olunur və müxtəlif formalarda həyata keçirilə bilər. Elmşünaslıq məhz, elmin özünü dərk etməsinin belə kompleks sferasına və vasitəsinə çevrilmişdir. Hazırda elmin kütləvi peşə kimi səciyyələnməsi, bu sferada şəxsiyyətin yaradıcılıq fəaliyyətinin güclənməsi tələbi heç də təsadüfi deyildir.

Şəxsiyyətin mənəvi-sivil fəaliyyət prosesinin əsl subyekti kimi mənalanması xeyli dərəcədə onun mənəvi məzmununun səviyyəsi və yetkinliyi ilə şərtlənir. Hər bir insan şəxsiyyəti ilk növbədə özünün mənəvi aləmi ilə səciyyə-

lənir. O, mənəvi aləminin zənginliyi yaxud məhdudluğu, başqaları ilə geniş ünsiyyəti və ya qapalı xarakteri, xeyli insanların mənəvi cəhətdən formalaşmasına və davranışına fəal təsiri yaxud laqeyd münasibəti və sair keyfiyyətləri ilə öz mənəvi dünyasının məzmununu təzahür etdirir. Şəxsiyyətin mənəviliyi, yüksək mənəviyyatı, inamı, davranışı və sərvət yönümü onu bütövlük kəsb edən varlıq kimi səciyyələndirir. İnsanın mükəmməl, nümunəvi mənəvi xarakteristikası onu ictimai inkişafın fəal, yaradıcı subyekti səviyyəsinə yüksəldir. Şəxsiyyətin mənəvi məzmunu xarici sosial və təbii mühitin, onun həyat fəaliyyətinin bütün obyektiv və subyektiv amillərinin müəyyənedici təsiri altında formalaşır. Həmin amillər bu və ya digər dərəcədə şəxsiyyətin fəaliyyətinə, davranışına və cəmiyyətdə baş verən sosial proseslərə təsir göstərir. Rus tədqiqatçısı V.N.Lavrinenko emosiyanı, intellekti və iradə təzahürünü şəxsiyyətin mənəvi məzmununun başlıca ünsürləri kimi mənalandırır və bunların müvafiq olaraq onun psixikasının emosional, intellektual və iradə sferasını təşkil etdiyini iddia edir. Emosiya, intellekt və iradə gücü insanın davranışında özünəməxsus rol oynayır, onun idrakı, bədii, mədəni-tərbiyə və digər fəaliyyətinə faydalı təsir göstərir.

Şəxsiyyətin psixi, ən əvvəl isə intellektual fəaliyyəti sayəsində onun mənəvi məzmunu cəmiyyət və təbiətə dair müxtəlif biliklərlə, iradənin rəngarəng təzahürləri ilə zənginləşir. Bununla yanaşı şəxsiyyətin mənəvi aləmində müxtəlif miflər və xürafat da təşəkkül tapır.

Şəxsiyyətin mənəvi məzmununda eləcə də ümumiləşmiş formada dünyagörüşü və sərvət yönümü təzahür edir. Hər bir sosial subyektin, həmçinin ayrıca şəxsiyyətin dünyagörüşünü ümumiyyətlə, struktur bütövlüyünün daxili tərkib hissələrə ayrılması kimi səciyyələndirmək olar. Daxili tərkib hissələrə ayrılan bu bütövlükdə üç başlıca tərəf – idraki, sərvət yönümü və motivləşdirici – sövqedici tərəflər qarşılıqlı fəaliyyətdədir.



Dünyagörüşün idraki tərəfi dünya haqqında biliklər sistemidir, mifoloji təsəvvürlər və dini görüşlərdir. Bütün bunlar ayrıca bir şəxsiyyətin şüurunda bu və ya digər dərəcədə əlaqələndirilə bilər. Hər şey şəxsiyyətin özünün inkişafından və müvafiq elmin məzmununa nə dərəcədə yiyələnməsindən asılıdır. Dünyagörüşün idraki tərəfi adamların yaradıcılığının ictimai-tarixi prosesi olmaqla onların biliklərini (adi və elmi) formalaşdırır. Bu biliklər əsasında insanların fəaliyyətinin məqsədi və motivləri təşükkül tapır.

Şəxsiyyətin həm adi və eləcə də elmi şüurunda müvafiq anlayışlar, mülahizələr, mühakimələr qərarlaşır. Bunlar bu və ya digər emosional konteksdə təzahür edir. Axı, şəxsiyyət özünün yaratdığı kompüter deyil, canlı insandır. O, bir şey haqqında fikirləşərkən bu və ya digər dərəcədə müəyyən emosiyalar keçirir, xüsusilə fikirləşdiyi məsələyə emosional münasibətini ifadə edir. Buna görə dünyagörüşündə hər şeydən əvvəl, dünyanı anlamaq tərzinə xas olan müvafiq dünyaya münasibət və dünyanı dərk etmək məqamı vardır. Onun filosof tərəfindən nəzərə alınması çox əhəmiyyətlidir. Bu xüsusilə dünyagörüşün şəxsiyyətə və onun praktiki fəaliyyətinə təsirini öyrənən tədqiqatçı üçün daha vacibdir. Çünkü tədqiqatçı filosof ilk növbədə şəxsiyyətin praktiki fəaliyyətdə mövcud sosial gerçəkliyə, bu və ya digər sosial proseslərə (iqtisadi, siyasi, mənəvi və s.) münasibətini əhatəli araşdırılmalıdır. Elmi biliklər sistemi kimi səciyyələnən elmi dünyagörüşü şəxsiyyətin dün-

yaya münasibətinə və dünyanı dərk etməsinə təsir göstərir, onun şüurunda dünya haqqında elmi təsəvvürlərin qərarlaşmasına imkan yaradır.

Prinsiplər, görüşlər, dəyərlər, ideallar və inamlar sistemi olmaq etibarilə dünyagörüşü ayrıca şəxsiyyətin fəaliyyətinin və dünyaya münasibətinin istiqamətini müəyyən edir. Çünki dünyagörüşü ictimai şüurun bütün formalarına mənsub olan ünsürlərdən təşəkkül tapır. O, yalnız dünya haqqında, ona münasibət barədə biliklər sistemi kimi səciyyələnmir, həm də əməli dəyişdirici və yaradıcı fəaliyyəti özündə ehtiva edir. Bir sözlə, elmi-idraki dünyagörüşü nəzəri və praktiki fəaliyyətin dialektik vəhdətindən ibarət mürəkkəb, ziddiyyəti və çoxcəhətli prosesdir. Bir tərəfdən şəxsiyyətin mənəvi məzmunu, digər iərəfdən isə onun mənəvi fəaliyyətin subyekti kimi mənalanması xeyli dərəcədə məhz bu prosesdə təzahür edir.

Şəxsiyyətin mənəvi-mədəni məzmunu həm də dünyagörüşün sərvət yönümü tərəfində nəzərə çarpır. O bu və ya digər hadisəni birbaşa yaxud dolayı yolla əhəmiyyəti nöqteyi-nəzərdən başa düşür. Mövcud şərait şəxsiyyət tərəfindən az-çox dərk oluna bilər, yaxud da dərk edilə bilməz. Bu, ictimai həyatın müxtəlif predmet və hadisələrinin obyektiv dəyərləri haqqında təsəvvürlərlə şərtlənir. Dəyərlər (sərvətlər) subyektə (insana) münasibətdə onun mənafeyinin obyektinə xidmət edir, şüuru üçün isə predmetli və sosial gerçəklikdə gündəlik oriyentir rolunu yerinə yetirir. Beləliklə, bu və ya digər şəxsiyyətdə müəyyən sərvətlər sisteminə əsaslanan seçim münasibəti formalaşır. Başqa sözlə, onun dünyagörüşünün üzvi tərkib hissəsi olan sərvət yönümü iəşəkkül tapır. Belə halda söhbət şəxsiyyətin müəyyən mənəvi sərvətlərə – əxlaqi, estetik, dini,



siyasi, hüquqi və digər dəyərlərə istiqamətlənməsindən gedir. O, bu sərvət yönümü əsasında düşünür, fəaliyyət göstərir və özünü müəyyən tərzdə aparır. Qeyd edək ki, hazırki şəraitdə adamların müəyyən qisminin sərvət yönümü onların mənəvi həyatının zənginləşməsinə, digərlərininki yalnız maddi sərvətlərə, maddi mülahizələrə istiqamətlənir. Bugünkü Azərbaycan cəmiyyətində hər iki meyl və təəssüf ki, axırıncı daha çox təzahür edir.

Şəxsiyyətin mənəvi məzmununun əhəmiyyətli tərəflərindən digəri onun dünyagörüşünün motivləşdirici – sövqedici tərəfidir. Motiv şəxsiyyətin tələbatının ödəNilməsi məqsədilə onun fəaliyyətini şəriləndirən dərk olunmuş məqsəddir. O iradi fəaliyyətin müəyyən əsaslandırılması və ona haqq qazandırılmasıdır, insanın cəmiyyətin tələbatına münasibətini göstərir. Motiv fəaliyyət və hərəkətlərin qiymətləndirilməsində mühüm rol oynayır. İnsanın fəaliyyətinin subyektiv mənalanması isə məhz həmin hərəkətlərdən və davranışdan asılıdır. Dünyagörüşün motivləşdirici-sövqedici tərəfi insanların şüurunda tələbatın, mənafeyin, məqsədin, ideallarin formalaşdırılması baxımdan çıxış edir və onların fəaliyyətinin motivini, daxili niyyətini və iradi təzahürlərini birbaşa və ya dolayısı ilə müəyyənləşdirir.

Beləliklə, şəxsiyyətdə müəyyən dünyagörüşün formalaşdırılması mahiyyət etibarilə onun mənəvi aləminin əhəmiyyətli dərəcədə zənginləşdirilməsidir. Ayrıca insan şəxsiyyətində dünya, cəmiyyət və insan haqqında, sərvət yönümü sistemləri barədə (məsələn, humanizm, vətənpərvərlik, sosial ədalət və s. kimi sərvətlərə istiqamətlənmək) müasir biliklərin, eləcə də sosial cəhətdən faydalı fəaliyyət motivinin və niyyətinin formalaşdırılması mahiyyətcə hər-

tərəfli mənəvi inkişafı ifadə edir. Bu ictimai həyatın ən mürəkkəb proseslərində məsələn, elə cəmiyyətimizin indiki keçid dövründə təzahür edən hadisələrdən müstəqil baş çıxarmağa, bunları düzgün dərk edib qiymətləndirməyə imkan yaradır. Eləcə də şəxsiyyətin öz işi üçün və yaşayıb fəaliyyət göstərdiyi vətən qarşısında məsuliyyəti artır.

Ölkəmizdə əsl demokratik cəmiyyətin qurulması keçid dövrünün siyasi, iqtisadi, sosial və digər problemlərinin məqsədyönlü, rasional həllini tələb edir. Bu tələbatın reallaşması isə ilk növbədə insanlarda yeni düşüncə tərzinin, yeni sosial təfəkkürün formalaşması ilə bağlıdır. Mühafizəkarlığı, ətaləti, stereotipliyi (şablonluğu), müstəqillikdən məhrum olmağı və digər bu kimi cəhətləri özündə cəmləşdirən ənənəvi sosial təfəkkür artıq öz təsir imkanlarını itirmişdir. Müstəqil, qeyri-standart, vaxtı keçmiş stereotiplərdən azad olan yaradıcı təfəkkür indi gerçəkliyi dərk etmək və dəyişdirmək vasitəsi kimi həyati zərurətə çevrilmişdir. Belə zərurətin formalaşdırılması cəmiyyətin mənəvi yeniləşməsinə istiqamətlənən bütün fəaliyyətin mərkəzi problemidir. Müvəffəqiyyətli yeni demokratik cəmiyyət quruculuğu yalnız siyasi və iqtisadi islahatların əhatə dairəsi və sürəti ilə məhdudlaşmır. Həmin proses eləcə də və xeyli dərəcədə yeni mənəvi sərvətlərin istehsalına, istehlakına və qorunub saxlanmasına istiqamətlənən yeni sosial, mənəvi-əxlaqi təfəkkür tərzi ilə şərtlənir. Məhz, belə halda şəxsiyyət keyfiyyətcə yeni tipli mənəvi-sivil fəaliyyət prosesinin əsl subyekti səviyyəsinə yüksələ bilər.

Mənəvi həyatın görkəmli tədqiqatçısı Rus filosofu A.K.Uledov yazır: "Təfəkkür ictimai praktika prosesində formalaşmaqla gerçəkliyin əks etdirilməsi, onun dərk olun-



masının dərəcəsi, səviyyəsi kimi səciyyələnir" (129, 79).

Əks etdirmə olmaq etibarilə təfəkkürün spesifikliyi bundan ibarətdir ki, o, gerçəkliyin ifadəsi və ümumiləşdirilmiş dərk olunmasıdır, insanın gerçəkliyi mənimsəməsi və dəyişdirməsinin köməyi ilə hadisələrin mahiyyətini, onların əlaqələrini və münasibətlərini açıqlayır. Deməli, təfəkkür fəaliyyətdə olan mənəvi həyat hadisəsidir və elə hadisə ki, şəxsiyyəti mənəvi fəaliyyət prosesinin subyekti kimi çıxış etməyə sövq edir.

Yeni sosial təfəkkürün formalaşması və inkişafının ən mühüm qanunauyğunluğu bundan ibarətdir ki, təfəkkür prosesi ilə onun nəticələri qarşılıqlı əlaqə kəsb edir. İdraki fəaliyyətin nəticələri (anlayışlar, mülahizələr, mühakimələr) təfəkkür prosesində iştirak edir və onun inkişafını daha da şərtləndirir. Bu mənada yeni sosial təfəkkürün formalaşması daim yeni biliklərə yiyələnməyi nəzərdə tutur. Təfəkkür öz inkişafında bütün nəsillər tərəfindən toplanmış biliklərin məcmuuna və onların işləyib hazırladığı idraki fəaliyyət vasitələrinə, formalarına, üsullarına əsaslanmışdır.

Müasir sosial təfəkkür ictimai-tarixi inkişafın nəticəsidir. O, ictimai praktikadan, insanlar arasındakı münasibətlər sistemindən törəməklə cəmiyyətdə qərarlaşır. İctimai praktikaya əsaslanan təfəkkür sosial təbiətə malikdir. İnsanın təfəkkürü beyinin köməyilə həyata keçirilir, lakin təfəkkürün məntiqi qanunları beyinin işi ilə müəyyən olunmur (129, 81). Onlar insanların öz praktiki fəaliyyətindəki əlaqələrin və münasibətlərin ümumiləşdirilmiş ifadəsidir. İnsanlar sosial praktikanın əks etdirilməsi kimi səciyyələnən dilə, anlayışlara, məntiqə yiyələnməklə təfəkkür subyektinə çevrilirlər.

Təfəkkürün ictimai praktika ilə əlaqəsi onun inkişafının qanunauyğunluğudur. Lakin həmin qanunauyğunluğun fəaliyyəti heç də o demək deyildir ki, bu və ya digər kontkret-tarixi şəraitdə təfəkkür praktikadan təcrid oluna bilməz. Əlbəttə, təfəkkürün praktika ilə əlaqəsi öz-özlüyündə onun mütərəqqiliyinə təminat vermir. Köhnəlmiş praktika təfəkkürə neqativ təsir göstərir.

Sosial təfəkkürün məzmunu və formaları cəmiyyətin konkret-tarixi inkişaf mərhələləri ilə müəyyən olunur. O, cəmiyyətin doğurduğu anlayışlar, ideyalar və prinsiplərdən istifadə edilməsinə istiqamətlənir. Sosial təfəkkür gerçəkliyin dəyişdirilməsi vəzifələrinə uyğun olaraq biliklərdən məqsədyönlü istifadə olunması prosesidir.

Yeni sosial təfəkkürün formalaşması müxtəlif xarakterli obyektiv və subyektiv şəraitdə baş verir. Başqa sözlə, həmin proses pozitiv və ya neqativ amillərin təsirinə məruz qalır. Bu mənada ictimai yenidənqurma əlverişli şəraitdirsə, köhnə qaydada işləmək, vaxtını keçirmiş həyat tərzinin təkrar istehsalı qeyri-mütərəqqi haldır. Praktik fəaliyyətin həyata keçirilməsinin obyektiv və subyektiv şəraiti yeni, mənəvi dəyərlərə söykənən təfəkkürün formalaşması üçün zəmindir.

Cəmiyyətimizin indiki keçid mərhələsi yetkin, mütərəqqi təfəkkür tərzinin təşəkkülü və inkişafı baxımdan əlverişli imkanlar yaradır. İctimai həyatın demokratikləşməsi, aşkarlıq, neqativ hallara qarşı mübarizənin gücləndirilməsi, ölkədə sağlam ictimai mühitin qərarlaşması, vətəndaşların sosial fəallığının yüksəlməsi və digər müsbət dəyişikliklər yeni təfəkkürün formalaşması amilləri kimi çıxış edir. Bir sözlə, cəmiyyətin mənəvi yeniləşməsi yolları şəxsiyyətin şüuruna və fəaliyyətinin sərvət yönümünə əhəmiyyəili təsir göstərir.

Belə bir cəhəti qeyd edək ki, vaxtilə sovet fəlsəfə ədəbiyyatında "təfəkkür" anlayışı tez-tez "şüur" anlayışının sinonimii kimi işlədilirdi. Belə mövqe bugün də nəzərə çarpır. Əlbəttə, təfəkkürü şüurun sinonimii kimi mənalandırmaq qanunauğyundur. Lakin "şüur" anlayışının "təfəkkür" anlayışından fərqləndirilməsi vacibdir. Yeri gəlmişkən bildirək ki, elə məşhur sovet psixoloqu A.N.Leontev şüurun intellektualistcəsinə izahına qarşı çıxaraq məsələni bu cür qoyurdu: "Məgər əslində şüur və təfəkkür eyni şeylərdirmi?" o, həmin sualı cavablandıraraq bildirirdi ki, əks etdirmə, dərk etmə mənasında təfəkkür və şüur bir-birinə uyğundur, lakin digər münasibətdə öz aralarında fərqlənirlər. Bu ədalətli fikir tamamilə qanunauyğundur. Çünki həmin anlayışlar o mənada fərqlənir ki, əvvəla şüur mütləq təfəkkürdür, başqa sözlə, idraki (dərk etmə) prosesidir, bilikdir. İkincisi, şüur insanın dünyaya münasibətidir, hər şeydən əvvəl isə emosiyaları, hissləri və iradəni özündə birləşdirən münasibəti kimi başa düşülməlidir. Məhz, bu mənada şüur daha geniş anlayış kimi çıxış edir.

"Təfəkkür" və "şüur" anlayışlarının bir-birinə uyğun gəlib gəlmədiyini yeni təfəkkürün formalaşdırılması ilə bağlı nəzərə almaq daha əhəmiyyətlidir. Çünki həmin anlayışlar vahid intellektual fəaliyyətin tərəfləridir. Bu fəaliyyət tərəfləri adamların gerçəkliyi mənəvi cəhətdən dərk etməsi formalarıdır, onu sosial praktika prosesində mənimsəməsi və dəyişdirməsi vasitəsidir. Təfəkkürü formalaşdırmaqla biz həm də şüuru inkişaf etdiririk və əksinə, təlim və tərbiyə, şəxsi təhsil və özünütərbiyə prosesində yeni ideyaları mənimsələməklə eyni zamanda təfəkkürün təkmilləşdirilməsi üçün zəmin yaradırıq. Təfəkkür şüurun

əldə olunmuş səviyyəsi əsasında həyata keçirilir. Unutmaq olmaz ki, təfəkkürlə şüurun qarşılıqlı münasibətində təfəkkür daha fəal tərəf kimi çıxış edir.

Yeni təfəkkürün formalaşması cəmiyyətin bütün həyatfəaliyyətinin ilk növbədə mənəvi sivill fəaliyyət prosesinin dərk olunmasına istiqamətlənir, hər şeydən əvvəl isə vaxtı keçmiş düşüncə tərzinin, təfəkkür xüsusiyyətlərinin aradan qaldırılmasını və keyfiyyətcə yeni təfəkkür prinsiplərinin bərqərar olmasını nəzərdə tutur. Yeni sosial təfəkkürün formalaşdırılması ehkamçı və xüsusilə avtoritar düşüncə tərzindən qəti şəkildə xilas olmağı tələb edir.

Avtoritar təfəkkürün səciyyəvi cəhətlərindən biri kor-koranə bir prinsipə – avtoritetə (nüfuzlu adama) pərəstiş etməkdən ibarətdir. Kor-koranə tabeçilik şəxsiyyətin, xüsusilə idarəetmənin ən yüksək pilləsində duran şəxsiyyətin fetişləşdirilməsinə gətirib çıxarır. Əlbəttə, şəxsiyyətə pərəstiş təfəkkürlə deyil, real avtoritar münasibətlər sayəsində yaradılır. Avtoritar təfəkkür isə şəxsiyyətə pərəstişə yol açır.

Mənəvi istehsal yalnız mənəvi mədəniyyəti yaratmır, o həmçinin, insanın şüurunun formalaşmasını və ünsiyyətin real formalarının yaradılmasını ehtiva edir. Sosial subyektlərin, eləcə də şəxsiyyətin mənəvi inkişafı yalnız onların mənəvi mədəniyyətin başlıca ünsürlərini mənimsəmə dərəcəsi ilə şərtlənmir. Bu proses həm də mənəvi həyatın müxtəlif sferalarında fəal iştirak etməklə, mənəvi sərvətlərin bilavasitə yaradıcısı səviyyəsinə yüksəlməklə müəyyən olunur. Əlbəttə, sosial subyektlərin mənəvilik səviyyəsi mənəvi fəaliyyətin nəticəsi olsa da həmin səviyyə eləcə də mənəvi maraq və tələbatla şərilənir. Mənəvi istehsalın məzsulu olan sosial idrak sferaları ictimai hadisə və prosesləri, cəmiyyət üzvlərinin mənafe və məqsədlərini eyni dərəcədə əks etdirmir. Məsələn, sosial qrupların, ictimai təbəqələrin mənafeyi və tələbatı ən çox siyasi şüurda ifadə olunur. Siyasi şüur siyasi fəaliyyətin üzvi hissəsidir və siyasi fəaliyyət formasında təzahür edir.

Şəxsiyyətin mənəvi-sivil fəaliyyəti onun mənəvi inkişaf səviyyəsi və dərəcəsi ilə sıx bağlıdır. Mənəvi inkişaf özözünə baş verən, hazır mənəvi sərvətlərin sadəcə olaraq mənimsəlilməsini ifadə edən proses deyildir. Şəxsiyyətin mənəvi yetkinliyini səciyyələndirən, təmin edən və tamamlayan bu proses məhz praktiki fəaliyyətdə həyata keçirilir. Sosial idrakla şərtlənən mənəvi inkişaf insanların tarixən təkmilləşən mənəvi-sivil fəaliyyətinin ayrılmaz komponentidir. Mənəvi inkişaf biliklərin, ideyaların, təsəvvürləri, görüşlərin, hisslərin, iradənin, inamın, ideallaпın, adətlərin, vərdişlərin, tələbat və marağın təşəkkülü və inkişafı prosesidir. Şəxsiyyətin mənəvi inkişafının əhəmiyyətli şərti onun mənəvi aləmində şüurluluğun bərqərar olması, sosial-mənəvi yaradıcılığa, mənəvi sərvətlərin yaradılması və təkrar istehsalı prosesində bilavasitə məqsədyönlü iştirak etməyə fəal tələbat hissidir.

İnsanın mənəvi aləminin çoxcəhətli ünsürlərlə zənginləşməsi cəmiyyətin sərəncamında olan mənəvi sərvətlərin ona təsiri sayəsində təmin olunsa da hər bir ayrıca fərd özünün mənəvi əhatə dairəsinə görə, mənəvi fəaliyyət prosesinə fəal cəlb olunmaqla bu fəaliyyətin əsl subyektinə çevrilir. İnsan mənəvi sərvətləri yüksək səviyyədə mənimsəməklə öz mənəvi simasını, mənəvi tələbat, maraq və məqsədlərini, düşüncə tərzini, bir sözlə, sosial əhəmiyyətli təfəkkürünü formalaşdırır və mənəvi-mədəni fəaliyyət və yaradıcılıq prosesinin fəal subyekti kimi çıxış edir.

# III FƏSİL

# MƏNƏVİ SİMA ŞƏXSİYYƏTİN FUNDAMENTAL XARAKTERİSTİKASIDIR

## 3.1. Şəxsiyyətin mənəvi simasının ümumi səciyyəsi

Yüksək ideyalı, mənəvi cəhətdən yetkin şəxsiyyətin formalaşdırılması indiki keçid dövrünün ən zəruri şərtlərindəndir. Mənəvi yetkinlik, idraki fəallıq, bir sözlə, kamil mənəvi sima yalnız müəyyən biliklərə, ideya inamına və ictimai ideallara yiyələnməyi deyil, həm də bu keyfiyyətlərin real ifadəsi kimi çıxış edən əməli fəaliyyəti və davranışı təcəssüm etdirir.

Şəxsiyyətin mənəvi dünyasının ahəngdar inkişafının xüsusiyyətlərini əhatəli və dürüst başa düşmək nəinki nəzəri-idraki, həm də əməli baxımdan vacib və əhəmiyyətlidir. Əlbəttə, hər bir ictimai hadisənin məzmununu və onu təşkil edən ünsürlərin qarşılıqlı əlaqə və təsirini öyrənmədən həmin hadisənin mahiyyətinin funksional elmi təhlili mümkün deyildir. Bununla əlaqədar olaraq qeyd edək ki, tədqiq olunan bu və ya digər məsələni ona yaxın olan digər məsələlərlə əlaqəli şəkildə araşdırmadan öyrənilən problemin mahiyyəti barədə düzgün və dolğun təsəvvürə malik olmaq çətindir. Bu mənada şəxsiyyətin mənəvi simasının ümumi səciyyəsinin başa düşülməsi və ya «mənəvi dünya» anlayışının açılması məqsədilə ən əvvəl, ictimai şüur və mənəvi istehsal kateqoriyalarının, bunların nisbəti məsələsinin, həmçinin, mənəvi fəaliyyətin məzmununun təhlili zəruridir, çünki şəxsiyyətin mənəvi simasının və



cəmiyyətin mənəvi həyatının təşəkkülü və inkişafı məhz mənəvi istehsalla, mənəvi fəaliyyətlə şərtlənir.

İnikas nəzəriyyəsi ictimai şüuru onun istehsal prinsipi ilə bilavasitə vəhdətdə izah edir və əsaslandırır. Bu prinsip belə bir cəhəti səciyyələndirir ki, ictitmai şüurun ictimai varlığı əks etdirməsi mexanizmi həm də ictimai şüurun istehsalının sosial mexanizmi kimi dərk olunmalıdır. Mənəvi istehsal nəinki ictimai istehsalla, həm də ictimai şüurla birbaşa əlaqə daşıyır.

Adamlar ictimai varlığı dəyişməklə öz şüurunu, təfəkkürünün istehsal etdiyi ideyaları, təsəvvürləri, görüşləri də dəyişdirirlər. İnsanların öz təfəkkürünün məhsullarını dəyişdirmək qabiliyyəti, şüuru istehsal sahəsi kimi səciyyələndirir. Deməli, şüur fərdi-psixoloji deyil, ictimai-tarixi hadisə kimi çıxış edir və ictimai istehsalın qanunlarına tabe olur. Şüur varlığı müəyyən ictimai formada əks etdirir. Cəmiyyətdən kənarda şüur yoxdur. Şüur cəmiyyət vasitəsilə formalaşır və onun məhsulu olduğu üçün həmişə ictimai forma kəsb edir. İctimai şüur mənəvi istehsalın məhsuludur. İctimai şüurla ictimai varlığın əlaqəsi mənəvi istehsalda praktiki əlaqə şəklində, insanların şüuru ilə fəaliyyətinin daxili bağlılığı kimi nəzərə çarpır. İctimai varlıqla ictimai şüurun qarşılıqlı təsiri zəminində inkişaf edən mənəvi istehsal prosesi bütövlükdə sosial tərəqqiyə xidmət edir.

İctimai əmək bölgüsünün yaranması ilə mənəvi istehsal maddi istehsaldan ayrılır və ictimai istehsalın nisbi müstəqilliyə malik olan sahəsinə çevrilir. Beləliklə, mənəvi istehsal insanların mənəvi fəaliyyətinin sosial forması kimi meydana çıxır və cəmiyyətin ictimai həyatında mühüm rol oynamaqla sosial tərəqqinin zəruri meyarı kimi səciy-

yələnir. Şəxsiyyətin və cəmiyyətin məneəvi inkişafı məhz mənəvi istehsalın nəticəsidir.

Mənəvi istehsal kateqoriyası insanların maddi və mənəvi fəaliyyətlərini ictimai istehsalın müxtəlif sahələri kimi daha dərindən araşdırmağa, onlar arasındakı daxili əlaqələri müəyyənləşdirməyə imkan yaradır. İctimai istehsalın müəyyən sahəsi olmaq etibarilə mənəvi fəaliyyət də maddi fəaliyyət kimi sosial cəhətdən təşkil olunur. Deməli, insanların mənəvi fəaliyyəti istehsalın xüsusi növü kimi meydana çıxır və onun ümumi qanununa tabe olur.

Mənəvi istehsal şeylərin yox, ideyaların «istehsalıdır». Maddi istehsal kimi mənəvi istehsal da son nəticədə ictimai əlaqələrin, insanlar arasında ictimai münasibətlərin istehsalı deməkdir. Bu mənada şəxsiyyətin ictimai şüuru və şübhəsiz, onun mənəvi siması sosial qrupların və cəmiyyətin mənəvi fəaliyyətinin ayrılmaz komponenti kimi başa düşülməlidir. Lakin cəmiyyətin, sosial qrupların mənəvi fəaliyyəti nəticəsində ictimai şüurun müxtəlif formalarının «istehsalı» baş verirsə, şəxsiyyətin ictimai şüuru nəticəsində onun ideyalarını, görüşlərini, təsəvvürlərini, inamını, şüurunu, dünyagörüşünü, maraq və tələbatını əks etdirən mənəvi siması formalaşır. Şəxsiyyətin zəngin mənəvi mədəniyyətə yiyələnməsi və bundan əməli fəaliyyət üçün düzgün, məqsədyönlü nəticə çıxarması məhz onun ictimai şüuru və mənəvi simasının yetkinliyi ilə şərtlənir.

İdeyaların, təsəvvürlərin, görüşlərin, inamın, dünyagörüşün, maraq və tələbatın, vərdişlərin, ümumiyyətlə, ictimai şüurun məzmununa mənəvi fəaliyyətin sosial şəraiti ilə, həmin şüurun istehsalının və təkrar istehsalının müəyyən konkret prosesi ilə əlaqədə diqqət yetirmək lazımdır. Həm ayrıca bir fərdin, həm də cəmiyyətin şüuru



insanın məqsədyönlü fəaliyyətinin məhsuludur, bu fəaliyyətin ideal ifadəsidir.

Mənəvi istehsalın başlıca məqsədi insan şəxsiyyətinin müəyyən tipini formalaşdırmaqdır. İctimai şüur formalarının, mənəvi həyatın sosial funksiyası nəinki ictimai varlığı əks etdirməklə əlaqədardır, eləcə də ona fəal təsir göstərməklə səciyyələnir.

İctimai hadisə və prosesləri, mənafe və məqsədləri mənəvi istehsalın məhsulu olan şüur formaları eyni dərəcədə əks etdirmir. Məsələn, ictimai şüurun spesifik səviyyəsi olan ideologiya həm də onun çox əhəmiyyətli tərəfidir. Çünki mənafe ən çox siyasi şüurda ifadə olunur. Lakin təbiət və cəmiyyət hadisələrinin mahiyyətinə, ictimai inkişafın qanunauyğunluqlarına məhz elmi şüurla nüfuz etmək mümkündür. İctimai şüur formaları arasında sinfi mübarizənin ən kəskin mənəvi silahı isə siyasi şüurdur. Siyasi şüur bu və ya digər şəxsiyyət tipinin nəinki mənəvi fəaliyyətinin, həm də mənəvi simasının məzmununu müəyyən edir. İnsanın mənəvi dünyasının yetkinliyini şərtləndirən ideya inamının özü siyasi şüurluğun təmərküzləşmiş ifadəsidir.

Mənəvi istehsalla şərtlənən adi və elmi şüur da əhəmiyyətinə və əhatə dairəsinə görə bir-birindən xeyli fərqlənirlər. Adi şüur müşahidə əsasında və əməli fəaliyyət prosesində əldə olunan empirik biliklərin məcmuudur. Onun vasitəsilə təbiət və cəmiyyət hadisələrinin yalnız zahiri cəhəti mənimsənilir.

Elmi şüur isə şüurun inkişafında daha yüksək mərhələdir. İctimai inkişafın qanunauyğunluqlarını dərindən və dolğun şəkildə dərk etmək bilavasitə elmi şüura yiyələnmək sayəsində mümkündür. İnsanın mənəvi simasında

xüsusi əhəmiyyət daşıyan ictimai şüurun bu səviyyəsi elm biliklərə dərindən, hərtərəfli yiyələnmək və həmin biliklər həyatda, əməli fəaliyyətdə tətbiq etmək bacarığıdır.

İctimai şüurun mənəvi istehsal kimi başa düşülməsi mənəvi istehsal barədə mövcud olan rəy müxtəlifliyinin araşdırılmasını tələb edir. Bir sıra anlayışlar kimi, mənəvi istehsal anlayışının da hamı tərəfindən qəbul olunmuş vahid tərəfinə təsadüf olunmur və onun dəqiqləşdirilməsi istiqamətində rəy müxtəlifliyi nəinki azalmır, əksinə artır. Bəzi müəlliflər mənəvi istehsalın məzmununu müəyyənləşdirməyə cəhd edərkən onu mənəvi sərvətlərin istehsalı kimi səciyyələndirirlər. Məsələn, bir qrup müəllif hesab edir ki, «Sözün məhdud mənasında mənəvi istehsal dedikdə mənəvi sərvətlərin, başqa sözlə, ideyaların, təsəvvürlərin, elmi biliklərin, ideallarin istehsalı başa düşülür. Sözün geniş mənasında mənəvi istehsal mənəvi sərvətlərin istehsalı, bölüşdürülməsi, yayılması və istehsalkı üzrə adamların bütün fəaliyyətidir».

Mənəvi istehsalı yalnız mənəvi sərvətlərin istehsal edilməsi kimi və mənəvi zənginliyi şərtləndirən anlayış mənasında əsaslandırmaq səyi birtərəfli xarakter daşıyır. Çünki ideal mənəvi hadisələr yalnız cəmiyyətin mənəvi həyatında deyil, insanların fəaliyyətinin bütün sahələrində yaradılır. Mənəvi istehsal təkcə mənəvi sərvətlərin yaradılması ilə məhdudlaşmır. O həm də şəxsiyyətin müəyyən tipinin qərarlaşmasında həlledici rol oynayır. Bu mənada mənəvi istehsal yalnız mənəvi mədəniyyəti yaratmır. O, həmçinin insan şüurunun formalaşmasını və ünsiyyətin real formalarının yaradılmasını ehtiva edir. Mənəvi istehsalın başlıca məqsədi bu və ya digər insan şəxsiyyətinin mənəvi simasını formalaşdırmaqdan ibarətdir.



Mənəvi istehsalın məqsədi təbiət və cəmiyyət hadisələrini mənəvi cəhətdən mənimsəmək, insanın mahiyyət qüvvələrini üzə çıxarmaq və yaradıcı qabiliyyətini təzahür etdirməkdir, bir sözlə mənəvi simasını nəzərə çarpdırmaqdır.

Mənəvi istehsal dedikdə müəyyən ictimai formada (elm, incəsənət, hüquq, əxlaq, fəlsəfə və s. və i.a.) həmişə həyata keçirilən «şüur istehsalı» başa düşülür. Bəzi müəlliflər isə mənəvi istehsala yalnız adamların müəyyən mütüşəkkil qrupunun, cəmiyyətin ziyalı təbəqəsinin istehsal etdiyi şüuru daxil edirlər. Məsələn, belə bir mülahizə yürüdülür ki, mənəvi istehsala şüurun istehsalının bütün sferalarını deyil, məhz onun (şüurun istehsalının – M.Ə.) elə hissəsini aid etmək olar ki, bu yalnız mənəvi əməklə məşğul olan adamların xüsusi qrupu tərəfindən həyata keçirilir. Mənəvi istehsala belə münasibət onu yalnız zehni əməklə məşğul olan insanların müəyyən yaradıcı qrupuna müncər etməkdir. Mənəvi yaradıcılığı insanların seçilmiş, xüsusi qrupu ilə məhdudlaşdırmaq elmi və əməli cəhətdən düzgün sayıla bilməz. Düzdür, mənəvi istehsalın, mənəvi yaradıcılığın elə sahələri vardır ki, orada elm və incəsənət ziyalıları daha fəal rol oynayırlar. Məsələn, elm, maarif və incəsənətin inkişafı bilavasitə ziyalıların fəaliyyəti ilə bağlıdır. Lakin mənəvi istehsalın elə sahələri də mövcuddur ki, bunlar adi zəhmət adamlarının gündəlik həyatına daha çox yaxındır, fiziki əmək adamlarının ictimai-siyasi fəaliyyəti ilə bilavasitə əlaqədardır. Belə mənəvi fəaliyyət növünə, hər şeydən əvvəl, ictimai münasibətlərin təkmilləşdirilməsi, cəmiyyətin idarə olunması, yeni həyat tərzinin yaradılması və istehsalın təşkili ilə əlaqədar fəaliyyət aid edilə bilər.

Zənnimizcə, mənəvi istehsala şüurun istehsalının müəyyən, bu və ya digər sahəsi deyil, onun bütün sferaları daxil edilməlidir. Mənəvi istehsal adamların elə mənəvi fəaliyyətini təcəssüm etdirir ki, bu, elmi ideyaların və ictimai şüurun istehsalı ilə yanaşı sosial proseslərin təkmilləşdirilməsi, idarə olunması və yenidən qurulmasını da şərtləndirir.

Mənəvi fəaliyyət hər şeydən əvvəl, mənəvi istehsalla bağlıdır. Lakin bu cəhət heç də bəzi müəlliflərin iddialarına – mənəvi fəaliyyətlə mənəvi istehsalı eyniləşdirmələrinə əsas vermir. Mənəvi fəliyyət mənəvi istehsaldan əlavə mənəvi sərvətlərin, mənəvi mədəniyyətin yayılması və mənimsənilməsi sahəsindəki fəaliyyəti də özündə ifadə edir. İnsanın mənəvi simasını ifadə edən mənəvi tələbat da mənəvi istehsalla qırılmaz surətdə bağlıdır. Mənəvi istehsal mənəvi tələbatın inkişafı ilə əlaqədar olaraq təkmilləşir və öz növbəsində onun formalaşmasına təsir göstərir. Mənəvi istehsalın məhsulu olan mənəvi sərvətlərin məqsədi şəxsiyyətin və cəmiyyətin mənəvi tələbatını ödəməkdir. Mənəvi tələbatın ödənilməsi insanın mənəvi simasını yeniləşdirməklə, qabiliyyətini inkişaf etdirir və yeni mənəvi tələbatın yaranmasına səbəb olur.

Şəxsiyyətin mənəvi simasının yetkinliyi onun mədəniyyətin müxtəlif sahələrində yaradıcı, fəal iştirakından, mədəniyyətin başlıca ünsürlərini mənimsəmə dərəcəsindən, həmçinin mənəvi sərvətlərin istehsalı və yayılmasından asılıdır. Aydındır ki, bu xüsusiyyətin özü şəxsiyyətin mənəvi tələbatı və vərdişləri ilə müəyyən olunur. Əgər mədəni səviyyə, insanın mənəvi dünyasının zənginliyi onun mənəvi mədəniyyətə dərindən, əhatəli şəkildə yiyələnməsinin nəticəsidirsə, mənəvi tələbat mənəvi sərvətləri mə-



nimsəmək məqsədilə hər bir fərdi daxili fəallığa, hərəkətə sövq edir.

Şəxsiyyətin mənəvi simasının formalaşması öz-özünə baş verən, hazır mənəvi sərvətlərin sadəcə olaraq mənimsənilməsini ifadə edən proses deyil. Bəs «mənəvi sima» anlayışı nəyi ehtiva edir? İctimai şüur, mənəvi istehsal və mənəvi fəaliyyət barədə yuxarıda yürütdüyümüz mülahizələr mənəvi sima anlayışının məzmununu dolğun və düzgün başa düşmək üçün nəzəri və metodoloji əhəmiyyət daşıyır. Mənəvi sima mücərrəd anlayış, sadəcə elmi-nəzəri və ya təbliğati mühakimə deyil. Şəxsiyyətin mənəvi siması biliklərin, ideyaların, təsəvvürlərin, görüşlərin, hisslərin, iradənin, ideya inamının, idealların, adətlərin, vərdişlərin, müəyyən sosial davranışın və mənəvi tələbatın təşəkkülü və inkişafı prosesidir. Mənəvi sima şəxsiyyətin, təbəqələrin, sosial qrupların və bütövlükdə cəmiyyətin mənəvi mahiyyətini ifadə edir. Mənəvi sima əhatə dairəsinə və məzmununa görə «mənəvi aləm», «mənəvi həyat» kimi anlayışlarla «qohumdur», yaxın və əlaqəlidir. Şəxsiyyətin mənəvi inkişafının müəyyənedici şərti onun mənəvi dünyasında yüksək ləyaqət hissinin və inkişafıdır, mənəvi sərvətlərin yaradılması və təkrar istehsalı prosesində bilavasitə fəal iştirak etməyə daim daxili tələbat duymaqdır. Mənəvi inkişaf prosesində insan öz yaradıcı imkanlarını dərk edir, düzgün qiymətləndirir, özünün təbii istedadını, qabiliyyət və bacarığını üzə çıxarır və bunları mənəvi cəhətdən qidalandırır. Bir sözlə, mənəvi təkmilləşmə prosesində hər bir şəxs öz mənəvi simasının xarakterini və məzmununu mükəmməlləşdirir, əxlaqi mahiyyətini təsdiqləyir. «Mənəvi sima» anlayışı özündə sosial əhəmiyyətli ünsürləri siyasi mədəniyyəti, sosial davranışı, əxlaqi yetkin-

liyi, idraki fəallığı, emosional kamilliyi və vətəndaşlıq ləyaqətini təcəssüm etdirir. Məhz, həmin ünsürlərin əhatəli təhlili və bir-biri ilə qarşılıqlı əlaqədə araşdırılması şəxsiyyətin mənəvi simasının məzmununun aydın və hərtərəfli dərk olunmasını təmin edir.

Şəxsiyyətin mənəvi dünyasının inkişaf səviyyəsi cəmiyyətlə şəxsiyyətin qarşılıqlı münasibətinin xarakteri, mövcud ictimai sistemin demokratik dəyərləri və sivil mahiyyəti ilə müəyyən olunur.

Sosial proseslərin əxlaqi amillərlə tənzim olunmasının güclənməsi demokratik, sivill cəmiyyətdə ictimai inkişafın zəruri tələbinə çevrilir. Həyat tərzi yeniləşdikcə adamların özünə məsuliyyətli münasibəti, əxlaqi tələbkarlığı yeni məzmunla zənginləşir. Əxlaqi tərəqqinin bu obyektiv meyli inkişaf etmiş əxlaqi şəxsiyyətin formalaşması üçün mühüm şərtdir. Hər bir şəxsin sosial davranışında təcəssüm edən əxlaqi keyfiyyətlər onu mənən ucaldır, yüksək sosial, milli amallar uğrunda mübarizəyə ruhlandırır.

İnsanın şəxsiyyətə çevrilməsi məhz əməli fəaliyyət prosesində, məqsədyönlü tərbiyə və özünütərbiyə vasitəsilə təmin olunur. Elə buna görə də tərbiyə işində diqqət yetirilməsi problemlər sırasında insanın şəxsiyyət kimi formalaşdırılması xüsusi yer tutur. Lakin yaş kateqoriyasının sosial-psixoloji və məişət xüsusiyyətləri ilə əlaqədar yaşlı və gənc nəslin mənəvi simasının təşəkkülü, kamillik səviyyəsinə yüksəlməsi özünəməxsus müəyyən fərqli cəhətlər kəsb edir. Məsələn, tükənməz enerjiyə malik olan gənclərin sosial siması, mənəvi aləmi çoxcəhətli və mürəkkəbdir, daim dəyişir və yeniləşir. Gənclər öz enerjisi və əhval-ruhiyyəsi ilə bəzən yaşlı nəslin fəaliyyətinə və gümrahlığına faydalı yardım göstərirlər. İngilis filosofu Bekon yazırdı: hamı bilir ki, sağlam və güclü gənclər öz varlıqları, sağlamlıqları və saf nəfəsləri ilə yaşlı adamlara gəncləşdirici təsir göstərilir.

İnsanın şəxsiyyət və vətəndaş kimi formalaşması, əxlaqi və siyasi cəhətdən sosiallaşması gənclik dövründə başlanır. Şəxsiyyət kimi formalaşmaq ən əvvəl, hər bir fərdin qarşıya qoyduğu məqsədi, hərəkət xəttini, cəmiyyətdə öz yerini və rolunu anlamasıdır, sosial davranışının mənasını aydın başa düşməsidir. Bu baxımdan gənc nəsildə təbiətə və cəmiyyətə münasibətdə sağlam zövqün, əxlaqi-emosional mədəniyyətin formalaşması xüsusi məna daşıyır.

Mükəmməl inkişaf etmiş emosional mədəniyyətin, əxlaqi ləyaqətin və şəxsiyyətin bütövlüyünün təşəkkülü yalnız kitab həqiqətlərinin, müəyyən biliklərin və mülahizələrin mexaniki məcmuuna yiyələnməklə şərtlənmir. Bunun üçün insan hərtərəfli inkişaf etməlidir. Hərtərəfli inkişaf isə öz-özünə baş vermir. O, şüurlu, məqsədyönlü və idarə olunan prosesdir. Əxlaqi və intellektual tərbiyənin vəhdəti insanı təfəkkür mədəniyyətinin, yaradıcı düşüncənin keyfiyyətcə yeni zirvəsində istiqamətləndirir.

Gənc nəsillərin əxlaqi tərbiyəsi prosesi gələcəyə istiqamətlənməklə şəxsiyyətin müsbət keyfiyyətlərini, özünü yeniləşdirməyə fəal münasibətini, özünü təkmilləşdirmə qabiliyyətini formalaşdırmalıdır. Belə təkmilləşdirmə səyləri tərbiyə vəzifələrinin əks istiqamətinə yönəldikdə tərbiyənin təsirli olması məhdudlaşır və səmərəliliyi azalır. Tərbiyə prosesi düzgün istiqamətləndirildikdə adamların hərtərəfli inkişafına faydalı təsir göstərir. Nəinki gənclərin, eləcə də yaşlı nəslin şəxsiyyət kimi formalaşması prosesinin nəticələri o zaman səmərəli olur ki, müxtəlif yaş kateqoriyasına malik adamların çoxcəhətli mürəkkəb alə-

mini, əxlaqi keyfiyyətlərini, ideallarını, həyat mənafelərini və planlarını, psixologiyasını, başqaları ilə ünsiyyətinin xarakterini hərtərəfli, əhatəli öyrənmək mümkün olsun. Bu cəhət indiki keçid dövründə xüsusi sosial məna daşıyır. Çünki bu ziddiyyətli və məsuliyyətli şərait insanların həyat fəaliyyətinə ciddi təsir göstərir, onların cəmiyyətdəki rolunu və mövqeyini köklü surətdə dəyişdirir, həyata baxışını yeniləşdirir.

Yetkin mənəvi simaya malik şəxsiyyət dedikdə düşüncə tərzi, sosial hissləri və davranışı etibarilə fərqlənən, yaradıcı və yüksək mənəviyyatlı şəxsiyyət kimi səciyyələnən, cəmiyyət həyatının idarə olunmasında dərin səriştəyə və vərdişlərə, inkişaf etmiş mükəmməl mənəvi mədəniyyətə, ən zəruri mənəvi marağa malik olan, əxlaqi-estetik cəhətdən daim yeniləşməyə daxili tələbat duyan şəxslər başa düşülür.

İnsanın həyatı o zaman mənalı, məzmunlu olur ki, onun davranışı ali məqsədlərə, xalqın mənafeyinə istiqamətlənsin. Böyük məqsədlərə, amallara istiqamətlənən fəaliyyət həyatı nəcibləşdirir, gözəlləşdirir, ona ahəngdarlıq, yaradıcılıq sevinci bəxş edir. Fransız yazıçısı xanım de Stal qeyd edirdi ki, «həyatın məqsədi yaratmaq və mümkün qədər parlaq yanmaqdır, öz fəaliyyətini, həyatını adamlara həsr etməyən xoşbəxt ola bilməz. İnsan təklikdə sevinə bilər, nəşələnər, lakin xoşbəxt ola bilməz».

İnsanın məqsədi nə qədər qətiyyətli, məziyyətli olarsa, onun iradə gücünə də bir o qədər stimul yaradar. Dərk olunmuş tələbat əməli məqsədlərin yaranmasının başlanğıcıdır, ilk anıdır. Belə tələbat insanın müəyyən arzularını, tələblərini, obyektiv gerçəkliyə münasibətini ifadə edir. Dərk olunmuş tələbat insanı düşüncəli fəaliyyətə istiqamətləndirir. Sağlam mənəvi tələbatın formalaşmasında insanın özünə şüurlu, tənqidi münasibəti, onun mənlik şüuru, ləyaqət hissi, iradəsi, özünü bir şəxsiyyət kimi təsdiq etmək qabiliyyəti mühüm rol oynayır.

Ağıllı tələbatın formalaşdırılması əxlaqi tərbiyənin tərkib hissəsidir. İnsanın həyat perspektivi nə qədər əhəmiyyətlidirsə, daxili aləmi və mədəniyyəti nə qədər zəngindirsə onun mənəvi azadlığı da bir o qədər əhatəlidir, həmin şəxs cəmiyyət üçün daha yararlıdır.

Əxlaqi davranışın subyektiv mənbəyi məhz əxlaqi tələbat və inamdır. Əxlaqi tələbat və inam şəxsiyyətin mənəvi ləyaqətinin meyarı kimi çıxış edir. Kamillik səviyyəsinə ucalmaq üçün insan özünə daim ali hissləri, saf düşüncələri təlqin etməlidir, özlüyündə başqalarına qarşı xudbin mülahizələrə, pis niyyətə qapılmamalıdır, bədxah əməllərə səy göstərməməlidir. Bir insan pislik edəndə ikiqat pis iş görmüş olur: həm öz qəlbini, həm də başqasının qəlbini incidir. Əksinə, birinə yaxşılıq edəndə, mütləq əvəzində yaxşılıq görürsən – qəlbin şad olur. Maraqlıdır ki, Polşada «Təbəssüm ordeni» təsis edilmişdir, bu ordenlə insanlara sevinc bəxş edən şəxsləri mükafatlandırırlar. Hər bir şəxs öz düşüncəsindən zərərli, başqalarına zidd fikirləri uzaqlaşdırmağı bacarmalıdır. Bu məqsədlə lap kiçik yaşlardan uşaqların geniş, saf qəlbdə tərbiyə olunmasına ciddi diqqət yetirməlidir. Məşhur yazıçı Heminquey balaca ikən hər dəfə kobud söz danışanda anası onun ağzını sabunla yudurdarmış. Bu «cəzada» müəyyən tərbiyəvi hikməti sezmək çətin deyil. Təcrübə göstərir ki, alicənab hərəkət, sağlam zəkaya arxalanmaq yalnız fayda verir. Alman mütəfəkkiri Höte deyirdi: «Böyük ağıl qarşısında baş əyirəm, böyük qəlb qarşısında diz çökürəm».

Özünü və başqalarını mənəvi-əxlaqi cəhətdən yeniləşdirmək səyi insanın mənəvi nüfuzunun, ülviliyin, yetkin səviyyəli vətəndaş mövqeyinə yiyələnməyin təcəssümüdür. Yüksək insani-əxlaqi hisslərdən məhrum olmaq, müxtəlif cildə girib özünü başqalarına «sevdirmək», özünü «ləyaqətli», «səviyyəli», «xeyirxah» şəxs kimi təsdiq etdirmək «məharəti» mənəvi rəzilliyin, riyakarlığın ifadəsidir. İnsan özünü mənəvi təmizləmə, əxlaqi yeniləşdirmə prosesində bir tərəfdən şər, bəd əməllərə qarşı barışmazlığın, digər tərəfdən isə xeyirxahlığın, müdrikliyin mücəssəməsinə çevrilir.

«İnsanlıq fəlsəfəsi»ni ehtirasla təbliğ edən mütəfəkkirlərin fəaliyyətinin məzmunu həmişə belə bir ülvi mülahizə ilə zinətlənmişdir ki, özünü tərbiyə etməyi bacaran insanın ən böyük xoşbəxtliyi başqalarına göstərdiyi xeyirxahlıqdır. L.Tolstoy hətta qeyd edirdi ki, insanın böyük xoşbəxtliyi nəinki başqalarına xeyirxahlıq etməsidir, həm də etdiyi xeyirxahlıqdan zövq almasıdır. İnsana obyektiv, nəcib və xeyirxah münasibət alicənablıq, gözəllik və səadət deyilmi? Mənəvi sima elə bu mənada «ruhun səltənəti» kimi mənalanır.

Məlum həqiqətdir ki, yalnız aciz, gücsüz, qəzəbli adamlar başqalarına, ilk növbədə özündən nüfuzlu, güclü hiss etdiyi şəxslərə, «təhlükəli rəqib» saydıqları sanballı, başqalarının təmənnasız sevdiyi adamlara bədxahlıq edir, belə ləyaqətli insanlar haqqında obyektiv, xoş sözlər deyiləndə susur, daxilən qəzəblənir.

Adamlar arasında xeyirxahlıq münasibətlərinin qərarlaşmasına, kin, paxıllıq və eqoizm kimi hisslərin kökünün kəsilməsinə nail olmalıyıq ki, milli-fərdi mənəviyyatımız daha da cövhərlənsin. Bu yalnız sosial baxımdan deyil, eləcə də fizioloji cəhətdən zəruridir.



Kin, qəzəb insanda bir çox gözəl keyfiyyətləri aradan qaldırır, onun qəlbini qaraldır, ağlını kütləşdirir, istedadını zəiflədir, ən təhlükəlisi isə budur ki, bədxah əməlləri icra etməyə istiqamətləndirir. Görkəmli Polşa yazıçısı A.Mitskeviç çox gözəl demişdir: «Qəzəb, kin gücsüzlüyün silahıdır. Təbiət zəhəri sürünənlərə vermişdir. Güclülərin ona ehtiyacı yoxdur». Ülvi hisslərdən məhrum olmaq insanı simasızlığa, şəxsi mənafe düşkünlüyünə, fərdiyyəçilikdən irəli gələn saxta yoldaşlıq münasibətlərinə, riyakar ünsiyyətə sövq edir.

Bu bir həqiqətdir ki, adamların böyük əksəriyyəti öz davranışına qabaqcadan və hərtərəfli düşünülmüş sağlam məqsədlərə uyğun şəkildə nəzarət edə bilər. Lakin hərtərəfli düşünülmüş davranış heç də həmişə insanın rəftarının və əməllərinin əxlaq normalarına uyğunluğuna təminat vermir. Fərdi təfəkkürün inkişaf istiqaməti şəxsiyyətin əxlaqi simasının zəminindən asılıdır. Söhbət ondan gedir ki, bu və ya digər şəxs öz fəaliyyətində, başqaları ilə münasibətində milli mənafeyi, kollektivin məqsədlərini, vicdan normalarını əsas götürür, yoxsa cəmiyyətə, kollektivə, başqalarına münasibətin əsasını şəxsi mənafeyini, xüdbin niyyətini təmin etməkdə görür. Şübhəsiz, sağlam əxlaqi mövqeyin formalaşmasında təfəkkür mədəniyyəti, zehni inkişaf səviyyəsi, yüksək mənəvi hisslər həlledici rol oynayır. Zəkalı adam üçün ictimai-milli maraq və mənayefi, fəaliyyət göstərdiyi kollektivin hər bir üzvünün fəaliyyətinin həqiqi məzmun və istiqamətini aydın dərk etmək və obyektiv qiymətləndirmək, başqalarına münasibətdə təmənnalı mövqe deyil, ali hisslərlə silahlanmaq səciyyəvi-

dir. Aristotelin sözləri ilə desək «ən yaxşı adam o şəxs deyil ki, yalnız özünə hörmətlə yanaşır, eyni zamanda o insandır ki, başqalarına münaisbətdə də ləyaqətli mövqe tutur. Bu isə çətin işdir». Həyata, insanlara bəsit gözlə baxmaq, məhdud düşüncəli münasibət idraki yoxsulluqdur, mənəvi ləyaqətsizlikdir. Özünə, vəzifənə, maddi imkanlarına həddən artıq güvənib başqalarının həyat taleyinə qərəzli, «mənəm-mənəm» münaisbətdən «həzz almaq» insanı gözdən salır, onun əsl vətəndaşlığına şübhə oyadır. İnsan daxilindəki mənfi emosional partlayışları söndürməyi bacarmalıdır. Düşüncə tərzini sabitləşmiş mühafizəkar, ətalətli təsəvvürlərlə məhdudlaşdırmaq olmaz, o, daim inkişafda olmalı, yeniləşməlidir. Əks təqdirdə biz həyatı son dərəcə miskinləşdirər, onun nəşəsini, sevincini, gözəlliklərini dərindən duya bilmərik. Özünütərbiyə qeyritəvazökarlığın, insana hörmətsizliyin, şər əməllərin, ədalətsizliyin və saxta səmimiyyətin adamların xarakterindən kənar edilməsinə istiqamətlənməlidir. Çünki bu mənfur keyfiyyətlər nə qədər müxtəlif olsa da, onların ümumi cəhəti fərdiyyətçilikdən və deməli, kollektivə, namuslu adamlara qarşı çevrilməsindən ibarətdir. Fərdiyyətçilik insanda humanist keyfiyyətlərin, nəcibliyin formalaşmasına mane olur, başqalarına, cəmiyyətə zidd əhval-ruhiyyənin qərarlaşmasına gətirib çıxarır.

İnsanın mənəvi simasının, əxlaqi səadətinin zirvəsi vicdanlı olmaqdır. Vicdanın mahiyyəti bunda ifadə olunur ki, insan öz davranışını ictimai-milli borcun, əxlaqi idealın tələblərinə uyğunlaşdırır, özünü daxilən düzgün qiymətləndirməsi əsasında öz fəaliyyətini və hərəkətlərini tənzimləyir. Vicdan dərin intim hiss olub şəxsiyyətin öz davranışı üçün başqaları və cəmiyyət qarşısında hərtərəfli məsuliyyətini, ləyaqətini ifadə edir. Hər bir şəxs kollektivin, başqalarının və bütövlükdə xalqın taleyi üçün öz fəaliyyətini, hərəkətlərini «vicdanın səsi ilə» idarə etməyə ciddi tələbat duymalıdır. Müdrk adamlardan biri çox gözəl deymişdir: «Mən şəxsi vicdanımın sakit səsindən dəhşətli məhkəmə görmürəm». Vicdan cəmiyyətin mənəvi həyatının ideallarının müəyyən cəhətlərini özündə ehtiva edir. Yüksək idealları irəli sürən və bunun uğrunda mübarizə aparan cəmiyyət kütləvi şəkildə həssas vicdanlı adamlar yetişdirir. Axı, vicdan dərin şəxsi hiss olub ictimai həyat şəraitinin və eləcə də tərbiyənin təsiri altında formalaşır. Marks yazırdı ki, vicdan insanın biliyindən və onun bütün həyat tərzindən asılıdır.

İnsanın ülvi keyfiyyətlərinin, əxlaqi simasının ən yüksək ifadəsi olan vicdan hər bir şəxsin davranışını, hərəkətlərini, fəaliyyətini nəinki tənzimləyir, həm də müəyyənləşdirir. İnsanın kamilliyi, vicdanlı olması, nəinki cəmiyyətlə bağlıdır, həmçinin cəmiyytəin özü üçün lazımdır. Yalnız vicdanın səsi ilə hesablaşan dərin düşüncəli adamlar öz şəxsi məqsədlərini, maraq və hərəkətlərini ümumi və yüksək məqsədlərə, xalqın mənafeyinə istiqamətləndirə bilər.

Şübhəsiz, insan cəmiyyətin ən qiymətli sərvətidir. Lakin adamlarda şüurun inkişaf dərəcəsi və ləyaqət hissi eyni deyildir. İnsanın şəxsi ləyaqət hisssinin inkişaf dərəcəsini qiymətləndirmək üçün başlıca meyar onun ədalət və həqiqət uğrunda mübarizə aparmasıdır. Təcrübə göstərir ki, insanı hörmətdən salmaq, təhqir etmək mümkündür (şüurlu və ya qeyri-ixtiyari), lakin onu şəxsi ləyaqətini qorumaq hüququndan məhrum etmək olmaz. İnsanın ləya-

qəti onun cəmiyyətdəki mövqeyi, vəzifəsi və peşəsi ilə müəyyən edilmir.

İnsanın ləyaqətli siması, ruhu onun özünə inamı, zehni və əxlaqi qüvvələri, yaradıcılıq imkanları ilə qırılmaz surətdə bağlıdır. Özünə inam hissinin itirilməsi insanın, sosial, mənəvi-əxlaqi fəallığını və tələbkarlığını zəiflədir, onun istedad və qabiliyyətinin inkişafına, mənəvi imkanlarının üzə çıxmasına mane olur. Özünə inam hissinin tərbiyə olunması həm də özünə şəxsi ləyaqət hissinin aşılanmasıdır. Şəxsi ləyaqət hissi insanı intizamlı olmağa, özünə tələbkarlığın artmasına təhrik edir, əldə olunmuş uğurlarla kifayətlənməməyə, yüksək nəcib keyfiyyətlərə yiyələnməyə istiqamətləndirir. Həyata və azadlığa yalnız o adam layiqdir ki, bunların uğrunda hər gün döyüşə gedir – deməkdə Höte nə qədər haqlı imiş.

Şəxsiyyətin siması və ləyaqətli əxlaqi inkişafı onun mənəvi dünyasında zəka ilə emosiyaların ahəngdarlığının təcəssümüdür. Axı, insanın davranışı onun tələbat və marağı ilə şərtlənir. Bunlar isə hiss və emosiyalarla üzə çıxır, zəka ilə dərk olunur. Zəkalı adamın mənəviyyatını ləyaqəti həmçinin, onun idrakı ilə psixoloji simasının üzvi əlaqəsində aydın təzahür edir. Hər bir şəxsin əxlaqi davranışının, mənəvi fəallığının tənzim olunmasında zəkanın rolu təkcə bununla məhdudlaşmır ki, o, mövcud tələbatlar haqqında mənimsənilən informasiyanı yenidən mənalandırır. Zəka həm də bilavasitə mədəniyyətin mənimsənilməsi vasitəsilə əxlaqi kamilliyin, müdrikliyin təşəkkülü və inkişafına ciddi təsir göstərir. Ləyaqətli insan həyatda və həyatın özü vasitəsilə formalaşır. Bu ülvi adı daşımaq o şəxslərə nəsib olur ki, onlar özündə ən nəcib keyfiyyətləri, müdrikliyi təcəssüm etdirirlər.



Təəssüf ki, hələ aramızda elə adamlara təsadüf olunur ki, insandakı ləyaqəti, müdrikliyi təmənnalı mövqedən, şəxsi mənafe baxımdan qiymətləndirirlər. Belə halda bu və ya digər şəxsin ləyaqəti, mənəvi dəyəri üçün onun ictimai mövqeyi, vəzifəsi, imkanları və s. meyar götürülür. Qəbahət, xoşagəlməz hal orasıdır ki, başqalarına, «lazımlı», «nüfuzlu» adamlara belə münasibət şüurlu şəkildə edilir.

Onu da qeyd edək ki, başqalarının ləyaqətini, şəxsiyyətini obyektiv qiymətləndirməmək səyi bəzən isə həyat təcrübəsinin və görüş dairəsinin məhdudluğundan, ümumi mədəni səviyyənin, intellektual qabiliyyətin aşağı olmasından irəli gəlir. Lakin dünyagörüşünün məhdudluğuna görə başqalarını obyektiv qiymətləndirməmək çatışmazlıqdırsa, müəyyən subyektiv, qərəzli mülahizələrlə adamları «saf-çürük» etmək eybəcərlikdir, ləyaqətsizlikdir.

Ümumi zehni və mədəni səviyyənin yetkinliyi şəxsiyyətin mənəviyyatını daha da kamilləşdirir və ülviləşdirir, həyata, insanlara obyektiv və humanist münasibət formalaşdırır. Şəxsiyyətin mənəvi kamilliyinin sosial mənası budur ki, mükəmməl inkişaf etmiş, yetkin tələbata malik, zehni cəhətdən daim inkişaf etmək zərurətini aydın dərk edən cəmiyyət üzvü kimi yetişsin və əldə etdiyi bilikləri, yaradıcılıq qabiliyyətini özünü, başqalarını və bütünlükdə cəmiyyəti təkmilləşdirməyə doğru yönəltsin.

Müdrikliyin, şəxsi ləyaqətin və insan səadətinin əsil mənbəyi nəcib əməllərdir, vicdanlı əməkdir, xalqın mənafeyinə istiqamətlənən namuslu fəaliyyətdir. Kamillik səadətinə nəsib olan insanın vətəndaş kimi öz-özünə müraciəti və əxlaqi tələbkarlığı məhz bu ruhda cilalanmalıdır. Kamil davranışa, namuslu fəaliyyətə və təmənnasız münasibətə hüdud yoxdur. Belə düşüncə tərzi nəcib əməllərə

qida verir, insanı mənəvi ucalığa və obrazlı desək ruhun səltənətinə istiqamətləndirir.

### 3.2. Ünsiyyət mədəniyyəti mənəvi simanın spesifik təzahürüdür

Cəmiyyətin sosial iqtisadi inkişafının sürətləndirilməsi xeyli dərəcədə adamların mənəvi qüdrəti, düşüncə mədəniyyəti və vətəndaşlıq məsuliyyəti ilə şərtlənir. Bu baxımdan hər bir şəxsin yüksək davranış mədəniyyətində adamların bir-birinə münasibəti, ünsiyyəti mühüm sosial məna daşıyır. İnsan amilinin fəallaşdırılmasını ünsiyyət mədəniyyətindən kənar təsəvvür etmək mümkün deyildir. İnkişafımızın indiki mürəkkəb məqamı adamlar arasında sağlam, səmimi münasibətlərin bərqərar olmasını, kəskin surətdə əməli işlərə doğru səfərbər olunmağı, şəxsi və milli mənafeləri düzgün əlaqələndirməyi tələb edir.

Sağlam düşüncəli ünsiyyət insanı nəcib əməllərə, təmənnasız sosial əlaqələrə və xalqına xidmət etməyə rövnəqləndirir. Ünsiyyət mədəniyyəti hər bir şəxsin və onu əhatə edən insanların həyat fəaliyyətinə ciddi təsir göstərir.

Adamların şəxsi təcrübəsi belə bir həqiqəti təsdiqləyir ki, hətta ən xeyirxah, ali məqsədləri özünə ideal edən adam müəyyən səhvlərdən və çatışmazlıqdan azad deyil. Buna görə bəşəriyyət özünün inkişaf prosesində elə əhəmiyyətli davranış qaydalarını yaratmışdır ki, onlar adamların bir-birini qarşılıqlı başa düşməsini asanlaşdırsın, münasibətlərinin mürəkkəbləşməsinə səbəb olan münaqişələri azaltsın və eyni zamanda insanın daxili aləminə mərifətsiz, ədəbsiz halların nüfuz etməsini məhdudlaşdırsın. Həmin qaydalardan təşəkkül tapan ünsiyyət mədəniyyəti



insanın daxili mədəniyyəti ilə sıx əlaqə daşıyır və şübhəsiz, əxlaqi prinsip və normalarla müəyyən olunur.

Davranış mədəniyyətinə yiyələnməyən, başqalarına hörmət etməyi özünə təlqin etməyən, ünsiyyəti yalnız təmənnalı münasibətlərdə görən şəxslər heç vaxt humanist, xeyirxah, sözün əsil mənasında səviyyəli, mədəni adam, yetkin vətəndaş ola bilməzlər. Davranış elə bir güzgüdür ki, hər bir adam öz simasını burada aydın əks etdirir. Yüksək mənəviyyatlı, ləyaqətli adam iş yerində də, evdə də, ictimai yerdə də və həmçinin öz-özlüyündə həmişə eyni prinsiplərdə silahlanır və hərəkət edir.

İnsan öz simasını təzahür etdirdiyi keyfiyyətlərlə təsdiqləyir. K.Marks obrazlı qeyd edirdi ki, şəxsiyyətin mahiyyəti onun saqqalı və bığı ilə deyil, malik olduğu yüksək ictimai keyfiyyətlərlə müəyyən olunur.

İnsanlara münasibətin, ünsiyyət mədəniyyətinin əsasını başqalarına hörmətlə yanaşmaq, onların mənafeyinə hörmət etmək, subyektiv mülahizələrlə şərtlənməyən yoldaşlıq, yaxınlıq, qayğıkeşlik, hər bir şəxsi obyektiv qiymətləndirmək təşkil edir.

Başqalarına hörmət müxtəlif formalarda təzahür edir. Həmin formalardan ən səciyyəvisi intizamlı olmaq, təvazökarlıq, adamlara münasibətdə sadəlik, lövğalığa və təkəbbürə qarşı barışmazlıq, nəzakətli olmaq, siqləti səmimiyyətdən yoğrulan ciddilik və sairədir.

İnsan özünü mənəvi təmizləmə, əxalaqi yeniləşdirmə prosesində yüksək davranış mədəniyyətinin, başqalarına ləyaqətli münasibətin qüdrətli daşıyıcısı kimi çıxış edir və müdriklik mücəssiməsinə çevrilir.

Həyat göstərir, təcrübə isə dönə-dönə təsdiqləyir ki, sözün əsil mənasında yüksək səviyyəli, elmi cəhətdən yet-

kin, istedadlı, savadlı, alicənab və geniş qəlbli insanlar b
lə keyfiyyətlərə malik olan şəxslərə bədxahlıq mövqeyi
dən yanaşmaz, səksəkəli münasibət bəsləməz.

Özünə və başqalarına hörmət etməyi bacaran insa
daxilindəki mənfi emosiyaları heçə endirməyə ciddi, qə
tələbat duymalıdır. Həyata bəsit gözlə baxmaq, başqala
rına məhdud düşüncəli münasibət kütbeyinlikdir, mənə
cılızlıqdır.

Başqalarına münasibətdə intizamlı, dəqiq, səliqəli ol
maq, alicənablıq mədəni adamın mənəvi aləminin bütü
cəhətlərini səciyyələndirən qiymətli keyfiyyətdir. Şəxsi in
tizam hissi insanın sosial fəallığını, başqalarına münasibə
tinnin xarakterini aydın ifadə edir, onu sosial dəyərli fə
liyyətə, yaradıcılıq əzminə rövnəqləndirir. Keçid dövrü
nün vüsəti hayküyçülükdən, quru nəsihətçilikdən, bayağ
təriflərdən, şit mülahizələrdən xilas olmağı tələb edir.

Ünsiyyət ləyaqətini səciyyələndirən keyfiyyətlərdə
çox mühümü təvazökarlıqdır. Bu keyfiyyət ən əvvəl, insa
nın özünə və onu əhatə edən adamlara hörmətinin ifadə
sidir.

Təvazökarlıq hər bir şəxsin özünə yüksək tələbakar
lıq, öz hərəkətlərinə, səviyyəsinə, biliklərinə tənqidi ya
naşmaq bacarığında təzahur edir. O, lovğalıq və təkəb
bürlə, parıltılı təşəxxüslə bir araya sığmır. Kimliyindən
vəzifəsindən imkanlarından asılı olmayaraq özündən razı
xudpəsənd adamlar yoldaşlarının, kollektivin onu «öz lə
yaqətinə görə» qiymətləndirməməsindən ehtiyat edir v
həmişə öz ölçülüb-biçilmiş «səliqəli», «mədəni» davranış
ilə şəxsiyyətini təsdiqləyir, ucuz şöhrəti, bayağı tərifləri sə
dəqə kimi «qoparmağa» nail olur. Beləlləri öz «xidmətləri
haqqında ucadan danışmaqdan və başqalarını da bun



təhrik etməkdən çəkinmir. Ləyaqətli insanlar heç vaxt xırda hisslərin, şəxsi mənfəətin, ucuz şöhrətin əsiri olmamışlar.

Sözün əsil mənasında mədəni və mərifətli adamlar çox sadə olur, öz hərəkətlərini, nəyə qadir olduqlarını sağlam zəka ilə, əməli işlə təsdiqləyir və qiymətləndirir. Məhz belə şəxslər başqalarına hörmətlə yanaşır və təmənnasız münasibdət bəsləyir. Elə, şəxsiyyət səviyyəsinə gedən yol da ünsiyyət ləyaqətindən başlanır. Bir sözlə, qeyri-təvazökarlıq insanı təşəbbüssüzlüyə, saxta səmimiyyətə, mərifətsizliyə, adamlara münasibətdə ikimənalı mövqe tutmağa, riyakarlığa istiqamətləndirir, deməli mənəviyyatsızlığa sövq edir. Təvazökar olmayan adam yüksək keyfiyyətlərə, obyektivliyə, sosial ədalət hissinə, vətənpərvərliyə və sairəyə malik ola bilməz.

Təvazökarlıq müxtəlif səpgidə təzahür edir. O, mühibini, söhbət yoldaşlarını axıra qədər dinləmək, onların sözünü kəsməmək qabiliyyətində, mübahisəli məsələlərə münasibət bildirildikdə və ümumiyyətlə adi danışıq zamanı kəskin və kobud etirazlara, hiyləgər mülahizələrə səy göstərməməkdə, tanımadığın adamların söhbətinə qarışmamaqda ifadə olunur. İnsanın təvazökarlığını, onun danışıq tərzi və tonu, hətta geyimi ilə, küçədə, ictimai yerlərdə özünü necə aparması ilə qiymətləndirmək mümkündür. Ümumiyyətlə, təvazökarlıq insanın başqalarına sadə, nəzakətli və alicənab münasibətində daha aydın nəzərə çarpır.

Gündəlik həyatımız təsdiqləyir ki, adamların müəyyən qismində ətrafdakılara münasibətdə ən adi mədəniyyət belə çatışmır. Əxlaqi cəhətdən kobud və mənəvi aləmi cılız olan adamlar həyatda özlərinə yer tutmaq üçün ləya-

qətli, namuslu adamları ləkələməyə onların haqqında «mənfi təsəvvür» yaratmağa, bir sözlə, öz səviyyəsinə endirməyə çalışırlar. Belələri «nəzərdən qaçırır ki», sağlam mənəviyyatlı, qabiliyyətli, mədəni şəxslər həmişə özündən kamil adamların səviyyəsinə ucalmağa səy göstərirlər. Əsil insan yüksək fikir və duyğulara, bunları qanadlandırmaq qüdrətinə malik olmalıdır. Aramızda elə adamlara təsadüf edirik ki, vəzifəsi, ictimai mövqeyi, peşə funksiyaları və borcu ilə əlaqədar yerinə yetirdiyi işləri «xidmət» kimi qələmə verir, sözün əsil mənasında xidmətləri ilə fərqlənən adamları isə «görmür», «bəyənmir» və belə «təvazökarlığı» ilə diqqəti cəlb edir. İnsan yaradıcı qəlbinin böyük tərənnümçüsü L.Tolstoy deyirdi ki, ən yaxşı adam odur ki, o, öz fikirləri və başqalarının hissləri ilə yaşayır, insanın ən pisi isə o şəxslərdir ki, öz hissləri və başqalarının fikirləri ilə yaşayır.

Öz fikirlərinlə yaşamaq o deməkdir ki, başqaları tərəfindən əldə olunmuş bilikləri mexaniki şəkildə mənimsəməyəsən, məhz idraki tələbata, sağlam, qiymətli düşüncə tərzinə yiyələnəsən, həyatın mənasını insanlara, xalqa faydalı xidmətdə görəsən. Əxlaqi dialektikanın mahiyyəti onda təzahür edir ki, başqalarına sosial dəyərli, təmənnasız münasibətin subyekti kimi çıxış edəsən, «sən mənə – mən sənə» prinsipi ilə silahlanmaq nadanlıqdan, eybəcərlikdən başqa bir şey deyildir. İkiüzlülük, riyakarlıq, şəraitə uyğunlaşmaq psixologiyası nəinki pis tərbiyənin nəticəsidir, ən başlıcası pis tərbiyələndirmək üçün «münbit» vasitədir.

İkiüzlülük, yaltaqlıq, yarınmaq həyat davranışının eybəcər formasıdır. Bu yol ilə gedənlər hər şeydən əvvəl, qabiliyyətsiz, istedadsız adamlardır. İnsanda ən çox ikrah hissi doğuran nöqsan yaltaqlıqdır. Yaltaqlıq, ikiüzlülük



insanın tam prinsipsizliyi, simasızlığı deməkdir. Bu və ya digər şəxsin xarakterinin xüsusiyyətindən asılı olaraq mehriban və qapalı adam olmaq təbiidir. Lakin dönük olmaq dəhşətdir, insan üçün fəlakətdir. Gözəllik yalnız insana olan münasibətdə mövcuddur, çünki şeyləri şüurlu surətdə dərk etmək, yaradıcılıq zəhməti ancaq insana xasdır. Məhz insan həyatdakı kamilliyi və ahəngdarlığı dərk etmək və onlardan zövq almaq, həyatı dəyişdirmək qabiliyyətinə malikdir.

Yaradılıcıq zəhməti insanın bütün səylərinin ən yüksək mərhələsidir, müdriklik ləyaqətidir. Əsil gözəlliyi, ləyaqəti əməkdə, namuslu fəaliyyətdə duymaq, qiymətləndirmək qabiliyyəti və istedadı bu gün xüsusi məna daşıyır. Azad yaradıcı əməyin poeziyasını bərqərar edən cəmiyyət insanları daha çox istedadlı edir. İstedadlı adamın vəzifəsi həyatı zənginləşdirməkdən, onu miskinləşdirməyə cəhd edənlərə qarşı daxili barışmazlıqdan ibarətdir. Yaradıcılıq, quruğ-yaratmaq eşqi ilə yaşayan dərin məsləkli hər bir şəxs öz ağlının və qəlbinin xəzinəsini insanlara verməyə borcludur. Nəzərdən qaçırmaq olmaz ki, istedadlı olan insan nəinki öz qabiliyyəti və istedadı üçün, həmçinin xalqının yetirdiyi bütün istedadlardan ötrü məsuliyyət daşımalıdır. Subyektiv münasibətlər, diqqətsizlik üzündən bəzi istedadların «alaq içərisində batıb qalması» fəlakətdir. İstedadın qorunub saxlanması, ondan düzgün, məqsədyönlü istifadə olunması milli-ictimai dəyərə malikdir. İstedad milli sərvətdir və ona məsuliyyətsiz münasibət cinayətdir.

Ünsiyyət ləyaqətini aydın ifadə edən qiymətli cəhətlərdən digəri isə nəzakətli olmaqdır. Nəzakətlilik adamlarla ünsiyyətin vacib, insani şərti olub bizim başqalarına hörmətlə yanaşmağımızı təcəssüm etdirir. Davranış mə-

dəniyyəti tələb edir ki, insanlara, onların rəyinə, zövqünə, adətinə dəqiq münasibət bəsləyəsən, qayğıkeş və həssas olasan, özünə tələbkarlığın və başqalarına obyektiv münasibətinlə diqqəti cəlb edəsən. Nəzakətli olmaq o deməkdir ki, yalnız şəxsi mənfəətin və rahatlığın ilə kifayətlənməyəsən, həm də başqalarının mənafeyinə və rahatlığına diqqət yetirəsən, qabiliyyətli, öz kollektivini hər cəhətdən ləyaqətlə təmsil edən şəxslərə xəsis münasibət bəsləməyəsən. Nəzakətli insan başqalarının xoşbəxtliyini sadəcə olaraq arzulamır, bu və ya digər şəxsin inkişaf etməsinə «düşünülmüş» nəsihətçilik mövqeyindən yanaşmır, adamlara xeyirxahlığını, köməyini «nəzəri gücü» ilə yox, əməli işi ilə, vicdanlı fəaliyyəti ilə təsdiqləyir. Nəzakətli olmaq eləcə də ünsiyyət qabiliyyətinin mühüm ünsürü olan danışıq mədəniyyəti ilə daxili bağlılıq kəsb edir. Danışıq mədəniyyəti ən əvvəl, öz fikrini dəqiq, aydın ifadə etmək, lüzumsuz sözlərə, ikrah hissi doğruna mülahizələrə səy göstərməməkdə özünü göstərir. Nəzakətli, mərifətli danışmaq qabiliyyəti insanın ümumi mədəniyyətinin göstəricisidir. Gündəlik mənəvi əlaqələrimiz göstərir ki, şit, bayağı, ikili məna daşıyan sözlərin və mülahizələrin daşıyıcıları yalnız səviyyəsi aşağı olan, qabiliyyətsiz, cılız mənəviyyata malik şəxslərdir. Yeri gəlmişkən qeyd edək ki, ünsiyyət mədəniyyəti baxımdan danışığın, nitqin tonu da mühüm əhəmiyyətə malikdir. Eyni fikir danışığın tonundan asılı olaraq müxtəlif məna daşıya bilir. Danışığımızın tonunda müsahibəmizə, başqalarına münasibətimiz ifadə olunur. Müəyyən mılahizələr naminə səsinin, danışığının tonunu artıran şəxslərə Şekspirin sadə hikmətə malik sözlərini xatırlamaq yerinə düşər: «Kəskin danışıq tonunu səmimiliyin və gücün əlaməti kimi başa düşmək əbəsdir».



Şəxsiyyətin mənəvi simasının əsasını onun yetkin daxili mədəniyyəti ilə davranış mədəniyyətinin sıx bağlılığı, başqalarına dərin, işgüzar hörmət, əhatəsində olduğun adamlara nəzakətli, diqqətli və obyektiv münasibət, özünə əxlaqi tələbkarlıq hissinin zəifləməməsi təşkil edir. Davranış mədəniyyəti, ünsiyyət ləyaqəti əxlaqi fəzilətdir, alicənablıqdır. Yalnız nəcib əməlli alicənab insanlar təmsil etdiyi kollektivin və xalqın ali məqsədləri uğrunda mübarizədə şərəfli mövqeyə yiyələnə bilər. Belə mövqe şəxsiyyətin və cəmiyyətin mənəvi yeniləşməsinin rəhnidir. Adamların mənəvi dünyası nə qədər zəngin olarsa cəmiyyətin mənəvi həyatı da bir o qədər yetkin olar.

### 3.3. Estetik aləm şəxsiyyətin mənəvi simasının cövhəridir

Ahəngdar inkişaf etmiş şəxsiyyəti səciyyələndirən xüsusiyyətlərdən çox mühümü mənəvi zənginlikdir. Mənəvi zənginlik anlayışı bir sıra ünsürlərlə yanaşı emosional qabiliyyəti, estetik keyfiyyətləri də özündə ifadə edir. İnsanın estetik mədəniyyəti onun ümumi mənəvi-əməli zənginliyinin bir hissəsidir, mənəvi simanın cövhəridir.

Emosional-estetik cəhətdən inkişaf etmiş şəxsiyyət dedikdə, nəinki gözəlliyi dərk edən, qiymətləndirən, həm də bunu həyata keçirməyi bacaran və əməli fəaliyyətin bütün sahələrinə yaradıcı yanaşan insan başa düşülür. Şəxsiyyətin estetik idealının xarakteri onun estetik təsəvvürlərini qiymətləndirməyin başlıca göstəricisidir. Estetik tərbiyənin başlıca məqsədi də məhz adamların, xüsusilə, gənclərin şüurluğunun yüksəldilməsinə, onların estetik sərvətləri dərk etmək və düzgün qiymətləndirmək vərdiş-

lərinə yiyələnmələrinə, əsil insani münasibətlərə zidd olan halların aradan qaldırılmasına nail olmaqdır.

Sosial inkişafımızın müasir mərhələsində estetik tərbiyənin mühüm problemlərindən biri adamlarda yetkin emosional həyatın – estetik tələbatın, estetik zövqün və estetik ideallarn daim inkişaf etdirilməsidir. Ləyaqətli həyat tərzi üçün qabiliyyətə, biliklərə və təcrübəyə, xarakterin gücünə malik olan, yüksək ideallarla yaşamağa meyl edən zəngin mənəviyyatlı şəxslər səciyyəvidir. Əlbəttə, irəliyə doğru inkişafımızın gedişi yalnız təhsilə, elmi biliklərə yiyələnən şəxslərin hazırlanması ilə deyil, eləcə də cəmiyyətdə gözəllik qanunlarının köməyi ilə ictimai həyat hadisələrini dərindən dərk edən və düzgün qiymətləndirən şəxsiyyət yetişdirilməsi ilə şərtlənir. Cəmiyyətdə baş verən sosial dəyişikliklərin mahiyyəti yalnız adamların maddi həyat tərzi ilə deyil, eləcə də onların mənəvi siması, emosional-estetik qabiliyyəti, əxlaqi-estetik gözəlliyi ilə müəyyən olunur. Cəmiyyət üzvlərinin ümumi mədəni səviyyəsi nə qədər yüksək olarsa, iqtisadi quruculuq və mənəvi yaradıcılıq məsələlərinin həlli də bir o qədər sürətlənər.

İnsan dünyada özünü bütün hissləri ilə təsdiqləyir. Əlbəttə, belə hisslərdən biri estetik hissdir. Estetik hiss estetik şüurun ən adi formasıdır. İnsanın estetik hisslərində onu əhatə edən aləmə, başqalarına, həmçinin, öz-özünə münasibəti ifadə olunur. Estetik hissin idrakı tərəfi də mövcuddur. Həmin hissdə predmet və hadisələrin keyfiyyəti, əlaqələri açılır və beləliklə, onların insan üçün əhəmiyyəti üzə çıxır. İnsanın öz estetik hissinin təbiətini düzgün başa düşməsi onun emosional, estetik inkişafının çıxış nöqtəsidir. Estetik hiss dünyanın ahəngini, həyatdakı hadisələrin gözəlliyini və eybəcərliyini bilavasitə dərk etmək



və duymaq qabiliyyətidir. Bu hiss insanı nəcibləşdirir, mənəvi ləyaqətə istiqamətləndirir. Estetik hiss, hissi-emosional həyatın oyanması və tərbiyəsi ilə başlayır. İnsanın estetik hissi nə qədər kamil olarsa, əxlaqi problemləri bir o qədər asan başa düşər və qiymətləndirər. Çünki estetik hiss xeyirxahlığın, mənəviyyatın əsasıdır. Məhz, bu mənada estetiklik mənəviliyin cövhəri kimi mənalanır.

İnsanın emosional-psixoloji həyatının zənginliyini səciyyələndirən cəhətlərdən digəri estetik zövqdür. Estetik zövq estetik hissin inkişafı prosesində təşəkkül tapır. Estetik zövq estetik sərvətləri, gözəlliyi, mənəvi ucalığı, eyni zamanda eybəcərliyi, riyakarlığı, rəzilliyi qiymətləndirmək bacarığıdır. İnkişaf etmiş estetik zövq estetik hadisələrə nəinki emosional münasibətdir, eləcə də həmin hadisələr barədə yetkin mühakimə və mülahizələr yürütmək bacarığıdır. Böyük Fransa maarifpərvəri J.J.Russo qeyd edirdi ki, zövq ağıl üçün, mühakimə üçün bir növ mikroskopik rolunu oynayır: Ağıl, zəka kimi estetik zövq də mahiyyət etibarilə gözəlliyi hiss etmək qabiliyyətindən başqa bir şey deyildir.

Estetik zövqün yanlış istiqamətdə, qeyri-sağlam tərzdə formalaşması ümummədəni inkişafa, müasirləşməyə, mənəvi yeniləşməyə, əxlaqi saflaşmaya ciddi maneələr törədə bilir. İnsanın idrak qabiliyyəti, düşüncə tərzi inkişaf edib kamilləşdikcə, onun varlığa estetik münasibəti təkmilləşir, daha da yetkinləşir.

Emosional həyatın mükəmməlliyini ifadə edən qiymətli çalarlardan biri isə estetik qiymətləndirmədir. Estetik qiymətləndirmə predmet və hadisələrin məziyyəti və çatışmazlığı barədə düşünülmüş, əhatəli və səriştəli təsəvvür yaratmaq qabiliyyətidir. Bu və ya digər hadisəni,

başqalarını birtərəfli səciyyələndirərkən adətən həmin hadisə və adamların ən xarakterik keyfiyyətləri nəzərə alınır. Lakin hər hansı predmet, hadisə və insanın özü hərtərəfli qiymətləndirildikdə bunların bütün cəhətlərinin məcmuu əsas götürülür. Məsələn, bu yoldaş «gözəl insandır» dedikdə onun bütün nəcib keyfiyyətləri nəzərə alınır.

Estetik hiss, zövq və qiymətləndirmə əslində insanın estetik mədəniyyətini əks tedirir. Estetik mədəniyyət adamların estetik biliklərinin, görüşlərinin, ideallarının məcmuu, onların estetik zövqü və inamıdır. Deməli, estetik mədəniyyət şəxsiyyətə və cəmiyyətə estetik münasibətlərin müəyyən məcmuunun ifadəsidir. Bununla yanaşı o, insanın estetik sərvətləri sistemli şəkildə mənimsəməsidir. Əgər estetik biliklər və ideallar əməli fəaliyyətdə öz ifadəsini tapmırsa, o ölüdür, həyati deyildir və belə halda insan estetik mədəniyyətdən məhrumdur.

Əsil estetik mədəniyyətə o zaman yiyələnmək mümkündür ki, insan öz bilik və təsəvvürlərini, ideal və inamını, hiss və qabiliyyətini mənəvi-əməli fəaliyyətdə, maddi və mənəvi sərvətlərin yaradılması prosesində təcəssüm etdirir.

Yaradıcılığa, fəaliyyət və davranış gözəlliyinə olan tələbat həmişə adamların mənəvi aləminin ayrılmaz keyfiyyətləri kimi səciyyələnir. Bu cəhət yüksək yaradıcı hisslərin, fəal axtarışların, ideya inamının, əxlaqi şüurun formalaşmasını müəyyən edən amillərdəndir. Gözəllik və yaradıcılıq ayrılmazdır. Rus mütəfəkkiri N.Q.Çernışevski gözəlliyə mükəmməl tərif verərək demişdir: «Gözəllik – həyatdır. O adamda ki, siz həyat görürsünüz, o gözəldir». Valideyn üçün öz uşağı dəcəl də olsa həmişə gözəldir. Lakin hər gözəllik insana həmişə sevinc bəxş etmir. Məsələn, gözəl qadın ağılsız, yalançı və ya pinti olduqda ikrah hissi doğurur. Hər hansı bir şəxs xeyirxah, faydalı, nəcib iş görürsə, o, gözəl insandır. Ailə həyatı o vaxt gözəl olur ki, onu sevgi və dostluq hissləri isindirsin. Yalnız yüksək ideyalı, saf mənəviyyatlı insan həyatı gözəllik qanunlarının köməyi ilə dəyişdirməyə, yeniləşdirməyə qadir ola bilər.

İnsanın mənəvi zənginliyi onun estetik qabiliyyəti və emosional fəaliyyətinin kamilliyi ilə müəyyən olunur. Buna görə insanda inkişaf etmiş estetik hiss və təsəvvürlərin, estetik tələbat və marağın formalaşdırılması xüsusi məna daşıyır. Çünki estetik şüur gerçəkliyi estetik hiss və təsəvvürlərdə, estetik tələbat və maraqda əks tedirir. İnsanın dünyagörüşü və əxlaq normaları ilə sıx bağlı olan estetik keyfiyyətlər həm də təbiət və cəmiyətdə baş verən hadisələri təhlil etmək, ümumiləşdirmək və qiymətləndirmək bacarığıdır.

Təəssüf ki, cəmiyyətimizdə insanların, xüsusilə gənclərin müəyyən qisminin estetik aləmi hələ yetkin səviyyədə deyil, onların estetik bilik və təsəvvürləri, estetik davranışı, bütövlükdə emosional sərvət mənəvi cövhər səviyyəsinə yüksəlməmişdir. İnsanların estetik tələbatının zəif inkişafı, estetik biliklərə səthi yiyələnməsi və bəsit estetik zövqə malik olması nəinki onları bədii sərvətlər aləmindən təcrid edir, həm də nəcib əxlaqi hisslərdən uzaqlaşdırır. Bir sıra mənfi halların, xüsusilə, sərxoşluğun, cinayətkarlığın kök saldığı şərait gənclərin asudə vaxtının təşkilində, onların mənəvi inkişafında olan nöqsanlardan irəli gəlir. Sosioloqlar təsdiq edirlər ki, cinayət törədənlər arasında kitabı, incəsənəti dərindən sevən, bədii özfəaliyyət, bədən tərbiyəsi və idmanla məşğul olan gənclərə rast gəlmək çətindir.

Təəssüf ki, hazırda gənclərimiz arasında xırda hisslərə, cılız emosiyalara maraq güclənir, elmdən uzaqlaşmaq, meyl güclənir, mənəviyyatsızlıq halları qabarıq şəkildə təzahür edir. Hətta primitiv həyat tərzinə, bahalı maşına və onu əldə etməyə meyl güclənir, küçələrdə sürətlə maşın sürmək «yarışı» baş alıb gedir.

Aşağı səviyyəli, gəncləri korlayan, onlarda cəmiyyətə qarşı istehlakçı münasibəti, həyatın mənasını əşyada və kef çəkməkdə görməyə sitayiş formalaşdıran videofilmlərə, maqnitafon yazılarına aludəçilik xüsusilə dözülməzdir. Yadda saxlamaq lazımdır ki, mənəvi eybəcərlik bir qayda olaraq cəmiyyətə, xalqa zidd halların təzahürünə gətirib çıxarır. Kütləvilik pərdəsi altında bayağı, cılız proqramlarla çıxış edən musiqi ansamblları və «ulduz» müğənnilər meydana çıxır ki, bu da ideya və estetik cəhətdən çox zərərlidir. Mədəni mübadilə yolu ilə xaricdən bizə məzmunlu əsərlərlə yanaşı, ideyasız, bayağı, bədii cəhətdən cılız filmlər və musiqi də gəlib çıxır. Unutmaq olmaz ki, burada ön planda kommersiya mülahizələri deyil, mənəviyyat mülahizələri durmalıdır.

Şəxsiyyətin mənəvi aləmində estetik amillərin rolu elmi-texniki inqilab şəraitində daha qabarıq şəkildə nəzərə çarpır. Bu ən əvvəl, insan idrakının dərinləşməsi, adamların dəyişdirici fəaliyyətinin vüsəti və gerçəkliyə əhatəli nüfuzetmə qabiliyyətinin yetkinliyi ilə izah olunur. İnsanın fəaliyyəti nə qədər geniş və düşüncəli olarsa, onun emosional həyatı və estetik təcrübəsi də bir o qədər zəngin, rəngarəng olar.

Müasir insanın emosional həyatının zənginliyi, estetik yetkinliyi hər şeydən əvvəl, onun mənəvi mədəniyyətə nə dərəcədə yiyələnməsi və maraq səviyyəsi, ondan istifadə etmək bacarığı ilə müəyyən olunur. Burada mədəni adam anlayışı meydana çıxır. Mədəni adam heç də hər kəsin özünəməxsus tərzdə başa düşdüyü, qiymətləndirdiyi anlayış deyildir. Mədəni adam mövhumu bu və ya digər şəxsin daxili və xarici mədəniyyətini ifadə edir. Yüksək mədəniyyətə malik olan insanın daxili və xarici mədəniyyəti vəhdət, ahəngdarlıq təşkil etməlidir. Davranış mədəniyyəti barədə rus yazıçısı A.P.Çexovun öz qardaşına göndərdiyi öyüd-nəsihət məktubunun ruhunu bu yazıçının belə bir məşhur fikri ifadə edir ki, insanda hər şey – üz də, geyim də, qəlb də, fikir də gözəl olmalıdır.

Mədəni insan geniş, mürəkkəb və çoxmənalı anlayışdır. O, sözün geniş və adi mənasında insan idrakının qüdrətini, düşüncə tərzini, başqalarına qarşı mehribanlığı, səmimi ünsiyyəti, xeyirxahlığı, nəcibliyi, sadəliyi, təvazökarlığı, humanizmi, alicənab davranışı və s. keyfiyyətləri özündə təcəssüm etdirir. Alicənablıq düşüncə tərzimizdə və fəaliyyətimizdə möhkəm yer tutmalıdır. Nəinki yüksək ideyalı, həm də yüksək ideallı şəxsiyyətin yetişdirilməsi estetik tərbiyənin canı olmalıdır. Xalqımızın böyük mütəfəkkiri Mirzə Fətəli Axundov incəsənətin məqsədi «insanların əxlaqını yaxşılaşdırmaqdır» – dedikdə məhz, estetik keyfiyyətlərlə əxlaqi mədəniyyətin sıx əlaqəsini nəzərdə tutmuşdur.

İnsanın yüksək sosial keyfiyyətləri, ictimai ləyaqəti, əməksevərliyi, namuslu olması bütövlükdə onun mənəvi qüdrətidir, emosional sərvətidir, sözün müəyyən mənasında isə mədəni simasının göstəricisidir. İnsanın daxili mədəniyyəti, mənəvi nüfuzu xüsusilə əməyə münasibətdə – əmək mədəniyyətində təzahür edir. Əmək ən nüfuzlu müəllim, qüdrətli tərbiyəçidir. Bu mənada əməyə yaradıcı,

vicdanlı münasibətin tərbiyə olunması mədəni insanın formalaşdırılması üçün mühüm və spesifik şərtdir. Artıq yalnız özün üçün, «özünkülər» üçün deyil, eləcə də başqalarının, xalqın mənafeyi naminə çalışmaq, cəmiyyətin zəhmətkeş və istedadlı, namuslu üzvlərinin həyatına sevinc və fərəh bəxş etmək vaxtıdır.

Bax, əsil mədəni adamın vətəndaş kimi özünü təsdiqləməsi və əxlaqi tələbkarlığı yalnız bu ruhda cilalanmalıdır. İnsanın öz mənəvi böyüklüyünü, ictimai sanballığını düzgün dərk etməsi və obyektiv qiymətləndirməsindən nəşələnməyə tam əxlaqi haqqı vardır. Əməli fəaliyyətdə özünü yüksək əxlaqi keyfiyyətlərlə təsdiqləməyən insan əsl vətəndaş-şəxsiyyət səviyyəsinə yüksələ bilməz.

Şəxsiyyətin daxili mədəniyyətinin, estetik ləyaqətinin mühüm göstəricilərindən biri də mənəvi sərvətlərə münasibətdir, estetik sərvət yönümüdür. Gözəlliyi dərk etmək, onu qiymətləndirmək və yaratmaq, həyata gözəllik bəxş etmək, riyakarlığa, rəzilliyə, yaltaqlığa və yarınmağa, bir sözlə, gözəllik qanunlarına zidd olan hər şeyə qarşı mübarizə şəxsiyyətin mədəniyyətini, estetik aləmini səciyyələndirən xüsusiyyətdir.

Mənəvi sərvət olmaq etibarilə incəsənət və ədəbiyyat insanda yaradıcı fikirləşmək, dərindən düşünmək və hiss etmək qabiliyyəti tərbiyə edir, bizi şəxsi təcrübə çərçivəsindən keçmiş, indi və gələcək haqqında geniş və zəngin təsəvvürlər aləminə istiqamətləndirir. İncəsənət sağlam və kamil estetik düşüncə tərzinin təşəkkülü üçün real və əlverişli zəmin yaradır. İncəsənətsiz bədii-estetik, emosional həyat yoxdur.

Şəxsiyyətin mənəvi həyatının ahıngdarlığından asılı olan emosional aləm heç də həmişə zəruri sosial yetkinliyə



malik olmur. Məsələn, apardığımız sosioloji tədqiqatların nəticələri göstərir ki, yaşlı nəslin və gənclərin heç də hamısı incəsənəti estetik zövq vasitəsi kimi dərk etmir.

Yetkin bədii estetik təfəkkür yüksək mənəviyyatın, hissi kamilliyin, dərin bədii duyumun sistemli ifadəsidir. İndiki ziddiyyətli və mürəkkəb keçid dövründə cəmiyyətimizdə belə bir təfəkkürün formalaşması onun irəliyə doğru inkişafına təkan verər. Çünki yeni sosial problemlərin müvəffəqiyyətli həlli, iqtisadi və siyasi islahatların uğurla həyata keçirilməsi, həm də adamların estetik qabiliyyəti və yaradıcı axtarışları ilə sıx bağlıdır. Estetik fəallıq, emosional kamillik şəxsiyyətin sosiallaşmasının mühüm vasitəsidir.

Belə bir cəhəti qeyd etmək lazımdır ki, maddi imkanların artması müəyyən əxlaqi-estetik problemlər doğurur. Lakin maddi imkanların yüksəlməsi, maddi həyat şəraitinin yaxşılaşması adamların əxlaqi şüurunu, estetik hiss və təsəvvürlərin yetkinliyini hamar yolla formalaşdırmır. İnsanların yaşayış tərzinin, güzəranının sağlam mənəvi-estetik tələbatla məqsədyönlü əlaqələndirilşməsi estetik şüurun, estetik düşüncə tərzinin müsbət istiqamətdə inkişafına real və əlverişli zəmin yaradır.

Mənəvi cəhətdən daha da təkmilləşmək, mənəvi mədəniyyətin zirvəsinə ucalmaq şəxsiyyətin hərtərəfli inkişafının obyektiv meyli, zəruri tələbidir. Bu cəhət adamların bədii-emosional mədəniyyətə yiyələnməsini həyatı zərurətə çevirir. Yüksək bədii-estetik keyfiyyətlərə malik olmaq insana məzmunlu, mənalı yaşamağı təlqin edir, onun mənəvi nüfuzunu yüksəldir, estetik fəaliyyəti üçün geniş meydan açır. Estetik sərvətlərin müntəzəm və sistemli mə-

nimsənilməsi nəinki adi və elmi şüurun, həm də fərdi və ictimai şüurun təkmilləşməsinə əhəmiyyətli təsir göstərir.

Təəssüf ki, hazırda təhsil ocaqlarında gənclərdə estetik keyfiyyətlərin formalaşdırılmasına diqqət yetirilmir. Nəticədə yüksək ixtisaslı mütəxəssislərin mədəni-estetik qabiliyyəti günün tələbləri səviyyəsindən xeyli aşağı olur. Bu arzuolunmaz hal nəinki gözəlliyi qiymətləndirmək başlıcası isə həyata gözəllik bəxş etmək imkanlarını heçə endirir.

Gənc nəslin estetik şüurunun bütün formalarının, o cümlədən estetik hiss, zövq və ideallarının daha da inkişaf etdirilməsi əslində onların estetik tələbatının təkmilləşməsi və yüksəlməsi deməkdir. Lakin sağlam estetik maraq və tələbatın, yetkin emosional həyatın formalaşması təkcə mənəvi sərvətlərin mənimsənilməsini nəzərdə tutmur. Hər bir şəxsin fəaliyyəti ən əvvəl, mənəvi sərvətlər bolluğunun yaradılmasında yaradıcı surətdə və fəal iştirak etməyə, xalqımıza xidmət göstərməyə istiqamətlənməlidir.

İnkişafımızın gedişinə, mədəni quruculuq vəzifələrinin həllinə nəinki əxlaqi, ideyalı münasibətin rolu, həmçinin emosional-estetik münasibətin əhəmiyyəti getdikcə yüksəlir. Bununla əlaqədar olaraq cəmiyyət üzvlərinin mənəvi-estetik tələbatının xarakteri və məzmun səviyyəsi də təkmilləşir dirilməlidir. Bunsuz cəmiyyətimizin mənəvi sağlamlığı çətinləşər.

### 3.4. Təfəkkür mədəniyyəti və mənəvi sima

İnkişaf etmiş yetkin, intellektual səviyyəli şəxsiyyət, dərin düşüncəli vətəndaş məhz insanların sosial fəaliyyəti praktikasında formalaşır. Lakin yüksək mənəviyyatlı şəx-



siyyətin təşəkkülü həm də cəmiyyət üzvlərinin mənəvi zənginliyi, onların dünyagörüşü biliklərinə dərindən yiyələnmələri ilə sıx bağlıdır. Cəmiyyət elmdə, təhsildə, mədəniyyətin bütün sferalarında cəmlənmiş intellektual, mənəvi potensialı hər vasitə ilə fəallaşdırmadan ictimai həyatın yeniləşdirilməsi ağlasığmazdır. Mədəniyyətin sosiologiyasını səciyyələndirən ən başlıca amillər təhsil və elmdir, bunların qarşılıqlı dialektik vəhdətidir.

Mənəvi mədəniyyətin ünsürləri sırasında təhsil xüsusi yer tutur. O, adamların yüksək mədəni səviyyəyə yiyələnməsi və tarixi-mənəvi prosesləri düzgün izləməsi üçün ilk şərtdir.

Məlum olduğu kimi, sosial əhəmiyyətli ünsiyyət mədəniyyətinin formalaşması, insanın öz xalqına bağlılığı və müəyyən şəraitdə necə hərəkət etməsi, başqaları ilə öz münasibətlərini sağlam tərzdə tənzimləməsi ən əvvəl, onun əxlaqi səviyyəsi ilə müəyyən olunur. Lakin burada təhsilin özünəməxsus əhəmiyyətini unutmaq olmaz. Təcrübə dönə-dönə təsdiqləyir ki, ictimai cəhətdən ədalətli tələbləri ifadə edən mənəvi-əxlaqi normaların şəxsiyyət tərəfindən mənimsənilməsi xeyli dərəcədə təhsil səviyyəsi ilə şərtlənir. Təhsil adamların öz xalqının təbii və mənəvi sərvətlərinə vicdanlı ictimai tələbatını doğurur, şəxsiyyətin milli marağının yüksəlməsi perspektivinə əhəmiyyətli təsir göstərir, onun fəaliyyət xarakterini nəcibləşdirir, həyatın bütün sahələrində keyfiyyət yeniliklərinin baş verməsində böyük rol oynayır. Təhsil prosesi təkcə təlim vəzifələrini deyil, həm də tərbiyə funksiyalarını həyata keçirir. Başqa sözlə, həmin prosesdə insan mənsub olduğu cəmiyyətin irəli sürdüyü və əsaslandırdığı mənəvi-estetik biliklərə cəlb edilir, əxlaqi, milli və bəşəri tələbləri mənimsəmək səviyyəsi-

nə yüksəlir və beləliklə, ictimai tərəqqiyə, mütərəqqi proseslərə fəal təsir göstərir. Bununla bağlı respublikamızda təhsil sferasında nəzərə çarpan əyintiləri aradan qaldırmaq vacibdir.

Lakin bu heç də o demək deyil ki, bütün təhsilli adamlar və hətta elmi dərəcəsi olanlar, həm də dərin düşüncə tərzinə, yetkin təfəkkür mədəniyyətinə və dərin savada malikdir. Təhsil və elmi dərəcə özlüyündə mənəvi-əxlaqi ləyaqətin, idraki qüdrətin meyarı və göstəricisi deyil. Təhsil məhz savadlanmağın, maariflənmənin, dürüst təsəvvürlərin mənəvi zəminidir və tərbiyəvi təsir sisteminin ünsürü kimi çıxış edir. İnsan təhsil ocaqlarında, şəxsi təhsil və mütaliə yolu ilə mənimsədiyi bilikləri ideya inamına çevirib bundan uğurlu fəaliyyət, xalqına xidmət üçün düzgün nəticə çıxarmırsa, o, kamil şəxsiyyə, yetkin vətəndaş səviyyəsinə yüksələ bilməz. Məhz, bu mənada respublikamızda indiki təhsil sisteminin məzmununa tənqidi yanaşmaqla onu yeni bəşəri təfəkkür tərzinə uyğunlaşdırmaq həyati tələbatdır.

Məlum həqiqətdir ki, hər bir şəxsin müxtəlif mənbələrdən əxz etdiyi biliklər onun fərdi əxlaqi təsəvvürləri, xarakteri və əhval-ruhiyyəsinin xüsusiyyətləri baxımından mənimsənilir. Deməli, bu və ya digər şəxs müəyyən biliklərə, sosial-əxlaqi prinsiplərə və normalara bələd ola bilər, lakin bunları öz davranışının meyarına çevirməz.

Bu çatışmazlığa yol verməmək üçün insan ən əvvəl, dərin ictimai-milli düşüncə tərzinə, yetkin mənəvi davranış vərdişlərinə və adətlərinə yiyələnməlidir. Belə olduqda şəxsi mənafe ilə milli mənafe arasında aydın yol seçmək asanlaşır və xalqına təmənnasız həqiqi xidmət etmək, fəaliyyətin sağlam sosial yönümü öz məcrasına düşür. Deməli, əsil vətəndaşlıq mövqeyinə yol açılır. Axı, idraki-əxlaqi düşüncənin zirvəsi vətəndaşlıq ləyaqətidir. Belə ləyaqətə ictimai tələbat isə hazırki şəraitdə bütün kəskinliyi ilə qarşıda durur. Təlim-tərbiyə prosesinin məqsədi sadəcə olaraq müəyyən biliklərə yiyələnən nəsillərin yetişdirilməsi deyil, ən başlıcası böyüməkdə olan nəsli, hər bir gənci ləyaqətli vətəndaş, xalqını, elini sevən dərin əqidəli vətənpərvər kimi formalaşmaqdan ibarətdir.



İqtisadiyyatın, elmin və mədəniyyətin müxtəlif sahələri üçün qabiliyyətli gənclərin hazırlanması üçün ən böyük vəzifə və məsuliyyət şübhəsiz, ali və orta ixtisas məktəblərinin üzərinə düşür. Sözün əsil mənasında müəllim adını daşıyan hər bir ziyalı maddi vəziyyətindən asılı olmayaraq xalqı üçün istedadlı, sağlam düşüncəli, bir sözlə, dərin idraka malik insanlar yetişdirməkdə ciddi məsuliyyət daşımalıdır. Öz vətəndaşlıq borcunu sadəcə olaraq pedaqoji fəaliyyətdə görmək, tədris etdiyin fənnə dair dərs yükünü başa çatdırmaqla «rahat nəfəs almaq», eyni zamanda öz xüdbin mənafeyindən uzaqlaşmamaq, seyrçilik, «mənə nə» – cılız təsəvvürlərlə silahlanmaq əsl müəllim üçün böyük qəbahətdir.

Mənəvi həyatımızın yüksəlişi naminə bir tərəfdən ali və orta ixtisas məktəblərində tədrisin keyfiyyəti həmişəkindən daha artıq dərəcədə yüksəldilməli, digər tərəfdən isə həmin təlim ocaqlarına dərin biliklərə malik gənclərin qəbul olunması üçün ciddi düşünmək lazımdır. Bu məqsədlə yüksək ixtisaslı təhsil müəssisələri orta ümumtəhsil məktəbləri ilə əvvəlki dövrə xas olan əlaqələri genişləndirmək və həmin əlaqələrin daha səmərəli və uğurlu cəhətlərinə yiyələnmək sahəsində köklü iş görməlidir.

Ali məktəbləri bitirən bəzi nümunəvi, qabiliyyətli məzunlar layiq olduqları işlə təmin olunmaqda çətinlik çəkirlər. Əksinə qabiliyyəti, istedadı və işgüzarlığı ilə diqqəti cəlb etməyən şəxslərin müəyyən qismi himayədarlıq sayəsində «istəyinə» nail olur və hətta sürətlə «inkişaf edirlər». Mayası cır münasibətlərdən, siqləti cılız, məhdud mənafedən yoğrulan «qayğı» xalqa nə verər? Əgər biz gələcək üçün sözün əsil mənasında savadlı, təmiz, qəlbi xalqına xidmət etmək arzusu ilə döyünən nəsillər yetişdirməkdə əyintilərə yol verməsək bundan xalqımız çox faydalanar. Xalqa həqiqi xidmət sadəcə olaraq diploma yiyələnməklə deyil, hərtərəfli biliklərə, dərin təfəkkür mədəniyyətinə, sağlam milli düşüncə tərzinə malik olmaqla şərtlənir.

**Ali və orta ixtisas təhsilinə yiyələnib əldə etdiyi ixtisas üzrə elementar biliklərə yiyələnməyən diplomlu «mütəxəssisləri» nə adlandırmaq olar? Eləcə də elmi dərəcəsi olan, lakin elmdən xəbərsizlərə nə ad verək?**

Açığını deyək ki, ali və orta ixtisas məktəblərimizi qurtaran gənclərin müəyyən hissəsi «yazıb-oxumağı» bacarsa da (deməli «savadsız» deyil) əldə etdikləri ixtisas üzrə minimum biliklərə belə yiyələnmirlər. Ali məktəbdə təhsil alması ilə «qürrələnən» belə gənclər biliklərə yiyələnməyə, mütaliəyə həqarətlə, müəllimlərə rişxəndlə baxır. Şübhəsiz, belələri gələcəkdə çalışacaqları kollektivlərin həyatına da xüdbin münasibət bəsləyəcək, cəmiyyətə, xalqa az şey verib, ondan çox şey «qoparmaq» əqidəsi ilə yaşayacaqlar. Çox təəssüf ki, belələri həm də «münbit» ictimai mövqelərə çox asanlıqla yiyələnə bilirlər. **İctimai həyatın sferalarında, hətta elmin, mədəniyyətin müxtəlif sahələrində özünə «yer tapan» həmin şəxslərdən xalqımız, cəmiyyət necə bəhrələnər?**



«Öz gücünü», «rahatlığını» başqalarının səadətini tapdalamaqda görənlər, ləyaqətli adamların mənəvi haqqını dananlar məhz, xalqımızın böyük mütəffəkkür oğlu N.Nərimanovun dediyi xalqını sevməyən yalançı pəhləvanlardır.

Xalqının mənəvi tərəqqisi üçün məsuliyyət daşımalı olan hər bir vəzifəli şəxsin düşüncə tərzinin epiqrafı məhz belə bir kəlam olmalıdır: Xalqın ən böyük sərvəti onun mənəvi keyfiyyətləridir, milli istedadlardır. Deməli, amalımız, «cib sərvətinə» «parıltılı maşın» və villalara yiyələnmək səyləri yox, mənəvi sərvətlərə əhatəli qovuşmaq, xalqa namusla, vicdanla xidmət etməkdən ibarət olmalıdır.

Hazırkı şəraitdə cəmiyyətimizin yüksəlişi passiv əxlaqdan, təfəkkürdəki ətalətdən, ləyaqətli adamlara zidd olan subyektiv qərəzli fəaliyyət tərzindən birdəfəlik xilas olmaq lazımdır.

Yadda saxlamaq lazımdır ki, şəxsiyyətin cəmiyyətdəki mövqeyi, ictimai ləyaqəti və başqalarına münasibəti sadəcə olaraq onun fəaliyyəti ilə deyil, necə fəaliyyəti, fəaliyyətinin milli sosial-əxlaqi yönümü ilə müəyyən olunur. Qarşımızda duran taleyüklü məsuliyyətli vəzifələrin həlli hər bir namuslu adamın, xüsusilə, sözün əsil mənasında vətəndaş ziyalı adlanan şəxsin mübariz, şərəfli həyat mövqeyinə yiyələnməsindən çox asılıdır.

Təfəkkürün demokratikləşməsi prosesinin genişləndiyi hazırkı şəraitdə xalqımızın keçmişi, bugünü və gələcəyi haqqında həqiqətləri adamlara çatdırmaq səyləri subyektiv mülahizələrə, emosiyalara deyil, sağlam zəkaya,

obyektiv reallıqlara əsaslanmalıdır. İdraki fəallıq, mütərəqqi mənəvi davranış vərdişləri yalnız insanın şəxsi əqidəsi və vətəndaşlıq mövqeyi, ictimai qeyrəti əsasında təşəkkül tapa bilər. Məhz təfəkkür mədəniyyətinə dərindən yiyələnmək nəticəsində insan sürətlə dəyişən ictimai həyatdan, ziddiyyətli hadisələrdən dürüst baş çıxarmağı bacarır, müstəqil qərara gəlir, həqiqəti sözə, ibarələrə inanıb qəbul etmir, ona sübutla, inandırıcı əsaslandırma yolu ilə gəlib çıxır. Həqiqətin əsaslandırılmasına, sübut edilməsinə bu cür tələbkarlıq və adamların həqiqəti müstəqil dərk etmək arzusu şübhəsiz, müsbət, mütərəqqi haldır. Həyat həqiqətini adamlara saxtalıqla sözdə deyil, işdə, müsbət nümunədə inandırmaq lazımdır. Şəraitə uyğunlaşmaq deyil, şəraiti sağlamlaşdırmaq, ətrafında baş verən xalqa zidd hərəkətlərə seyriçilik mövqeyindən yox, fəal vətəndaş kimi müdaxilə etmək həyatımızın ahəngdar inkişafının zəruri şərtidir.

Qeyd edək ki, təhsillə təfəkkürün daxili bağlılığı, məntiqi əlaqəsi həm də mütaliə prosesində daha əhatəli təmin olunur. Mütaliə ictimai şüurun inkişafına faydalı və yaradıcı təsir göstərir, fəal düşünən ləyaqətli ziyalı şəxsiyyətinin tərbiyələndirilməsində özünəməxsus rol oynayır. Mütaliə gerçəklikdən, ətraf aləmdən «qaçmaq» deyil, əslində xarakter bütövlüyünün formalaşmasına, insan həyatının mənasızlıqdan xilas olmasına yönələn mənəvi prosesdir. Mütaliənin mövzu dairəsinin məhdudluğu mənəvi cəhətdən sanballı şəxsiyyətin, fəal vətəndaşın təşəkkülünə kömək edə bilməz. Mütaliə özünütərbiyənin, insanın özünü təsdiqinin etibarlı vasitəsidir. Təəssüf ki, bu mənəvi – məsuliyyətli hadisəyə böyük laqeydlik simasının diqqəti cəlb edir – mütaliəyə maraq xeyli zəifləyib.



Xalqımızın qarşısında duran mürəkkəb vəzifələrin həllinə vətənpərvər münasibətin formalaşmasında şəxsi təhsilin, ciddi mütaliənin əhəmiyyəti bu gün həmişəkindən daha çox nəzərə çarpır. İctimai fəaliyyətin bütün sahələrində, xüsusilə, xalqın tarixini mükəmməl öyrənməkdə onun rolu getdikcə artır. Şəxsi təhsil, mütaliə insanın şəxsiyyət səviyyəsinə yüksəlməsində, onun dünyagörüşünün, milli şüurunun formalaşmasında xüsusi əhəmiyyət daşıyır.

Ümumiyyətlə, şəxsi təhsil ictimai əhəmiyyətli mənəvi tələbatın ödənilməsinə ciddi təsir göstərir. Amma təəssüf ki, mütaliəyə, özünütərbiyəyə laqeyd yanaşa olan ziyalılara da xeyli təsadüf edilir.

Şəxsiyyətin mənəvi sanballığının təzahür formaları çoxcəhətlidir. Belə ki, prinsip etibarilə yüksək mənəvi sima ictimai faydalı fəaliyyətin hər hansı bir növündə təzahür edə bilər, çünki mənəviyyat hər şeydən əvvəl, insanın öz fəaliyyətinə münasibətində daha qabarıq nəzərə çarpar, elə bir münasibətində ki, bu və digər şəxs öz fəaliyyətini necə dərk edir və qiymətləndirir, başlıcası isə həmin fəaliyyətə insanı hansı maraq və tələbat təhrik edir. Əgər bu və ya digər şəxsin fəaliyyəti məhdud fərdi xarakter daşımırsa, eqoist, qeyri-əxlaqi və xalqa zidd məqsədlərin təntənəsinə istiqamətlənmirsə və yalnız xalqın ümumi mənafeyinə xidmət etməyə yönəlirsə belə fəaliyyət milli ləyaqətin və ictimai nüfuzun mücəssiməsidir. Təəssüf ki, xalqın adından öz məhdud, xudbin mənafeyi üçün istifadə edən dönük adamlara, siyasətbazlara hələ də rast gəlirik. İnsanın mənəvi mədəniyyəti yalnız bilikli, çox məlumatlı və təhsilli olması ilə tamamlanmır. Şəxsiyyətin sosiologiyasının, yüksək mənəvi simasının mənbəyi onun həyata, əhatəsində olduğu mühitə, mürəkkəb ictimai hadisələrə

fəal, yaradıcı və eyni zamanda məsuliyyətli vətəndaş münasibətidir. İnsanın bütün yaradıcı imkanlarını üzə çıxarmaq qabiliyyəti və özünü namuslu, yetkin şəxsiyyət kimi ifadəsi və təsdiqləməsi şübhəsiz, onun xalqına xidməti ilə qırılmaz surətdə bağlıdır. Məhz bu cəhət şəxsi ləyaqətin zirvəsidir. İctimai əhəmiyyətli davranış və tələbatın yetkinliyi vətənə məhəbbətin, xalqa sədaqətin ifadəsindən başqa bir şey deyildir.



# IV FƏSİL

# ŞƏXSİYYƏT SİYASİ MƏDƏNİYYƏT SFERASINDA

## 4.1. Siyasi mədəniyyətin məzmunu və funksiyaları

Müasir elmi ədəbiyyatda siyasi mədəniyyətin kifayət qədər əsaslandırılmış elmi təriflərinə rast gəlirik. Siyasi mədəniyyətə dair təriflərin əksəriyyətində onun ən mühüm cəhətləri və xüsusiyyətləri öz əksini tapmışdır. Lakin siyasi mədəniyyət anlayışına dair rəy müxtəlifliyi heç də bu anlayışın lazımi səviyyədə araşdırılmamasından deyil, məhz, onun mürəkkəbliyi və çoxcəhətliliyindən irəli gəlir.

Siyasi mədəniyyət özündə şüurun, siyasətin və mədəniyyətin əlamətlərini birləşdirir. Maddi və mənəvi mədəniyyət kimi, siyasi mədəniyyət də mədəniyyət anlayışının müstəqil komponentidir. Mədəniyyətin ümumi sistemində siyasi mədəniyyətin xüsusi və spesifik yer tutması ictimai hadisə olan siyasətlə şərtlənir. Cəmiyyətin sosial-siyasi təsisatları məhz, maddi və mənəvi mədəniyyətin "qovuşağında" yerləşir.* Bu cəhət siyasi mədəniyyətin xüsusiyyətlərində özünü aydın göstərir.

Siyasi mədəniyyət nəinki siyasi şüurla (siyasi biliklər, görüşlər, təsəvvürlər, inam və s.), həm də adamların sosial-siyasi mədəniyyəti ilə sıx vəhdət daşıyır. O, təkcə siyasi mənafeləri və siyasi münasibətləri deyil, həmçinin fəal sosial-siyasi fəaliyyəti özündə əks etdirir.

---

* В.Ж.Келле, М.Я.Ковальзон. Теория и история. М., 1981. səh. 241-244.

Siyasi mədəniyyət ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsini və xarakterini səciyyələndirir, vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını ifadə edir. Eyni zamanda, siyasi mədəniyyət siyasi davranışın müəyyən tiplərinin formalaşmasına imkan yaradır və ona spesifik istiqamət verir.

Siyasi davranışla siyasi mədəniyyət arasında sıx əlaqə mövcuddur. Siyasi mədəniyyət məhz, siyasi davranış vasitəsilə reallaşır. Siyasi mədəniyyət dinamik hadisə olub bu və ya başqa formada varislik keyfiyyətlərini təcəssüm etdirir.

Siyasi mədəniyyət cəmiyyətin siyasi sisteminin ən əhəmiyyətli cəhəti kimi çıxış edir. Yadda saxlamaq lazımdır ki, siyasi təsisatlar mədəniyyətin məzmununa və təzahürünə əhəmiyyətli təsir göstərir. Cəmiyyətin siyasi sistemi ilə siyasi mədəniyyət siyasi həyatın yarımsistemləri olduğuna görə bunların arasında kəskin fərq qoymaq qeyri-mümkündür. Həmin yarımsistemlər bir-birinə qarşılıqlı təsir göstərirlər. Siyasi sistem və siyasi mədəniyyət bir-birindən ayrılıqda mövcud ola bilməz. Siyasi mədəniyyət siyasi sistemin fəaliyyəti prosesində siyasi münasibətlərin xarakteristikası kimi başa düşülməlidir. Siyasi mədəniyyətin pozitiv və neqativ ünsürləri mövcud siyasi sistemlə şərtlənir. Cəmiyyətin müxtəlif qruplarının siyasi mədəniyyətinin qüsurları, "yaxşı" və "pis" cəhətləri əslində siyasi sistemlə bağlı olan funksional ünsürlərdir. Özü də bu ən əvvəl, siyasi sistemin təsisatlarına və həmin təsisatların fəaliyyət üsuluna aiddir.

Siyasi sistemlə siyasi mədəniyyətin bir-birini qarşılıqlı şərtləndirməsi tamamilə təbii və qanunauyğundur. Məsələn, liberal-demokratik sistem cəmiyyətdə çoxsaylı sosial qrupların və təbəqələrin, təşkilatların, birliklərin, dini, peşə və gənclər assosiasiyalarının mövcudluğu ilə səciyyələnir. Bununla yanaşı, liberal-demokratik sistemdə öz mənafeyini qarşılıqlı münaqişələrlə, bir-biri ilə toqquşmalar və əməkdaşlıq şəraitində müdafiə edən müxtəlif təbəqələrə və qruplara da təsadüf olunur. Belə vəziyyət "sosial plyuralizm" adlanır. Siyasi sferada plyuralizm çoxlu partiyaların və siyasi təsisatların, müxtəlif ideya-siyasi istiqamətlərin, cərəyanların və sairənin mövcudluğu ilə təzahür edir. Bu vəziyyət isə siyasi plyuralizm kimi səciyyələnir. Sosial plyuralizm siyasi plyuralizmi müdafiə edir və stimullaşdırır. Eləcə də siyasi plyuralizm sosial plyuralizm mövqeyindən çıxış edir.

Siyasi mədəniyyəti təşkil edən sərvətlər, siyasi yönümlər, normalar və stereotiplər sistemində başlıca sosial əhəmiyyətə malik olan budur ki, o, siyasi sistemin formalaşmasına və saxlanmasına imkan yaradır. Siyasi sistemin formalaşmasına təsir göstərən mədəni sərvətləri cəmiyyət üzvləri nə qədər çox mənimsələr cəmiyyətdə sabitlik də bir o qədər yüksək olar.

Siyasi mədəniyyətin məzmununa yalnız siyasi sistemin müdafiə olunmasına xidmət edən sərvətlər deyil, həm də onun dəyişdirilməsinə təsir göstərən ünsürlər daxildir. Bu cəhət nəinki siyasi mədəniyyətin, həm də bütövlükdə ictimai-siyasi sistemin mahiyyətinin və inkişaf meylinin mühüm göstəricisi kimi səciyyələnir. Buna görə hər bir siyasi sistem çərçivəsində müxtəlif qrupların siyasi inamındakı fərqlərin mənasını və dərəcəsini başa düşmək əhəmiyyətlidir.

Siyasi mədəniyyəti öyrənmədən siyasi reallıqların və proseslərin mahiyyəti barədə düzgün təsəvvür əldə et-

mək mümkün deyildir. Yadda saxlamaq lazımdır ki, insan və mədəniyyət amillərini, bunların xüsusiyyətlərini nəzərə almadan həyata keçirilən hər hansı ağıllı tədbirlər, qanunlar, islahatlar və s. arzu olunan səmərəli nəticəni verə bilməz. Hər bir siyasi sistemin sabitliyi və həyat qabiliyyəti vətəndaşların əksəriyyətinin siyasi mədəniyyətinin dərəcəsi ilə şərtlənir.

Siyasi mədəniyyətin əsasını ictimai inkişaf qanunlarını dərindən bilmək, sosial gerçəkliyin hadisə və proseslərinə elmi cəhətdən əsaslandırılmış qiymət verilməsi, nəsillərdən gələn və gündəlik sosial-siyasi təcrübənin mənimsənilməsinə tələbat, siyasi baxışların, təsəvvürlərin və ideyaların vəhdəti, mövcud cəmiyyətin hüquq və vəzifələrinə, fəaliyyət normalarına yiyələnmək təşkil edir. Siyasi mədəniyyət fəaliyyətin həm müəyyən üsuludur, həm də nəticəsi. Siyasi mədəniyyətin fəaliyyət sferası cəmiyyətin bütün siyasi həyatını, o cümlədən siyasətlə iqtisadiyyatın, siyasətlə hüququn və siyasətlə mənəviyyatın qarşılıqlı əlaqə və təsir sahəsini əhatə edir.

Siyasi mədəniyyətin bütün ünsürləri, onun sosial yönümü praktiki sosial fəaliyyət vasitəsilə üzə çıxır. Lakin siyasi mədəniyyətin formalaşmasının əsasını hər cür praktiki fəaliyyət deyil, məhz, sosial cəhətdən fəal və faydalı fəaliyyət təşkil edir. Sosial cəhətdən fəal fəaliyyət həm də siyasi şüurluluğun ifadəsidir.

Ümumiyyətlə, mənəvi həyatın ünsürü olmaq etibarilə siyasi mədəniyyəti müxtəlif sosial səviyyələrdə nəzərdən keçirmək lazımdır. Başqa sözlə, o, bütövlükdə cəmiyyət, onun sosial qrupları və təbəqələri, eləcə də şəxsiyyət səviyyəsində araşdırılmalıdır. Bu və ya digər siyasi ideologiyaya müvafiq olaraq siyasi mədəniyyətə yiyələn-



mək siyasi biliklərin müəyyən həcmini mənimsəməyi zərurətə çevirir. Siyasi biliklər siyasi təsəvvürlərlə, hisslərlə və ideallarla vəhdətdə siyasi mədəniyyətin mənəvi tərəfini təşkil edir. Əlbəttə, siyasi mədəniyyəti onun mənəvi tərəfi ilə eyniləşdirmək və ya məhdudlaşdırmaq olmaz. O, biliklərin həm inama çevrilməsidir və həm də adamların siyasi mübarizədə həyata keçirilən qabiliyyətidir. İnsanın mahiyyət gücünün və bacarığının siyasi fəaliyyətdə maddiləşməsi məhz, bu prosesdə baş verir.

Mövcud ədəbiyyatda bəzən siyasi mədəniyyəti yalnız siyasi biliklərin müəyyən səviyyəsi, siyasi inam və sərvətlərin məcmuu kimi əsaslandırırlar. Siyasi mədəniyyət anlayışının müəyyənləşdirilməsinə belə münasibət nə qədər əhəmiyyətli və məqsədyönlü olsa da həmin təsəvvür birtərəfli xarakter daşıyır.*

Şəxsiyyətin siyasi şüurunun keyfiyyət tərəfinə dəlalət edən bilik, inam, peşə səriştəliyi və vərdişlər hələ bu və ya digər şəxsin siyasi mədəniyyətinin tam ifadəsi kimi çıxış etmir. Siyasi biliklər, görüşlər və inam yalnız ictimai-siyasi praktika ilə, əməli siyasi fəaliyyətlə üzvü əlaqə kəsb etdikdə siyasi mədəniyyət səviyyəsinə yüksəlir. Siyasi mədəniyyətin məzmununun formalaşması idrak qabiliyyəti ilə əməli siyasi fəaliyyətin vəhdətindən ibarət mürəkkəb və çoxcəhətli prosesdir.

Siyasi mədəniyyət bir tərəfdən siyasi fəaliyyətin başlıca prinsiplərini və normalarını, cəmiyyətə, mövcud siyasi təsisatlara siyasi rəhbərliyi, digər tərəfdən isə adamların siyasi şüurluluğunun dərəcəsini və siyasi mübarizə təcrübəsinə yiyələnmək səviyyəsini, cəmiyyət üzvlərinin

---

* Б.Д.Яковлев. Методологияеские проблемы духовной проблемы. Л., 1988. səh. 78-80.

sosial-siyasi münasibətlər sferasında fəaliyyət üsulunu səciyyələndirir. Azad fəaliyyət fəallığın yüksək, daha ardıcıl təcəssümüdür.*

Vətəndaşların öz hüquq və azadlıqlarını başa düşməsi və bundan istifadə etməsi, cəmiyyətin siyasi həyatına fəal cəlb olunması, azad siyasi fəaliyyət və s. siyasi mədəniyyətin əhəmiyyətli ünsürləridir. Heç də təsadüfi deyil ki, siyasi mədəniyyət nəzəriyyəsinin görkəmli ideoloqu ingilis alimi R.Rouz siyasi azadlığı siyasi mədəniyyətin ən qiymətli ünsürü sayır. O, qeyd edir ki, ingilis siyasi mədəniyyəti mövcud rejimə münasibətdə vətəndaşların həmrəyliyinə və loyallığına istiqamətlənmişdir.

Adamların siyasi mədəniyyyətinin mühüm göstəricilərindən biri onların siyasi həyata fəal cəlb olunması, siyasi hadisə və proseslərə dərindən nüfuz etməsidir. İctimai-siyasi proseslərə fəal qoşulan hər bir vətəndaşın sosial əhatə dairəsi genişlənir, siyasi təcrübəsi zənginləşir və siyasi düşüncə tərzi yeni faydalı çalarlar kəsb edir. Siyasi fəallığın ünsürləri bir-birindən təcrid olunmuş halda deyil, qarşılıqlı təsir prosesində təkmilləşir.* Məsələn, siyasi informasiyanın mənimsənilməsinin mahiyyəti bunda ifadə olunur ki, əldə olunmuş siyasi biliklər fəaliyyət prosesində adamların düzgün istiqamətləndirilməsinə, şüurlu davranışına imkan yaradır. Nəzərdən qaçırmaq olmaz ki, nəinki siyasi biliklərə, siyasi informasiyaya, həm də bunların əsasında formalaşan siyasi norma və prinsiplərə dərindən yiyələnmədən məqsədyönlü faydalı sosial fəaliyyət mümkün deyildir. Bu mənada siyasi bilik və informasiyanı,

* М.С.Каган. Мир общения. 1988. səh. 94.

* Творческая природа обществеeного сознания. М., 1980, səh. 154-156.



siyasi norma və prinsipləri mənimsəməyi ifadə edən fəaliyyət siyasi mədəniyyətin təzahür üsullarından biri kimi səciyyələnir. Belə fəaliyyət öz növbəsində siyasi biliklərə yiyələnmək tələbatını şərtləndirir.

Sosial qrupların, əhalinin müxtəlif kateqoriyalarının siyasi fəallığı təbii ki, eyni dərəcədə və səviyyədə təzahür etmir. Sosial təbəqə və qrupların siyasi fəallığının təşəkkülü və inkişafı həm ümumi, oxşar cəhətlərə, eləcə də fərqli, spesifik xüsusiyyətlərə malikdir. Sosial subyektlərin siyasi fəallığının inkişaf meylləri xeyli dərəcədə adamların əmək fəaliyyətinin növləri ilə, ixtisas səviyyəsində, mədəni görüş dairəsində özünü göstərən spesifik cəhətlərlə şərtlənir.

Cəmiyyət üzvlərinin siyasi həyata fəal müdaxiləsi, sosial gerçəklikdə təzahür edən siyasi hadisə və proseslərə münasibəti, bir sözlə, siyasi mədəniyyəti aşağıdakı amillərin qarşılıqlı əlaqəsi və təsiri zəminində formalaşır: adamların real sosial-siyasi münasibətləri və əhatəsində olduğu konkret siyasi şəraiti dərk etmələri; mövcud cəmiyyət tərəfindən əldə olunan və əsaslandırılan siyasi bilik, norma, inam və prinsiplərin mənimsənilməsi; vətəndaşların siyasi mədəniyyətinin yüksəldilməsinə məqsədyönlü, ardıcıl və sistemli diqqət yetirilməsi.

Yüksək siyasi mədəniyyətlə şərtlənən fəaliyyətdə insanın yetkin sosial tələbatı, siyasi qabiliyyəti və vərdişləri formalaşır, adamların ləyaqətli vətəndaş səviyyəsinə yüksəlməsi təmin olunur. Fərdlərin siyasi mədəniyyətinin məzmununun zənginləşməsinə təsir göstərən sosial amillər sırasında təhsil səviyyəsi, peşə mənsubiyyəti, əməyin xarakteri və s. əhəmiyyətli yer tutur. Onu da qeyd edək ki, həmin amillər vətəndaşların siyasi həyata fəal münasibə-

tinə eyni dərəcədə təsir göstərmir. Çünki təhsil, peşə və əmək fəaliyyətinin növləri siyasi fəaliyyətə cəlb olunmağı dərhal, öz-özünə müəyyən etmir. Bu proses mürəkkəb və çoxcəhətli mahiyyət daşıyır. Lakin təhsil və ixtisas səviyyəsi nə qədər yüksək, əməyin məzmunu intellektual cəhətdən daha da zəngin olarsa cəmiyyət üzvlərinin siyasi fəallığı bir o qədər artır. Təcrübə göstərir ki, adamların siyasi şüurluluğunun yüksəlməsi bir tərəfdən onların sosial-siyasi və elmi-nəzəri informasiyaya yiyələnməyə daxili tələbatında, digər tərəfdən isə praktiki ictimai fəaliyyətdə məqsədyönlü, əhatəli və yaradıcı iştirakında təzahür edir.

Siyasi mədəniyyətin mahiyyətini dolğun dərk etmək üçün onun strukturu barədə dəqiq təsəvvürə malik olmaq vacibdir. Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlər sosial-iqtisadi, milli-mədəni, ictimai-tarixi və digər uzunmüddətli amillərlə şərtlənir. Buna görə həmin ünsürlər nisbi sabitliyi, yaşamaq qabiliyyəti, daimiliyi ilə səciyyələnir və yalnız cəmiyyətdə dərin dəyişikliklər prosesində yeni cəhətlər kəsb edir.

Siyasi mədəniyyət çoxsəviyyəli ictimai hadisədir. Onun strukturuna hər şeydən əvvəl, uzun müddət ərzində formalaşan çoxlu nəsillərin ənənələri, siyasi praktikanın fəaliyyətdə olan normaları, müxtəlif ictimai-siyasi təsisatların qarşılıqlı münasibətləri haqqında ideyalar, konsepsiyalar və inamlar daxildir. Siyasi mədəniyyətin strukturunu həmçinin, mövcud siyasi sistemə münasibətdə adamların fəaliyyət istiqaməti, ayrı-ayrı fərdlər, cəmiyyət və dövlət arasında münasibətlərin prinsipləri təşkil edir. Siyasi mədəniyyətin strukturu subyektin siyasi davranışının formalaşmasının texnologiyasını əks etdirir.

Politologiyaya dair ədəbiyyatda siyasi mədəniyyətin strukturu üç səpgidə: dünyagörüşü, dövlət hakimiyyətinə münasibət və siyasi hadisələri qiymətləndirmək səpgisində nəzərdən keçirilir. Dünyagörüşü səpgisində siyasi mədəniyyətin strukturu zorakılığa və azadlığa, fərdi və kollektiv sərvətlərə münasibəti, bu və ya digər ideologiyanı qəbul etməyi, yaxud ona rəğbət bəsləməməyi səciyyələndirir. Dövlət hakimiyyətinə münasibət səpgisi dövlətin şəxsiyyət üzərində üstünlüyünü və ya şəxsiyyətin hüquqlarının dövlətin hüquqlarından aliliyini nəzərdə tutur. Bu cəhət həm də hakimiyyət çərçivəsində dövlətin öz vətəndaşlarının hüquq və vəzifələrinə münasibətini şərtləndirir. Nəhayət, siyasi hadisələri qiymətləndirmək səpgisi isə insanın müxtəlif mahiyyətli siyasi hadisələrə nüfuz etmək qabiliyyətini, siyasi hadisə və prosesləri obyektiv mövqedən təhlil edib ümumiləşdirmək bacarığını əks etdirir. Başqa sözlə, bir tərəfdən siyasətin təsisatlı subyektlərinin - dövlətin, siyasi partiyaların, hərəkatların, digər tərəfdən isə siyasətin sosial subyektlərinin – şəxsiyyətin, siniflərin, qrupların, xalqın və millətin cəmiyyətdə baş verən siyasi dəyişikliklərə, siyasi həyatın inkişaf meyllərinə münasibət səviyyəsi açıqlanır.

Siyasi mədəniyyətin strukturunu formalaşdıran ünsürlər sırasında ümumi əhəmiyyət daşıyan siyasi biliklər, siyasi təfəkkür tərzi, siyasi təfəkkür mədəniyyəti, siyasi davranış və fəaliyyət qabiliyyəti, siyasi hisslər və emosiyalar mühüm yer tutur. Ümumi əhəmiyyət daşıyan siyasi biliklər nəzəri və gündəlik informasiya əsasında əldə olunan praktiki biliklər zəminində yaranır. Nəzəri biliklərsiz gündəlik informasiya siyasi həyat haqqında dərin və dolğun təsəvvür formalaşdıra bilməz. Eləcə də gündəlik informasiya əsasında əldə olunan praktiki biliklərsiz siyasi

nəzəri biliklər əhəmiyyətsizdir. Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlər içərisində siyasi təfəkkür mədəniyyəti özünəməxsus əhəmiyyətə malikdir.

Siyasi təfəkkür mədəniyyəti siyasi həyatda baş verən başlıca hadisələri dərk edib qiymətləndirmək, düzgün siyasi fəaliyyət istiqaməti seçmək və siyasi həyatda şüurlu iştirak etmək qabiliyyətidir. Siyasi mədəniyyətin strukturunda xüsusi yer tutan siyasi davranış və fəaliyyətin özü siyasi təfəkkür mədəniyyətinin, cəmiyyətdə qərarlaşan siyasi ənənələrin və siyasi şüur səviyyəsinin təsiri altında formalaşır. Beləliklə, siyasi davranış və fəaliyyət siyasi mədəniyyətin təzahürünün son nəticəsi kimi çıxış edir. Adamların bu və ya digər siyasi fəaliyyət istiqamətini və siyasi davranış üsulunu seçməsi onların sosial (siniflər, təbəqələr), milli (etnos, millət, xalq), demoqrafik (qadın, kişi, gənc, yaşlı), ərazi (müəyyən rayonların və bölgələrin əhalisi), dini və digər mənsubiyyətlərindən çox asılıdır. Sosial qrupların mənafe və məqsədləri əsasında formalaşan siyasi davranış və fəaliyyət istiqaməti sosial mənsubiyyət subyektlərinin dövlət hakimiyyətinə, hakim partiyalara, siyasi həyatda iştirakı üsullarına ciddi təsir göstərir.

Siyasi mədəniyyətin məzmununu və strukturunu əks etdirən ünsürlərdən çox mühüm siyasətdə iştirakdır. Siyasətdə iştirak adamların siyasi idarəetmə fəaliyyətinin ayrılmaz cəhətidir. Siyasi məziyyət daşıyan bu cəhət cəmiyyət üzvlərinin mənafeyini ifadə edən vasitələrdən biri kimi mənalanır. Siyasətdə iştirak o halda siyasi keyfiyyət kimi səciyyələnir ki, şəxsiyyət, qruplar, təbəqələr, siniflər siyasət-hakimiyyət münasibətlərinə, siyasi xarakter daşıyan qərarların qəbul olunmasına və idarəetmə prosesinə



cəlb olunurlar. Vətəndaşların siyasi qərarların qəbul edilməsinə və idarəetmə prosesinə cəlb edilmələri onların cəmiyyət həyatının sosial, iqtisadi və mədəni sferalarında bu və ya digər dərəcədə siyasiləşməsini şərtləndirir.1 Siyasətdə iştirak mövcud cəmiyyət daxilində fərdi, sinfi, milli-etnik, dini və digər zəmində siyasət-hakimiyyət münasibətləri prosesinə cəlb olunmağı səciyyələndirən universal hadisədir.

Demokratik cəmiyyətdə şəxsiyyət geniş hüquq və azadlıqlardan istifadə etməklə bütün siyasi proseslərdə hər hansı səviyyədə, bu və ya digər formada və müxtəlif mərhələlərdə iştirak edə bilər. İlk növbədə idraki məqsədlər baxımdan siyasətdə iştirakın səviyyələrini aydınlaşdırmaq zəruridir. Vətəndaşların siyasətdə iştirakı əsasən dörd səviyyədə təzahür edir: 1.Funksional səviyyə. 2.Bilavasitə və ya dolayı yolla iştirak səviyyəsi. 3.Sırf siyasi və qeyri-siyasi səviyyə. 4.Siyasi proseslər mərhələsindən asılı olan səviyyə.

Funksional səviyyə siyasi hakimiyyətin strukturunun müəyyənləşdirilməsində, həmin hakimiyyətin siyasi təsisatlar, dövlət orqanları və digər vəzifəli iyerarxiyalar arasında bölüşdürülməsini dərk etməkdə şəxsiyyətin rolunu aydınlaşdırır. Funksional səviyyə həmçinin, aşağıdakıları əks etdirir: siyasi sistemin normativ əsasının formalaşdırılmasında və təkmilləşdirilməsində, dövlət hakimiyyətinin və idarəetmə orqanlarının şəxsi heyətinin komplektləşdirilməsində, eləcə də digər siyasət-hakimiyyət strukturlarınını təşəkkülündə şəxsiyyətin rolunu anlamaq; konkret siyasət-idarəetmə qərarlarının qəbul edilməsi; daxili və xarici siyasət xəttinin işlənib hazırlanması və həyata keçirilməsi; siyasi həyata dair problemləri vətən-

daşların başa düşməsi. Şəxsiyyətin siyasətdə iştirakını səciyyələndirən ikinci səviyyə (bilavasitə iştirak) ən mühüm dövlət və ictimai həyat məsələlərinin həllinə vətəndaşların bilavasitə cəlb edildiyini əks etdirir. Siyasi həyatda belə iştirakın başlıca formaları seçkilər, referendum, yığıncaqlar və sairədir. Bununla yanaşı, siyasətdə iştirak dolayı yolla da həyata keçirilir. Başqa sözlə, adamların siyasətdə iştirakı onların seçdikləri orqanlar (parlament, hakimiyyətin yerli orqanları, ictimai-siyasi təşkilatların seçkili orqanları) vasitəsilə təmin olunur.

Siyasi həyatda iştirakın üçüncü səviyyəsi sırf siyasi və sırf siyasi olmayan mahiyyət daşıyır. Sırf siyasi səviyyə vətəndaşların siyasət-hakimiyyət münasibətlərinə cəlb olunmasını təcəssüm etdirir. Bu cəhət siyasi demokratiyanı səciyyələndirir. Sırf siyasi olmayan fəaliyyət yalnız inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə təmin olunur. Belə cəmiyyətdə adamlar ictimai həyatın nəinki siyasi, həm də iqtisadi və sosial sferalarının idarə edilməsində iştirak edirlər. Bu xüsusiyyət isə iqtisadi və sosial demokratiyanın ifadəsidir. Yeri gəlmişkən qeyd edək ki, istehsal özünüidarəsi və ya "təsərrüfat demokratiyası ideyası ilk dəfə XIX əsrin axırlarında İngiltərədə irəli sürülmüşdür. Bu ideyanın praktiki baxımdan maddiləşməsi də həmin ölkədə və həmçinin Almaniyada, Fransada, ABŞ-da və sonralar isə Yaponiyada həyata keçirilmişdir.

"İqtisadi demokratiya" cəmiyyətin iqtisadi sferasında demokratik prinsiplərin qərarlaşmasını ifadə edirsə, "sosial demokratiya" termini vətəndaşlıq statusu baxımdan cəmiyyət üzvlərinin sosial bərabərliyini səciyyələndirir. Bu mənada sosial demokratiya "sosial bərabərlik", "sosial ədalət", "mənəvi azadlıq" kimi anlayışlarla yaxınlıq təşkil



edir.

Nəhayət, siyasətdə iştirakın axırıncı səviyyəsi siyasi proseslərin mərhələləri ilə şərtlənir. Siyasi proseslərin bütün mərhələlərində vətəndaşlar fəaliyyət subyekti kimi çıxış edirlər. Siyasət-idarəetmə prosesi özündə bir neçə mərhələni: qərarların hazırlanmasını və qəbul olunmasını, onların yerinə yetirilməsini və icrasına nəzarəti ehtiva edir. Avtoritar cəmiyyətdə siyasi proseslərin bütün mərhələlərində şəxsiyyətin rolu məhdudlaşdırılmış, vətəndaşların hüquq və azadlıqları formal xarakter daşımışdır. Sivilizasiyalı hüquqi cəmiyyət isə öz üzvlərinin siyasi həyata fəal nüfuz və müdaxilə etməsini reallaşdırır.

Vətəndaşların siyasətdə iştirakının formalarını, üsullarını, səviyyəsini, gərginliyini, motivlərini, xüsusilə həcmini və nəticələrini təhlil etmək siyasi hökmranlıq, belə hakimiyyət metodu uğrunda mübarizə və onun yayılması kimi siyasi proseslərin məzmununun və xüsusiyyətlərinin tam açılmasına imkan yaradır. Bu cür təhlil eləcə də siyasi-idarəetmə qərarlarının işlənib hazırlanmasına, qəbul olunmasına və reallaşmasına, siyasi rəhbərlərin (siyasi elitanın) seçilməsinə və fəaliyyətinə, siyasi münaqişələrin həllinə və sairəyə mühüm təsir göstərir. Siyasətdə iştirak vətəndaşların, ayrı-ayrı təbəqələrin, siniflərin, qrupların həm yerli səviyyədə və həm də cəmiyyətin siyasi sistemində real rolunu üzə çıxarmağa zəmin yaradır.

Vətəndaşların siyasətdə iştirakı tarixən mövcud olan və müasir siyasi sistemlərin, onların demokratikləşməsinin keyfiyyət xüsusiyyətlərinin başlıca göstəricisidir. Siyasətdə iştirak demokratik cəmiyyətdə ümumi, azad, təşəbbüskar və təsirli xarakter daşıyır, vətəndaşların mənafeyi ilə bağlı olan məsələlərin həllinə istiqamətlənir.

Siyasətdə iştirak mahiyyətcə adamların məqsədlərinə çatması vasitəsidir, özünüifadə və özünütəsdiq tələbatının, vətəndaşlıq hissinin reallaşmasıdır. Belə iştirak müəyyən dövlət-hüquq təsisatları və normaları ilə təmin olunur. Bunların məcmuu isə hüquqi dövlətin, əsil demokratik siyasi rejimin əsasını təşkil edir.

Siyasi rejimdən, ənənələrdən, ərazinin həcmindən və əhalinin sayından, nəqliyyat və kommunikasiya vasitələrinin inkişaf dərəcəsindən asılı olaraq hər bir cəmiyyətdə siyasətdə iştirakın birbaşa və dolayı yolla (nümayəndəli) əlaqələndirilməsi müxtəlif şəkildə müşahidə olunur. Vətəndaşların siyasətdə iştirakının ən mühüm formaları siyasi partiyalar, ictimai-siyasi təşkilatlar və hərəkatlardır. Sosial subyektlərin siyasi həyatda iştirakının digər başlıca vasitəsi isə seçkilərdir.

Müxtəlif siyasi rejimlərdə əhalinin siyasətdə iştirakı fərqli xüsusiyyətlərə malikdir. Məsələn, avtoritar rejimdə əhali siyasətdə iştirakdan tamamilə və ya qismən uzaqlaşdırılırsa, totalitar cəmiyyətdə əhalinin böyük əksəriyyəti mövcud rejimi müdafiə məqsədilə mərasim mahiyyətli səfərbərliklə siyasətdə iştiraka cəlb olunur. Demokratik rejimdə isə siyasətdə iştirak siyasi sosiallaşma və siyasi tərbiyə funksiyalarını həyata keçirir. Əgər totalitar cəmiyyətdə siyasi etirazların və narazılığın bütün formaları qadağan olunursa, demokratik rejimdə siyasi etirazların formalarına yol verilir, vətəndaşlar mitinqlərdən, nümayişlərdən, piketlərdən, tətillərdən və sairdən siyasi narazılıq vasitəsi kimi istifadə edirlər. Hələ vaxtilə Platon və Aristotel vətəndaşların polisin işlərində iştirakının zəruri olub-olmadığını təhlil etmək əsasında belə qənaətə gəlmişlər ki, bir dövlət quruluşundan digərinə keçmək üçün siyasətdə iştirakın özünəməxsus əhəmiyyəti vardır. Platona görə ideal dövlət formasının qərarlaşması baxımdan siyasi həyatda iştirak olduqca vacibdir. Yeni dövrdə siyasi həyatda iştirakın əhəmiyyətli ideyası daha da zənginləşir. Siyasi həyatda iştirak hakim dairələrin siyasi strategiyasının ideal modelini yaratmaq üçün vasitə (Makiavelli), suverenliyin və müxtəlif idarəetmə üsullarının daşıyıcısı (Boden), idarəetmənin forma və prinsipi (Monteske), ictimai müqavilənin təbiəti, idarəetmənin və xalqın suverenliyinin forması kimi çıxış edir. Müasir siyasi elmlərdə siyasətdə iştiraka dair nəinki xüsusi nəzəriyyə mövcuddur, həm də politoloji konsepsiyaların işlənib hazırlanmasında siyasətdə iştirak ideyasından istifadə olunur. Heç də təsadüfi deyil ki, vətəndaşların beynəlxalq hüquq tərəfindən təsdiq olunmuş hüquqları sırasında siyasətdə iştirak da öz əksini tapmışdır. Məsələn, BMT Baş Məclisinin irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında beynəlxalq konvensiyasının (7 noyabr 1962-ci il) 5-ci maddəsində göstərilir ki, irqindən, dərisinin rəngindən, milli və etnik mənsubiyyətindən asılı olmayaraq hər bir adamın qanun qarşısında bərabər hüquqlu olması təmin olunur. Həmin konvensiyanın iştirakçısı olan dövlətlər həmçinin, vətəndaşların siyasi hüquqlarının praktiki olaraq həyata keçiriləcəyini rəsmən ifadə edən bəyannamə qəbul etmişlər. Bu bəyannamədə deyilir: "Siyasi hüquqlar, xüsusilə seçkilərdə iştirak hüququ, ümumi və bərabər seçki hüququ əsasında səs vermək və öz namizədliyini irəli sürmək, ölkənin idarə olunmasında iştirak etmək və dövlət işlərinə bütün səviyyələrdə rəhbərlik hüququ, həmçinin dövlətə xidmət etməyə bərabər hüquqlu cəlb olunmaq təmin edilsin".

Vətəndaşların siyasətdə iştirakının konkret növləri,

üsulları, səviyyəsi və formaları, həmin iştirakın intensivliyi və nəticələri mövcud cəmiyyətin siyasi sisteminin funksional xüsusiyyətlərini, onun siyasi rejiminin spesifikliyini və cəmiyyətin siyasi mədəniyyətinin xüsusiyyətlərini həm ifadə edir, eləcə də müəyyənləşdirir.

Siyasətdə iştirak üçün ən əlverişli şəraiti demokratiya və hüquqi dövlət yaradır. Belə halda bütün hüquq və azadlıqları həyata keçirən vətəndaş cəmiyyəti və dövlət, məhkəmə tərəfindən müdafiə olunan vətəndaşlarla məmurlar konstitusiyaya və digər qanunlara görə bərabər hüquqlu partnyor (əməkdaş) hesab olunurlar.

Siyasət-dövlət idarəçiliyinin demokratik və ya qeyri-demokratik prosesinin ən mühüm göstəricilərindən biri həmin prosesdə cəmiyyət üzvlərinin geniş dairəsinin iştirakıdır. Demokratiyanın digər şərtləri - qanunvericiliklə təsbit olunan hüquq və azadlıqların geniş həcmi, dövlət hakimiyyəti və idarəetmə orqanlarının əhalinin ehtiyaclarına qayğıkeşliklə yanaşması, vətəndaşların azad iradəsi əsasında nümayəndəli dövlət orqanlarının formalaşması və s. o halda reallaşar ki, vətəndaşlar siyasətə intensiv şəkildə cəlb olunsunlar. Vətəndaşların siyasi həyatda könüllü, şüurlu, kütləvi və təsirli iştirakı olmadan həqiqi demokratiyadan söhbət ola bilməz. Demokratiyanın tərəqqisi vətəndaşların siyasi sferada iştirakının genişlənməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, Amerikada və Qərbi Avropada 60-cı illərə qədər vətəndaşların siyasi həyatda iştirakına sosioloqlar və politoloqlar məhdud şəkildə, başqa sözlə, konsepsiya xarakterli və praktiki-siyasi planda diqqət yetirirdilər. Siyasətdə iştiraka belə münasibətin nəzəri mənbəyini. Z.Freydin, Q.Lebonun, R.Mixelsin, V.Paretonun, Q.Moskanın, M.Veberin və başqalarının siyasi nəzəriyyəsi təşkil edirdi. Qərb sosioloqları siyasətdə iştirakı yalnız seçkilərə müncər edirdilər.



Ümumiyyətlə, siyasətdə iştirak siyasi sistemin universal xüsusiyyəti olmaq etibarilə aşağıdakı suallara cavab verməyə prnsipial imkan yaradır:

Siyasətdə kim, harada, nə zaman, nə üçün, hansı məqsədlə, hansı formada və nə kimi nəticələrlə iştirak etmişdir. Başqa sözlə, siyasətdə iştirak müqayisəli politoloji tədqiqatlar aparmağa obyektiv təminat verir.

Siyasi mədəniyyətin funksiyalarının mahiyyətini dolğun başa düşmək üçün onun özünün əhəmiyyətini qısaca da olsa, şərh etmək məqsədəuyğundur. Siyasi mədəniyyət şəxsiyyətin siyasi fəallığını təcəssüm etdirməklə onun öz mənafeyinin spesifikliyini anlamaq qabiliyyətini, tələbatının və xarici şəraitin dəyişilməsi prosesində fəaliyyətini yaradıcı surətdə yenidən təşkil etməyi səciyyələndirir. Siyasi mədəniyyətin başlıca xüsusiyyəti bundan ibarətdir ki, o, siyasətin özünü və ya siyasi prosesləri deyil, məhz, onların dərk olunmasını, izahını şərtləndirir. Siyasi sferada çox vaxt nəinki dövlətin real fəaliyyəti və tədbirləri həm də bunların necə qiymətləndirilməsi və başa düşülməsi əhəmiyyət daşıyır. Dövlətin fəaliyyətinin və tədbirlərinin reallaşması formaları başlıca olaraq əhalinin böyük əksəriyyətinin siyasi mədəniyyəti ilə səciyyələnir.

Siyasi mədəniyyət xalqın mənəvi mədəniyyətinin elə ünsürlərini özündə təcəssüm etdirir ki, bunlar ictimai-siyasi təsisatlarla və siyasi proseslərlə bağlıdır. O, dövlət təsisatlarının və siyasi təsisatların formalarına, fəaliyyətinə və inkişafına təsir göstərir, siyasi prosesləri istiqamətləndirir, adamların siyasi davranışını müəyyənləşdirir.

Bütövlükdə mənəvi mədəniyyət ən müxtəlif həyati situasiyalarda davranış normalarını və "oyun qaydalarını şərtləndirir. Siyasi mədəniyyət cəmiyyətin siyasi sistemini, onun təsisatlarını və təşkilatlarını təmin edən dəyərlər sistemi kimi səciyyələnir.

Bu və ya digər ölkənin siyasi mədəniyyətini o halda düzgün başa düşmək olar ki, ona ümummilli mədəniyyətin ayrılmaz hissəsi kimi baxılsın. Siyasi mədəniyyəti təşkil edən ən mühüm ünsürlər ümummilli mədəniyyətlə, milli-tarixi və dini ənənələrlə, adətlərlə, davranış və təfəkkür stereotipləriIə, əxlaqi normalarla sıx əlaqəlidir.

Siyasi mədəniyyətin qiymətli cəhəti bundan ibarətdir ki, o, müxtəlif sosial birliklərin və şəxsiyyətin siyasi davranışının spesifikliyinin dərin səbəblərini üzə çıxarmağa imkan yaradır. Bu səbəblər mədəniyyətin ikili təbiətə-kollektiv və fərdi xarakterə malik olması, mədəniyyətdə ümuminin (qrup, sosial, milli və s.), ümumbəşəriliyin, xüsusinin və təkcənin əlaqələndirilməsi ilə bağlıdır. Mədəniyyət kollektivin məhsulu olsa da, o, hər bir fərd tərəfindən ayrılıqda formalaşır, mənimsənilir və təzahür edir.

Politologiyaya dair ədəbiyyatda siyasi mədəniyyətin siyasi proseslərə və təsisatlara təsiri üç istiqamətdə nəzərdən keçirilir. Birinci istiqamət siyasi mədəniyyətin təsiri altında siyasi həyatın ənənəvi formalarının təkrar istehsalını səciyyələndirir. İkinci istiqamət belə bir cəhəti ifadə edir ki, siyasi mədəniyyət cəmiyyət üçün sosial və siyasi həyatın yeni, qeyri-ənənəvi formalarını doğurmağa qadirdir. Üçüncü istiqamət isə əvvəlki və perespektivli siyasi quruluşun ünsürlərinin uyğunlaşdırılmasında siyasi mədəniyyətin əhəmiyyətini əks etdirir.

Siyasi mədəniyyət siyasi sferada müəyyən konkret



funksiyalar həyata keçirir. Siyasi təfəkkürün formalaşmasında, sosial hadisə və prosesləri siyasi cəhətdən düzgün təhlil edib qiymətləndirməkdə siyasi mədəniyyətin funksiyaları əhəmiyyətli rol oynayır. Siyasi mədəniyyətin ümumi əhəmiyyət daşıyan ən mühüm funksiyaları bunlardır: eyniləşdirmə, siyasi yönüm, uyğunlaşma, qovuşma (inteqrasiya), əlaqələndirmə təhsil, tərbiyə, səfərbəredici, təhrikedici, sosial təşkilatçılıq və sosiallaşma.

Həmin funksiyaların mahiyyətini nəzərdən keçirək. Eyniləşdirmə funksiyası fərdin mənsub olduğu sosial qrupu təmsil etməsini başa düşməyə daimi daxili tələbatı açıqlayır, digər tərəfdən isə insanın yaşayıb fəaliyyət göstərdiyi cəmiyyətin mənafeyini müdafiə etməsini və bu məqsədlə siyasi həyatda iştirakın ən münasib üsullarına yiyələnməsini şərtləndirir.

Siyasi yönüm adamların siyasi hadisə və prosesləri, siyasi həyatın qayəsini, onun inkişafının ümumi meyllərini mənalandırmaq səylərini ifadə edir, mövcud siyası sistemdə vətəndaşların öz hüquq və azadlıqlarını reallaşdırmaq imkanlarını səciyyələndirir. Bu funksiya həmçinin, fərdlərin siyasi fəaliyyətinin sosial əhəmiyyətli yönümünün nəticələrini qabağcadan qiymətləndirmək qabiliyyətini açıqlayır.

Uyğunlaşma bir tərəfdən cəmiyyət üzvlərinin dəyişilən siyasi mühitə, yeniləşən siyasi həyata uyğunlaşmaq qabiliyyətini, digər tərəfdən onların öz hüquqlarını və idarəetmə səlahiyyətlərini həyata keçirmək şəraitinə nüfuz etmələrini səciyyələndirir.

Qovuşma (inteqrasiya) müəyyən siyasi sistem çərçivəsində müxtəlif sosial təbəqə və qrupların yanaşı mövcudluğunu, dövlətin təhlükəsizliyini və dövlətlə cə-

miyyətin qarşılıqlı münasibətlərini təmin edir.

Əlaqələndirmə ümumi qəbul olunmuş terminlərdən, simvollardan, stereotiplərdən, digər informasiya vasitələrindən və ünsiyyət dilindən istifadə etmək əsasında hakimiyyətin bütün subyektlərinin və təsisatlarının qarşılıqlı təsirini şərtləndirir.

Siyasi mədəniyyətin təhsil və tərbiyə funksiyaları xüsusi əhəmiyyətə malikdir. Təhsil funksiyasının məzmunu siyasi ideyaların, nəzəriyyələrin və biliklərin mütəşəkkil, məqsədyönlü, sistemli və ardıcıl şəkildə əhalinin şüuruna çatdırılmasında ifadə olunur.

Tərbiyə funksiyası adamların sosial-siyasi təcrübəsinin zənginləşməsində, onlarda müəyyən siyasi əqidənin formalaşdırılmasında özünü göstərir. Təhsil və tərbiyə funksiyalarının qarşılıqlı əlaqəsi insanın faydalı sosial fəaliyyətə, səmərəlikonkret sosial-siyasi davranışa sövq edilməsinə ciddi təsir göstərir. Siyasi mədəniyyətin məzmununda səfərbəredici-birləşdirici və təhrikedici funksiyalar spesifik əhəmiyyətə malikdir. Həmin funksiyalar öz ifadəsini bütövlükdə cəmiyyətin təkmiiləşdirilməsinə istiqamətlənən şüurlu və fəal fəaliyyətdə, belə fəaliyyətə daim hazır olmaq qabiliyyətində və iradəsində tapır. Səfərbəredici və təhrikedici funksiyaların sosial mənası bundan ibarətdir ki, bu funksiyalar insanın mənəvi aləmi ilə praktiki fəaliyyətinin qarşılıqlı təsirini şərtləndirir, cəmiyyətin əsaslarının möhkəmləndirilməsinə və hərtərəfli təkmilləşdirilməsinə imkan yaradır. Bir sözlə, cəmiyyət üzvlərində yetkin siyasi mədəniyyətə malik olmaq səylərinin güclənməsinə təkan verir.

Siyasi mədəniyyət həmçinin, sosial təşkilatçılıq kimi çox mühüm funksiyanı yerinə yetirir. Bu funksiya adamlara məqsədyönlü təsir göstərməklə onları faydalı sosial yönümlü fəaliyyətə sövq edir, sosial-siyasi fəallığın təşəkkülü, inkişafı və yüksəlməsində qiymətli rol oynayır.

Siyasi mədəniyyətin ümumi əhəmiyyət daşıyan funksiyalarından biri isə sosiallaşma funksiyasıdır. Həmin funksiya cəmiyyət üzvlərində elə keyfiyyətlərin formalaşmasını təmin edir ki, bunun sayəsində hər bir fərd mövcud hakimiyyət sistemində öz vətəndaşlıq hüquqlarını və vəzifələrini, siyasi funksiyalarını və mənafeyini reallaşdırmaq imkanına malik olsun. Sosiallaşma funksiyası nəinki siyasi sferada həmçinin, iqtisadi, əxlaqi və dini sferalarda şəxsiyyətin sosiallaşmasına mühüm təsir göstərir, müxtəlif vərdişlərin, sosial davranış qaydalarının mənimsənilməsini təmin edir.

Qeyd etmək vacibdir ki, siyasət sferasında sosiallaşma prosesinə fərdin həyat fəaliyyətinin sosial və şəxsi tərəflərinin vəhdət halında dəyişməsi kimi baxmaq lazımdır. Siyasət sferasında sosiallaşma şəxsiyyətin formalaşmasına və inkişafına mühüm təsir göstərir. Siyasi sosiallaşma insanın siyasi münasibətlərin və siyasi fəaliyyətin subyekti kimi təşəkkülünün bütün prosesini əhatə edir. Sosiallaşma funksiyası həm insanın özünün siyasi mədəniyyətinə, və eləcə də bütövlükdə cəmiyyətin siyasi mədəniyyətinə bilavasitə təsir göstərir.

Siyasi mədəniyyətin funksiyaları müxtəlif inkişaf mərhələlərində heç də eyni səviyyədə fəaliyyət göstərmir. Məsələn, siyasi sabitliyin pozulduğu prosesdə həmin funksiyaların bəzisinin fəaliyyəti zəifləyir və hətta dayanır. Siyasi təcrübə göstərir ki, siyasi sabitliyin pozulduğu hallarda siyasi mədəniyyətin əlaqələndirmə, sosial təşkilatçılıq funksiyalarının fəaliyyəti əhəmiyyətli dərəcədə zəifləyə

bilər. Belə halda mövcud ölkədə siyasi hakimiyyətə münasibətdə əks mövqelərdə dayanan sosial qruplar arasındakı mübahisə və münasibətlər kəskinləşir.

Ümumiyyətlə, siyasi mədəniyyətin funksiyalarının çoxcəhətliyi ən əvvəl, onun öz məzmununun zənginliyi və rəngarəngliyi ilə müəyyən olunur.

Bu cəhət siyasi mədəniyyətin sosial qayəsini və rolunu başa düşmək üçün prinsipial əhəmiyyətə malikdir.

Vətəndaşların siyasi mədəniyyətinin yüksəldilməsi təkcə siyasi mədəniyyətin funksiyaları ilə təmin olunmur. Həmin prosesin səmərəli olması həmçinin, siyasi mədəniyyətin formalaşmasına fəal təsir göstərən forma və vasitələrin hər an təkmilləşdirilməsini tələb edir. Bu təsir vasitələri içərisində şəxsi siyasi təhsil, təlim-tərbiyə prosesi, siyasi diskusiya dərnəkləri, kütləvi informasiya vasitələri və s. xüsusi yer tutur. Siyasi tərbiyənin nəticələri belə bir cəhəti təsdiqləyir ki, həmin prosesdə siyasi mədəniyyətin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlərdən daha çox, mövcud tədbirlərin tərbiyəvi və praktiki-siyasi səmərəsi mühüm rol oynayır.

Müxtəlif təsir formaları və vasitələrinin köməyilə adamların siyasi şüurluluq səviyyəsində baş verən dəyişiklikləri qiymətdləndirərkən onların rəylərini, əhval-ruhiyyəsini, bilik və görüşlərini, inamını və faydalı fəaliyyət yönümünü nəzərə almaq vacibdir. Siyasi tərbiyə prosesində fərdlərin siyasi marağından yayınmaq gözlənilən səmərəli nəticədən məhrum olmağa gətirib çıxarır. Başqa sözlə, siyasi mədəniyyətin yüksəldilməsinə ciddi ziyan vura bilər. Yetkin siyasi mədəniyyətə malik olmayan tərbiyəçi yüksək siyasi mədəniyyət də tərbiyə edə bilməz.

Adamların siyasi prinsipləri, normaları və ideyaları dərk etmələri əslində, onların siyasi mədəniyyətini səciyyələndirir. Həmin siyasi ünsürlər vətəndaşların siyasi münasibətlər sferasında davranışını, onların əhatəsində olduğu sosial gerçəkliyə şüurlu münasibətini müəyyən edir və siyasi hadisələr sferasında insanın sabit qiymətli sosial fəaliyyət yönümünə imkan yaradır. Siyasi mədəniyyət ümumbəşəri və milli mövqelərin düzgün və ardıcıl əlaqələndirilməsini, bütün ictimai hadisələri siyasi cəhətdən qiymətləndirmək qabiliyyətini, dünya ölkələrinin sosial və siyasi inkişaf mənzərəsinin dürüst təhlil olunmasını ifadə edir. Sosial proseslərin siyasi mahiyyətini dərindən dərk etmək dərəcəsi bir tərəfdən subyektin siyasi yetkinliyini, digər tərəfdən isə onun ictimai fəaliyyət sferasında prinsipial və məqsədyönlü mövqeyini əks etdirir. Vətəndaşların siyasi mədəniyyətinin yetkinliyi sosial həyatın bütün sferalarının qarşılıqlı təsir zəminində inkişafını, xüsusilə, mənəvi həyatın zənginliyini, rəngarəngliyini və bütövlüyünü təmin edən amillərdəndir.

Siyasi elmə aid ədəbiyyatda siyasi mədəniyyətin funksiyaları ilə yanaşı onun tiplərinin müəyyənləşdirilməsinə də ciddi diqqət yetirilir. Siyasi mədəniyyətin tiplərinin müəyyən olunması müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətinin qiymətləndirilməsi və səciyyələndirilməsi baxımdan xüsusi əhəmiyyətə malikdir. Bütün ölkələr və xalqlar üçün yeganə siyasi mədəniyyət mövcud deyilidir. Siyasi mədəniyyətin tiplərinin təsnifatı bir meyar əsasında izah oluna bilməz. Çünki hər bir ölkənin və millətin təşəkkülü və inkişaf xüsusiyyətləri onun siyasi mədəniyyətinin mahiyyətində, strukturunda və formalarında dərin iz buraxır. Bu və ya digər ölkənin, millətin, xalqın siyasi mədəniyyətinin təşəkkülü və təkamülü bir sıra obyektiv və

subyektiv xarakterli sosial, təbii amillərin təsiri altında təmin olunur.

### 4.2. Şəxsiyyətin siyasi fəaliyyəti siyasi mədəniyyətin sərvət yönümüdür

Siyasi həyat əbədi mövcud olmayıb. Onun yaranma tarixi qədim dövrə təsadüf edir. Siyasi həyat ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin meydana çıxması ilə təşəkkül tapır. Bu qanunauyğunluq cəmiyyətin siyasi sisteminə də aiddir. Cəmiyyətin siyasi sistemi yarandığı ilk vaxtlar yetkin səviyyədə olmadığı kimi, siyasi həyat da təşəkkülünün başlanğıcında məhdud çərçivədə olmuş və siyasi fəaliyyət prosesində adamlar kiçik tələbatla kifayətlənmişlər. Quldarlıq cəmiyyətinin qərarlaşması ilə nəinki siyasi sistemdə, həm də siyasi həyatda köklü keyfiyyət dəyişiklikləri baş verir. Belə ki, siyasi sistemin ən mühüm ünsürü kimi siyasət aləminin başlıca komponenti olan dövlət və onunla birlikdə hakimiyyət təşəkkül tapır. Dövlət strukturları ilə yanaşı ilk partiyalar yaranır. Əlbəttə, belə «partiya» anlayışı hər şeydən əvvəl, bu və ya digər şəxslə, şəxslər qrupu və hər hansı sülalə ilə yaxınlığı ehtiva edirdi. Başqa sözlə, aristokratik qruplaşmalar kimi meydana gələn ilk partiyalar həmin ictimai subyektlərin tərəfdarı kimi səciyyələnirdi. Siyasi sistemin inkişafı cəmiyyətdə baş verən ciddi dəyişiklikləri əks etdirirdi. Bu dəyişikliklər isə müxtəlif sosial təbəqələr arasında mövcud olan ziddiyyətlərlə şərtlənirdi. Heç də təsadüfi deyil ki, uzun əsrlər boyu siyasi həyatın başlıca istiqaməti rəqabət münasibətlərindən ibarət olmuşdur. Nəticə etibarilə



cəmiyyətin siyasi həyatı siyasi sistemin yeni ünsürləri hesabına genişlənir və zənginləşir.

Orta əsrlər cəmiyyətinin ilk başlanğıcında bu və ya digər ölkədə imtiyazlı yuxarı dairələr siyasi sistemin və təbii ki, siyasi həyatın formalaşdırılmasında müstəqil rol oynayırdılar. İmtiyazlı təbəqələr özlərinə məxsus inzibati və məhkəmə hakimiyyəti yaradır, əhali üzərinə vergilər qoyur və əmlak senzi tətbiq edirdilər. Sonralar müxtəlif sosial təbəqələrlə ölkəni idarə edənlər arasında hakimiyyət uğrunda mübarizə cəmiyyətdə yeni siyasi strukturların yaranmasına, demokratik idarəçiliyin ilk ünsürlərinin təşəkkülünə gətirib çıxardı. İngiltərədə ali silki nümayəndəlik orqanının, başqa sözlə, ilk parlamentin, Fransada və Niderlandda kortesin (ali qanunverici orqanın) təşəkkülü siyasi həyatın yeni mütərəqqi istiqamətdə inkişafının təzahürü idi. Orta əsrlər cəmiyyətində tədricən siyasətin demokratikləşməsi, ölkələrin müəyyən qismində (İngiltərə və s.) konstitusiyalı monarxiyaya keçilməsi, bəzilərində parlamentli və ya prezidentli respublika idarəçiliyinin qərarlaşması, hakimiyyətin bölünməsinin praktiki reallığa çevrilməsi cəmiyyətin siyasi həyatının təkmilləşməsində keyfiyyətcə yeni mərhələ oldu.

Burjua inqilablarının (İngiltərədə, Fransada və s.) elan etdikləri azadlıq və bərabərlik şüarları tədricən həyata keçirildi. Yeni ictimai təşkilatlar yarandı. Bütün bunlar bir tərəfdən cəmiyyətin siyasi sistemində baş verən əhəmiyyətli dəyişikliklər idisə digər tərəfdən onun siyasi həyatının yeni çalarlarla zənginləşdiyinin təzahürüdür. Müasir dövrdə özünün yüksək inkişaf səviyyəsilə səciyyələnən siyasi həyat həm də daxili ziddiyyətləri, mürəkkəbliyi, çoxcəhətliliyi və yeni strukturlara malik olması baxımdan diqqəti cəlb edir.

**Siyasi həyat insanın və cəmiyyətin siyasi varlığının mənəvi, hissi, emosional və praktiki predmetli formasıdır.**

Siyasi həyat adamların və cəmiyyətin siyasətə münasibətini və siyasətdə iştirakını səciyyələndirir. Siyasi həyat anlayışı ictimai, iqtisadi, mədəni, mənəvi, maddi, dini həyatla və sosial həyatın digər növləri ilə oxşarlıq təşkil edir: O, konkret dövrləri, ölkələri, cəmiyyətləri, siniflərin, sosial təbəqə və qrupların, ayrı-ayrı fərdlərin siyasi dav-ranışını ümumiləşmiş şəkildə qiymətləndirmək üçün istifadə olunur. Siyasi həyatın xarakteristikası onun mövcud olduğu konkret şəraiti qiymətləndirməyə imkan yaradır. Eləcə də siyasi həyatın məzmunu onu şərtləndirən sosial, siyasi, iqtisadi və mədəni tarixi amilləri yəni dövlət tiplərini, cəmiyyətin siyasi quruluşunu, siyasi təşkilini, hakimiyyətin strukturunu və sairəni başa düşməyə yardım göstərir.

Hər hansı cəmiyyətin siyasi həyatında ən mühüm problemlər bunlardır: **Siyasi hökmranlıq və idarəetmə, hökmranlıq və əməkdaşlıq; hakimiyyətin konstitusiya vasitəsilə formalaşdırılması, möhkəmləndirilməsi və siyasi cəhətdən qeyri-bərabərlik; müxtəlif dövlət-siyasi sistemlər çərçivəsində idarəetmə mexanizmi; adamların hakimiyyət təsisatları ilə münasibətləri; cəmiyyətin həyat qabiliyyəti ilə onun fasiləsiz fəaliyyətinin birliyini təmin edən mexanizm; siyasi sosiallaşma prosesi, insanın cəmiyyətdə siyasi münasibətlərin tam hüquqlu subyekt kimi mövcudluğu və kütləvi informasiya vasitələri.**

Siyasi həyat reallıqdır. Lakin siyasi həyatın reallıq mahiyyəti heç də onun təbiətinə xas olan utopiyaların inkarı deyildir. Heç də təsadüfi deyil ki siyasət problemini araşdıran tədqiqatçıların bir qismi utopiya və siyasi həyat məsələsinə müəyyən diqqət yetirir. Siyasi həyatda müxtəlif utopiyaları xüsusilə, **mütləq və nisbi** utopiyaları məqsədyönlü fərqləndirmək vacib və əhəmiyyətlidir. Mütləq utopiyaların məqsədlərinin prinsip etibarilə reallaş-dırılması mümkün



deyildir. Əksinə nisbi utopiyaların məqsədləri ictimai inkişafın bugünkü məqamında reallaşmasa da başqa bir şəraitdə həyata keçirilə bilər. Nisbi utopiyanın reallaşa biləcəyinə dair **Lamartinin** konkret fikri maraq doğurur: «Utopiyalar vaxtı çatmayan həqiqətlərdir».

Siyasi həyat ilk növbədə sosial və siyasi təsisatlı hakimiyyət strukturlarını, onun aparatını və orqanlarını, siyasi sistemin tipini, partiya sistemlərini, cəmiyyətin siyasi təşkilini, dövlət quruluşunun və siyasi rejimin tiplərini, ictimai qaydaların vəziyyətini və sairəni müəyyənləşdirir, Bununla yanaşı siyasi həyat vətəndaş cəmiyətinin inkişaf səviyyəsinə, müxtəlif nəsillərin münasibətlərinə, ictimai hərəkatlara, siyasi fəaliyyətə, siyasi hadisə və proseslərə, liderlərin davranışına, bir sözlə, siyasi mühiti yaradan bütün hissi və rasional amillərin məcmuuna mühüm təsir göstərir.* Siyasi həyatın formalaşdığı ictimai mühitə iqtisadi, ideoloji, mədəni, hüquqi və dini amillərin təsiri böyükdür. Adamların birgə həyat fəaliyyətinin formaları və ictimai münasibətlər şəxsiyyətin və cəmiyyətin siyasi həyatının təşəkkülündə mühüm rol oynayır.

F.Brodun qeyd etdiyi kimi, «siyasət dövlətdə hakimiyyət uğrunda yarışan və rəqabət aparan fərdlərin və qrupların toqquşması səhnəsidir.» Partiyaların, lobbilərin, müxtəlif hə-rəkatların toqquşmasından ibarət olan siyasi həyat bu və ya digər cəmiyyətin doğurduğu problemlərlə bağlı daimi mübahi-sələri səciyyələndirir.**

Siyasi həyat dəyişkən və dinamikdir. O, yüksəliş və tənəzzül məqamlarına məruz qala bilir. Mürəkkəb amillər

* Политология: Энсиклопедический словарь. под редак. Аверьянова Ю.И. М., 1993. səh.261.

** Социальные и гуманитарные науки. Зарубежная литература. Реферативный журнал. Серия 4. Т.1 səh. 10.

sisteminin təsirilə siyasi həyatın tonusu (fəaliyyət dərəcəsi) dəyişir. İctimai həyatın sferalarından biri olmaq etibarilə siyasi həyatda müxtəlif siyasi və ictimai vəzifələrin həlli təmin olunur. Demokratikləşmiş siyasi cəmiyyətdə adamlar siyasi həyatda fəal və könüllü iştirak edirlər. Avtoritar və totalitar sistemlərdə, diktator rejimlərində siyasi həyatda cəmiyyətin cüzi hissəsi fəaliyyət göstərir. Əhalinin böyük əksəriyyəti isə siyasi fəaliyyətə formal cəlb olunur.

Ayrı-ayrı adamların fəal siyasi həyatı yalnız ümumi əhəmiyyət daşıyan vəzifələrlə deyil, eləcə də onların xüsusi məqsədləri ilə şərtlənir. Bu və ya digər fərd öz iradəsindən asılı olaraq şüurlu surətdə peşəkar siyasətçilər, dövlət və partiya fəalları sırasına qoşula bilər. Əlbəttə, bu cəhət yalnız ayrıca fərdlərin deyil, həm də bütövlükdə cəmiyyətin siyasi həyatının mahiyyətini səciyyələndirir. Yadda saxlamaq lazımdır ki, cəmiyyətin və şəxsiyyətin siyasi həyatı son nəticədə mövcud cəmiyyət və dövlət tipi ilə şərtlənir.

Siyasi elmə aid ədəbiyyatda «küçədə siyasət», «küçədə siyasi həyat» kimi anlayışlara təsadüf olunur. Bu anlayışlar siyasi həyatın küçələrdə də təzahürünü əks etdirir. Kütlələrin siyasi məqsədlər naminə küçələrə axını, meydanlarda toplanması ictimai və xalq hərəkatı xarakteri daşıyır. Belə tədbirlər hər şeydən əvvəl, mövcud cəmiyyət tipi və onun siyasi təşkili ilə müəyyən olunur. Avtoritar və ya totalitar idarə sistemlərində kütləvi tədbirlər-mitinqlər, yığıncaqlar və s. rəsmi siyasi mərasimlərin tərkib hissəsi kimi səciyyələnir (təəssüf ki, biz də XX əsrdə təxminən 70 il belə arzuolunmaz mərasimlərin iştirakçısı olmuşuq). Demokratik cəmiyyətdə siyasətin küçələrə nüfuzu siyasi həyatın zəruri ünsürünə çevrilir və hakimiyyətlə xalqın münasibətlərində əlaqə amili kimi çıxış edir.



N.Makiavelli adamların siyasi səylərini onların mənəvi keyfiyyətləri ilə əlaqələndirirdi. O, qeyd edirdi ki, «adamlar haqqında bunu demək kifayətdir ki, bütövlükdə onlar yaltaqlığa, nankorluğa, qədirbilməzliyə və aldanmağa daha çox meyllidir. Lakin hansı keyfiyyətlərə malik olmasından asılı olmayaraq xalq siyasi həyatdan kənarda qala bilməz.»* Bu böyük mütəfəkkir dönə-dönə deyirdi ki, hökmdarlar xalqı düzgün, ağıllı idarə etməyi bacarmalıdırlar. Həm də xalqı ləyaqətlə idarə etmək üçün hökmdarların müdrik məsləhətçilərə ehtiyacı vardır. Bu sadə kəlam indi də öz əhəmiyyətini saxlayır. Elə məsələlər var ki, onları tədqiq etmədən politologiya əsil elm və tədris fənni kimi qəbul edilə bilməz. Bu məsələlərdən ikisi daha vacibdir. Əvvəla, siyasi həyat adlanan səhnədə fəaliyyət göstərən şəxslər, başqa sözlə, aktyorlar kimlərdir? İkincisi, siyasi fəaliyyətin ssenarisini kim yazır və təşkil edir?

Əlbəttə, siyasi həyatın teatr səhnəsinə bənzədilməsi şərti mahiyyət daşıyır. Buna baxmayaraq belə bənzətmə çoxdan mövcuddur. Böyük **Şekspir** təsdiqləyirdi ki, «Bütün dünya teatrdır.» **Marks** göstərirdi ki, adamlar öz dramlarının müəllifləridir və fəaliyyətdə olan şəxslərdir.**

Siyasi həyatın səhnəyə oxşadılması bu gün də diqqəti cəlb edir. Müasir Fransız alimi **J.M.Denkenin** «Siyasi elm» kitabında böyük bir bölmə məhz, bu məsələyə həsr olunmuşdur: Digər fransız sosioloqları **M.Doqan** və **D.Pelass** birgə yazdıqları «Müqayisəli siyasi sosiologiya» adlı əsərdə sosial aktyorların təs-nifatına xüsusi fəsil ayırmışlar.

Siyasi həyatı cəmiyyətin iqtisadi, sosial və mənəvi sferalarından fərqləndirən əhəmiyyətli cəhət bundan ibarətdir

---

* Манавелли. Государь. М., 1990. Səh 50.

** Маркс К. Енгельс Ф. Соч. т.4. Səh138.

ki, bütövlükdə cəmiyyət məhz, dövlət tərəfindən təşkil və idarə olunur. Axı, siyasətin predmeti dövlət hakimiyyətidir. Siyasət ümumi rifahın əldə olunmasına istiqamətlənən fəaliyyətdir. Onun ali sərvəti xüsusi dəyərləri, haqqı, ədaləti, əmin-amanlığı, azadlığı və sairəni özündə ehtiva edən ümumi rifahdır. Təsadüfi deyil ki, Aristotel siyasəti insan fəaliyyətinin yüksək forması adlan-dırmışdır. O, yazırdı: «Ədalət yalnız siyasi həyatda mümkündür, çünki siyasi birgəyaşayışın bütün sistemi hüquqa əsaslanır».* İnsanlar arasındakı qarşılıqlı münasibətlərdə ədalət, düzgünlük siyasət vasitəsilə qərarlaşır və beləliklə, cəmiyyətdə hər kəsin rifahı təmin olunur. Yadda saxlamaq lazımdır ki, siyasətin məzmunu onun məqsədlərində və sərvətlərində, həll edəcəyi problemlərdə, siyasi qərarların qəbulu mexanizmində ifadə olunur. Siyasətin formaları isə real surətdə dövlətdə, partiyalarda, mənafe qruplarında (assosiyasiyalarda və hərəkatlarda), eləcə də, qanunlarda, siyasi və hüquqi normalarda təcəssümünü tapır.

İctimai həyatın bütün sferaları onlara xas olan fəaliyyət növləri ilə səciyyələnir. Siyasi həyatın başlıca məzmununu təşkil edən **siyasi fəaliyyət** insanların həyat fəaliyyəti sistemində xüsusi yer tutur. Siyasi fəaliyyət subyektin fəallığının xüsusi formasıdır. Bununla əlaqədar qeyd edək ki, «fəallıq» və «fəaliyyət» anlayışları birmənalı başa düşülməməlidir. Fəallıq fəaliyyət anlayışına nisbətən məhdud xarakter daşıyır. O, fəaliyyətin forması, dərəcəsi kimi səciyyələnir.

Müasir sosiologiyada və siyasi fəlsəfədə fəallıq çoxcəhətli anlayış kimi tədqiq olunur. Adi dildə «fəallıq» məvhumu ayrı-ayrı fərdlərin qiymətləndirilməsi mənasında

* Аристотель. Политика. М., 1985. Səh11.



işlədilirsə, fəlsəfi-sosioloji ədəbiyyatda sosial qrupların səciyyələndirilməsi baxımdan araşdırılır. Daha geniş anlayış olan fəaliyyət isə nəinki fərdlərin və sosial qrupların, həm də cəmiyyətin çoxcəhətli, şüurlu fəaliyyətini ehtiva edir. Ümumiyyətlə, fəaliyyət mürəkkəb, əhatəli və çoxtərəfli anlayışdır. O, sözün geniş mənasında ictimai həyatın müxtəlif sferalarında (iqtisadi, sosial, siyasi, mənəvi və s.) adamların məqsədyönlü davranışını, hərəkətlərini, fəallığını, mütəşəkkil səfərbər olunma qabiliyyətini, özünü tənzimlənməni, idarəetmə mədəniyyətini və sairəni səciyyələndirir.

Sosial subyektlərin fəallığının özünəməxsus sferası olan siyasi fəaliyyətin məzmununun müəyyənləşdirilməsi siyasətin özünün mahiyyətini aydınlaşdırmağa imkan yaradır. Siyasi elmə aid mövcud tədqiqatlarda siyasi fəaliyyət probleminin araşdırılmasına iki mövqedən yanaşılır. Bu mövqelərdən birinin mahiyyəti ondan ibarətdir ki, siyasi fəaliyyət siyasi sistemin daxilən özünütənzimləməsidir. Belə siyasi fəaliyyətin subyektlərinə fərdlərin təşkilat qrupları, məsələn, parlament, partiya fraksiyaları, idarə edən qruplaşmalar (elitalar), hökumət, digər hakimiyyət orqanları, liderlər və s. aid edilir.

Siyasi fəaliyyətin müəyyənləşdirilməsinə dair digər mövqe siyasi sistemin kənardan (öz daxilindən yox), sosial-sinfi qüvvələr tərəfindən idarə olunduğunu iddia edir. Siyasi fəaliyyətin bu cür başa düşülməsi sosial qruplar və ictimai birliklər sisteminə, adamlara təsir etməyin ümumiləşmiş ifadəsini səciyyələndirir.

Siyasi fəaliyyətin mahiyyətinin müəyyənləşdirilməsinə dair bu iki konseptual mövqeyin heç birinə üstünlük vermək məqsədəuyğun deyil. Çünki siyasi fəaliyyət siyasi sistemin həm daxilən ona xas olan və həm də ona kənardan təsir edən subyektlərin mütəşəkkil fəaliyyətinin məcmuu-

dur. Siyasi fəaliyyətin əsasını hakimiyyət təsisatlarının köməyi ilə ictimai münasibətlərin idarə olunması təşkil edir.

Siyasi fəaliyyətin konkret məzmunu aşağıdakılardan ibarətdir: dövlət işlərində iştirak etmək, dövlətin fəaliyyətinin formalarını, vəzifələrini və istiqamətlərini müəyyənləşdirmək, hakimiyyətin bölünməsi, onun fəaliyyətinə nəzarət və eləcə də siyasi təsisatlara digər təsir göstərmək.* Bu cəhətlərin hər biri fəaliyyətin çoxtərəfli növlərini ümumiləşdirir. Məsələn, adamların dövlət hakimiyyəti təsisatları və siyasi partiyalar çərçivəsində bilavasitə həyata keçirdikləri siyasi funksiyalar siyasi fəaliyyət növlərinin ümumiləşmiş ifadəsidir. M.Veber siyasi fəaliyyətin tərkibini təşkil edən ünsürlərdən ölkədə qaydaqanun yaradılmasına aid fəaliyyətə, başqa sözlə, «mövcud hakim münasibətlərə» daha çox üstünlük verir.**

Siyasi fəaliyyətin bilavasitə obyektinə siyasi sərvətlər, dəyərlər, təsisatlar bütövlükdə siyasi sistem və ona aid olan sosial qruplar, partiyalar, elitalar və liderlər daxildir. Siyasi fəaliyyətin subyekti həmişə mütəşəkkil ictimai qüvvə kimi çıxış edir.

Siyasi fəaliyyətin konkret subyektləri müxtəlifdir. Elmi ədəbiyyatda siyasi fəaliyyətin subyektinin iki növdən ibarət olması göstərilir: qrup halında və fərdi. Siyasi fəaliyyətdə qrup halında fəaliyyətə sinfi, milli, ərazi (regional), korporativ və elitar subyektlər aid edilir. Qrupla birgə fəaliyyət göstərən siyasi cəhətdən hər bir fəal şəxsiyyət isə siyasi fəaliyyətin fərdi subyekti kimi qiymətləndirilir. Siyasi şəxsiyyətin yüksək tipi siyasi lider hesab olunur.

İnsanın siyasi fəaliyyətə cəlb olunması təbii haldır.

* Д.П.Зеркин. Основы политологии. Səh.308-314.

** Вебер М. Избранные произведения. М., 1990. Səh 661.



Siyasi fəaliyyətə meyl etmək müəyyən səbəblərlə, mənafe ilə və tələbatla şərtlənir. Siyasi fikir tarixində və müasir politoloji ədəbiyyatda siyasi fəaliyyəti şərtləndirən amillər bir mənalı qiymətləndirilmir. Marksizmə görə siyasi fəaliyyət sinfi mənafelərdən doğur və siyasi mübarizə vasitəsilə reallaşır. Bu konsepsiya şəxsiyyətin rolunu onun fəaliyyətinin kütlələrin fəaliyyəti ilə bağlılığında təsdiqləyir. Müasir dövrün Amerika və Qərb politoloqları isə siyasi fəaliyyəti doğuran səbəbləri başqa mövqedən əsaslandırırlar. Məsələn, Amerika politoloqu **Harold Lassuellin** irəli sürdüyü nəzəriyyədə şəxsiyyətin siyasi fəaliyyətini şərtləndirən bir neçə səbəb nəzərə çatdırılır:

1.Praqmatik səbəb. 2.Tarixi proseslərə cəlb olunmaq arzusunu şərtləndirən səbəb. 3.Təmənnasız səbəb. 4.Qrup mənafeyindən irəli gələn səbəb. 5.Təmənnalı səbəb.

**Praqramitik səbəbin** mahiyyəti ondan ibarətdir ki, şəxsiyyətin siyasi həyatda iştirakı elə dərin praktiki nəticələrin əldə olunmasına istiqamətlənir ki, bunlardan onun özü, təmsil etdiyi qrup, kollektiv və bütövlükdə cəmiyyət faydalansın. **Tarixi proseslərə cəlb olunmaq arzusunu şərtləndirən səbəb** belə bir cəhəti səciyyələndirir ki, bu və ya digər şəxs tarixdə iz buraxmaq naminə cəmiyyətdə baş verən hadisə və proseslərdə iştirak etməyə səy göstərir. **Təmənnasız səbəb** insanın başqalarına xidmət etmək arzusunu, ehtiyac içərisində, çətin vəziyyətdə olanlar üçün narahatlığını, öz xalqı, vətəni və bəşər övladı naminə fəaliyyət göstərməyə hazır olduğunu ifadə edir. **Qrup mənafeyindən irəli gələn səbəb** insanın cəmiyyətə, bu və ya digər sosial qrupa, kollektivə mənsubiyyəti ilə bağlı olaraq müəyyən mənafe və məqsədlər naminə siyasətə qoşulmasını səciyyələndirir. Nəhayət, **təmənnalı səbəb** cəmiyyətdə nüfuz qazanmaq, hakimiyyət səlahiyyətləri əldə etmək xatirinə,

maddi rifah və digər məqsədlər üçün siyasi fəaliyyətdə iştirak etməyə səy göstərməklə bağlıdır.

Siyasi proseslərdə siyasi fəaliyyətin mürəkkəb, çoxsubyektli və münaqişəli xarakteri əks olunur, o, müxtəlif sosial qrupların, təşkilatların və fərdlərin münasibətləri kimi təzahür edir.*

Siyasi fəaliyyət iqtisadi və mənəvi amillərlə sıx bağlıdır. İnsanların maddi rifahının, güzəranının yüksək səviyyəsi onun təhsil alması üçün əlverişli şərait yaradır. Təhsil isə öz növbəsində cəmiyyət üzvlərinin siyasi tərbiyəsində əhəmiyyətli rol oynayır. Təcrübə təsdiqləyir ki, azsavadlı və ya savadsız adamlar düzgün siyasi istiqamət götürə bilmir, zərərli siyasi təsir altına düşür və nəticədə belə çatışmazlıq **oxlokratiyanın** (kütlə hakimiyyətinin) formalaşmasına zəmin yaradır. Bu cəhət 1988-89-cu illərdə Azərbaycanda davam edən «meydan hərəkatında» aydın nəzərə çarpdı. Həmin hərəkat öz sıralarına on minlərlə savadlı, siyasi görüş dairəsi lazımi səviyyədə olan adamlarla, yüksək intellektual səviyyəli ziyalılarla yanaşı siyasi cəhətdən qeyri-yetkin, səbatsız şəxsləri də cəlb etmişdi. 1988-89-cu il hadisələrinin əsl mahiyyəti və son məqsədi təəssüf ki, çoxları tərəfindən düzgün dərk olunmamışdı. Xalq Cəbhəsinin hakimiyyəti zorla ələ keçirməsi və yeritdiyi siyasi xətt fikrimizin əyani təsdiqidir. Siyasi fəaliyyəti müəyyən zəruri biliklərə yiyələnmədən uğurlu həyata keçirmək qeyri-mümkündür. Siyasi həyata fəal və məqsədyönlü qoşulmaq xeyli dərəcədə təhsil və şəxsi təhsil prosesində, başqa sözlə, mənəvi fəaliyyət sferasında təmin olunur. Respublikamızın görkəmli filosofu **Əlikram Abdullayev** yazır: «Siyasət idarəçilikdə, hakimiyyətdə iştirak ilə, hakimiyyətə, dövlətin fəaliyyətinə münasibət ilə bağlı olan spesifik fəaliyyət sahəsidir.»* Səmərəli siyasi fəaliyyət mahiyyət etibarilə siyasi mədəniyyətin formalaşmasına xidmət edir. Siyasi mədəniyyət isə həmişə bu və ya digər formada siyasi fəaliyyətlə bağlıdır və bunsuz ola bilməz. Bəzi qərb siyasətşünasları siyasi fəaliyyəti yalnız ayrı-ayrı fərdlərin davranışına müncər edirlər. Belə halda siniflərin, dövlətin, siyasi partiyaların siyasi fəaliyyətin subyekti kimi çıxış etməsi inkar olunur. Hətta M.Veber kimi məşhur politoloq iddia edir ki, siyasi fəaliyyəti, bütövlükdə isə hər hansı sosial fəaliyyəti yalnız ayrı-ayrı fərdlərin davranışı əsasında başa düşmək olar.

* В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. Səh 15.



D.P.Zerkinlə haqlı olaraq razılaşmaq olar ki, siyasi fəaliyyətin subyektlərinə münasibətdə marksist konsepsiya M.Veberin mövqeyinə nisbətən həqiqətə daha yaxındır.**

Deməli, siyasi fəaliyyətin subyektini təkcə fərdlər deyil, həm də siniflər, dövlət, siyasi partiyalar, xalq və s. təşkil edir. Ayrı-ayrı fərdlərin özü də L.P.Buyevanın qeyd etdiyi kimi, məhz, praktiki sosial fəaliyyətdə cəmiyyətin, sinfin, sosial qrupun bir hissəsi kimi çıxış edir və tarixi fəaliyyətin xəyali deyil, həqiqi subyektidir.***

Hər bir şəxsin fəaliyyətinin siyasi mənası onun ictimai münasibətlər sisteminə nə dərəcədə cəlb olunması ilə əlaqədardır. Şəxsiyyətin siyasi mədəniyyətinin ahəngdar inkişafını təmin etmək məqsədilə cəmiyyətin hər bir üzvünün sosial davranışının nəticələri üçün vətəndaşlıq məsuliyyətinin gücləndirilməsi hazırda xüsusi əhəmiyyət daşıyır. Xalqımızın üzləşdiyi çətin siyasi və iqtisadi problemlərin uğurlu həlli hər birimizdən vicdanlı, ləyaqətli fəaliyyət tələb edir. Dövlət-

* Ə.Z.Abdullayev. Dil, siyasət, sosial tərəqqi. Bakı, 1985. S 39.

** Д.П.Зеркин. Основы политологии. Səh. 310.

*** Л.П.Буева. Социальная среда и сознание личности. М.,1968. Səh.23.

çiliyimizin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdə hər kəs yüksək şüurluluğa əsaslanan peşə və vətəndaş fəaliyyətilə, namusla xidmət etməlidir. Nazirdən tutmuş sıravi vətəndaşa qədər hamı ictimai mövqeyi və imkanları çərçivəsində dinc əməklə məşğul olmaqla yanaşı ordu quruculuğuna öz töhvəsini bəxş etməlidir. Bunu Müstəqil Azərbaycanın indiki və gələcək taleyi tələb edir. Vətəndaşlıq siması zahiri işküzarlıqla, quru sözçülüklə, təmtəraqlı siyasi mülahizələrlə deyil, insanın ümumxalq və cəmiyyət mənafeyi baxımdan siyasi yetkinliyi, işküzar fəaliyyəti, bir sözlə, sosial ləyaqati ilə müəyyən olunur. Şəxsiyyətin mənəvi xarakteristikası müəyyən mənada cəmiyyətin əxlaqi sərvətlərinin insan tərəfindən mənimsənilməsi dərəcəsini, onun siyasi yetkinliyinin səviyyəsini göstərir.*

Siyasi fəaliyyətin legitimliyi onun cəmiyyətdəki mövcud qaydalara uyğunluğunu ifadə edir. Bu cəhət siyasi fəaliyyətin spesifikliyinin daha bir təzahürüdür. Qaydaqanun subyektin məcburi normaları yerinə yetirməsini səciyyələndirir. Bu normalar mövcud siyasi sistem üçün ümumi əhəmiyyətə malikdir.

Siyasi fəaliyyətin mühüm əlamətlərindən biri onun səmərəliliyidir. Belə səmərəlilik siyasi mənafelərin, məqsədlərin, dəyərlərin şüurlu dərk olunmasına istiqamətlənməyi təcəssüm etdirir.

Siyasi fəaliyyətin səmərəliliyi bu fəaliyyətin məzmununu mənalandırmağın həlledici şərti olmaqla subyektin hakimiyyət təsisatlarına münasibətini əks etdirir. Belə münasibət hər şeydən əvvəl, siyasi fəaliyyət subyektinin mənafeyindən irəli gəlir. «Siyasətin mənbəyi məhz, insanın cəmiyyətdəki

* Məcid Əfəndiyev. Sənin mə'nəvi dünyan. Bakı, 1990. Səh.18-19.



sosial mövqeyindən irəli gələn mənafelərdir. İstər iqtisadi, istər mənəvi amillər və nemətlərə siyasi səciyyə verən onların keyfiyyətlərinin sosial cəhətləridir. Siyasətə yol yalnız mənafelərdən keçib gedir.»*

Yeri gəlmişkən qeyd edək ki, siyasi fəaliyyətin spesifikliyini anlamağa mane olan ehkamlar da diqqəti cəlb edir. Həmin ehkamlar bütövlükdə siyasətin özünün mahiyyətini dərk etməyə mane olur. Təəssüf ki, bu hal beynəlxalq siyasi praktikada da özünü göstərir. Belə ki, **O.Lafonten** «Gələcəyin cəmiyyəti» adlı əsərində yazır ki, «müasir alman sosial-demokratiyası azad bazarın məqsədə çevrildiyi, insan azadlığı və hüquqlarının sıxışdırıldığı bir şəraitdə siyasi təfəkkürdə məhdud iqtisadçılığı inkar edir. Buna görə siyasətin modernləşməsi daha geniş mülahizələrdən çıxış etməlidir.»**

İnsan və dövlət, dövlətlə cəmiyyətin qarşılıqlı münasibətlərinin çoxcəhətli xarakteri siyasi fəaliyyətin təsnifatını şərtləndirir. Siyasi fəaliyyətin başlıca obyektini siyasi hakimiyyət sistemi təşkil etdiyi üçün mövcud ədəbiyyatda onun təsnifatı müxtəlif meyarlara əsaslanır. Siyasət problemini tədqiq edən alimlər siyasi fəaliyyəti üç başlıca qrupa ayırırlar: Siyasi sistem çərçivəsindəki fəaliyyət; Siyasi sistemin ictimai mühitə münasibəti ilə bağlı fəaliyyət; Siyasi hakimiyyət təsisatlarını əhatə edən sosial mühitin doğurduğu fəaliyyət. Bu üç fəaliyyət qrupunun mahiyyətindən çıxış edərək tədqiqatçılar siyasi fəaliyyətin ümumiləşmiş şəkildə iki tipini – **praktiki və nəzəri fəaliyyəti** nəzərə çatdırırlar. Siyasi fəaliyyətin bu tipləri öz məqsədləri və vasitələri baxımdan fərqlənir. Praktiki və nəzəri fəaliyyətin rolu və əhəmiyyəti, eləcə də siyasi həyatda onların qarşılıqlı

* Ə.Z.Abdullayev. Dil,siyasət, sosial tərəqqi. Səh.39

** Лафонтен О. Общества будущего. Политика-реформ в изменившемся мире. М.,1990.

münasibətlərinin xarakteri hər şeydən əvvəl, siyasi subyektin spesifikliyi və ictimai sistemdəki fəaliyyəti ilə müəyyən olunur.

Siyasi fəaliyyəti məqsədləri baxımdan səciyyələndirərək onun üç əsas modelini qeyd etmək olar: 1.Konstruktiv-pozitiv. Bu model siyasi sistemin funksiyalarının təmin olunmasına istiqamətlənir. 2.Neqativ destruktiv Siyasi sistemin sarsıdılmasına yönəlməsi ilə səciyyələnir. 3.Strateji və operativ-taktiki. Bu model isə siyasi proqram vəzifələrinin və taktiki fəaliyyətin işlənib hazırlanmasını və həyata keçirilməsini əks etdirir. Axırıncı modelə həmçinin islahatçı və inqilabi fəaliyyət, mövcud siyasi sistemin modernləşdirilməsi və ya yenisi ilə əvəz olunmasından irəli gələn həlledici vəzifələr daxildir.

Siyasi fəaliyyətin bütün növləri son nəticədə siyasi rəhbərliyə müncər olunur və ya onunla əlaqədardır. Siyasi rəhbərliyi sosial idarəetmənin heç bir növü ilə eyniləşdirmək olmaz. Sosial idarəetmənin növlərindən fərqli olaraq siyasi rəhbərlik kütlələrin, sosial təbəqə və qrupların fəaliyyətini və ictimai münasibətlərini təşkil edir, ümumi istiqamətə yönəldir. Amerika politoloqu **D.Sartorinin** qeyd etdiyi kimi, siyasət idarə edənlərlə idarə olunanlar arasındakı qarşılıqlı münasibətlərdir.*

Adamların siyasi fəaliyyəti onların davranışı ilə sıx bağlıdır. Siyasi fəaliyyət kimi siyasi davranışın da mahiyyəti siyasi sferada fəallıq təzahür etdirməkdən ibarətdir. Davranış fəaliyyət prosesində subyektin vəziyyətini ifadə edir. Siyasi davranış siyasi fəaliyyət subyektlərinin bilavasitə qarşılıqlı təsirini səciyyələndirir.

* Политология вчера и сегодня. М.,1990. Səh167.



Davranışın növləri bunlardır: fərdi, qrup halında və kütləvi. Davranış fəaliyyət prosesində subyektin vəziyyətini səciyyələndirməklə hər cür siyasi hərəkətdə təzahür edir. Polşa politoloqu **T.Bodio** davranışla bağlı üç nöqteyi-nəzərin mövcudluğunu qeyd edir: 1.Davranış siyasi hərəkətin xarici təzahürüdür. 2.Siyasi davranış və siyasi hərəkət eyni anlayışlardır. 3.Siyasi hərəkət siyasi davranışın spesifik formasıdır. **A.İ.Demidov** isə qeyd edir ki, davranış «siyasi fəaliyyətin» mexanizmini, strukturunu səciyyələndirir.[1] Ümumiyyətlə, siyasi davranış siyasi fəaliyyətin ayrılmaz tərəfi olmaq etibarilə məhz, həmin fəaliyyətdə təzahür edir. Siyasi davranışda insanın mövcud siyasi sistemə, hakimiyyət təsisatlarına və cəmiyyətin siyasi quruluşuna münasibəti aydın nəzərə çarpır. Əlbəttə, belə münasibəti birmənalı düşünmək səhv olardı. Başqa sözlə, siyasi fəaliyyət kimi, siyasi davranış da pozitiv və neqativ istiqamət kəsb edə bilir. Şəxsiyyətin, sosial təbəqə və qrupların siyasi davranışı makro və mikro mühitin təbiəti və inkişaf qanunauyğunluqları ilə şərtlənir. Pozitiv siyasi davranış sosial sistemin mütərəqqi istiqamətdə yeniləşməsinə, ictimai tərəqqiyə yönəldiyi halda, neqativ siyasi davranış cəmiyyətin siyasi sisteminin əsaslarının sarsıdılmasına, siyasi sabitliyin pozulmasına və hərc-mərcliyin qərarlaşmasına xidmət edir. Harada təzahür etməsindən asılı olmayaraq siyasi fəaliyyət və siyasi davranış mahiyyət etibarilə sosial subyektlərin cəmiyyətə, onun siyasi təsisatlarına münasibəti kimi səciyyələnir.

[1] Демидов А.И. Политическая деятельность. Саратов, 1987. Səh.22.

### 4.3. Şəxsiyyətin siyasi sosiallaşması

Cəmiyyətin siyasi strukturunun təkmilləşməsi qanunauyğun, daimi və mürəkkəb prosesdir. Bu proses müxtəlif istiqamətlərdə və müəyyən amillərin təsiri altında inkişaf edir. Cəmiyyətin siyasi strukturunun məqsədyönlü inkişafı sistemində şəxsiyyətin siyasi sosiallaşması spesifik və çox mühüm yer tutur. Sosiallaşma geniş anlayış olub insanların həyat fəaliyyətinin bütün sfaralarını, o cümlədən siyasəti əhatə edir.

Siyasi sosiallaşma mövcud cəmiyyətin siyasi strukturunun təkrar istehsalını, onun üçün xarakterik olan ictimai-siyasi münasibətləri, bu münasibətlərin inkişaf istiqamətini, həmçinin, cəmiyyətin siyasi münasibətlərinin subyektinin-şəxsiyyətin spesifik keyfiyyətlərinin təkrar istehsalını səciyyələndirir*. Sosiallaşma siyasi sferada tarixi varisliyin təşkili üsuludur. O, keçmişlə gələcəyin əlaqələndirilməsində özünəməxsus rol oynayır, başqa sözlə, keçmiş nəsillərin təcrübəsini mənimsəmək əsasında fərdlərin cəmiyyətin siyasi təsisatlarına, ilk növbədə siyasi sistemə cəlb olunmasını təmin edir. Şəxsiyyətin siyasi sistemlə qarşılıqlı fəaliyyəti gedişində iki proses nəzərə çarpır. Bir tərəfdən siyasi sistemə yeni üzvlərin cəlb olunması ilə bu sistemin öz-özünə təkrar istehsalı baş verir, siyasi sosiallaşma bu prosesdə siyasi sərvətlərin və sistemin məqsədlərinin saxlanması mexanizmi rolunu oynayır, siyasətdə nəsillərin varisliyinin saxlanmasına imkan yaradır, digər tərəfdən siyasi sistemin tələbləri şəxsiyyətin strukturuna təsir göstərir. Belə ki, siyasi sosiallaşma onun siyasi şüurunun, siyasi davranışının təşəkkülünə təkan verir, nəticə etibarilə şəxsiyyət-vətəndaşın formalaşması təmin olunur. Məhz, bu mənada siyasi sosiallaşma siyasi tərbiyə və ya siyasi maariflənmə anlayışlarından genişdir. Başqa sözlə, o, təkcə hakim ideologiyanın şəxsiyyətə məqsədyönlü təsirini deyil, həm də kortəbii təsiri və şəxsiyyətin xüsusi fəallığını əks etdirir.

* Философская энциклопедия. т. 5, М. 1970, səh. 67



Yeri gəlmişkən, qeyd edək ki, «siyasi sosiallaşma» terminini siyasi elmə ilk dəfə Q.Xaymen gətirmişdir. («Siyasi sosiallaşma» əsərində).

Siyasi elmdə siyasi sosiallaşma prosesinin mahiyyətini anlamağa dair uzun müddət vahid konsepsiya mövcud olmamışdır. Şəxsiyyətin siyasi sosiallaşmasının ilk sanballı, bütövlükdə politoloqlar tərəfindən qəbul edilən nəzəriyyəsi D.İstonun rəhbərliyi altında ABŞ-ın Çikaqoda fəaliyyət göstərən bir qrup alimi tərəfindən işlənib hazırlanmışdır. Çikaqo alimləri siyasi sosiallaşmanı siyasət sferasında yerinə yetirilməsi zəruri olan xüsusi mövqe və təlim prosesi kimi əsaslandırırlar. Bu nəzəriyyəni müdafiə edən alimlərin çoxu, xüsusilə L.Koen, R.Lipton, T.Parsons və başqaları siyasi sosiallaşmanın mahiyyətində insanın siyasi sistemlə və onun təsisatları ilə qarşılıqlı fəaliyyətini başlıca cəhət kimi qiymətləndirirlər. M.Xabermas, K.Luman və digər alimlər isə siyasi sosiallaşmaya insanın özü üçün yeni sərvətləri mənimsəməsi prosesi kimi baxırlar. Belə halda insanın siyasi şüurunun və davranışının formalaşmasında daxili fərdi və psixoloji mexanizm başlıca cəhət kimi əsaslandırılır.

Şəxsiyyətin siyasi sosiallaşması məsələsinə alimlərin münasibəti birmənalı olmasa da tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, siyasi sosiallaşmanın başlıca funksi-

yası şəxsiyyətin siyasətə marağıdır və siyasi sferada müəyyən hakimiyyət vəzifələrini yerinə yetirmək bacarığıdır.

Bu və ya digər cəmiyyətin hər bir üzvü sosial sistemin gündəlik həyatına cəlb olunmaqla və digər adamlarla müxtəlif münasibətlər yaratmaqla sosiallaşma prosesinin subyektinə çevrilir. Qeyd etmək lazımdır ki, şəxsiyyətin sosiallaşması nəinki ümummədəni, eləcə də siyasi-mədəni mühitdə reallaşır.

Siyasi sosiallaşmanın mexanizmi insanın və siyasi sistemin qarşılıqlı fəaliyyətinin bir neçə səviyyəsində fəaliyyət göstərir: 1. Sosial səviyyədə, yəni bütövlükdə cəmiyyət və böyük qruplar səviyyəsində 2. Sosial-psixoloji səviyyədə 3. Şəxsiyyətdaxili səviyyədə.

Sosial səviyyədə şəxsiyyətə işsizlik, seçicilərin ələ alınması, zorakılıq, terror və digər makrososial amillər təsir göstərir.

Cəmiyyət, siniflər və millət səviyyəsində fəaliyyət göstərən siyasi sosiallaşmanın ənənəvi makro amillərini hazırki şəraitdə müharibə təhlükəsi, ekoloji partlayış və digər qlobal problemlər tamamlayır. Sosial-psixoloji səviyyədə siyasi məqsədlər və sərvətlər böyük və həm də kiçik qrupları təmsil edən şəxsiyyətlərə sirayət edir. Şəxsiyyətdaxili səviyyədə siyasi sosiallaşmanın mexanizmi kimi siyasətdə şəxsiyyətin davranışını və şüurunu idarə edən tələbat, motiv, faydalı fəaliyyət yönümü, norma və s. çıxış edir.

Şəxsiyyətin siyasi sosiallaşması ikitərəfli proses kimi nəzərdən keçirilməlidir. Həmin proses bir tərəfdən şəxsiyyətin siyasi informasiyaya, biliklərə yiyələnməsini, onun mövcud siyasi dəyərlərə qovuşmasını, sosial təcrübəni, normaları, vərdişləri mənimsəməsini, digər tərəfdən sosial-siyasi mühitdə fəal fəaliyyət hesabına fərdin mövcud ictimai münasibətlər sistemini sadəcə olaraq təkrar istehsalını deyil, həmçinin daha da inkişaf etdirməsini nəzərdə tutur.

Şəxsiyyətin siyasi sosiallaşma prosesi mövcud cəmiyyətin real ictimai münasibətlərinin xarakterini mənimsəməklə məhdudlaşmır. Həmin prosesdə bu və ya digər fərd siyasi həyata dair toplanmış təcrübəyə, onun xüsusiyyətlərinə, mövcud normalara, sərvətlərə və ənənələrə, siyasi mövqeyə yiyələnir. Nəticə etibarilə sosial qrupların və bütövlükdə cəmiyyətin həyatında iştirak etməyi şərtləndirən keyfiyyət – sosial-siyasi yetkinlik və qabiliyyət formalaşır. Beləliklə, siyasi sosiallaşma prosesində cəmiyyət insanı vətəndaş kimi yetişdirirsə, sosiallaşan fərd mövcud siyasi struktura və ictimai münasibətlərə yaradıcı təsir göstərməklə cəmiyyətin özünü yeniləşdirir. Siyasət sferasında sosiallaşma şəxsiyyətin formalaşmasına və inkişafına mühüm təsir göstərir. Siyasi cəhətdən sosiallaşma insanın siyasi münasibətlərin və siyasi fəaliyyətin subyekti kimi təşəkkülü prosesini əhatə edir. Siyasi sosiallaşma prosesi özünün bütün istiqamətlərində həm şəxsiyyətin və eləcə də bütövlükdə cəmiyyətin siyasi mədəniyyətinə bilavasitə təsir göstərir. O, insan həyatının bütün mərhələlərini əhatə edir və təkcə sırf siyasi təlimi deyil, eləcə də qeyri-siyasi təlimi özündə təcəssüm etdirir.

Şəxsiyyətin siyasi sosiallaşmasının mahiyyəti barədə dolğun təsəvvürə malik olmaq üçün həmin prosesin əhatə etdiyi mərhələləri aydınlaşdırmaq vacibdir. Siyasi elmə dair ədəbiyyatda şəxsiyyətin sosiallaşması mərhələlərinə dair ciddi fikir ayrılığı yoxdur. Tədqiqatçıların böyük ək-

səriyyəti bu mərhələləri təxminən eyni mövqedən təhlil edirlər.

Müasir cəmiyyətdə şəxsiyyətin sosiallaşmasının başlanğıcı 3-4 yaş həddinə təsadüf edir. Siyasi həyata dair ilk təsəvvür ailədə, kütləvi informasiya vasitələrindən və yaxın əhatə dairəsində əldə olunur. Fərdin siyasi sosiallaşmasına ilk təsir göstərən başlıca təsisat ailədəir. Ailə üzvləri müəyyən sosial qrupa mənsub olmaqla təmsil etdiyi sosial qrupun marağını, tələbatını, siyasi fəaliyyət yönümünü əks etdirirlər. Bu cəhət təbii olaraq fərdin sosial mahiyyətinin, fəaliyyət yönümünün formalaşmasına və gələcəkdə onun siyasət sferasında konkret mövqeyinin reallaşmasına təsir göstərir.

Ailə uşağın siyasət, hakimiyyət, dövlət və digər təsisatlar haqqında siyasi biliklərinin və təsəvvürlərinin əsasını möhkəmləndirir. Beləliklə, onun müxtəlif siyasi hadisələrin xarakterini və düzgünlüyünü başa düşməsi məhz, validenlərin siyasi mədəniyyətinin səviyyəsi və ailədə hökm sürən siyasi görüşlərlə şərtlənir. Ailə əvəzolunmaz əxlaq-siyasi tərbiyə ocağıdır, sosiallaşmanın mənbəyidir. Fərdin siyasi sosiallaşmasının ikinci mərhələsi onun müxtəlif təmayüllü təhsil ocaqlarına (ümumtəhsil məktəbləri, ali və orta ixtisas müəssisələri və s.) cəlb olunması ilə başlanır*. Humanitar fənləri mənimsəməklə gənclər yeni siyasi biliklərə yiyələnirlər. Nəinki müxtəlif təhsil növlərinin, həmçinin bəzi kortəbii amillərin təsiri altında fərdlər siyasətə dair xeyli biliklər əldə edir və tədricən onlarda siyasətin özünə kontkret münasibət formalaşır, mənimsənilən siyasi biliklər real həyatla əlaqələndirilir.

* Андреева Г.С. Социальная психология, М, 1980 səh. 86



Şəxsiyyətin siyasi sosiallaşmasının üçüncü mərhələsi siyasi həyata bilavasitə cəlb olunmaqla, başqa sözlə, qeyri-rəsmi təşkilatlarda, müxtəlif cəmiyyətlərdə, siyasi partiyalarda və digər siyasi fəaliyyət formalarında yaxından iştirak etməyə başlanır. Həmin mərhələnin səciyyəvi cəhəti bundan ibarətdir ki, insan hər şeydən əvvəl, xüsusi sosial və siyasi mövqeyə malik olur, siyasi fəaliyyətdə şəxsən iştirak etmək təcrübəsinə yiyələnir.

Şəxsiyyətin siyasi sosiallaşmasında rəsmi siyasi təhsilin əhəmiyyəti böyükdür. Bu təhsilin məqsədi adamlarda mövcud hakim ictimai-siyasi sistemə, onun sərvətlərinə bağlılıq və inam hissi tərbiyə etməkdir. Siyasi münasibətlərin, sərvətlərin, davranış normalarının və vərdişlərin nəsildən-nəslə verilməsində təhsil ocaqlarının bütün növlərinin üzərinə ciddi məsuliyyət düşür. Uşaqların, gənclərin əldə etdiyi siyasi informasiya onlarda dəqiq və aydın siyasi mövqeyin təşəkkülünə istiqamətləndirilməlidir. Bəzi ölkələrin siyasi təcrübəsi təsdiqləyir ki, uşaqların müəyyən partiyalara, təşkilatlara, ayrı-ayrı siyasi xadimlərə və iqtidarın nümayəndələrinə münasibəti birmənalı deyil. Başqa sözlə, həmin münasibət rəğbət və ya nifrət kimi təzahür edə bilər. Həmin mənada araşdırmalara görə ABŞ-da və Böyük Britaniyada 12 yaşına qədər uşaqların 2/3 hissəsi şəxsi rəğbət və ya nifrət mövqeyi ilə səciyyələnir. Bu, bütünlükdə valideynlərin mövqeyinə uyğun gəlir. Lakin uşaqlar kifayət qədər informasiyaya malik olmadıqlarına görə onların siyasi təsisatlara, müxtəlif siyasi xadimlərə və dövlət adamlarına münasibəti səthi xarakter daşıyır. Belə bir cəhəti qeyd edək ki, uşaqlıq dövründə hər hansı partiyaya və ya partiya xadiminə olan münasibət heç də bütövlükdə ölkəyə, onun siyasi sisteminə və milli simvol-

lara münasibəti əks etdirmir. Çünki həmin yaş dövründə uşaqlar siyasət haqqında dəqiq təsəvvürə malik olmurlar.

ABŞ, Böyük Britaniya və bəzi digər ölkələrdə aparılan tədqiqatlar təsdiqləyir ki, çoxpartiyalılıq şəraitində siysi mədəniyyətin formalaşmasının vacib şərti müxtəlif səviyyələrdə həyata keçirilən seçkilərdir. Uşaqlar böyüdükcə səsverməyə siyasi sistemin mərkəzi ünsürü kimi baxırlar. Onların partiyalara ilk münasibəti məhz, seçki kompaniyası dövründə başlanır. Uşaqların partiyalara rəğbət bəsləməsində kütləvi informasiya vasitələri, evdə, qonşuda və həmyaşıdları arasında siyasi diskussiyalar-əhəmiyyətli rol oynayır. Kütləvi informasiya vasitələrində, xüsusilə televiziya vasitəsilə partiyaların fəaliyyətinin işıqlandırılmasına geniş yer verilməsi uşaqların bu və ya digər siyasi partiyaya rəğbət bəsləməsinə mühüm təsir göstərir. Yaşlılarla mübahisə etmək prosesinə cəlb olunmaqla onlar siyasi hakimiyyətin mahiyyəti, hakimiyyətin yaşlılar tərəfindən ələ alınması yolları və mexanizmi barədə təsəvvürə yiyələnirlər. Uşaqların siyasi görüşlərinin təşəkkülünə xüsusi şirkətlər, mənafeləri eyni olan müxtəlif qruplar, lobbiçilər, həmkarlar təşkilatları və digər siyasi təsisatlar özünəməxsus təsir göstərirlər.

Sosiallaşma prosesində uşaqlar və gənclər cəmiyyətin üzvü, sosial-mədəni varlıq kimi formalaşır və siyasi mədəniyyətin müxtəlif ünsürlərini mənimsəyirlər. Hər bir fərdin sosiallaşması hansı sosial birlikdə baş verirsə, o həmin birliyin siyasi mədəniyyətinin daşıyıcısı kimi çıxış edir. Fərdlərin siyasi mədəniyyəti bütün cəmiyyətin mənəvi mədəniyyətinin ayrılmaz hissəsidir. İnsan mövcud cəmiyyyətin hakim siyasi mədəniyyətini mənimsəmək prosesində hakimiyyət münasibətlərinin çoxcəhətli və dinamik prosesinə qoşulur, özünü siyasi mədəniyyətin müəyyən səviyyəsinin daşıyıcısı kimi daim təkrar istehsal edir.

Şəxsiyyətin sosiallaşmasının ilk mərhələsini (uşaqlıq dövrünü) tədqiqatçılar müxtəlif səviyyələrdə araşdırırlar. Məsələn, Amerika alimləri D.İston və İ.Denis uşaqlıq dövründə sosialaşma prosesini dörd səpkidə nəzərdən keçirməyi məqsədəuyğun hesab edirlər: 1. Uşağın siyasi həyatı, aldığı informasiyanı bilavasitə dərk etməsi. 2. Siyasətin təcəssüm etdirilməsi gedişində hakimiyyət sferasına mənsub olan bu və ya digər şəxsin siyasi sistemlə əlaqəsinin nümunəvi vəziyyəti. 3. Bu siyasi nümunənin ideallaşdırılması, siyasi mədəniyyətə, siyasətə sabit emosional münasibətin formalaşdırılması. 4. Uşağın daxili siyasi aləminin mürəkkəbləşməsini ifadə edən keyfiyyətlərin təsisatlaşdırılması və onun siyasəti müstəqil qiymətləndirmək mövqeyi.

Ymumiyyətlə, şəxsiyyətin siyasi sosiallaşmasının ilk mərhələsi bununla səciyyələnir ki, insan siyasi sistemin və mədəniyyət normalarının mahiyyətini və əhəmiyyətini dərk etmədiyi halda bunlara uyğunlaşır.

Şəxsiyyətin siyasi sosiallaşmasının ikinci mərhələsi (gənclik dövrü) özünəməxsus xüsusi siyasi əhəmiyyət kəsb edir. Bu mərhələ onunla səciyyələnir ki, gənc fərdlər əldə etdiyi siyasi informasiyanı təhlil etmək üsullarına yiyələnir, ideoloji mövqeləri müstəqil araşdırmaq səviyyəsinə yüksəlir. Gənclik dövründə siyasi sosiallaşmanın mahiyyəti bir tərəfdən fərdlərin hakimiyyətlə qarşılıqlı fəaliyyət normalarını və qaydalarını mənimsəməsində, digər tərəfdən siyasi fəaliyyət yönümünü müəyyənləşdirmək, siyasi davranış və vərdiş keyfiyyətlərini daxili tələbata çevirmək qabiliyyətinin formalaşmasında ifadə olunur. Şəxsiyyətin

siyasi sosiallaşmasını birtərəfli proses, yəni onun yalnız siyasi bilikləri və vərdişləri mənimsəməsi kimi qiymətləndirmək düzgün olmazdı. Şəxsiyyətin siyasi sosiallaşmasının digər mühüm prosesi də mövcüddür. Bu prosesdə insan qərarlaşan konkret siyasi şəraitə uyğun gəlməyən hər şeydən imtina edir, siyasi həyatda təzahür edən müxtəlif hadisələrə yeni mövqedən yanaşır. Şəxsiyyətin siyasi sosiallaşmasının gənclik mərhələsində bu və ya digər fərd sosial və siyasi varlıq kimi təşəkkül tapır və inkişaf edir. Məhz, həmin mərhələdə insan həyatın mənası, ictimai həyatda yeri, siyasi inkişaf prosesinə münasibəti barədə vacib məsələləri özlüyündə həll etməyə ciddi səy göstərir.

Siyasi sosiallaşma yalnız uşaqlıq və gənclik dövrü ilə məhdudlaşmır. İnsanın siyasi cəhətdən sosiallaşması onun bütün həyatı boyu davam edir. Bu proses insanın sosial yetkinliyinin formalaşdığı dövrdən, yəni fərdlərin əmək həyatına qədəm qoyduğu və siyasi fəallığının təzahür etdiyi vaxtdan başlayaraq daim yeniləşir və inkişaf edir. Şəxsiyyətin siyasi mahiyyəti hər şeydən əvvəl və daha çox onun sosial yetkinliyi dövründə reallaşır. Sabit və mükəmməl siyasi mövqeyə malik olan fərd geniş və dərin informasiyaya yiyələnməsi, çoxcəhətli siyasi biliklər əldə etməsi, təcrübə toplaması, məqsədyönlü siyasi fəaliyyət yönümü və yüksək siyasi təfəkkür ıərzi ilə səciyyələnir.

Şəxsiyyətin siyasi sosiallaşmasında əmək kollektivləri, ictimai təşkilatlar, rəsmi və qeyri-rəsmi qruplar daha əhəmiyyətli rol oynayırlar. Siyasi sosiallaşmanın bu təsisatları həm də mənəvi-əxlaqi sosiallaşma prosesinə faydalı təsir göstərir.

Aparıldan çoxsaylı tədqiqatlar belə qənatə gəlməyə əsas verir ki, insanın siyasi sosiallaşması sistemində əmək



kollektivləri və kütləvi informasiya vasitələri xüsusi yer tutur. Bunların sosiallaşma prosesinə spesifik təsirinin mahiyyəti onunla səciyyələnir ki, həmin sosiallaşdırma təsisatları insanın siyasi cəhətdən sosiallaşmasının xarakterini və istiqamətini, nəticə etibarilə siyasi mədəniyyətinin səviyyəsini müəyyən edir.

«Siyasi sosiallaşma sisteminin tərkib hissələri» və ya «Siyasi sosiallaşma amilləri» ümumi terminlər olmaqla şəxsiyyətə cəmiyyət və siyasi sistem tərəfindən real təsir göstərir. Lakin həmin amillər içərisində eləsi vardır ki, bu məhz, siyasi sosiallaşma təsisatı kimi məqsədyönlü təşkil edilib. Məsələn, siyasi gənclər təşkilatının başlıca funksiyası siyasi sosiallaşmanı reallaşdırmaqdır. Lakin elə sosiallaşma təsisatları da mövcuddur ki, onlar üçün siyasi sosiallaşma funksiyası ikinci dərəcəli əhəmiyyət daşıyır. Məktəb, kilsə və məscid məhz, bu qəbildəndir. Bununla belə məktəb, kilsə, məscid və sair rəsmi siyasi mövqe formalaşdırılması vasitələridir.

Siyasi sosiallaşma prosesinin xarakterindəki dəyişiklik dövri, tarixi xarakter daşıyır. İctimai inkişafın hər bir yeni məqamında şəxsiyyətlə siyasi sistemin qarşılıqlı uyğunlaşması təzahür edir. Cəmiyyətin sosial və siyasi strukturunda baş verən dəyişiklik şəxsiyyətin formalaşması naminə hər bir nəslin özünəməxsus şərait yaratmasına təkan verir. Siyasi sosiallaşma mexanizminin tarixi dəyişikliyi bütün dövrlərdə mürəkkəb xarakter kəsb etmişdir. Lakin cəmiyyətin müasir inkişaf mərhələsində sosial-sinfi və milli xarakterli ənənəvi ziddiyyətlər sivilizasiyanın qlobal ziddiyyətləri ilə tamamlanır. Siyasi sistemin ənənəvi funksiyalarının sürətli texniki inkişafla əlaqələndirilməsi və xeyli sosial proseslərin qloballaşması son vaxtlar şəx-

siyyətin inkişafı üçün yeni şərait yaratmışdır. Bu şərait insanın dövlət, hakimiyyət və siyasətlə qarşılıqlı münasibətinin dərinləşməsinə ciddi təsir göstərir*. Bununla belə müxtəlif ölkələrdə siyasi sosiallaşmanın müəyyən böhrana məruz qalması müşahidə olunur.

Müasir dövrdə siyasi sosiallaşma prosesində iki meyl təzahür edir. Bir tərəfdən şəxsiyyətin siyasi inkişafına ictimai tələbat getdikcə artır, onun siyasi həyata fəal cəlb olunması və cəmiyyətdə öz rolunu dərk etməsi daha da güclənir. Bu meyl müxtəlif siyasi sistemlərin və rejimlərin demokraikləşməsi prosesində xüsusilə nəzərə çarpır. Digər tərəfdən isə şəxsiyyətin siyasi sosiallaşma prosesinin ləngiməsi meyli təzahür edir. Belə ki, bu və ya digər fərdin müxtəlif formalarda dövlətdən, onun təsisatlarından uzaqlaşması, qəbul edilən siyasi qərarlara laqeyd münasibəti müşahidə olunur.

Həmin meyllərdən birincisi şəxsiyyətin fəallığının artmasını, siyasət haqqında informasiyaya malik olduğunu, kütləvi siyasi davranışın və şüurun dəyişilməsini, əvvəllər siyasətdən uzaqlaşan adamların artıq siyasətə cəlb edildiyini sübuta yetirir. İkinci meyl isə öz ifadəsini vətəndaşların siyasi özgələşməsində, onların fəaliyyətsizliyində, rəsmi siyasətə inanmamasında, həmçinin siyasi təsisatları, partiyaları və dövləti zəif müdafiə etməsində tapır. Bu iki meylin mübarizəsində siyasi davranışın tənzim olunmasının yeni subyekti: fəal, geniş informasiyaya malik, müstəqil və məsuliyyət hissilə siyasi qərarlar qəbul etməyə qadir olan insan-vətəndaş formalaşır. Nəticə etibarilə siyasi mədəniyyətin mexanizmi kütləvi siyasi davranışın tənzim

---

* Политическая система: вопросы демократии и самоуправления. М. 1988, səh. 77-78



olunmasının ən mühüm vasitəsinə çevrilir. Siyasi sosiallaşma sisteminin təkmilləşdirilməsi və inkişafı həmçinin, onun fuknsiyalarının ahəngdar surətdə əlaqələndirilməsi ilə bağlıdır. Şəxsiyyətin siyasi sosiallaşmasının fuknsiyalarının başlıca məqsədi cəmiyyət üzvlərində yüksək siyasi mədəniyyətin və vətəndaşlıq ləyaqətinin formalaşmasına nail olmaqdan ibarətdir.

Şəxsiyyətin siyasi sosiallaşmasının başlıca funksiyaları bunlardır: **informasiya, sərvət yönümü, istiqamətverici-normativ, davranış-fəaliyyət.**

Siyasi sosiallaşmanın **informasiya funksiyasının** mahiyyəti insanda dərin siyasi təfəkkürün, siyasi düşüncə tərzinin formalaşmasını təmin etməkdir, fərdlərdə sosial həyatın ən aktual məsələlərinin həllinə daxili tələbat hissi formalaşdırmaqdır. Əlbəttə, bu məqsədlə hər şeydən əvvəl, insan ən zəruri siyasi biliklərə yiyələnməlidir. siyasi sosiallaşmanın informasiya funksiyasının digər mühüm məqsədi ölkə daxilində, bütün dünyada baş verən siyasi hadisələrə dair məlumatları vətəndaşların nəzərinə çatdırmaqdan, onların siyasi hadisə və proseslərlə bağlı olan tələbatını və marağını təmin etməkdən ibarətdir.

İnformasiya funksiyası siyasi münasibətlər sferasına aid olan idraki vəzifələrin həllinə istiqamətlənir. Siyasi informasiyanın məzmununu cəmiyyətdəki real sosial münasibətlərin forması və bunun siyasi cəhətdən tənzimlənməsi, mövcud dövlət quruluşu, vətəndaşların hüquq və vəzifələri, siyasi sistemin inkişafında şəxsiyyətin rolu və digər məsələlərə dair biliklər təşkil etməlidir.

İnformasiya funksiyasının həyata keçirilməsi insanın yalnız sırf siyasi biliklərlə məlumatlandırılmasını deyil,

həm də ictimai həyatın digər sferalarına dair zəruri biliklərin vətəndaşların şüuruna çatdırılmasını ifadə edir.

Siyasi sosiallaşmanın **sərvət (dəyər) yönümü funksiyası** özünəməxsus sosial əhəmiyyətə malikdir. Bu funksiyanın həyata keçirilməsi prosesində insan mövcud cəmiyyətdə tarixən qərarlaşan siyasi münasibətlər, sərvətlər və davranış sisteminə cəlb olunur, fərdlərdə müəyyən siyasi təfəkkür mexanizmi təşəkkül tapır. Sərvət yönümü funksiyasının köməyi ilə insanda üçcəhətli: idraki, emosional və davranış xarakterli xüsusi sərvət yönümü formalaşır. Haqqında danışdığımız funksiyanın həyata keçirilməsi bütövlükdə cəmiyyətin siyasi mədəniyyəti ilə bağlıdır. Sərvət yönümü funksiyası şəxsiyyətin siyasi mədəniyyətinin dünyagörüşü istiqamətini müəyyənləşdirir. Siyasi mədəniyyətin dünyagörüşü aspekti hər şeydən əvvəl, nəzəri biliklərin, xüsusilə siyasi elmlərin və sosial fəlsəfənin mənimsənilməsi gedişində, zəngin siyasi həyat təcrübəsinə yiyələnmək əsasında formalaşır və qərarlaşır. Şəxsiyyətin sosiallaşmasında və siyasi həyata fəal müdaxiləsində **istiqamətverici normativ** funksiya da əhəmiyyətli rol oynayır. Bu funksiya şəxsiyyətin siyasi informasiyanı dərk etməsi və mənimsəməsi naminə onun müəyyən mövqeyə yiyələnməsini təmin etməyə istiqamətlənir, siyasi münasibətlərə, siyasi hadisə və proseslərə insanın düzgün, obyektiv münasibətinin formalaşmasına səmərəli təsir göstərir.*

Siyasi sosiallaşmanın **davranış-fəaliyyət funksiyası** isə insanın şəxsiyyət-vətəndaş mövqeyinə yüksəlməsini, mövcud cəmiyyətin siyasi bilik, norma və prinsiplərini əməli fəaliyyət prosesində reallaşdırmağa bilavasitə səy

* Политология. Под ред. Г.В.Полуниной. səh. 234.



göstərməsini təcəssüm etdirir. Şəxsiyyətin siyasi davranış normaları öz təmərküzləşmiş ifadəsini siyasi fəallıqda təsdiqləyir. Siyasi mədəniyyət həmişə bu və ya digər formada siyasi fəaliyyətlə bağlıdır və bunsuz mümkün deyildir.*

Əsl şəxsiyyət – vətəndaş mövqeyinin formalaşdırılması sadəcə olaraq adamların cəmiyyət və onun təsisatları, müxtəlif kollektivlər, sosial qruplar və birliklər barədə məlumatlandırılması kimi başa düşülməməlidir. Cəmiyyətin hər bir üzvü ilk növbədə, siyasi hadisə və amilləri müstəqil mövqedən araşdırmaq, təhlil etmək, ümumiləşdirmək və dəqiq qiymətləndirmək mədəniyyətinə yiyələnməli, sosial-siyasi, iqtisadi və mənəvi-ideoloji proseslərdə öz yerini düzgün müəyyənləşdirmək səviyyəsinə yüksəlməlidir. Şəxsiyyətin mənəvi xarakteri müəyyən mənada nəinki əxlaqi keyfiyyətlərin, eləcə də cəmiyyətin siyasi sərvətlərinin insan tərəfindən mənimsənilməsi dərəcəsini, onun siyasi yetkinliyinin səviyyəsini əks etdirir.

Davranış-fəaliyyət funksiyası təkcə siyasi fəaliyyət istiqamətinin müəyyənləşməsinə deyil, eləcə də sözün geniş mənasında sosial davranış qaydalarına yiyələnməyə kömək edir. Şəxsiyyətin sosial davranışı onun həyat fəaliyyətinin bütün sahələrini əhatə edir. Lakin sosial davranışın başlıca məzmunu sadəcə fəaliyyətlə deyil, ən əvvəl, fəaliyyətin istiqaməti ilə müəyyən olunur. Şəxsiyyətin sosial davranışı onun fəallığının, o cümlədən siyasi fəallığının dərəcəsini əks etdirir.

Siyasi sosiallaşmanın müəyyən amilləri və funksiyaları ilə yanaşı mühüm əhəmiyyət daşıyan **tipləri də mövcuddur**. Müasir siyasi elm siyasi sosiallaşmanın əsasən beş

* Бро Ф. Политология. М.: 1992. səh. 52-54.

başlıca tipini müəyyənləşdirir. 1. Harmoniyalı (ahəngdar). 2. Hegemon. 3. Plyuralist. 4. Münaqişəli. 5. Konyuktur.

**Harmoniyalı tip** insanla hakimiyyət təsisatları arasındakı normal, məqsədyönlü, səmərəli münasibətləri, cəmiyyətdə hökm sürən mövcud hüquqi qaydalara, dövlət quruluşuna fərdlərin şüurlu rəğbətini, adamların hüquq və vəzifələrini düzgün dərk etməsini, kollektiv və cəmiyyət qarşısında vətəndaşlıq borcunu yerinə yetirməyə səy göstərməsini ifadə edir.

**Hegemon tip** insanın hər hansı «özgə siyasi sistemə», siyasi qaydalara, hakimiyyətə neqativ, kəskin tənqidi münasibətini səciyyələndirir.

**Plyuralist tip** insanın demokratik mahiyyətini, onun demokratik təfəkkür tərzini əks etdirir. Belə fərdlər özünün başqa vətəndaşlarla bərabərhüquqlu olduğunu, cəmiyyətin digər üzvlərinin hüquq və azadlığını etiraf edir, başqalarının rəyi ilə hesablaşır. Siyasi sosiallaşmanın plyuralist tipinin əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, bu və ya digər fərd öz siyasi baxışlarının səhv olduğunu dərk etdikdə düzgün siyasi təsəvvürlü adamların mövqeyinə keçir və bunu təbii hal kimi qəbul edir.

**Münaqişəli tip** qruplararası mübarizə zəminində və qarşılıqlı asılılıqda olan mənafelərin bir-birinə zidd olması əsasında formalaşır. Siyasi sosiallaşmanın bu tipi onunla səciyyələnir ki, insan siyasətdə iştirakın məqsədini mənsub olduğu sosial qrupun loyal (bitərəf və ya qanun dairəsində) mövqeyinin qorunub saxlanmasında və həmin qrupu siyasi əleyhidarlara qarşı mübarizədə müdafiə etməkdə görür.

**Konyuktur tip** isə insanın siyasi görüşlərinin, təsəvvürlərinin, inamının və davranışının elə bir şəraitdən asılılığını ifadə edir ki, o, bu şəraitdən təmənnalı məqsədlər üçün, öz məhdud mənafeyi naminə istifadə etməyə səy göstərir.



Siyasi sosiallaşmanın digər tipləri də mövcuddur. Bunlar bütövlükdə şəxsiyyətin təşəkkülünə imkan yaradır, bu isə insanın nəzəri və əməli, təbliğat və inzibati xarakterli siyasi fəaliyyətinə təkan verir.

Siyasi sosiallaşmanın bütün tipləri insanın bu və ya digər keyfiyyətlərinin hakimiyyətin müəyyənedici strukturlarının və təsisatlarının təsiri altında formalaşdığını əks etdirir. Həmin strukturlar və təsisatlar isə təbii olaraq hakim siyasi mədəniyyətin normalarını, prinsiplərini və sərvətlərini özündə ehtiva edir.

# V FƏSİL

# ŞƏXSİYYƏT SİYASƏT ALƏMİNDƏ

## 5.1. Siyasət cəmiyyətin spesifik yarımsistemidir

Siyasət çoxcəhətli, çoxistiqamətli və çoxməntiqli mürəkkəb hadisədir. O, subyektiv və obyektiv təbiətə malik olmaqla adamlar arasında qarşılıqlı əlaqələrin təkrar istehsalı prosesi kimi çıxış edir, onları siyasi hakimiyyətin və idarəetmənin strukturu mənasında obyektivləşdirir. Siyasət hadisələrin, təsisatların, münasibətlərin və proseslərin son dərəcə mürəkkəb kompleksini əks etdirir. Siyasətin predmetini insanın adamlar arasında münasibətlərin tənzimlənməsinə istiqamətlənən şüurlu fəaliyyəti təşkil edir.

Siyasətin mahiyyəti haqqında dolğun təsəvvür əldə etmək üçün qısaca da olsa cəmiyyət və onun yarımsistemləri barədə, eləcə də «siyasət» termininin yaranma tarixinə və təkamülünə dair şərhə ehtiyac duyulur.

Cəmiyyət insan birliklərini əhatə edən özünəməxsus sistem olmaqla bir-biri ilə əlaqə kəsb edən, bir-birinə keçən və nisbi müstəqilliyə malik olan yarımsistemlərdən ibarətdir. Həmin yarımsistemlər bunlardır: iqtisadi və ya istehsal-təsərrüfat yarımsistemi; sosial, mədəni və mənəvi sferaların məcmuu olan vətəndaş cəmiyyəti yarımsistemi; siyasi yarımsistem. Belə bir cəhəti qeyd edək ki, vətəndaş cəmiyyətini və siyasi həyatı insan cəmiyyətinin yarımsistemi kimi nəzərdə tutmaq heç də bu yarımsistemlərin həddinin şərti xarakter daşımasını inkar etmək deyil. İnsan cəmiyyətinin hər bir yarımsistemi (sferası) həyat qabiliyyətini və fəaliyyətini o halda saxlaya bilər ki, digər yarımsistemlər öz



funksiyalarını layiqincə və müntəzəm surətdə yerinə yetirsinlər.

Cəmiyyətin yarımsistemlərinin qarşılıqlı əlaqəsinin zəruriliyi bu gün xüsusilə nəzərə çarpır. Hazırkı şəraitdə tam aydınlığı ilə hiss edirik ki, iqtisadi islahatların uğurla həyata keçirilməsi üçün köhnə, səmərəli olmayan metodların və maddi nemətlərin bölüşdürülməsi sisteminin təmtəraqlı şüarlarla pislənməsi və aradan qaldırılması kifayyət deyildir. Zəhmət-keşlərin sosial müdafiəsi üçün real mexanizm hazırlanmalı və bu praktiki tədbirlərlə tamamlanmalıdır. Əlbəttə, həmin mexanizmin işlənib hazırlanması və tədbiq olunması üçün dərin siyasi islahatlar strukturunun müəyyənləşdirilməsi zəruridir. Öz növbəsində hakimiyyət strukturlarının demokratikləşdirilməsinə istiqamətlənən siyasi islahatlar iqtisadi və sosial sferalarda real və geniş tədbirlər sistemi ilə möhkəmləndirilməzsə məhz, yaxşı arzu kimi qalar. Buna görə dürüst başa düşmək lazımdır ki, haqqında dönə-dönə danışdığımız bazar iqtisadiyatını, vətəndaş cəmiyyətini və siyasi demokratiyanı o halda tam formalaşdırmaq mümkündür ki, bunların qarşılıqlı əlaqəsi aydın və dəqiq dərk olunsun. Bütün yarımsistemlərin problemlərini həll etmək üçün onların hamısında islahatlar keçirilməsi həyati tələbatdır.

Siyasət qədim yunan dilində polis sözündən və bu sözdən əmələ gələn **politikos** terminindən götürülüb şəhərlə, dövlətlə, vətəndaşla əlaqəsi olan mənanı ifadə edir. Siyasət cəmiyyətin təşkiledici, tənzimləyici-nəzarətedici sferasıdır. Siyasət termini Aristotelin dövlət, idarəetmə və hökumət məsələlərinə həsr etdiyi «Siyasət» adlı traktatının təsiri altında yayılmışdır. «Siyasət» sözünü Aristotel vətəndaşların birgə yaşayış forması kimi, dövləti səciyyələndirərkən işlətmişdir. XIX əsrin axırlarına qədər siyasət ənənəvi

olaraq dövlət haqqında təlim kimi, başqa sözlə, təsisatlaşmış hakimiyyət və dövlət səviyyəsində nəzərdən keçirilmişdir. Lakin yeni dövrdə siyasi fikrin inkişafı və dövlət barədə təsəvvürlər dövlət haqqında elmin yaranmasına, onun siyasi fəlsəfədən və siyasi elmlərdən ayrılmasına gətirib çıxardı. Siyasət haqqında təsəvvürlər əhəmiyyətli dərəcədə zənginləşdi və eyni zamanda siyasətin başa düşülməsi xeyli dərəcədə mürəkkəb probləmə çevrildi. Bununla belə, o, müxtəlif tədqiqatların obyekti kimi araşdırıldı. Siyasət haqqında yeni və fəlsəfi cəhətdən daha yüksək səviyyədə əsaslandırılan konsepsiya **K.Şmitt** və **J.Frendə** (XX əsr) məxsusdur. Bu tədqiqatçılar siyasətə dair baxışlarını siyasətin münaqişəli təbiəti baxımından izah edərək belə qənaətə gəlmişlər ki, o, daxili ziddiyyətləri, mürəkkəbliyi və universallığı ilə səciyyələnən xüsusi sosial felomendir. Belə mövqe bəzi müasir tədqiqatlarda da diqqəti cəlb edir. Bu baxımdan fransız politoloqları **M.Dyuverje** və **F.Brodun** fikirləri maraq doğurur. Onların fikrincə siyəsətin təzahür etdiyi bütün ictimai sferaları münaqişəsiz təsəvvür etmək olmaz.

Son zamanlar politologiyaya dair çap olunan dərsliklərdə və siyasi elmin problemlərinə həsr olunan işlərdə «siyasət» alayışının təhlilinə ciddi diqqət yetirilmişdir. Tədqiqatçıların bir qrupu siyasətin idarə etmə funksiyasına xüsusi əhəmiyyət verərək qeyd edirlər ki, o, cəmiyyətin idarə olunması haqqında elmdir. Digər müəlliflər siyasətin hakimiyyət münasibətləri ilə əlaqəsinə üstünlük verirlər. Bununla əlaqədar hər şeydən əvvəl, hakimiyyətin həyata keçirilməsində zorakı metodların nəzərə alınmasını məqsədəuyğun hesab edirlər. Elə müəlliflər də vardır ki, onlar siyasəti daha çox hüquqla əlaqələndirirlər. Bəzi tədqiqatçılar isə iddia edir ki, siyasət maddi və isan ehtiyatlarının istehsalına və bölüşdürülməsinə istiqamətlənən siyasi fəallığın bütün formalarını əhatə edir. Siyasəti sosial fəallıqla eyniləşdirmək cəhdi **Q.Şubert, S.Ştrum** və başqalarının siyasi tədqiqatlarında daha aydın nəzərə çarpır.

Lakin belə təsəvvürə qarşı çıxan tədqiqatçılar da az deyil. Bu baxımdan **K.S.Hacıyevin** tədqiqatı xüsusilə maraq doğurur.* Əlbəttə, ictimai həyatın bütün proseslərini, eləcə də iqtisadi, sosial və ideoloji problemlərin hamısını siyasətə aid etmək məqsədəuyğun deyil. Tarixi inkişaf prosesi və siyasi praktika təsdiqləyir ki, ictimai həyatın bütün sferalarının qlobal siyasiləşdirilməsi yalnız totalitar sistemlərə xasdır. Demokratik rejimlərdə isə siyasətin predmetini *adamların* həyat fəaliyyətinin elə mühüm cəhətləri təşkil edir ki, bunlar sosial bütövlüyün (millətlərin, siniflərin, *cəmiyyətin, dövlətin, partiyaların* və digər sosial təşkilatların) inteqrasiyası *ilə* bağlıdır. Onu da qeyd edək ki, siyasət yalnız ümumi *mənafelərin* ifadəsi kimi deyil, həm də xüsusi, o *cümlədən fərdi mənafelərin* daşıyıcısı kimi çıxış edir. Elə buna görə siyasəti *mənafe* ilə əlaqələndirənlər də vardır.

*Sosial fenomen olmaq etibarilə* siyasətin mahiyyətini onun funksiyaları baxımından qiymətləndirən konsepsiyaya da təsadüf olunur. *Başqa sözlə, siyasətin idarəetmə*, qayda-qanun yaratmaq, daxili və xarici əmin-amanlığın saxlanması və əksinə, müharibələr aparmaq, cəmiyyət və adamlar üzərində nəzarət funksiyaları bu mürəkkəb ictimai hadisənin məzmununu *müəyyən edən amil kimi* əsaslandırılır. «Siyasət» anlayışının məzmunu ilə bağlı irəli sürülən mülahizələrdən digəri budur ki, *o, hər şeydən əvvəl, məqsədlərinə görə nəzərdən keçirilir.*

Siyasət haqqında *biliklərin inkişafı və differensasiyası* onu tədqiq edən elmlərin inkişafı ilə bağlıdır. Hazırkı şə-

---

* Гаджиев К.С. Политическая наука М., 1994.

raitdə siyasət siyasi fəlsəfənin, siyasi elmlərin və politologiyanın tədqiqat obyektidir. Həmin elmlər siyasəti qarşılıqlı əlaqəyə malik olan üç səviyyədə öyrənirlər: sosial fenomen; siyasi fəaliyyətin mexanizmi, metodu, təşkili kimi; empirik biliklər səviyyəsində. Siyasət hazırda adi, kütləvi və elmi şüurun ən kəskin problemlərindən biridir.

Siyasət haqqında müasir biliklər onu təbii tarixi prosesin ən mühüm amili kimi tədqiq etməyə imkan yaradır. Siyasətin belə amil kimi çıxış etməsi onun iki başlıca funksiyasından irəli gəlir: birincisi, siyasət cəmiyyətin ümumi təşkilinin başlanğıcı kimi, ikincisi isə onun konkret tənzimedici-nəzarətedici sferası mənada çıxış edir. Başqa sözlə, o, adamların, ictimai qrupların, siniflərin, millətlərin, xalqların və ölkələrin həyatının, fəaliyyətinin, münasibətlərinin istiqamətverici amilidir. Siyasətin sosial sistemdə rolu ona xas olan üç cəhətlə şərtlənir: universallığı, geniş əhatə dairəsinə malik olması; cəmiyyətin bütün tərəflərinə, həyatına və ünsürlərinə praktiki təsir etmək qabiliyyəti; qeyri-siyasi ictimai fenomenlərlə, münasibətlərlə, sferalarla əlaqə daşıması, bunlara nüfuz edə bilməsi. Siyasəti səciyyələndirən cəhət budur ki, cəmiyyətin bütün yarımsistemlərinə, həmçinin, iqtisadi siyasətə, siyasi ideologiyaya, mədəniyyətə, əxlaqa və sairəyə ciddi təsir göstərir.

**Hakimiyyət münasibətləri, dövlət və dövlət quruculuğu ilə əlaqədar olan siyasət insanların həyat fəaliyyətinin xüsusi sferasıdır. O, elə təsisatları, prinsipləri, normaları və sairəni özündə əks etdirir ki, bunlar adamların bu və ya digər birliklərinin həyat qabiliyyətini təmin edir, onların ümumi iradəsini, mənafelərini və tələbatlarını reallaşdırır.** Siyasət həm dövlətdir, həm dövlət təsisatlarıdır və həm də siyasi sistemin özüdür. Bundan əlavə, hakimiyyəti və hakimiyyət münasibətlərini, cəmiyyətin dövlət-siyasi təşkilatlarını və onun bütün təsisatlar kompleksini ehtiva edir. Bir sözlə, **siyasət sistemdir**. **E.B.Şestopalın** qeyd etdiyi kimi «siyasət haqqında danışarkən biz hər şeydən əvvəl dövləti siyasi təsisatlar sistemi kimi xatırlayırıq. Bu sistemə isə prezident və parlament, ordu və təhlükəsizlik sistemi, daxili işlər və xarici işlər nazirlikləri, maliyyə və sosial təminat daxildir.»* Siyasətin müəyyənləşdirilməsinə iki ənənəvi mövqedən yanaşılır. Bu mövqelərdən birinin mahiyyəti bundan ibarətdir ki, «siyasət fəaliyyətdə olan şəxslərin toqquşduğu yerdir. Başqa sözlə, öz iradəsini ifadə edən və öz qərarları və ya hərəkətləri ilə bütün sistemə təsir göstərən subyektlərin toqquşmasıdır.» Digər mövqeyin tərəfdarları isə iddia edir ki, «siyasət dinamik şəkildə qarşılıqlı əlaqə daşıyan hadisələrin elə bir prosesidir ki, son nəticədə subyekt anlayışını kənara tullayır və onu qarşılıqlı fəaliyyət sistemləri ilə əvəz edir»

Fransız politoloqu F.Brod siyasət sferasında fəaliyyət göstərən adamları dörd kateqoriyaya ayırır: idarə edənlər və siyasi partiyalar; dövlət idarələri; təzyiq qrupları; bütövlükdə əhali və onun müəyyən qismi. Marksizmə görə siyasət müəyyən ictimai qruplar (siniflərin, millətlərin) arasındakı rəqabəti əks etdirir. Bəzi tədqiqatçılar və siyasətçilər isə siyasəti **mənafe qrupları** ilə əlaqələndirirlər. **A.Bentli, D.Trumen** və başqaları belə mövqedən çıxış edirlər. Tədqiqatçıların bəzisi, məsələn, **M.Veber** iddia edir ki, siyasət hakimiyyətin ələ alınması, əldə saxlanması və istifadə olunmasına istiqamətlənən fəaliyyətdir. Alman politoloqu **Karl Şmittin** konsepsiyasına görə siyasət «siyasət aləmini» dərk etməyə yönələn müstəqil, orijinal vasitədir. Amerika sosiologiyasının patriarxı adlandırılan **Tolkot Parsons** isə

* Политология. Под редак. М.Н.Марченко. Сəщ.255.

belə hesab edir ki, siyasət kollektiv məqsədlərin səmərəli şəkildə əldə olunmasını səciyyələndirən fəaliyyətdir. Politoloji ədəbiyyatda «siyasət» və «siyasi sistem» anlayışlarının nisbəti məsələsi də araşdırılır.

Bəzi tədqiqatçılar siyasəti **elm**, digərləri isə **sənət** kimi qiymətləndirir. Belə fikir hələ antik dövrdən məlumdur. Platon və Aristotel kimi ensiklopedik zəka sahibləri siyasəti məhz, idarəetmə elmi, idarəetmə sənəti kimi qiymətləndirmişlər. Siyasətin belə səciyyələndirilməsi xüsusilə, böyük məqsədlərin əldə olunmasında və böyük siyasi tədbirlərin reallaşmasında daha aydın nəzərə çarpır. İctimai inkişafın hər bir mərhələsində ölkənin siyasi xəttini işləyib hazırlayarkən elmi cəhətdən əsaslandırılmış prinsiplər rəhbər tutulmalıdır. Belə siyasi xəttin işlənib hazırlanması ölkə əhalisinin onu nə dərəcədə müdafiə edəcəyi reallığına əsaslanmalıdır. Bununla yanaşı, siyasi sistemin özünün inkişaf qanunauyğunluqlarını, onun ictimai həyatın digər sferaları ilə qarşılıqlı əlaqəsini hökmən nəzərə almaq lazımdır. Siyasi xəttin ölkənin iqtisadi inkişaf səviyyəsi və mövcud siyasi rejimlə əlaqələndirilməsi də vacib şərtdir.

Müasir demokratik ölkələrdə vətəndaşlar dövlət səviyyəsində həyata keçirilən siyasətin elmi cəhətdən nə dərəcədə əsaslandırıldığına inanmaq imkanı əldə edirlər. ABŞ-da prezidentliyə, qubernatorluğa və digər belə mahiyyətli vəzifələrə öz namizədliyini irəli sürən şəxslər seçkiqabağı kompaniyada öz proqramlarında irəli sürdükləri vədlərin həyata keçirilə bilə-cəyinə seçiciləri inandırmağa müvəffəq olurlar. Lakin belə bir cəhəti də yadda saxlamaq lazımdır ki, siyasət elm olmaqla yanaşı həm də ehtimal xarakteri daşıyır. Belə ki, siyasi proseslərin gedişində gözlənilməz şərait yarana bilər, bəzi siyasi proseslərə nəzarət etmək mümkün



olmaz və s. Bütün bunlar siyasətin elmi cəhətdən əsaslandırılmasını zərurətə çevirir.

Siyasət həm də **sənətdir**. O, fəaliyyət olmaq etibarilə konkret siyasi qərarların qəbul olunması zamanı incə manevr et-məyi, psixoloji mülahizələri, **mürəkkəb şəraitdə siyasi kompromisə getmək bacarığını, milləti təhlükədən uzaqlaşdırmaq naminə** yeganə düzgün qərarın qəbul olunmasını tələb edir. Beləliklə, siyasətin sənət olması onun intellektual, rasional və intuitiv başlanğıca malik olmasını səciyyələndirir ki, bunların da məcmuu adamları siyasətə cəlb olunmağa, ona inanmağa təhrik edir.

Tədqiqatçılar siyasəti səciyyələndirərkən «yüksək səviyyədə siyasət», «siyasət şərdir», « siyasət çirkin işdir» və s. kimi terminlərdən də istifadə edirlər. Əlbəttə, cəmiyyətin rifahına, demokratiyanın inkişafına, insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə, bəşəriyyətin tərəqqisinə, ictimai həyatın bütün sferalarının yeniləşməsinə (mütərəqqi formada) istiqamətlənən siyasət təbii ki, ali, yüksək səviyyəli humanist siyasətdir. Lakin tarix şər, çirkin işlərə, humanizm, xalq əleyhinə yönələn siyasətin də şahididir. XX əsrin birinci yarısında qərarlaşan faşist rejimləri (Almaniyada və İtaliyada), SSRİdə bərqərar olan totalitar siyasi rejim məhz, xalq əleyhinə, azadlığa qarşı çevrilən genişmiqyaslı siyasətin təzahürüdür. Tarixən ermənilərin azərbaycanlılara qarşı qərəzli siyasəti, xalqımız əleyhinə mənfur təbliğatı, **xeyli hissəsi azərbaycan torpağı olan indiki Ermənistan ərazisində,** azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda, xüsusilə, Xocalıda həyata keçirilən soyqırımı insanlıq əleyhinə, haqqa, ədalətə qarşı çevrilən **ən çirkin, ən vəhşi siyasət deyilmi?**

Siyasət digər ictimai sferalarla əlaqəlidir. Siyasətin iqtisadi əsası onu iqtisadiyatla daha sıx əlaqələndirir. Əlbəttə,

bu əlaqə hakimiyyət vasitəsilə reallaşır. Siyasətin strukturunun subyektə malik olması onun mütəşəkkilliyini, təşkiledici qabiliyyətini xeyli artırır. Bu cəhət isə cəmiyyəti üzvi birlik kəsb edən siyasət obyektinə çevirir. Belə birlik məhz, xeyli dərəcədə siyasətlə iqtisadiyyatın qarşılıqlı təsiri sayəsində yaranır. İqtisadiyyat siyasətə münasibətdə maddi baza kimi çıxış edir. Siyasət isə iqtisadi qanunlardan şüurlu, məqsədyönlü istifadə olunmasını təcəssüm etdirir. Siyasət iqtisadi fəaliyyəti siyasi ideyalarla zənginləşdirir. O, iqtisadi qanunlardan nə dərəcədə şüurlu istifadə edirsə, iqtisadiyyata bir o qədər fəal təsir göstərir. Bu fəal təsir üç istiqamətdə təzahür edir. Birincisi, iqtisadiyyat hansı istiqamətdə fəaliyyət göstərirsə siyasət də həmin yönümdə fəaliyyət göstərir və onun inkişafına imkan yaradır. Nəticədə sosial tərəqqi əhəmiyyətli dərəcədə sürətlənir. Bu cəhət iqtidarın siyasətinin tarixi inkişafın obyektiv gedişinə uyğun gəldiyi dövr üçün səciyyəvidir. İkincisi, siyasət iqtisadiyyata əks istiqamətdə fəaliyyət göstərir. Belə halda gec-tez həmin siyasət iflasa uğrayır. Bu cəhət iqtidarın siyasətinin ictimai inkişafın meylinə uyğun gəlmədiyi mərhələ üçün səciyyəvidir. Üçüncüsü, siyasət müəyyən istiqamətlərdə iqtisadiyyatın inkişafına mane ola bilər. Nəticədə həmin siyasət ya sosial tərəqqiyə kömək edə bilər və ya ictimai inkişafın meylinə uyğun gəlməz.

Ümumiyyətlə, iqtisadiyyata siyasi cəhətdən yanaşma, iqtisadiyyatın siyasi baxımdan mənalandırılması heç də onun süni şəkildə siyasiləşdirilməsi deyil. Bu zərurət məhz, dövlətin mənafeyi nöqteyi-nəzərdən təhlil olunmalı və qiymətləndirilməlidir.

Siyasət ideologiya ilə də sıx bağlıdır. Əgər mənəviyyat, mədəniyyət, hətta din (bəzi cəmiyyətlərdə) siyasəti az və ya təsadüfi halda müəyyən edirsə, ideologiya onunla



bilavasitə əlaqədardır. Siyasət ictimai mahiyyət kəsb etdiyinə görə cəmiyyətin və insanın şüuru ilə ayrılmaz vəhdətdədir. Bu mənada ideologiyasız siyasət yoxdur. Məlumdur ki, real siyasət adamların, sosial qrupların və bütövlükdə cəmiyyətin mənafeyini, tələbatını və məqsədlərini ifadə edən partiyaların, ideologiyanın daşıyıcıları və yaradıcılarının fəaliyyəti sayəsində həyata keçirilir. «İzm»lə qurtaran hər hansı siyasi anlayış özünə tərəfdarlar tapmağa və bunları əldə saxlamağa çalışır.

Bütün ideologiyalar-maoizmdən tutmuş mühafizəkarlığadək, kommunizmdən başlamış liberalizmədək hamısı özünə siyasi inamların «hazır kompleksinə» malik olan «siyasi bazarlar» axtarır.

«Siyasət» anlayışı subyektiv amilin ünsürü kimi çıxış etsə də onun həm də obyektiv tərəfləri vardır. Siyasətin obyektiv tərəfinə partiyaların, siniflərin, millətlərin, dövlətin əməli fəaliyyətinin nəticələri, mövcud real siyasi münasibətlər, sinfi qüvvələrin obyektiv nisbəti daxildir. Siyasətin subyektiv tərəfi isə siyasi görüşlıri, ideyaları, nəzəriyyələri, kütlələrin, partiyaların şüurlu, məqsədyönlü fəaliyyətini ifadə edir. Siyasi münasibətlər şəxsiyyətin, siniflərin, sosial təbəqə və qrupların həyat fəaliyyətinin istiqamətini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Bəzi siyasi hadisələr, məsələn, keçmiş SSRİ-də 80-cı illərin ortalarında başlanan yenidənqurma və bunun qanunauyğun nəticəsi olan Sovet İttifaqının dağılması dünyadakı siyasi prosesə və eləcə də vətəndaşların bütöv bir nəslinin şüuruna müəyyənedici təsir göstərdi. Bu cəhət heç də təsadüfi deyil. Digər sosial sistem kimi siyasət də özünün tənzimsləyici qanunlarına tabedir. Bu qanunlar yazılı (hüquq normaları) və yazılı olmayan qanunlardır (adətlər, ənənələr, davranış qaydaları və s.). Sürətli dəyişikliklər dövründə rəsmi normalar və təlimatlar

dəyişikliklərə uğrayır. Belə ki, yerli konstitusiyalar yazılır, qanunlar məcəlləsi qəbul olunur və bunlar da özlüyündə hakimiyyətdə olanlarla tabelikdə olanlar arasındakı rəsmi münasibətləri tənzimləyir.

Siyasətin cəmiyyətdə fəaliyyəti və onun ictimai varlığı həm cəmiyyətlə, dövlətlə, hakimiyyətlə, eləcə də siyasətin öz təbiəti, onun tarixən qərarlaşan universal və dəyişməz xüsusiyyəti və ya mövcudluğunun prinsipləri ilə müəyyən olunur. Bunların məcmuu və qarşılıqlı münasibətləri siyasətin ictimai varlığının əsasını təşkil edir. Siyasət iki yolla müəyyən olunur. Əvvəla o, tarixən qərarlaşan ümumi cəhətlərlə, ikincisi isə dövrün konkret şəraiti, mövcud cəmiyyət və onun xüsusiyyətləri ilə şərtlənir.

Siyasət şəraitin xarakterini açıqlamaqla bu və ya digər sosial qrupların mənafeyi naminə obyektiv reallıqdan istifadə olunması yolları müəyyənləşdirilməlidir.

Siyasəti təşkil edən cəhətlərin məcmuu, onun universal başlanğıca malik olması və əsası imkan verir ki, o, bütün cəmiyyətlərdə təzahür etsin. Özü də hər bir yeni cəmiyyət, nəsil, ayrı-ayrı fərdlər siyasəti yeni hal kimi qarşılayır, siyasəti başa düşməyə, ona cəlb olunmağa, siyasi həyatda iştirak etməyə, siyasi təhsilə yiyələnməyə səy göstərir və siyasi sosiallaşma prosesinə məruz qalır. Siyasət qarşılıqlı əlaqədə olan çoxsaylı hadisə və proseslər məcmuunu əks etdirir: **Birincisi**, o, ictimai həyatın idarə olunması məqsədilə sosial qrupların və onların təmsil etdiyi hakimiyyət müəssisələrinin fəaliyyətinin təşkilini, **ikincisi**, dövlət hakimiyyətinin ələ alınması, əldə saxlanması və ondan istifadə olunması məqsədilə sosial qruplar və adamlar arasında ictimai münasibətləri, **üçüncüsü,** siyasi fəaliyyətin ayrılmaz hissəsi olan siyasi şüuru və siyasi mədəniyyəti, nəhayət, siyasi görüşlərin, məqsədlərin, mənafelərin reallaşmasına və



həyata keçirilməsinə təsir göstərən siyasi təşkilatların və normaların məcmuunu əhatə edir.

Siyasi elmə dair ədəbiyyatda sözün ən geniş mənasında siyasətin məzmunu **təsisatlı, normativ** və **prosessual** mahiyyət daşıyan sosial fenomen kimi araşdırılır.* Siyasətin təsisatlı məzmunu özündə hakimiyyət və idarəetmə fəaliyyətini, hakimiyyət münasibətlərinin funksional mahiyyətini əks etdirən təsisatların məcmuunu səciyyələndirir. Normativ məzmun sosial qrupların ümumi mənafeyindən asılı olan sərvətlərin, normaların, məqsədlərin məcmuunu və siyasi fəaliyyətin prosessual məzmunu isə hakimiyyətin həyata keçirilməsi, dövlətin idarə olunmasının ümumi mənafeyi, məqsədlərinin müdafiə olunması və reallaşması naminə fəaliyyət sistemini ifadə edir.

Siyasət özünün bütün çoxcəhətliliyi ilə sosial reallıqdır. İqtisadiyyat, sosial-sinfi struktur, mədəniyyətin müxtəlif formaları, əxlaq, din və digər sferalar cəmiyyətdə necə mövcuddursa siyasət də sosial sistemdə bunlar kimi obyektiv reallıqdır. Əlbəttə, siyasi reallıq, siyasət aləmi cəmiyyətin sosial, iqtisadi və mədəni sferaları ilə müqayisədə spesifiklik kəsb edir. Siyasət «dövləti idarə etmək sənəti», «dövlətə aid nə varsa» mənasını səciyyələndirir. Bir sözlə, «siyasət» anlayışı müəyyən hakimiyyətin, hər şeydən əvvəl isə dövlətin cəmiyyəti təşkil etməsi mənasında başa düşülməlidir. Siyasət siniflər, sosial təbəqə və qruplar, millətlər arasındakı münasibətlərlə bağlı olan fəaliyyət sferasıdır. O, ictimai həyatın bütün tərəflərinin təmərküzləşmiş ifadəsidir.

Siyasi elmə dair ədəbiyyatda siyasət humanizm, əxlaq və zorakılıqla da əlaqələndirilir. Siyasətlə zorakılıq nəinki

* Д.П.Зеркин. Основу политологии. Ростов-на-Дону. "Феникс". 1997. Səh.64.

bir-birinə bağlı olan hadisə kimi əsaslandırılır, hətta bunlar eyniləşdirilir. Əlbəttə, unutmaq olmaz ki, siyasətin ən mühüm əlamətlərindən biri mütəşəkkil zorakılığın tətbiq olunmasıdır. Açıq siyasi zorakılığı öz ərazisində məhz, dövlət həyata keçirir. Zorakılığı siyasətin digər subyektləri də, məsələn, partiyalar, terrorçu təşkilatlar, qruplar və hətta ayrı-ayrı şəxslər də həyata keçirə bilər. Zorakılıq insanın və ya digər canlı varlıqların məhv edilməsinə istiqamətlənən və ya ona ziyan vuran düşünülmüş hərəkətdir. Siyasətdə zorakılıq müxtəlif formalarda tədbiq olunur (fiziki, iqtisadi, psixoloji və s.). Zorakılıq bütün bəşər tarixinin ayrılmaz tərəfidir. Siyasi zorakılığı digər zorakılıq formalarından fərqləndirən başlıca xüsusiyyət onun mütəşəkkilliyi, əhatəli olması, sistemli xarakteri və səmərəli tədbiqidir.

Siyasi zorakılıq bir şəxsin və ya qrupun iradəsinin cəmiyyətin digər üzvlərinə qəbul etdirilməsinə (məcburi) istiqamətlənən xüsusi hərəkətdir. Elə buna görə o, tərəflər arasında dinc razılaşmanın (konsensusun) əks tərəfidir. Zorakılığı elita və ya ona əks olan tərəf həyata keçirə bilər.

Sosial sistemdə qərarlaşan hüquqi qaydalar pozulduqda, həmçinin, mövcud hakimiyyətin legitimliyi üçün müəyyən təhlükə yarandıqda siyasi elita zorakılığa əl atır. Deməli, elitanın siyasi zorakılıq tətbiq etməsi hər bir siyasi sistemin zəruri ünsürlərindəndir. Zorakılıqdan elitaya əks olan, onu devirməyə çalışan qüvvələr və kütlələr də istifadə edə bilər. Təbii ki, elitaya əks qüvvələr zorakılığa o halda əl ata bilər ki, kütlələr ona tərəfdar olsun. Azərbaycanda xalq cəbhəsinin hakimiyyətə gəlməsi məhz, bu yolla başqa sözlə, çevrilişlə mümkün olmuşdur.

Ayrı-ayrı adamların və bütövlükdə cəmiyyətin siyasi şüurunun yetkinliyi siyasətə, siyasi həyata marağı daha da artırır. Bu mühüm cəhət, hər şeydən əvvəl, tərəqqiyə isti-



qamətlənməlidir. Sosial-siyasi praktika sübut edir ki, tarixi inkişafın müəyyən kəskin mərhələlərində kütlələrin siyasi fəallığından ya milli tərəqqiyə nail olmağa, taleyüklü milli problemləri həll etməyə, ya da şəxsi və qrup mənafeyi naminə siyasi hakimiyyəti ələ keçirməyə səy göstərən müəyyən qüvvələr meydana çıxır. Bu reallıq keçmiş sovet respublikalarının bir qismində, xüsusilə, Azərbaycanda aydın nəzərə çarpdı. «Meydan»da meydana gələn iqtidar (xalq cəbhəsini təmsil edən hakimiyyət) xalqın oyanmaqda olan milli siyasi şüurundan «məharətlə» istifadə edərək kütlələri öz ətrafına toplayıb «demokratik» yolla hakimiyyətə gəldi və qanunauyğun olaraq həm ələ keçirdiyi hakimiyyətdən, həm də ən başlıcası arxalandığı kütlələrdən məhrum oldu. Qeyd edək ki, adamlrın kütləvi şəkildə siyasətə marağının artması hələ onlarda kütləvi siyasi mədəniyyətin formalaşması demək deyil. Siyasəti sənət, elm kimi mənimsəməyin vacib şərtlərindən biri siyasi mədəniyyətə dərindən yiyələnməkdir, siyasi uzaqgörənlikdir. XX əsrin görkəmli siyasi xadimlərindən biri, Böyük Britaniyanın keçmiş dövlət rəhbəri **Uinston Çörçillin** belə bir siyasi kəlamını qeyd etmək yerinə düşər: «Siyasi ustalıq odur ki, sabah, bir həftədən, bir aydan sonra, gələn il nə olacaqsa, onları qabaqcadan xəbər verəsən, sonra isə həmin hadisələrin nə üçün baş vermədiyini izah edəsən».

Siyasətin məzmununu dürüst anlamaq baxımdan «siyasətçi» və «siyasətbaz» anlayışlarının nisbətini, bunların əsl mənasını düzgün dərk etmək xüsusi əhəmiyyətə malikdir. Xalqımızın, dövlətimizin taleyüklü problemlərlə, ilk növbədə, Dağlıq Qarabağla bağlı son dərəcə ciddi vəziyyətlə üzləşdiyi indiki anda bu məsələyə münasibətdə əsl siyasətçilərlə «istedadlı» siyasətbazları bir-birindən fərqləndirmək çətindir. Çünki bunları fərqləndirməyin xüsusi

meyarı yoxdur. Əlbəttə, əsl siyasətçi o adamdır ki, yüksək siyasi mədəniyyətə, dərin siyasi təfəkkürə və uzaqgörənliyə malikdir. Belə adamlar ictimai həyatda baş verən hadisələri, cəmiyyətdəki siyasi prosesləri obyektiv düşüncə tərzi ilə təhlil edir, ümumiləşdirir və qiymətləndirir, ölkənin mövcud siyasi mənzərəsini dürüst təsəvvür edir, siyasəti reallıq kimi anlayır, sosial-siyasi proseslərin mahiyyətini, gedişini və ümumi inkişaf meylini elmi-siyasi təfəkkür süzgəcindən zəkalı şəkildə keçirir, bir sözlə, mövcud siyasi vəziyyəti, ictimai-siyasi təcrübəni nəzərə alır və xalqı uğurlu gələcəyə istiqamətləndirmək və səfərbər etmək qabiliyyətinə malik olur. **Siyasətbazlar** isə həyatda baş verən real hadisələrə, ictimai-siyasi proseslərə ya bilərəkdən qərəzli şəkildə, ya da səviyyə, qabiliyyət çatışmazlığından yanaşır, bu və ya digər hadisəyə, məsələyə şəxsi və qrup mənafeyi baxımdan qondarma, süni don geyindirir, sağlam düşüncəli adamların ağıllı fikirlərini, dövlət səviyyəsində yeridilən düzgün siyasəti, xalqın, vətənin uğurlu gələcəyi naminə atılan addımları subyektiv və təmənnalı mövqedən qiymət-ləndirirlər. Siyasətbazı xalqın taleyi, vətən deyil, şəxsi mənfəət, şöhrət, vəzifə, bir sözlə cılız hisslər maraqlandırır: **Təcrübə göstərir ki, belələri həm iqtidarda və eləcə də müxalifətdə diqqəti cəlb edir. Sözün əsl mənasında millətsevərlik, vətənpərvərlik şüuru milli mənəviyyatımızın «vicdan səsi» olmalıdır. Xalqın taleyinə, milli dəyərlərə, siyasi sərvətlərə mənəviyyat qıtlığı güclü zərbə endirir.** Milli birliyə və bu zəmində milli-siyasi müstəqillik şüurunun qərarlaşmasına nail olmaq bu gün bizim üçün tarixi zərurətdir.

Siyasət elm olduğuna görə onu həyata keçirənlər də yüksək intellektə, siyasi zəkaya malik olmalı, cəmiyyətdəki hadisələrin inkişafı və dəyişməsi axarını məharətlə duymalıdır. Cəmiyyəti, xalqı ağıllı, düzgün idarə etmək əsl sənətdir, siyasi məharətdir. **Dövləti müdrikliklə idarə edənlərin siyasi mənəviyyatı mahiyyət etibarilə xalqın milli sərvəti kimi qiymətləndirilməlidir.** Rus inqilabçı demokratı **Çernışevskinin** dediyi kimi, xalqın ən böyük sərvəti onun malik olduğu mənəvi keyfiyyətlərdir. **Ulularımızın, müdriklərimizin bizə miras qoyub getdiyi gözütoxluq, halallıq, səmimiyyət kimi milli sərvətin tədricən qıtlaşması təəssüf ki, milli müstəqillik şüurumuzun bərqərar olduğu dövrə təsadüf edir.** Siyasət sosial fenomen mənasında elmi ədəbiyyatda bir neçə terminlə ifadə olunur: «Siyasi sosial gerçəklik», «siyasi varlıq», «siyasi məkan», «siyasi həyat», «siyasi aləm», «siyasi reallıq» və s. Bu anlayışları ictimai münasibətlərin maddi əsasını təşkil edən «ictimai varlıq» və ya «iqtisadi həyat» terminləri ilə eyniləşdirmək məqsədəuyğun deyildir.

Siyasətin reallığı bundan ibarətdir ki, onun yaranmasını təmin edən ictimai subyektlərin fəaliyyətində həyat strukturları və növləri nəzərə çarpmazsa, heç bir cəmiyyət yaşamaq iqtidarında olmaz. Siyasət sferasında sosial birliklərin ümumi mənafeyi və məqsədləri formalaşdırılır və elə qaydalar işlənib hazırlanır ki, bunların reallaşması adamlar arasında konkret funksiyaların müəyyənləşdirilməsinə əsaslanır. Siyasi hakimiyyət təsisatları (dövlət) cəmiyyəti tənəzzüldən xilas edir, sosial əlaqələri və ünsiyyəti tənzimləyən simvollar sistemi yaradır. Adamlar, sosial qruplar, real birliklər, təşkilatlar və s. siyasətin subyekti və obyekti kimi çıxış edir. Siyasi fəaliyyətin formaları yalnız müxtəlif siyasi qərarların işlənib hazırlanması və qəbul olunması ilə məhdudlaşmır. Bu formalar hakimiyyət uğrunda mübarizəni, hakimiyyətdən bu və ya digər sosial qrupların, millətlərin mənafeyi üçün istifadə olunmasını da ifadə edir. Hər bir cəmiyyətdə siyasi biliklər, görüşlər və siyasi fəaliyyət

adamların mənafelərinin reallaşmasına istiqamətlənməlidir. Fransız politoloqu **F.Bronun** obrazlı qeyd etdiyi kimi, «siyasətdə pis ehtiraslar adamları qəflətən fanatikə çevirər, onların şüurunu xürafatla bulandıra bilər. Buna görə siyasi elmin vəzifəsi adamlarda soyuqqanlılıq, sağlam, mifologiyadan uzaq və obyektiv görüş dairəsinin formalaşdırılmasına nail olmaqdan ibarətdir».* Siyasətin mövcudluğunun xüsusi formalarından biri **siyasi fəaliyyətdir.** Bu mənada o, ictimai həyatın digər sferalarından fərqlənmir. Nəzəri siyasi fəaliyyət siyasətin daşıyıcılarında siyasi şüur, təfəkkür, mentalitet və s. formalaşdırılmasını təmin edir. Siyasi fəaliyyət bir sıra yaradıcılıq istiqamətlərini özündə birləşdirir. İncəsənət, intuisiya, emosional vəziyyət, nəzəri layihələşdirmə, planlaşdırma və digər aspektlər bu qəbildəndir. Nəzəri siyasi fəaliyyətdə siyasət üçün həlledici olan problemlər, arzuedilən və real surətdə mümkün ola bilən, həqiqi və yalan, düzgün və səhv məsələlər məqsədəyönlü qiymətləndirilir.

Nəzəri, idrakı fəaliyyət siyasi varlığın ideal formasını təşkil edir. Onun maddi əsasını isə siyasi praktika, təşkilatçılıq və nəzarət fəaliyyəti, rəhbərlik, kadrların seçilməsi və yerləş-dirilməsi, onların hazırlanması, təhsili, qərarların müzakirəsi və qəbulu, məlumat mübadiləsi, hakimiyyət orqanlarının təşkili, fəaliyyəti və sairə formalaşdırır. Siyasətin səmərəli olması onun özündən çox yarandığı və reallaşdığı cəmiyyətlə, mövcud sosial gerçəkliyin vəziyyəti, əhval-ruhiyyəsi, mənafeyi və hakimiyyətlə münasibətlərdən asılıdır. Siyasətin təsirli mahiyyəti həm də qeyri-ictimai amillərlə müəyyən olunur. Bu amillər sırasında təbii, siyasətdənkənar

* БРО Ф. Политическая наука (Политология вчера и сегодня). М., 1990. Səh.237.



və ekoloji hallar səciyyəvidir (təbii sərvətlərin mövcudluğu, xarici əhatənin vəziyyəti və s.).

Siyasətin mövcudluğunun hər iki forması-ideal və maddi formalar obyektivləşir, konkret xarakter daşıyır, reallaşır və cəmiyyət tərəfindən dərk olunur. Siyasətin bu cür təzahürü, obyektivləşməsi iki istiqamətdə davam edir: bir tərəfdən şüurun müxtəlif hadisələrində – ideyalarda, nəzəriyyələrdə, inamlarda, niyyətlərdə digər tərəfdən isə maddi, hiss olunan, gözə çarpan əşya formasında. Siyasətin maddiləşməsi, onun əşya formasında fəaliyyəti müvafiq vasitələrlə başa çatır. Başqa sözlə, belə fəaliyyət siyasi təsisatlar (dövlət, hakimiyyət orqanları, ordu və s.) tərəfindən həyata keçirilir.

Siyasətin məkan ölçüsü onun cəmiyyətdəki rolunu, təsirli olmasını, reallığını, sabitliyini və uzunömürlüyünü, cəmiyyətlə münasibətlərini və sosial gerçəklikdə mövcudluğunu səciy-yələndirir. Belə halda siyasət mənafelərin təzahürü kimi yaranır və formalaşır. Digər tərəfdən isə o, görüşlərin, inamların, hakim əhval-ruhiyyənin, ideologiyanın, cəmiyyətin vəzifə və məq-sədlərinin dərk olunmasının amili kimi təşəkkül tapır və reallaşır.

Siyasət hakimiyyətlə sıx vəhdət daşıyır. Hakimiyyət siyasətin mənbəyi və səbəbi kimi çıxış edir. Siyasət məhz, hakimiyyət vasitəsilə həyata keçirilir. Düşünülmüş siyasətə əsaslanmadan hakimiyyət uğrunda mübarizə, onu ələ almaq, əldə saxlamağa səy göstərmək səmərəsiz fəaliyyət olmaqla hakimiyyət xatirinə hakimiyyətə gəlmək əzmidir. Hakimiyyət vasitəsilə həyata keçirilən və cəmiyyət tərəfindən dərk olunan siyasət ölkənin siyasi həyatını formalaşdırır, mövcud siyasi mədəniyyətə uyğun gələn siyasi varlığın təşəkkülünü şərtləndirir. Cəmiyyətin siyasi həyatı adamlar, qruplar, siniflər və ölkələrin müəyyən qismi arasındakı

siyasi münasibətləri əks etdirir. Siyasət həyata keçirildiyi bütün sferalarda çoxsaylı konkret formalarda təzahür edir. Bütün bu formalar siyasətin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki istiqamətində — daxili və xarici siyasətdə öz əksini tapır. Bir sözlə, dövlətin, partiyaların, liderlərin, qrup-laşmaların konkret siyasi praktikası cəmiyyətin siyasi həyatının əyani formalarıdır.

Siyasətin ayrı-ayrı formaları kimi onun sosial, humanist, mədəni və ideoloji məzmunu da zəngin və çoxcəhətlidir. Onlar konkret olaraq təkrarlanmazdır. Tarixi inkişaf prosesində baş verən hər bir çevrilişlə əlaqədar dəyişikliyə məruz qalsalar da prinsipial strukturları dəyişməz qalır. Siyasətin tarixi strukturu bir-birini inkar edən prinsipial cəhətlərlə – təcavüzkar (xarici siyasətdə), sülhsevər, istismarçı, azadlıq, totalitar, avtoritar, demokratik, mürtəce, mütərəqqi və s. siyasətlə səciyyələnir.

Siyasətin tarixi təkamülü təsdiqləyir ki, onun fundamental əsası dəyişməz qalır. Bu əsas o zaman dəyişir ki, cəmiyyətin təşkiledici və tənzimləyici-nəzarətedici sferasının bütün sistemi yeniləşir. Siyasətin gələcəkdə aradan qalxa biləcəyinə dair hər cür mülahisə və təsəvvürlər əsassızdır. Hətta gələcəkdə dövlətin olub-olmayacağı barədə mühakimə yürütsək belə siyasət digər subyektlərlə bağlı öz ictimai funksiyalarını həmişə saxlayacaqdır. Cəmiyyət həyatının təşkili və tənzimlənməsi vasitəsi olmaq etibarilə siyasət öz əhəmiyyətini heç vaxt itirməyəcəkdir. Fransız mütəfəkkiri **J.Bodenin** hələ vaxtilə irəli sürdüyü müdrik ideya-siyasətin demokratikləşdirilməsi zəmanəmizdə xüsusi aktuallıq kəsb edir. Cəmiyyətin humanistləşməsində, ən zəruri problemlərin həllində siyasətin rolu bu gün daha artıq dərəcədə hiss olunur.



## 5.2. Şəxsiyyətin hüquqi-siyasi statusu

Belə bir cəhəti qeyd etmək vacibdir ki, cəmiyyətin siyasi sistemi ilə bağlı məsələlərin, eləcə də şəxsiyyətin statusu haqqında mövcud tədqiqatların işlənmə dərəcəsi və səviyyəsi bütövlükdə müasir ictimai inkişafın tələblərini əks etdirmir. **Şəxsiyyətin siyasi və hüquqi statusu** daha dərindən və hərtərəfli öyrənilməlidir. Cəmiyyətin siyasi sistemində şəxsiyyətin statusu müxtəlif elmlərin, ilk növbədə isə fəlsəfənin, sosiologiyanın, hüququn, psixologiyanın və sairənin tədqiqat obyektidir. Bu problemin hüquq elmi tərəfindən tədqiqinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, şəxsiyyət yalnız hüquq və dövlətlə sıx əlaqədə öyrənilir. Lakin şəxsiyyətin statusu məsələsinin elmi təhlili təkcə şəxsiyyət dövlət münasibətlərinə deyil, həmçinin, şəxsiyyətlə siyasi sistemin digər ünsürlərinin əlaqəsinə istiqamətlənməlidir. Başqa sözlə, şəxsiyyətin partiyalar, ictimai birliklər və təşkilatlar, əmək kollektivləri və sairə ilə qarşılıqlı əlaqəsinin mexanizmi daha dərindən və əhatəli araşdırılmalıdır. Belə səciyyəli tədqiqatlar hər şeydən əvvəl, hüquqi dövlətin formalaşdırılması və qərarlaşması yollarını müəyyənləşdirməyə xidmət etmiş olar. Ümumiyyətlə, cəmiyyətdə şəxsiyyətin sosial statusu, siyasi sistemdə şəxsiyyətin statusunun fəaliyyətinin ümumi və spesifik qanunauyğunluqları kimi vacib problemin müasir aspektdə tədqiq olunmasına ciddi ehtiyac duyulur.

**Şəxsiyyətin sosial statusu** geniş və çoxcəhətli anlayışdır. Bu anlayış özündə bir neçə əlaməti əks etdirir: atributiv (kollektivə, sinfə, sosial qrupa mənsubiyyət mənasında); funksional; qiymətləndirmə (sosial nüfuz); normativ. Şəxsiyyətin sosial statusu sözün geniş mənasında ayrı-ayrı fərdin rolu ilə sosial nüfuzunun vəhdətini ifadə edir. Şəxsiy-

yətin sosial statusu anlayışı özündə funksional və qiymətləndirmə tərəflərini birləşdirir. Bu isə onu göstərir ki, şəxsiyyət nə edirsə onu edə bilər, onun hərəkətlərinin nəticələri nədir və bu hərəkətlər başqa adamlar və cəmiyyət tərəfindən necə qiymətləndirilir.

Şəxsiyyətin sosial statusunun mühüm növlərindən biri **sosial-normativ statusdur.** Sosial-normativ status sosial normaların növlərindən biri olan hüquq və vəzifələr sistemində şəxsiyyətin normativ mövqedən tənzimlənməsini səciyyələndirir. Təəssüf ki, hələlik hüquqi və siyasi ədəbiyyatda şəxsiyyətin sosial-normativ statusu az işıqlandırılmışdır. Şəxsiyyətin sosial-normativ statusunun mahiyyətini təhlil etməyə dövlət-hüquq və təşkilati-korporativ (və ya korporasiya) tənzimləmə nisbəti baxımdan diqqət yetirilməlidir. Bununla yanaşı sosial-normativ statusu əxlaqi normalar sistemindən kənarda təsəvvür etmək olmaz.

Şəxsiyyətin sosial-normativ statusunun daha mühüm tərəfi **hüquqi statusdur.** Hüquqi status dövlət tərəfindən təsdiqlənən və təminat verilən hüquq qaydaları, azadlıq, şəxsiyyətin vəzifələri və qanuni mənafeləri sistemidir. Şəxsiyyətin sosial-normativ statusu yalnız onun hüquqi statusunda deyil, eləcə də şəxsiyyətin müəyyən partiyanın, ictimai təşkilatın və əmək kollektivinin üzvü kimi statusunda ifadə olunur.

Cəmiyyətin siyasi sistemində şəxsiyyətin sosial-normativ statusunun bütün növlərinin əsasını elmi ədəbiyyatda qeyd olunduğu kimi vətəndaş olmaq etibarilə şəxsiyyətin mənafeyi təşkil edir. Şəxsiyyətin mənafeyinin çoxu onun hüquqi statusunun məzmununa daxildir və bu statusun müstəqil struktur ünsürü kimi səciyyələnir.



Ümumiyyətlə, şəxsiyyətin sosial-normativ statusu spesifik mənafe olmaqla bu və ya digər təşkilatın, kollektivin üzvünün hüquq və vəzifələri kimi çıxış edir.

Şəxsiyyətin dövlətlə qarşılıqlı əlaqəsi hüquq vasitəsilə onun hüquqi statusunda öz əksini tapır. Şəxsiyyətin hüquqi statusunun təmin olunması dövlət tərəfindən reallaşır. Şəxsiyyətin hüququnun, azadlığının və vəzifələrinin həcmi və həddi dövlətin fəaliyyətində sosial baxımdan nəzərə alınır. Daha doğrusu, şəxsiyyətin hüquqi və siyasi statusu dövlət tərəfindən ümumi iqtisadi, sosial, siyasi, mənəvi və digər amillərin məcmuu zəminində müəyyənləşdirilir. Şəxsiyyətin hüququ, azadlığı və vəzifələri sırf hüquqi amillərlə, beynəlxalq hüquq normaları ilə, dövlətlərin beynəlxalq müqavilələr və razılıq əsasında öz üzərinə götürdükləri öhdəliklərlə müəyyən olunur. Heç də təsadüfi deyil ki, bütün bunlar insan hüquqlarına aid beynəlxalq ümumi bəyannamənin məhz, birinci bölməsində öz əksini tapıb. Dövlətlərin beynəlxalq əməkdaşlığının ən mühüm prinsiplərindən biri insan hüqüqlarına və azadlığına hörmət edilməsidir. Dövlət insanın hüquqlarını, azadlığını və vəzifələrini, həmçinin, onların həddini müəyyənləşdirməklə məhdudlaşmır. O, həm də bunların hüquqa uyğun şəkildə təmin olunması sistemini təşkil edir, qorunması üçün sosial (hüquqi) təminat verir. Yadda saxlamaq lazımdır ki, insan hüququ prbleminin özü məhz, cəmiyyətin, dövlətin və insan şəxsiyyətinin inkişafı ilə qırılmaz surətdə bağlıdır. Təsadüfi deyil ki, insan hüququ ideyası ilk dəfə maddi cəhətdən az təminatlı, lakin mənlik şüuru və şəxsi ləyaqət hissi yüksək səviyyədə olan mütəfəkkirlər tərəfindən irəli sürülmüşdür. Fərdi ləyaqətin mənalandırılması və təsdiqlənməsinin ilk tarixi forması və şəxsiyyətin hakimiyyətə münasibətdə muxtar mahiyyət daşıması eramızdan əvvəl birinci minil-

likdə **təbii hüquq ideyası** kimi meydana gəlmişdir. Bu ideya ilk dəfə qədim yunan fəlsəfəsində sofizm adı altında təşəkkül tapan təlimin nümayəndələri tərəfindən irəli sürülmüşdür. Sofist filisoflar kimi tanınan **Likofron, Antifon, Alkidam** və başqaları eramızdan əvvəl VIV əsrlərdə təsdiqləyirdilər ki, bütün insanlar doğulduğu gündən bərabərdir və təbiət tərəfindən şərtlənən eyni hüquqa malikdirlər.

İnsan hüququna dair ilk liberal konsepsiya özünün sistemləşdirilmiş ifadəsini 1791-ci ildə qəbul olunmuş ABŞ konstitutsiyasında tapmışdır. Başlıca insan hüquqları-şəxsiyyət azadlığı, mülkiyyət hüququ, təhlükəsizlik və istismar olunmağa müqavimət 1789-cu ildə konstitusiya yolu ilə insan və vətəndaş hüquqlarına aid fransız bəyannaməsində təsbit olundu. Liberal hüquqlara dair ilk praktiki tələblər XIX əsrin birinci yarısında İngiltərədə baş verən çartistlər hərakatında əsaslandırıldı və irəli sürüldü. Qərb ölkələrində vətəndaşların sosial hüquqlarının hüquqi cəhətdən təsdiqi ikinci dünya müharibəsindən sonra baş verdi. Ən başlıca sosial hüquqlar – əmək, istirahət, sosial təminat, təhsil, ləyaqətli həyat səviyəsi kimi insan hüquqları 1948-ci il dekabrın 10-da BMT-nin baş məclisində qəbul olunmuş ümumi bəyannamədə öz əksini tapdı. Hüquqi status şəxsiyyətin yalnız fərd kimi deyil, həm də dövlətin vətəndaşı olmağın zəruri sosial imkanlarını və potensialını əks etdirir. Vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri dövlətin nüfuzu və bütün gücü ilə təmin olunur. Şəxsiyyətin hüquq və azadlığı maddi amillərlə şərtlənən, hüquqi cəhətdən təsdiqlənən və təminat verilən elə ictimai hadisədir ki, bunun sayəsində hər bir fərd cəmiyyətin bütün sərvətlərindən istifadə etmək imkanı əldə edir.

Şəxsiyyətin hüquq və vəzifələri bir-birilə sıx bağlıdır. Bu bağlılıq ictimai həyatın köklü prinsiplərindəndir. İn-



sanların birgəyaşayış tarixi və bu günkü ictimai praktika təsdiqləyir ki, vəzifələrsiz hüquq, hüquqsuz vəzifələr yoxdur. Bu dialektik aksiom heç vaxt nəzərdən qaçırılmamalıdır.

Hüquqi vəzifələr subyektin gələcək davranış imkanları olub iradə nöqteyi-nəzərindən dövlətin qanunlarında ifadə edilən zəruri xarakterdir. Başqa sözlə, vəzifə dövlət tərəfindən təmin olunan vacib davranışdır.

Qeyd edək ki, hüquq elmi insan hüquqları konsepsiyasının formalaşması və inkişafına mühüm töhvə bəxş etmişdir. Bu konsepsiyanın başlıca ideyası bunlardır:

Maddi cəhətdən şərtlənmə, insan hüquqları və vəzifələrinin məzmunu;

Dövlətin və şəxsiyətin qarşılıqlı məsuliyyəti;

Şəxsiyyətin sosial müdafiəsi. Sosial-iqtisadi hüquqlara təminat: əmək, istirahət, mənzil, pensiya təminatı hüququ və s;

İnsan hüquqları və azadlığının bütün növlərinin tamlığı, təminatlı olması, qarşılıqlı əlaqəsi və bərabərliyi;

Hüquq və vəzifələrin birliyi;

Şəxsiyyətin hüquq və azadlığının, rifahının və sərvətlərinin hüquqi baxımdan hərtərəfli müdafiəsi.

İnsan hüquqları adamların həyat fəaliyyətinin müxtəlif sferalarında təzahür edir. Bu baxımdan ən mühüm hüquqlar aşağıdakılardır: vətəndaş hüququ (şəxsi hüquq), siyasi hüquqlar, iqtisadi hüquqlar, sosial hüquqlar və mədəni hüquqlar. **Vətəndaş hüququ** şəxsi azadlığa təminat verir. **Siyasi hüquqlar** vətəndaşın dövlətin və ictimai həyatın idarə olunmasında iştirakını müəyyənləşdirir. **İqtisadi hüquq** mülkiyyətə yiyələnməyi, sahibkarlığı təcəssüm etdirir. **Sosial hüquq** insanın ləyaqətli həyat səviyəsini və sosial cəhətdən müdafiə olunmasını təmin edir. **Mədəni hüquq** isə şəxsiyyətin mənəvi inkişafına təminat verir. Hüquq

insana ona görə lazımdır ki, o, ictimai həyatın müxtəlif sferalarında öz imkanlarını reallaşdırsın, qabiliyətinə və arzusuna uyğun olaraq tələbatını təmin etsin. İnsan hüquqları sırasında **vətəndaşlıq hüququ** (şəxsi hüquq) başlıca yer tutur. O, insan hüququnun təbii və ayrılmaz tərəfidir. Vətəndaşlıq hüququnu vətəndaş hüququ ilə qarışdırmaq olmaz. **Vətəndaş hüququ** vətəndaşlığı olan şəxslərin dövlət tərəfindən təmin olunan bütün hüquqlar kompleksini əhatə edir. Vətəndaşlıq hüququ isə yaşamağa və azadlığa təbii hüquqdan yaranmışdır. Belə hüququ hər bir insan doğulduğu andan qazanır və buna görə də öz fərdi azadlığını ona qarşı hakimiyyət və başqa adamlar tərəfindən ehtimal edilən özbaşnalıqdan müdafiə etməlidir. Bu hüquq insana öz fərdiliyini saxlamaq imkanı verir. Vətəndaşlıq hüququna adətən azadlıq, toxunulmazlıq, şərəf və ləyaqəti qorumaq, yaşayış yerini dəyişmək və seçmək, hər hansı dövləti tərk etmək, öz ölkəsinə qayıtmaq hüququ və s. daxildir.

İnsan hüquqlarının bütün kompleksinin praktiki reallaşması mürəkkəb və əhatəli məsələdir. Bu məsələnin həlli dərəcəsi həm ayrı-ayrı ölkələrin, həm də bütün bəşər sivilizasiyasının inkişaf səviyyəsini, tərəqqisini və eləcə də humanizmi bilavasitə səciyyələndirir. Müasir dünyada insan hüquqlarına riayət olunması, şəxsiyyətin hüquq və azadlıqlarının həyata keçirilməsinə qlobal səviyyədə ciddi diqqət yetirilməsi daxili və beynəlxalq siyasətin ən mühüm meyarı kimi çıxış edir.

Ayrı-ayrı dövlətlərdə və bütövlükdə dünyada insan hüquqlarına hörmət olunması şəxsiyyətin ən ali sərvəti kimi təsdiqlənir. Hər hansı ölkə çərçivəsində bu hüquqların qorunması iqtisadi və sosial inkişafa təkan verir, siyasətdə sağlam düşüncənin təntənəsinə çevrilir. Hələ 1789-cu ildə insan və vətəndaş hüququ-na dair fransız bəyannaməsinin



preambulasında (giriş hissəsində) qeyd olunurdu ki, «insan hüquqlarını bilməmək, unutmaq və ona hörmət etməmək ictimai bədbəxtliyin və hökuməti rüşvətlə ələ almağın yeganə səbəbidir.» Dünya birliyi miqyasında insan hüquqlarının gözlənilməsi beynəlxalq münasibətlərin əsl humanizm əsasında, əxlaqi zəmində təşkilinə ən mühüm təminatdır.

Şəxsiyyətin hüquqi statusu ilə bağlı yürütdüyümüz mülahizələrlə əlaqədar qeyd etmək lazımdır ki, insan hüquqları və vəzifələrinin bütün növlərinin perspektiv inkişafını bunların formalaşmasına və təkamülünə təsir göstərən amillər sistemi vasitəsilə dərk etmək lazımdır. Bu baxımdan şəxsiyyətin sosial-normativ statusunun inkişafını müasir şəraitdə aşağıdakı istiqamətlərdə proqnozlaşdırmaq məqsədəuyğundur:

1. Şəxsiyyətin vətəndaş olmaq etibarilə müəyyən partiyanın, ictimai təşkilatın və kollektivin üzvü kimi mənafelərinin, hüquq və vəzifələrinin sosial məzmunu daha intensiv şəkildə zənginləşir və genişlənir. Bununla bağlı şəxsiyyətin statusu yeni və daha dərin maddi məzmunla tamamlanır.

2. Spesifik mənafelərin kəmiyyət artımı və müxtəlifliyi daha çox diqqəti cəlb edir. Bu hal isə hüquqi və korporativ normalarda təsdiqlənir və möhkəmləndirilir, bunların reallaşmasına təşkilatlar və kollektivlər tərəfindən təminat verilir. Spesifik mənafelərdən doğan yeni hüquq və vəzifələr meydana çıxır.

3. Dövlət işlərinin, əmək kollektivlərinin idarə olunmasında demokratik prinsiplərin daha da qərarlaşması şəxsiyyətin hüquq və mənafeyinin məzmununun zənginləşməsinə səbəb olur.

4. Vətəndaşların hüquqi statusunun (hər şeydən əvvəl, konstitusiyada təsbit olunan) onun sosial-normativ statusu-

nun digər növləri ilə əlaqəsi güclənir. Bu cəhət isə vətəndaşların hüquqlarının, azadlığı və vəzifələrinin konkretləşməsi, inkişafı və tamamlanması prosesində ifadə olunur.

5. Mənafelərin reallaşması sferasında, şəxsiyyətin vətəndaş kimi öz hüquqlarından istifadə etməsi və vəzifələrini həyata keçirməsi prosesində onun fəallığı daha da yüksəlir.

Şəxsiyyətin hüquqi statusu daha çox normativ aspektdən əsaslandırılıb mənalandırılırsa, **şəxsiyyətin siyasi statusu** daha çox funksional baxımdan müəyyənləşdirilir. Başqa sözlə, insanın siyasi hüquq və azadlığı müasir siyasi cəmiyyətin inkişafı və səmərəli fəaliyyəti nöqteyi-nəzərdən mənalandırılıb əsas-landırılır. Siyasi hüquq və azadlıqla bağlı çoxlu rəy müxtəlifliyi, çoxcəhətli mövqe diqqəti cəlb edir ki, bu da xeyli dərəcədə meydana çıxan problemlərin siyasi kəskinliyi ilə əlaqədardır. Bütün bu müxtəlifliyə baxmayaraq həm nəzəri, həm də praktiki baxımdan ümumi əhəmiyyət daşıyan bütöv məsələlər toplusu mövcuddur. Həmin məsələlər sırasında ən vacibi siyasi qrup üzvlərinin hüquq və vəzifələri arasındakı uyğunsuzluğun aradan qaldırılmasıdır.

Şəxsiyyətin siyasi statusu, başqa sözlə, siyasi hüququ vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirak etmək imkanlarını müəyyənləşdirir. Başlıca siyasi hüquqlara bunlar aiddir: insanın vətəndaşlıq hüququ, seçki hüququ, ittifaqlar və assosiasiyalar, nümayişlər və yığıncaqlar hüququ, informasiya, söz azadlığı, rəy, o cümlədən mətbuat azadlığı, radio və televiziyadan istifadə, vicdan azadlığı və digər hüquqlar.

Siyasi münasibətlər siyasi şüurun, siyasi mənafelərin və siyasi həyat normalarının formalaşdığı sferanı yaradır.

Siyasi münasibətlərin daşıyıcısı olan ayrı-ayrı şəxslər dövlətə münasibətdə vətəndaş kimi səciyyələnir, seçkilərdə,



müxtəlif dövlət orqanlarında, qanun lahiyələrinin ümumxalq müzakirəsində, ali qanunverici orqanda və əhalinin nümayəndəsi kimi dövlət hakimiyyəti orqanlarında iştirak edirlər. Beləliklə, vətəndaşların siyasi fəaliyyət sferasını da əhatə edən siyasi münasibətlər adamların cəmiyyət və dövlət işlərinin idarə olunmasında, dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakını təcəssüm etdirir.

**Siyasi azadlıq** mövcud cəmiyyətdə şəxsiyyətin sosial azadlığının növü (forması) kimi səciyyələnir. Siyasi azadlıq bütövlükdə cəmiyyətin və eləcə də şəxsiyyətin təmsil olunduğu sosial qrupun azadlığı ilə müəyyən olunur.

Siyasi azadlıqlar vətəndaşların siyasi hüquq və azadlıqlarının sosial məzmununu təşkil edir. Bu hüquq və azadlıqlar dövlət hakimiyyəti tərəfindən təsdiqlənir və hüquqi normalarda möhkəmləndirilir. K.Marks qeyd edirdi ki, «hüquqi cəhətdən təsdiq olunmuş azadlıq dövlətdə qanunlar formasında mövcud olur.»*

Şəxsiyyətin siyasi hüquq və azadlığı vəhdət təşkil etməklə mövcud cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir. Şəxsiyyətin siyasi statusunun reallıq dərəcəsi, onun məzmunu iqtisadi firavanlıq, siyasi rejim, siyasi mədəniyyət, cəmiyyətin mənəvi həyatı və digər amillərlə şərtlənir.

Hər bir azadlığın, xüsusilə, siyasi azadlığın obyektiv surətdə mövcud olan həddi vardır. Məsələn, hüquqi azadlıq siyasi sferada siyasi azadlıqdan geniş mövcud ola bilməz. Eyni zamanda dövlət siyasi sferada şəxsiyyətin hüquqi azadlığının həddini məhdudlaşdıra bilər. Məlum olduğu kimi, sovet hakimiyyəti proletariat diktaturası şəraitində vətəndaşların hüquq və azadlıqlarını açıq şəkildə məhdudlaş-

* Маркс К., Энгельс Ф. Соч. т.1, Səh.62,69.

dırmışdı (1918-ci ildə qəbul olunmuş RSFSR konstitusiyasına əsasən).

Dövlət vətəndaşlara münasibətdə onların siyasi tələblərini və maraqlarını təmin etməyə imkan yaratmaq məqsədilə öz üzərinə mühüm vəzifələr götürür. Dövlətin siyasətinin bu qanuna-uyğunluğundan imtina edilməsi hüquq və dövlətin demokratik xarakterinin dəyişməsinə və təhrif olunmasına gətirib çıxarır.

Şəxsiyyət cəmiyyətə və dövlətə, siyasi sistemin bütün tərəflərinin fəaliyyətinə öz əməyi, siyasi fəallığı, bütün fəaliyyəti ilə təsir göstərir. Sosial tərəqqiyə belə təsir vətəndaşların öz siyasi hüquq və azadlıqlarından daha fəal istifadə etməsi nəticəsində baş verir.

Siyasi hüquq və azadlıqlar sırasında vətəndaşın özünün və başqalarının hüquq və mənafeyini qoruması da mühüm yer tutur. Vətəndaşın özünün və başqalarının hüquqlarını və qanuni mənafelərini qoruması siyasi xarakter daşıyır. Əgər vətəndaş hər hansı səbəbə görə öz hüququnu və qanuni mənafeyini müdafiə etməyə cəhd göstərmirsə belə halda dövlət orqanları, ictimai təşkilatlar bir qayda olaraq şəxsiyyətin pozulmuş hüququnun və qanuni mənafeyinin müdafiəsinə qalxır. Bütün bunlar şəxsiyyətin hüququnun və qanuni mənafeyinin müdafiəsinə istiqamətlənən siyasi hüquq və azadlıqların xüsusi qrupunu (növünü) müəy-yənləşdirməyə əsas verir. Bu hüquqlara aşağıdakılar aiddir: şərəf və ləyaqətin alçaldılmasına, şəxsiyyətin həyatına, sağlamlığına, şəxsi azadlığına və mülkiyyətinə qəsd edilməsinə qarşı məhkəmədən istifadə etmək, vəzifəli şəxslərin, dövlət orqanlarında və ictimai təşkilatlarda çalışan şəxslərin qanuna zidd hərəkətlərindən şikayət etmək və sair.

Vətəndaşların siyasi hüququ, azadlığı və qanuni mənafelərinin təsnifatını üç səviyyədə (növdə) müəy-yənləşdirmək olar: 1) Şəxsiyyətin dövlətə mənsubiyyəti və ya vətəndaşlıq münasibəti hüququ. 2) Vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən irəli gələn hüquq və qanuni mənafe. 3) Xalq hakimiyyətinin həyata keçirilməsində, cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etmək hüququ.



Siyasi hüquq və azadlıqların bütün növləri bir-biri ilə sıx əlaqəyə malikdir və reallaşmaları baxımdan öz aralarında dərin əlaqə kəsb edirlər. Onlar siyasi vəzifələrlə birlikdə vətəndaşların siyasi-hüquqi statusunu təşkil edirlər.

### 5.3. Şəxsiyyət siyasətin başlıca subyektidir

Demokratik cəhətdən inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə siyasət nəinki adamlar üçün, həm də onların vasitəsilə həyata keçirilir. Nə dərəcədə ictimai rol oynamasından asılı olmayaraq sosial qruplar, siyasi partiyalar və kütləvi ictimai hərakatların başlıca subyekti şəxsiyyətidir. Çünki həmin qruplar, partiyalar və hərakatlar real şəxsiyyətlərdən formalaşır. Ən başlıcası isə siyasi proseslərin, bütün siyasi həyatın məzmunu və istiqaməti məhz, adamların mənafelərinin qarşılıqlı təsiri sayəsində müəyyənləşir.

Siyasətin subyekti kimi insanın rolu və əhəmiyyəti ideya-siyasi fikir tarixində əhatəli şəkildə öz ifadəsini tapmışdır. Hələ qədim zamanlarda insanın siyasətə və dövlətə münasibətinə dair müxtəlif təlimlər təzahür edir. Belə təlimlər sırasında antik hind siyasi fikrini səciyyələndirən **brahmanizm** maraq doğurur. Brahmanizm qədim Hindistanda siyasi və hüquqi ideologiyada aparıcı istiqamət idi (eramızdan əvvəl, I minilliyin ortalarında). Mahiyyət etibarilə dini-mifoloji məna daşıyan həmin təlim vedlərdə – hind mərasimlərinə dair kitablarda aydın nəzərə çarpır. Belə

kitablarda dövlətin əyanlar tərəfindən formalaşdırılması ideyası təsdiqlənirdi.

Adamların siyasətin subyekti olmasına dair ideya sonralar antik dövrün məşhur Çin filosofu **Konfutsinin** təlimində nəzərə çarpır. O,iddia edirdi ki, dövlət «ali» və «aşağı» adamlardan ibarət olan böyük ailədir. Həm brahmanizm təlimində, həm də Konfutsinin konsepsiyasında sıravi şəxsiyyətin siyasətin şüurlu subyekti olmasına dair fikir diqqəti cəlb etmir.

Şəxsiyyətin siyasətdə roluna dair daha kamil fikirlər **Platonun və Aristotelin** siyasi baxışlarında nəzərə çarpır. Platon «Respublika» əsərində göstərirdi ki, cəmiyyət və dövlət filosoflardan ibarət olan müdrik hökmdarların rəhbərlik etdiyi polis tərəfindən idarə olunmalıdır. Platona görə adi adamlar dövləti idarə etmək keyfiyyətlərinə malik deyildir. İnsanı siyasi heyvan adlandıran bu böyük filosof qeyd edirdi ki, adamlar kuklaya bənzər oyuncaq varlıqdır. Əlbəttə, Platon bu fikrini dövlət hakimiyyətinə tabe olan sıravi adamlara aid edirdi. Aristotel insanın dövlətə münasibətini «Siyasət» əsərində şərh etmişdir. O, iddia edirdi ki, dövlət adamların yüksək ünsiyyət formasıdır. Aristotelin fikrincə, insan təbiətinin başlıca məqsədi, yəni adamların bütöv siyasi orqanizmin bir hissəsi kimi mövcudluğu məhz, dövlətdə reallaşır.

Sonrakı dövrlərin mütəfəkkirləri, ilk növbədə, **N.Makiavelli, T.Hobbs, C.Lokk** və başqaları insanın siyasətə münasibəti məsələsinə dair, adamların zəkası və qabiliyyəti ilə şərtlənən şüurlu fəaliyyətinə aid çox maraqlı fikirlər irəli sürmüşlər. Məsələn, Makiavelli təntənəli surətdə elan edirdi ki, «Kainatın mərkəzi allah deyil, məhz, insandır». Bu mütəfəkkir insanı ali varlıq hesab etsə də unudur ki, bütün varlıqların və kainatın mərkəzi insan deyil, məhz, allahdır.



Tanrı (allah) ən qüdrətli, hər şeyə qadir quvvədir. Kainatı da, onun zərrəsi olan insanı da bu ən böyük yaradan xalq etmişdir.

Siyasətin obyekti və subyekti insanlardır. Cəmiyyətin demokratikləşməsi səviyyəsindən asılı olaraq hakimiyyətin subyektləri çox və ya az dərəcədə həm də siyasətin obyekti kimi çıxış edirlər. İnsanın siyasətin subyekti və obyekti kimi çıxış etməsi, həmçinin, siyasi rejimin xarakterindən asılıdır.

Siyasətin başlıca subyektləri xalq, sosial qruplar, ictimai birliklər (millət), kollektivlər və şəxsiyyətdir. Şəxsiyyətin siyasətin subyekti kimi səciyyələnməsi müvafiq orqanlar vasitəsilə və bilavasitə təzahür edir. Adamların bu və ya digər qrupu siyasətin subyekti kimi o halda çıxış edir ki, müəyyən siyasi keyfiyyətlərə yiyələnsin. Bu keyfiyyətlərə siyasi biliklər, siyasi şüur, siyasi mənafe, siyasi psixologiya və sair daxildir. Bütün bunlar insanda dövlət hakimiyyəti haqqında və ona təsir yolları barədə elmi təsəvvür yaradır. Siyasi subyekt kimi çıxış etməyin digər şərti demokratiyanın inkişaf səviyyəsi, kütləvi informasiya vasitələri, siyasi mexanizmin fəaliyyəti və nəhayət, hakimiyyətdə olan adamlar hesab olunur.

Adamları siyasətin subyekti kimi səciyyələndirən həmin keyfiyyətlər və şərtlərin məcmuu **siyasi subyektivlik adlanır.** Siyasi subyektivlik ictimai qrupların, ayrı-ayrı şəxslərin və onların təmsil olunduğu təşkilatların inkişafının məntiqi nəticəsidir. Sosial subyektlərin bu qabiliyyəti onların ümumi mənafeyinin inteqrasiyası, müdafiəsi və reallaşması ilə əlaqədardır. Deməli, **şəxsiyyət siyasi subyekt kimi özünün inkişafı prosesində təşəkkül tapır.**

Sosial subyektin siyasi subyektə çevrilməsinin üç başlıca şərti vardır: siyasi şüur, siyasi təşkilatçılıq, siyasi fəallıq. Siyasi şüur bütövlükdə bu və ya digər fərdin öz

mənafeyini dərk etməsini və mənlik şüurunu, siyasi münasibətlər sistemində yerini, rolunu anlamasını və siyasi fəaliyyətinin nəticələrini başa düşməsini səciyyələndirir. Siyasi cəhətdən təşkilatçılıq insanın özünü fəaliyyətdə olan subyekt kimi təşkil və səfərbər etməsini, ümumi mənafeyinin həyata keçirilməsi naminə real fəaliyyətini əks etdirir. Siyasi fəallıq isə şəxsiyyətin təkcə şəxsi mənafe və məqsədləri baxımdan deyil, həmçinin, təmsil etdiyi sosial qrupun, təşkilatın, hərakatın və bütövlükdə cəmiyyətin ümumi mənafeyi, məqsədləri və rifahı naminə fəal, məqsədyönlü fəaliyyəti ifadə edir. Yeri gəlmişkən qeyd edək ki, siyasi subyektivliyi **siyasətdə subyektivlikdən fərqləndirmək lazımdır.** Siyasi fəaliyətdə subyektivlik həm praktiki, həm də nəzəri baxımdan o şəxslərdə təsadüf olunur ki, bunlar peşəkar siyasətçilər kimi səciyyələnmir, zəruri siyasi biliklərə və təcrübəyə malik deyildir. Belə hal onunla bağlıdır ki, siyasətə bəzən ictimai həyatın digər sferalarında çalışan, siyasi səriştəsi zəif olan adamlar cəlb olunur. Hakimiyyət orqanlarında və parlamentlərdə siyasi cəhətdən səriştəsiz şəxslərin təmsil olunması sözün məhdud və geniş mənasında ictimai qəbahətdir, xalqın mənafeyi baxımdan yolverilməzdir.

Mövcud ədəbiyyat mənbələrinə istinad edərək siyasi subyektivliyin bəzi meyarlarını müəyyənləşdirmək olar. Bu meyarlara daxildir:

- şüurluluğun və mütəşəkkilliyin müəyyən səviyyəsində siyasi fəaliyyət qabiliyyəti, qərarların qəbulunda və reallaşmasında iştirak etmək imkanları;
- müxtəlif sosial qruplara ideoloji, təşkilati və tərbiyəvi təsir;



- siyasi fəaliyyəti müstəqil, sərbəst surətdə həyata keçirmək, davranışın və fəaliyyətin şəxsiyyətin özü tərəfindən tənzim-lənməsi;
- subyektin fəaliyyətinin mühüm ictimai nəticələri və ya onun bu fəaliyyətindən imtina etməsi. İctimai faydalı fəaliyyətdən imtina edilməsinin özü də siyasi faktdır.

Siyasi subyektivliyin meyarlı əlamətlərini hər hansı partiyanın və ya ictimai-siyasi hərəkatın nümunəsində aydın görmək olar. Onların fəaliyyətinin mahiyyəti təmsil etdikləri qrupların və təbəqələrin mənafeyini ifadə etmələrində nəzərə çarpır.

Siyasi elmə dair ədəbiyyatda siyasətin başlıca subyekti məsələsinə münasibətdə birmənalı mövqeyə təsadüf olunmur. Məsələn, D.P.Zerkin qeyd edir ki, xalq (millət, millətlərin ittifaqi) və onu təşkil edən böyük sosial qruplar siyasətin ilkin (birinci) subyektləridir, o mənada ki, xalq dövlət hakimiyyətinin mənbəyidir.* Belə mülahizənin əsasını təşkil edən başlıca meyar ondan ibarətdir ki, xalq öz hakimiyyət iradəsini dövlət və digər siyasi təsisatlar vasitəsilə həyata keçirir. E.A.Anufriev, M.P.Faruşkin, D.P.Zerkin və başqaları dövləti, partiyaları, digər ictimai-siyasi təsisatları və təşkilatları siyasətin ikinci subyekti adlandırırlar. Onlar öz mülahizələri üçün bunu meyar hesab edirlər ki, həmin təsisatlar xalqın adından və onun tapşırığı ilə fəaliyyət göstərirlər. Bu müəlliflər siyasi elitanı, siyasi liderləri, cəmiyyətin ayrı-ayrı üzvlərini siyasətin üçüncü subyektinə daxil edirlər.

Yuxarıdakı mülahizələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, siyasətin subyektləri üç səviyyədə təzahür edir: 1) Xalq (millət), böyük sosial qruplar; 2) Dövlət, par-

* Д.П.Зеркин. Основы политологии. Səh82.

tiyalar, digər ictimai-siyasi təsisatlar; 3) Siyasi elitalar, fərdi liderlər, cəmiyyətin ayrı-ayrı üzvləri.

Bəzi müəlliflər isə iddia edirlər ki, siyasətin başlıca, ilkin subyekti şəxsiyyətdir. Bu fikri daha çox **L.P.Borisov** əsaslandırmağa səy göstərir.*

Politoloji ədəbiyyatda siyasətin subyektləri yalnız **sosial** (sosial təbəqə və qruplar, siniflər və s.), **tə sisatlar** (dövlət, partiyalar, ictimai təşkilatlar və hərəkatlar) və şəxsiyyət səviyyəsində müəyyənləşdirilmir. Belə ki, bəzi hallarda siyasətin subyektinə **sosial təsisatları** da aid edirlər. Belə təsisatlar sırasında ilk növbədə kilsə, ali məktəblər, idman assosiasiyaları, könüllü cəmiyyətlər, korporasiyalar və s. nəzərə çatdırılır. Sosial təsisatlar əsasən siyasi vəzifələri həyata keçirməsələr də siyasi həyata hiss olunacaq dərəcədə təsir göstərirlər.

Şəxsiyyəti siyasətin ilkin subyekti kimi qiymətləndirən tədqiqatçıların, eləcə də L.P.Borisovun mövqeyini daha məqsədəuyğun hesab edirik. Yadda saxlamaq lazımdır ki, ayrı-ayrı şəxsiyyətlər mücərrəd anlayış olmayıb, hər şeydən əvvəl, bu və ya digər kollektivi, sosial qrupu, təbəqəni, sinfi, bütövlükdə isə xalqı, milləti təmsil edir və səciyyələndirir. İkincisi, hər hansı sosial qrupun, ictimai birliklərin, partiyaların və sairənin siyasi məqsədləri konkret surətdə onları təmsil edən ayrı-ayrı adamların siyasi fəaliyyətində və davranışında daha aydın nəzərə çarpır. Üçüncüsü, müxtəlif sosial qrupları və ictimai birlikləri siyasi həyatda iştirak etməyə, siyasi fəallığa təhrik edən, ümumiyyətlə, bütöv halda bu qrupların və birliklərin özləri deyil, məhz, onların ayrı-ayrı konkret üzvləridir, fəallarıdır, liderləridir. Hər hansı bir kollektivin cəmiyyətə münasibətinin

* Л.П.Борисов. Политология. М.,1996. Сящ.9.



mahiyyəti məhz, onu təmsil edən adamların əməli, məqsədyönlü fəaliyyətində təzahür edir. Obrazlı desək, kollektivdən cəmiyyətə gedən **siyasi yol** ilk növbədə şəxsiyyətdən başlanır. Obyektiv siyasi reallıq və subyektiv siyasi fəaliyyət baxımdan siyasətin subyektlərini «dərəcələrə» ayırmaq ədalətli deyil. Siyasətin subyektləri bir-biri ilə qarşılıqlı təsirə malikdir. Bu təsir siyasi sistemin və siyasi rejimin tipləri ilə bağlıdır. Bununla yanaşı bəzi ümumi cəhətlər də mövcuddur. Əvvəla, siyasətin ilkin subyekti son nəticədə subyektlərin digər səviyyələrini müəyyənləşdirir (ikinci, üçüncü subyektləri). İkincisi, siyasi təsisatlar, təşkilatlar, liderlər, ayrı-ayrı şəxslər o halda siyasətin subyekti kimi səciyyələnir ki, məhz, xalqın, sosial qrupun ümumi mənafeyinin təmsilçisi kimi çıxış edirlər. Üçüncüsü, partiyalar əhalinin müəyyən təbəqələrinin mənafeyini siyasi proqramlarında və praktiki fəaliyyətində təmərgüzləşmiş şəkildə ifadə və müdafiə edirlər. Nəhayət, siyasi liderlər gütlələr və partiyalar tərəfindən bu şərtlə qiymətləndirilir ki, müvafiq qərarlarla onların mənafeyini və iradəsini əks etdirirlər.

Siyasətin subyekti probleminin araşdırılmasında çətinlik törədən cəhətlərdən biri hələlik politoloji ədəbiyyatda siyasət, siyasi hakimiyyət və qeyri-siyasi hakimiyyətin nisbətinin dəqiq müəyyənləşdirilməməsidir. Siyasi həyat siyasətin subyektlərinin sistemli qarşılıqlı təciri kimi səciyyələnir. Bu subyektlərdən hər biri müəyyən siyasi şəraitdə nəinki subyekt, həm də obyekt kimi çıxış edir. Siyasətin subyekti yalnız kollektiv halda deyil, fərdi şəkildə də təzahür edə bilər.

Şəxsiyyətin siyasi subyektliyinin mühüm şərtlərindən biri onun digər adamlarla qarşılıqlı fəaliyyətidir. Siyasətə təklikdə təsir göstərməyə çalışan hər hansı şəxsi siyasi münasibətlərin subyekti kimi təsəvvür etmək çətindir, əl-

bəttə, terrorçuluq fəaliyyətini və digər zorakılıq hərəkətlərini nəzərə almamaq şərtilə. Hakimiyyət səlahiyyətlərinə, funksiyalarına və müvafiq hüquqlara malik olmayan adam siyasətin əsl subyekti ola bilməz.

Cəmiyyətin siyasi həyatında şəxsiyyətin fəal iştirakı çoxplanlı əhəmiyyət daşıyır. Əvvəla, siyasi həyatda fəal iştirak etmək vasitəsilə insanın bütün imkanlarının üzə çıxması üçün əlverişli şərait yaranır, yaradıcı surətdə özünütəsdiqi təmin olunur. Bu cəhət isə öz növbəsində ictimai vəzifələrin daha səmərəli həlli üçün zəruri zəmin yaradır. Cəmiyyət həyatının bütün tərəflərinin keyfiyyətcə yenidən qurulması insan amilinin hərtərəfli intensivləşdirilməsini, xalq kütlələrinin bu prosesdə fəal və şüurlu iştirakını nəzərdə tutur. Yeri gəlmişkən qeyd edək ki, xalq ictimai həyatın, xüsusilə, siyasi həyatın yeniləşməsində həm siyasi, həm də sosial subyekt kimi çıxış edir. Belə halda xalq şübhəsiz, hakimiyyətin başlıca mənbəyi kimi səciyyələnir. Heç də təsadüfi deyil ki, bəzi ölkələrin, o cümlədən Azərbaycan Respublikasının kostitusiyasında xalq dövlət hakimiyyətinin yeganə mənbəyi kimi təsbit olunmuşdur. Azərbaycan Respublikasının «xalq hakimiyyəti» adlanan ilk fəslinin birinci maddəsində deyilir: «Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır».

İkincisi, siyasətin subyekti kimi insanın ümumi inkişafı siyasi təsisatlarla vətəndaş cəmiyyətinin sıx əlaqəsi, xalqın siyasət-idarəetmə strukturlarına nəzarət etməsi və s. üçün zəruri şərtdir. Məlum olduğu kimi, rəhbərlikdə inzibati-amirlik üsulu, avtoritar metodlar adamları hakimiyyətdən uzaqlaşdırır, xalqı idarəetmə aparatından ayırır. Əlbəttə, iqtisadiyyatın ekstensiv inkişaf rolu nə qədər səmərəli deyilsə, həmin üsul da bir o qədər səmərəli deyildir. Üçüncüsü,



cəmiyyət demokratiyanın inkişafı vasitəsilə öz üzvlərinin dövlət işlərinin idarə olunmasında iştirakı tələbatını təmin edir. Demokratik siyasi proseslərdə iştirak etmək insanın özünütəsdiqi, ünsiyyət mədəniyyətinin formalaşması, idarəetmə vərdişlərinin təşəkkülü üsulu kimi səciyyələnir.

Adamların siyasətdə geniş iştirakı xeyli dərəcədə onların öz siyasi fəaliyyətində rəhbər tutduğu motivlərlə (səbəblərlə) müəyyən olunur. Əlbəttə, belə motivlər ictimai mənafe baxımdan neqativ mahiyyət də daşıya bilər. Siyasi həyatda iştirak etməyi şərtləndirən müəyyən motivlərə dair elmi mülahizələr bugünkü politologiyanı çox maraqlandırır. Çünki həmin məsələ müasir politoloji ədəbiyyatda demək olar ki, öyrənilməmişdir.

Xarici ölkələrin politoloqları bu istiqamətdə müxtəlif mülahizələr yürüdürlər. Belə ki, məşhur Amerika politoloqu **Q.Lassuell** adamların müəyyən qismində hakimiyyətə can atmaq keyfiyyətinin mövcudluğunu nəzərə alaraq belə bir nəzəriyyə işləyib hazırlamışdır: insanın hakimiyyətə can atması özünü aşağı səviyyədə qiymətləndirməsidir. Çünki belə adamlar haki-miyyətin köməyi ilə özünə ucuz şöhrət, nüfuz qazandırmağa səy göstərir, şəxsi ləyaqətsizlik hissini örtbasdır etməyə çalışırlar. Bu fikir kifayət qədər yayılmış olsa da tədqiqatçılar tərəfindən birmənalı qarşılanmayıb. Lassuellin konsepsiyası ilə razılaşmayanlara da təsadüf olunur. Bəzi politoloqlara görə özünü aşağı səviyyədə qiymətləndirmək şəxsiyyətin siyasi proseslərə cəlb edilməsinə mane olur, onun fəal siyasi fəaliyyətinin genişlənməsi imkanlarını azaldır: Belə fikri daha çox **R.Sniderman** əsaslandırmağa cəhd edir. Hər iki politoloqun mülahizəsindən belə qənaətə gəlmək olar ki, şəxsiyyətin siyasi fəaliyyətinin motivləşməsi şəxsi, psixoloji keyfiyyətlərlə bağlıdır. Lakin siyasi həyatda iştirak etməyi

şərtləndirən motivlərə daha geniş və ümumi planda diqqət yetirilməsi məqsədəuyğundur. Siyasi elmə aid bəzi ədəbiyyatda göstərildiyi kimi, «dövlətin və cəmiyyətin idarə olunmasında, siyasi proseslərdə iştirak etmək əvvəla, vətəndaşın öz imkanlarını, ikincisi əxlaqi-siyasi vəzifələrini, üçüncüsü isə marağını (əxlaqi-siyasi və ya maddi) reallaşdırması hüququdur.»

Şəxsiyyətin siyasi proseslərə cəlb olunması üçün müəyyən zəmin lazımdır. Bu zəmin üç səviyyədə təzahür edir: maddi, sosial-mədəni və siyasi-hüquqi. Təcrübə təsdiqləyir ki, şəxsiyyətin normal siyasi fəaliyyətə qoşulması üçün ilk növbədə o, maddi cəhətdən təmin olunmalı, lazımi yaşayış-məişət şəraitinə yiyələnməlidir. Siyasi proseslərə «ac qarına» heç də hamı cəlb olunmur (siyasi fanatikləri nəzərə almırıq).

Xarici ölkələrdə politoloji tədqiqatlarda cəmiyyətin rifahı ilə onun siyasi sisteminin qarşılıqlı əlaqəsini əsasən üç aspektdə nəzərdən keçirirlər, əvvəla, kifayət qədər inandırıcı şəkildə əsaslandırırlar ki, cəmiyyət nə qədər varlı olarsa orada demokratik fəaliyyət formalarına yol bir o qədər açıqdır. Amerikanın ən görkəmli politoloqlarından biri olan **S.M.Lipset** cəmiyyətin maddi rifah halının başlıca göstəriciləri ilə onun siyasi rejimi arasındakı əlaqəni tədqiq etmək əsasında belə qənaətə gəlir ki, «xalq nə qədər firavan yaşasa demokratiyanı bir o qədər müdafiə edər.» Bu politoloq fikrini davam etdirərək yazır: «İqtisadi inkişafın bütün müxtəlif aspektləri-industriallaşdırma, urbanizasiya, rifah halı və təhsil bir-biri ilə elə bağlıdır ki, nəticə etibarilə yaratdıqları yeganə amil siyasi planda demokratiyaya uyğun gəlir.» İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sayına və təsirinə görə başlıca siyasi qruplar nə son dərəcə kasıb, nə də həddən artıq varlı adamları təmsil etmir. Əksinə, mülkiyyətə görə qütbləşmə aradan qalxır, qüvvətli orta təbəqə yaranır. Bu təbəqə isə cəmiyyətdəki vəziyyətinə və obyektiv mənafeyinə görə demokratik rejimin dayağı hesab olunur.



İkincisi, maddi rifahın səviyyəsi insanın siyasi inamına və fəaliyyət yönümünə nəzərə çarpacaq dərəcədə təsir göstərir. S.M.Lipset belə nəticəyə gəlir ki, «maddi baxımdan daha çox təmin olunan adamlar daha liberaldırsa, kasıblar daha dözülməzdir.» Onun qeyd etdiyinə görə bir sıra ölkələrdə ictimai rəyin öyrənilməsinə dair göstəricilər təsdiqləyir ki, öz vəziyyəti etibarilə daha aşağı siniflər orta və yüksək siniflərlə müqayisədə demokratiyaya az meyllidir.

Üçüncüsü, milli rifah halının kifayət qədər yüksək səviyyədə olması səriştəli vətəndaşlıq xidmətinin, peşəkar cəhətdən hazırlıqlı idarəetmə kadrları toplusunun formalaşmasının zəruri bazasıdır.

Şəxsiyyətin siyasi görüşlərinin təşəkkülündə, onun siyasi fəaliyyətin subyekti kimi formalaşmasında sosial mühit əhəmiyyətli rol oynayır. Bu mənada **R.Davsonla** razılaşmaq olar ki, «gənclərin ənənəvi katolik kəndində, siyasi cəhətdən fəal universitetlərdə və ya proletar kəndində əldə etdikləri siyasi yetkinliyin müxtəlifliyi bunda ifadə olunur ki, həmin yetkinlik siyasət aləmində özünə necə yer tutur və ya necə qiymətləndirilir.»

Politoloqların çoxunun fikrincə şəxsiyyətin siyasi şüuruna və davranışına təhsil daha güclü təsir göstərir. Xarici ölkələrin politologiyasında bu ideya birmənalı qiymətləndirilir: İnsanın təhsil səviyyəsi nə qədər yüksək olarsa onun siyasi fəaliyyət yönümü bir o qədər sanballı olar. Hələ antik dövrdə **Diogen** təhsilin əhəmiyyətini müxtəlif təbəqələrlə əlaqələndirərək yazırdı: «Təhsil cavanlara ka-

**mal**, qocalara təsəlli, kasıblara dövlət, varlılara isə yaraşıq verir».

İctimai həyatın bütün sferalarında, xüsusilə, siyasi həyatda təhsilin əhəmiyyətli rolu danılmazdır. O, mənəvi mədəniyyətin ünsürləri sırasında xüsusi yer tutur. Təhsil adamların yüksək mədəni səviyyəyə yiyələnməsi və tarixi-mənəvi prosesləri düzgün izləmək üçün ilkin şərtdir. Sözün geniş mənasında təhsilin məqsədi təbiətin, cəmiyyətin, insan idrakının və davranışının qanunları haqqında elmi bilikləri yaymaq və mənimsətməkdir. Təhsil təbiət hadisələrini və ictimai hadisələri, onların əlaqələrini və inkişaf meyllərini dərk etməyə yardım göstərir.

Məlum olduğu kimi, sosial əhəmiyyətli ünsiyyət mədəniyyətinin formalaşması, insanın öz xalqına bağlılığı və müəyyən şəraitdə necə hərəkət etməsi, başqaları ilə öz münasibətlərini sağlam tərzdə tənzimləməsi ən əvvəl, onun əxlaqi səviyyəsi ilə müəyyən olunur. Lakin burada təhsilin özünəməxsus tərbiyəvi təsirini unutmaq olmaz. Təcrübə dönə-dönə təsdiqləyir ki, ictimai cəhətdən ədalətli tələbləri ifadə edən mənəvi-əxlaqi normaların şəxsiyyət tərəfindən mənimsənilməsi xeyli dərəcədə təhsil səviyyəsi ilə şərtlənir. Təhsil adamların öz xalqının təbii və mənəvi sərvətlərinə vicdanlı ictimai tələbatını doğurur, şəxsiyyətin milli-siyasi marağının yüksəlməsi perspektivinə əhəmiyyətli təsir göstərir, onun fəaliyyət xarakterini nəcibləşdirir, ictimai həyatın bütün sferalarının və təbii ki, siyasi həyatın keyfiyyətcə yeniləşməsində böyük rol oynayır, bir sözlə, sosial tərəqqini, mütərəqqi proseslərin sürətlənməsini şərtləndirir.

Lakin bu heç də o demək deyil ki, bütün təhsilli adamlar həm də dərin əxlaqi düşüncə tərzinə, yüksək siyasi təfəkkürə malikdir. Təhsil özlüyündə mənəvi-əxlaqi ləyaqətin, siyasi təfəkkür mədəniyyətinin meyarı və göstəricisi



deyil. İnsanın təhsil ocağlarında, şəxsi təhsil yolu ilə mənimsədiyi biliklər uğurlu, faydalı fəaliyyətə, xalqına, insanlara xidmət etməyə istiqamətlənmirsə, o yetkin vətəndaş səviyyəsinə yüksələ bilməz. Təhsilin neqativ nəticələr də doğurduğunu nəzərə alan ABŞ prezidenti **Tedor Ruzvelt** (1901-1909-cu illər) obrazlı şəkildə, lakin düzgün olaraq qeyd edirdi ki, «ibtidai təhsili olmayan oğru dəmir yolu vaqonundan nə isə bir şey oğurlaya bilər. Universitet təhsilli oğru isə bütün dəmir yolunu oğurlayar». Amerika politoloqlarının çoxu siyasi həyatın inkişafında təhsilin roluna xüsusi diqqət yetirirlər. Məsələn, **V.Key** ABŞ-da aparılan tədqiqatların göstəricilərini ümumiləşdirərək vətəndaşların siyasi rolunda təhsil səviyyəsinin dörd istiqamətini üzə çıxarır: 1)Siyasi həyatda iştirak etməyə yüksək səviyyədə inkişaf etmiş tələbat hissi mükəmməl təhsilə yiyələnən adamlarda nəzərə çarpır. 2)Daha çox təhsil almış adamlar siyasi həyatda iştirak etməyin səmərəliliyinə dərindən inanırlar. Belə səmərəliyi siyasi proseslərə təsir etməklə siyasi hakimiyyətə gəlməkdə görürlər. 3)Yüksək təhsil səviyyəsinə malik olan şəxslər siyasətlə daha çox maraqlanır və ona cəlb olunurlar. 4)Təhsil belə bir ehtimal yaradır ki, vətəndaş siyasi cəhətdən fəal ola bilər.

Amerika politoloqları **Almond** və **Verbanın** «Vətəndaş mədəniyyəti» (1963) adlı birgə yazdıqları əsərdə dünyanın beş ölkəsində (ABŞ, İngiltərə, Almaniya, İtaliya və Meksika) aparılan müqayisəli empirik tədqiqatlar əsasında belə qənaətə gəlinir ki, təhsil insanın siyasi şüuruna və davranışına ciddi təsir göstərir. Həmin politoloqlar hər şeydən əvvəl, belə bir cəhəti qeyd edirlər ki, yüksək təhsil səviyyəsinə malik olan şəxsiyyət hökumətin fərdlərə təsirini daha yaxşı dərk edir, siyasi cəhətdən daha məlumatlıdır

və o, daha geniş siyasi məsələlərə dair öz rəyini bildirməyə qadirdir.

Siyasətdə fəal iştirak etməyə siyasi-hüquqi amillər mühüm zəmin yaradır. Həmin amillərə demokratik siyasi rejim, cəmiyyətdə demokratik siyasi mədəniyyətin hakim yer tutması, hakimiyyətin bütün strukturlarının demokratik əsasda formalaşmasına hüquqi təminat, siyasət-idarəetmə qərarlarının qəbulu və reallaşması, cəmiyyət üzvlərinin siyasi proseslərin bütün mərhələlərində iştirakı daxildir.

Ümumiyyətlə, şəxsiyyətin siyasətin subyekti kimi təşəkkülü insanın sosial cəhətdən tədricən yetkinləşməsi və onun siyasi sosiallaşması prosesində baş verir.

Siyasətin subyekti olmaq etibarilə şəxsiyyətin siyasi fəaliyyəti **bilavasitə və ya vasitəli (dolayı yolla)** səviyyələrdə həyata keçirilir. Dövlətin və cəmiyyətin mühüm məsələlərinin həllində vətəndaşların bilavasitə iştirakı **birbaşa demokratiya** kimi səciyyələnir. Belə iştirak etmə formalarına seçkilər, referendumlar və s. daxildir. Siyasətdə vasitəli iştirak isə vətəndaşların seçdikləri orqanlar (parlament, yerli hakimiyyət orqanları, ictimai-siyasi təşkilatların seçkili orqanları) vasitəsilə həyata keçirilir.

İnkişaf etmiş sivilizasiyalı cəmiyyətdə vətəndaşların ictimai həyatın bütün sferalarının idarə olunmasında iştirakı lazımi səviyyədə təmin olunur. Sosial demokratiya spesifik həyat tərzi olmaqla cəmiyyət üzvlərinin sosial cəhətdən bərabərliyinə, xüsusilə, vətəndaşlıq statusuna təminat verir.

### 5.4. Şəxsiyyətin əxlaqi mədəniyyətinin siyasətdə təzahürü

Əxlaqın kollektiv, ümumbəşəri xarakteri, əxlaqi sərvətlərin şəxsiyyətdaxili və mənəvi-psixoloji mexanizminin təsir xüsusiyyətləri, eləcə də onun cəmiyyətdə insanın fəa-



liyyətini və davranışını humanistcəsinə tənzimləməsi əxlaqla siyasətin qarşılıqlı münasibətlərini obyektiv surətdə şərtləndirir. Həm əxlaq, həm də siyasət cəmiyyətin təşkiledici, tənzimləyici və nəzarətedici sferalarıdır, lakin onların cəmiyyətdə mövcudluğu və fəaliyyəti bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Şəxsiyyətin əxlaqi mədəniyyətinin siyasətdə təzahürünü açıqlamaq məqsədilə ilk öncə əxlaqla siyasətin fərqli və ümumi cəhətlərinə diqqət yetirilməlidir.

Əxlaq digər nəzarətedici, təşkilati sferalardan, məsələn, hakimiyyətdən, siyasətdən fərqli olaraq əşya formalarına malik deyildir, idarəetmə aparatında, hakimiyyət təsisatlarında maddiləşmir, əlaqə vasitələrindən məhrumdur. O, məhz, dildə və nitqdə, digər ictimai hadisələrin əlamətlərində və xassələrində obyektivləşir. Bununla belə əxlaq siyasətin mahiyyətini və bütün fenomenlərini əhatə edir. Əxlaqa xas olan bu xüsusiyyət onu siyasi etikadan xeyli fərqləndirir. Əxlaq bu və ya başqa formada siyasi fəaliyyəti səciyyələndirsə də özü həmin fəaliyyətdən kənarda dayanır, onunla yalnız müəyyən münasibətdə olur. Etika isə əksinə, siyasətdə iştirak edir, onu istiqamətləndirən başlanğıc hadisələrdən biri kimi səciyyələnir və buna görə etika siyasətdən ayrılmazdır.

Siyasi sferaya aid olan hər hansı siyasi fəlsəfə və normativ nəzəriyyə bu və ya başqa formada siyasi etikanın və əxlaq haqqında təlimin qoyduğu suallara cavab axtarmaqla əlaqədardır. Siyasi etikanın başlıca problemlərinin tədqiqinə hələ qədim Yunanıstanda **Antiqon Sofokl** tərəfindən xüsusi diqqət yetirilmişdir.

İctimai həyatın bu iki sferası eyni mənbədən təşəkkül tapır. Başqa sözlə, insana xas olan fərdiyyətçilik, xüsusi keyfiyyətlər və eləcə də onun kollektivçilik təbiəti, başqaları ilə qarşılıqlı münasibəti əxlaqla siyasətin vəhdətini şərtləndirir.

Əxlaq insanı təhlükəli hallardan qoruyu:, fərdlə cəmiyyət arasındakı ziddiyyətlərin həllinə imkan yaradır. Bəşər sivilisaziyasının başlanğıcında kiçik insan kollektivləri (tayfa, qəbilə) müxtəlif adət-ənənələrin köməyilə adamlar arasındakı qarşılıqlı münasibətləri siyasətsiz də tənzimləyə bilərdi. Belə şəraitdə qeyri-siyasi tənzimləmənin üstünlük təşkil etməsi cəmiyyətdə sosial bərabərliyin mühüm amili idi. Tayfa, qəbilə mühitində sosial münaqişələrin aşağı səviyyədə olması da bundan irəli gəlirdi. İlk sosial birliklərin təşəkkül tapdığı vaxt adamların davranışının tənzimlənməsi təbii ki, lazımı səviyyədə ola bilməzdi. İstehsalın inkişafı və əmək bölgüsünün dərinləşməsi, sosial münaqişələrin kəskinləşməsi və eləcə də adamların qarşılıqlı fəaliyyət for-malarının mürəkkəbləşməsi, sosial nəzarətin köhnə ənənəvi formalarının zəifləməsi nəticə etibarilə xüsusi təsisat və fəaliyyət növü kimi siyasətin yaranmasına gətirib çıxardı. Bu sosial fenomen xüsusi məcburetmə aparatının köməyilə adamların davranışını tənzimləyən spesifik vasitəyə çevrildi.

Göründüyü kimi, əxlaq və siyasətin başlıca ictimai funksiyaları bir-birinə uyğundur. Əxlaqla siyasətin təbii-tarixi «qohumluğu» təsadüfi deyil. Siyasət və əxlaq cəmiyyətdə ümumi rifahın və sosial ədalətin qərarlaşmasına istiqamətlənən ictimai hadisədir. Siyasət əxlaqın adamların davranışını, qarşılıqlı münasibətlərini kifayət dərəcədə tənzimləyə bilməməsi nəticəsində yaranır. Siyasət əxlaqın spesifik formada tamamlanmasıdır.* Siyasətlə əxlaqın bir-birindən ayrılığını ilk dəfə XVəsrin sonu XVI əsrin əvvəlində Nikkolo Makiavelli əsaslandırmışdır.

Əxlaqla siyasətin ümumi cəhətlər kəsb etməsinə baxmayaraq bunlar bir-birindən prinsipial surətdə fərqlənir.

* В.П.Пугачев, А.И.Соловьев. Введение политологию. Səh.41.



Əxlaqla siyasəti fərqləndirən başlıca xüsusiyyət siyasətin münaqişəli təbiətə malik olmasıdır. Əxlaq isə insanlar arasında gündəlik fərdi münasibətlərlə səciyyələnir. Əxlaqın münaqişəli mahiyyət daşıması xüsusi hallarda nəzərə çarpır. Siyasətin bilavasitə mənbəyi kimi iqtisadi və digər zəruri mənafelər çıxış edir. Əxlaqın mənbəyi isə ümumbəşəri və kollektiv sərvətlərdir, digər dəyərlərdir.

Əxlaqi imperativlər mücərrəd-normativ xarakter daşıdığı halda, əxlaqi tələblər konkretlik kəsb edir. Siyasət müxtəlif vasitələrlə müəyyən məqsədlərin reallaşmasına istiqamətlənir. Əxlaq siyasətdən fərqli olaraq insanın hərəkətlərinin, davranışının subyektiv, daxili tərəfinin qiymətləndirilməsidir.* Siyasət üçün başlıca olaraq əldə olunan nəticələr əhəmiyyət daşıyırsa, əxlaqı davranışın özü, buna sövq edən vasitə və məqsədlər daha çox səciyyələndirir. Əxlaq həmişə fərdi mahiyyətə malik olmaqla onun subyektini məhz, ayrı-ayrı fərdəlr təşkil edir. Siyasət isə əksinə kollektiv xarakter daşıyır. Siyasəti fərqləndirən ən mühüm xüsusiyyət onun gücə arxalanmasıdır, məcburetməyə üstünlük verməsidir. **M.Veber** yazır: «Siyasət spesifik vasitənin – hakimiyyətin köməyilə zorakılıqdan istifadə etməsi ilə fərqlənir».** Əxlaq isə prinsip etibarilə zorakılığı pisləyir və başlıca olaraq vicdanın «hökmünə» əsaslanır. Vicdan isə təkcə əxlaqi kateqoriya deyil, həm də sosial keyfiyyətdir.

Vicdanın mahiyyəti bunda ifadə olunur ki, insan öz davranışını ictimai borcun, əxlaqi idealın tələblərinə uyğunlaşdırır, özünü daxilən qiymətləndirməsi əsasında fəaliyyətini və hərəkətlərini tənzimləyir. Vicdan dərin intim hiss olub, şəxsiyyətin öz davranışı üçün başqaları və cəmiyyət qarşısında əxlaqi məsuliyyətini, mənəvi ləyaqətini ifadə

* Гаджиев К.С. и др. Философия власти. М.,1993. Səh.15-17.
** Вебер М. Избранные произведения (пер. с нем), М., 1990. Səh.694.

edir. Hər bir şəxs kollektivin, başqalarının və bütövlükdə xalqın taleyi üçün öz fəaliyətini, hərəkətlərini «vicdanının səsi ilə» idarə etməyə ciddi tələbat duymalıdır. Müdrik adamlardan biri çox gözəl demişdir: «Mən şəxsi vicdanımın sakit səsindən dəhşətli məhkəmə tanımıram». Vicdan cəmiyyətin mənəvi həyatının ideallarının müəyyən cəhətlərini özündə ehtiva edir. Şübhəsiz, vicdan həm anadangəlmə keyfiyyətdir, həm də insanın biliyindən, düşüncə qabiliyyətindən və həyat tərzindən asılıdır. Siyasi elmə dair ədəbiyyatda siyasi və etik təlimlər tarixinə əsaslanaraq əxlaqla siyasətin qarşılıqlı münasibətlərinin üç başlıca cəhəti araşdırılır: 1) Əxlaqın siyasətə tam tabe olması; 2) Siyasətlə əxlaq arasında tam ayrılığın mövcudluğu; 3) Siyasətlə əxlaqın gərgin qarşılıqlı əlaqələrinin saxlanmasına cəhd etmək.* Mülahizə və hərəkətlərin ədalətli olması ənənəvi olaraq əxlaqiliyin ən mühüm meyarlarından biri kimi etiraf olunur. Bu prinsip təkcə siyasi və etik təlimlərdə deyil, həm də dini görüşlərdə öz ifadəsini tapır. Məsələn, orta əsrlərdəki ədalətə **xristianlıq fəlsəfəsi** siyasətin əxlaqiliyinin əsası və meyarı kimi baxır. Şübhəsiz, **islam dini** də əxlaqla siyasətin qarşılıqlı münasibətinə bu nəcib prinsip mövqeyindən yanaşır.

Siyasi fikir tarixində bir-biri ilə sıx bağlı olan «ədalət» və «bərabərlik» kateqoriyalarının məzmununa mühüm diqqət yetirilmişdir. Məsələn, **Aristotel** bölüşdürücü və bərabərləşdirici ədalətin mövcudluğunu iddia edir. Onun fikrincə, bölüşdürücü ədalət həndəsi və ya proporsional bərabərliyə, bərabərləşdirici ədalət isə ədəd, hesab bərabərliyinə əsaslanır. Ədalətin məzmununu təşkil edən bu hər iki ünsür bir-biri ilə münaqişəyə girməyə qadirdir. Siyasət sferasında

* Политология: Энциклопедический словарь. Səh.185



münaqişənin artması ədalətin həqiqətən və həm də formal cəhətdən müəyyənləşdirilməsi ilə şərtlənir. Ədalət haqqında həqiqi, dolğun təsəvvürlər tarixi dəyişikliyə uğramışdır. Belə bir sual ortaya çıxır: əgər ədalət siyasi fəaliyyətin və siyasi vəziyyətin miqyası kimi çıxış edirsə, onda ədalətin miqyası nədən ibarət olmalıdır.

Antik Avropa təfəkkür tərzi əxlaq və siyasət arasındakı qarşılıqlı münasibətin yuxarıda qeyd etdiyimiz üçüncü cəhətinə — onların arasındakı gərgin vəziyyətin tədqiqinə əhəmiyyətli dərəcədə diqqət yetirmişdir. Maraqlıdır ki, Aristotel yaxşı adamla yaxşı vətəndaş arasındakı fərqlərin müəyyənləşdirilməsinə səy göstərir. Aristoteldən sonrakı mütəfəkkirlər də əxlaq aləmi ilə siyasət sferasının bir-birinə uyğun gəlmədiyini qeyd edirlər. Orta əsrlərin siyasi fikrində isə belə bir cəhət vurğulanır ki, əxlaqla siyasət qarşılıqlı tabelik kəsb edir. Bu fikri daha çox **Avqustin** və **M.Lüter** əsaslandırmağa cəhd göstərirlər.

Yeni dövrün başlanğıcında siyasət və əxlaq arasındakı qarşılıqlı münasibətlərdə müəyyən uyğunsuzluq meydana çıxır. Bu ayrılığı dövlət mənafeyi anlayışı ilə əlaqələndirirlər. Siyasətlə əxlaq arasındakı uyğunsuzluğun üzə çıxarılması Makiavellinin adı ilə bağlansa da o, dövlət mənafeyi anlayışını işlətməmişdir. Axı, dövlət mənafeyi ümumi anlayış olmaqla çox şeyi əhatə edir. Əksinə, bütün xüsusi mənafelər **partikulyar mənafeyə** aiddir.

Alman idealist fəlsəfəsi dövlət mənfəəti ehtimalından (və ya ideyasından) çıxış edərək dövləti mənəviyyat şəklində hipozlaşdırır. **Hegel** «Hüquq fəlsəfəsi» əsərində yazır ki, «yaxın vaxtlaradək əxlaqla siyasətin bir-birinə əks olması barədə ciddi müzakirələr diqqəti cəlb etmiş və belə fikir formalaşmışdır ki, siyasət əxlaqa uyğun gəlməlidir. Siyasətin həmişə əxlaqla bir yerdə olmasına dair bu xə-

yalpərəst rəy əxlaqilik haqqında, dövlət haqqında və onun əxlaqi görüşlərə münasibəti barədə təsəvvürlərə üstünlük verilməsidir.» Ümumiyyətlə, əxlaqla siyasətin qarşılıqlı təsirinə və münasibətlərinə dair bir-birinə zidd və ya uyğun gələn müxtəlif mülahizələrə bu gün də təsadüf olunur. Politoloji ədəbiyyatda öz əksini tapan belə səciyyəli fikirlər siyasi fikir tarixinin daha da zənginləşməsinə xidmət edir. Bu baxımdan müasir siyasi elm M.Veberə daha çox minnətdar olmalıdır. Maraqlıdır ki, o, siyasətdə zorakılığın tətbiqinin legitimləşdiril-məsini (qeyri-əxlaqiliyi) suveren dövlətlərin hüquqi fəaliyyəti kimi araşdırır.

Qeyd etmək lazımdır ki, bir-birinə münasibətdə əxlaq və siyasət muxtar xarakter daşıyır. Əxlaqi mədəniyyət müəyyən situasiyada şəxsiyyət üçün heç bir xüsusi və yaxın nəticələrin əldə olunmasını nəzərdə tutmur. Şəxsiyyətin əxlaqi mədəniyyəti hər şeydən əvvəl, davranışın ümumi normalarına və prinsiplərinə əməl edilməsini səciyyələndirir. Təsadüfi şəraitdən asılı olaraq ayrı-ayrı hallarda davranışın praktiki nəticələri müxtəlif ola bilər. Ümumsosial miqyasda əxlaqi normaların bütün məcmuunun yerinə yetirilməsi bütövlükdə əxlaqi mədəniyyət bu və ya digər ictimai tələbata cavab verir. Buna görə əxlaqi normaların ifadə formaları xarici məqsədə uyğunluq prinsipi deyil (müəyyən nəticələrin əldə olunmasına istiqamətlənmir), məhz, elə imperativ tələbatdır ki, insan özünün ən müxtəlif məqsədlərini həyata keçirərkən buna riayət etməlidir. Əxlaqi mədəniyyət və normalar insanın və cəmiyyətin tələbatını müəyyən xüsusi şərait və situasiya hüdudunda əks etdirmir. Bununla belə əxlaqi qiymətləndirmə situasiyalı meyardır. Siyasət adamların birgə həyatını və fəaliyyətini təşkil edir, cəmiyyətin həyatını tənzimləyir və ona nəzarət edir. Əxlaq da belə funksiyalara malikdir, lakin o, həm də siyasətə



nəzarət edir. Etikadan fərqli olaraq əxlaq siyasətdən kənarda və onun üzərində dayanır. Məhz, buna görə onların birləşməsi bir o qədər mürəkkəb və qeyri-sabit olur.

Siyasət əxlaqa nəzarət etməsə də konkret siyasi hərəkətlərin spesifik əxlaqına təsir göstərə bilər. O, ideal əxlaqi şüurdan fərqli olaraq konkret situasiya xarakteri daşıyır, bu və ya digər ictimai, siyasi, eləcə də etik və əxlaqi şərait yaradır. Əxlaq yüksək meyar baxımdan mütləq norma kimi qiymətləndirilir. Nisbi situasiyalı meyar və ya ayrıca mədəniyyət, cəmiyyət nöqteyi-nəzərdən siyasətin əxlaqi cəhətdən qiymətləndirilməsi, bu qiymətləndirməni hər cür digər qiymətləndirmə ilə müqayisəedilməz səviyyəyə qaldırır. Siyasətdə və əxlaqda «yaxşı»-»pis» anlayışları müxtəlif məna daşıyır.

Şəxsiyyətin əxlaqi mədəniyyətini səciyyələndirən əxlaqi borc normaları və siyasətdə borc haqqında təsəvvürlərin özü də birmənalı və ziddiyyətsiz deyildir. **Əxlaq mədəniyyət sferasında borc yüksək prinsip, mənəviyyatın meyarı hesab olunursa, siyasətdə borc arzu edilən nəticələrin əldə olunmasıdır.** Buradan **Makiavellinin** belə bir dilemması meydana çıxır: hər hansı siyasi məqsədlərin əldə edilməsi ilə siyasi borcun həyata keçirilməsi vasitələrinin və ya siyasi nəticələrin əxlaqi borc kimi qiymətləndirilməsinin nisbəti necə olmalıdır? Başqa sözlə, belə düşünməyə əsas var ki, həmin nəticələr qeyri-əxlaqi metodlarla əldə oluna bilər. Elə Makiavellinin öz fikrini xatırlatmaq yerinə düşər: xalq demokratiya şəraitində yaşamağa qabil deyildir, **intizamlı cəmiyyət yaratmaq və siyasi vəzifələri həll etmək məqsədilə güclü hakimiyyət lazımdır.** Əgər siyasi borc əxlaqi normalara uyğun gəlməklə məhdudlaşırsa siyasətin həyata keçirilməsi siyasi nəticələr doğurmur, başqa sözlə, siyasi borc həyata keçirilmir, istər-istəməz siyasət üçün eyni

vaxtda iki borc mövcud olur. Bunlardan birinin icrası zamanı siyasət alınmır, digərinin icra edildiyi vaxt isə əxlaqa yer qalmır. Eyni vaxtda hər iki borca əməl etmək isə mümkün deyildir. Onlardan yalnız birini seçmək lazımdır. Təbii ki, siyasətçi ilk növbədə siyasətə üstünlük verir. Belə halda onun icra etdiyi siyasi borc özlüyündə əxlaqi mahiyyət kəsb edir və etik cəhətdən əsaslandırılmış olur. Başqa sözlə, şəxsiyyətin əxlaqi mədəniyyətinin siyasətdə təzahürü reallaşır.

Siyasəti belə bir nəticə çıxarılmasına istiqamətləndirməmək üçün əxlaqla siyasətin münasibətləri çərçivəsindən kənara çıxmaq lazımdır. Başqa sözlə, bu münasibətlərə qeyri-siyasi və qeyri-əxlaqi amillərin nüfuz etməsi, əxlaqla siyasət arasındakı qarşılıqlı münasibətlərdə ziddiyyətlərin azadılması daha məqsədəuyğundur. Əxlaq və siyasət muxtar xarakter daşısa da əxlaq siyasəti, nəzarətsiz siyasi fəaliyyət azadlığını məhdudlaşdırır.

Siyasi fikir tarixində siyasəti cəmiyyətin digər təşkilati və tənzimləyici sistemlərindən təcrid etmək cəhdləri həmişə səmərəsiz olmuşdur. Siyasət ideologiya, hüquq, iqtisadiyyat, mədəniyyət və elmlə bağlı olduğu kimi, əxlaqla da qarşılıqlı əlaqəyə malik olmalıdır. Cəmiyyətin iki başlıca sferası olmaq etibarilə siyasətlə əxlaqın qarşılıqlı münasibətləri, əxlaqi mədəniyyətin siyasətdə təzahürü ictimai inkişafın obyektiv tələbatıdır. Siyasətin və hakimiyyətin zəif yeri mənə-viyyat olduğuna görə onlar əxlaqdan və əxlaqi sərvətlərdən uzaqlaşmağa cəhd edir.

Sosial həyatda siyasətlə əxlaqın qarşılıqlı münasibəti elmi ədəbiyyatda dörd başlıca mövqedən qiymətləndirilir. Bunlardan birincisi **nəsihətçilik** mövqeyidir. Nəsihətçilik mövqeyinə görə siyasət nəinki yüksək əxlaqi məqsədlərə malik olmalıdır, həm də düzlük, adamlara nəcib münasibət, saflıq və digər bu kimi əxlaqi prinsiplərin pozulmasına yol



verməməlidir. Siyasətə nəsihətçi (əxlaqi) mövqedən yanaşma ictimai fikirdə yeni dövrə qədər hakim olmuş və XX əsrə qədər öz əhəmiyyətini itirməmişdir. Lakin həyat təsdiqləyir ki, siyasəti təmamilə əxlaqa tabe etdirmək cəhdləri səmərəsiz nəticələr verir, həm əxlaqı və həm də siyasəti nüfuzdan salır.

Siyasətlə əxlaqın qarşılıqlı münasibətinə dair ikinci mövqe isə onların muxtar xarakter daşıdığını ifadə etməklə bir-birinin səlahiyyətinə qarışmamasını nəzərdə tutur. Belə ki, əxlaq vətəndaş cəmiyyətinə aid olan işdir, şəxsi məsuliyyətdir, siyasət isə qrup mənafelərinin qarşıdurma sahəsidir, mənəviyyatdan azad olan sferadır. Çoxları belə hesab edir ki, siyasətlə əxlaqın bu cür münasibətinə dair ideya Makiavelliyə məxsusdur. O, **əxlaqı siyasətçilərin xüsusi həyatının tənzimləyicisi kimi əsaslandırır.** Əlbəttə, Makiavellinin siyasəti əxlaqdan tamamilə ayırmağa cəhd göstərməsi barədə mülahizələrlə razılaşmaq çətindir.

Əxlaqi mədəniyyətin siyasiliyini təhrif etmək siyasətin qeyri-əxlaqiliyinə dəlalət edir. Real həyatda siyasətin mənəviyyadan uzaq olması geniş yayılan hadisədir. Belə hal siyasətlə əxlaqın **barışmaz əksliklər** olmasını, başqa sözlə, əxlaqın xeyir, siyasətin isə şər kimi səciyyələndirilməsini əsaslandırmağa xidmət edir. Bu üçüncü nöqteyi-nəzər onların nisbətinə istiqamətlənir.

Anarxizmə görə siyasət ən neqativ hadisədir. Çünki onun təbiəti şərlə köklənir. Rus anarxizminin atası sayılan **M.A.Bakunin** yazırdı ki, siyasət və onun başlıca daşıyıcısı olan dövlət məhz, zorakılıqdır, zorakılıq vasitəsilə hökmranlıqdır.*

* Бакунин М.А. Государственность и анархия. Полн. соб. соч.т.2, 1907, Səh.27.

Siyasətlə əxlaqın münasibətinə dair dördüncü mövqe onların nisbətinə **kompromis** nöqteyi-nəzərdən yanaşılmasıdır. Müasir politoloqlar arasında bu mövqe daha geniş yayılmışdır. Həmin mövqe siyasətin spesifikliyini nəzərə almaqla əxlaqın mənəviyyata təsirinin zəruriliyindən çıxış edir.

Siyasət və əxlaqın nisbətinə **kompromis** mövqedən yanaşılmasını əsaslandıranlardan biri Veberdir. O, belə hesab edir ki, etika ilə siyasəti bir-birindən tamamilə ayırmağa cəhd etmək məqsədəuyğun deyildir, bununla belə siyasətin xüsusiyyətlərini diqqətlə nəzərə almaq lazımdır. Onun fikrincə etika siyasətin xüsusiyyətlərini, ilk növbədə onun zorakılıq tətbiq etmək cəhətini nəzərə almalıdır. «Məhz, zorakılığın legitimliyinin spesifik vasitəsi siyasətin bütün etik problemlərinin xüsusiyyətlərini şərtləndirir.» Siyasət peşəkar fəaliyyəti ilə şərə qarşı mübarizə aparmasa öz qələbəsi üçün məsuliyyət daşıyır. Veber hər şeydən əvvəl, zorakılıq vasitələrindən legitimcəsinə istifadə olunmasını siyasət üçün məqbul hesab edir, özü də mənəviyyatın siyasətə təsir imkanlarını məhdudlaşdırmaq şərtilə. Siyasətlə əxlaqın nisbətində siyasətə neqativ münasibət liberal mütəfəkkirlərin baxışlarında da diqqəti cəlb edir. Məşhur rus filosofu **N.Berdyayev** yazır: «Mən siyasətə nifrət edirəm, çünki o, bəşəri mövcudluğun obyektivləşməsi üçün ən mənhus formadır, adamlara hakim olan uydurmadan başqa bir şey deyildir».* Siyasətin əxlaqi tərəfi hüquqdan və ictimai nəzarətdən kənarda qalmamaladır. Əks təqdirdə siyasətdə mənəviyyatsızlıq qərarlaşa bilər. Əxlaqi tələblərin təsisatlaşdırılması onların siyasi təşkilatların normalarında və hər şeydən əvvəl, hüquqda möhkəmləndirilməsini nəzərdə tutur və əxlaqi prinsiplərin pozulmaması üçün müəyyən təminat verilməsini əks etdirir. Əxlaqın belə təsisatlaşdırılmış formada möhkəmləndirilməsi siyasətin humanistləşdirilməsinin ən mühüm şərtlərindən biridir.

* Бердяев Н.А. Самопознание. М.,1996 Səh.101.



«Alman politoloqu **B.Sutorun** qeyd etdiyi kimi, siyasətin humanistləşdirilməsi və mənəviyyatın möhkəmləndirilməsi üçün o quruluş yaxşı deyildir ki, öz vətəndaşlarının daha yüksək və ya hətta ən yüksək əxlaqi tələblərə yiyələnməsini məqsədəuyğun sayır, o quruluş yaxşıdır ki, hər şeydən əvvəl, insan xarakterinə cavab verir... və eyni zamanda adamların hüquq və iradəsi üçün maksimum imkanlar açır, onların xeyirxahlıq qabiliyyəti naminə özünü inkişaf etdirməsini həyata keçirir.»*

Siyasi təsisatlar öz səmərəliyi üçün müqəddəs, əxlaqi cəhətdən kamil adamlara deyil, məhz, adi vətəndaşlara üz çevirməlidir. Həmin təsisatlar adi adamların mənafelərinin ifadə olunmasına, hüquqlarının müdafiə olunmasına və vəzifələrinin yerinə yetirilməsinə imkan yaratmalıdır, onları hamı üçün məqbul olan «oyun qaydalarının», dövlət qanunlarının gözlənilməsinə təhrik etməlidir.

Müasir dünyada əxlaqi tələblərin siyasətə təsisatlaşdırılmış başlıca istiqaməti insan hüquqlarıdır. Dünya birliyi tərəfindən qəbul olunmuş sənədlərə uyğun olaraq insan hüquqları siyasətin humanistliyini qiymətləndirməyin universal meyarı kimi çıxış edir.

Bütövlükdə şəxsiyyətin mədəniyyətinin əxlaqın siyasətə təsiri bir sıra istiqamətlərdə həyata keçirilməlidir və keçirilə bilər. Bu istaqamətlər əxlaqi məqsədlərin qoyuluşunda bunlara uyğun olan real metodlar və vasitələr şəraətinin seçilməsindən, əxlaqi prinsiplərin fəaliyyəti prosesini nəzərə

* Сутор Б. Политическая этика. Полис. 19936 №1.Səh.68.

almaqdan, siyasətin səmərəliliyini təmin etməkdən ibarətdir. Əlbəttə, bütün bu tələblərin real siyasətdə yerinə yetirilməsi mürəkkəb məsələdir. Praktikada əxlaqi tələblərin humanistliyi məqsədlərin təntənəsindən çox, onlara nail olmaq prosesində istifadə olunan metod və vasitələrdən asılıdır. Bir sözlə, siyasətin əxlaqiliyi onun müqəddəsliyinin təcəssümüdür.

Siyasi fəaliyyətin strukturu hər şeydən əvvəl, bununla səciyyələnir ki, onun daşıyıcıları siyasi mənəviyyatına görə fərqlənir. Məsələn, qrup əxlaqı və qrupda əxlaqi münasibətlər fərdin əxlaqından, əxlaqi mədəniyyətindən mürəkkəbdir. Buna görə əxlaqi cəhətdən qüsursus fərd ola bilsin ki, istər-istəməz qrupun qeyri-əxlaqi siyasətində iştirak etsin. Başqa sözlə, belə fərd siyasi təsisatın, partiya təşkilatının, hakimiyyət orqanının, ordunun və sairənin fəaliyyətinə cəlb oluna bilər. Buradan da ikiqat əxlaqın-qrup və fərdi əxlaqın toqquşması meydana çıxır. Bir-birinə zidd iki əxlaqi mənafeyin toqquşması xüsusilə ictimai böhran dövründə baş verir. Əksinə də ola bilər. Əxlaqi cəhətdən naqis fərd əxlaqi baxımdan qüsurlu olan qrupa nəzarət etməyə qadirdir və ya axırıncının əxlaqi şöhrətini kölgədə qoya bilər. Fərdin əxlaqi mədəniyyəti siyasətlə həmişə rəqabətdə olmur. Qrupda və qruplararası münasibətlər artıq siyasətdir, deməli, həm də əxlaqidir. Buna görə siyasi və əxlaqi paradoks* meydana çıxır: qüsurlu liderin və rejimin kütləvi şəkildə müdafiə olunması, kütlələrin heç də qüsurlu olmayan, bəzən isə sadəcə olaraq cinayətkar təşkilatların işində iştirak etməsi və s. bu qəbildəndir.

Müxtəlif siyasi funksiyaları səciyyələndirən əxlaqi mədəniyyət də mövcuddur. Siyasətin və hakimiyyətin əx-

* Paradoks dedikdə hamı tərəfindən qəbul edilmiş doğru fikirlərlə, elmi müddəalarla düz gəlməyən fikir başa düşülür.



laqi məsuliyyəti bu qəbildəndir. **Belə ki**, əxlaqi hakimiyyət qeyri-əxlaqi siyasət yeritməyə məcbur ola bilər və əksinə, əxlaqi cəhətdən qüsurlu hakimiyyət tarixi zərurət üzündən əxlaqi siyasət həyata keçirməyə qadirdir. Lakin bir qayda olaraq belə siyasətin təntənəsi mümkün olmur.

Şəxsiyyətin əxlaqi mədəniyyəti və siyasətin qarşılıqlı münasibətini, bütövlükdə əxlaqla siyasətin əlaqəsini başa düşmək baxımdan əxlaqi ideal barədə konkret təsəvvürə malik olmaq məqsədəuyğundur. Şəxsiyyətin mənəvi inkişafını əxlaqi idealsız təsəvvür etmək çətindir. **Əxlaqi ideal** şəxsiyyətin həyati təsəvvürlərinin, görüşlərinin, həyatı qiymətləndirmə qabiliyyətinin birliyidir. İdeal həmişə insanın həyat planları və məqsədləri ilə daxili bağlılıq kəsb edir.

Əxlaqi ideal xüsusi, təkrarolunmaz keyfiyyətdir, həmişə fəal xarakter daşıyır. O, nəinki şərə, çirkin siyasətə qarşı barışmazlığı, eləcə də xeyirxah əməllərin, əxlaqi, humanist siyasətin həyata keçirilməsini, ədalətsizliklə fəal mübarizə aparılmasını, yüksək vətəndaşlıq davranışını tələb edir. Bu mənada əxlaqi ideal insanın mənəvi-siyasi inkişafını «layihələşdirən» amil kimi təsir bağışlayır. İdealın ictimai əhəmiyyəti bundadır ki, o, şəxsiyyətin mənəvi simasının, siyasi təfəkkürünün formalaşmasında və əxlaqca yeniləşməsində fəal sövqedici rol oynayır.

Şəxsiyyətin əxlaqi idealının həyata keçirilməsi obyektiv və subyektiv şəraitlə bağlıdır. Xarici mühit idealın reallaşması üçün obyektiv zəmin yaradır. İdealın həyata keçirilməsi üçün hər bir fərdin psixoloji hazırlığı və fəal səyi də çox mühüm əhəmiyyətə malikdir. Deməli, ideralların həyata keçirilməsində mənəvi tərbiyənin, o cümlədən özünütərbiyənin rolu aydın nəzərə çarpır. Əxlaqi keyfiyyətlərlə siyasi qabiliyyəti özündə birləşdirən şəxsiyyətin formalaşmasının subyektiv cəhətini məhz, mənəvi tərbiyə təşkil edir.

Mənəvi tərbiyə özünütərbiyəni inkar etmir. Şəxsiyyətin əxlaqi-siyasi simasının təşəkkülü və inkişafı nəinki tərbiyənin sosial şəraitindən, həm də onun özündən asılıdır. Tərbiyə əxlaqi ideallara və ictimai məqsədlərə uyğun olaraq insana özünütəkmilləşdirmə səyi aşılamalıdır. Bu bir həqiqətdir ki, adamların böyük əksəriyyəti öz əxlaqi və siyasi davranışına qabaqcadan və hərtərəfli düşünülmüş sağlam məqsədlərə uyğun şəkildə nəzarət edə bilər. Lakin hərtərəfli düşünülmüş davranış heç də həmişə insanın rəftarının və əməllərinin əxlaq normalarına uyğunluğuna təminat vermir. Fərdi təfəkkürün inkişaf istiqaməti şəxsiyyətin əxlaqi mövqeyinin çıxış nöqtəsindən asılıdır. Şübhəsiz, sağlam əxlaqi mövqeyin formalaşmasında təfəkkür mədəniyyəti, intellektual inkişaf səviyyəsi və yüksək sosial hisslər fəal rol oynayır. Başqalarına, dövlətə və bütövlükdə cəmiyyətə münasibətdə ali hisslərlə silahlanmaq böyük fəzilətdir. Aristotelin sözlərilə desək, «ən yaxşı adam o şəxs deyil ki, yalnız özünə hörmətlə yanaşır, eyni zamanda o adamdır ki, başqalarına münasibətdə də ləyaqətli mövqe tutur, bu isə çətin işdir.» Hər hansı siyasi sistemin həyat qabiliyyəti xeyli dərəcədə onunla müəyyən olunur ki, dövlət təsisatları və bütün siyasi sistem bütövlükdə cəmiyyətdə hakim olan əxlaqi ideala və dəyərlərə nə dərəcədə uyğun gəlir. Şübhəsiz, siyasi sistem və əxlaq, mənəviyyat sistemi bir-birini qarşılıqlı surətdə şərtləndirir, onlara nüfuz edən proseslərin məzmununa və xarakterinə mühüm təsir göstərir.

Əxlaq sferası özündə nəinki adamlar arasındakı əxlaqi münasibətləri, onların davranışını, eləcə də insanın hərəkətlərinin motivlərini izah edən əxlaqi şüuru əks etdirir. Bundan əlavə, cəmiyyətdə əxlaq və mənəviyyat haqqında xüsusi elm olan etika mövcuddur.

Hər bir tarixi mərhələdə cəmiyyətdə müəyyən əxlaqi dəyərlər sistemi mövcud olur. İnsanların hərəkətləri və davranışı həmin dəyərlər sistemi mövqeyindən qiymətləndirilir. Konkret əxlaqi normalar, ənənələr və sair ilə tənzimlənən (adamlar arasında) və müvafiq olaraq adamların və sosial qrupların davranış qaydalarını formalaşdıran əxlaqi amillər məcmuu fəlsəfi nəzəriyyələrdə öz təcəssümünü tapır. Bu nəzəriyyələrdə həmişə belə bir məsələyə toxunulur: xeyir və şər nə deməkdir, yaxşı və pis nədir, düzgün olmayan necə başa düşülməlidir. Buna görə əxlaqi normaları dini, hüquqi və siyasi normalardan fərqləndirmək mühüm əhəmiyyətə malikdir. Eyni zamanda qeyd etmək lazımdır ki, əxlaqi normalar bu və ya başqa cür ictimai həyatın bütün digər tərəflərinə nüfuz edir.

Etika elm olmaq etibarilə özündə ləyaqət, vicdan, borc şüuru, davranış qaydalarını və sair haqqında təlimi əks etdirir. İnsanların hərkətləri həmin keyfiyyətlərə uyğun gəlməlidir. Bu mənada etika insanların davranış qanunları və normaları haqqında elm olub «yüksək səadət», «xeyir», «haqq» kimi kateqoriyalara əsaslanır. Buna görə etika idealın ən başlıca ünsürünü özündə ehtiva etməklə son məqsədlər haqqında təlimdir. Həyat fəaliyyətinin hər bir sferasında bütün zamanlarda insanların hərəkətləri əxlaq kateqoriyasında qiymətləndirilmişdir. Təbii ki, biz siyasətə də tam hüquqla əxlaqi ölçü ilə yanaşa bilərik. Siyasət aləminə və onun təsisatlarına aid olan əxlaqi dəyərlər və normaların, cəmiyyət üzvlərinin bu sferada münasibətləri və davranışının məcmuu elmi biliklərin xüsusi sahəsinin - **siyasi etikanın** tədqiqat obyektini təşkil edir.

Siyasi etika ədalətli sosal quruluş, rəhbərlərin və vətəndaşların qarşılıqlı hüquq və vəzifələri, insanın və vətəndaşın köklü hüququ, azadlıqların sağlam nisbəti, bərabərlik və ədalət, eləcə də bu kimi digər problemlərə toxunur.

Siyasi etika haqqında danışarkən ümumiyyətlə, etikanın kateqoriyalarının və əxlaqi dəyərlərin (sərvətlərin) siyasət sferasına tətbiqi düzgündürmü. Bu məsələ siyasi fikir tarixində çoxdan mövcuddur və ona dair birmənalı cavaba təsadüf olunmur. İlk başlanğıcda siyasi hadisə və proseslər bütün ictimai hadisələr kompleksi ilə əlaqədar öyrənilmişdir. Siyasətin başlıca məqsədini polisin (dövlətin) vətəndaşının «yüksək səadətinin, xoşbəxtliyinin» təmin olunmasında görənlər bunun həm də əxlaqi tərbiyəvi əhəmiyyətini də nəzərdən qaçırmamışlar. **Aristotel** xüsusi tərzdə qeyd edirdi ki, «dövlətin xoşbəxtliyi onun ədalətli olmasıdır, başqa sözlə, ümuminin mənafeyinə xidmət etməsidir».*

Platon və Aristoteldən başlanan antik ənənə əxlaqla siyasəti vəhdətdə nəzərdən keçirir və bu vəhdəti bütövlükdə ədalətin əldə olunmasına istinamətlənən hadisə kimi qiymətləndirir. Xristianlıq ənənəsi «əxlaq» və «siyasət» anlayışlarını roma papasında və imperatorunda təcəssüm olunan keyfiyyət kimi səciyyələndirir. **Ali və müdrik islam dini** həmin anlayışları ilahi varlıqdan irəli gələn nemət kimi qiymətləndirir. Heç də təsadüfi deyil ki, **dünya şöhrətli alim olan Mirzə Kazım Bəyin** tələbəsi olan böyük söz karifeyi **L.N.Tolstoy** islam dinini bütün dinlər içərisində ən mütərəqqi din hesab edirdi.

Əxlaqla siyasətin qarşılıqlı əlaqəsi probleminin öyrənilməsinə dair səmərəli tədqiqatların ortaya çıxmasında İ.Kantın **ümumi əxlaqi qanunlar - qəti imperativlər**** təlimi xüsusi rol oynadı. Ümumi əxlaqi qanunlara görə insan mənşəyindən, sosial vəziyyətindən, hətta şəraitdən asılı olmayaraq mütləq ümumbəşəri qaydalara əməl etməlidir. Bu

* Аристотель. Политика. Соч., т.4. Səh. 508

** İmperativ məvhumu idealist fəlsəfədə qeyd-şərtsiz tələb mə'nasında başa düşülür.



qanundan belə bir mühüm nəticə hasil olur ki, hər bir adam **vasitəyə yox, məqsədə** necə yanaşır. Ümumi əxlaqi qanunların tələbləri sonralar siyasi-hüquqi sferada da yayıldı.

Digər alman filosofu **A.Şopenhauer** (1788-1860-cı illər) əxlaqın «qızıl qaydalarına» əsaslanaraq «özünə etmək istəmədiyini başqasına da rəva görmə, çünki bunu sənə başqası da edə bilər» qənaətinə gəlməklə əxlaq qaydalarının çərçivəsini əhəmiyyətli dərəcədə genişləndirdi və əslində yeni əxlaqi qayda təklif etdi: «Heç kimə pislik etmə, hamıya bacardığın qədər kömək et». Bu sadə kəlam insanın öz xüsusi hüquqları ilə başqa vətəndaşların hüquqlarının eyniliyini, bərabərliyini qəbul etməsini səciyyələndirir. Beləliklə, siyasətçilərin, alimlərin və ideoloqların şüurunda tədricən siyasətlə əxlaq arasındakı qırılmaz əlaqəyə inam hakim oldu.

Şübhəsiz, bu gün şəxsi, eqoist mənafeyin gözlənilməsilə yanaşı başqa adamların rifahı, səadəti haqqında qayğı göstərilməsi də ümumi tələbata çevrilir. Düzdür, siyasətdə bu mürəkkəb məsələdir, lakin bununla belə hər hansı tərəfin, yəni siyasətlə əxlaqın bir-birinə həddən artıq xələl yetirməsinə yol vermək olmaz. Başqa sözlə, siyasi peşəkarlıq əxlaqa zidd və əksinə əxlaqi başlanğıc hüququn ziyanına istiqamətlənməməlidir. Unutmaq olmaz ki, hər bir siyasi fəaliyyət hakimiyyətlə əxlaq arasında gərginlik yaratmaq meydanına çevrilərsə adamların xeyli hissəsinin taleyinə toxunmuş olar. Bu, «ya siyasət və ya əxlaq» alternativi formasında əxlaqla siyasətin nisbəti məsələsinin düzgün qoyulmasını səciyyələndirir.

Əxlaqla siyasətin nisbəti probleminin **ikinci tərəfi də** mövcuddur. Məsələ ondadır ki, dövlət aparatının səmərəli fəaliyyəti üçün dəqiq işlənib hazırlanmış və həyata keçirilməsi zəruri olan qaydalar, siyasətdə ciddi peşəkarlıq və idarəetmə mexanizmi tələb olunur. Bu, inzibati idarəetmə

aparatının siyasi icraedici hakimiyyəti sistemində məmurların xüsusi təbəqəsi olan bürokratiyanın yaranmasına gətirib çıxarır. Bürokratiyanın fəaliyyəti yüksək peşəkarlıq səriştəsini və onun həyata keçirdiyi funksiyaların ixtisaslaşmasını həyati tələbata çevirir. Əlbəttə, adi məmurun və siyasətçinin fəaliyyəti müxtəlif prinsip və normalara tabedir. Məmur ondan yüksəkdə dayanan müdiriyyətin, idarə başçısının əmr və göstərişlərini (hətta səhv olsa da) dəqiq və vicdanla yerinə yetirməlidir. Təbii ki, məsuliyyət hissi, əxlaqla möhkəmlənən şəxsi intizam olmadan hər hansı aparatın fəaliyyəti qeyri-mümkündür. Siyasətçi və ya dövlət xadimi isə özünün hər bir praktiki hərəkəti üçün şəxsi məsuliyyət daşıyır. Bu isə yüksək səriştəliliklə yanaşı daha yüksək səviyyədə inkişaf etmiş əxlaqi şüuru, davranışın daim əxlaqi cəhətdən motivləşməsini, öz hərəkətlərinin humanist, ədalətli xarakterinə əxlaqi inamı tələb edir.

Beləliklə, siyasətin əxlaqi aspektinin inkişafı siyasətçiyə öz fəaliyyətində düzgün əxlaqi istiqamət seçməsinə, kobud səhvlərdən uzaqlaşmağa yardım göstərir. Nəhayət, əxlaqla siyasətin, daha dəqiq desək, əxlaqla hüququn nisbətində **üçüncü aspekt** təzahür edir. Tarixi inkişaf prosesi inandırır ki, (çoxsaylı misallarla) xeyir və ədalətin qərarlaşması zorakılıqla deyil, məhz, dinc və qanuni vasitələrlə həyata keçirilməlidir. İnsanların həyatında ən yüksək əxlaqi başlanğıc siyasi mahiyyət kəsb etdikdə belə, qurbanlarla əlaqədardırsa həmin siyasilik əxlaqiliyin təcəssümü kimi etiraf oluna bilməz. Hər cür, o cümlədən ən yüksək və nəcib məqsədlər adamların əzab-əziyyəti və bədbəxtliyi əsasında həyata keçməməlidir. Bu, mahiyyət etibarilə **siyasi məqsədlərə də aiddir.** Məsələn, XX əsrin 30-50-ci illəri keçmiş SSRİdə təbii ki, həm də Sovet Azərbaycanında industrial sənayenin əsaslarının yaradılması, elmi-texniki tərəqqiyə



geniş yol açılması, elmin və mədəniyyətin inkişafı üçün zəmin hazırlanması və sair ilə tarixə daxil olmuşdur. Bununla yanaşı həmin dövr minlərlə günahsız və ləyaqətli adamlara qarşı kütləvi repressiyaların tətbiq olunması ilə səciyyələnir. Bu, **siyasətdə əxlaqsızlığın təzahürü deyilmi?** Buna bənzər çoxsaylı misallar **tarixin yaddaşından** silinməyib. Rus alimi **N.A.Berdyayevin** sözləri ilə desək, həqiqət-düzgünlük həqiqət-ədalətlə birləşməlidir. **Ən yüksək əxlaqi dəyər məhz, xalqa, Vətənə məhəbbətdir.** Buna görə siyasətçilər, dövlət xadimləri öz fəaliyyətində daim həqiqət-düzgünlüklə həqiqət-ədaləti üzvi surətdə əlaqələndirməlidir. Böyük alman alimi İ.Kantın ümumi əxlaq qanunları da elə bunu tələb edir. Əlbəttə, unutmaq olmaz ki, hər bir siyasətçi ədalətlilik və səmərəlilik, azadlıq və bərabərlik arasında əbədi və mahiyyət etibarilə həll olunmaz ziddiyyətlərlə qarşılaşır.

Hər bir ictimai-siyasi sistem özünün yaşaması naminə sosial ədalətin elementar normalarını hüquqi yolla təmin etməlidir. Bundan əlavə, ədalət hər hansı rejimin və ya sistemin qanuniliyini əsaslandırmağın təməl daşlarından biridir. Heç də təsadüfi deyil ki, ən tiran rejimlər də sosial ədalətə meylli olduğunu elan edir.

Əxlaqi-etik kateqoriya olmaq etibarilə **«ədalət»** müxtəlif şəraitdə və ayrı-ayrı dövrlərdə rəngarəng konkret-tarixi məzmun daşıyır. Məsələn, müharibələr və dağıdıcı təbii fəlakətlər dövründə cəmiyyətin bütün qüvvələri son dərəcə gərgin şəraitdə adamların sadəcə olaraq fiziki cəhətdən salamat qalması və maddi həyat nemətlərinin bərabər qaydada bölüşdürülməsi naminə ciddi səy göstərirlər. Bu hal təbii ki, ədalətli hesab olunur. Lakin ölkə təbiət quvvələrinin kədərləndirici şıltaqlığına və eləcə də sərt müharibələrə məruz qalmadığı dinc dövrdə maddi nemətlərin

bərabər bölüşdürülməməsi ədalətli sayıla bilməz və belə bölgü dəyişdirilməlidir.

Həqiqi ədalət bütün adamlara bərabər, eyni münasibət bəslənilməsini tələb edir, lakin belə münasibətin zorakılıqla həyata keçirilməsini arzuolunmaz sayır. Məcburi yolla bərabərləşdirmə adamlara qeyri-ədalətli münasibətdir. Bu problemlə bilavasitə qarşılaşan amerikanın sosial filosofu **C.Rouls** ədalət nəzəriyyəsini işləyib hazırlamışdır. O, belə hesab edir ki, həqiqət elmin, ədalət isə ictimai təsisatların başlıca məziyyətdir. Bu təsisatlardan biri, eləcə də hər hansı qanun özünü ədalətsiz nümayiş etdirdikdə daha ədalətlisi ilə əvəz olunmalıdır. Ədalətsizlik o zaman dözümlü olur ki, ondan daha böyük ədalətsizliklə real üzləşmək təhlükəsi meydana çıxsın. Siyasətçilər öz fəaliyyətində bu cəhəti nəzərə almalıdırlar, özü də dərin əxlaqi mədəniyyətin fəal subyekti kimi çıxış etmək şərtilə.



## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Abdullayev Ə.Z. Dil, siyasət, sosial tərəqqi. B., 1985.
2. Azərbaycan Respublikası Konstitusiyası. B.: Qanun, 2004.
3. Azərbaycan Respublikası Milli Məclisinə Seçkilər haqqında Azərbaycan Respublikasının Qanunu. B.: Azərnəşr, 2000.
4. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. B.: Azərnəşr, 1981.
5. Cəmiyyət keçid dövründə. Sosioloji və sosial-psixoloji aspektlər. B.: Elm, 2004.
6. Demokratiya: Dövlət və cəmiyyət. B.: Səda, 1999.
7. Demokratiya: Gediləsi üçün bir yol. B.: 2002.
8. Əhmədli C.T. Cəmiyyət-siyasət-ideologiya. // Siyasi biliklərin əsasları. B.: «İnam» plüralizm mərkəzi, 1997.
9. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. B.: Azərnəşr, 1997.
10. Əfəndiyev M. Sənin mənəvi dünyan. B.: Gənclik, 1990.
11. Əfəndiyev M. Siyasi elmin problemləri. B.: Siyasət, 1998.
12. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. B.: Bakı Universiteti nəşriyyatı, 2001.
13. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. B.: Bakı Universiteti nəşriyyatı, 2006.
14. Əfəndiyev M. Siyasi elmin əsasları. B.: Siyasət, 2004.
15. Fəlsəfə. Prof. Fərrux Ramazanovun rəhbərliyi və redaktəsi altında. B.: Texniki universitetin nəşriyyatı, 1997.
16. Hacıyev Z. Fəlsəfə. B.: Adiloğlu, 2001.

17. Hegel. Ruh fəlsəfəsi. Rus dilindən tərcümə edəni A.Tağıyev. B.: Bakı Universiteti nəşriyyatı, 2003.
18. İctimai şüurun dialektikası. Redaktor prof. H.R.İmanov. B.: Azərbaycan Dövlət Universiteti, 1984.
19. İmanov H. Fəlsəfə. B.: Türkan evi, 2005.
20. İmanov H., Əhədov A., Əhmədli N. Etnik dinlər və dünya dinləri. B.: Elm, 2003.
21. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: Konservatizm. Liberalizm. Sosial-demokratiya. B.: Adiloğlu, 2005.
22. Qurbanov F. Elmə sinergetik baxış. B.: Elm, 2005.
23. Məmmədov Ə. Elmi idrak və onun inkişaf dialektikası. B.: Səda, 1998.
24. Rüstəmov Y. Siyasi hüquqi təlimlər tarixi. B.: Azərbaycan Universiteti, 2000.
25. Şükürov A. Qlobalistika və ekoloji fəlsəfə. B.: Elm, 2001.
26. Tağıyev Ə. İnsan və siyasət. B.: MBM, 2005.
27. Vahidov F., Ağayev T. Sosiologiya. B., 2005.
28. Yadigar Türkel. Demokratik cəmiyyətin milli-mənəvi dəyərləri. B.: Nurlan, 2002.

**Türk dilində**

29. Bochenski L.M. Felsefece düşünmenin yolları. Ankara, Kabalçı yayımevi, 1994.
30. İzzetbeqoviç A. Doğu və Batı arasında islam. İstanbul, Nehil Yayımları, 1994.
31. Nietzsche F. Ahlaki soykötüyü üstüne. Ankara, Türkiye Felsefe kurumu, 1998.
32. Hancerhoğlu O. Felsefe sözlüyü, İstanbul, Otuken, 1989.



33. Hüsserel F. Avropa insanlığının krizi ve felsefe. İstanbul, AFA yayınları, 1995.
34. Gökalp Z. Türkçülüyün esasları. Ankara, AFA yayınları, 1989.

**Rus dilində**

35. Абульгасан А. Демократия. Наличная и должная. Б.: Адилоглу, 2005.
36. Ахизер А.С. Философские основы соцкультурной теории // Вопросы философии. 2000. №9,.
37. Агабаба Рзаев. Политические и правовые исследования. Б.: Элм, 1997.
38. Анисимов С.Ф. Духовные ценности: производство и потребление. М.: Мысль, 1988.
39. Ануфриев Е.А. Социальный роль и активность личности. М.: Политиздат, 1982.
40. Аристотель. Сочинения. т.3. М.: Мысль, 1981.
41. Арнолдов А.И. Социалистическая культура: теория и жизнь. М.: Политиздат, 1984.
42. Афанасьев В.Г. Системность и общество. М.: Политиздат, 1980.
43. Ахмедли Дж. Т. Рагимов А.А. Личность и труд (опыт конкретно социологических исследований). Баку, Азербайджанское Государственное издательство, 1975.
44. Баллер Э.А. Коммунизм. Культура. Человек. М.: Политиздат, 1984.
45. Барулин В.С. Диалектика сфер общественной жизни. М.: Изд-во Москов. Ин-та, 1982.
46. Бердяев Н.А. Мое самопознание. Свердловск, 1990.
47. Бобахо В.А., Левикова С.И. Культурология. М.: Ас-

пект пресс. 2000.
48. Боголюбова Е.В. Культура и общество. М.: Наука, 1988.
49. Боришполец К.П. Методы политических исследований. М.: Аспект пресс, 2005.
50. Буева Л.П. Человек: деятельность и общение. М.: Мысль, 1978.
51. Буянов В.С. Научное мировоззрение. Социально-философский аспект. М.: Наука, 1987.
52. Бучило Н.Ф., Чумаков А.Н. Философия. М.: Персэ, 2001.
53. Василенко И.А. Диалог цивилизации: Социокультурные проблемы политического партнерства. М.: Логос, 1999.
54. Василенко И.А. Политическая глобалистика. М.: Логос, 2000.
55. Вахренева П.Е. Духовный проект Н.Бердяева. // Вестник Московского Университета. Серия 7, философия, 2005, №4.
56. Вечесов Н.Н., Выготский, Ильенков, Матаруашвили. Опыты теоретической рефлексии и то в психологии. // Вопросы философии, 2000, №12.
57. Володин Э.Ф. Искусство и мировоззрение. М.: Мысль, 1992.
58. Гегель Энциклопедия философских наук. т. 3, М.: Наука, 1977.
59. Гидденс Е. Социология. М.: Наука, 1999.
60. Гырдеев Д. Актуальные проблемы общественного сознания. М.: Прогресс, 1992.
61. Годфруа Ж. Что такое психология. т. 2. М.: Норма, 1996.
62. Губин В.Д. Основы философии. Учебник. М.: Республика, 2005.
63. Гуссерель Э. Кризис европейского человека. М.: Мысль, 1992.
64. Гуревич П.С. Основы философии. М.: Республика, 2004.
65. Гуревич П.С. Бессознательное как фактор культурной динамики. //Вопросы философии, 2000, №10.
66. Данило Ж., Маркович. Общая социология. М.: Гуманитарный издательский центр Владос, 1998.
67. Дегтярев А.А. Принятие политических решений. М.: Норма, 2004.
68. Дугин А.Т. Философия политики. М.: Аспект пресс, 2004.
69. Духовное производство. Социально-философский аспект проблемы духовной деятельности. М.: Наука, 1981.
70. Дромянко Л.Г. Социокультурная детерминация фундаментальных и прикладных наук. // Вопросы философии. 2000, №11.
71. Духовная жизнь развитого социалистического общества. Под ред. Б.Д.Яковлева. Л.: Изд. Ленинградского ин-та, 1985.
72. Духовная сфера социалистического общества. Ред. колл. Ж.Т.Тощенко, А.К.Уледов. М.: Мысль, 1987.
73. Здравосмыслов А.Г. Потребность, интересы, ценности. М.: Политиздат, 1986.
74. Ерасов Б.С. Социальная культурология. М.: Аспект пресс, 2000.

75. Иманов Г.Р. Социальная структура развитого социализма. Б.: Азербайджанское государственное издательство, 1985.
76. Каган М.С. Человеческая деятельность. М.: Аспект пресс, 1984.
77. Каган М.С. Философия культуры. Спб., Питер, 1996.
78. Кант И. Сочинения. Вьм. М.: Наука, 1966.
79. Кассирер Э. Опыт о человеке. Введение в философию человеческой культуры. М.: Норма, 1998.
80. Келле В.Ж. Ковальзон М.И. Теория и история. М.: Политиздат, 1981.
81. Коган Л.Н., Ханова О.В. Культура в условиях НТР. Саратов, Изд-во Саратовского ин-та, 1987.
82. Коган Л.Н. Социология культуры. Екатеринбург. 1992.
83. Кон И.С. Социология личности. М.: Мысль, 1977.
84. Копнин П.В. Диалектика логика наука. М.: Наука, 1973.
85. Копнин П.В. Гносеологические и логические основы науки. М.: Мысль, 1974.
86. Костяк К.Н. Политическая мораль и политическая этика в России. // Вопросы философии, 2000, №2.
87. Кравченко А.И. Общая социология. Учебник, М.: Юнити, 2001.
88. Кравченко А.И. Основы социологии. Учебное пособие. М.: Логос, 1998.
89. Культурная деятельность. Опыт социологического исследования. М.: Мысль, 1991.
90. Культурология. Под ред. Г.В. Драча. Ростов-на Дону. 2005.



91. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М.: Политиздат, 1975.
92. Лесков Л.В. Синергетика культуры. // Вестник Московского университета, серия 7, философия, 2004, №4.
93. Лешкевич Т.Г. Философия. М.: Инфра-М., 2000.
94. Макеев А.В. Политология. М.: Наука, 2000.
95. Манхейм К. Диагноз нашего времени. М.: Юнити, 1994.
96. Маслоу А. Самоактуализация личности. Тексты. М.: Политиздат, 1982.
97. Маслоу А. Самоактуализация. СПБ.: Питер. 2003.
98. Мир философия. Часть II. Человек. Общество. Культура. М.: Политиздат, 1991.
99. Новгородцев П.И. Об общественном идеале. М.: Мысль, 1991.
100. Павел Таранов. Звезды мировой философии. М.: «Фирма» Изд-во АСТ, 1999.
101. Ортега-и-Гассет Х. Избранные труды. М.: Вес мир, 1997.
102. Политическая социология. М.: Юнити, 2002.
103. Политология. Под ред. М.Н.Марченко. М.: Зеркало, 1999.
104. Поппер К.Р. Открытое общество и его враги. В 2 т. Т.2. М.: Феникс, Международный фонд «Культурная инициатива», 1992.
105. Политическая энциклопедия. Том 2., М.: Аспект-пресс, 2000.
106. Политология: Энциклопедический словарь. М.: Изд-во Москов. Коммерческого университета, 1993.

107. Проблемы человека в традиционных китайских учениях. М.: Мысль, 1983.
108. Пугачев В.П., Соловьев А.И. Введение в политологию. М.: Аспект пресс, 1995.
109. Развитский И.И. Личность. Индивидуальность. Общество. М.: Инити, 1994.
110. Радугин А.А. Радугин К.А. Социология. М.: Норма, 1999.
111. Ритер Джойс. 101 ключевая идея. М.: Гранд, 2002.
112. Розин В.М. Культурология. М.: Логос, 2001.
113. Сартр Ж.П. Пьесы. Мертвые без погребения. М.: Прогресс, 1967.
114. Смирнов Г.Л. Советский человек М.: Политиздат, 1980.
115. Соловьев А.М. Политология. Политическая теория. М.: Инити, 2001.
116. Сорокин П. Человек, цивилизация, общество. М.: Норма, 1992.
117. Сорокин П.А. Социологические теории современности. М.: Норма, 1992.
118. Социальное познание и социальное управление. Киев, 1999.
119. Социологический энциклопедический словарь М.: Инфра. М – Норма, 1998.
120. Социология. Под ред. В.И. Лавриненко. М.: Культура и спорт, 2005.
121. Спиркин А.Г. Основы философии. М.: Политиздат, 1988.
122. Спиркин А.Г. Философия. М.: Гардарики, 2001.
123. Столови Л.Н. Жизнь. Творчество. Человек. М.:



Наука, 1985.
124. Тейяр де Шарден П. Феномен человека. М.: Мысль, 1965.
125. Тойнби А. Постижение истории. М.: Прогресс, 2002.
126. Толстой Л.Н. Сочинения. М.: Политиздат, 1986.
127. Турен А. Индивидуализм, личность. М.: Прогресс, 1989.
128. Уледов А.К. Духовная жизнь общества. М.: Мысль, 1989.
129. Уледов А.К. Духовное обнавление общества. М.: Прогресс, 1990.
130. Фавр Л.Ц. Эволюция слова и группы идей. М.: Наука, 1991.
131. Филатов В.П. Научное познание и мир человека. М.: Мысль, 1989.
132. Федосеев П.Н. Философия и научное познание. М.: Наука, 1983.
133. Философия. Под ред. В.Н.Лавриненко. М.: Юристь, 2002.
134. Философия. Отв. Ред. В.П. Кахановский. Ростов-на Дону: Феникс, 2000.
135. Философия. М.: Аспект пресс, 1998.
136. Философия и современность. М.: Политиздат, 1986.
137. Философский словарь. Под ред. А.П.Ярещенко. Ростов-на Дону: Феникс, 2004.
138. Философский словарь. М.: Политиздат, 1986.
139. Философский энциклопедический словарь. М.: Советская энциклопедия, 1983.
140. Философский энциклопедия. М.: Мысль, 1970.

141. Франкл В. Человек в поисках смысла. М.: Советская энциклопедия, 1990.
142. Фрейд З. Будущее одной иллюзии. Сумерки Богов. М.: Наука, 1989.
143. Фромм Е. Душа человека. М.: Инити, 1992.
144. Фромм Е. Бегство от свободы; человек для себя. М.: Инити, 1998.
145. Хантингтон С. Столкновение цивилизации. // Полис. 1994, №4.
146. Хелл Л., Зиглер Д. Теория личности. Питер, Санкт – Петербург. 2000.
147. Чагин А.К. Структура и закономерности общественного сознания. М.: Политиздат, 1982.
148. Чечепанов В.Д. Социальная справедливость – Категория политическая // Вестник Московского университета, Серия 12, политические науки, 2005, №3.
149. Щеглов И.А. Политическая социализация личности и современный исторический процесс. // «Соцгуманитарные знания». 2001, №4.
150. Ядов В.А. Социальные и социально-психологические механизмы формирования социальноидентичности личности. // Мир России, 1995, №3/4.
151. Шпенглер О. Закат Европы. Очерки морфологии мировой истории. М.: Мысль, 1998.
152. Эндрейн Ч.Ф. Сравнительный анализ политических систем. М.: Аспект пресс, 2000.

Çapa imzalanıb 19.03.2008.
Sayı 500. Hesab n. v. 24.
Formatı 60x84 $^1/_{16}$. Əla növ kağız.
Qiymәti müqavilә ilә.

***AzTU – nun mətbəəsi. H.Cavid pr. 25.***